AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



*NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİNİN YARANMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ*

**NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNNOVASİYALI İQTİSADİ İNKİŞAF VƏ MÜASİR MALİYYƏ MEXANİZMLƏRİ MÖVZUSUNDA**

# MÖVZUSUNDA RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ MATERİALLARI

NAXÇIVAN - 2021

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

# “NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNNOVASİYALI İQTİSADİ İNKİŞAF VƏ MÜASİR MALİYYƏ MEXANİZMLƏRİ”

MÖVZUSUNDA RESPUBLİKA
ELMİ-PRAKTİK KONFRANSININ
MATERİALLARI

**NAXÇIVAN - 2021**

*Naxçıvan Dövlət Universitetinin*
*Elmi Şurasının 30 dekabr 2020-ci il tarixli*
*5 saylı qərarı ilə nəşr edilib.*

**KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ**

**Elbrus İsayev,** *Naxçıvan Dövlət Universitetinin rektoru – sədr*

**Üzvlər:**

**Teymur Abbasov -** *iqtisad elmləri doktoru, professor*

**Zəhmət Şahverdiyev-** *AMEA-nın muxbir üzvü, professor*

**Ağarza Rüstəmov-** *iqtisad elmləri doktoru, professor*

**Əşrəf Ələkbərov-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Ceyhun Mahmudov-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Nuriyyə İbrahimova-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Mehriban İmanova-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Bulqeyis Novruzova-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**BURAXILIŞA MƏSUL:** **Teymur Abbasov**
*iqtisad elmləri doktoru, professor*

*Naxçıvan Dövlət Universiteti. "Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadi inkişaf və müasir maliyyə mexanizmləri" mövzusunda respublika elmi-praktiki konfransının materialları, Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2021, səh. 228*

© NDU, "Qeyrət" nəşriyyatı, 2021

**PLENAR İCLAS**

**ELBRUS İSAYEV**
*Naxçıvan Dövlət Universitetinin rektoru*

## MÜASİR DÖVRDƏ ELMİ İNNOVASİYA FƏALİYYƏTİNİN TƏŞKİLİ

Bu gün inkişaf etmiş və etməkdə olan hər bir ölkənin davamlı iqtisadi yüksəlişinin təmin edilməsi ilk növbədə həmin ölkədə elmin müasir tələblərə uyğun inkişaf etdirilməsini tələb edir. Çünki iqtisadi sferada innovasiyalara əsaslanan inkişaf istiqamətlərinin müəyyən edilməsi, insan kapitalının formalaşması, intellektual potensialdan səmərəli istifadə edilməsi, elmi-tədqiqat işlərinin nəticələri, rəqabətədavamlı məhsul istehsalı, həyat səviyyəsinin yüksəldilməsi və s. bu kimi bir sıra aktual problemlərin həlli məhz elmin və elmi biliklərin inkişaf səviyyəsindən asılıdır.

Azərbaycan iqtisadiyyatı innovasiya iqtisadiyyatına keçid mərhələsindədir. İnnovasiya iqtisadiyyatının mahiyyəti innovasiya fəaliyyətinin aktivləşdirilməsi və onun infrastrukturunun inkişaf etdirilməsi olaraq ümumiləşdirilə bilər. Bu isə ilk növbədə Azərbaycanda qeyri-neft sektorunun, biliyə əsaslanan sahələrin və elmtutumlu texnologiyaların inkişaf etdirilməsidir. Bunun üçün isə innovasiya fəaliyyətinin idarə edilməsinin mütərəqqi üsul və mexanizmlər sisteminin yaradılması vacibdir.

Azərbaycan iqtisadiyyatında islahat aparılması şəraitində əsas məsələlərdən biri müəssisə və təşkilatların, firmaların, şirkətlərin innovasiya fəallığının artırılmasıdır. Yaradılan yüksək texnologiyalar parkları və innovasiya infrastrukturunun digər elementləri (müəssisələr, universitetlər və s.) arasında sıx əməkdaşlıq, informasiya mübadiləsi inkişaf etdirilməlidir. İnnovasiya prosesinin üzvləri arasında bazarın tələblərinə vaxtında reaksiya vermək, rəqabətlilik və əlaqələrin genişlənməsi bütün təşkilatların səmərəliliyini artıracaq və məqsədyönlü siyasi tədbirlər innovasiya prosesinin inkişafına təkan verəcəkdir.

İnnovasiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi respublikamızın elmi-texniki potensialının yüksəldilməsini, elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələrinin iqtisadiyyatın real sektoruna yönəldilməsini və eləcə də iqtisadiyyatın artım tempinin dayanıqlılıq qazanması mexanizminin yaradılmasını nəzərdə tutur.

Azərbaycan Respublikasının güclü elmi-texniki potensialı, elm və texnikanın müxtəlif sahələrində mühüm nailiyyətləri, fundamental tədqiqatlar üzrə kifayət qədər elmi bazası vardır. İlkin mərhələdə innovasiya fəaliyyətinə dövlət tərəfindən dəstək göstərilməlidir, sonra isə onun intensivləşdirilməsinə və səmərəliliyinin artırılmasına yönəldilən stimullaşdırıcı tədbirlər həyata keçirilməlidir. Onu da nəzərə almaq lazımdır ki, bir sıra xarici ölkələrin əldə etdikləri texnoloji nailiyyətlər yalnız ayrı-ayrı qurumların səyləri əsasında deyil, innovasiya fəaliyyətinə məqsədyönlü dövlət müdaxiləsi, o cümlədən onun inkişafına xidmət edən hüquqi bazanın yaradılması yolu ilə mümkün olmuşdur. İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsi inkişaf etmiş ölkələrdə iqtisadiyyatın inkişaf etdirilməsinin mühüm instrumenti, milli rəqabət qabiliyyətinin təmin olunmasının uzunmüddətli faktoru və əhalinin rifah halının yüksəldilməsinin etibarlı amili kimi qiymətləndirilir.

Qarşıda qoyulan məqsədlərə nail olmaq üçün innovasiya fəaliyyəti iştirakçılarının işini əlaqələndirən elmi-texniki (texnoloji) parkların, innovasiya mərkəzlərinin, texnologiyaların transfer mərkəzlərinin, biznes-inkubatorların (innovasiya infrastruktur subyektlərinin) yaradılması səyləri dövlət tərəfindən maksimum dəstəklənir. Elmi-tədqiqat təşkilatçılarının qarşısında duran problemləri nəzərə alaraq innovasiya təşkilatlarının yaradılması təqdir edilir, onlara güzəştli şərtlərlə yer və avadanlıq ayrılır.

Azərbaycanın milli maraqları innovasiya siyasətinin formalaşdırılması və reallaşdırılması istiqamətində inamlı fəaliyyət göstərilməsini tələb edir. Ona görə də yeni iqtisadi və sosial-siyasi reallıqların tələblərinə cavab verən və istehsalın yenidən qurulmasına şərait yaradan, irimiqyaslı kapital axınına əsaslanan elmi-texniki strategiyanın yaradılması həmin siyasətin mühüm tərkib hissələrindən biri kimi qiymətləndirilməlidir. Bu məqsədə nail olmaq üçün ilk növbədə ölkənin elmi-

texnoloji kompleksinin və yüksək texnoloji sənayesinin prioritet inkişafını, buraxılan məhsulların, xüsusilə daxili bazarda rəqabət qabiliyyətinin yüksəldilməsini nəzərdə tutan regional innovasiya siyasəti işlənib hüquqi təsdiqlənməlidir. Bu zaman ali təhsilin dünya səviyyəsinə qaldırılmasına və kadr hazırlığı problemlərinin həllinə, o cümlədən də gənclərin elmə cəlb olunmasına xüsusi diqqət yetirilməlidir.

Texnoparkların dəstəklənməsi tədbirləri selektiv xüsusiyyətə malik olmalıdır. Bu tədbirlər dövlət və regional səviyyədə məqsədi, göstərilən nəticəni və ixtisaslaşdırılmış texnoparkların inkişafının əsas göstəricilərini müəyyən edən uyğun proqramlar qəbul edildikdə maksimal realizə edilir. Bütün bunları nəzərə alaraq milli innovasiya sisteminin formalaşdırılması prosesində ilk növbədə ölkəmizin elmi-texniki, texnoloji-intellektual potensialından və maliyyə imkanlarından çıxış etmək lazımdır. Aparılan tədqiqatlara əsasən texnoparkın səmərəli fəaliyyəti yalnız idarəetmənin müxtəlif səviyyələrində tədbirlər sistemini nəzərə alaraq onun yaradılması və fəaliyyətinin bütün mərhələlərində səmərəli dövlət dəstəyi mexanizminin yaradılması şəraitində mümkündür.

Yeni iqtisadi şəraitdə işləməyi bacarmaq qabiliyyətinə malik olan kadrların hazırlanması sisteminin təşkilinə muxtar respublikamızda böyük əhəmiyyət verilir. Bu, onunla izah olunur ki, müvafiq biliklərə və təcrübəyə malik olmadan güclü rəqabət şəraitində innovasiya biznesində müvəffəqiyyət qazanmaq çox müşkül məsələdir.

Azərbaycanda texnoloji inkişafa və iqtisadiyyatda mühüm struktur dəyişikliklərinə nail olmaq üçün böyük əhəmiyyət kəsb edən problemlərdən biri də elmin aparıcı sahələrində çalışmaq üçün milli elmi kadrların hazırlanmasının prioritet kimi seçilməsi və dövlət tərəfindən dəstəklənməsinin təmin olunmasıdır. Mövcud olan kadr potensialını, maddi-texniki bazanı, innovasiyalara əsaslanan inkişaf imkanlarını nəzərə alaraq ölkəmizin təhsil ocaqlarının elmi mərkəzlər, elmi-tədqiqat institutları ilə inteqrasiya olunmasına real şərait yaradılmalıdır. Ancaq bu yolla elmi-təhsil kompleksləri yaradıla və elmin prioritet istiqamətləri üzrə tədqiqatlar aparılıb istehsalatda tətbiq oluna bilər.

İnnovasiya sahələrində çalışmaq üçün lazım olan mütəxəssislərin hazırlanması məqsədi ilə kompleks tədris proqramları hazırlanmalıdır. Bu cür proqramlar perspektivli innovasiya layihələrinin həyata keçirilməsi üzrə menecerlərin, innovasiya müəssisələri üçün mühəndislərin, texniklərin, texnoloqların və digər mütəxəssislərin hazırlanmasına yönəldilməlidir.

Bizə elə gəlir ki, yuxarıda sadalanmış tədbirlər kompleksi ölkəmizdə innovasiya təşkilatlarının uğurlu fəaliyyəti üçün vacib olan münbit iqtisadi mühitin yaranmasına gətirib çıxaracaqdır. Söz yox ki, bu mənada konfransın xüsusi rolu danılmazdır. Belə ki, Naxçıvanda innovasiyalı iqtisadi inkişafın tədqiqi sahəsində aparılan davamlı və ardıcıl işin tərkib hissəsi kimi bu konfrans böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Fərman Qasımov, Təbriz Əliyev, Zakir Nəcəfov. Milli innovasiya sisteminin təşkili və idarə edilməsi. Bakı: Elm və təhsil, 2013
2. Arzu Hüseynova. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: 2013
3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı

**RAFAEL ƏLİYEV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə naziri*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MALİYYƏ NAZİRLİYİNİN KEÇDİYİ İNKİŞAF YOLU

10 oktyabr 2020-ci il tarixində Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin yaradılmasının 100-cü ili tamam olmuşdur. Ötən bu müddət ərzində nazirlik böyük inkişaf yolu keçmiş, saysız islahat, tədbirlər və təşkilati işlərə şahidlik etmişdir.

10 oktyabr 1920-ci ildə dövri zərurətdən irəli gələrək Naxçıvan İnqilab Komitəsi Qərar qəbul etməklə Naxçıvan şəhərində fəaliyyət göstərəcək və regional maliyyə məsələləri ilə məşğul olacaq Naxçıvan Maliyyə Şöbəsini yaradır. Dörd il ərzində şöbə statusunda fəaliyyət göstərən maliyyə qurumu artan iş həcminin yaratdığı yeni şəraitə uyğunlaşdırılaraq 18 yanvar 1924-cü il tarixində Naxçıvan Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin Qərarı ilə Naxçıvan Xalq Maliyyə Komissarlığına çevrilir. Qısa zaman ərzində Naxçıvan regionunun muxtariyyət statusu alması, ərazilərin mərkəzdən idarə edilməsi və vahid xəzinədarlığın yaradılması Maliyyə Komissarlığının növbəti bir təşkilati struktur dəyişikliyinə səbəb olur. Sözügedən dövrdə regionun ali qanunverici orqanı olan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin Rəyasət Heyəti tərəfindən 30 mart 1946-cı il tarixində imzalanan Fərmanla Naxçıvan Maliyyə Komissarlığı Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Maliyyə Nazirliyi adlandırılır. 46 illik fəaliyyətindən sonra müstəqil Azərbaycan Respublikasının elan edilməsi ilə nazirliyin adından Sovet Sosialist sözləri çıxarılmış olur. Növbəti mərhələdə dövlətdaxili struktur dəyişiklikləri zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 21 yanvar 1998-ci il tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyinin bazasında Naxçıvan Muxtar Respublikasının Maliyyə-İqtisadiyyat Nazirliyi yaradılır. Müstəqillik illərində öz tarixinin intibah dövrünü yaşayan muxtar respublikamızda qısa zaman ərzində misli görülməmiş sosial-iqtisadi inkişaf əldə olunur. Məhz hərtərəfli inkişaf edən regionumuzda büdcə tənzimlənməsi məsələlərini müstəqil həyata keçirəcək mərkəzi icra hakimiyyəti orqanının yaradılmasına ehtiyac duyulur və Maliyyə-İqtisadiyyat Nazirliyi 1 may 2001-ci il tarixində Ali Məclis Sədrinin Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə çevrilir.

Ötən yüz il ərzində muxtar respublikanın Maliyyə Nazirliyi böyük tarixi yol keçmişdir. İlkin yaradıldığı dövrlərdə mövcud olan kadr çatışmazlığı, infrastruktur çətinlikləri və zəif təminat çatışmazlıqları yaşayan qurum müstəqilliyimizin əldə edilməsi ilə yeni mərhələyə qədəm qoymuş, bütün çatışmazlıqların sürətlə həllinə nail olmuşdur. Ötən 28 il ərzində öz intibah dövrünü yaşayan muxtar respublika maliyyə sistemi bu gün ən müasir tələblər səviyyəsində fəaliyyət göstərən, istər infrastruktur, istərsə də institusional cəhətdən böyük inkişaf yolu keçmiş təkmil bir quruma çevrilmişdir.

Ötən dövr ərzində Nazirliyin maddi-texniki bazasının formalaşdırılması ilə yanaşı, struktur islahatları da geniş vüsət almış, Ali Məclisin Sədri Hörmətli Cənab Sədrimiz Vasif Talıbovun şəxsi diqqət və qayğısı nəticəsində silsilə tədbirlər həyata keçirilmişdir.

Nazirliyin müasir tələblər səviyyəsində təkmil fəaliyyətinin təmin edilməsi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə 2017-ci ildə Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi, 2018-ci ildə nazirliyin tabeliyində Maliyyə Tədris Mərkəzi və Dövlət Maliyyə Nazirliyinin Maliyyə Nəzarəti İdarəsi, Nazirlər Kabinetinin müxtəlif tarixli qərarları ilə nazirlik tərkibində idarələr, şöbələr və sektorlar yaradılmışdır. İllər ərzində görülən bütün bu işlərin, yaradılan şəraitin, təşkilati və struktur islahatlarının nəticəsində bu gün Maliyyə Nazirliyində iş müasir tələblər səviyyəsində qurulmuşdur.

Məhz yaradılmış bütün imkanlar çərçivəsində mövcud olan münbit şəraitdə Nazirliyin ixtisaslı kadrlarla təmin olunması məsələsi də kifayət qədər əhəmiyyətlidir. Bu məqamda muxtar respublikanın ilk ali təhsil ocağı olan Naxçıvan Dövlət Universitetinin rolu müstəsnadır. Belə ki, Universitet ötən dövr ərzində Nazirliyin peşəkar kadrlarla təmin edilməsində əhəmiyyətli rol

oynamış, muxtar respublikada maliyyə və mühasibat uçotu sahəsində kadrların yetişdirilməsini təmin etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin “Mühasibat uçotu və audit” ixtisasının Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinə hamiliyə verilməsi də öz növbəsində universitet və nazirlik arasında qarşılıqlı münasibətlərin daha da genişləndirilməsində ciddi rol oynamış, əlaqələrin gücləndirilməsində özül təşkil etmişdir.

Sərəncamın icrasından başlayaraq geridə qoyduğumuz müddət ərzində nazirliyin təşkilatçılığı ilə müxtlif ölçülü tədbirlər təşkil olunmuş, görüşlər keçirilmiş, təcrübi və elmi-praktiki materialların mübadiləsi həyata keçirilmişdir.

Əlaqələrin daha təkmil səviyyədə təşkil olunması üçün 2016-cı ildən başlayaraq nazirlik və universitet tərəfindən Tədbirlər Planı təsdiq olunmağa başlanmış, tədris ili ərzində təlimlərin, tələbələrlə görüşlərin və müxtəlif seminarların təşkil edilməsi müəyyən edilmişdir. Tədbirlər Planına 7 mövzudan ibarət əlavə də təyin olunur ki, bu da hər il yeni mövzuları əhatə etməklə maliyyə sistemində aktual olan məsələlərin tələbələrə çatdırılmasını hədəfləyir.

Bu gün Sərəncama müvafiq olaraq nazirlik tərəfindən digər istiqamətlər üzrə də universitetlə sıx əlaqələr qurulmuşdur. Tədris ili ərzində tələbələrin texnoloji, istehsalat və diplomqabağı təcrübələrinin nazirlikdə təşkil olunması da həyata keçirilir. Bundan əlavə tələbələrin praktiki biliklərə yiyələnmələri, maliyyə sahəsində tətbiq edilən ən son yeniliklərdən xəbərdar olunmaları və aktual mövzuların müzakirəsi daim diqqət mərkəzində saxlanılır. Eyni zamanda tələbələr Maliyyə Tədris Mərkəzi tərəfindən müxtəlif mövzularda keçirilən təlimlərə də cəlb olunur və həyata keçirilən layihələrdə iştirakları təmin edilir.

Nazirliyin əməkdaşlarının tədris ili ərzində universitetdə pedaqoji fəaliyyətlə məşğul olmaları da öz növbəsində tələbələrin hazırlıq səviyyəsinin daha da yüksəldilməsini, universitetlə işlərin daha sıx qurulmasını və təşkilati işlərin çevikliyinin artırılmasını təmin etməkdədir.

Bu gün nazirlik və universitet arasında mövcud olan əməkdaşlıq günün tələbləri səviyyəsindədir. Tələbələrin peşəkar inkişafı universitetin hədəflərinə uyğun olduğu kimi, nazirliyin gələcək dövr üçün kadr potensialına da bir növ investisiya xarakteri daşıyır.

Maliyyə Nazirliyi hazırda mövcud olan bütün imkanlardan istifadə etməklə gələcək dövrdə də Naxçıvan Dövlət Universiteti ilə əlaqələrini ən səmərəli şəkildə quracaqdır. Bu, kadr ixtisaslılığını daha da artırmaqla nazirlik qarşısında qoyulmuş vəzifələrin keyfiyyətlə aparılmasına zəmin yaradacaq və muxtar respublikada şəffaf, dayanıqlı və intizamlı maliyyə mühitinin formalaşdırılmasını təmin edəcəkdir.

## ƏDƏBİYYAT


1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 21 yanvar 1998-ci il tarixli Fərmanı
2. Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin 1 may 2001-ci il tarixli Fərmanı
3. http://www.maliyye.gov.az/. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi elektron ünvanı
4. http://maliyye.nakhchivan.az/xeberler/205-naxcivan-muxtar-respublikasi-maliyy-nazirliyinin-yaradilmasinin-100-illiyi-qeyd-olunub.html

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNNOVASİYALI İQTİSADİ İNKİŞAFIN TƏMİN OLUNMASI VƏ MÜHASİBAT UÇOTUNUN BEYNƏLXALQ STANDARTLARA KEÇMƏSİNİN ƏSAS ŞƏRTLƏRİ

*Elmi məqalədə innovasiyaların dövlətin iqtisadi sistemində mahiyyəti, təyinatı və təsərrüfat prosesində rolu geniş araşdırılmışdır. Qeyd edilmişdir ki, iqtisadi kateqoriya olaraq innovasiya iki əsas funksiyanı: təkrar istehsal və stimullaşdırma funksiyalarını yerinə yetirir. Məqalədən belə bir qənaətə gəlmək olar ki, innovasiya dedikdə əmtəə, xidmət, texnologiyalar, təşkilati forma, öz praktiki təcəssümünü və tətbiqini tapmış ideyaların reallaşdırılması üzrə yaradıcılıq prosesi başa düşülməlidir.*

*Eyni zamanda elmi məqalədə mühasibat uçotunun Beynəlxalq Standartlara keçməsinin əsas şərtləri verilmişdir. Belə ki, elmi məqalədə dünya təsərrüfat əlaqələrinin inkişafında transmilli şirkətlərin rolu, kapital bazarlarının inkişafına mühasibat uçotunun təsiri və mühasibat uçotunun regional sistemləri geniş şərh edilmişdir.*

***Açar sözlər:*** *innovasiya, stimullaşdırma funksiyası, sahibkarlıq mənfəəti, rəqabət mühiti, yeni texnologiyalar, transmilli şirkətlər, beynəlxalq kapital bazarları, beynəlxalq uçot sistemi, öhdəliklər*

İnnovasiya iqtisadi kateqoriya kimi yeniliyin istehsalı və reallaşdırılmasının daha ümumi xassələrini, əlamətlərini, əlaqə və münasibətlərini əks etdirir. İnnovasiyanın mahiyyəti özünü onun funksiyaları dövlətin iqtisadi sistemində onun təyinatını və təsərrüfat prosesində rolunu ifadə edir. İnnovasiyalar müəssisələrin rəqabət qabiliyyətinin yüksəldilməsində xüsusi rol oynayır. İnnovasiyaların təhlili göstərir ki, onlar sosial-iqtisadi xarakterli funksiyalar yerinə yetirirlər.

İqtisadi ədəbiyyatda qeyd olunduğu kimi təkrar istehsal funksiyası onu göstərir ki, innovasiya geniş təkrar istehsalın mühüm maliyyələşdirmə mənbəyi kimi çıxış edir. İnnovasiyaların bazarda satışından əldə edilən pul gəlirləri sahibkarlıq mənfəətini yaradır ki, bu da maliyyə resurslarının mənbəyi və eyni zamanda innovasiya prosesi səmərəliliyinin ölçüsü kimi çıxış edir.

Sahibkarlıq mənfəəti istehsal-ticarət, investisiya, innovasiya və maliyyə fəaliyyəti həcminin genişləndirilməsinə yönəldilə bilər. Beləliklə, innovasiyalardan mənfəətin alınması və maliyyə resurslarının mənbəyi kimi onun istifadəsi innovasiyanın təkrar istehsal funksiyasının məzmununu təşkil edir.

Stimullaşdırma funksiyası da sahibkarlar tərəfindən innovasiyanın reallaşdırılmasından mənfəət alınması yolu ilə gerçəkləşir. Bu, sahibkar üçün yeni innovasiyalara stimul yaradır, onu daim tələbi öyrənməyə, marketinq fəaliyyətinin təşkilinin təkmilləşdirilməsinə, maliyyənin idarə edilməsinin daha təkmil üsullarını tətbiq etməyə sövq edir. Enerjinin minimumlaşdırılması qanununa tabe olaraq insan öz fəaliyyətini əmək məsrəflərinin azaldılmasına, vaxta qənaətə və digər effektlərin alınmasına yönəldir. Odur ki, innovasiyaya sosial kateqoriya kimi baxmaq olar. Bu isə o deməkdir ki:

1.Sosial kateqoriya kimi innovasiyanın rolu ondan ibarətdir ki, praktiki olaraq bütün ixtiralar enerji xərclərinin, canlı əməyin azaldılmasına istiqamətləndirilmişdir, yeni məhsuldar qüvvələrin istehsala cəlb olunmasına imkan yaradır, əməyin və istehsalın səmərəliliyini yüksəldir.

2. İnnovasiya istehsal olunan məhsulların keyfiyyətini yüksəldir ki, bu da istehsal və istehlak səviyyəsinin artımına gətirib çıxarır, həyatın keyfiyyətinin yaxşılaşdırılmasına kömək edir.

3. İnnovasiyanın üçüncü funksiyası ondan ibarətdir ki, onlar məhsulun keyfiyyətini yüksəldərək, xərcləri aşağı salaraq və istehsalı təkmilləşdirərək tələb və təklif, istehsal və istehlak arasında nisbətlərin qorunub saxlanmasına kömək edir.

4. İnnovasiyanın işlənib hazırlanması gedişində və istifadəsi prosesində insanın inkişafı prosesinin intellektual qabiliyyətinin reallaşdırılması, gələcək yaradıcı artım üçün şərait yaradılması prosesi gedir.

Hesab edirik ki, innovasiyanın tərifinə “ehtiyatlar” və “axınlar” mövqeyindən yanaşılması daha düzgün olardı. Obyekt yanaşması mövqeyindən yanaşmada innovasiyalar ehtiyatlar kimi təmsil olunur. İnnovasiyanın axınlar kimi müəyyən edilməsi təkrar istehsal yanaşmasını tələb edir. Bu isə prosesin hər bir fazasının xüsusiyyətlərinin aşkara çıxarılmasından innovasiya ideyalarının iqtisadi reallaşdırılmasına qədər innovasiya prosesinin bütün mərhələlərini izləməyə imkan verir. Tədqiqat, işlənmə, təcrübi istehsal fazalarında elmi-texniki biliklər və aktiv tətbiqetmə fazalarında elmi biliklər hazır nəticəyə keçir.

Yuxarıda qeyd olunanları yekunlaşdırmaqla belə qənaətə gəlmək olar ki, innovasiya dedikdə, yəni əmtəə, xidmət, texnologiyalar, təşkilati forma, idarəetmə metodu şəklində öz praktiki təcəssümünü və tətbiqini tapmış ideyaların reallaşdırılması üzrə yaradıcılıq prosesi başa düşülməlidir. İnnovasiyanın mənşəyini izah edən iki ehtimal: “Texnoloji məkan” və “Tələbin çağırışı” ehtimalları mövcuddur. “Texnoloji məkan” ehtimalı Q. Menş tərəfindən irəli sürülmüşdür. Bu ehtimala görə innovasiyanın meydana çıxması mənbəyi kimi istehsalın daxili qanunauyğunluqları çıxış edir. K. Frimenin tərəfdarı olduğu “Tələbin çıxarışı” ehtimalına görə isə innovasiyanın yaranmasında müəyyənedici amil tələbdir. Real həyatda innovasiyanın meydana çıxmasında bunlardan hansı birisinin ilkin səbəb kimi çıxış etdiyini müəyyən etmək çətindir.

İnnovasiyaların meydana çıxması mənbələrini və amillərini sistemləşdirməyə çalışaq. İnnovasiyanın meydana çıxma mənbələri dedikdə innovasiyanın yaradılmasının qeyri-mümkün və ya çətin olduğu fundament başa düşülməlidir. Belə mənbələrin iki əsas qrupunu ayırmaq olar:

- artan tələbatla onların ödənilməsinin məhdud imkanları arasında ziddiyyət;
- elmi-intellektual da daxil olmaqla cəmiyyət tərəfindən toplanmış resurs potensialı.

İnnovasiyanın meydana çıxması amilləri isə o qüvvələrdir ki, onlar cəmiyyətin tələblə yeni yaradılmış biliyin hazır nəticəyə keçməyinə imkan verirlər. Həmin amilləri iqtisadi, texnoloji və sahibkarlıq amilləri kimi qruplaşdırmaq olar. İqtisadi amillər isə öz növbəsində aşağıdakılardan ibarətdir: rəqabət, mənfəət artımı, ixtiranın patent müdafiəsi.

İndi isə innovasiyanın yuxarıda qeyd etdiyimiz mənbə və amillərini araşdıraq. Qlobal və makrosəviyyədə innovasiyanın universal mənbəyi çox sürətlə artan tələbatla onların ödənilməsi imkanları arasındakı ziddiyyətdir. Mənfəətin artırılması əslində innovasiyalı üstün mənfəəti təmin edir. Bu isə effektiv innovasiyanı ilk həyata keçirənin aldığı əlavə gəlirdir. Rəqabət mühitində innovasiya yayıldıqca mənfəətin bu növu yoxa çıxır. İstehsalın effektivliyi və mənfəət maddi, əmək və maliyyə resurslarının istifadə səviyyəsindən asılıdır. Yeni texnologiyalar, avadanlıq, idarəetmə metodları xeyli dərəcədə xərclərin aşağı salınmasına gətirib çıxarmağa qabildir.

**İntellektual mülkiyyətin qorunması**. Patent sistemi intellektual mülkiyyətin qorunması problemini həll etməyə qadirdir. Patent ixtiraçıya onun fəaliyyət məhsuluna mülkiyyət hüququ verir. İnnovasiya fəaliyyəti intellektual mülkiyyət obyektlərini müdafiə etmədən mümkün deyildir. İri şirkətlər innovasiya faəliyyəti nəticələrinin müdafiəsi üzrə xüsusi şöbələr yaradırlar ki, bunlar da patent müdafiəsini həyata keçirirlər. Azərbaycanda heç də bütün təşkilatlar öz innovasiya fəaliyyəti nəticələrinin patentləşdirilməsi ilə məşğul olmurlar.

**Texnoloji amil.** Müasir şəraitdə texnologiya və texnikanın optimal təzələnmə dövrünün 4-5 ilə qədər, daha inkişaf etmiş ölkələrdə 2-3 ilə qədər azalmasıdır. Təzələnməyə tələbat, hər şeydən əvvəl, mənəvi köhnəlmə ilə diqtə olunur.

Dəyişikliyi sürətləndirən, məhsulun keyfiyyətini yüksəldən başlıca amil informasiya texnologiyalarıdır. Elektron texnologiya əməkdaşları ləng və əməktutumlu işlərdən, məsələn, kağız sənədlərindən azad etməyə imkan verir.

**Sahibkarlıq amili**. İxtiraçılıq innovasiyanın reallaşdırılması yolunda yalnız birinci addımdır. İxtiraçıda meydana çıxan nəzəri konsepsiya müasir istehsalın, bazar və rəqabətin tələblərinə cavab verməlidir. İxtiraçının sahibkar köməyinə ehtiyacı vardır. Bəzən ideyaların həyata keçirilməsi bir neçə təşkilatda işləyən şəxslər qrupunun qüvvəsini birləşdirməyi tələb edir.

Uçot və hesabat sahəsində beynəlxalq standartların işlənib-hazırlanmasına və tətbiq edilməsinə tələbat aşağıdakı əsas səbəblərlə şərtlənmişdir:

1) Dünya təsərrüfat əlaqələrinin inkişafında transmilli şirkətlərin rolu.

2) Kapital bazarlarının inkişafına mühasibat uçotunun təsiri.

3) Mühasibat uçotunun regional sistemləri.

Məhz transmilli şirkətlərin xarici iqtisadi fəaliyyətindən əksər inkişaf etmiş ölkələrin ixrajatının həjmləri və istiqaməti asılıdır. Etiraf etmək lazımdır ki, transmilli şirkətlər bütün dünyada iqtisadi inkişafın hərəkətverijisi kimi çıxış edir. Transmilli şirkətlər üçün müxtəlif ölkələrin şirkətlərinin birləşməsi və udulması prosesi səjiyyəvidir, məsələn, yapon investorları ABŞ milli şirkətlərinin səhmlərini fəal sğrətdə alırlar, müxtəlif Avropa ölkələrinin şirkətlərinin birləşməsi prosesi gedir, onlar, öz növbələrində, Asiya regionu şirkətləri ilə səhmlərini mübadilə edirlər və s. Transmilli şirkətlər xammal, işçi qüvvəsi, kapital bazarlarının daim dəyişən şərtlərinə yüksək uyğunlaşma dərəjəsi ilə fərqlənir. Onların ehtiyat qüvvələri olduqca çevikdir. Həmçinin transmilli şirkətlərinin fəaliyyətində firmadaxili ticarətin və transfert qiymət əmələ gəlməsinin rolunu da qeyd etmək lazımdır.

Transmilli şirkətlər öz kapitallarını investisiya etdikləri müəssisələrin maliyyə vəziyyəti barədə kifayət qədər tam və etibarlı informasiyaya malik olmadan öz iqtisadi və maliyyə siyasətlərini uğurla həyata keçirə bilməzlər. Dürüst maliyyə informasiyası olmadan transmilli şirkətlərin resurslarının yerləşdirilməsi üzrə müxtəlif ölkələrin bazarlarının təklif etdiyi alternativlərin təhlili mümkün deyil. Müxtəsər desək, transmilli şirkətlərin menejerləri bütün səviyyələrdə qərarlar qəbul edilməsi prosesini təmin edən inkişaf etmiş daxili informasiya və hesabat sisteminə ehtiyaj duyurlar. Ancaq bu cür sistem yaradılarkən, məsələn, yerli uçot sisteminin qavranılmamasını, eləjə də kifayət qədər olmayan peşə hazırlığını və müəyyən anlayışlara, metodlara və formalara uyğunlaşa bilməməsini təyin edən mədəni və sosioloji amilləri nəzərə almaq zəruridir.

Mühasibat uçotunun firmadaxili aspektlərindən savayı qəbul edən ölkələrin uçot və hesabat formaları və metodlarını bilmək böyük əhəmiyyət kəsb edir. Hər şeydən önjə transmilli şirkətlərin törəmə şirkətləri milli normalara və standartlara əməl etməyə borcludurlar. Daha sonra transmilli şirkətlərinin filialları və törəmə şirkətləri olduqları ölkənin iqtisadi infrastrukturu banklarla, maliyyə orqanları ilə qarşılıqlı fəaliyyətdə olurlar və yerli istifadəçilər üçün məqbul formada hesabat təqdim etməlidirlər. Eyni zamanda baş şirkətin xarici firmalarının hesabatı təqdim edilərkən hesabatların tərcüməsi və modifikasiyası zərurəti yaranır. Ümumi (cəmləşdirilmiş) hesabat tərtib olunarkən böyük mühasibat uçotunun və hesabatının hesabat məlumatlarının qarşılıqlı uzlaşdırılması zəruridir. Bu zaman fərqlər həm formal xarakterə (balansın təqdim olunmasının, nəticələrin hesabının müxtəlif modelləri), həm də, əslində, zahirən eyni anlayışların şərhində fikir ayrılıqlarına malikdir.

Transmilli şirkətlərin xarici iqtisadi fəaliyyəti, digər şirkətlərin xarici ticarət əməliyyatları, beynəlxalq investisiya prosesi, dünya fond birjalarındakı nəqdlər xarici valyutada onu milli valyutaya çevirməklə hesablaşmalar aparmaq zərurəti yaradır. Bu cür çevirmələr transmilli şirkətlərinin ümumi (cəmləşdirilmiş) hesabatı tərtib olunarkən də zəruridir. Prinsipcə bu, texniki uçot problemləridir, lakin onlar da mühasibat uçotunun beynəlxalq standartlaşdırılması vasitəsi ilə həll edilməməlidir.

Burada bir nəticə çıxır ki, transmilli şirkətlər obyektiv olaraq uçotun beynəlmiləlləşməsinə təşəbbüs edir və onun beynəlxalq standartlaşdırılmasına fəal yardım göstərir.

Beynəlxalq kapital bazarları milli bazarlardan əmələ gəlmişdir. Yaxın keçmişdə müəssisələrin borj kapitalına olan tələbatları milli kapital bazarları vasitəsi ilə ödənilirdi. Nümunə kimi müəssisələrin onlara lazım olan kapitalları ölkə daxilində ilkin və təkrar kapital bazarları vasitəsi ilə toplamaq imkanları olan ABŞ göstərilə bilər. ABŞ-ın qiymətli kağızların təkrarı bazarı dünyada ən böyük bazardır.

İkinçi Dünya müharibəsindən sonra maliyyə bazarında vəziyyət köklü surətdə dəyişdi. Xüsusilə Amerika yardımı proqramı və öz iqtisadiyyatını bərpa edən müharibədən sonrakı Avropada dollar "ajlığı amerikan müəssisələrinin xariji investisiyalarının artımına səbəb oldu.

Hal-hazırda bir sıra amillər üzündən beynəlxalq kapital bazarlarının sürətli inkişafı və onların mövqelərinin möhkəmlənməsi müşahidə olunur. Bu cür amillərə aşağıdakılar aiddir: inkişaf planlarını və milli gəlirlərin dəstəklənməsi üzrə proqramlar həyata keçirən ölkələrin xarici maliyyə mənbələrinə artan tələbatı, maliyyə bazarlarında rəqabət, ölkələrin artıq maliyyə resurslarına malik olan və xarici investisiyalara ehtiyac duyan ölkələrə bölünməsi.

Digər tərəfdən beynəlxalq standartlar bir çox birja əməliyyatlarını sadələşdirir və bununla da

onların inkişafına təkan verirlər.

Qeyd etmək mühümdür ki, mühasibat uçotu heç vaxt onun tətbiqi dairəsini hər hansı bir sahə və ya ayrıca ölkə ilə məhdudlaşdırmamışdır. “İtalyan mühasibatı çox sürətlə Almaniyanı, Fransanı, Niderlandı, sonra isə Böyük Britaniyanı fəth etdi. Böyük Britaniyanın 17-18-ji əsrlərdə hökmran üstün mövqeyi mühasibat uçotunu nəinki Şimali Amerikada, həm də Britaniya Birliyi ölkələrində yaymağa kömək etdi. Holland təsiri uçotun İndoneziya və Cənubi Afrikada “mənimsənilməsinə imkan yaratdı. Fransız uçot sistemi Polineziyada və Afrikada fransız təsir zonasında yayılmışdır, Almaniya və Yaponiyada, İsveçdə və keçmiş çar Rusiyasında uçotun inkişafına təsir göstərdi.

Birləşmiş ştatların iqtisadi qüdrətinin bizim yüzilliyin birinci yarısında artması amerikan modelinin nəzəri mövqelərinin və təcrübənin təkcə Almaniyada və Yaponiyada yox, həm də inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Braziliyada, İsraildə, Meksikada və Filippində təsirinin artması ilə nəticələndi.

Bu təsir hal-hazırda da xeyli hiss olunan dərəjədə qalır. Birləşmiş Ştatlar mühasibat uçotu sahəsində elmi işləmələrə maliyyə ayırmaları və nəşrlərin sayına görə öndə gedirlər. Onlar həmin profilyönümlü universitet təhsilinin yüksək inkişaf etmiş sisteminə malikdirlər. Eyni zamanda heç də bütün ölkələr uçotun amerikan standartlarını və prinsiplərini həvəslə qəbul etmirlər.

Mühasibat uçotu mahiyyətjə universaldır, onun dili-“beynəlxalq ünsiyyət dilidir, “balans, “debet, “kredit, “konto (hesab) kimi kateqoriyalar bütün dünyada başa düşülür və tətbiq olunur.

Artıq deyilmişdir ki, dünya təcrübəsində aktivlər qiymətləndirilərkən daha çox ilkin maya dəyərindən istifadə edirlər, baxmayaraq ki, bu metod modifikasiya edilmiş şəkildə tətbiq edilir. Belə bir nöqteyi-nəzər mövjuddur ki, balansda aparılan qiymətləndirmə əmlakın o zaman real dəyərinə maksimum yaxın olmalıdır, buna görə də cari dəyəri tətbiq etmək, yaxud gələcəck əməliyyatlardan ehtimal olunan itkiləri və gəlirləri nəzərə almaq, qiymətlərin dəyişməsini əks etdirmək və s. vacibdir.

İnflyasiya ümumdünya hadisəsi olduğundan onun nəticələri isə həm mikro, həm də makro səviyyələrdə duyulduğundan bu məsələ üzrə uçot problemlərinin həlli üçün maksimum səy göstərilməlidir. Aydındır ki, bu, Azərbayjanda müasir iqtisadi vəziyyət üçün də xeyli aktualdır.

Eləcə də balansa hansı vəsait və resurs növlərinin daxil edilməsi barədə məsələnin birmənalı olmayan həllini qeyd etmək lazımdır, xüsusilə də bu “firmanın qiyməti və ETTKİ-nə xərjlər kimi aktivlər barəsində səjiyyəvidir. Buradan bu kateqoriyalı vəsaitlərin silinməsinə müxtəlif baxışlar ortaya çıxır: bir qisim ölkələrdə onların faydalı istifadə müddəti ərzində amortizasiyasına, yaxud da öz kapitalının azaldılması hesabına dərhal silinməsinə ijazə verilir. Bir sıra ölkələrdə alternativ seçimə yol verilmir (məsələn, ABŞ-da, Kanadada və Yaponiyada “firmanın qiymətinin dərhal silinməsinə icazə verilmir, onun aktivdə məcburi “kapitallaşması tələb olunur). Amortizasiya müddətlərinin təyin edilməsi təcrübəsi də fərqlənir.

Eynilə də öhdəliklərin uçot təcrübəsi də fərqlənir. Məsələn, Argentinada vergilər üzrə öhdəliklər hesablanılmr, onlar yalnız kassa metodu üzrə hesaba alınır və əks olunur. Hollandiyada təxirə salınmış gəlir vergisinin məbləği (faktiki vergi ilə maliyyə uçotda müəyyən edilmiş mənfəətə uyğun hesablanmış vergi arasındakı fərq) diskontlaşır.

“Öhdəliklər anlayışının müxtəlif təfsir edilməsi ona gətirib çıxarır ki, ayrı-ayrı Avropa ölkələrində və Cənubi Afrikada, məsələn, qiymətləndirmə ehtiyatları yaradılmır (hətta pensiya öhdəlikləri üçün də), əksinə, Almaniya və İsveçrə “öhdəlik termininin “gizli ehtiyatlara tətbiq edilməsinin nümunələridir, bununla da onlar həmin ehtiyatların yaradılmasına bəraət qazandırırlar. Bu ölkələrdə ehtiyatlılıq prinsipi ifrat ifadəsini tapır və bir sıra hallarda gələcəkdə mümkün itkilərin yenidən qiymətləndirilməsi mövcuddur.

Əməliyyatların xarici valyutada yenidən hesablanma zamanı da beynəlxalq uçotda ziddiyyətli problemlər yaranır: hesablama zamanı hansı mübadilə məzənnəsi və hansı ana istinadən tətbiq edilməlidir, bunun nəticəsində yaranmış fərqləri necə şərh etməli və s.

Beləliklə, aydındır ki, beynəlxalq uçot sisteminin yaradılması üzrə iş aparılması üçün obyektiv tələbat və ilkin şərtlər mövcuddur. Bu iş müxtəlif ölkələrə mövcud olan uçot sistemlərinin tədqiqindən, müqayisəsindən və təsnifatından, uçotun, hesabatın və auditin unifikasiyası üzrə işləmələrdən və tövsiyələrdən ibarətdir.

## ƏDƏBİYYAT


1. Əlirzayev Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri təcrübə, meyllər və perspektiv istiqamətlər. Bakı: “Adiloğlu” nəşriyyatı, 2005, 538 s.
2. Əliyev İ.İ. Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində. Bakı: Azərbaycan, 2007, s.862
3. Əliyev M. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı: 2002
4. Milli Mühasibat Uçotu Standartları. Bakı: 2008
5. Abbasov T.A. Büdcədən maliyyələşən təşkilatlarda uçot və hesabat. Dərs vəsaiti, Bakı: 2014, 420 s.
6. Rzayev Q.R. Mühasibat uçotunun beynəlxalq standartları və maliyyə hesabatı. Bakı: 2004, 176 s.


## РЕЗЮМЕ

**Т.Аббасов**

### ОБЕСПЕЧЕНИЕ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ ИННОВАЦИОННОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ И ОСНОВНЫЕ УСЛОВИЯ ПЕРЕХОДА БУХГАЛТЕРСКОГО УЧЁТА К МЕЖДУНАРОДНЫМ СТАНДАРТАМ


В научной статье обширно исследованы значение, назначение инноваций в экономической системе государства и их роль в хозяйственном процессе. Отмечено, что инновация, как экономическая категория выполняет две функции - функции перепроизводства и стимулирования. Из статьи можно прийти к выводу, что под инновацией понимается творческий процесс по реализации идей, нашедших свое практическое воплощение и применение в товаре, услугах, технологиях.

В то же время в научной статье даны основные условия перехода бухгалтерского учёта к Международным стандартам. Так в научной статье обширно обсуждены роль транснациональных компаний в развитии мировых хозяйственных связей, а также влияние бухгалтерского учёта на рынки капитала и региональные системы бухгалтерского учёта.


***Ключевые слова:*** *инновация, функция стимулирования, предпринимательская прибыль, конкурентная среда, новые технологии, транснациональные компании, международные рынки капитала, международная система учёта, обязательства*

## SUMMARY

**T.Abbasov**

### ENSURING INNOVATIVE ECONOMIC DEVOLOPMENT IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIK AND RESEARCH OF THE SYSTEM OF ECONOMY IN THE ECONOMIC PROSESS OF THE STATE OF THE ECONOMIC PROSESS IN THE EXAMINATION OF ACCOUNTING IN INTERNATIONAL STANDARDS


It was noted that as an economic category, innovation performs two main functions – reproduction and stimulation. It can be concluded from the article that innovation means the creative process of realization of goods, services, technologies, organizational form, ideas that have found their practical embodiment and application. At the same time, the scientific article gives the main conditions for the transition to international standards of accounting. Thus, the scientific article discusses the role of transnational companies in the development of world economic relations, the impact of accounting on the development of capital markets and regional accounting systems.


***Key words:*** *competitive, environment, new technologies, transnational companies, international capital markets, international accounting system, liabilities*

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*yanında Maliyyə Tədris Mərkəzinin direktoru*
*mehriban.imanova@maliyyenmr.az*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI MALİYYƏ NAZİRLİYİ TƏRƏFİNDƏN ETİBARLI MALİYYƏ MÜHİTİNİN YARADILMASI VƏ MÜHASİBLƏRİN PEŞƏKAR SERTİFİKASİYASININ ƏHƏMİYYƏTİ

*Elmi məqalədə iqtisadiyyatın mövcud vəziyyətinin təhlil edilməsi, sosial-iqtisadi problemlərin həllinə dair təkliflərin verilməsi və makroiqtisadi sabitliyin əldə olunmasında Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin rolundan bəhs edilmiş, iqtisadi siyasətin uğurla həyata keçirilməsində dövlətin maliyyə siyasətinin ən vacib istiqamətləri olan büdcə, vergi, investisiya, sosial, gömrük siyasətinin təşkilinin mühüm rol oynadığı qeyd edilmişdir. Görülən tədbirlər nəticəsində* Naxçıvan *Muxtar Respublikasının dövlət* büdcəsinin *gəlirlərinin artım dinamikası və ona təsir edən amillər təhlil edilmiş, əhəmiyyətli investisiya qoyuluşlarının muxtar respublikanın sosial-iqtisadi inkişafına təsiri araşdırılmışdır.*

*Məqalədə, həmçinin mühasiblərin peşəkar sertifikasiyasının mahiyyəti və əhəmiyyəti haqqında məlumat verilmiş, imtahanların keçirilməsi qaydaları izah edilmişdir.*

***Açar sözlər:*** *iqtisadi siyasət, büdcə, vergi, dinamik inkişaf, sənaye, kənd təsərrüfatı, peşəkar mühasib sertifikatı, investisiya reytinqi*

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə çox çətin şərait yaranmışdı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə qısa müddətdə ölkədə dövlətçiliyin əsası olan ictimai-siyasi sabitlik bərpa edildi, aparılan ardıcıl iqtisadi islahatlar nəticəsində makroiqtisadi və qiymət sabitliyinə nail olundu, zəruri valyuta ehtiyatı yaradıldı. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi müddətdə ölkə büdcəsi faizlə yox, dəfələrlə artdı, sosial-iqtisadi proqramların qəbul olunması nəticəsində bütün sahələrdə inkişaf əldə edildi.

Ölkəmizdə aparılan islahatların davamı olaraq Naxçıvan Muxtar Respublikasında da son 25 ildə həyata keçirilən müasirləşmə strategiyası və uğurlu sosial-iqtisadi siyasət nəticəsində yüksək iqtisadi artım dinamikası formalaşdı. 1995-ci ildən etibarən muxtar respublikamızda bütün dövlət proqramlarının və investisiya layihələrinin uğurlu icrası, elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və idman sahəsində həyata keçirilən dövlət siyasətinin dəstəklənməsi, müasir infrastrukturun qurulması, yeni yolların inşası, içməli su və kanalizasiya sistemlərinin yaradılması istiqamətində etibarlı maliyyələşmənin təmin edilməsinə nail olundu.

Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin rəhbərliyi ilə iqtisadiyyatın mövcud vəziyyətinin təhlil edilməsində və sosial-iqtisadi problemlərin həllinə dair təkliflərin verilməsində Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birlikdə yaxından iştirak etmiş, bütün istiqamətlər üzrə düzgün maliyyə siyasətinin həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitliyin əldə olunmasına mühüm töhfələr vermişdir. İqtisadi siyasətin uğurla həyata keçirilməsində dövlətin maliyyə siyasətinin ən vacib istiqamətləri olan büdcə, vergi, investisiya, sosial, gömrük siyasətinin təşkili mühüm rol oynamışdır. 1995-ci il sentyabrın 29-da “1995-1998-ci illərdə Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı” nın qəbul edilməsi Azərbaycanda aparılan iqtisadi islahatların ən mühüm istiqamətlərindən biri olmaqla muxtar respublika iqtisadiyyatına öz müsbət təsirini göstərmişdir (3). Dövlət mülkiyyətinin özəlləşdirilməsinin sürətləndirilməsi hesabına özəlləşdirmədən daxilolmalar, vergitutma bazasının genişləndirilməsi və vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi borclarının azaldılması istiqamətində görülən tədbirlər ümumi daxili məhsulda büdcə gəlirlərinin xüsusi çəkisinin dinamik artımı üçün əlverişli zəmin yaratmışdır. İqtisadiyyatda əldə olunan artım büdcəyə təsirsiz ötüşməmiş, dinamik artıma nail olunmuşdur. Beləliklə, həyata keçirilmiş zəruri tədbirlər nəticəsində 2019-cu ildə 1995-ci ilə nisbətən

*Naxçıvan* Muxtar Respublikasının dövlət *büdcəsinin* gəlirləri 51,8 dəfə yüksəlmişdir (Diaqram 1).

**Diaqram 1.** *Naxçıvan* Muxtar Respublikasının dövlət *büdcəsinin* gəlirləri (man)




***Mənbə:*** *Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi*

2019-cu ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 83 milyon 340 min manat təyinata qarşı 96 milyon 24 min manat və ya 115,2 faiz icra olunmaqla büdcəyə 12 milyon 684 min manat artıq vəsait daxil olmuşdur. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən dövlət büdcəsi vəsaitlərinin səmərəli istifadə edilməsi və qənaət tədbirlərinin gücləndirilməsi məqsədilə büdcə təşkilatlarında qiymət intizamının təmin olunması istiqamətində tədbirlərin görülməsi sayəsində 2019-cu il ərzində 2 milyon 840 min manatdan çox vəsaitin əsassız xərclənməsinin qarşısı alınmışdır. Muxtar respublika üzrə ümumilikdə 80 nəzarət tədbiri təşkil edilmiş, 301 min 280 manat məbləğində vəsait bərpa edilərək dövlət büdcəsinə ödənilmişdir. Yerində təşkil olunmuş yoxlamalar zamanı müəssisə və təşkilatlarda əmək intizamına əməl edilməməsi, təyinatdan kənar xərc əməliyyatları və əsassız xərclərə səbəb olan qurğuların istifadəsi halları aşkarlanaraq rəsmiləşdirilmiş, qanuna müvafiq qaydada cərimələr tətbiq edilərək 23 min 918 manat vəsait dövlət büdcəsinə geri qaytarılmışdır. Nəticədə, muxtar respublika iqtisadiyyatının büdcə vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi təmin edilmiş, xərclərin investisiya və sosialyönümlüyünə üstünlük verilmişdir. 2019-cu ildə büdcə xərclərinin 76,4 faizi və ya 417 milyon 625 min manatı cari xərclərə, 23,6 faizi və ya 129 milyon 7 min manatı isə əsaslı xərclərə yönəldilmişdir. Əsaslı vəsait qoyuluşu muxtar respublikada quruculuq işlərinin aparılması, sosial və səhiyyə obyektlərinin, su–kanalizasiya sistemlərinin yenidən qurulması və digər infrastruktur layihələrinin reallaşdırılmasına yönəldilmişdir. Müstəqillik illəri ərzində qəbul edilmiş sosial-iqtisadi inkişaf proqramlarının yerinə yetirilməsində dövlət büdcəsi maliyyə bazası kimi çıxış edərək çox böyük rol oynamışdır. Büdcə iqtisadiyyata təsir aləti olduğu üçün müxtəlif sahələrə yönəldilən xərclər yeni məhsulların istehsalı və əlavə dəyərlərin yaranması ilə nəticələnmişdir. Cəlbedici investisiya mühiti və investisiya kapitalının davamlı yerləşdirilməsi sayəsində muxtar respublikada əsas makroiqtisadi göstəricilər dəfələrlə artmışdır.

Qrafik 1-dən göründüyü kimi, 2019-cu ildə 1995-ci ilə nisbətən Ümumi Daxili Məhsulun 65 dəfə, sənaye məhsulunun həcminin 111,5 dəfə, kənd təsərrüfatı məhsulunun həcminin 13,1 dəfə artması müşahidə olunmuşdur. Muxtar respublikada inkişafın təmin olunmasında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət Proqramlarının uğurlu icrası bu inkişafa xüsusi təkan vermiş, iqtisadiyyatın dinamik inkişafına nail olunmuşdur. Makroiqtisadi sabitlik şəraitində iqtisadi artım sosial rifaha və yüksək həyat standartlarına sürətlə transformasiya etmiş, orta aylıq əmək haqqı 30,5 dəfə yüksəlmişdir. İnsanların həyat səviyyəsinin əsas göstəricisi olan adambaşına düşən ümumi daxili məhsulun həcminin 47,2 dəfə artması muxtar respublikada yürüdülən iqtisadi siyasətin mühüm uğurları sırasındadır. Hazıkı dövrdə muxtar respublikanın sosial-iqtisadi inkişafında, yeni iş yerlərinin yaradılmasında, ixrac potensialının gücləndirilməsi, idxaldan asılılığın minimuma endirilməsi və büdcənin formalaşmasında sənaye potensialının çox mühüm rol oynadığını xüsusi qeyd etmək lazımdır. Sahibkarlara verilən güzəştli maliyyə dəstəyi nəticəsində muxtar respublikada

fəaliyyət göstərən sənaye müəssisələrinin sayı son 25 ildə 11 dəfə artaraq 442-yə çatmışdır. Elektrik enerjisi istehsal edən müəssisələrin sayının 1-dən 8-ə çatdırılması enerji təhlükəsizliyini təmin etməklə sənayeləşmə siyasətinin genişlənməsinə geniş yollar açmışdır. 2019-cu ildə ölkə üzrə günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 88,7 faizi muxtar respublikada istehsal olunmuşdur.

**Qrafik 1.** *Əsas makroiqtisadi göstəricilərin dinamikası (mln.man)*




***Mənbə:*** *Qrafik Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Kənd təsərrüfatında yüksək məhsuldarlığın təmin edilməsi, fermerlərə maliyyə dəstəyinin səmərəli təşkili və ərzaq təhlükəsizliyinin daim möhkəmləndirilməsi aqrar sahədə dövlət siyasətinin mühüm istiqamətləri olmuşdur.

İqtisadi inkişaf və rifah, maliyyələşmə və biznes mühiti arasında möhkəm əlaqənin yaradılması sayəsində bu gün muxtar respublikada istehsal olunan məhsul növü 10-dan 384-ə çatdırılmışdır ki, bunun da 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsuludur. Hazırda 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilməklə daxili bazarın qorunmasına nail olunmuşdur. Sahibkarlığın inkişafı, infrastrukturun yaradılması, xidmətlərə çıxışın asanlaşdırılması, ixracatın stimullaşdırılmasına şərait yaratmış, 2019-cu ildə xarici ticarət dövriyyəsi 1995-ci ilə nisbətən 26,1 dəfə artımla müşayiət olunmuşdur (7).

İnvestisiya prosesi ölkənin gələcəyini formalaşdırır, rəqabət qabiliyyətini gücləndirir. Əsas kapitala investisiya qoyuluşu 1995-ci ilə nisbətən 2019-cu ildə 343 dəfə artmışdır ki, bunun da 92 faizi tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. Nəticədə, saysız-hesabsız istehsal və sosial obyektləri tikilib istifadəyə verilmiş, kəndlə şəhər arasındaki fərq aradan qaldırılmış, rayonların tarazlı inkişafına nail olunmuş, yol, nəqliyyat, su təchizatı, kommunal xidmət, təhsil, səhiyyə sahəsində infrastrukturun keyfiyyəti ən yüksək səviyyəyə çatdırılmışdır. 1996-2018-ci illərdə muxtar respublikada 562 inzibati bina, 284 təhsil müəssisəsi, 285 səhiyyə müəssisəsi, 491 mədəniyyət obyekti, 171 nasos stansiyası, 416 subartezian quyusu, 52 idman obyekti, 516 fərdi ev, 982 istehsal və xidmət obyekti, 181 körpü, 4 qəsəbə, 151 kənd mərkəzi tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur (5). Təkcə 2019-cu ildə muxtar respublikada 271 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 159 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir (7).

2020-ci il dövlət büdcəsi 2019-cu il büdcəsi ilə müqayisədə gəlirlər 35,8 faiz, 25,6 faiz artıq nəzərdə tutulmuşdur. Büdcədə sosialyönümlü xərclərin xüsusi çəkisi 70,2 faiz səviyyəsində olması

ənənəvi olaraq dövlət büdcəsinin sosialyönümlülüyünü təmin etmişdir.

Beləliklə, son 25 il ərzində əldə olunan ən böyük nailiyyətlərimiz büdcə gəlirləri və xərclərinin dinamik artımı ilə ərzaq, enerji təhlükəsizliyinin təmin olunması, muxtar respublkanın sənaye regionuna çevrilməsi hesab olunur. Muxtar respublikada həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin etibarlı maliyyələşməsi nəticəsində Caspian Energy International Media Group tərəfindən müəyyən edilən investisiya reytinqində Naxçıvan 2018 və 2019-cu illərdə ən yüksək ümumi bal toplayaraq qalib oldu (6).

İndi qətiyyətlə demək olar ki, Heydər Əliyev iqtisadi siyasi modeli üzərində qurulmuş Naxçıvan Muxtar Respublikası bu gün ölkəmizdə ən inkişaf etmiş regionlar sırasındadır və bu inkişafın əldə olunması üçün etibarlı maliyyə təminatının yaradılmasında Maliyyə Nazirliyi yaxından iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin əsas funksiyalarından biri də mühasibat uçotunun təşkili və aparılması sahəsində dövlət tənzimlənməsinin həyata keçirilməsidir ki, bu da cari nəzarət işinin asanlaşdırılmasını təmin edir və maliyyə intizamının formalaşmasına öz töhfəsini verir. Son illərdə müəssisələr arasında yaranan rəqabət, beynəlxalq kapital bazarının inkişafı və dünya iqtisadiyyatının yenidən qurulması prosesinin yaratdığı alternativlərdən faydalanmaq istəyi müəssisələrin beynəlxalq səviyyədə fəaliyyət göstərməsinə səbəb oldu. Bu dəyişikliklər prosesi çərçivəsində qloballaşma tendensiyası 1980-ci illərdə dünyada hiss olunmağa başladı. Mühasibat peşəsi də bu inkişafdan təsirləndi, peşə üzrə ixtisaslaşma və təhsil tələb olunmağa başladı. İnkişaf etmiş ölkələrdə bütün sahələrdə olduğu kimi maliyyə və mühasibat sahəsində də geniş yayılmış peşəkar sertifikasiya proqramları tətbiq olunur. Hazırda bu sahə üzrə dünyada ACCA (Association of Chartered Certified Accountants), CFA (Chartered Financial Analyst), CIA (Certified Internal Auditor), CIMA (Chartered Institute of Management Accountants) kimi beynəlxalq sertifikat növləri mövcuddur. ACCA-nın dünyanın 17 ölkəsində 154 000 üzvü vardır (8).

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2018-ci il 04 may tarixində "Mühasibat uçotu haqqında" Qanununa edilən dəyişikliklər bu sahəyə ciddi yeniliklər gətirmişdir ki, bu yeniliklərdən biri də peşəkar mühasib anlayışıdır (1). Peşəkar mühasib təşkil olunmuş imtahandan müvəffəqiyyətlə keçərək peşəkar mühasib təşkilatının üzvü olan şəxsdir. İmtahanların verilmə qaydası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları" nın təsdiq edilməsi haqqında 20 iyun 2019-cu il tarixli qərarı ilə müəyyən edilmişdir (2). Qərara əsasən peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili və imtahanların keçirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilir. Sertifikatların hər bir növü üzrə imtahanlar üçün tapşırıqlar toplusunu və imtahanların aparılması texnologiyasını Naxçıvan MR Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilir. Eyni zamanda peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması da Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

İkimərhələli imtahandan müvəffəqiyyətlə keçmiş şəxslərə aşağıdakı 4 növ sertifikatlar verilir:

1. Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə peşəkar mühasib sertifikatı.
2. Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə peşəkar mühasib sertifikatı.
3. İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə – I səviyyə peşəkar mühasib sertifikatı.
4. İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə – II səviyyə peşəkar mühasib sertifikatı.

Peşəkar Mühasib Sertifikatı Azərbaycanda mühasiblər üçün yaradılmış ilk sertifikasiya proqramıdır. Sertifikatlaşdırma imtahanına daxil olmaq üçün namizəd ya iqtisadi sahədə orta ixtisas təhsil və mühasibatlıq sahəsində azı 5 (beş) illik iş stajına və yaxud iqtisadi sahədə ali təhsil diplomuna malik olmalıdır. İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə – I və ya II səviyyə peşəkar mühasib sertifikatını əldə etmək üçün müraciət etmiş namizəd İctimai

Sektor üçün İmtiyazlı Maliyyə və Mühasibatlıq İnstitutunun (CİPFA- Chartered Institute Of Public Finance & Accountancy) sertifikatına malikdirsə o, keçiriləcək imtahanın birinci mərhələsindən azad edilir. Peşəkar mühasib sertifikatının qüvvədə olma müddəti beş ildir. Bu sertifikatı alaraq fəaliyyətə başlayan şəxs sonradan eyni standart üzrə 2 dəfə sertifikat aldıqda sonuncu sertifikat şəxsə ömürlük verilir. Bu səviyyə mühasiblərə digərləri arasında seçilmək və əmək bazarında onlara olan tələbat səviyyəsini artırmaq imkanı verməklə mühüm əhəmiyyət kəsb edir.

Hesab edirik ki, mühasiblərin peşəkar sertifikasiyasının həyata keçirilməsi maliyyə və mühasibat sahəsində savadlılığın artırılması ilə onun ölçüləbilən olmasına şərait yaradacaq və muxtar respublikada ümumi maliyyə intizamının formalaşmasına öz mühüm töhfəsinin verəcək.

## ƏDƏBİYYAT

1. “Mühasibat uçotu haqqında” 4 may 2018-ci il tarixli 1140-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu. “Azərbaycan” qəzeti, 3 iyun 2018-ci il, №124, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1179
2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları” nın təsdiq edilməsi haqqında 20 iyun 2019-cu il tarixli qərarı
3. “1995-1998-ci illərdə Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı”. 1995-ci il 29 sentyabr
4. İ. Hacıyev. İntibahın 15 ili. Əcəmi nəşriyyatı, Naxçıvan, 2010
5. İsmayıl Hacıyev. Müasir Naxçıvan inkişaf yollarında. Yeni Azərbaycan. 2020, 11 yanvar, S. 4.
6. İmanova. M. Əsrə bərabər inkişaf, düşünülmüş iqtisadi siyasət. Şərq qapısı. 2018, 14 fevral, səh 2
7. www.statistika.nmr.az Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi
8. https://www.muhasib.az/

## SUMMARY

**M.İmanova**

## FORMATION OF A RELIABLE FINANCIAL ENVIRONMENT BY THE MINISTRY OF FINANCE OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND PROFESSIONAL CERTIFICATION OF ACCOUNTANTS

The scientific article depicts the role of the Ministry of Finance of the Autonomous Republic of Nakhchivan in the field of analyzing the current state of the economy, making proposals for solving socio-economic problems and achieving macroeconomic stability, notes that the organization of budget, tax, investment, social and customs policies, which are the most important directions of the state's financial policy, play an important role in the successful implementation of economic policy. As a result of the measures taken, the growth dynamics of the state budget revenues of the Nakhchivan Autonomous Republic and the factors affecting it were analyzed, the impact of significant investments on the socio-economic development of the autonomous republic was investigated.

The article also provides information on the essence and importance of professional certification of accountants, explains the rules of examinations.

**Keywords:** *economic policy, budget, tax, dynamic development, industry, agriculture, professional accountant certificate, investment rating*

**РЕЗЮМЕ**

**М.Иманова**

## СОЗДАНИЕ НАДЕЖНОЙ ФИНАНСОВОЙ СРЕДЫ МИНИСТЕРСТОМ ФИНАНСОВ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ И ЗНАЧИМОСТЬ ПРОФЕССИОНАЛЬНОЙ СЕРТИФИКАЦИИ БУХГАЛТЕРОВ

В научной статье обсуждена роль Министерства Финансов Нахчыванской Автономной Республики в анализе текущего состояния экономики, внесении предложений по решению социально-экономических проблем и достижении макроэкономической стабильности. Отмечена важная роль организации бюджетной, налоговой, инвестиционной, социальной и таможенной политики, которые являются важнейшими направлениями финансовой политики государства в успешной реализации экономической политики, проанализирована динамика роста доходов в результате принятых мер государственного бюджета Нахчыванской Автономной Республики и факторы, влияющие на нее, изучено влияние важных инвестиций на социально-экономическое развитие автономной республики.

В статье также, представлена информация о характере и важности профессиональной сертификации бухгалтеров, разъяснены правила проведения экзаменов.


**Ключевые слова:** *экономическая политика, бюджет, налоги, динамичное развитие, промышленность, сельское хозяйство, аттестат профессионального бухгалтера, инвестиционный рейтинг*

# I BÖLMƏ

# MÜHASİBAT UÇOTU VƏ MÜASİR MALİYYƏ MEXANİZMLƏRİ

**ZƏHMƏT ŞAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

## ÖLKƏNİN DAXİLİ İNKİŞAFI NAMİNƏ HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN HAZIRLANAN SƏNƏDLƏR AZƏRBAYCAN İQTİSADİYYATININ TƏMƏLİDİR

*Azərbaycanın ayrılmaz bir hissəsi olan Naxçıvan diyarı çox mürəkkəb, keşməkeşli inkişaf yolu keçmişdir. Heydər Əliyevin siyasətinin ana xəttini təşkil edən quruculuq missiyası ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da 1996-cı ildən etibarən müvəffəqiyyətlə yerinə yetirilməyə başlandı. Ali Məclisin Sədri Vasif Talıbov 1995-2001-ci illərdə muxtar respublikanin sosial-iqtisadi həyatında, ictimai mühitində, elm və təhsilinin inkişafında, ordu quruculuğunda gərgin iş aparmaqla böyük nəticələrə nail olmuşdur. Göründüyü kimi, blokada şəraitində yaşasa da, Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişafa nail olub.*
***Açar sözlər:*** *sosial-iqtisadi, diyar, bölgə, ticarət, iqtisadiyyat, sənaye, energetika*

1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldiyi zaman cəbhə bölgələrində vəziyyət gərgin olaraq qalmaqda idi. Respublikada daxili və xarici siyasəti planlı sürətdə həyata keçirmək üçün ilk növbədə cəbhə bölgələrində atəşkəsə ehtiyac duyulurdu. Cəbhə bölgələrindəki dalbadal uğursuzluqlar Azərbaycan ərazisinin 20 faizdən çoxunun havadarlarına arxalanan Ermənistan silahlı qüvvələri tərəfindən işğalına gətirib çıxartmışdı. 20 mindən çox adam həlak olmuş, 100 minə yaxın adam yaralanmış və xəsarət almış, 6 min nəfər əsir düşmüş, bir milyondan çox azərbaycanlı - ölkə əhalisinin təxminən 15 faizi qaçqın vəziyyətinə düşmüşdür. 700 şəhər, kənd və qəsəbə dağıdılmışdır. [2**,** s. 75]

Mövcud vəziyyəti hamıdan yaxşı başa düşən, xalqını bu düşdüyü böhranlı vəziyyətdən çıxarmağı qarşısına məqsəd qoyan müdrik siyasətçi, respublika prezidenti Heydər Əliyev fəal addımlar atdı. 1994-cü il 8 mayda Bişkekdə MDB parlamentlərarası məclisin iclasında Ermənistan – Azərbaycan münaqişəsi ilə bağlı yekdil sənəd – "Bişkek protokolu" imzalandı. [ 4**,** s. 478]

Bişkek protokolu respublikada birmənalı qarşılanmasa da bu sənədin imzalanması atəşin dayandırılmasına, regionda uzunmüddətli və sabit sülhə nail olmaq üçün fəal əməli tədbirlərin həyata keçirilməsinə şərait yaratmaq yolunda atılan düzgün addım kimi qiymətləndirildi.

1994-cü il 12 mayda hər iki tərəfdən atəş kəsildi. Azərbaycanın bütün guşələrinə axışan, ardı – arası kəsilməyən şəhid cənazələrinin qarşısı alındı. Bu tarixi qərarın qəbul edilməsi yolunda atdığı addım üçün Azərbaycan xalqı Heydər Əliyevə bu gün də minnətdardır.

Atəşkəs imzalandıqdan sonra respublikada vəziyyət sabitləşməyə başladı. Artıq gənc, müstəqil Azərbaycan Respublikası beynəlxalq aləmdə nüfuz qazanmağa başlayırdı. Heydər Əliyev ölkədəki sabitlikdən istifadə edərək çevik xarici siyasət yeritməyə başladı. İri Avropa ölkələrinin, ABŞ-ın diqqətini Azərbaycana cəlb etdi. Qərb ölkələrinin Azərbaycana iqtisadi maraqları olduğunu nəzərə alaraq böyük bir neft sazişi imzalanmasına hazırlıq prosesi başlandı. Bu dövlətlərin iri neft şirkətləri ilə danışıqları 1990-cı ildən başlamış olsa da, əldə edilən layihə Azərbaycan maraqlarına uyğun gəlmədiyi üçün danışıqlara yenidən start verildi.

Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə Heydər Əliyev dühasıdır. XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin böyük nailiyyətləri ilə yadda qalaraq onun inkişafı, maddi-texniki bazasının möhkəmlənməsi illəri olmuşdur. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Bu illər Azərbaycan neftçiləri tərəfindən dənizin daha dərin sahələrinin mənimsənilməsi ilə səciyyələnmişdir. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaranmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı dərin dəniz özülləri zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir. Bununla yanaşı, neft emalı, neft-kimya sənayesinin və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur.

70-ci illərin əvvəllərindən etibarən Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də Heydər Əliyevin misilsiz tarixi xidmətlərindəndir. Bu gün qətiyyətlə demək olar ki, Heydər Əliyevin bu illərdə respublika həyatının bütün sahələrində olduğu kimi, neft sənayesində də gördüyü işlər onun uzaqgörən planlarının: Azərbaycanı "Əsrin müqaviləsi" nə, xalqımızın müstəqilliyi və rifahına doğru aparmaq niyyətlərinin əsasını təşkil edirdi. Müstəqillik tariximizin ilk illərində neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərin aradan qaldırılmasının əsas vasitələrdən biri kimi baxılırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, ölkəni bürümüş daxili ziddiyətlər, səbatsızlıq, özbaşınalıq Qərbin neft şirkətlərini Azərbaycandan çəkindirdi. Eyni zamanda aparılan danışıqlarda isə Azərbaycanın iqtisadi maraqları tam təmin olunmurdu.

Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə hələ 80-ci illərin axırlarından aparılan danışıqlar artıq 1993-cü ilin yazında başa çatmaq üzrə idi. Həmin dövrdə Azərbaycan elə bir müqavilənin imzalanmasına yaxınlaşmışdı ki, o nəinki xalqın mənafelərini nəzərə almır, həmçinin ölkənin qiymətli təbii sərvətini talan edərək iqtisadiyyata böyük ziyan vururdu.

1993-cü ildən etibarən xalqın iradəsi, çağırışı və təkidi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin gecə-gündüz yorulmadan çalışması, respublikada ictimai sabitlik yaranması yolunda atılan addımlar Azərbaycanın siyasi və iqtisadi həyatında mühüm dönüşlərin başlanğıcı oldu. Ölkə rəhbərinin apardığı ardıcıl siyasi kurs, bir çox dövlətlərlə yaratdığı isti münasibət xarici ölkələrin, beynəlxalq aləmin ölkəmizlə qarşılıqlı əlaqə qurmasına gətirib çıxartdı. Hüquqi, dünyəvi dövlət yaratmaq, iqtisadi islahatlar aparmaq, bazar iqtisadiyyatının prinsiplərini tətbiq etmək, xalqın maddi və mənəvi cəhətdən təmin olunmasını fəaliyyətinin əsas istiqaməti seçən Heydər Əliyev iqtisadiyyatımızın dirçəldilməsi sahəsində böyük işlər gördü.

20 sentyabr 1994-cü ildə Bakıda "Gülüstan" sarayında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalandı. [3**,** 12 oktyabr 1999-cu il]

Mərasimdə Heydər Əliyev çıxış edərək deyirdi: "Bu gün Azərbaycan Respublikasının həyatında tarixi bir hadisə baş verir. Xəzərin Azərbaycan Respublikasına aid sektorunun "Azəri", "Çıraq" neft yataqları və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işləməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında davam edən üçillik danışıqlar sona çatmış və layihə hazırlanmışdır.

Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin: "Amoko", "Bi-pi", "Statoyl", "Lukoyl", "Mak Dermot", "Penzoyl", "Remko", "Türkiyə Petrolleri", "Yunokal", "Delta İntənəşl" mənsub olduğu ölkələrlə: ABŞ, Rusiya, İngiltərə, Türkiyə, Norveç, Səudiyyə Ərəbistanı kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və, ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik". [2, s.33]

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev danışıqların Bakıda aparılması və müqavilənin burada imzalanmasına böyük əhəmiyyət vermişdi: "Bu imzanın Bakıda atılması Azərbaycanın müstəqilliyini bir daha aydın sübut edir". [2, s.13]

Müqavilə 30 il müddətində imzalanmışdır. Müqaviləyə əsasən, "Azəri" yatağı bütövlükdə, "Çıraq" yatağı bütövlükdə, "Günəşli" yatağı isə suyun dərinliyi 200 metrdən çox olan hissəsi birlikdə istismar olunacaq və 511 milyon ton neft çıxarılacaqdır. Çıxarılan neftin 253 milyon tonu Azərbaycana çatacaqdır. Bu müqaviləni həyata keçirmək üçün kapital qoyuluşunun 80% -ni Qərb şirkətləri, yəni bu konsorsiuma daxil olan şirkətlər qoyacaqdır. Kapital qoyuluşunu 1994-cü ilin qiymətləri ilə hesabladıqda Azərbaycana 34 milyard dollar məbləğində mənfəət gələcəyi

proqnozlaşdırılır. 30 il müddətində dolların məzənnəsi, dünya bazarında neftin qiyməti dəyişdikcə bu rəqəm də dəyişəcəkdir.

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq "Əsrin müqaviləsi" adlandırılan bu saziş, həqiqətən, müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu.

"Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Neft müqaviləsi uğurla həyata keçirilməyə başlandı. 1997-ci il noyabrın 7-də “Çıraq” yatağından ilkin neft çıxarıldı. Heydər Əliyev göstərdi ki, plana görə gələcəkdə həmin platformada ikinci quyu, daha sonra 8 quyu qazılacaq, ümumiyyətlə, orada 24 quyunun qazılması planlaşdırılmışdı. Həmin platformadan ildə 6 milyon tona qədər neft çıxarılacağı gözlənilir. [3,14 may 1997-ci il]

Ümumiyyətlə, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarında təxminən 4 milyard tondan 10 milyard tona qədər neft ehtiyatları aşkar edilmişdi. Bu yataqların müştərək işlənməsi və neft hasilatı üçün imzalanmış müqavilələr əsasında Azərbaycana təxminən 50 milyard dollar həcmində investisiya qoyulması nəzərdə tutulurdu. [7, 2 may 1999–ci il]

Müqavilənin ən mühüm cəhətlərindən biri budur ki, neftlə bərabər çıxan təxminən 55 milyard kubmetr qazın hamısı Azərbaycana çatacaqdır.

Müqaviləyə görə “Çıraq” neft yatağındakı platformadan neft çıxarılması 18 ay ərzində təmin ediləcəkdir. Bütün bu yataqlarda neftin çıxarılması üçün işlər 48 ay ərzində görülüb başa çatdırılacaqdır. 54 ay ərzində isə bütün yataqlardan neft çıxarılması təmin ediləcək və neft nəql edilən boru kəməri çəkilib qurtaracaqdır. Sazişə görə Azərbaycan neft yataqlarının istismarına nəzarət və istismarın idarə olunması hüquqlarını özündə saxlayır.

Bu prosesdə Azərbaycanın gəliri 3 mənbədən alınacaqdır: təbii ehtiyatların mülkiyyətçisi hüququndan irəli gələn gəlirlər, yataqların işlənməsinə investisiya qoyuluşunun iştirakı ilə bağlı gəlirlər, respublika büdcəsinə konsorsium gəlirinin dörddə bir hissəsi məbləğində vergi ayırmaları. Bunlar hamısı gəlirli neftin 80 faizinin Azərbaycana çatmasını təmin edəcəkdir.

“Əsrin müqaviləsi” adlanan bu tarixi sənəd Azərbaycan xalqının iqtisadi və sosial rifahının yüksəlməsinə gətirib çıxaracaq, real nəticələr isə yaxın gələcəkdə əldə ediləcəkdir. Bazar iqtisadiyyatına keçid şəraitində on milyonlarla valyuta mədaxili bütün iqtisadiyyatın dirçəlməsinə səbəb olacaqdır. Uzun müddət durğunluq vəziyyətində olmuş neft maşınqayırma, neft emalı və neft kimyası sənayesinə yeni təkan veriləcəkdir, bu da ümumi iqtisadi göstəricilərin artması ilə yanaşı, kadr potensialının möhkəmlənməsinə kömək edəcək, yeni iş yerlərinin yaradılmasına imkan verəcəkdir. İri neft şirkətlərinin Azərbaycan Respublikasında uğurlu işi xaricdən dövlətimizə etimadı möhkəmləndirəcək və yeni xarici investisiyalar respublikaya cəlb ediləcəkdir.

Sazişin imzalanma yolu keşməkeşli olmuşdur. Ermənistanla elan olunmamış müharibə vəziyyətində olan, daxili siyasi çəkişmələrə məruz qalan respublikamız müdrik siyasətçi Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində tərəflərin iqtisadi mənafelərinin tarazlığını tapmaqla yanaşı, daha ciddi siyasi addım atdı: Azərbaycanın qapılarını bütün ölkələrin sərmayədarlarının üzünə açdı.

Milli Məclis 1994-cü il dekabrın 2-də neft müqaviləsinin təsdiq edilməsi haqqında qərar verdi. Sazişi Heydər Əliyev obrazlı şəkildə izah edirdi: “Müqavilə iki tərəfli hərəkəti olan yola bənzəyir, gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin. Mən Azərbaycan Respublikasının Prezidenti kimi bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm” [ 5, s.260 ]

Heydər Əliyevin bilavasitə dəstəyi və qayğısı ilə hazırlanmış bu müqavilə iqtisadi nailiyyətlərlə yanaşı, həm də siyasi cəhətdən əhəmiyyət kəsb edir. Bu müqavilədə iştirak edən şirkətləri təmsil edən dövlətlər Azərbaycanı həm də Qarabağ məsələsində dəstəkləyirdilər.

Göstərilən yataqların dərinsulu qismində neftin müştərək çıxarılması və hasilatın bölünməsi üçün 1995-ci ilin aprelində Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

Müqavilə imzalanandan sonra Azərbaycana diqqət artmağa başladı. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində Azərbaycan beynəlxalq neft sənayesində ən böyük "Oyunçulardan" birinə çevrildi. Bu da özlüyündə Azərbaycana diplomatik dəstək qazandırdı.

Bütün bu iqtisadi göstəricilər gələcəkdə Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsinə, əldə olunan gəlir isə xalqın rifah halının yüksəldilməsinə gətirib çıxaracaqdır. İqtisadiyyat dövlətin onurğa sütununu təşkil etdiyi üçün deyə bilərik ki, iqtisadi cəhəddən zəif dövlət heç vaxt qüdrətli dövlət ola bilməz. Bunu nəzərə alaraq qeyd etmək istəyirik ki, neft sektorundan əldə edilən gəlir gələcəkdə Azərbaycanın hərtərəfli inkişafını təmin etməklə bərabər, həm də Qafqaz bölgəsində sabitliyin, stabilliyin qaranti rolunu oynayacaqdır.

Bu müqavilə Azərbaycan iqtisadiyyatını düçar olduğu ağır böhran halından çıxarıb onun qısa bir dövr ərzində sürətli inkişafı üçün real zəmin yaratmışdır. Neft müqaviləsi Azərbaycan üçün böyük siyasi əhəmiyyət kəsb edir. Qərbin neft şirkətləri ilə saziş dövlətimizin bir sıra dövlətlər tərəfindən dəstəklənməsinə, onun həm iqtisadi, həm də siyasi mənafelərinə hörmətlə yanaşılmasına təminat verən güclü amil kimi qiymətləndirilməyə layiqdir.

Neft strategiyasının həyata keçirilməsi əhalinin iş yeri ilə təmin edilməsində mühüm rol oynayırdı. 1996-cı ilin oktyabrında ABƏŞ-də 409 nəfər milli kadr işləyirdi. 10000 nəfərdən artıq insan isə müxtəlif sahələrdə subpodrat işlərinə cəlb olunmuşdu [6, s.119– 123; 9, 23 sentyabr 2001-ci il].

Birinci neft müqaviləsindən sonra xarici dövlətlərin iri neft şirkətləri ilə yeni müqavilələri imzalandı. 1997- ci ilin noyabrına kimi əlavə 8 neft-qaz yatağında müştərək işləmək üçün müqavilələr imzalanmışdı. Belə ki, həmin vaxtda artıq Xəzərin Azərbaycan sektorunda imzalanmış müqavilələrdə 12 ölkədən 20 böyük neft şirkəti iştirak edirdi [3, 14 noyabr 1997–ci il].

Azərbaycan neftini dünya bazarına çatdırmaq üçün iki istiqamətdə, birinci şimal istiqamətində– Rusiyanın Qara dənizdəki Novorossiysk limanına, ikinci – Qərb istiqamətində Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına neft kəmərlərinin çəkilməsinə Heydər Əliyev böyük əhəmiyyət verirdi.

Bakı – Novorossiysk kəmərinin uzunluğu 1400 km-dir, Bakı – Supsa kəmərinin uzunluğu 850 km, illik buraxılış qabiliyyəti isə 5 milyon tondur [3, 14 may 1997-ci il].

1997-ci ildə Azərbaycanda ildə 9 milyon ton neft hasil edilirdisə, 1998-ci ildə 11,4 milyon ton, 1999-cu ildə 13,8 milyon ton, 2000-ci ildə isə 14,5 milyon ton neft hasil edilmişdi [8, s.129].

Ötən dövrdə Heydər Əliyevin bilavasitə iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları-Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır. Bu gün həmin sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir. Bu sazişlərdə Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur. Bu məbləğdən 4,5 milyardı artıq ölkəmizə investisiya şəklində qoyulmuşdur.

Hazırda Azərbaycanın bütün kateqoriyaları üzrə karbohidrogen ehtiyatları 4 milyard tondan çoxdur ki, bu da Azərbaycanı dünyanın ən iri neft regionları sırasına çıxarır.

Ölkəmizin neft strategiyasının ən əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsindən ibarətdir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafının, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli buraxılış imkanı ildə 50 milyon ton neft, uzunluğu 1730 kilometr olan yeni Bakı-Tibilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdi. Real həyat növbəti dəfə ümummilli lider Heydər Əliyevin uzaqgörənliyini, onun siyasi, iqtisadi, kommersiya və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurduğu çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu göstərdi.

Ümummilli liderimiz Heydər Əliyevin dünyada yüksək nüfuzu, gündəlik diqqəti və rəhbərliyi

nəticəsində Azərbaycanın maraqlarını yüksək səviyyədə qoruyub saxlaması və mütəmadi olaraq müxtəlif dövlət başçıları ilə danışıqları sayəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması məsələləri qısa müddət ərzində həll olundu və bununla bağlı çox əhəmiyyətli hökumətlərarası sazişlər imzalandı.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə görüşünün gendişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin ərazilərilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə" dair saziş imzalamışlar. Eyni zamanda Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının Prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsini" imzalamışlar. Bununla da Azərbaycanın uzunmüddətli siyasi, iqtisadi mənafelərinin təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, eyni zamanda regionda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi üçün Heydər Əliyev tərəfindən növbəti mühüm addım atılmışdır.

1999-cu il aprelin 17-də Azərbaycan tarixində fövqəladə əhəmiyyətli hadisə baş verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə uzunluğu 850 km və illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Çıraq yatağından hasil olunan neftin “Azəri Layt” adı altında Supsa limanından dünya bazarlarına ixrac edilməsinə başlandı. İlk dəfə olaraq Azərbaycan nefti şimala deyil, qərb istiqamətində axmağa başladı.

Bakı - Supsa neft ixrac kəməri layihəsinin həyata keçirilməsi cənab Heydər Əliyevin təkidi ilə olmuşdur. Bu layihənin əleyhdarları deyirdilər ki, əgər Bakı-Novorossiysk neft kəməri “Çıraq-1” platformasından istənilən həcmdə neft nəql etmək imkanına malikdirsə, əlavə neft kəməri nəyə lazımdır, bu neft kəmərinə yüz milyonlarla dollar sərf etməyə ehtiyac varmı?

Lakin real həyat növbəti dəfə Azərbaycan Prezidentinin uzaqgörənliyini, onun hazırladığı siyasi, iqtisadi, kommersiya və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurulmuş çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu göstərdi.

Azərbaycanın imzaladığı sazişlərin həyata keçirilməsi nəticəsində respublikamızda xam neftin illik ixrac potensialı 2010 – 2015-ci illər üçün ən azı 50-60 milyon ton təşkil edəcəyi proqnozlaşdırılır. Beləliklə də, Azərbaycan çıxarılan neftin həcminə görə İngiltərə, Norveç kimi ölkələrlə eyni səviyyədə olaraq dünyanın ən inkişaf etmiş ölkələri sırasında öz yerini tutacaqdır.

Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəqlidir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir. Yalnız Heydər Əliyevin yüksək nüfuzu və müxtəlif ölkələrin dövlət və hökumət başçıları, siyasi, işgüzar dairələrin nümayəndələri, neft şirkətlərinin rəhbərləri ilə mütəmadi danışıqları nəticəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması barədə mühüm hökumətlərarası sazişlər imzalanmışdır.

Üçillik hazırlıqdan sonra , 2002-ci il sentyabrın 18-də Bakıda Səngəçal terminalında Bakı-Tbilisi- Ceyhan Əsas İxrac Boru Kəmərinin təməlqoyma mərasimi keçirildi [3, 9 yanvar 2003-cü il].

2001-ci il martın 12-də Türkiyənin Ankara şəhərində daha bir qlobal layihə: Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında “Azərbaycanın Təbii Qazının Türkiyə Cümhuriyyətinə Tədarük Edilməsi haqqında” saziş Heydər Əliyev və Türkiyə Prezidenti Əhməd Necdət Sezər tərəfindən imzalandı.

Respublikamızda nəinki neft hasilatının, eyni zamanda qaz hasilatının sürətlə artırılması üçün əsaslar yaranmışdır. Bu səpkidə aparılan işlərin sırasında ən mühüm hadisə Şahdəniz blokunda zəngin

qaz-kondensat yatağının açılması oldu. Şahdəniz yatağının qəti dəyərləndirilməsi sübut etmişdir ki, ehtiyatların potensialı 1 trilyon kubmetrdən artıqdır və bununla Şahdənizin dünyamiqyaslı yataq olduğu təsdiq edildi.

Şahdənizdəki axtarış-kəşfiyyat işlərinin nəticələri nəinki Azərbaycan üçün, həm də bütün regionun energetika kompleksinin strukturunun inkişafı üçün çox böyük əhəmiyyətə malikdir.

Nəticədə Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur ki, bu da respublikamızın gələcək inkişafına əsl qarantdır. Ölkəmizə bu məbləğdən 4,5 milyard dollar artıq investisiya şəklində yatırılıb ki, bunun da 3,7 milyardı birbaşa investisiyalar, 800 milyon dollarını isə bonuslar təşkil edir.

Neft strategiyası ölkəmiz üçün həm iqtisadi, həm də siyasi baxımdan böyük əhəmiyyət kəsb edir, dünya iqtisadiyyat birliyinə inteqrasiyanı daha da sürətləndirməyə və xarici sərmayələrin cəlb olunmasına yeni imkanlar yaradır.

Artıq heç kimə sirr deyil ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin neft strategiyasının uğurları ilk növbədə Azərbaycanın bütün neft şirkətləri üçün açıq olması ilə bağlıdır. Həqiqətən də, respublikamız müvafiq şərtlər çərçivəsində hər bir neft şirkəti ilə əməkdaşlıq etməyə hazırdır. Neft siyasətimizin hər cür ayrı-seçkilikdən uzaq olması bütün sərmayəçilərə məlumdur. Məhz buna görə də indi müqavilələrin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir.

Sərmayəçilərə münasibətdə ayrı-seçkilik qoyulmaması, qarşılıqlı əlaqələrimizin ədalətli və düzgün olması Azərbaycan iqtisadiyyatının başqa sahələrinə də sərmayə cəlb olunmasına yardım edir, eləcə də ölkələrimiz arasında siyasi, mədəni əməkdaşlığın genişlənməsinə, Azərbaycana, Azərbaycan hökumətinin siyasi, iqtisadi xəttinə etimadın artmasına, müstəqil Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir.

Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsinə dair sazişlərin həyata keçirilməsindən Azərbaycan Respublikasının əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanına uyğun olaraq Dövlət Neft Fondu yaradıldı. Dövlət Neft Fondunun yaradılmasında ən mühüm amil Neft Fondunun gələcək nəsillər üçün saxlanılmasıdır.

Respublikada neft və qaz hasilatının ən yaxın gələcəkdə artırılmasının böyük perspektivləri, ölkənin əlverşli siyasi, coğrafi mövqeyi Xəzər bölgəsində Azərbaycanın neft biznesi mərkəzi kimi mövqelərinin möhkəmlənməsi deməyə əsas verir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında olmaq perspektivinə malikdir.

Heydər Əliyevin uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanın gəlirləri artacaq və bu da ona yaxın illərdə bir çox sosial problemləri həll etməyə, xalqımızın rifahını yüksəltməyə, bütün vətəndaşları layiqli işlə, təhsillə, tibbi, sosial xidmətlərlə təmin etməyə, uğurla fəaliyyət göstərən bazar iqtisadiyyatına malik, inkişaf etmiş demokratik ölkəyə çevrilmək imkanı verəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan 1994: Milli dövlətçilik sınaq qarşısında. I hissə. Bakı: Azərnəşr, 2002, 472 s.
2. Azərbaycan oktyabr-94, mart-95. Qəsd. Dövlət çevrilişi cəhdlərinin xronikası. Bakı: Azərnəşr, 1995, 816 s.
3. Heydər Əliyev. Müstəqillik yollarında. I cild. Bakı: 1997, 558 s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. İkinci kitab. May 1994 - dekabr 1994. Bakı: Azərnəşr, 1997, 588 s.
5. Heydər Əliyev. Azərbaycan nefti dünya siyasətində. IV kitab s.119 – 123
6. Xalq qəzeti
7. Mehdiyev R. Azərbaycan Respublikası 1991-2001. B.: XXI-Yeni Nəşrlər Evi, 2001, 280 s.
8. Respublika qəzeti, 23 sentyabr 2001-ci il

9. Şahverdiyev Z.Ə. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. “Qismət” nəşriyyatı. 2002.
10. Şahverdiyev Z.Ə. Naxçıvan Muxtar Respublikasında social-iqtisadi və mədəni inkişaf (2001-2012). Dərs vəsaiti. Naxçıvan, 2015

## SUMMARY

**Zəhmət Şahverdiyev**

Land of Nakhchivan, which is an integral part of Azerbaijan is very complex, difficult path of development. Leitmotif of the policy of Heydar Aliyev, as in other regions of our country in the Nakhchivan Autonomous Republic also successfully fulfilled the mission of building which organized since 1996 began. Chairman of the supreme Assembly Vasif Talybov, social environment, the development of science and education in the socio-economic life of hard work and good results achieved in the field of army building, in the autonomous republic in 1995-2001. As can be seen, although in the blockade of the Nakhchivan Autonomous Republic has achieved all-round development.

***Key words:*** *Socio-economic, land, trade, economy, industry, energy, regional*

## РЕЗЮМЕ

**Захмат Шахвердиев**

Неотъемлемой частью азербайджана, Нахчыванский край очень сложный, сложных прошел путь развития. Лейтмотив политики, составляющих в других регионах нашей страны, как и В Нахчыванской Автономной Республике успешно исполняться с 1996 года началась созидательная миссия гейдара Алиева. Председатель верховного Меджлиса Васиф Талыбов 1995-2001-ci годы в автономной республике в социально-экономической жизни, в общественной среде, в развитии науки и образования в области строительства армии, проводя напряженная работа, достигнуты большие результаты. Как видно, несмотря на то, что в условиях блокады Нахчыванской Автономной Республики, добился всестороннего развития.

***Ключевые слова***: *Край, торговли, экономики, промышленности, энергетики, региональной, социально-экономической*

**NURİYYƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nuriyyeibrahimova@mail.ru*

# MÜƏSSİSƏLƏRİN MALİYYƏ-TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN İQTİSADİ TƏHLİLİNDƏ MƏNFƏƏT BİR İQTİSADİ KATEQORİYA KİMİ

*Bazar iqtisadiyyatı şəraitində mənfəət sənaye müəssisələrinin təsərrüfat fəaliyyətinin son maliyyə nəticələrinin qiymətləndirilməsində əsas göstərici hesab olunur. Eyni zamanda mənfəət müəssisəsinin elmi-texniki, istehsal və sosial inkişafı, iqtisadi həvəsləndirmə fondlarının formalaşması üçün əsas mənbə rolunu oynayır. Deməli, mənfəət istehsalının inkişafının sürətləndirilməsində və onun səmərəliliynin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Bu ən əvvəl bazar münasibətlərini tənzimləyən iqtisadi qanunların fəaliyyəti ilə əlaqədardır. Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası ilk növbədə regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması, və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.*

***Açar sözlər:*** *sosial inkişaf, istehsal, mənfəət, kateqoriya, rəqabət, idxal, ixrac*

Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası ilk növbədə regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində qazanılmış uğurların miqyası və əhatə dairəsi xeyli genişlənmişdir. Ölkə prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında 24 noyabr 2003-cü il tarixdə imzaladığı Fərmanla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər bu sahədə əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmişdir. Digər tərəfdən iqtisadiyyatın bütün sahələrində inkişafa istiqamətləndirilmiş tədbirlərin ayrı-ayrı dövlət proqramları çərçivəsində həyata keçirilməsi ümumi nəticədə səmərəliliyi xeyli artırmış, ümumiqtisadi inkişafın mərkəzlə yanaşı, regionlara doğru istiqamətlənməsində müstəsna əhəmiyyət kəsb etmişdir.

Bazar iqtisadiyyatı şəraitində mənfəət sənaye müəssisələrinin təsərrüfat fəaliyyətinin son maliyyə nəticələrinin qiymətləndirilməsində əsas göstərici hesab olunur. Eyni zamanda mənfəət müəssisəsinin elmi-texniki, istehsal və sosial inkişafı, iqtisadi həvəsləndirmə fondlarının formalaşması üçün əsas mənbə rolunu oynayır. Deməli, mənfəət istehsalının inkişafının sürətləndirilməsində və onun səmərəliliynin yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Bu ən əvvəl bazar münasibətlərini tənzimləyən iqtisadi qanunların fəaliyyəti ilə əlaqədardır.

Bazar iqtisadiyyatına keçid şəraitində mənfəət bir iqtisadi kateqoriya kimi başlıca olaraq üç əsas funksiyanı yerinə yetirir. Birinci, qiymətləndirmə funksiyası-hər bir müəssisənin təsərrüfat fəaliyyətinin nəticələrini özündə əks etdirməklə işin iqtisadi səmərəliliyini xarakterizə edən əsas göstərici kimi çıxış edir. Məlumdur ki, müəssisələrin (birliklərin) təsərrüfat fəaliyyətinin nəticəsi məhsul buraxılışına dair plan tapşırıqlarının və müqavilə öhdəliklərinin yerinə yetirilməsi hesab olunur. Mənfəət isə bu göstəricini tamamlayır və səmərəlilik mövqeyindən onu inkişaf etdirir. Bu baxımdan mənfəət başqa iqtisadi göstəricilərlə əlaqəli sürətdə təsərrüfat fəaliyyətinin nəticələrini qiymətləndirməyə imkan verən əsas göstərici kimi qəbul edilir. Sənaye müəssisələri özünün təsərrüfat fəaliyyətində dövlət sifarişləri və müqavilə öhdəlikləri nəzərə alınmaqla istehsal planının yerinə yetirməklə yanaşı eyni zamanda normal rentabellik səviyyəsini təmin etməlidir. Normal şəraitdə işləyən müəssiə mənfəətlə deyil, zərərlə işləyirsə onun təsərrüfat fəaliyyəti qeyri-qənaətbəxş kimi qiymətləndirilməlidir. Göründüyü kimi, mənfəətin birinci funksiyası müəssisələrin təsərrüfat

fəaliyyətinin səmərəlilik göstəricisidir.

Mənfəətin ikinci funksiyası onun bölgü funksiyasıdır. Belə ki, mənffət izafi məhsulun və пul formasında xalis gəlirlərin müvafiq hissəsinin müəssisə ilə dövlət, müəssisə ilə onun kollektivi arasında bölüşdürülməsində əsas vasitə kimi çıxış edir.

Məlumdur ki, müəssisə dövlət büdcəsi müdaxilinin formalaşdırılmasında iştirak edir. Dövlət büdcəsinin vəsaiti isə iqtisadi və sosial tədbirlərin görülməsinə, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə və dövlətin başqa tələbatının ödənilməsinə yönəldilir. Müəssisə ilə dövlət büdcəsi arasında maliyyə münasibətləri vergi dərəcələri arasında qoyulur. Müəssisə mənfəətin bir hissəsini qanunvericilikdə nəzərdə tutulmuş qaydada büdcəyə ödəyir.

Müəssisə ilə büdcə arasında mənfəətin bölüşdürülməsi, müəssisələrin istehsal fondlarından, əmək ehtiyatlarından və təbii resurslardan istifadə etməsi qarşısında dövlətin eyni dərəcəli tələblərini təmin etməlidir.

Azərbaycan Resпublikasında hüquqi şəxslərin ayrı-ayrı növ gəlirlərindən vergi haqqında qanuna görə müəssisənin mənfəətinin müəyyən edilmiş normalardan və dərəcələrdən artıq, habelə qanunvericilikdə nəzərdə tutulmamış hallarda alınması və yenidən bölüşdürülməsi qadaьan edilir. Başqa təşkilatlara və dövlətə dəymiş zərərin müəssisə tərəfindən ödənilməsi cərimələrin, dəbbələmə пulunun və qanunvericiliklə müəyyən edilmiş başqa iqtisadi sanksiyaların ödənilməsi kollektivin sərəncamında qalan mənfəət hesabına təmin edilir.

Müəssisənin sərəncamında qalan mənfəət hesabına iqtisadi həvəsləndirmə fondları formalaşdırılır. Göründüyü kimi, mənfəətin aпarılması müəssisə və bütövlükdə xalq təsərrüfatı miqyasında maliyyə vəziyyətinin sabitliyi və iqtisadiyyatın inkişafı üçün əsas mənbə hesab olunmaqla bölgü funksiyasını yerinə yetirir.

Müxtəlif mülkiyyət münasibətləri şəraitində mənfəət müəssisənin təsərrüfat fəaliyyətinin son iqtisadi nəticələrini xarakterizə edir. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, istehsala əmək, material və maliyə resurslarının sərf edilməsinin iqtisadi səmərəsi məhsul satışı пrosesi başa çatdıqdan sonra müəyyən olunur. Deməli, mənfəət istehsal sferası ilə tədavül sferası arasında qarşılıqlı əlaqə yaradır.

Mənfəətin üçüncü mühüm funksiyası keyfiyyət göstəricisi olmaqla müəssisənin iqtisadi həvəsləndirmə fondlarının əsas mənbəyi kimi çıxış edir. Mənfəət maddi maraq fondunun, istehsalın, elm və texnikanın inkişafı fondunun, sosial inkişaf fondunun formalaşması üçün əsas mənbədir. Qeyd etmək lazımdır ki, mənfəət elmi-texniki tərəqqi əsasında geniş təkrar istehsalın və maliyyə ehtiyatlarının mənbəyi kimi də çıxış edir.

Beləliklə, mənfəətin bu yuxarıda göstərilən funksiyalarının heç birini bazar mexanizminin fəaliyyət пrinsiпlərindən ayrılıqda təsəvvür etmək mümkün deyildir. Mənfəətin funksiyaları istehsalın inkişaf etdirilməsi ilə yanaşı bütün mərhələlərdə istehsal пrosesinin tənzimləşdiricisi kimi mühüm rol oynayır.

Mənfəət üzrə пlanın yerinə yetirilməsini, müxtəlif amillərin mənfəətə təsirini, onun strukturunu və dinamikasını qiymətləndirmək üçün пlanlaşdırma, uçot, hesabat və təhlil işlərində istifadə olunan və mənfəəti xarakterizə edən göstəricilər sistemini bilmək lazımdır. Hal-hazırda qüvvədə olan qaydaya görə idarəetmə işlərində, o cümlədən пlanlaşdırma və пroqnozlaşdırma, mühasibat uçotu, audit, hesabat və təhlil işlərində balans mənfəəti, məhsul satışından alınan mənfəət, sair satışdan alınan mənfəət, satışdan kənar əməliyyatlardan gəlirlər və xərclər, vergi tutulan mənfəət, yəni vergiyə cəlb olunan mənfəət, güzəştli mənfəət, yəni mənfəət vergisi hesablanarkən hesaba alınmayan mənfəət, müəssisənin sərəncamında qalan mənfəət, xalis mənfəət və investisiya edilmiş mənfəət göstəricilərindən istifadə olunur.

Mənfəəti xarakterizə edən göstəricilər sistemində balans mənfəəti xüsusi yer tutur. Bu göstərici müəssisənin istehsal-maliyyə və idarəetmə fəaliyyətinin nəticələrini özündə əks etdirir. Azərbaycan Resпublikası Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş “Müəssisənin illik mühasibat hesabları və onların tərtibi qaydalarında” göstərilir. Balans mənfəəti (zərər) mühasibat uçotu əsasında təsərrüfat əməliyyatlarının və bu qanuna uyьun olaraq balans maddələrinin qiymətləndirilməsinin sonuncu

maliyyə nəticəsi kimi özündə müəssisənin əsas vəsaitlərinin və başqa əmlaklarının, məhsullarının satışından olan mənfəəti, həmçinin qeyri-satış əməliyyatlarından gələn gəlirləri cəmləşdirir.

Məhsulların, malların satışından alınan mənfəət (zərər) Azərbaycan Resпublikasının Qanunvericiliyi ilə müəyyən edilmiş vergilər və digər məcburi ödənişlər nəzərə alınmadan qüvvədə olan qiymətlərlə məhsulların satışından gələn gəlir və onların istehsalına, satışına çəkilən xərclər, başqa sözlə desək reallaşdırılan məhsulun (iş və xidmətlərin) tam maya dəyəri arasındakı fərq kimi müəyyən edilir. Bu mənfəət göstəricisi müəsisənin məhsul istehsalı və satışı fəaliyyətinin nəticələrini daha dürüst qiymətləndirməyə imkan verir və balans mənfəətinin tərkibində daha böyük yer tutur.

Maliyyə nəticələrinin formalaşmasının iqtisadi əsası onların gəlirlərindən və xərclərindən ibarətdir. Onların mahiyyəti və tərkibi mühasibat uçotu üzrə normativ sənədlərlə müəyyən edilir. İstehsalat ,təsərrüfat və maliyyə fəaliyyətinin nəticəsi kimi mənfəət alınmasını nəzərdə tutur.

Mənfəət təşkilatın işinin səmərəliliyinin ən mühüm iqtisadi göstəricisidir. Onun məbləğinin dəyişməsində təşkilatın fəaliyyətinin bütün tərəfləri:

1) Malların, məhsulların, işlərin, xidmətlərin istehsal və satışı, həcmlərinin azalması və ya artması;
2) Təşkilatın malik olduğu ehtiyatlardan (maddi, əmək ehtiyatlarından, əsas fondlardan və.s) səmərəli, yaxud səmərəsiz istifadə edilməsi;
3) Rəqabətlə əlaqədar satış bazarlarında qiymət siyasəti;
4) Maliyyə əməliyyatlarının (pul vəsaitlərilə, qiymətli kağızlarda) səmərəliliyi;
5) Əmlak üzrə əqdlərin (sazişlərin) səmərəliliyi;
6) Digər təşkilatların fəaliyyətində iştirakın səmərəliliyi;
7) Debitor borclarının idarə edilməsinin səmərəliliyi;
8) Təsərrüfatsızlıq sayəsində zərərlərin (kontingentlərə müqavilə şərtlərinin pozulmasına görə cərimələrin, penyaların, dəbbələmə pullarının, digər təşkilatlara vurulmuş zərərlərin əvəzinin ödənilməsinin və.s) olması və ya olmaması aydınlaşdırılır.

İdarəetmənin icraçı orqanı (baş direktor, direktorlar şurası) əsas fəaliyyət üzrə zərərli əməliyyatların, daşınmaz əmlak, valyuta və digər əmlak üzrə zərərli sazişlərin yaranması səbəblərini təşkilatın mülkiyyətçilərinə (səhmdarlarına) izah edilməlidir.

Mənfəət ilin əvvəlindən başlayaraq artan yekunla nəzərə alınır.

- ✓ Kredit üzrə - ***mənfəətlər, gəlirlər;***
- ✓ Debetlər üzrə - ***zərərlər, xərclər***.

**Balans mənfəətinin amili (faktorlu) təhlili**

| Sıra sayı | Balans mənfəətinin toplananları (dəyişmə amilləri) | Əvvəlki analoji dövrdə | | Hesabat dövründə | | Balans mənfəətinə təsiri (+;-) | |
|---|---|---|---|---|---|---|---|
| | | Məbləği min man. | Xüsusi çəkisi % | Məbləği min man. | Xüsusi çəkisi % | Məbləği min man. | Faizlə |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** |
| 1 | Satışdan alınan mənfəət | 36500 | 91,25 | 49100 | 87,68 | +12600 | +31,5 |
| 2 | Alınmalı fazilər | 5400 | 13,50 | 7000 | 12,50 | +1600 | +4,0 |
| 3 | Ödənilməli faizlər | -2700 | -6,75 | -3500 | -6,25 | -800 | -2,0 |
| 4 | Digər təşkilatlarda iştirak etməkdən alınan gəlirlər | - | - | - | - | - | - |
| 5 | Digər əməliyyat gəlirləri | 4400 | 11,00 | 6400 | 11,43 | +2000 | +5,0 |
| 6 | Digər əməliyyat | -3700 | -9,25 | -3300 | -5,89 | +400 | +1,0 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | xərcləri | | | | | | |
| 7 | Satışdankənar gəlirlər | 900 | 2,25 | 1000 | 1,78 | +100 | +0,25 |
| 8 | Satışdankənar xərclər | -800 | -2,00 | -700 | -1,25 | +100 | +0,25 |
| 9 | Balans mənfəəti | 40000 | 100,0 | 56000 | 100,0 | 16000 | +40,0 |

Mənfəətin göstəriciləri mühasibat hesabında “Maliyyə nəticələri və onların istifadəsi haqqında hesabat” üzrə 2 saylı formada təqdim edilir. Mənfəət – kommersiya təşkilatlarında investisiyaların, habelə şəxsi heyətin maddi həvəsləndirilməsinin və sosial ödəmələrin ən mühüm mənbəyidir. Hesabat ilinin və keçmiş illərin bölüşdürülməmiş mənfəəti təşkilatın öz dövriyyə kapitalının artırılması üçün istifadə edilir, yəni onun bazarda davamlılığının və ödəmə qabiliyyətinin yüksəldilməsinə şərait yaradır.

Balans mənfəəti hesablanan zaman, habelə alınan satışdankənar əməliyyatlardan alınan gəlirlər və xərclər, başqa sözlə desək, satışdankənar nəticələr, alınmış və ödənilmiş пeniya, cərimə və dəbbələmə məbləьləri, əmanətlər və qiymətli kaьızlar üzrə gəlirlər, digər iqtisadi sanksiyalar üzrə alınan gəlirlər, müəssisənin hesabında olan vəsaitlərin yekunu üzrə alınmış faiz məbləьləri, valyuta hesabları və xarici valyuta əməliyyatları üzrə məzənnə (kurs) fərqləri, hesabat ilində aşkara çıxarılmış keçmiş illərin mənfəəti və zərərləri, təbii fəlakətlərdən dəymiş zərərlər, debitor borclarının silinməsindən itkilər, əvvəllər ümidsiz borclar kimi silinmiş borcların ödənilməsi üzrə gəlirlər daxil edilir.

Qüvvədə olan qaydaya görə müəssisəyə mənsub olan səhmlər, istiqrazlar və digər qiymətli kaьızlar üzrə əldə edilən gəlirlərin ümumi məbləьi və birgə müəssisələrin fəaliyyətində iştirakına görə alınan gəlirlər satışdankənar gəlirlərə aid olmasına baxmayaraq “Maliyyə nəticələri və onların istifadəsi haqqında” 2 saylı hesabat formasında ayrıca sətirdə əks etdirilir. Bundan başqa, həmin hesabatda xarici valyuta əməliyyatları üzrə məzənnə (kurs) fərqi də ayrıca sətirdə göstərilir.

## ƏDƏBİYYAT


1. Abbasov Q.Ə. Məhsul istehsalına məsrəflərin mühasibat uçotu. “Maliyyə və uçot” jurnalı, № 9-10, 1998
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: 2001
3. Azərbaycan Respublikasının “Mühasibat uçotu haqqında” Qanunu. Bakı: 2004
4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 iyul 1997-ci il tarixli 71 saylı “Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tənzimlənməsi haqqında” Qərarı
5. Cəfərli H. İqtisadi təhlil (dərslik). Bakı: Elm və təhsil, 2009, 560 s.
6. Əliyev R.B., Abbasova S.A. Qeyri müstəqim xərclərin uçotu və təhlilinin bəzi məsələləri. Bakı: maliyyə və uçot jurnalı, № 11-12, 1997
7. Mahmudov İ.M., Zeynalov T.Ş., Quliyev F.M. İqtisadi təhlil (dərslik). Bakı: 2003, 492 s.
8. Mahmudov İ., Zeynalov T., Mahmudov R. Maliyyə vəziyyətinin təhlili (dərs vəsaiti). Bakı: Nasir, 2000, 182 s.
9. Namazəliyev. H.İ. Sənaye müəssisələri təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Bakı: Maarif, 1995, 388 s.
10. Seyfullayev S.M., Abbasov İ.M. Bazar münasibətlərində iqtisadi təhlil. Bakı: Ergün, 1993, 175 s.
11. Kazımov R.N. Müəssisənin maliyyə sabitliyinin təhlili. Metodik göstəriş. Bakı: 2005
12. “Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili”. Dərs vəsaiti Əcəmi, 2015
13. “Əmək münasibətlərinin praktik uçotu”. Dərs vəsaiti. Əcəmi, 2019

**SUMMARY**

**Nuriyya Ibrahimova**

**ECONOMIC OF FINANCIAL AND ECONOMIC ACTIVITY OF ENTERPRISES PROFIT IN THE ANALYSIS AS AN ECONOMIC CATEGORY**

The article notes that in a market economy, profit is a key indicator in assessing the final financial results of economic and financial activities of industrial enterprises. At the same time, it plays a key role in the formation of scientific and technical, production and social development of economic enterprises, economic incentive funds. Thus, profit is important in accelerating the development of production and increasing its efficiency. This is primarily due to the operation of economic laws governing market relations.

***Key words: social*** *development, production, profit, category, competition, import, export*

**РЕЗЮМЕ**

**Нурия Ибрагимова**

**ЭКОНОМИКА ФИНАНСОВО-ХОЗЯЙСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ ПРЕДПРИЯТИЙ ПРИБЫЛЬ В АНАЛИЗЕ КАК ЭКОНОМИЧЕСКАЯ КАТЕГОРИЯ**

В этой статье отмечается, что в условиях рыночной экономики прибыль является ключевым показателем при оценке окончательных финансовых результатов экономической и финансовой деятельности промышленных предприятий. В то же время она играет ключевую роль в формировании научно-технического, производственного и социального развития экономических предприятий и фондов экономического стимулирования. Таким образом, прибыль имеет важное значение для ускорения развития производства и повышения его эффективности. Это объясняется главным образом функционированием экономических законов, регулирующих рыночные отношения

***Ключевые слова:*** *социальное развитие, производство, прибыль, категория, конкуренция, импорт, экспорт*

**SAMİR HƏZİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*sws1samir@hotmail.com*

# İNNOVASİYALI İQTİSADİYYATDA MÜƏSSİSƏLƏRİN MALİYYƏ PLANLAŞDIRILMASI VƏ İDARƏ EDİLMƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

*Məqalədə müəssisələrin bazar iqtisadiyyatında innovasiyadan səmərəli itifadə edilməsinə və bu minvalda maliyyə planlaşdırılmasına və maliyə strateji xəttinin bir birilə qarşılıqlı sürətdə inkişafına ümumi baxışdan söhbət gedir. Maliyyə planlaşdırılmasının prinsiplərinə tam şəkildə sadiqlik müəssisənin rentabelliyini artırmaqla maliyyə aktivlərinin likvidliyinin yüksəlməsinə yüksək dərəcədə təsir göstərir.*

***Açar sözlər:*** *müəssisələrin fəaliyyəti, sənaye subyektləri, müəssisədə maliyyə planlaşdırılması, müəssisədə strateji planlaşdırılma, innovasiya*

Maliyyə planlaşdırılması maddi istehsal sferasında meydana çıxan bütün maliyyə münasibətlərini əhatə etdiyinə görə müəssisə maliyyəsi maliyyə sisteminin tərkib hissəsini və maddi bazasını təşkil edir. Bazar iqtisadiyyatı müəssisə maliyyəsinin möhkəm və sabit olmasını tələb edir. Çünki elmi-texniki tərəqqi, istehsalın səmərəliliyinin yüksəldilməsi və s. ancaq özünü maliyyələşdirmə əsasında mümkündür. Maddi istehsal sferasında meydana çıxan bütün maliyyə münasibətlərini əhatə etdiyinə görə müəssisə maliyyəsi sosial-iqtisadi maliyyə sisteminin əsas tərkib hissəsini və maddi bazasını təşkil edir. Bazar iqtisadiyyatı müəssisə maliyyəsinin möhkəm və sabit olmasını tələb edir. Çünki elmi-texniki tərəqqi, istehsalın səmərəliliyinin yüksəldilməsi və s. ancaq özünü maliyyələşdirmə əsasında mümkündür.

Başqa iqtisadi kateqoriyalar kimi müəssisə maliyyəsi də iqtisadi münasibətlərin məcmusudur. Deməli, müəssisə maliyyəsi maliyyə münasibətlərinin məcmusundan ibarətdir. Müəssisə maliyyəsi bölüşdürücü münasibətləri ifadə edir, yəni təkrar istehsal prosesinin istehsal, mübadilə və istehlak mərhələlərində maliyyə iştirak etdiyinə görə müəssisələrdə istehsal fondlarının dövriyyəsini maliyyəsiz təsəvvür etmək olmaz. Pulun hərəkəti nəticəsində baş verən maliyyə münasibətlərinə göstərmək olar:

- Müəssisə ilə başqa müəssisə və təşkilatlar arasında maliyyə münasibətləri. Bu münasibətlər satıcılar, alıcılar və s. təşkilatlarla alqı satqı zamanı yaranır;
- Müəssisə daxilində pul münasibətləri. Belə maliyyə münasibətləri müəssisə ilə onun işçiləri arasında əmək haqqı, mükafatı və s. ödənildikdə və eyni zamanda müəssisə işçiləri ilə onun bölmələri, şöbələri və s. arasında yaranır;
- Müəssisə ilə maliyyə sistemi arasında maliyyə münasibətləri. Bu münasibətlər büdcə və büdcədənkənar fondlara vergi və ödənişlər köçürülən zaman meydana çıxır;
- Müəssisə ilə kredit sistemi arasında maliyyə münasibətləri. Müəssisə kredit aldıqda, kreditlər silindikdə və faizlər ödənildikdə meydana çıxır;
- Müəssisə ilə onun baş idarəsi arasında yaranan maliyyə münasibətləri. Bu münasibətlər baş idarəyə və müəssisələr tərəfindən mərkəzləşdirilmiş fondlarla mənfəət, amortizasiya ayırmaları və s. köçürüldükdə və baş idarə tərəfindən həmin vəsaitlərin bölüşdürülməsi zamanı meydana çıxır;
- Bazar münasibətlərinə keçid ilə əlaqədar müəssisə ilə fond birjaları arasında səhm, istiqraz və s. qiymətli kağızların alqı-satqısı ilə əlaqədar meydana çıxan maliyyə münasibətləri. Beləliklə, müəssisə maliyyəsi gəlirlərin və yığımın yaradılması, bölüşdürülməsi və istifadəsi proseslərində meydana çıxan pul münasibətlərinin məcmusunu ifadə edir.

Planlaşdırma müəssisənin resurslarından səmərəli istifadə edilməsi hesabına işin daha mənfəətli olmasına nail olmaqdır. Bu məqsədlə maliyyə planının tərtib olunması yolu ilə daha yaxşı nailiyyətlər əldə etmək olar. Maliyyə planı fəaliyyətinin həyata keçirilməsinin nəzərdə tutduğu bazar haqqında məlumat verməli olan satışın həcminin proqnozlarını özündə birləşdirir. Bazara tələbat

qiymətləndirilərkən tələb və təklifin mümkün hərəkəti, qiymətlərin dəyişməsi və rəqibin inkişafını nəzərə almaq lazımdır. Planlaşdırma funksiyaları arasında qısamüddətli və uzunmüddətli funksiyaları ayırmaq olar. Qısamüddətli planlaşdırmada maliyyə ehtiyatlarından qısamüddətli istifadə etmək imkanları böyükdür. Kredit dərəcələri 1%-dən 5%-ə qədər dəyişir. Qısamüddətli kreditin verilməsinin müddəti müştərinin arzusu ilə uzadıla bilməz. Uzunmüddətli planlaşdırmada maliyyələşdirmə xeyli mürəkkəbdir. Bu halda kapitalın büdcələşdirilməsi, yəni kapitalın xərclənməsinin optimal strukturu, istehsalın genişləndirilməsində uzunmüddətli investisiyalar, fəaliyyət göstərən aktivlərin yerləşdirilməsi və yaxud təzələnməsinin müəyyən edilməsi və digər işlər yerinə yetirilir. Maliyyənin idarə edilməsində faktorinq və lizinq əməliyyatları mühüm əhəmiyyət kəsb edir. Maliyyə axınlarının səmərəli idarə edilməsi üçün dövriyyə kapitalının optimal miqdarının müəyyən edilməsi böyük əhəmiyyət kəsb edir. Nəğd pul vəsaitlərinin çatışmaması müəssisəni iflasa apara bilər, həm də firmanın artım sürəti nə qədər yüksəkdirsə, nəğd pulsuz qalmaq riski o qədər böyükdür. Maliyyənin səmərəli idarə edilməsi ona cəhd edilməsini nəzərdə tutur ki, müəssisənin öz borclarını ödəməsi müddəti borc məbləği nəzərə alınmaqla debitorlar tərəfindən ona olan borcun ödənilməsi müddətindən çox olsun. Haqqı ödənilməmiş alışların məbləğinin haqqı ödənilməmiş satışların məbləğindən çox olması tələb olunan dövriyyə kapitalının miqdarını azaltmağa və nəticədə əlavə gəlirlər əldə etməyə imkan verir.

İqtisadiyyatın bütün sahələrində təsərrüfatçılığın təşkilati-hüquqi formalarından asılı olmayaraq kommersiya fəaliyyəti göstərən müəssisələrdə maliyyənin təşkili aşağıdakı prinsiplərə əsaslanır:

- Təsərrüfat sərbəstliyi;
- Özünü maliyyələşdirmə;
- Maddi maraq;
- Maddi məsuliyyət;
- Maliyyə ehtiyatlarının yaradılması.

Bazar münasibətlərinə keçid şəraitində mülkiyyət formasından asılı olmayaraq kommersiya fəaliyyəti göstərən bütün müəssisələr təsərrüfat və maliyyə sferalarında real sərbəstliyə malikdirlər. Müəssisələrin bazar dəyəri qoyulan investisiyaların həcmindən, maliyyə və mənfəət bölgüsü qərarlarından asılı olaraq dəyişə bilər. Müəssisə müxtəlif sahələrə qoyduğu investisiyaların həcmini artırdıqda, paralel olaraq borcların xüsusi kapital nisbəti də artacaqdır. Digər tərəfdən fəaliyyətlərin də səmərəliliyini və məhsuldarlığını təmin etdikdə potensial gəlirləri də xeyli artacaqdır.

Müəssisələr tərəfindən innovasiyalı inkişaf strategiyalarının tətbiqi bazar münasibətləri şəraitində müəssisələrin rəqabətqabiliyyətliliyinin formalaşmasında və ümumi inkişafında ən vacib şərtlərdən biridir. Bu məsələ ətraf mühit amillərində daima dəyişikliklərin baş verməsi və əmtəə bazarlarında rəqabətin mövcudluğu şəraitində daha da aktuallaşır. Dünya iqtisadiyyatının, eləcə də milli iqtisadiyyatların formalaşması və inkişafının bütün mərhələlərində innovasiya xüsusi rol oynamış, müəssisələr tərəfindən innovasiya strategiyalarının tətbiqi zərurətə çevrilmiş, bu məsələ iqtisadçı alimlərin daima diqqət mərkəzində olmuşdur. İqtisadi ədəbiyyatlarda innovasiyanın mahiyyətinin açıqlanmasına müxtəlif yanaşmalar mövcuddur. Bir qrup mütəxəssislər innovasiyaya hər hansı bir yenilik kimi yanaşırlar. Digər bir qrup alimlər isə innovasiyaya son nəticədə yeni bir şeyin yaranmasını təmin edən proses kimi baxırlar. Başqa bir yanaşmada innovasiyaya hər hansı bir institutsional dəyişiklik kimi baxılır. İnnovasiyanın mahiyyətinin açıqlanmasına digər yanaşmalar da mövcuddur və onların hamısı son innovasiyanı yeniliyin yaradılması və tətbiq edilməsi kimi qiymətləndirirlər. Müəssisələrin innovasiya inkişaf strategiyalarının hazırlanmasında və həyata keçirilməsində yüksək əhəmiyyət kəsb edən məsələlərdən biri innovasiyanın tipologiyasıdır. İnnovasiyanın çoxlu sayda tipləri mövcuddur. İnnovasiya nəzəriyyəsinin ilk yaradıcılarından hesab edilən Y.Şumpeter belə hesab edir ki, inkişaf "yeni təsərrüfat kombinasiyalarının" aşağıdakı tiplərinə uyğun olaraq baş verir:

- 1. Yeni nemətin və ya nemətin yeni keyfiyyətinin yaradılması;
- 2. Yeni istehsal üsulunun yaradılması;

- 3. Yeni satış bazarının mənimsənilməsi;
- 4. Yeni xammal və yarımfabrikat mənbələrinin əldə edilməsi;
- 5. Yenidən təşkil olunmanın həyata keçirilməsi (Yeni təsərrüfat firmasının yaradılması).

Bundan başqa innovasiyanın yenilik səviyyəsi, radikallıq dərəcəsi, tətbiq sahələri, istifadənin xarakteri kimi ölçüləri nəzərdə tutan çoxlu sayda tipləri mövcuddur. Mikroqtisadiyyatda müəssisələrin innovasiya fəaliyyətində aşağıdakı innovasiya tipləri daha məqsədəuyğun hesab edilə bilər;

- Yeni məhsulun yaradılması və ya mövcud məhsulun ciddi surətdə təkmilləşdirilməsi;
- Yeni texnologiyaların tətbiq edilməsi;
- Yeni idarəetmə sisteminin qurulması;
- Yeni informasiya-kommunikasiya sisteminin yaradılması və tətbiqi.

Qeyd olunan istiqamətlərdə innovasiya fəaliyyətinin həyata keçirilməsi müəssisənin innovasiya inkişaf strategiyalarının müxtəlifliyini əsaslandırır. Müəssisələr qarşıya qoyduqları məqsədlərə, potensial imkanlarına daha çox uyğun olmağa, bazarda dayanıqlı mövqeyə nail olmağa, rəqabətqabiliyyətliliyi təmin etməyə imkan verən innovasiyanın tipini müəyyənləşdirir, ona nail olunmasını təmin edəcək innovasiya inkişaf strategiyasını seçir və innovasiya fəaliyyətini həyata keçirirlər. Bu baxımdan müəssisədə innovasiya prosesinin planlaşdırılması və idarə edilməsi əsas məsələlərdən birinə çevrilir. Müasir əmtəə bazarlarında innovasiya məhsulların yeniləşdirilməsi və ya təkmilləşdirilməsinin, eləcə də müəssisələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin və bazar mövqeyinin möhkəmləndirilməsinin ilkin əsasını təşkil edir, biznesin inkişafını təmin edən əsas vasitəyə, yaradıcı hücum strategiyasına çevrilir. Müəssisələrdə innovasiya proseslərinin həyata keçirilməsi, innovasiya inkişaf strategiyasının seçilməsi və tətbiqi marketinq prinsipləri əsasında qurulduqda daha səmərəli nəticələr əldə etməyə imkan verir.

Maliyyə planlaşdırması, təşkilatın inkişafını təmin etmək üçün bütün gəlir və xərclərin planlaşdırılmasıdır. Məqsədlərdən və istiqamətlərdən asılı olaraq bir neçə maliyyə planı ola bilər. Belə bir plan gələcək dövrdə alınması və maliyyələşdirilməsi planlaşdırılan gəlir və xərclərin qruplaşdırılmış maddələri şəklində, balans şəklindədir. Maliyyə planı hazırlamağa başlamazdan əvvəl maliyyə planlaşdırmasının məqsədlərini başa düşmək lazımdır. Maliyyə planlaşdırmasının əsas vəzifələri aşağıdakılardır:

- Effektiv investisiya qoyuluşu yollarının müəyyənləşdirilməsi;
- Maliyyə vəziyyətinin monitorinqi;
- İnvestorlar və səhmdarların maraqlarına uyğunluq;
- Büdcə, banklar və büdcədənkənar fondlarla münasib münasibətlər qurmaq;
- Gizli ehtiyatların müəyyənləşdirilməsi;
- Təşkilat üçün lazımi mənbələri təmin etmək.

Maliyyə planlaşdırmasının vəzifələrindən əlavə, onun prinsipləri də mövcuddur:

- Proqnozlaşdırma. Təşkilatın və ölkənin iqtisadi vəziyyətini təhlil edir (bəzən bütün dünya, əgər bu transmilli korporasiyadırsa). Proqnozun keyfiyyəti maliyyə planının keyfiyyətini müəyyənləşdirir;
- Optimallaşdırma. Bu, təşkilata və işçilərinə zərər vermədən xərclərin azaldılması və pulun ən effektiv investisiya qoyulması deməkdir;
- Nəzarət. Səlahiyyətli bir maliyyə planı məsuliyyətsizliyə yol vermir, kimin nəyə görə cavabdeh olduğunu və təşkilatın bütün aspektlərinə nəzarət etməyinizə imkan verir;
- Sənədləşmə. Sənəd idarəetməsi idarəetmənin təbii nəticəsidir;
- Koordinasiya. Fərqli şöbələrin maliyyə planları bir-biri ilə sıx əlaqədə inkişaf etdirilməlidir. Bəzən bir hissəyə digər xərclər üçün qurban vermək kifayətdir;
- Prioritetləşdirmə. Maliyyə planını yerinə yetirmək üçün menecer dəqiq və qısaca müəyyənləşdirməlidir. Əsas prioritetlər təşkilatın bütün hərəkətlərinə və maliyyə əməliyyatlarına tabe olmalıdır. Prioritetlər olmadan bir şirkət tamamilə lazımsız sahələrdə bir ton pul xərcləyə bilər və

sadəcə maddi cəhətdən çökə bilər;

- Uyğunluq. Özünüz üçün iddialı məqsədlər qoymağınız çox təqdirəlayiqdir, lakin əsassız ambisiyalar kədərli nəticələrə səbəb ola bilər;
- Multivarans və rahatlıq. Plan iqtisadi iqlimə uyğun olaraq düzəldilə bilər. İqtisadiyyat hər gün dəyişir, buna görə də onun meyllərini izləmək və maliyyə planına düzəlişlər etmək lazımdır.

Müasir dövrdə innovasiya fəaliyyətinin həyata keçirilməsində strateji planlaşdırılmanın rolu durmadan artır. Strateji planlaşdırılma əmtəənin həyat dövranının təhlilinə əsaslanır və aparılan təhlilin nəticələrinə uyğun olaraq müvafiq strategiyalar seçilir və tətbiq olunur. Müəssisədə yeni məhsulun yaradılması haqqında qərar qəbul edilməsi, əsasən, məhsulun həyat dövranının böhran mərhələsinə daxil olması ilə əlaqədardır. Bu mərhələdə müəssisə ya həmin məhsulu təkmilləşdirmək, ya da onu yenisi ilə əvəz etmək haqqında qərar qəbul etməli olur. Müəssisə innovasiya qərarı qəbul edərkən özünün innovasiya potensialını təhlil edir, qiymətləndirir. Müəssisə innovasiya qərarlarını eyni zamanda məhsul çeşidi siyasətilə əlaqələndirir, resursların və risklərin innovasiya prosesinin mərhələləri üzrə bölüşdürülməsini həyata keçirir. İnnovasiya fəaliyyəti haqqında qərarların qəbulunda, innovasiya strategiyalarının seçilməsində ətraf mühit amillərinin təsiri olduqca böyükdür. Ətraf mühit amillərində baş verən dəyişikliklər müəssisələrin fəaliyyətində həm geniş imkanlar, həm də təhlükələr yarada bilir. Odur ki, müəssisələr ətraf mühit amillərinin təsirindən qorunmağa və yaratdığı imkanlardan faydalanmağa çalışırlar. İnnovasiya strategiyaları üzrə qərarların qəbulu prosesində xarici mühitə uyğunlaşma zamanı müəssisə rəqiblərə və tərəf müqabillərə münasibətdə öz mövqeyini müəyyənləşdirir. Rəqiblərə münasibətdə müəssisə hücum, müdafiə və təqlidetmə strategiyalarını tətbiq edə bilər. Tərəf müqabillərə (malgöndərənlər, vasitəçilər, istehlakçılar) münasibətdə müəssisə müəyyənləşdirməlidir ki, hansı işləri özü görməlidir, hansı işləri isə onların iştirakı ilə həyata keçirməlidir. Artıq bir çox firmalar innovasiya fəaliyyətinin həyata keçirilməsində strateji planlaşdırılmanın əhəmiyyətini və rolunu xüsusi qiymətləndirirlər. Bu əmtəə bazarında rəqabətin kəskinləşməsi, elmi texniki tərəqqinin sürətli inkişafı ilə şərtlənir. Strategiyanın seçilməsi innovasiya fəaliyyətində tədqiqatların və işləmələrin həyata keçirilməsi planının işlənib hazırlanması ilə əlaqəlidir.

Strateji planlaşdırma məlumatların yığılmasına və təhlilinə, çoxsaylı tədqiqatların həyata keçirilməsinə əsaslanır. Bu da öz növbəsində bazar üzrə daimi nəzarəti həyata keçirməyə imkan verir. Eyni zamanda nəzərə almaq lazımdır ki, müasir dünyada şərait sürətlə dəyişir. Bu baxımdan strategiya elə hazırlanmalıdır ki, zəruri hallarda onu dəyişdirmək və ya digəri ilə əvəz etmək mümkün olsun.

Maliyyənin planlaşdırılması müəyyən bir müddət ərzində pul vəsaitlərinin hərəkətinin planıdır, strateji planlaşdırma isə təşkilatın yol xəritəsini planlaşdırmaqdır. Qarşıya qoyulmuş maliyyə məqsədlərinə çatmaq üçün maliyyə planlaşdırması aparılır. Sonra strateji planlaşdırma müəssisənin görmə və missiyasını nəzərə alaraq gələcək üçün planlar qurur. Bir müəssisənin müvəffəqiyyəti hər iki planlaşdırmanın effektivliyindən asılıdır. Maliyyə planlaşdırması vəsaitlərin idarə olunması prosesinə aiddir. Maliyyə planı müəyyən bir dövrdə pul vəsaitlərinin daxilolmalarını və pul vəsaitlərinin xaric olmasını göstərir. Təşkilatın maliyyə məqsədlərinə çatmaq üçün maliyyə planı hazırlanır. Təşkilatların əksəriyyətində maliyyə fəaliyyətini planlaşdırmaq üçün ayrıca maliyyə şöbəsi mövcuddur. Maliyyə şöbəsi müəyyən bir dövrün sonuna mənfəət və zərər hesabatı, balans hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabat kimi maliyyə hesabatlarının hazırlanmasına cavabdehdir. Bu ifadələrə istinad edərək büdcələr hazırlanır. Müasir rəqabətqabiliyyətli iş mühitində iş təşkilatının yaşaması üçün strateji bir plan yaratmaq çox vacibdir. Strateji planlaşdırmanın əsas məqsədi təşkilat üçün istiqamət və ya görmə qabiliyyətini yaratmaqdır və bundan sonra mənbələrin müəssisənin məqsədlərinə uyğunlaşdırılması lazımdır. Nəticədə:

- Strateji plan strateji hədəflərə (müəssisəin görmə qabiliyyətinə) nail olma istiqamətini təmin edir, maliyyə planı isə maliyyə məqsədlərinə çatmaq istiqamətini göstərir;
- Müəssisədəki pul vəsaitlərinin axınını idarə etmək üçün maliyyə planı tələb edilərkən, resursları müəssisəin son məqsədlərinə uyğunlaşdırmaq üçün strateji plan tələb olunur;
- Strateji plan, strateji görmə yaratmaq, hədəfləri müəyyənləşdirmək, strategiya hazırlamaq, strategiyanın həyata keçirilməsi və icrası, strategiyanın müvəffəqiyyətini izləmək və dəyişikliklərə

uyğun olaraq addımları nəzərdən keçirmək kimi bir addımdır.

Bazar münasibətlərinə keçidlə əlaqədar həyata keçirilən təşkilati və iqtisadi tədbirlər ölkədə yeni bank və maliyyə sisteminin yaradılmasına, iqtisadiyyatın qeyri dövlət bölməsinin formalaşmasına, əmtəə, xidmət və kapital bazarının fəaliyyətinə şərait yaratdı. Müasir dövrdə müəssisələrin sahibkarlıq fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdir. Mənfəət müəssisədə istehsalın genişləndirilməsinin, iqtisadi həvəsləndirmə fondlarının təşkilinin və büdcə gəlirlərinin formalaşmasının əsas mənbələrindən biridir. Bütün bunlar isə müəssisələrdə maliyyə münasibətlərinin daha da təkmilləşdirilməsini tələb edir. Artıq müəssisələr öz maliyyə-təsərrüfat fəaliyyətini bazarın diqqətinə uyğun şəkildə təşkil etmək məcburiyyətində qalmışdır. Müəssisənin maddi-texniki bazarının möhkəmlənməsi, işçilərin maddi marağının təmin olunması müəssisənin istehsal etdiyi və yaxud göstərdiyi xidmətlərin alıcılar tərəfindən necə qarşılamasından, həmin fəaliyyət növünə olan tələbatın səviyyəsindən asılıdır. Buna görə də müəssisə fəaliyyətini elə qurmalıdır ki, bu həm onlarla geniş təkrar istehsal prosesinin normal gedişinin təmin olunması, həm dövlət qarşısındakı öhdəliklərin yerinə yetirilməsi, həm də müəssisədə çalışanların mənafeyinin qorunmasına imkan vermiş olsun. Bütün bu yuxarıda qeyd olunan vəzifələrin yerinə yetirilməsi müəssisədə maliyyə münasibətlərinin düzgün təşkil edilməsindən, maliyyə xidmətlərinə, maliyyə menecmenti və maliyyə planlaşdırılmasının daha da təkmilləşdirilməsindən, onların bazar münasibətlərinə keçidin müasir tələblərinə uyğunlaşdırılmasından asılıdır.

## ƏDƏBİYYAT

1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU-nun mətbəəsi, 2007, 792 s.
3. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı (dərs vəsaiti). Bakı: Elm, 2013, 304 s.
4. Bağırov M.S. Statistika kursu. Naxçıvan: Əcəmi, 2014, 608 s.
5. Atakişiyev M.C., Abbasov M.H., Abbasova N.H. Mikro və makroiqtisadiyyat (dərslik) Bakı: Azərnəşr, 2010, 508 s.
6. Bağırov M.S. Statistikanın təməl bilikləri (dərs vəsaiti). Naxçıvan: Əcəmi, 2020, 525 s.
7. Nuriyev Ə.X. Davamlı və tarazlı regional inkişaf. Bakı: Elm, 2017, 242 s.
8. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428 s.
9. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman, 2002, 618s.
10. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları (dərslik). Bakı: Qərənfil, 2006, 591s.
11. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan: Əcəmi, 2015, 184 s.
12. http://www.maliyye.gov.az/. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi elektron ünvanı
13. http: //www.economy.gov.az. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin ünvanı

## SUMMARY

**Samir Haziyev**

### BASIC PRINCIPLES OF FINANCIAL PLANNING AND MANAGEMENT OF ENTERPRISES IN AN INNOVATIVE ECONOMY

The article provides an overview of the effective use of innovation in a market economy by enterprises, and in this regard, financial planning and the rapid development of the strategic line of finance. Full adherence to the principles of financial planning has a significant impact on increasing the liquidity of financial assets by increasing the profitability of the enterprise.

***Key words:*** *activity of enterprises, industrial entities, financial planning in the enterprise, strategic planning in the enterprise, innovation*

## РЕЗЮМЕ

**Самир Азиев**

### ОСНОВНЫЕ ПРИНЦИПЫ ФИНАНСОВОГО ПЛАНИРОВАНИЯ И УПРАВЛЕНИЯ ПРЕДПРИЯТИЯМИ В ИННОВАЦИОННОЙ ЭКОНОМИКЕ

В статье представлен обзор эффективного использования инноваций в рыночной экономике предприятиями, и в связи с этим финансового планирования и быстрого развития стратегического направления финансов. Полное соблюдение принципов финансового планирования оказывает существенное влияние на повышение ликвидности финансовых активов за счет увеличения прибыльности предприятия.


***Ключевые слова:*** *деятельность предприятий, производственных структур, финансовое планирование на предприятии, стратегическое планирование на предприятии, инновации*

**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti*
*0513100078ebdul@gmail.com*

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MALİYYƏ SİSTEMİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*Qloballaşma dövründə maliyyə təhlükəsizliyinin təmin edilməsi bir qayda olaraq kapital resurslarına olan tələbatın ödənilməsində daxili mənbələrin rolunun artırılmasını və xarici mənbələrdən asılılığın aradan qaldırılmasını özündə əks etdirir. Bütün bu göstərilənlər isə iqtisadi inkişafa nail olmaq üçün güclü maliyyə sisteminin yaradılmasını zəruri edir.*

*Tədqiqat işində Naxçıvan Muxtar Respublikasında maliyyə sisteminin strukturnu, bu sahədə iqtisadi münasibətləri, onun müasir vəziyyətini araşdırmaqla maliyyə sisteminin fəaliyyətini, onun iqtisadi və sosial inkişafında rolunu müəyyənləşdirmək, həmçinin bu sistemin daha da təkmilləşdirilməsinə dair tövsiyyə və təkliflər hazırlamaqdan ibarətdir*

***Açar sözlər:*** *Naxçıvan MR, maliyyə sistemi, iqtisadi münasibətlər, təkmilləşdirmə, dayanıqlı iqtisadi inkişaf*

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası getdikcə daha çox qloballaşan dünya təsərrüfatı sisteminin tam və bərabər hüquqlu subyektinə çevrilmişdir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, suverenliyə mane ola biləcək amillərin aradan qaldırılmasına zəruri şərait yaradır. Ölkənin iqtisadi təhlükəsizliyinə təhlükə yaranmaması üçün ölkənin qeyri-neft sahələrinin davamlı inkişaf etdirilməsinə diqqət yetirilir. Bunun üçün artıq xarici ölkələrin investisiyasına deyil, daxili resurslara söykənən investisiyalara daha çox üstünlük verilir. Xaricdə toplanmış milli investisiyaların ölkəyə cəlb edilməsi prosesi gücləndirilməlidir. Təbii ki, yuxarıda göstərilən məsələlərin həllində modernləşmə prosesi mühüm rol oynayır. Azərbaycan XX əsrin 90-cı illərindən strateji inkişaf modelini müəyyənləşdirib. Modernləşmə bu aspektdə ölkə rəhbərliyinin diqqət yetirdiyi əsas məsələlərdən biridir. Azərbaycanın modernləşməsini iki mərhələyə bölmək olar. Birinci mərhələ 1993-2003-cü illəri əhatə edir. Həmin dövrdə əsasən xarici sərmayələrin qoyuluşu hesabına ölkənin sosial-iqtisadi yeniləşməsi həyata keçirildi və iqtisadi keçid prosesi faktiki olaraq başa çatdı.

2003-cü ildən başlayan ikinci mərhələdə ölkənin daxili potensialı hesabına cəmiyyətin yeniləşməsi həyata keçirilir. Bu mərhələdə xarici maliyyə mənbələrindən asılılıq minimuma endirilib. Nəticədə Azərbaycana dünya maliyyə böhranı demək olar ki, təsir etmədi. Modernləşmənin indiki mərhələsində ölkəmiz müstəqil geosiyasi səviyyəsinə qalxdı. Güclü dövlət konsepti ilə regional lider və müstəqil geosiyasi oyunçu statusu bu mərhələdə üzvi sürətdə bir-birini tamamlamış oldu. Bu gün dünyanın tədqiqatçı mütəxəssisləri, həmçinin iqtisadiyyat elmi "İnkişafın Azərbaycan modeli" ni inkaredilməz fakt kimi qəbul edir, araşdırır və öyrənir [9].

Müstəqilliyin bərpasından sonra ölkə iqtisadiyyatının mühüm tərkib hissəsi olan maliyyə sistemində və bank sektorunda da köklü dəyişikliklər həyata keçirildi və yeni iqtisadi münasibətlər formalaşdırıldı. Ölkədə maliyyə, pul-kredit, vergi, qiymət, gömrük sahələrində geniş islahatlar həyata keçirildi, idarəetmə, nəzarət və tənzimləmə funksiyaları beynəlxalq standartlara uyğun təkmilləşdirildi Maliyyə intizamının gücləndirilməsi, manatın məzənnəsinin tənzimlənməsi kimi tədbirlərin həyata keçirilməsi eyni zamanda iqtisadiyyatın müxtəlif sahələrində struktur islahatlarının aparılması ilə müşayiət olundu ki, bu da ümumi iqtisadi duruma müsbət təsir göstərdi. Struktur islahatlarının aparılması, həmçinin vergi dərəcələrinin aşağı salınmasına, yığım səviyyəsinin artırılması və vergitutma bazasının genişləndirilməsi hesabına büdcə gəlirlərinin artırılmasına, büdcə xərclərinin şəffaflığının və idarə olunmasının səmərəliliyinin yüksəldilməsinə şərait yaratdı

Müstəqillik əldə edildikdən sonra Naxçıvanın sosial-iqtisadi və mədəni həyatında ciddi dəyişikliklər baş verdi. İnzibati amirlik şəraitində fəaliyyət göstərən Naxçıvan MR-nın iqtisadiyyatı

bütün sahələrdə dağılmışdır. Köhnə dövrün qalıqları, müstəqil maliyyə sisteminin olmaması, bank sistemində saysız-hesabsız problemlər, maliyyə fırıldaqçıları, iqtisadi asılılıq böyük çətinliklər yaradırdı. Bu isə maliyyə sistemində ciddi islahatların həyata keçirilməsini zəruri edirdi. Reallaşdırılan islahatlar nəticəsində maliyyə sisteminin formalaşması, mərkəzi bankın müstəqilliyinin təmin olunması, xəzinədarlıq sisteminə keçid, Mərkəzi Bankıda xeyli sayda bank-kredit təşkilatları və müxtəlif təyinatlı fondlar yaradıldı. Regionun maliyyə sistemində baş verən dəyişiklikləri öyrənmək, onun iqtisadi və sosial inkişafında rolunu müəyyənləşdirmək, həmçinin bu sistemin daha da təkmilləşdirilməsi və gələcək istiqamətlərinin hərtərəfli öyrənilməsi əhəmiyyətli məsələlərdəndir.

Düşünülmüş iqtisadi siyasətin davamı olaraq Naxçıvan MR-da da makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. İqtisadi islahatların və liberal bazar münasibətlərinin genişlənməsi, sürətlənməsi və təkmilləşməsi istiqamətində hüquqi baza yaradıldı. Ölkəmizdə 1993-1997-ci illər ərzində bu istiqamətdə 52 - dən cox qərar qəbul edilmişdir. Muxtar respubilkada isə bu istiqamətdə bir cox sərəncam və qərarlar imzalanmışdır [1].

Ölkə başçısının regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) qəbul olunmuşdur. Dövlət Proqramının əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, regionlarda istehsal, kommunal, xidmət, sosial və bazar infrastruktur təminatını yaxşılaşdırmaq, yeni müəssisələrin açılması, regionlarda sahibkarlara kömək məqsədilə müxtəlif servis mərkəzlərinin yaradılması nəticədə əhalinin məşğulluq səviyyəsinin artırılması, həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur [6].

Məlumdur ki, regionlarda uzunmüddətli iqtisadi artımı və işgüzar fəallığı artırmaq, makroiqtisadi tarazlığı qorumaq, sağlam rəqabət mühiti yaratmaq üçün qeyd olunan tədbirlərin həyata keçirilməsi dövlətin malik olduğu maliyyə resurslarının hesabına baş verir. Maliyyə sistemi ölkə iqtisadiyyatının qan damar sistemi hesab olunmaqla iqtisadi proseslərin tənzimlənməsi istiqamətində nühüm rola malikdir Ayrı-ayrı sahələrin, kənd təsərrüfatı, tikinti, sənaye sahələrinin maliyyə təminatının formalaşmasında kreditlər əvəzsiz rol oynayır. Təcrübə göstərir ki, iqtisadi prosesləri düzgün idarə etmək, hərtərəfli iqtisadi münasibətləri formalaşdırmaq, resurslardan istifadə edilməsinin səmərəliliyini yüksəltməkdə maliyyə-kredit sistemi aparıcı yer tutur. Bu baxımdan düzgün maliyyə və büdcə siyasətinin aparılması, kredit üsullarının daha da təkmilləşdirilməsi zərurəti mövcuddur.

Maliyyə və bank sahəsinin geniş, çoxşaxəli strukturu dövlət maliyyəsi, onun həlqələri, prinsip və funksiyaları, digər elmlərlə əlaqəsi, onun yaranmasına tarixi və müasir yanaşmalar, regionun sosial-iqtisadi inkişafının sürətlənməsinə xidmət edir. Regionun davamlı sosial iqtisadi inkişafı olan bu məqsədə nail olmaq üçün dövlət maliyyəsinin həlqələrinin hər biri ictimai-iqtisadi proseslərə öz töhfələrini verir. Regionların inkişafı üçün nəzərdə tutulmuş vəzifələrin icrası maliyyə resursları və ehtiyatları olmadan mümkün ola bilməz. Dövlət büdcəsi, yerli büdcələr, büdcədənkənar fondlar və digər maliyyə mənbələrindən iqtisadiyyatın müxtəlif sektorlarının inkişafı üçün yönəldilən vəsaitlər dövlət maliyyəsinin rolunun əhəmiyyətinin başa düşülməsinə imkan verir. Qeyd etmək lazımdır ki, büdcə maliyyənin əsas tərkib hissələrindən biri olmaqla, regionun iqtisadi, siyasi, sosial və digər siyasətinin həyata keçirilməsində, bütün iqtisadi və sosial proqramlarla bağlı olan maliyyələşmə işlərinin yerinə yetirilməsi çərçivəsində xüsusi əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, büdcədənkənar fondlar, sahibkarlıq mühitinin formalaşdırılması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, onun sağlamlığının qorunması, işsizlərə sosial müavinətlərin verilməsi və digər sosial xidmətlərin göstərilməsindən ibarət olub dövlət büdcəsinə yardım etməklə vacib tədbirlərin maliyyələşdirilməsinə, sosial yardım, pensiya təminatı və sosial infrastruktur məsələlərinin həyata keçirilməsinə köməklik göstərməkdir. Muxtar respublikada büdcədənkənar fondları Dövlət Sosial Müdafiə Fondu, Sahibkarlığa Kömək Milli Fondu, Sığorta Fondu, Məşğulluq Fondu və.s. Eyni zamanda dövlət krediti, sığorta, bələdiyyələrin maliyyəsi, müəssisələrin maliyyəsi regionun sosial və iqtisadi fəaliyyətində rolu əvəzsizdir . Belə ki, sosial və

iqtisadi inkişaf vergi və digər ödənişlərin büdcəyə artımını sürətləndirir ki, bu da büdcə kəsirinin hədsiz artımının qarşısını alır.

“Naxçıvan MR-nın blokada şəraitində olması onun özünün müəyyən tabeçilik prinsipi əsasında maliyyə sisteminin formalaşmasını zəruri etmişdir və ölkə ərazisində mövcud nazirliklərin və komitələrin bölmələri burada yaradılmışdır. Məqsəd iqtisadi inkişafın digər regionlarla müqayisədə tarazlı inkişafını təmin etmək mövcud potensialdan və resurslardan səmərəli istifadə etməkdir. Bu səbəbdən maliyyə iqtisadi inkişafda əhəmiyyətli yer tutur. Qeyd olunmalıdır ki, muxtar respublikanın büdcəsinin çox az hissəsi öz gəlirləri hesabına formalaşır. Qalan xərclər isə dotasiyalar hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 113 milyon 200 min manat, xərcləri 482 milyon 90 min manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 368 milyon 890 min manat məbləğində təsdiq edilib [8]. Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. Göründüyü kimi muxtar respublikanın büdcə gəlirlərinin böyük bir hissəsi (təxminən 76%-i) dotasiyaların hesabına formalaşır. Nəzərə alsaq ki, muxtar respublika blokada şəraitində yaşayır, mövcud çətinliklərin aradan qaldırılması və iqtisadi layihələrin daha tez reallaşdırılması üçün dotasiyalar xüsusi əhəmiyyətə malikdir. Onu da qeyd edək ki, muxtar respublikanın özünün formalaşdırdığı büdcə gəlirləri ÜDM-da çox aşağı səviyyədədir. Bunu isə aradan qaldırmaq üçün bölgənin bütün sahələrdə ümumi inkişafına nail olmaq lazımdır ki, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Maliyyə sisteminin mühüm həlqələri olan sığorta sistemi və büdcədənkənar fondlar muxtar respublikada geniş təşəkkül tapmamışdır ki, buda ilk növbədə regionun blokada şəraitində olması və muxtar respublikada bu sahələrdə lazımi bazanın olmamasından irəli gəlir. Sığorta fəaliyyəti Dövlət Baş Sığorta Agentliyi, onun yerlərdə (bütün rayonlarda mövcuddur) müvafiq şöbələri və “Naxçıvan Sığorta” özəl sığorta agentliyi tərəfindən təşkil edilir. Büdcədənkənar fondlardan isə DSMF əsas fond kimi əhalinin sosial müdafiəsi, həyat səviyyəsinin yüksəldilməsi, işsiz əhalinin sosial müdafiəsi, sağlamlıq tədbirlərinin həyata keçirilməsi və digər sosial xidmətlərin təşkil edilməsi istiqamətində işləri həyata keçirir.

Naxçıvan MR-da bank sisteminin təşəkkül tapması 2000-ci illərdən başlayır və bugünkü günə qədər genişlənməkdə davam edir. Bank və bank mədəniyyətinin formalaşmasının ən yüksək dövrü 2005-2006-cı illərdən başlayır. Təhlillər onu deməyə imkan verir ki, muxtar respublikada banklar və onların göstərdikləri xidmətlər digər maliyyə qurumlarının həyata keçirdikləri işlərdən daha qabarıq nəzərə çarpır və böyük etibara malikdir. Burada elə bir insan tapmaq olmaz ki, onun bank fəaliyyəti və bankların rolu haqqında heç bir təsəvvürü olmasın. Muxtar respublikanın bank sisteminin fəaliyyəti Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsinin nəzarəti altında təşkil edilir. Bank əməliyyatların aparılmasında və kreditlərin verilməsində demək olar ki, bütün banklar və onların filialları məşğul olurlar. 2019-cu ilin sonuna olan məlumatda Naxçıvan MR-da Mərkəzi Bank və filiallarla birlikdə 15 bank, 1 bank şöbəsi, 2 kredit təşkilatı və 4 kredit ittifaqı fəaliyyət göstərir. Banklar kredit, köçürmə, vasitəçilik, POS-terminal və digər mühüm xidmətləri burada həyata keçirirlər. Kreditləşmədə kənd təsərrüfatı xüsusi olaraq diqqət mərkəzində saxlanılır. Əsas məsələ daxili bazarın tələbatını ödəməkdə kənd təsərrüfatı məhsulları istehsalının yüksəldilməsi, xidmət sahələrinin genişləndirilməsi və digər tədbirlər üçün bank kreditlərinə ehtiyac vardır. Banklar bu istiqamətlərdə fermerlərin, sahibkarların və fiziki şəxslərin müraciət etdiyi ən etibarlı və müasir mənbələrdir. Eyni zamanda təhlillər göstərir ki, makroiqtisadi inkişafın təsiri ilə əlaqədar bankların fəaliyyətlərinin artım mexanizminə uyğun olaraq vətəndaşların kredit kartlarının sayında artım müşahidə olunmuşdur. 2010-2019-cu illər ərzində ödəmə kartlarının sayında iki dəfədən çox artım baş vermişdir. Buna paralel olaraq kartlarla bağlı digər xidmətlərin (POS-terminal, bankomat, valyuta şöbələri və s.) daha da genişlənməsinə şərait yaranmışdır. Muxtar respublikada Mərkəzi Bank, Rabitəbankın Naxçıvan şöbəsi və bank olmayan kredit təşkilatlarını çıxmaq şərtilə digər bankların hamısı bankomat xidmətini göstərir. Ən çox bankomatları olan banklara Kapital Bank ASC, Beynəlxalq Bank ASC və Naxçıvan Bank ASC misal göstərmək olar [2].

Naxçıvan MR mürəkkəb şəraitdə olmasına və bütün çətinliklərə baxmayaraq, iqtisadi inkişafı qarşısına bir məqsəd kimi qoymuşdur. Ölkəmiz müstəqilliyini əldə etdikdən sonra onun siyasi,

iqtisadi həyatında hərtərəfli inkişaf, bu illər ərzində ölkəmizin qazandığı bütün iqtisadi nailiyyətlər muxtar respublikanın da inkişafına sirayət etmişdir. Muxtar respublikada kənd təsərrüfatı, sənayenin strukturunu möhkəmləndirmək, məşğulluq səviyyəsini yüksəltmək, əhalinin təhsil, səhiyyə və başqa sosial tələbatlarını yaxşılaşdırmaq üçün muxtar respublika Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq olunmuş, müvafiq illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı" ardıcıl Dövlət Proqramları, 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", 2016-cı il yanvarın 11-də qəbul olunmuş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı", 2016-cı il noyabrın 18-də qəbul olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı", 13 sentyabr 2019 cu il tarixli Prezident İlham Əliyevin "Şərur Sənaye Məhəlləsi yaradılması haqqında" Fərmanı ümumi inkişafa təkan verib, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlayıb [3].

Aparılan tədqiqatlar göstərir ki, son illərdə regionun sosial-iqtisadi inkişafı artan dinamika ilə yüksəlir. Belə ki, 2019-cu ildə qeyri-neft sənayesində ümümi daxili məhsulun həcmi 2009-cu ilə nisbətən 2019-cu ildə 2.9 dəfədən cox artaraq 2839.6 milyon manata catmışdır, sənaye məhsulu 4,7 dəfə artaraq 1014,9 milyon manata, əsas kapitala yönəldilən vəsaitlər 2,5 dəfə artaraq 1029,0 milyon manata çatmışdır [4].

Qlobal rəqabət mühitində inkişaf etməkdə olan qeyri-neft sənayesi ənənəvi sahələrlə yanaşı, yeni məhsul istehsalı üzərində qurulan müasir tipli sahələrin yaranması ilə də xarakterizə olunmalıdır. Ötən il ərzində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində istehsal sahələri genişlənmiş və iqtisadiyyatın çoxşaxəli inkişafına səbəb olmuş, kredit təşkilatları tərəfindən 24,5 milyon manat kredit verilmiş, 72 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamış, 37 hüquqi və 3459 fiziki şəxs dövlət qeydiyyatına alınmışdır. Sahibkarlığın hazırkı inkişaf səviyyəsinin nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir [5].

Mövcud ehtiyatlarlardan maksimum istifadə edərək, regionda mineral sular zavodu, sement zavodu, kərpic zavodu, trafetin daş üzləmə zavodu, plastik qapı və pəncərə, gəc istehsalı sexləri, avtomobil zavodu, kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssisələrinin yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının qurulması, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmiri sexinin tikintisi, avtomobil yollarının yenidən qurulması, Günəş Elektrik Stansiyasının, Su Elektrik Stansiyasının tikintisi, meliorasiya və irriqasiya tədbirləri, kanalizasiya və su təmizləyici qurğular, bir sıra yüngül və yeyinti sənayesi müəssisələri yaradılmış, həmçinin bu sahələr üzrə yeni infrastrukturlar fəaliyyətə başlamışdır. Naxçıvanın əsas ixrac məhsulları arasında tanınmış brend kimi ölkəmizi xarici bazarlarda tanıdan "Badamlı" və "Sirab" mineral sularını, yüksəkkeyfiyyətli tikinti materiallarını, ekoloji cəhətdən təmiz təbii duzu, emal olunmuş ət məhsullarını, spirtli və qazlı aromatlaşdırılmış içkiləri, vafli məmulatlarını, təzə meyvə və meyvə şirələrini göstərmək olar.

Naxçıvan MR-da maliyyə təşkilatlarının və bankların fəaliyyətinin gücləndirilməsi muxtar respublika iqtisadiyyatının genişlənməsində yeni imkanlar yaradacaqdır. Bank filiallarının əsas məqsədi bölgədə və kəndlərdə sahibkarlıq fəaliyyətini canlandırmaq, güzəştli şərtlərlə mikrokreditlərin verilməsini təmin etməkdir. Qeyd etmək lazımdır ki, muxtar respublikada ilk dəfə olaraq banklar tərəfindən verilən kreditlərin faiz dərəcələri 2014-cü ildə aşağı salınmışdır (15%) və 2016-cı il 01 dekabr tarixinə Naxçıvan Bank Açıq Səhmdar Cəmiyyəti tərəfindən kənd təsərrüfatı üzrə (heyvandarlıq istisna olmaqla) verilən kreditlər üzrə faiz dərəcələri 13 %-dək endirilmişdir. Bunlarla yanaşı, statistik məlumatlarına nəzər salanda görmək olar ki, daşınmaz əmlak bazarında göstəricilər əvvəlki illərə nisbətən xeyli yüksəlmişdir. Dünya təcrübəsinə və iqtisadi fikirlərə əsaslanıb onu deyə bilərik ki, maliyyə və bank sisteminin təkmilləşdirilməsi üçün ilk öncə dövlət mexanizmi ilə bazar mexanizmi düzgün əlaqələndirilməlidir. Muxtar respublikanın maliyyə sistemini, onun formalaşmasını

dövlət mexanizmi olmadan mümkün hesab etmək olmaz.

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın davamlılığı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədə uyğun hesab edilir:

- Dayanıqlı və davamlı iqtisadi inkişafa nail olmaq üçün maliyyə sisteminin həlqələrinin və institutlarının mexanizminin daha da təhkimləşdirilməsi istiqamətində dünya təcrübəsindən geniş istifadə etmək;
- Bank və kredit təşkilatlarından pul götürülməsi istiqamətində fiziki şəxslərin və sahibkarların əl çatanlığını təmin etmək;
- İstelakçı tələbinə uyğun keyfiyyətli məhsul və xidmətlərin hazırlanıb təklif olunması;
- Muxtar respublikada müxtəlif istiqamətli müstəqil (filal olmayan) bankların açılması üçün tədbirlər həyata keçirmək;
- Daxili bazarı qorumaq üçün yeni sahələr yaratmaq, təhsil və istehsalın səviyyəsinin yüksəldilməsi üçün yeni kredit növlərini təklif etmək;
- Sığorta sistemini daha da yaxşılaşdırmaq üçün vaxtaşırı olaraq tədbirlərin keçirilməsi və maarifləndirmənin gücləndirilməsi;
- Video çarxların reklam xidmətlərinin muxtar respublikada səmərəli təşkilinin aparılmasını genişləndirmək.

Təhlillər və nəticələr bir daha onu deməyə əsas verir ki, Naxçıvan MR-da makroiqtisadi sabitliyə nail olunmuş və davamlı iqtisadi artımın əsası qoyulmuş, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Bazar münasibətlərinin genişlənməsi, sürətlənməsi və təkmilləşməsi istiqamətində hüquqi baza yaradılmışdır. Muxtar Respublikada əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan “İnkişafın Azərbaycan modeli” siyasi xətti uğurla, sədaqətlə və inamla davam etdirilir.

## ƏDƏBİYYAT

1. Alıyev İ. “İqtisadi inkişafa strateji baxış” monoqrafiya. 2018
2. Bank statistik bülleten 12/2013. Mərkəzi Bankın Naxçıvan MR idarəsi. Naxçıvan: 2013
3. Bank statistik bülleten 12/2016. Mərkəzi Bank Naxçıvan MR idarəsi. Naxçıvan: 2016
4. http://statistika.nmr.az/macroeconomy/index.php
5. Copyright © 2011 Naxçıvan MR Ali Məclisi. All rights reserved.
6. Respublika qəzeti 4 fevral 2020-ci il. 2019-2023-cü illərdə Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının yekunu haqda.
7. http:// www.cbar.az/
8. ena.az nevvs
9. Ataşov B., Novruzov N., İbrahimov E. Maliyyə nəzəriyyəsi, Dərslik, 2011

## SUMMARY

**Abdulhuseyn Zamanov**

## CHARACTERISTICS OF DEVELOPMENT OF THE FINANCIAL SYSTEM OF NAKHCHIVAN AR IN THE PERIOD OF INDEPENDENCE

In the era of globalization, ensuring financial security usually means increasing the role of domestic sources in meeting the demand for capital resources and eliminating dependence on external sources. All this makes it necessary to create a strong financial system to achieve economic development.

The study examines the structure of the financial system in the Nakhchivan Autonomous Republic, economic relations in this area, its current state, the functioning of the financial system, its role in economic and social development, as well as the development of recommendations and proposals for further improvement.

***Key words:*** *Nakhchivan MR, financial system, economic relations, improvement, sustainable economic development*

## РЕЗЮМЕ

**Абдулгусейн Заманов**

**ОСОБЕННОСТИ РАЗВИТИЯ ФИНАНСОВОЙ СИСТЕМЫ НАХЧЫВАНСКОЙ АР В ПЕРИОД НЕЗАВИСИМОСТИ**

В период глобализации обеспечение финансовой безопасности, как правило, отражает в себе повышение роли внутренних источников в компенсировании спроса на капитальные ресурсы и устранение зависимости от внешних источников. Все это делает необходимым создание сильной финансовой системы для достижения экономического развития.

Цель исследовательской работы состоит в том, что исследуя структуру финансовой системы Нахчыванской Автономной Республики, экономические отношения в этой области, его настоящее состояние, определить деятельность финансовой системы, его роль в экономическом и социальном развитии, также подготовить рекомендации и предложения для еще большего совершенствования этой системы.


***Ключевые слова**: финансовая система Нахчыванской АР, экономические отношения, совершенствование, длительное экономическое развитие*

**ELVİN NƏCƏFOV**
*Naxçıvan Dövlət Universiteti*
*elvinnecefov97@gmail.com*

# FİRMANIN İNVESTİSİYA FƏALİYYƏTİ VƏ MALİYYƏ MEXANİZMİ

*İnvestisiya fəaliyyəti investisiya qoyuluşu və onun tətbiqi ilə bağlı investorların bütün hərəkətlərinin məcmusudur. Maliyyə aktivlərinə qoyulan investisiyalara, qiymətli kağızlara, digər maliyyə aktivlərinə, kreditlərə və digər müəssisələrin nizamnamə fondlarına və s. İnvestisiyalar daxildir. İnvestisiya yeni bir məhsul buraxmağa, keyfiyyətini yüksəltməyə, satış və gəliri artırmağa yönəlmiş bir müəssisənin əmlakındakı bir sərmayədir. Müəssisənin investisiya fəaliyyəti aşağıdakı əsas xüsusiyyətləri birləşdirir: investisiya strategiyası, strateji planlaşdırma, investisiya dizaynı, investisiyanın iqtisadi səmərəliliyi. İqtisadiyyatın inkişafında əsas və həlledici amil aktiv investisiya mühitinin yaradılması və investisiya fəaliyyətinin aktivləşdirilməsidir.*

*Maliyyə mexanizmi bir tərəfdən obyektivdir, obyektiv iqtisadi qanunların tələblərinə əsaslanır, digər tərəfdən subyektivdir, müəyyən vəzifələri istənilən vaxt həll etmək üçün dövlət tərəfindən müəyyən edilir və müxtəlif forma və metodlardan istifadə olunur. Bu vəzifələri həll edin. Maliyyə münasibətlərinin qarşılıqlı əlaqəsinin təşkili, maliyyə kateqoriyalarından (mənfəət, vergi, dövriyyə kapitalı, amortizasiya, nağdsız hesablaşmalar və s.) Və normalardan (gəlirlilik, büdcəyə ödənişlər), müxtəlif təşviqlərdən, sanksiyalardan və s. maliyyə alətlərindən istifadə etməklə əldə edilir.*

*Ölkədə maliyyə siyasətinin həyata keçirilməsi üçün maliyyə mexanizmi istifadə olunur. Maliyyə münasibətlərinin təşkili metodlarının məcmusuna maliyyə mexanizmi deyilir. Maliyyə mexanikası maliyyə münasibətlərinin təşkili formalarını, metodlarını və növlərini əhatə edir. Maliyyə münasibətləri sahələrini və halqalarını izləyən maliyyə mexanizminin quruluşuna maliyyə, maliyyələşdirmə mexanizmi, sığorta mexanizmi və dövlət maliyyəsi mexanizmi daxildir.*

***Açar sözlər:*** *İnvestisiya, maliyyə mexanizmi, maliyyə münasibətləri, müəssisə, investorların hərəkətləri*

Bazar münasibətləri şəraitində investisiya fəaliyyəti sahibkarlıq fəaliyyəti olub təsərrüfat subyektləri tərəfindən investisiya bazarında mənfəət (gəlir) almaq məqsədilə həyata keçirilir. İnvestisiya bazarında əmtəə kimi investisiya fəaliyyəti obyektləri çıxış edirlər. İnvestisiya müəssisənin aktivlərinə yeni məhsul buraxmaq, onun keyfiyyətini yüksəltmək, satış və gəlir həcmini artırmaq məqsədinə yönəldilən vəsait qoyuluşudur.

Müəssisə investisiyası kapitalın sadə və geniş təkrar istehsalını, yeni iş yerinin yaradılmasını, əhalinin əməkhaqqı və alıcılıq qabiliyyətinin artmasını, dövlət büdcəsinə vergi daxilolmalarının çoxalmasını təmin edir. Eyni zamanda investisiya risklilik xüsusiyyətinə malikdir. Ona görə də investisiya layihəsinin reallaşması istiqamətində qərar verərkən aşağıdakı amillər nəzərə alınır: investisiyanın növü, investisiya layihəsinin dəyəri, investisiya mühiti, rəqabət, maliyyə vəsaitinin məhdudluğu, bu və ya digər qərarın qəbulu ilə bağlı risk və s.

Müəssisənin investisiya fəaliyyəti özündə aşağıdakı əsas cəhətləri birləşdirir: investisiya strategiyası, strateji planlaşdırma, investisiya layihələndirilməsi, investisiyanın iqtisadi səmərəliliyi. İqtisadiyyatın inkişaf etdirilməsinin başlıca və həledici amili fəal investisiya mühitinin yaradılması və investisiya fəaliyyətinin aktivləşdirilməsidir.

İnvestisiyalar həm makro, həm də mikro səviyyədə mühüm rol oynayır. Mahiyyət etibarilə onlar ölkənin gələcəyini bütövlükdə ayrıca təsərrüfat subyekti kimi müəyyən edir və iqtisadiyyatın inkişafının lokomotivləri hesab edilir.

Bütün çətinlik və problemlərə baxmayaraq Azərbaycan Respublikasında xüsusi sahibkarlıq sahəsində artıq minlərlə insan məşğuldur. Lakin biznes sərbəst qərarlar qəbul etməyə və risk etməyə hazır olmağı nəzərdə tutan tamamilə xüsusi həyat tərzidir. Bizneslə məşğul olmağı qərara alan sahibkar onun təşkilini çox ciddi planlaşdırmalıdır.

Fəaliyyətə başlayan hər bir firma gələcəkdə maliyyə, material, əmək və intellektual resurslara tələbatı, onların alınma mənbələrini dəqiq təsəvvür etmək, həmçinin firmanın iş prosesində mövcud vəsaitlərdən səmərəli istifadə edilməsini dəqiq müəyyənləşdirməlidir.

Biznes-planın köməyilə firmanın fəaliyyətinin planlaşdırılması zəruridir. Xüsusilə:

- Rəhbərləri firmanın perspektivlərini əsaslı sürətdə öyrənməyə məcbur edir;

-Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sərf edilən vəsaitlərin daha dəqiq koordinasiyasını həyata keçirməyə imkan verir;

- Firmanın fəaliyyətinin növbəti nəzarət ücün zəruri olan göstəricilərini müəyyən edir;

- Rəhbərləri öz məqsədlərini və bu məqsədlərə çatmaq yollarını daha konkret müəyyənləşdirməyə sövq edir;

- Firmanı bazar situasiyalarının (vəziyyətlərinin) qəfil dəyişikliklərinə daha hazırlıqlı edir.

İnvestisiya qoyuluşunun müxləlif formaları mövcuddur ki, onları bir sıra amillərlə fərqləndirirlər: qiymətli kağızlara və daşınmız əmlaka, səhm və opsionlara, az və ya çox riskli, qısa və ya uzun müddətli, birbaşa və portfel investisiyalarına və s. Şirkətdə, müəssisə və ya firmada iştirakçının hər hansı payını almaq hüququnu təsdiq edən investisiya vasitələri qiymətli kağızlar və ya fond dəyərlərilə adlandırılır.

Fond dəyərlərinin başlıca növləri istiqrazlar, səhmlər və opsionlardır. Şirkətin real aktivlərinə və ya şəxsi əşya əmlakı kimi əmlak dəyərlərinə kapital qoyulması əmlak qoyuluşu adlanır. Real aktivlərə torpaq, tikililər və daim torpağa "bağlı" olan hər şey aid edilir, şəxsi əşya əmlakı qızıl əşyalar, əntiq şeylər, incəsənət əsərləri və kolleksiya obyekti ola bilən başqa predmetlərdən ibarət olur. Fond dəyərlərinə qoyuluşlar çox geniş yayılmışdır, lakin çoxları pullarını əmlaka qoymağa üstünlük verir, onu mülkiyyət kimi görmək olur ki, bu da əksəriyyəti daha çox maraqlandırır.

Birbaşa investisiya investora, qiymətli kağızlara və ya əmlaka bilavasitə mülkiyyət hüququ verən qoyuluş formasıdır. Məsələn, investor səhm, istiqraz, qiymətli sikkə və ya torpaq sahəsi alırsa, pulun dəyərini saxlamaq və ya gəlir əldə etmək üçün birbaşa investisiya qoyuluşu həyata keçirir. Dolayı investisiya portfelə qoyuluşdur başqa sözlə, qiymətli kağızların və ya əmlak dəyərlərinin yığımıdır. Məsələn, investor müxtəlif firmalar tərəfindən buraxılmış qiymətli kağızların diversifikasiyalı yığımı ifadə edən qarşılıqlı fondun səhmini ala bilər. Bunu edən investor ayrıca götürülmüş şirkətin aktivlərinə tələblərə deyil, portfeldəki payına malik olacaq. Əmlak dəyərlərinə dolayı qoyuluşlar da etmək olar, məsələn, daşınmaz əmlak, neft quyuları və s. ilə işləyən məhdud məsuliyyətli şirkətdə pay iştirakı almaq olar. Bir çox investorlar birbaşa investisiyalar qoymağa üstünlük verir, lakin dolayı investisiyaların da cəlbedici xüsusiyyətləri vardır.

İstiqrazlar, səhmlər və opsionlar bir qayda olaraq investisiyalar ya kreditorun maraqları, ya da kapitalda mülkiyyətçi kimi iştirakı ilə əlaqədardır. Qeyri-maddi aktivə qoyuluş kimi borc qiymətli kağızları faiz halında gəlir almaq hüququna borc verilən vəsait olub, göstərilən vaxtda borclunun borcu qaytarmaq öhdəliyini göstərir. İnvestor borc maliyyə vasitələrini, məsələn, istiqrazı aldığı zaman o, faktiki olaraq onu dövriyyəyə buraxanı kreditləşdirir və danışılan müddət ərzində faizləri ödəmək üçün öhdəlik götürür, vaxt ötdükdən sonra isə borcun ilkin məbləğini qaytarmağı öhdəsinə götürür.

Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsi kimi investisiya siyəsəti, iqtisadiyyatın inkişaf etdirilməsində mühüm rol oynayır. Azərbaycana xarici investisiya axını gücləndikcə makroiqtisadi sabitliyə nail olmaq asanlaşır.

Xarici investisiyalar Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsində mühüm rol oynadığı kimi, həm də investisiya qoyan ölkələrin respublikamızda bütövlükdə iqtisadi münasibətlərinin inkişafında əhəmiyyətli rol oynayır. Heç şübhəsiz ki, investisiyanın istər dövlət, istərsə də ayrı-ayrı sahibkarlar tərəfindən qoyulması investisiya qoyan ölkə ilə gələcəkdə münasibətlərin inkişafı məqsədini güdür.

Respublikada investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması ilə bağlı mühüm qanunlar qəbul edilərək hüquqi baza yaradılmışdır. Bu işin gələcək 3 ildə daha da təkmilləşdirilməsi, xüsusilə Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergi

tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin imzalanması işinin davam etdirilməsi xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların Azərbaycana olan marağını daha da artıracaq.

Son illərin tendensiyasına əsasən qeyri-neft sektoru üzrə yönəldilmiş investisiyaların həcmi neft sektoru üzrə yönəldilmiş investisiyaların həcmini üstələyir. Qeyri-neft sektorunda fəaliyyət göstərən, birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr sənaye, tikinti, nəqliyyat və ticarətdir. Qeyd olunan sahələrin gələcəkdə daha da inkişaf etdiriləcəyi nəzərdə tutulur.

Müəssisənin maliyyə fəaliyyəti cari və investisiya tələbatlarının ödənilməsi, maliyyə resurslarının müəyyən olunması, formalaşması və bölüşdürməsində nisbətlərin gözlənilməsi, xərclərin maliyyələşdirilməsi, nəzarətin aparılması və s. ilə əlaqədardır.

Beləliklə, müəssisə, firma və şirkətlərin maliyyə fəaliyyəti onların iqtisadi fəaliyyətinin bir hissəsi olmaqla aşağıdakılarla əlaqədardır:

- Dəyərin pul formasının hərəkətinin təmin olunması ilə;
- Cari və investisiya tələbatlarının ödənilməsi ilə (sadə və geniş təkrar istehsal xərcləri);
- Pul vəsaiti və maliyyə resurslarının formalaşmasında, bölüşdürülməsində və xərclərin maliyyələşdirilməsində nisbətliklərin müəyyən edilməsi və saxlanılması ilə;
- Biznesin operativ, cari və strateji inkişafı ilə əlaqədar pul, qiymət və s. üzərində maliyyə nəzarətinin həyata keçirilməsi ilə.

Müəssisənin maliyyə fəaliyyəti hər şeydən əvvəl onun əsası olan müəssisə, firma və şirkətlərin maliyyəsinin fəaliyyəti ilə əlaqədardır. Lakin müəssisədə maliyyənin təşkilinin səmərəliliyi onun maliyyə vəziyyəti ilə ölçülür. Belə ki, təsərrüfat subyektinin maliyyə vəziyyəti onun bütün pul dövriyyəsinin təşkilinin səmərəliliyindən bir başa asılıdır.

Müəssisənin maliyyəsinin səmərəli təşkili kimi onun maliyyə vəziyyəti çıxış edir. Müəssisənin maliyyə vəziyyəti bütün pul dövriyyəsinin səmərəliliyindən asılıdır. Ona görə də, maliyyədən fərqli olaraq, müəssisənin maliyyə fəaliyyəti daha geniş sferanı əhatə edir. Bu isə onu göstərir ki, maliyyə fəaliyyəti ancaq müəssisənin maliyyəsi deyil.

Müəssisənin maliyyəsinin idarəolunması maliyyə mexanizmi vasitəsilə həyata keçirilir. Müəssisənin maliyyə mexanizmi maksimum mənfəət əldə etmək üçün müəssisənin maliyyəsinin idarəolunması sistemidir. Müəssisə maliyyəsi mexanizmi bütün maliyyə mexanizmində mərkəzi yer tutur. Bu, maddi istehsal sferasının maliyyəsinin bütün maliyyə sistemində aparıcı rolu ilə əlaqədardır. Müəssisənin maliyyə mexanizmi müəssisədə pul fondları ilə əlaqədar maliyyə münasibətlərinin idarəolunması deməkdir.

Maliyyə mexanizmi bir tərəfdən obyektivdir, yəni obyektiv iqtisadi qanunların tələbləri əsasında qurulur, digər tərəfdən isə o subyektiv xarakter daşıyır, yəni hər hansı bir dövrdə müəyyən vəzifələrin həlli üçün dövlət tərəfindən müəyyən edilir və həmin vəzifələrin həllində müxtəlif forma və metodlardan istifadə edilir. Maliyyə münasibətlərinin qarşılıqlı fəaliyyətinin təşkili maliyyə kateqoriyalarından (mənfəət, vergi, dövriyyə vəsaiti, amortizasiya ayırma, nağdsız hesablaşmalar və s.) və normativlərdən (rentabellik, büdcəyə ödəmə), müxtəlif stimul, sanksi və s. maliyyə alətlərindən istifadə etməklə əldə edilir.

Bazar iqtisadiyyatı şəraitində istehsal vasitələri, kapital, əmək və s. bazarların formalaşması, mülkiyyətin müxtəlif formalarının mövcud olması, qiymətlərin sərbəstləşməsi və s. müəssisələrdə maliyyənin idarəolunması mexanizminin dəyişməsini də zəruri etdi.

Ölkədə maliyyə siyasətinin həyata keçirilməsi üçün maliyyə mexanizmindən istifadə edilir. Maliyyə münasibətlərinin təşkili üsullarının məcmusuna maliyyə mexanizmi deyilir. Maliyyə mexanizmi maliyyə münasibətlərinin təşkilinin forma, metod və növlərini əhatə edir. Maliyyə münasibətlərinin sfera və həlqələrinə uyğun maliyyə mexanizminin quruluşuna müəssisə maliyyəsi mexanizmi, sığorta mexanizmi və dövlət maliyyəsi mexanizmi daxildir.

## ƏDƏBİYYAT

1. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkküllü və inkişaf problemləri. Bakı: AzDİİ, 1998, 212 s.
2. Lixaçeva O.N., Şurov S.A. Müəssisənin maliyyə siyasəti. M.. 2009, s 560
3. Abdullayev A.A., Məmmədov İ.S. Azərbaycanda investisiya siyasəti. Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda (məqalələr toplusu) VI (XV) buraxılış.- Bakı: Elm, 2003, s. 492-503.
4. Hüseynov T.Ə. Müəssisələrin iqtisadiyyatı. Bakı: 2005.
5. Hüseynov T.Ə. Firmanın iqtisadiyyatı. Bakı: 2009.
6. Bağırov D.A., Həsənli M.X. Maliyyə. Dərslik. Bakı: 2010.
7. Abdullayev A.A., Məmmedov İ.S. Azərbaycanda milli sahibkarlığın inkişaf etdirilməsində investisiya siyasəti. Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri elmi-praktik konfransının materialları. Bakı: 2003, s. 45-46.
8. www.maliyye.gov.az
9. www.azstat.gov.az

## SUMMARY

**Elvin Najafov**

## THE İNVESTMENT ACTİVİTİES OF THE FİRM AND FİNANCİAL MECHANİSM

Investment activity is the sum of all actions of investors related to investment and its implementation. Investments in financial assets include investments in securities and other financial assets, loans, charter funds of other enterprises, etc. reflects investments. An investment is an investment in the assets of an enterprise aimed at launching a new product, improving its quality, and increasing sales and revenue. The investment activity of the enterprise combines the following main features: investment strategy, strategic planning, investment design, economic efficiency of investment. The main and decisive factor in the development of the economy is the creation of an active investment climate and the activation of investment activity.

The financial mechanism is objective on the one hand, it is based on the requirements of objective economic laws, on the other hand, it is subjective, it is determined by the state to solve certain tasks at any time and uses different forms and methods to solve those tasks. The organization of the interaction of financial relations depends on the financial categories (profit, tax, working capital, depreciation, non-cash settlements, etc.) and norms (profitability, payments to the budget), various incentives, sanctions, etc. is obtained using financial instruments.

The financial mechanism is used to implement financial policy in the country. The set of methods of organizing financial relations is called a financial mechanism. Financial mechanics covers the forms, methods and types of organization of financial relations. The structure of the financial mechanism following the spheres and rings of financial relations includes the mechanism of enterprise finance, the insurance mechanism and the public finance mechanism.

***Key words:*** *Investment, financial mechanism, financial relations, enterprise, actions of investors*

**РЕЗЮМЕ**

**Эльвин Наджафов**

**ИНВЕСТИЦИОННАЯ ДЕЯТЕЛЬНОСТЬ ФИРМЫ И ФИНАНСОВОГО МЕХАНИЗМА**

Инвестиционная активность - это сумма всех действий инвесторов, связанных с инвестированием и его осуществлением. Вложения в финансовые активы включают вложения в ценные бумаги и другие финансовые активы, займы, уставные фонды других предприятий и т.д., отражают вложения. Инвестиция - это вложение в активы предприятия, направленное на выпуск нового продукта, улучшение его качества, а также увеличение продаж и доходов. Инвестиционная деятельность предприятия сочетает в себе следующие основные характеристики: инвестиционная стратегия, стратегическое планирование, инвестиционный дизайн, экономическая эффективность вложений. Главный и решающий фактор развития экономики - это создание активного инвестиционного климата и активизация инвестиционной деятельности.

Финансовый механизм объективен, с одной стороны, он основан на требованиях объективных экономических законов, с другой стороны, он субъективен, он определяется государством для решения определенных задач в любое время и использует различные формы и методы для решать эти задачи. Организация взаимодействия финансовых отношений зависит от финансовых категорий (прибыль, налог, оборотный капитал, амортизация, безналичные расчеты и т. Д.) И норм (рентабельность, платежи в бюджет), различных стимулов, санкций и т. Д. .. получается с использованием финансовых инструментов.

Финансовый механизм используется для реализации финансовой политики в стране. Совокупность способов организации финансовых отношений называется финансовым механизмом. Финансовая механика охватывает формы, методы и типы организации финансовых отношений. В состав финансового механизма, следующего за сферами и кольцами финансовых отношений, входят механизм финансирования предприятий, механизм страхования и механизм государственных финансов.

***Ключевые слова:*** *инвестиции, финансовый механизм, финансовые отношения, предприятие, действия инвесторов*

**MEHPARƏ MƏMMƏDOVA**
*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi*
*Elmi-Tədqiqat Tədris Mərkəzi, elmi işçi*
*aliyevamehpara@mail.ru*

# REGİONAL HESABLAR SİSTEMİ, NAXÇIVAN MUXTAR RESPUBLİKASININ XƏRC-BURAXILIŞ MODELİNİN FORMALAŞDIRILMASI PROBLEMLƏRİ VƏ İMKANLARI

*Məqalədə Naxçıvan Muxtar Respublikası üçün regional sahələrarası balansın xərc-buraxılış cədvəllərinin tərtib edilməsi və onların təhlili üzrə beynəlxalq təşkilatların (BMT) tövsiyyələri çərçivəsində tərtib edilməsi imkanı informasiya texnonlogiyalarının inkişafı nəticəsində məlumatların daha asan toplana bildiyi müasir dövr üçün araşdırılmış və nəticədə muxtar respublika üçün regional sahələrarası balansın tərtib edilməsinin mümkünlüyü müəyyənləşdirilmişdir. Bundan əlavə məqalədə Milli Hesablar Sistemi (MHS), muxtar respublikada sahələrarası balansın tərtib edilməsinin metodologiyası ətraflı şərh edilərkən regionun öz məhsulunun tam xərc əmsalları ilə yanaşı, regiona gətirilən məhsulun birbaşa xərc əmsallarına baxılmışdır. Məqalədə regiona gətirilən məhsulların həcminin regiondan aparılan məhsulların həcminə bərabər olmaması, regionda yaradılan əlavə dəyərin regiondakı son istehlakın həcmindən fərqli ola bilməsi hallarında regional iqtisadi inkişafın şaxələndirilməsi problemlərinin həllində belə balanslardan mühüm tənzimləyici həlqə kimi istifadə olna bilməsi mümkünlüyü nəzəri olaraq bir daha diqqət mərkəzinə gətirilmişdir.*

***Açar sözlər:*** *Milli Hesablar Sistemi (MHS), Naxçıvan Muxtar Respublikasının xərc-buraxılış modeli, sahələrarası balansı, regionun öz məhsullarının birbaşa və tam xərc əmsalları, regiona gətirilən məhsulların birbaşa və tam xərc əmsalları, regionda yaradılan əlavə dəyər, regionun son istehlak xərcləri*

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının kompleks inkişaf etdirilməsi üçün onun bütün sahələrinin inkişafının təmin edilməsi vacibdir. İqtisadi siyasətin bütün sahələr üzrə daha effektli nəticə verməsi üçün isə bu sahələrin bir-biri ilə qarşılıqlı əlaqələrinin səviyyəsi öyrənilməklə müxtəlif sahələrin qarşılıqlı əlaqəsindəki çatışmazlıqları meydana çıxarmaq lazımdır. Bunun üçün isə iqtisadi sahələrin həcminin ölçülməsi ilə yanaşı, onların bir-biri ilə qarşılıqlı əlaqəsində daha məhsuldar inkişaf tempini və optimal artım kəmiyyətini tapmaqla ən üstün keyfiyyət göstəricilərinə nail olmaq olar. Bu cəhətdən sahələrarası xərc-buraxılış modeli ən optimal qiymətləndirmə alətidir. Muxtar respublikanın iqtisadi sahələri arasında olan münasibətlərinin analizi həmin sahələrdə olan potensiallardan istifadə etməklə daha əlaqəli iqtisadi sistem qurmağa kömək edir.

Bu cür modeldən istifadə sosial-iqtisadi inkişafın kompleks qiymətləndirilməsi və istehsalın regional miqyasda diversifikasiyası üçün çox əhəmiyyətli rol oynayır. Çünki bu modelin qurulması ilə iqtisadi fəaliyyət növləri arasındakı qarşılıqlı əlaqəni həm də regional əlaqələr baxımından görmək mümkün olar.

Ölkə iqtisadiyyatının dinamik inkişaf etdiyi halda, inkişafın əsas determinantlarının (amillərinin) araşdırılması və proqnozlaşdırılması üçün klassik üsullardan istifadə edilməsi yanlış nəticələrin alınmasına və doğru olmayan siyasətin formalaşmasına səbəb olur ki, nəticədə ekoloji, iqtisadi, maliyyə, əmək kapitalına qoyulmuş sərmayələrin səmərəsinin azalmasına səbəb olur.

Müasir dövrdə makroiqtisadi təhlil və proqnozlaşdırma əsasən ekonometrik modellər vasitəsi ilə MHS, makro statistik göstəricilər (aralıq istehlak, əlavə dəyər, aralıq tələb, son tələb, ilkin, aralıq və son xərclər və s.) əsasında həyata keçirilir. İqtisadiyyatın dinamik inteqrasiyası iqtisadi problemlərin təhlili və proqnozlaşdırılması səviyyələrinə də öz təsirini göstərmişdir.

Milli Hesablar Sistemi ölkənin iqtisadi fəaliyyətinin nəticələrini xarakterizə edən müəyyən hesablar və cədvəllər şəklində qurulmuş qarşılıqlı statistik göstəricilər sistemidir. Reproduktiv dövrün hər bir mərhələsi: məhsul və xidmətlərin istehsalı və gəlirlərin yaranması ilə əlaqəli proseslər, onların ilkin və ikincil paylanması və istifadəsi bir hesaba və ya hesab qrupuna uyğundur. Hesablar axınların

hesablarıdır, yəni istehsala, son istehlaka və yığılmasına qədər məhsul və xidmətlərin dəyərinin çoxalma dövrünün bütün mərhələləri boyunca hərəkətini əks etdirir.

**Naxçıvan Muxtar Respublikasının xərc-buraxılış modelinin formalaşdırılması problemləri**

Hazırkı iqtisadi şəraitdə regional iqtisadi inkişaf göstəricilərinin dolğun əlaqələndirilməsi məqsədilə müfəssəl bir iqtisadi modelin tətbiqi məqsədəuyğundur. Ümumiyyətlə, ölkə iqtisadiyyatı üzrə bütün makroiqtisadi göstəricilər Milli Hesablar Sistemi vasitəsilə əldə olunur. Milli Hesablar Sisteminin tərkib hissəsi olan məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balansı bütün makroiqtisadi göstəriciləri bir növ nəzarətdə saxlayan bir cədvəldir. Bu cədvəlin tələblərinə uyğun olmayan makroiqtisadi göstəricilər praktik istifadə üçün yarasız olur. Bu cədvəl əsasında iqtisadiyyatın tənzimlənməsi üçün mühüm iqtisadi-riyazi modellər qurulur. Milli Hesablar Sistemi regional səviyyədə də belə balansların tərtibinə imkan verən bir sistemdir. Reginol səviyyədə belə balansların hazırlanması mövcud iqtisadi inkişaf proseslerinin sürətlənməsinə imkan vermiş olar.

Məqalədə əsas regional problemlər olan iqtisadiyyatın regional şaxələndirilməsi, investisiya qoyuluşunun regional strukturunun səmərəliliyi, regional infrastrukturun yaradılması və s. kimi problemlərin təhlili, proqnozlaşdırılması və həllində dövlət siyasətinə yardımçı ola biləcək regional sahələrarası balans modellərinin yeri və rolu nəzərdən keçirilmişdir.

Dünyada ilk dəfə region üçün sahələrarası balans Mur və Petercon tərəfindən ABŞ-ın Yuta ştatı üçün hazırlanmışdır. İtaliyada belə balans onun cənub regionunun inkişaf etdirilməsi məqsədilə hazırlanmışdır. Daha sonra yaponlar Hokkaydo adasının inkişaf etdirilməsi üçün belə balans hazırlamışlar. Daha sonra ABŞ-da Filadelfiyanın, İsveçdə Stokholm və Oslonun belə balnsları hazırlanmışdır. Keçmiş Sovet İttifaqında belə balans Mordva MSSR üçün 1959-cu ildə hazırlanmışdır. 70-ci illərdə isə Pribaltika ərazisi üçün eksperimental formada belə balans hazırlanmışdır.

Regional balansların hazırlanması əlavə olaraq xeyli hesablamalar və vəsait tələb etdiyindən belə balansların hazırlanması xeyli çətindir. Digər tərəfdən bu balansların hazırlanması üçün əvvəlcədən məlumat bazasının formalaşdırılması statistika orqanlarının iş planında olmadığından həmin məlumatları mütəmadi olaraq heç olmasa 3-5 ildən bir əldə etmək çətindir. Odur ki, bu işlərin görülməsi həmişə eksperimental forma almışdır.

Lakin hal-hazırda informasiya əldə etmək və onu işləmək informasiya texnologiyalarının inkişafı ilə əlaqədar asanlaşdığından belə informasiyaların əldə edilməsini də mümkün etmişdir. Məsələn, gömrük orqanlarının avtomatlaşmış məlumat bazaları əsasında hər hansı ərazi üzrə sahəvi strukturu da daxil olmaqla idxal və ixrac barədə məlumat formalaşdırmaq mümkündür ki, bu da regional balansların tərtibi zamanı ən çətin əldə olunan informasiyalardan sayılır.

Digər tərəfdən əvvəllər sahələrarası balans əsasında aparılan proqnoz hesablamalarının özü o qədər əməktutumlu idi ki, müvafiq orqanlar onun həyata keçirilməsinin öhdəsindən güclə gəlirdi. Müasir hesablama texnikalarının köməyi ilə məlumatların müəyyən əlamətlər üzrə təsnifləşdirilməsi və işlənməsi çox asanlaşdığından regional balansların tərtibinə də böyük imkanlar açılmışdır.

Statistika sahəsində də həmin balansların tərtibi barədə normativ hüquqi sənəd hələ ki, hazırlanmamışdır. Qeyd etmək lazımdır ki, hər ölkə bu balansın tərtibində özünəməxsus metodlardan istifadə edir. Bəziləri dolayı hesablamalar əsasında, bəziləri isə bu məqsədlə xüsusi sorğular keçirməklə tələb olunan məlumatları əldə edirlər.

Müasir statistika praktikasında dünyanın əksər ölkələri öz iqtisadiyyatlarının makrostatistik modelini təsvir etmək və onu təhlil etmək üçün bir sıra hesablardan və əlavə balans cədvəllərindən istifadə edirlər. İqtisadiyyatın makrostatistik modelini qurmaqla ölkələr geniş təkrar istehsalın dörd mühüm fazasında (istehsal, bölgü, mübadilə və istehlak) baş verən mühüm iqtisadi münasibətlərin formalaşmasını, inkişafını və gələcək perspektivini görməyə çalışırlar. Eyni zamanda makrostatistik model müxtəlif hesablamalar aparmağa imkan verən iqtisadi-riyazi modellərin qurulmasında böyük əhəmiyyət kəsb edir.

İlk praktik makrostatistik modellər 1923-1930-cu illərdə SSRİ-də yaradılmışdır. 30-cu illərin

əvvəllərində sovet iqtisadçısı A.Pervuxin "1928-1930-cu illərin Xalq Təsərrüfatı Balanslarına qeydlər"ində ilk dəfə milli gəlirin iqtisadi dövriyyənin üç: istehsal, bölgü, istifadə fazasında öyrənilməsi ideyasını vermişdir. O dövrdə Xalq Təsərrüfatı Balanslarında indiki sahələrarası balansın əsas əlamətləri və nisbətləri artıq yaranmağa başlamışdı. Ümumiyyətlə, indiki sahələrarası balans ideyası Sovet Hakimiyyətinin yeni iqtisadi siyasət (NEP) dövründə gedən iqtisadi diskussiyaların məhsuludur ki, bu ideya sonradan B. Leontyev tərəfindən iqtisadiyyatın sahələri, həmçinin ümumi buraxılış, aralıq istehlak və son istehlak arasındakı əlaqələri əks etdirən tənliklər kimi ciddi riyazi təsvir şəkilində verilmişdir. Buradaca qeyd etmək lazımdır ki, əlavə dəyər kimi iqtisadi anlayışın nəzəri izahı A.Smit, aralıq istehlak kimi mühüm iqtisadi anlayışın nəzəri izahı isə D.Rikardo və K.Marks tərəfindən verilmişdir.

Müasir MHS bir tərəfdən iqtisadi inkişafın ümumi nəticələrini, digər tərəfdən isə iqtisadi əlaqələri qiymətləndirməyə imkan verən homomorf makrostatistik modeli özündə birləşdirir. MHS göstəricilərinin hesablanması mühüm analitik imkanlar kəsb etmiş və demək olar ki, MHS hesablamaları canlı iqtisadi orqanizmin sağlamlıq vəziyyətinin funksional diaqnostika metodudur.

MHS informasiyaları iqtisadiyyatın idarəetmə aləti kimi dövlətin həm ölkə, həm də onun regionları üzrə iqtisadi siyasət variantlarının seçilməsində, qısa və orta müddətli proqnozlaşdırmada, ölkə iqtisadiyyatlarının və onun ayrı-arı regionlarının müqayisəsində, beynəlxalq iqtisadi əlaqələrdə müvəffəqiyyətlə istifadə edilir.

Akademik və empirik araşdırmaların ümumiləşdirilmiş xülasəsi, regional sahələrarsı balans modelləri xərc-buraxılış modellərinin ayrılmaz tərkib hissəsidir. Onlar məhsul istehsalı və bölüşdürülməsinin sahəvi təhlili ilə ərazi təhlilini tamamlayır, ümumi məhsul buraxılşının sahələrarası balansı ilə müəssisələrin biznes planlarını (sovet dövrü texniki-sənaye maliyyə planı) əlaqələndirən həlqə rolunu oynayır.

Regional sahələrarsı balansların tərtibi prinsipial olaraq sahələrarası balansın tərtibindən fərqlənmir. Lakin onun tərtibinin bəzi özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, əgər ölkənin sahələrarası balansında idxal-ixracın xüsusi çəkisi o qədər hiss olunmursa, regional sahələrarası balansda bu daha qabarıq şəkildə üzə çıxır. İqtisadi rayonlar üzrə məhsulun rayona gətirilməsi və aparılması sahələrin məhsul istehsalı və bölüşdürülməsinə böyük təsir edir. Odur ki, regional sahələrarası balansda xarici iqtisadi əlaqələr istehsalın əsas üzvi elementi kimi geniş əks etdirilir.

Ölkənin sahələrarası balansından fərqli olaraq, regional sahələrarası balansda əlavə dəyərlə son məhsula bərabər olmaya da bilər. Bu göstəricilər arasındakı fərq ondan yarana bilər ki, son istehlak xərcləri üçün lazım olan gəlir və son istehlak üçün tələb olunan mallar rayona kənardan gətirilə bilər. Məhz bu iqtisadi situasiya regional sahələrarası balans tərtib ediləndə nəzərə alınmalıdır.

**Qiymətləndirmədə istifadə edilən metodun ümumi riyazi spesifikasiyası.**

İqtisadi regionun sahələrarası balansının iki qrup birbaşa xərc əmsalları fərqləndirilir. Birinci qrup əmsallara öz məhsulunun birbaşa xərc əmsalları aiddir. İikinci qrup əmsallara gətirilən məhsulların birbaşa xərc əmsalları aidir. Lakin buradaca qeyd etməliyik ki, regiona gətirilən məhsulların həcmi regiondan aparılan məhsulların həcminə bərabər olmaya bilər. Habelə yuxarıda qeyd etdiyimiz kimi regionda yaradılan əlavə dəyər regiondakı son istehlakın həcmindən fərqlənə bilər.

Regionun sahələrarası balansında birbaşa xərc əmsalları əsasında tam xərc əmsallarının tapılması anoloji olaraq sahələrarısı balans modelində olduğu kimidir.

Regionun sahələrarası balansının tərtibi əlavə olaraq onun başqa regionlarla əlaqəsini ifadə edən əlavə cədvəllərin (matrislərin) hazırlanmasını tələb edir. Bu cədvəllər ya əlavə bloklar (qanadlar) kimi əsas cədvələ birləşdirilir, ya da ayrıca cədvəllər kimi əsas cədvələ əlavə edilir. Bu cədvəllər aşağıdakılardan ibarətdir:

1. Regiona gətirilən məhsulların regional strukturu cədvəli. Bu cədvəldə qəbul edilmiş nomenklatura üzrə bütün sahələrin və məhsul göndərən regionların siyahısı verilir;

2. Regiondan aparılan məhsulların regional strukturu cədvəli. Bu cədvəldə qəbul edilmiş nomenklatura üzrə bütün sahələrin və məhsul alan regionların siyahısı verilir;

3. Verilən rayonun istehsal sahələrində istifadə edilən əsas və dövriyyə fondlarının tərkibini əks etdirən cədvəl;

4.Həm məhsul istehsal edən sahələr, həm də onu istifadə edən sahələr üzrə kapital qoyuluşunun strukturunu xarakterizə edən qoyuluşlar axını cədvəli.

**İqtisadi göstəricilərin verilmə formatı:** Sahələrarası balansın iqtisadi ədəbiyyatlarda verilən nümunəvi sxemi aşağıdakı cədvəldə verilmişdir.

| **İqtisadi regionun sahələrarası balansı** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **İstehsalçı sahələr** | **İstehlakçı sahələr** | | | | | **Son məhsul** | | | **Ümumi məhsul** |
| | **1** | **2** | **...** | **n** | **Cəmi** | **İstehlak** | **Yığım** | **regiondan aparma** | |
| **1** | | | | | | | | | |
| **2** | | **I KV** | | | | | **II KV** | | |
| **...** | | | | | | | | | |
| **n** | | | | | | | | | |
| **Cəmi** | | | | | | | | | |
| **1** | | | | | | | | | |
| **2** | | | | | | | | | |
| **...** | | **III KV** | | | | | **IV KV** | | |
| **n** | | | | | | | | | |
| **Regiona gətirmə** | | | | | | | | | |
| **Əlavə dəyər** | | | | | | | | | |
| **Ümumi məhsul** | | | | | | | | | |

I kvadrantda verilən rayonda istehsal edilən və həmin rayonun istehsal sferasının sahələrində istehsal vasitələri kimi istehsal, istehlak olunan məhsulun aralıq istehlakı əks etdirilir.

II kvadrantda son məhsulun sahə strukturu və istifadə istiqamətləri göstərilir. Rayondan aparılan məhsulun tərkibində digər rayonlarda material xərclərinin tərkibində nəzərə alınan istehsal vasitələri də vardır. Lakin verilən rayonda həmin məhsul son məhsul kimi çıxış etməsinə baxmayaraq ölkə miqyasında həmin məhsul aralıq məhsul kimi çıxış edir. Ona görə də bütün regionların son məhsulunun cəmi ölkə üzrə bütün son məhsulun həcmindən cari material xərcləri üçün istehsal vasitələrinin regionlararası göndərmə kəmiyyəti qədər çox olacaqdır.

III kvadrantda əlavə dəyərin tərkibi, başqa rayonlardan gətirilmiş məhsulun həcmi və strukturu göstərilir. Qeyd etmək lazımdır ki, regiona həm də son istehlak məhsulları da gətirilə bilər. Modeldə onlar IV kvadrantda bu məlumatlar rayona məhsulların gətirilmə sətiri ilə istehlak və yığım sütununun kəsişdiyi mövqelərdə əks etdirilir. VI kvadrantda, ümumiyyətlə, regionun ümumi gəlirinin son bölüşdürülməsi əks etdirilir.

**Tədqiqat üzrə əldə edilmiş nəticələr və irəli sürülən təkliflər.** Nəzəri araşdırmaların nəticəsi göstərir ki, Azərbaycanda iqtisadi rayonlar üzrə sahələrarası balansın hazırlanması Regionların Sosial-İqtisadi İnkişafı üzrə Dövlət Proqramının daha dolğun koordinasiyasına böyük kömək edə bilər. İqtisadiyyatda məhsulun istehsalı və bölüşdürülməsinin sahələrarası balansının riyazi modeli eyni vaxtda həm sahələrarası, həm də region əlaqələrini əhatə etdikdə o, iqtisadi cəhətdən daha mükəmməl olur. Aydındır ki, bu qurulan modeli çətinləşdirir, lakin onun əhəmiyyətini daha da artırır.

## ƏDƏBİYYAT

1. Mehdiyev M.M. Regionların sahələrarası balans modellərinin tərtibi problemləri, Journal of Qafqaz University - Economics and Administration. 2013, v.1, No 2, pp. 255-264
2. Həsənli Y.H. Azərbaycan iqtisadiyyatının sahələrarası əlaqələrinin modelləşdirilməsi. Bakı: Elm,

2011, 202 s.
3. Коссов В.В. «Межотраслевой баланс» АН.СССР ЦЕМИ. издательство «ЭКОНОМИКА». Москва: 1966
4. Автономов В.С., Алешина И.В. 50 лекций по Микроэкономике Издательство: Экономическая школа Серия: Библиотека «Экономической школы» с 862 ISBN: 5-9402-04-2
5. United Nations, Studies in Methods Series F, No. 74 Handbook of National Accounting handbook of input-output table compilation and analysis. New York, 1999
6. Организации Объединненых Наций. Методологические исследования Серия F, №85 Руководство по Национальным Счетам. Национальные Счета: практический вводный курс.
7. Организации Объединненых Наций. Система Национальных Счетов. Нью-Йорк. 2008

## SUMMARY

**M.Mammadova**

### SYSTEMS OF REGİONAL ACCOUNTS, PROBLEMS AND OPPORTUNİTİES OF FORMATİON OF COST-OUTPUT MODEL OF NAKHCHİVAN AUTONOMOUS REPUBLİC

The article examines the possibility of drawing up regional intersectoral balance charts of expenditures for the Nakhchivan Autonomous Republic within the framework of the recommendations of international organizations (UN) for their analysis. In addition, the article provides a detailed explanation of the System of National Accounts (NAS), the methodology for compiling input-output balances in the Autonomous Republic. The possibility of using such balances as an important regulatory link in solving the problems of diversifying regional economic development, when the added value may differ from the volume of final consumption in the region, has again come to the fore.

***Key words:*** *National Accounts System (NAS), cost-output model of Nakhchivan Autonomous Republic, intersectoral balance, direct and full cost ratios of the region's own products, direct and full cost ratios of products imported to the region, value added in the region, final consumption expenditures of the region*

## РЕЗЮМЕ

**М. Мамедова**

### СИСТЕМА РЕГИОНАЛЬНЫХ СЧЕТОВ, ПРОБЛЕМЫ И ВОЗМОЖНОСТИ ФОРМИРОВАНИЯ МОДЕЛИ ЗАТРАТ-ВЫПУСКА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье исследуется возможность составления региональных межотраслевых балансовых графиков расходов по Нахчыванской Автономной Республике в рамках рекомендаций международных организаций (ООН) для их анализа. Кроме того, в статье дается подробное объяснение Системы национальных счетов (НСБУ), методологии составления межотраслевых балансов в автономной республике. Возможность использования таких балансов в качестве важного регулирующего звена в решении проблем диверсификации регионального экономического развития, когда добавленная стоимость может отличаться от объема конечного потребления в регионе, снова вышла на первый план.

***Ключевые слова:*** *Система национальных счетов (СНА), модель затрат-выпуска Нахчыванской Автономной Республики, межотраслевой баланс, коэффициенты прямой и полной стоимости собственной продукции региона, отношения прямой и полной стоимости продукции, импортируемой в регион, добавленная стоимость в регионе, расходы на конечное потребление региона*

**ANAR ALLAHVERDİYEV**
*Qərbi Kaspi Universiteti*

# İQTİSADİYYATIN İNKİŞAFINDA BANK-KREDİT AMİLLƏRİNİN QABAQCIL TƏCRÜBƏSİ

*Məqalədə ölkə iqtisadiyyatının inkişaf etdirilməsi zərurəti və bu məsələdə bank-kredit amillərinin rolu izah olunmuşdur. İqtisadi dinamikanın təmin edilməsində pul-kredit siyasətinin, bank-kredit amillərinin təsiri əsaslandırılmışdır. Onların həyata keçirilməsində, iqtisadiyyatın və onun sektorlarının inkişafının təmin edilməsində tətbiq edilən mexanizmlər müəyyən edilmişdir. İnkişaf etmiş bir sıra ölkələrin timsalında pul siyasətinin nəticələrinin pul multiplikatoru və monetizasiya səviyyəsinin idarə edilməsi vasitəsilə əldə olunan təcrübə nəzərdən keçirilmişdir. Kredit emissiyasının müsbət və mənfi cəhətləri təhlil olunmuş, ölkəmizin iqtisadiyyatında onun tətbiqi imkanları araşdırılmışdır. İqtisadiyyatın modernləşdirilməsində, daxili bazarda rəqabət mühitinin təmin edilməsində, ixracın stimullaşdırılmasında bank-kredit amillərinin rolu və əhəmiyyəti konkret misallar əsasında geniş izah olunmuşdur.*

***Açar sözlər:*** *real sektor, kredit emissiyası, bank-kredit amilləri, pul multiplikatoru, monetizasiya, rəqabət, daxili bazar, ixrac*

**Giriş**

Ölkə iqtisadiyyatında dayanıqlı və davamlı inkişafın təmin edilməsi mütəmadi olaraq həyata keçirilən pul-kredit siyasətinin təkmilləşdirilməsini tələb edir. Onun yeni prinsiplərinin hazırlanması, onların həyata keçirilməsi, tənzimlənməsi və sonda iqtisadiyyatda səmərəli nəticələrə nail olunması iqtisadi inkişafın prioritet istiqamətlərindən birinə çevrilir. Çünki səmərəli pul-kredit siyasəti həyata keçirmədən dinamik iqtisadi inkişafı təmin etmək qeyri-mümkündür. Bu baxımdan da Azərbaycan iqtisadiyyatında hal-hazırda yaranan iqtisadi şəraitdə pul-kredit siyasətinin əsas məqsədi ölkə iqtisadiyyatının qeyri-neft sektorunun iqtisadi artımının, inkişafının müxtəlif vasitə və üsullarla stimullaşdırılmasından, bütövlükdə ölkə iqtisadiyyatında tarazlaşdırılmış dinamik inkişafın təmin edilməsindən, əhalinin sosial rifahının yaxşılaşdırılmasından və bütün sahə və sektorlarda inkişafın müsbət meyllərinə nail olunmasından ibarətdir.

Ölkə iqtisadiyyatının qarşısında duran uzunmüddətli, strateji məqsədlərə çatmaq üçün pul-kredit siyasəti vasitəsilə həyata keçirilən kreditləşmə sahəsində reallaşdırılması çox vacib və zəruri olan məsələlər kifayət dərəcədədir. Onlardan biri də iqtisadiyyatın inkişafının kredit amillərinin qabaqcıl dünya təcrübəsi əsasında daimi olaraq təkmilləşdirilməsidir.

Ortamüddətli perspektivdə kreditləşmə proseslərinin məqsədi bank xidmətlərinin səviyyəsinin və keyfiyyətinin əsaslı sürətdə yüksəldilməsi əsasında iqtisadiyyatın modernləşməsində yaxından iştirak etməkdən ibarətdir. Həmin xidmətləri banklar əhaliyə və real sektora təqdim edərək əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa, real sektorun isə dayanıqlı inkişafını təmin etməyə çalışır. Ortamüddətli perspektivdə bankların xidmətlərinin keyfiyyətini yüksəltməklə yanaşı, ən mühüm vəzifələrindən biri də bank sektorunda rəqabət mühitinin gücləndirilməsini təmin etməkdən ibarətdir. Bütün bu vəzifələrin yerinə yetirilməsində bank-kredit amillərinin qabaqcıl təcrübəsinin mühüm əhəmiyyəti vardır.

**Bank-kredit amillərinin iqtisadi dinamikanı təmin edən qabaqcıl parametrləri**

Azərbaycan iqtisadiyyatında uzunmüddətli prioritetlərin müəyyən olunması, eləcə də dünya bazarında neftin qiymətlərinin aşağı düşməsi qeyri-neft sektorunun sürətli inkişafı zərurətini yaratdı. Bu isə öz növbəsində iqtisadiyyatda həyata keçirilməli olan yeni inkişaf strategiyasının hazırlanmasını tələb edirdi. Əgər neft bumu dövründə iqtisadi inkişaf neft gəlirlərinə əsaslanırdısa, neft gəlirlərinin azaldığı dövrdə iqtisadi inkişaf üçün zəruri olan fasiləsiz investisiya proseslərini təşkil edə bilən müxtəlif maliyyə-kredit mexanizmləri tətbiq olunmalıdır. İqtisadiyyatda belə vacib mexanizmlərdən olan fond bazarının inkişafı ilə yanaşı, bank sektorunun daha səmərəli inkişaf

etdirilməsi və bu sektorun fəaliyyət mexanizmi vasitəsilə əhalinin və hüquqi şəxslərin sərbəst pul vəsaitləri optimal həcmdə akkumulyasiya olunaraq real sektora investisiyalar kimi yönəldilməlidir (9, səh 100).

İqtisadi inkişafın bank-kredit amillərinin qabaqcıl dünya təcrübəsi göstərir ki, post-neft dövründə iqtisadiyyatda gərginlik yaradan əsas parametrlərdən biri kifayət dərəcədə pul kütləsinin olmamasıdır. Bunu sübut edə bilən ən mühüm faktorlar kreditlər üzrə faiz dərəcəsinin çox yüksək olması və eyni zamanda fərdi sahibkarlara, şirkətlərə kredit alınmasında çox ciddi maneçilik yaradan girovlar üzrə çox sərt tələblərin olmasıdır.

Dünya ölkələrinin, xüsusən də inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, real sektorda kreditlərin çatışmazlığı kredit emissiyası və həmçinin real sektorun kreditləşdirilməsinin dəstəklənməsi üsulları olan kreditlər üzrə ödənişlərin bir hissəsinin və ya strateji sektorlar üzrə hamısının subsidiyalaşdırılması, real sektorun ayrı-ayrı sahələri üzrə kreditlərin bölüşdürülməsi normativlərinin tətbiq edilməsi və s. vasitələrlə aradan qaldırıla bilər (1, səh 164).

İqtisadi ədədbiyyatlardan məlum olduğu kimi, real sektora dəstək üsulu olaraq kredit emissiyasının həm lehinə, həm də əleyhinə olan mövqelər mövcuddur (2, səh 47). Kredit emissiyasının lehinə olan, onun üstünlüklərini dəstəkləyən arqumentlərə aşağıdakıları aid etmək olar:

- İqtisadiyyatın normal fəaliyyət göstərməsnin və həmçinin inkişafının ən mühüm şərtlərindən, həm də onun dinamizmini təmin edən şərtlərindən biri iqtisadiyyatın zəruri monetizasiya səviyyəsinin təmin edilməsidir. Avropanın bir çox ölkələrində, o cümlədən Böyük Britaniyada, Almaniyada, Fransada, İtaliyada, Norveçdə, İsveçdə, Danimarkada və s. monetizasiya səviyyəsi 110%, Çində isə 200% təşkil edir (8, səh 326). Azərbaycanda isə qeyri-neft ÜDM nəzərə alınmaqla monetizasiya əmsalı 50% təşkil edir. Bu səviyyə isə real sektorun inkişaf məqsədlərinə uyğun gəlmir (9, səh 100).
- Ölkəmizdə bank kreditləri bazarı xarakter və mahiyyətinə görə özünü daha çox satıcının bazarı kimi ifadə edir. Bu isə ölkədə bank sayının az olması ilə deyil, bankların sərəncamında pul kütləsinin az olması ilə izah olunur. Bu vəziyyət isə banklar üçün öz müştərilərinə, həm fiziki şəxslərə, həm də hüquqi şəxslərə özlərinin kredit şərtlərini diqtə etməyə, kreditlər üzrə yüksək faizlər təyin etməyə şərait yaradır. Nəticədə banklar bu vəziyyətdən geniş istifadə edirlər ki, bu da çox müştərilərin, daha çox isə firma və şirkətlərin kreditlərə əlçatanlığını zəiflədir. Yaranan vəziyyət firma və şirkətlərin inkişafı yolunda maneəyə çevrilir, onların fəaliyyətlərinin genişləndirilməsinə məhdudiyyətlər yaradır.
- Banklarda kredit resurslarının çatışmazlığı səbəbindən kredit bazarında yaranan sərt şərtlər real sektorda təmərküzləşmənin artmasını, güclənməsini şərtləndirir, bu prosesə münbit şərait yaradır. Çünki kreditlərin çatışmazlığı halında yalnız azsaylı iri, güclü firmalar kredit resurslarına əlçatanlıq imkanlarına malik olurlar. Qalan çoxsaylı firmalar isə kreditlərə əlçatanlığı itirir, istehsalı genişləndirmək, inkişaf etdirmək imkanlarından məhrum olur və təmərküzləşmə proseslərinə meyllənməyə məcbur olurlar (4, səh 106).

İqtisadi dinamikanın təmin edilməsinin mühüm elementlərindən biri kimi çıxış edən kredit emissiyasının əleyhinə olan arqumentlərdən biri və əsası real sektorun kreditlər üzrə borclarının səviyyəsinin artmasıdır. Şirkətlərin gəlirlərinin artımının səngidiyi hallarda bu vəziyyət borc böhranına gətirib çıxarır. Məşhur iqtisadçı Fişerin qeyd etdiyi kimi, belə vəziyyət sistematik xarakter aldıqda ya borcalanların, ya kreditorların, bəzi hallarda isə hər ikisinin ləğv olunmasına gətirib çıxarır (3, səh 342). Qeyd etmək lazımdır ki, haqqında söhbət gedən vəziyyət hal-hazırda Azərbaycanın, Qazaxıstanın, Rusiya Federasiyasının, hətta inkişaf etmiş ölkələrin bank sistemlərində və real iqtisadiyyatda baş verir. Həmin ölkələrin real iqtisadiyyatında fəaliyyət göstərən bir çox şirkətlər pandemiya səbəbindən daha ağır vəziyyətə düşmüş, onların borc yükü artaraq həm özlərini, həm də bank sistemini çətin vəziyyətə salmışdır.

Kredit emissiyasının neqativ nəticələrinə yol verməmək və real sektorun mütəmadi olaraq dayanıqlı vəziyyətdə olmasını təmin etmək üçün bu sektora verilən kreditlərin faiz dərəcələrinin səviyyəsi bu sektordakı mənfəət səviyyəsindən artıq olmamalıdır. Bu, müxtəlif vasitələrlə təmin edilə bilər. Əgər banklar tərəfindən kreditləşmə risklərdə iştirak prinsipləri vasitəsi ilə həyata keçirilərsə, bu, qeyd edilən nəticəni verə bilər. Bunun üçün layihə maliyyələşdirilməsi və banklar tərəfindən

korporativ hibrid maliyyə alətlərinin əldə edilməsi üsulları geniş tətbiq edilə bilər. Bu üsulların tətbiq edilməsi maliyyə böhranları dövründə şirkətlərə banklardan cəlb olunmuş vəsaitlər üzrə ödənişləri azaltmağa və müflis olmaqdan qurtarmağa şərait yaradır (5, səh 102).

Kredit emissiyası əleyhdarlarının, yəni bu mövqeyi dəstəkləyən alimlərin, tədqiqatçıların, digər arqumenti ondan ibarətdir ki, tədavüldə pul kütləsinin artması və kreditləşmə inflyasiyanın artımını, valyuta bazarına pul axınlarının güclənməsini, çoxalmasını, sonda isə devalvasiyanı şərtləndirir. Bunun əks arqumenti isə digər qrup iqtisadçı alimlər tərəfindən ortaya qoyulmuşdur. Onlar qeyd edirlər ki, nəzarət edilən, tənzimlənən emissiya düzgün təşkil olunduğu halda əmtəə və xidmətlərin həcmini artırır və iqtisadiyyatda baş verə bilən inflyasiya meyllərini aşağı salır. Elmi cəhətdən düzgün təşkil edilmiş pulun sterilizasiyası və valyuta tənzimlənməsi prosesi böyük pul kütləsinin valyuta bazarına axınının qarşısını alır (8, səh 204).

Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatda dinamik və davamlı inkişafı təmin etmək amili kimi tətbiq edilən kredit siyasətinin uğuru, səmərəsi bu siyasətin düzgün strategiyasının müəyyən edilməsindən, onun mərhələlərinin düzgün əlaqələndirilməsindən, bu siyasətin iqtisadiyyatın, real sektorun tələblərinə cavab verən prioritet istiqamətlərinin düzgün müəyyən edilməsindən ibarətdir. Məhz deyilənləri öz təcrübəsində kompleks şəkildə tətbiq edən Kanada, Yaponiya, Sinqapur, Cənubi Koreya, Tayvan və başqa ölkələr qısa müddət ərzində iqtisadiyyatın köklü sürətdə modernləşməsinə nail ola bilmişlər (2, səh 4).

Qeyd edilən ölkələr iqtisadiyyatın inkişafında bank-kredit amillərinin daimi təkmilləşdirilməsini apararaq əldə etdikləri uğurlu nəticələrin kreditləşmədə, kredit siyasətində aşağıdakı mərhələlərin hesabına olduğunu sübut etmişlər:

- Kredit bazarının liberallaşdırılması;
- Dayanıqlı kredit bazarının formalaşdırılması;
- Faiz siyasətinin liberallaşdırılması;
- İstehsalçı müəssisələrin modernləşdirilməsi;
- İstehsalçılara zəruri maliyyə-kredit dəstəyinin göstərilməsi;
- İxrac istehsalının təşkili və genişləndirilməsi.

Kredit siyasətinin uğurla yekunlaşdırılması üçün qeyd edilən hər bir mərhələnin məqsədi və vəzifələri vardır. Bu təcrübədən istifadə edərək Azərbaycanda tətbiq edilən bank-kredit amillərinin təkmilləşdirilməsini aparmaq vacibdir. Belə ki, bu gün ölkədə əhalinin tələbatı əsasən ərzaq mallarına yönəlmişdir. Bunu nəzərə alaraq banklar tərəfindən kredit dəstəyini əsasən kənd təsərrüfatına, ərzaq mallarının istehsalına yönəltmək lazımdır. Bu sahədə səmərəli nəticələrin əldə olunması üçün real sektorun kreditləşdirilməsində aşağı faiz dərəcələri tətbiq olunmalı, bank-kredit amillərinin müxtəlif mexanizmlərindən istifadə etməklə aşağıdakı vacib məqsədləri qısa müddətdə reallaşdırmaq lazımdır: kənd təsərrüfatının modernləşdirilməsi; əhalini gündəlik tələbat və ərzaq məhsulları ilə təmin edən sənaye sektorunun modernləşdirilməsi; daxili bazarın zəruri tələblər səviyyəsinə qaldırılması; ailə təsərrüfatlarının və qeyri-ticarət sektorlarının kreditləşdirilməsinin sərhədlərinin müəyyən edilməsi; əhalinin sosial rifahının yaxşılaşmasına xidmət edən sektorların davamlı surətdə kreditləşdirilməsi və s. (7, səh 43).

İqtisadiyyatın inkişafında bank-kredit amillərinin təkmilləşdirilməsi istiqamətində hal-hazırda vacib məsələlərdən biri də mərkəzləşdirilmiş kredit resurslarından istifadənin daha da səmərəli olmasını təmin etməkdən ibarətdir. Bunun üçün iqtisadi inkişafın müasir mərhələsində banklar tərəfindən mərkəzləşdirilmiş qaydada alınan kreditlərə, onların hansı istiqamətə istifadə olunması ilə əlaqədar normativlərin müəyyən edilməsi vacibdir. Həmin kreditlərin real sektora, ipoteka kreditlərinə və ya hüquqi və fiziki şəxslərin müxtəlif məqsədli kreditləşdirilməsinə yönəldilməsinə nəzarət vacibdir. Hal-hazırda idxal əmtəələri üzrə istehlak kreditlərinə iqtisadi üsullarla məhdudiyyətlər tətbiq etmək lazımdır. Bunun üçün yüksək faizli ehtiyat normaları tətbiq etmək olar.

Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın inkişafında tətbiq edilən bank-kredit amillərinin uğurlu nəticələri bir sıra vacib amillərdən asılıdır. Həmin amillərə aşağıdakıları aid etmək olar: rəqabətqabiliyyətli bank sisteminin yaradılması; banklar arasında rəqabətin gücləndirilməsi; real

sektorda rəqabət mühitini yaratmaqla firmalar, şirkətlər arasında rəqabətin gücləndirilməsi; ölkənin regionlarında iqtisadi inkişafın, xüsusən də istehsal sahələrinin inkişaf etdirilməsinin sürətləndirilməsi; mərkəzləşdirilmiş qaydada kreditləşmədə bazar iştirakçıları üçün bərabər rəqabət mühitinin yaradılması və s. (9, səh 104).

Həm banklar arasında, həm də real sektorun iştirakçıları arasında rəqabət mühitinin təmin edilməsi kredit bazarında mühüm müsbət meyllər yaradacaq. Hər şeydən əvvəl kredit bazarı satıcı bazarından alıcı bazarına çevriləcək, kredit dərəcələri üzrə faizlər aşağı düşəcək, bütün firmalar üçün kredit əlçatanlığı mümkün olacaq. Ona görə də mərkəzləşdirilmiş kreditlər üzrə heç bir iri və ya dövlət bankına imtiyazlar verilməməli, həmin resurslar bütün banklar üçün əlçatan olmalıdır. Faiz dərəcələri bazar dərəcələrinə yaxınlaşmalı, faiz siyasəti bankların mənfəət siyasətinə müsbət dərəcədə təsir edə biləcək səviyyədə olmalıdır. Bu halda banklar öz dayanıqlığını qoruya bilər və hətta maliyyə çətinlikləri olduqda onu asanlıqla aradan qaldıra bilərlər.

Qabaqcıl təcrübələr nəzərdən keçirilən ölkələrdə bank-kredit amillərinin təsiri vasitəsilə iqtisadiyyatda məqsədyönlü aparılan siyasətin əsas istiqamətlərindən biri də daxili bazarda istehlakçıların dəstəklənməsi və bunun ardınca ixracın prioritetə çevrilməsidir. Bunun üçün ən səmərəli vasitə kredit emissiyasının həcmini azaldaraq digər müxtəlif bank-kredit amillərinin tətbiq edilməsidir. Belə vasitələrlə ixracla məşğul olan istehsalçıların hərtərəfli dəstəklənməsi öz səmərəsini verir. Dünyanın İspaniya, Yaponiya, Sinqapur, Koreya, Fransa, Malayziya, Tayvan kimi ölkələri məhz bu yolu tutaraq əvvəlcə daxili istehsalı inkişaf etdirmiş, sonrakı mərhələdə isə ixracın stimullaşdırılmasını tətbiq edərək, iqtisadiyyatı qısa müddətdə modernləşdirərək uğurlu nəticələr əldə etmişlər (6, səh 89).

**Nəticə**

Yuxarıda qeyd edilənləri nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, iqtisaidyyatın inkişafının təmin edilməsində tətbiq edilən çoxsaylı bank-kredit amilləri mövcuddur. Onların hər biri ayrı-ayrı mexanizmlər vasitəsilə yerinə yetirilir və hər birinin fərqli məqsədləri vardır. Lakin son nəticədə həmin məqsədlər ölkədə məcmu məqsəd olan iqtisadiyyatın dayanıqlı və davamlı inkişafına xidmət edir.

Pul kütləsinin iqtisadiyyata təsiri mexanizmlərindən, onun müxtəlif üsullarından istifadə etməklə iqtisadi inkişafda müsbət meyllərin yaradılması müasir dövrün xarakterik cəhətlərindən biridir. Bu vasitələrlə real sektorda iqtisadi aktivliyi yüksəltmək, ekspansiv pul siyasəti yeridərək istehsalın genişləndirilməsini, daxili bazarın əhalinin zəruri tələbatlarını ödəyəcək səviyyəyə qaldırılmasını, əhalinin sosial rifahının yüksəldilməsini təmin etmək, ixracı yüksək inkişaf səviyyəsinə çatdırmaq iqtisadi prioritetə çevrilmişdir. Bütün bu məqsədlərə çatmaq üçün ən səmərəli vasitələrdən biri də məhz bank-kredit amillərindən düzgün istifadə edilməsidir. Həmin mexanizmin qabaqcıl təcrübəsi ölkə iqtisadiyyatında səmərəli nəticələrini verəcəkdir.

## ƏDƏBİYYAT


1. Bağırov M.M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik) Bakı: Nurlan, 2013, 512 s.
2. Полтерович В., Попов В. Эволюционная теория экономической политики||Вопросы экономики, 2006, №7, стр 69-75
3. Fisher L. The Debt-Detlation Theory of Great Depressions, Econometrika 1(4).
4. Хазин М. Кредитная эмиссия: панацея или поронойя? http://worldcrisis.ru|crisis|87458, 28.02.2004
5. Иржи Йонаш. Финансовая либеризасия и банковский кризис. "Проблемы теории и практики управления" 1/1999, http://vasilevaa.narod.ru/6199, htm
6. Кесинджер Джон В.Мартин Джон Д. Новые корпоротивные Финансы: Теория подтверждается практикой. Нью-Йорк: Mc Gaw - Hill - 2009, 362 стр.
7. Лаврик А.П. Мировые модели финансового посредничества // Научные ведомости. Серия: История, Политология, Экономика, Информфтика. 2013, №22 (165)
8. Ротбару М. Власть и рынок: государство и экономика // Пер. с англ.Б.С.Пинскера. под

ред.Г.Сапова. Челябинск: Соумум, 2017, 417 стр.

9. Мусаев Самир Илгар оглы. "Повышение роли коммерческих банков в реальным секторе экономики" (Диссертация представленной на соискание ученый степени доктора философии по экономике по специальности 5301.01- Внутренная фискальная политика и государственные финансы и 5308.01 - "Общая экономика") Баку: 2018, 128 стр.

## SUMMARY

**Anar Allahverdiyev**

## ADVANCED EXPERIENCE OF BANKING AND CREDIT FACTORS IN ECONOMIC DEVELOPMENT

In article have explained the need to develop the country's economy and the role of banking and credit factors in this issue. There is substantiated influence of monetary policy and bank-credit factors in ensuring economic dynamics. Mechanisms have been identified, that used to ensure the development of sectors of the economy. Level management has considered in the example of a number of developed countries, the experience of monetary policy results obtained through money multiplier and monetization. There were analyzed the advantage and disadvantage functions of credit issuance, the possibilities of its application had studied in the economy of country. The role and importance of banking and credit factors in modernizing the economy, ensuring a competitive environment in the domestic market, and stimulating exports have explained in detail based on concrete examples.

***Key words:*** *real sector, credit issue, bank-credit factors, money multiplier, monetization, competition, domestic market, export*

## РЕЗЮМЕ

**Анар Аллахвердиев**

## ПЕРЕДОВОЙ ОПЫТ БАНКОВСКИХ И КРЕДИТНЫХ ФАКТОРОВ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

В статье разъясняется необходимость развития экономики страны и роль банковско-кредитных факторов в этом вопросе. Обосновано влияние денежно-кредитной политики и банковско-кредитных факторов на обеспечение экономической динамики. Определены механизмы, обеспечивающие их реализацию и развитие экономики и ее секторов. На примере ряда развитых стран был рассмотрен опыт результатов денежно-кредитной политики, полученных за счет денежного мультипликатора и управления уровнем монетизации. Проанализированы плюсы и минусы кредитной эмиссии, изучены возможности его применения в экономике нашей страны. На конкретных примерах подробно объяснены роль и значение банковских и кредитных факторов в модернизации экономики, обеспечении конкурентной среды на внутреннем рынке и стимулировании экспорта.

**Ключевые слова:** *реальный сектор, кредитная эмиссия, кредитно-банковские факторы, денежный мултипликатор, монетизация, конкуренция, внутренный рынок, экспорт*

**XAQANİ VƏLİYEV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*xaqani.valiyev@maliyyenmr.az*

# MALİYYƏ NƏZARƏTİ TƏDBİRLƏRİNİN PLANLAŞDIRILMASI VƏ TƏŞKİLİ ZAMANI RİSK FAKTORLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

*Elmi məqalədə nəzarət tədbirlərinin mahiyyəti açıqlanmış, onun planlaşdırılması zamanı yoxlama metodları və ona təsir edən başlıca amillər müəyyən edilmişdir. Həmçinin məqalədə risk faktorlarının, nəzarət obyektlərinin maliyyə-təsərrüfat fəaliyyətindəki çəkisi qiymətləndirilmiş və nəzarət obyektləri üzrə tədbirlərin aparılması qaydaları araşdırılmışdır.*

***Açar sözlər:*** *maliyyə nəzarəti, nəzarət tədbirləri, risk faktorları, təftiş, tematik yoxlama*

Nəzarət tədbirləri dövlət maliyyə nəzarətini təmin etmək məqsədi ilə təftiş, yoxlama, təhlil və monitorinq metodu ilə həyata keçirilən tədbirlərin məcmusudur. Nəzarət tədbirlərinin aparılmasının məqsədi dövlət büdcəsindən ayrılmış vəsaitlərin, məqsədli büdcə fondlarının vəsaitlərinin, habelə dövlət zəmanəti ilə alınmış və ya dövlət büdcəsinin vəsaiti hesabına verilmiş kredit vəsaitlərinin təyinatına uyğun və səmərəli istifadəsi üzərində dövlət maliyyə nəzarətinin təmin edilməsidir.

Nəzarət tədbirləri zamanı vəsaitlərin təyinatına uyğun və səmərəli istifadəsi üzərində nəzarətin səmərəli və keyfiyyətli aparılmasını təmin edən əsas göstəricilərdən biri maliyyə nəzarəti tədbirlərinin planlaşdırılmasıdır.

Maliyyə nəzarəti tədbirləri planlaşdırılarkən ilk növbədə nəzarət obyektinin xüsusiyyətləri və nəzarət tədbirinin məqsədi nəzərə alınaraq nəzarət tədbirinin aparılacağı metod müəyyən edilir.

Maliyyə nəzarəti tədbirlərinin planlaşdırılması zamanı nəzarət obyektlərinin və nəzarət obyektlərində həyata keçirilməli olan nəzarət tədbirlərinin metodunun seçilməsi məqsədi ilə nəzarət obyektləri üzrə risklərin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Belə ki, nəzarət tədbirləri səlahiyyətlərinə uyğun olaraq təftiş, təhlil, monitorinq və yoxlama metodları ilə həyata keçirilir.

Təftiş nəzarət obyektinin fəaliyyətinin iqtisadi və hüquqi tərəflərinin birgə öyrənilməsi, maliyyə və təsərrüfat fəaliyyətinin vəziyyəti barədə tam və dürüst məlumatların əldə edilməsi, maliyyə və təsərrüfat əməliyyatlarının normativ hüquqi aktlara uyğunluğunun, tamlığının, səmərəliliyinin, mühasibat uçotunda əks etdirilməsi vəziyyətinin, habelə vəsaitlərin istifadəsi zamanı dəymiş zərərin məbləğinin müəyyən edilməsi məqsədi ilə nəzarət obyektinin maliyyə və təsərrüfat fəaliyyətinin müəyyən dövrdə bütün sahələrini əhatə etməklə sənədli və faktiki yoxlanılmasını özündə əks etdirən kompleks nəzarət metodudur (1).

Təhlil ilkin nəzarət qaydasında dövlət vəsaitlərinin qanunvericiliyə uyğun proqnozlaşdırılmasının, səmərəli və effektiv istifadə olunmasının, habelə dövlət qarşısında maliyyə öhdəliklərinin tam və vaxtında icrasının müəyyən edilməsi məqsədi ilə nəzarət obyektinin maliyyə və təsərrüfat fəaliyyətinin sənədli və faktiki yoxlanılması, habelə nəzarət obyektinin maliyyə-təsərrüfat fəaliyyətinə təsir edə biləcək amillərin müəyyən edilməsi üçün iqtisadi təhlil aparılması yolu ilə qiymətləndirilməsi metodu olub nəzarət obyektlərinin maliyyə və təsərrüfat fəaliyyətinə dair nəzarət obyektlərindən alınmış məlumatlar, sənədlər və ya sənədlərin surətləri əsasında sənədli olaraq, yaxud bilavasitə nəzarət obyektində sənədli və faktiki nəzarət qaydasında aparılır.

Monitorinq nəzarət obyektlərinin maliyyə və təsərrüfat fəaliyyəti üzərində nəzarətin gücləndirilməsi, gəlirlərin artırılması üçün potensial imkanların müəyyən edilməsi, habelə investisiyaların, dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsindən verilmiş kreditlərin, həmçinin dotasiya, qrant, subvensiya, subsidiya və digər məqsədlər üçün dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməsinin öyrənilməsi məqsədi ilə aparılan nəzarət metodu olub nəzarət obyektinin nəzarət olunan sahədə faktiki fəaliyyətinin müəyyən müddətdə davamlı olaraq müşahidə olunması yolu ilə və ya müvafiq sənədlər əsasında aparılır.

Yoxlama tematik yoxlama və ya maliyyə hesabatlarının yoxlanılması formalarında aparılır.

Tematik yoxlama bir və ya bir neçə mövzunu əhatə etməklə nəzarət obyektinin maliyyə-təsərrüfat fəaliyyətinin ayrı-ayrı sahələri ilə yerindəcə tanış olmaqla aparılan nəzarət metodudur.

Maliyyə hesabatlarının yoxlanılması vergitutma bazasına birbaşa təsir edən göstəricilərin

hesablama yolu ilə və ya müxtəlif hesabat məlumatlarının mühasibat uçotu registlərindəki məlumatlarla və mühasibat yazılışlarının ilkin sənədlərdəki məlumatlarla üzləşdirilməsi yolu ilə aparılan nəzarət formasıdır.

Maliyyə nəzarəti tədbirlərinin planlaşdırılması zamanı təftiş, təhlil, monitorinq və yoxlama metodlarının müəyyən edilməsinə təsir edən başlıca amillərdən biri nəzarət obyektləri üzrə risk prinsipləri əsas götürülərək risk faktorlarının müəyyən edilməsi, müəyyən edilmiş risk faktorlarının nəzarət obyektlərinin maliyyə və təsərrüfat fəaliyyətindəki çəkisinin qiymətləndirilməsidir (4, 54)).

Belə ki, nəzarət obyektləri üzrə risklər maliyyə və təsərrüfat fəaliyyətinə dair hesabatların etibarlılığı, maliyyə vəsaitlərinin səmərəli xərclənməsi, əmlakın qorunub saxlanması vəziyyəti, fəaliyyətin effektivliyi, normativ hüququ aktlara və müqavilə öhdəliklərinə uyğunluğu prinsipləri əsas götürülərək qiymətləndirilir.

Maliyyə nəzarəti tədbirlərinin planlaşdırılması zamanı risklərin qiymətləndirilməsi prinsiplərinə əsasən nəzarət tədbirlərinin məqsəd və metodlarına uyğun olaraq nəzarət obyektləri üzrə aşağıdakı risk faktorları müəyyən edilmişdir.

⇨ Smeta xərclərinin dövlət və ya rayon büdcəsinin tərkibində xüsusi çəkisi;
⇨ Əmək haqqı xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi;
⇨ Təmir və tikinti xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi;
⇨ Satınalma xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi;
⇨ Smeta xərclərinin ümumi məbləğindən asılı olaraq vəsitlərin təyinatlarından kənarlaşdırılması və səmərəsiz xərclənməsi ehtimalı;
⇨ Nağd pul əməliyyatlarının smeta xərclərinin tərkibində xüsusi cəkisi;
⇨ İşçilərin sayı;
⇨ Fəaliyyətin müvafiq normativ hüquqi aktlara uyğunsuzluğu ehtimalı;
⇨ Struktur dəyişiklikləri;
⇨ Sonuncu yoxlamadan ötən dövr;
⇨ Sonuncu yoxlamanın nəticələri;
⇨ Kütləvi informasiya vasitələrində neqativ hallarla bağlı dərc edilmiş, habelə daxil olmuş ərizə və şikayətlərdə olan məlumatlar.

Nəzarət obyektləri üzrə risk faktorlarının müəyyən edilməsi üçün nəzarət tədbirini həyata keçirəcək nəzarət orqanı tərəfindən işçi qrup yaradılmalıdır. İşçi qrup tərəfindən mühüm risk obyektlərinin müəyyən edilməsi üçün nəzarət obyektləri üzrə hesabat göstəricilərinin, sonuncu nəzarət tədbiri ilə aşkar edilmiş mühüm qayda pozuntularının və nöqsanların baş vermə səbəbləri, ötən dövrdə həmin qayda pozuntularının və nöqsanların aradan qaldırılması vəziyyəti müntəzəm olaraq təhlil edilməlidir.

Nəzarət obyektləri üzrə mühüm risk faktorlarının müəyyən edilməsinin səmərəli üsullarından biri nəzarət obyektlərinin maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən sənədlərin (maliyyə hesabatlarının, ştat cədvəllərinin, əmək haqqı cədvəllərinin, bank reyestrlərinin, ödəniş tapşırıqlarının, mal alışı və xidmətlərin göstərilməsinə dair ilkin maliyyə sənədlərinin) vahid elektron sisteminin formalaşdırılması və müvafiq sənədlərə müntəzəm nəzarətin təmin olunması, təhlillərin, monitorinqlərin aparılmasıdır. Müvafiq təhlil metodlarından istifadə etməklə nəzarət obyektləri üzrə ilkin və yekun risk dərəcələri müəyyən edilməlidir.

“Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda nəzarət tədbirlərinin aparılması məqsədi ilə risklərin qiymətləndirilməsi üzrə Metodik Tövsiyələr”in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 23 avqust 2013-cü il tarixli Qərarına əsasən nəzarət obyektləri üzrə ayrı-ayrı risk faktorlarının ehtimal dərəcəsindən asılı olaraq ilkin qiymətləndirmə aparılmalı, nəzarət obyektləri üzrə hər bir risk faktoru üçün 1-dən 5-dək qiymətlə ölçülən risk dərəcəsi müəyyən edilməli və hər bir risk faktoru üzrə riskin ən aşağı səviyyədə olması 1 qiyməti ilə, ən yüksək səviyyədə olması isə 5 qiyməti ilə işarələnməli, risk faktorlarının dərəcələrinin müəyyən edilməsi üçün nümunəvi cədvəl tərtib olunmalı, müvafiq cədvələ uyğun olaraq hər bir risk faktoru üzrə dərəcələr müəyyən edilməli, nəzarət obyektlərinin hamısı üçün risk faktorlarının hər biri üzrə qiymətləndirmə aparılmalı və nəticələr risk cədvəlində əks etdirilməlidir (2).

“Metodik Tövsiyə”nin prinsiplərini rəhbər tutaraq şərti olaraq təhsil, səhiyyə və mədəniyyət sahələrində maliyyə nəzarəti tədbirlərinin planlaşdırılması zamanı bir neçə risk faktorları üzrə risk dərəcələrinin qiymətləndirilməsini nəzərdən keçirək.

Məsələn, "Əməkhaqqı xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi" ehtimalı üzrə risk faktoru üzrə:

| **Risk faktoru** | **Risk faktorunun qiyməti** |
|---|---|
| Əməkhaqqı xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi 10 faizədək olduqda | **1** |
| Əməkhaqqı xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi 10 faizdən 20 faizədək olduqda | **2** |
| Əməkhaqqı xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi 20 faizdən 30 faizədək olduqda | **3** |
| Əməkhaqqı xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi 30 faizdən 40 faizədək olduqda | **4** |
| Əməkhaqqı xərclərinin smeta xərclərinin tərkibində xüsusi çəkisi 40 faizdən cox olduqda | **5** |

Məsələn, "İşçilərin sayı" ehtimalı risk faktoru üzrə:

| **Risk faktoru** | **Risk faktorunun qiyməti** |
|---|---|
| İşçilərin sayı 10-dan az olduqda | **1** |
| İşçilərin sayı 10-30 arasında olduqda | **2** |
| İşçilərin sayı 30-50 arasında olduqda | **3** |
| İşçilərin sayı 50-100 arasında olduqda | **4** |
| İşçilərin sayı 100 dən çox olduqda | **5** |

Məsələn, "Fəaliyyətin müvafiq normativ hüquqi aktlara uyğunsuzluğu" ehtimalı risk faktoru üzrə:

| **Risk faktoru** | **Risk faktorunun qiyməti** |
|---|---|
| Vəzifə maaşı və vəzifə maaşına əlavələri tənzimləyən normativ hüquqi aktların sayı 5 dən az olduqda | **1** |
| Vəzifə maaşı və vəzifə maaşına əlavələri tənzimləyən normativ hüquqi aktların sayı 5-10 arasında olduqda | **2** |
| Vəzifə maaşı və vəzifə maaşına əlavələri tənzimləyən normativ hüquqi aktların sayı 10-20 arasında olduqda | **3** |
| Vəzifə maaşı və vəzifə maaşına əlavələri tənzimləyən normativ hüquqi aktların sayı 20-30 arasında olduqda | **4** |
| Vəzifə maaşı və vəzifə maaşına əlavələri tənzimləyən normativ hüquqi aktların sayı 30 dan çox olduqda | **5** |

Nəzarət obyektinin xüsusiyyətlərindən asılı olaraq şərti olaraq nəzərdən keçirdiyimiz risk faktorlarının digər risk faktorlarına nisbətən daha çox təsir gücünə malik olması İşçi qrup üzvlərinin peşəkar mühakiməsi ilə müəyyən edilir və yekunda risk faktorunun 1-dən 5-ədək müəyyən edilmiş qiyməti risk faktorunun çəki əmsalına vurularaq risk faktoru üzrə yekun risk qiyməti alınır.

Hər bir nəzarət obyekti üzrə ayrı-ayrılıqda aparılan risk qiymətləndirilməsinin yekun nəticələri risk xəritəsində əks etdirilərək, qiymətləndirilmə səviyyəsinə uyğun olaraq yüksək riskli, orta riskli və aşağı riskli nəzarət obyektləri quruplaşdırılır.

Risklərin qiymətləndirilməsinin nəticəsi üzrə tərtib edilmiş risk xəritəsi və risk xəritəsinə əsasən nəzarət orqanı tərəfindən növbəti ildə aparılacaq nəzarət tədbirləri üzrə illik iş planına daxil edilməsi təklif olunan nəzarət obyektlərinin siyahısı nəzarət orqanının rəhbərinə təqdim olunur, nəzarət orqanının rəhbəri tərəfindən risk xəritəsi orqanın vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilir və bu əsasda nəzarət orqanının iş planı planlaşdırılır.

Müvafiq iş planına əsasən maliyyə nəzarəti tədbiri müstəqillik, qanunçuluq, obyektivlik, aşkarlıq, düzgünlük, peşə davranışı, məxfilik, peşə səriştəliliyi və lazımi dəqiqlik prinsipləri əsas götürülərək təşkil edilməlidir (5, 25).

Maliyyə tədbirlərinin planlaşdırılması və təşkili zamanı risk faktorlarının qiymətləndirilməsi bir proses kimi real ehtiyaclara, nəticələrə uyğun nəzərdən keçirilməli və müntəzəm olaraq təhlil edilərək təkmilləşdirilməlidir.

Nəzarət obyektləri üzrə risk faktorlarının müəyyən edilməsi prosesinin təkmilləşdirilməsi məqsədi ilə nəzarət obyektlərinin maliyyə fəaliyyətini əks etdirən sənədləri, müvafiq hesabatları və hüquqi bazanı özündə cəmləşdirən vahid elektron sistemin formalaşdırılması, sistemə daxil edilmiş sənədlərin peşəkar mütəxəsislər tərəfindən müntəzəm təhlil edilməsi, əldə edilmiş nəticələrin müzakirələrinin aparılması istiqamətində müvafiq işlər görülərək risklərin düzgün qiymətləndirilməsi, maliyyə nəzarəti tədbirlərinin vaxtında və daha effektiv formada yerinə yetirilməsinə nail olmaq mümkündür.

## ƏDƏBİYYAT

1. “Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən nəzarət tədbirlərinin planlaşdırılması, aparılması və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları” nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 15 fevral 2013-cü il tarixli 07 nömrəli Qərarı.
2. “Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda nəzarət tədbirlərinin aparılması məqsədi ilə risklərin qiymətləndirilməsi üzrə Metodik Tövsiyələr” in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 23 avqust 2013-cü il tarixli 20 nömrəli Qərarı.
3. “Azərbaycanda maliyyə nəzarəti və audit” elmi-praktik konfransın materialları. Azərnəşr, 1999
4. Audit. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: “Azərbaycan Milli Ensiklopediyası” Nəşriyyatı 2001.
5. Xankişiyev B. Maliyyə nəzarəti. 2002

## SUMMARY

**Khagani Valiyev**

### ASSESSMENT OF RISK FACTORS DURING THE PLANNING AND ORGANIZATION OF FINANCIAL CONTROL MEASURES

The scientific article explains the essence of control measures, identifies inspection methods and the main factors influencing its planning. The article also evaluates the weight of risk factors in the financial and economic activities of control objects and examines the rules for carrying out measures on control objects.

***Key words:*** *financial control, control measures, risk factors, inspection, thematic inspection*

## РЕЗЮМЕ

**Хагани Валиев**

### ОЦЕНКА ФАКТОРОВ РИСКА ПРИ ПЛАНИРОВАНИИ И ОРГАНИЗАЦИИ МЕРОПРИЯТИЙ ФИНАНСОВОГО КОНТРОЛЯ

В научной статье раскрыта сущность контрольных мероприятий, определены методы проверки и основные факторы влияющие на ее планирование. Также, дана оценка значимости факторов риска в финансово-хозяйственной деятельности объектов контроля и рассмотрены правила проведения мероприятий на объектах контроля.

***Ключевые слова:*** *финансовый контроль, меры контроля, факторы риска, проверка, тематическая проверка*

**RAMİL KƏRİMOV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*ramil.kerimov@nmrmaliyye.az*

# DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİNİN FORMALAŞMASI PRİNSİPLƏRİ

*Məqalədə dövlət büdcəsinin gəlirlərinin formalaşması istiqamətləri, büdcə-vergi siyasətinin mahiyyəti, onun iqtisadi artıma, biznes mühitinə təsiri müəyyən edilmiş, vergi sistemi, vergilərin funksiyaları, vergi yükü haqqında məlumat verilmişdir. Məqalədə, həmçinin Naxçıvan şəhər yerli büdcəsinin formalaşma mənbələri və ona təsir edən amillər statistik göstəricilər vasitəsilə təhlil edilmişdir.*

***Açar sözlər:*** *büdcə, vergi, vergi yükü, vergi daxilolmaları, büdcə gəlirləri, birbaşa vergilər, dolayı vergilər*

Büdcə gəlirlərinin formalaşmasında vergi siyasətinin əhəmiyyəti böyükdür və Azərbaycanda vergi daxilolmaları büdcə gəlirlərinin əsas hissəsini təşkil edir. Daha çox vergi daxilolmaları daha çox büdcə gəlirləri deməkdir. Lakin nəzərə almaq lazımdır ki, vergilərin müəyyən həddən sonra yüksəlməsi əks effekt verərək həm iqtisadi artıma, həm də biznes mühitinə mənfi təsir göstərə bilir. Məhz səmərəli vergi siyasəti elə siyasət tədbirlərini nəzərdə tutur ki, bu zaman büdcə gəlirlərini təmin etməklə yanaşı, iqtisadi inkişafa kəskin neqativ təsir göstərməsin. Dövlət maliyyələşməsinin tərkibi kimi artan borclar iqtisadiyyat üçün daha çox artan yükdən başqa bir şey deyil. Problemin yumşaldılmasının bir yolu vergi sisteminin iqtisadiyyata daraldıcı təsir göstərmədən elə tənzimlənməsidir ki, bu zaman tətbiq edilən vergi dərəcələri mümkün olan ən yüksək dövlət gəlirlərini təmin etmiş olsun.

Büdcə gəlirləri Azərbaycan Respublikasının (Naxçıvan MR və yerli özünüidarəetmə orqanlarının) müvafiq qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada dövlət büdcəsinə (Naxçıvan MR büdcəsinə və yerli büdcələrə) daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar olmaqla Azərbaycan Respublikasının Konstitusiyası, "Dövlət Büdcəsi haqqında" Qanun və digər qanunvericilik aktları ilə müəyyən edilir. Dövlət quruluşundan asılı olaraq büdcə gəlirlərini unitar mərkəzi büdcənin və yerli büdcələrin gəlirləri təşkil edir.

Büdcə gəlirlərinin yaranmasında ictimai istehsal prosesində yeni yaranan ümumi daxili məhsulun bir hissəsinin dövlətin və bələdiyyələrin xeyrinə bölüşdürülməsi baş verir. Bununla da dövlət və bələdiyyə orqanları ilə vergi ödəyiciləri arasında maliyyə münasibətləri yaranır. Büdcə gəlirlərinin əsas maddi mənbəyini milli gəlir təşkil edir, milli gəlir kifayət etmədikdə milli sərvətin bir hissəsi də maliyyə sferasına cəlb edilə bilir. Büdcənin gəlirləri vergi ödəyicilərinə, vergitutma obyektlərinə, alınması üsullarına, ödəniş müddətinə və digər xüsusiyyətlərinə görə fərqlənir. Bununla belə, onların ümumi cəhətləri də vardır ki, bu da müxtəlif səviyyəli büdcələrin gəlir hissəsinin təşkil edilməsidir. Bu gəlirlərin pul formasında, həm də nağdsız formada daxil olması bütün büdcə səviyyələri üçün xas olan ümumi cəhətlərdən biridir.

Bir sıra tədbirləri həyata keçirmək, xərclərin tam maliyyələşdirilməsini təmin etmək üçün dövlətə lazımi miqdarda maliyyə vəsaitləri lazım olur. Belə aydın olur ki, büdcə gəlirləri dövlətin öz funksiyalarının yerinə yetirilməsi üçün mərkəzləşdirilmiş pul vəsaitləridir. Bu baxımdan büdcə gəlirləri çox mühüm əhəmiyyət kəsb edir. Onlar pul vəsaitləri fondunun formalaşması prosesində yaranmış iqtisadi münasibətləri özündə əks etdirir ki, bu da müxtəlif səviyyəli hakimiyyət orqanlarının fəaliyyətinin həyata keçirilməsinə xidmət edir.

Bazar iqtisadiyyatı şəraitində cəmiyyətin bir sıra problemlərinin həlli mövcud mexanizmlər baxımından qeyri-mümkündür və bu problemlərin həlli büdcə vəsaitləri hesabına reallaşdırıla bilir. Büdcə gəlirləri iqtisadiyyatın inkişafının müəyyən olunmasında əsas mənbə kimi çıxış edir. İqtisadiyyatın nisbətən zəif inkişaf etmiş sahələrinə büdcə vəsaitləri vasitəsi ilə dövlətin müdaxiləsi nəticəsində həmin sahələrdə inkişafa nail olmaq olar.

"Büdcə Sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən büdcə gəlirləri aşağıdakı bölmələr hesabına formalaşır:

- Vergilərdən daxilolmalar
- Vergi olmayan gəlirlər
- Əsaslı gəlirlər
- Rəsmi qaydada alınan vəsaitlər (transfertlər)

Hər bir dövlət büdcə gəlirlərini artırmaq, xərclərini müəyyən edilmiş səviyyəyə çatdırmaq üçün mütəmadi olaraq vergi daxilolmalarını artırmağa çalışır. Büdcə-vergi siyasətinin də başlıca vəzifəsi bundan ibarətdir.

Vergi siyasəti – dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran vəzifələri həyata keçirməyə yönəldilmiş tədbirlər sistemidir.

Uzun müddətdə hazırlanan vergi siyasəti vergi strategiyası, yaxın zamanda həyata keçirilən vergi siyasəti isə vergi taktikasıdır.

Azərbaycan Respublikası qədim dövlət olduğundan respublikamızda vergilərin tətbiqi çox qədim zamanlara təsadüf edir. Dövlət quruluşu və inkişafı ilə əlaqədar olaraq Azərbaycanın vergi sistemi zaman-zaman dəyişikliklərə məruz qalmışdır. İnzibati-amirlik şəraitində vergi bazası demək olar ki, yox səviyyəsində idi. Həmin dövrdə büdcə gəlirlərini əsasən dövlət müəssisələri yaradırdı. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq respublikamızda vergilər yenidən tətbiq olunmağa başladı və 2001-ci ildə Vergi Məcəlləsi qəbul edildi.

Vergilər dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatını təmin etmək məqsədi ilə müəssisələrin pul vəsaitlərinin mülkiyyətinin dövlət xeyrinə dəyişməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişlərdir.

Büdcə kimi vergilərin mahiyyətini bilmək üçün onun funksiyalarına diqqət yetirmək lazımdır.

- Bölgü funksiyası
- Fiskal funksiyası
- Nəzarət funksiyası
- Tənzimləyici funksiya

Vergilərin ödənilməsində vergi elementlərindən istifadə olunur. Vergi elementləri verginin subyekti, vergitutma obyekti, vergitutma bazası, vergi dövrü, vergi dərəcəsi, vergi güzəşti və sanksiyasından ibarətdir.

Vergi yükü vergitutmada əsas kateqoriyalardan biridir. Vergi yükünün yuxarı həddinin bütün ölkələr üçün eyni olması mümkün deyil. Vergi yükü ölkənin sosial-iqtisadi vəziyyəti, dövlət quruluşu və sair amillərlə müəyyən olunur. Vergi yükünü azaltmaqla iqtisadi canlanma yaratmaq və iqtisadi artım əldə etmək olar, bununla da vergi bazasını genişləndirmək və büdcə daxilolmalarını artırmaq olar. Vergi yükünü azaltmaq üçün vergidə yığım əmsalını yüksəltmək lazımdır. Vergi yükünün, onun ödənilmə imkanından yüksək olması vergidən yayınmalara gətirib çıxara bilər.

Son illər mütəmadi olaraq vergi qanunvericiliyində islahatlar aparılır. İslahatların aparılmasında məqsəd dövlətin iqtisadi fəallığa nail olmasıdır.

Vergilər siyasi, ideoloji, etnik və sair kriteriyalarından asılı olmayaraq tətbiq edilir və Azərbaycan Respublikasının vergi sisteminə nəzərdə tutulmayan vergilər tətbiq edilə bilməz. Vergilər cəmiyyətin və dövlətin inkişafının maliyyə təminatıdır. Qanunvericiliyə uyğun olaraq hər bir fiziki və hüquqi şəxs vergi ödəməyə borcludur.

Vergitutma obyektinə görə birbaşa və dolayı vergilərə bölünür.

Birbaşa vergilər – vergi ödəyicilərinin gəlirlərindən və əmlakından dövlət tərəfindən alınan vergilərdir (gəlir, mənfəət, torpaq və s.). Birbaşa vergilər özü də real və xüsusi vergilərə ayrılır.

- Real vergilər – vergi ödəyiciləri maliyyə vəziyyətindən asılı olmayaraq əmlakın, məhsulların və fəaliyyətin ayrı-ayrı növlərinə görə ödəyirlər.
- Xüsusi vergilər – vergi ödəyicisinin maliyyə vəziyyətindən asılı olaraq ödənilir.

Vasitəli vergilər – məhsulların qiymətinə, məhsul satışı dövriyyəsinə, iş və xidmətlərin görülməsinə tətbiq edilir (ƏDV, aksiz və s.). Vasitəli vergilərə aşağıdakıları misal göstərə bilərik.

- Universal vasitəli vergiyə əlavə dəyər vergisi aiddir. Bu vergi bütün məhsullara, iş və xidmətlərə (Vergi Məcəlləsində qoyulmuş məhdudiyyətlər istisna olmaqla) tətbiq olunur.

- Fərdi vasitəli vergiyə aksizlər daxildir. Bu istehsalın müəyyən mərhələsində tətbiq olunur.
- Fiskal inhisar dövlətin inhisarında olan mallara, istehsala tətbiq edilir. Fiskal inhisar tam və qismən olur. Dövlət kütləvi istehlak mallarının istehsalını və satışını öz əlində cəmləşdirir. Bu ağır vasitəli vergidir.

Dövlət büdcəsinə daxil olan vergilər Vergi Məcəlləsində nəzərdə tutulmuş 9 dövlət vergisini təşkil edir.

- Fiziki şəxslərin gəlir vergisi;
- Hüquqi şəxslərin mənfəət vergisi;
- Əlavə dəyər vergisi;
- Aksizlər;
- Hüquqi şəxslərin əmlak vergisi;
- Hüquqi şəxslərin torpaq vergisi;
- Yol vergisi;
- Mədən vergisi;
- Sadələşdirilmiş vergi.

Azərbaycan Respublikasının bütün ərazisində dövlət vergilərinin ödənişi həyata keçirilir.
Naxçıxan Muxtar Respublikasının büdcəsinə isə yol vergisindən başqa bütün vergilər ödənilir.
Yerli büdcələrə aşağıdakı vergilər ödənilir:

- Fiziki şəxslərin torpaq vergisi;
- Fiziki şəxslərin əmlak vergisi;
- Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi;
- Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisi.

Aşağıdakı sxemdə dövlət büdcəsinə daxil olan vergi gəlirləri göstərilmişdir.

**Sxem 1**




***Mənbə:*** *https://www.taxes.gov.az/uploads/2018/budcetesnifati.pdf*

Naxçıvan şəhər yerli büdcəsi Naxçıvan şəhərində yerləşən və vergi orqanlarında vergi ödəyicisi kimi qeydiyyatından keçən hüquqi və fiziki şəxlərdən ibarət müəssisə, idarə və təşkilatlar hesabına formalaşır və onların müdafiə olunan zəruri xərclərini tam olaraq həyata keçirir. Burada əsas məsələ ilin əvvəlinə tərtib olunmuş Naxçıvan şəhər yerli büdcəsinə vergi orqanları tərəfindən toplanacaq vəsaitin rüblər və aylar üzrə bölgüsünün vergi tədiyyələri üzrə təsdiq olunmasıdır. İlin əvvəlinə təsdiq olunmuş vergi tədiyyələri üzrə toplanması nəzərdə tutulan vəsaitlərə vergi orqanları tərəfindən ciddi şəkildə nəzarət olunur. Belə ki, Naxçıvan şəhərində yerləşən müəssisə, idarə və təşkilatların tədiyyə növləri üzrə hansı vergi öhdəliyinin qəbul edilməsi Azərbaycan Respublikası Vergilər Məcəlləsi, qanunvericilik və digər normativ hüquqi aktlar əsasında həyata keçirilir. Müvafiq dövrlərin

müqayisəli təhlillərini apardığımız zaman yerli büdcənin illik artan yekunla qərarlaşmasına iqtisadi inkişafın əsas parametrlərindən biri olan müasir şəraitdə sənayenin inkişafı, istehsal olunmuş sənaye məhsullarının kəmiyyət və keyfiyyət göstəriciləri, satış üçün nəzərdə tutlmuş məhsullarının daxili və xarici bazarlarda üstünlük təşkil etməsi (rəqabət dayanıqlığı), eyni zamanda xarici ticarət dövriyyəsinin genişləndirilməsi əhəmiyyətli dərəcədə təsir imkanları yaradır. Belə ki, ixrac əməliyyatları əsas makroiqtisadi göstəricilərdən biri olub iqtisadi aktivliyi və ümumi inkişafı xarakterizə edir. Bugün Naxçıvan Muxtar Respublikasından Amerika Birləşmiş Ştatlarına, Türkiyə Respublikasına, Rusiya Federasiyasına, Gürcüstan Respublikasına, İran İslam Respublikasına, Türkmənistan Respublikasına, Oman Sultanlığına və digər ölkələrə məhsullar ixrac olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 fevral tarixli Sərəncamı ilə 2020-ci ilin muxtar respublikada “İxrac ili” elan olunması yerli istehsalın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını daha da artırmış, ixracın genişlənməsinə və inkişafına yeni imkanlar yaratmışdır. Bu baxımdan yerli mənbələr hesabına formalaşan Naxçıvan şəhər yerli büdcəsinin 2020-ci ilin 9 ayı ərzində gəlirləri xərclərinə bərabər olmaqla 17 189 500 manat məbləğində təsdiq olunmuşdur ki, bu da 2019-cu ilin 9 ayı ərzində təsdiq olunmuş yerli büdcəsi ilə müqayisədə 45,8% çoxdur. Cari ilin 9 ayı ərzində vergilər və digər büdcə ödənişləri üzrə proqnoz tapşırığına 102% əməl edilmişdir.

2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-ci ilin yanvar-sentyabr aylarında sənaye məhsulu 1 faiz, əsas kapitala yönəldilən vəsaitlər 0,9 faiz, kənd təsərrüfatı məhsulu 3,1 faiz, informasiya və rabitə xidmətləri 5,5 faiz artmışdır (Cədvəl 1).

***Cədvəl 1.*** *Naxçıvan şəhərinin iqtisadi və sosial inkişafının əsas göstəriciləri*

| **Müqayisə predmeti** | **2020-ci ilin yanvar-sentyabr ayları, faktiki** | **2019-cu ilin müvafiq dövrünə nisbətən, faizlə** |
|---|---|---|
| Sənaye məhsulu, (min manat) | 6235642.1 | 101,0 |
| Əsas kapitala yönəldilən vəsaitlər, (min manat) | 533041,5 | 100,9 |
| Kənd təsərrüfatı məhsulu, (min manat) | 13025,1 | 103,1 |
| İnformasiya və rabitə xidmətləri | 20459,8 | 105,5 |
| O cümlədən, mobil rabitə, (min manat) | 14371,9 | 101,5 |
| Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı (2020-ci ilin yanvar-avqust ayları), manat | 562,3 | 115,3 |

***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Naxçıvan şəhərində son illər həyata keçirilən uğurlu sənayeləşmə prosesi və yeni məhsul növlərinin istehsalı bu sahənin dinamik inkişafını sürətləndirmişdir. 2020-ci ilin yanvar-sentyabr aylarında Naxçıvan şəhərində 623 milyon 542 min 100 manat dəyərində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da bir il öncəki göstəricini 1 faiz üstələmişdir.

***Diaqram 1***. *Sənaye məhsulu istehsalının dinamikası (min manat)*



***Mənbə:*** *Cədvəl Naxçıvan MR Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

2020-ci ilin yanvar-sentyabr aylarında Naxçıvan şəhərində dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 13 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmışdır. 13 layihə üzrə istehsal obyektlərinin yaradılması istiqamətində aparılan işlər isə hazırda davam etdirilir.

Aparılan təhlillər onu deməyə əsas verir ki, bu gün bütün sahələrdə qeydə alınmış dinamik inkişaf strategiyası Naxçıvan şəhərinin və bütövlükdə muxtar respublikanın uzunmüddətli inkişafını, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasını təmin etməkdədir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Vergilər Məcəlləsi.
2. Azərbaycan Respublikasının “Büdcə Sistemi haqqında” Qanunu. Bakı: 2006
3. Naxçıvan Muxtar Respublikasında “İxrac ili” elan olunması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı. 6 fevral 2020-ci il.
3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin “Maliyyə və uçot” Jurnalı. 2015-2020-ci illər.
3. Allahverdiyev D.İ. Büdcə-vergi siyasəti və iqtisadi təhlükəsizlik. Bakı: 2008
4. Bədəlov Ş.Ş. “Büdcə Sistemi” dərs vəsaiti. Bakı: 2009
5. www.statistika.nmr.az. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, 2016-2020-ci illərin statistik məlumatları

## SUMMARY

**Ramil Karimov**

## PRINCIPLES OF FORMATION OF STATE BUDGET REVENUES

The article identifies the directions of formation of state budget revenues, the essence of fiscal policy, its impact on economic growth, business environment, provides information about the tax system, tax functions, tax burden. The article also analyzes the sources of formation of the local budget of Nakhchivan city and the factors influencing it through statistical indicators.

**Ключевые слова:** *бюджет, налог, налоговое бремя, налоговые поступления, доходы бюджета, прямые доходы, косвенные доходы*

## РЕЗЮМЕ

**Рамиль Каримов**

## ПРИНЦИПЫ ФОРМИРОВАНИЯ ДОХОДОВ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТ

В статье определены направления формирования доходов государственного бюджета, сущность налогово-бюджетной политики, ее влияние на экономический рост, бизнес-среду, дана информация о налоговой системе, функциях налогов, налоговой бремени. В статье также проанализированы источники формирования местного бюджета города Нахчыван и факторы влияющие на него с помощью статистических показателей

***Key words:*** *budget, taxes, tax burden, tax revenues, budget revenues, direct taxes, indirect taxes*

**İSLAM HÜSEYNOV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*islam.huseynov@maliyyenmr.az*

# BÜDCƏNİN İCRA OLUNMASINDA MALİYYƏ NƏZARƏTİNİN ROLU

*Elmi məqalədə Naxçıvan iqtisadiyyatının inkişafında maliyyə intizamının rolu, maliyyə və onun cəmiyyətdəki yeri, ictimailiyi müəyyən edilmiş, dövlət büdcəsinə iqtisadi və hüquqi aspektdən nəzər yetirilmişdir. Məqalədə maliyyə nəzarətinin yaranma tarixi, məqsədi, forması, növləri, metodları, yerinə yetirilmə üsulları araşdırılmış, maliyyə nəzarətinin nəticələrinin rəsmiləşdirilmə qaydaları izah olunmuşdur*

***Açar sözlər:*** *maliyyə nəzarəti, milli gəlir, büdcə, pul vəsaitləri, uçot blankları, risk faktorları*

"Müstəqilliyimiz ən böyük sərvətimizdir" deyən ümumilli liderimizin nə qədər haqlı olduğunu zamanla baş verən hadisələr, Azərbaycanın inkişafı, güclənməsi və dünya dövlətləri arasında özünün layiqli yerini tutması sübut edir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dövləti bütün sahələr üzrə inkişaf etməkdə və bu inkişaf əhalinin həyat səviyyəsinə güclü şəkildə yansımaqdadır. Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından cəmi 30 il keçməsinə, bunun dövlət quruculuğu üçün qısa zaman kəsiyi olmasına baxmayaraq, bu müddət ərzində bütün istiqamətlər üzrə çox mühüm işlər görülmüş və böyük nailiyyətlər qazanılmışdır. Azərbaycan iqtisadiyyatına onun maliyyə zirvəsindən baxdıqda tam məsuliyyətlə demək olar ki, qısa bir zamanda bu cür mürəkkəb geosiyasi məkan daxilində bəlli problemlərə baxmayaraq Azərbaycanda sabitliyin təmin olunması, yüksək iqtisadi göstəricilərin əldə edilməsi, ancaq polad kimi möhkəm siyasi iradə və effektiv idarəçilik metodu ilə mümkün ola bilər. Müstəqilliyimizin bərpasından sonra ölkə regionlarının sosial-iqtisadı inkişafı Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi bu diqqətdən kənarda qalmamışdır. Əksinə, bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də Muxtar Respublika rəhbərliyinin apardığı məqsədyönlü siyasət nəticəsində qısa müddətdə böyük nailiyyətlər əldə edilmiş, Naxçıvan Muxtar Respublikası region dövlətləri sırasında kifayət qədər tanınmış və özünə layiqli mövqe qazanmışdır. Regional dövlət proqramlarının icrası Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında mühüm rol oynamışdır. Muxtar Respublikamızda genişmiqyaslı infrastruktur layihələrinin gerçəkləşdirilməsi, başda enerji olmaqla bütün sektorlarda köklü islahatların aparılması, paralel olaraq güclü maliyyə intizamı, iqtisadiyyatın tamamilə yenidən qurulmasına və yüksək nəticələrin əldə olunmasına təminat vermişdir. Naxçıvan əhalisinin hər bir üzvü doğma Muxtar Respublikamızda müsbət dəyişiklikləri öz gündəlik həyatında hiss edir, onun rahatlığında yaşayır. Naxçıvanda iqtisadiyyatın inkişafının ən böyük göstəricisi hər il Muxtar Respublika büdcəsinin nəzərə çarpacaq dərəcədə artmasıdır. Muxtar Respublikada dövlətin maliyyə siyasətinin uğurla yerinə yetirilməsində Maliyyə Nazirliyinin rolu böyükdür. Bəs maliyyə nədir? Maliyyə - pul vəsaitləri fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsinə dair insanlar arasındakı münasibətlərdir. Maliyyə mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yenidən bölgüsü və istifadəsi prosesində ictimai-iqtisadi münasibətlərin fəaliyyəti ilə bilavasitə əlaqədardır. Maliyyə - milli gəlirin bölgüsü və yenidən bölgüsü əsasında pul vəsaitləri fondlarının yaradılması və istifadəsi üzrə iqtisadi münasibətlər sistemidir (6; 14). Maliyyənin birinci funksiyası milli gəlirin bölüşdürşlməsi və yenidən bölüşdürülməsi, ikinci funksiyası tənzimləyici, üçüncü mühüm funksiyası isə nəzarət funksiyasıdır (6; 18). Bəs dövlət büdcəsi nədir? Büdcənin anlayışı və onun cəmiyyətdə rolu nədən ibarətdir? Büdcə dövlətin zəruri atributudur. Hər bir dövlətin inkişafı, gücü ilk növbədə onun dövlət büdcəsi ilə müəyyən olunur. Dövlət büdcəsi hər bir dövlətin, o cümlədən, Azərbaycanın ali maliyyə iqtisadi sənədidir. Bu sənəddə ölkənin il ərzində həyata keçirəcəyi funksiyaların maliyyələşmə mənbələri göstərilir. Büdcənin təşkil edilməsi və Azərbaycan Respublikası Konstitutsiyasının 16-cı maddəsinə əsasən büdcədən xalqımızın hər bir vətəndaşının

rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalaraq istifadə olunması, büdcəyə dövlət suverenliyinin maliyyə sənədi kimi qiymət verməyə əsas verir. Hüquqi kateqoriya kimi qanunvericilikdə müəyyən edilən xüsusi qaydada işlənib hazırlanan və dövlət hakimiyyətinin nümayəndəli orqanı tərəfindən qəbul olunan əsas maliyyə plan aktıdır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 155.3-cü maddəsində müəyyən olunur ki, dövlət büdcəsinin vəsaiti Azərbaycan Respublikasının mülkiyyətidir (5; 80). Büdcənin əhəmiyyəti və cəmiyyətdə rolu onunla müəyyən olunur ki, büdcədə toplanmış vəsaitlər hesabına dövlət ölkənin sosial-iqtisadi inkişafına dair proqramları həyata keçirir, ölkənin müdafiəsi və təhlükəsizliyi təmin olunur, ətraf mühitin mühafizəsi, elmi-texniki tərəqqi, mədəniyyət və digər sahələrdə vacib məsələlər öz həllini tapır. Büdcə vasitəsilə əhalinin maddi həyat səviyyəsi artırılır, həm respublika, həm də yerli səviyyədə məhsuldar qüvvələrin yerləşdirilməsi və beləliklə də iqtisadi sahələrin normal inkişafı təmin olunur. Azərbaycan Respublikasının Dövlət Büdcəsi sosial və investisiyayönümlü olub ilbəil artmaqdadır. Müharibədən əvvəlki dövrlərdə dövlət büdcəsinin xərclər hissəsinə müdafiə sahəsinə yönəldilən vəsait daim artırılırdı. Milli Məclisdə hər il dövlət büdcəsi təsdiq olunduqda qarşıdakı 3 il üçün büdcə proqnoz layihəsi də təqdim olunur. Büdcə Azərbaycan Respublikasının ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin olunmasının maliyyə aspektini özündə əks etdirən müqəddəs bir aktdır. Ona görə də, bu sənədin icrasına dürüst və məsuliyyətli münasibət dövlətə sədaqətin, vətənə, xalqa sevginin bir ifadəsidir. Dövlət büdcəsi vəsaitlərinin düzgün, qnunlara riayət etməklə və israfa yol vermədən xərclənməsinin təmin olunmasında maliyyə nəzarətinin rolu böyükdür. Bəs maliyyə nəzrəti nə deməkdir? Tarixə nəzər salsaq görərik ki, maliyyə nəzarətinin rəsmi qaydada aparılmasının bir neçə yüz il tarixi vardır. Hələ orta əsrlər dövründə Misir və Romada müəyyən şəxslər vergilərin toplanması ilə əlaqədar olaraq yoxlamalar aparırdılar. Roma imperiyası dövründə maliyyə və məhkəmə işlərini aparan vəzifəli şəxslər dövlət orqanları mühsiblərinin fəaliyyəti üzərində nəzarət edirdilər. Müasir dövrümüzdə maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyət dairələrinə əsasən aparılan nəzarətin bir neçə növü vardır.

a) İlkin nəzarət;
b) Cari nəzarət;
c) Sonrakı nəzarət.

İlkin nəzarət - pul fondunun yaradılması, bölüşdürülməsi və istifadə edilməsi üzrə maliyyə əməliyyatlarına başlamazdan əvvəl həyata keçirilən nəzarətdir. İlkin maliyyə nəzarətinin məqsədi maliyyə hüquq münasibətlərinin iştirakçılarına metodiki köməklik göstərməkdən ibarətdir.

Cari nəzarət - pul əməliyyatlarının həyata keçirilməsi prosesində aparılan maliyyə nəzarətidir. Cari maliyyə nəzarəti səlahiyyətli dövlət orqanlarından əvvəl müəssisə və idarələrin özlərinin xidməti strukturları tərəfindən gündəlik həyata keçirilməsi vacib olan nəzarətdir.

Sonrakı nəzarət - maliyyə əməliyyatlarının sonunda aparılan maliyyə nəzarətidir.

Maliyyə nəzarətinin növlərinə gəldikdə isə deməliyik ki, onları müxtəlif əsaslara görə fərqləndirmək olar. Professor Kozırin "Maliyyə Nəzarəti Orqanları" adlı kitabında (səh-48) maliyyə nəzarətini həyata keçirən orqanların təbiətindən asılı olaraq nəzarətin üç növünü fərqləndirir.

- Dövlət nəzarəti;
- Təsərrüfatdaxili nəzarət;
- Müstəqil nəzarət.

Ümumiyyətlə isə, maliyyə nəzarətini həyata keçirən orqanların dairəsinə görə nəzarətin aşağıdakı formaları vardır:

1. Parlament nəzarəti;
2. Prezident nəzarəti;
3. Ümumi səlahiyyətli idarəçilik orqanlarının nəzarəti;
4. Maliyyə-kredit orqanlarının nəzarəti;
5. İdarədaxili nəzarət;
6. Auditor nəzarəti ( 5; 60-62 )

Biz bunlardan, əsasən, dövlət nəzarəti növünün üzərində duracağıq. Hazırda Muxtar Respublikamızda maliyyə fəaliyyətinin təşkili və xüsusi maliyyə nəzarətilə məşğul olan, müəyyən funksiyalara malik olan

bir sıra orqanlar yaradılmışdır. Bunlara Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi, Dövlət Vergi Xidməti, Dövlət Gömrük Xidməti, Hesablama palatası və başqaları aiddir. Dövlət maliyyə orqanları sistemində aparıcı mövqe Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə mənsubdur. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi strukturunda fəaliyyət göstərən yerli orqanları ilə Muxtar Respublikada maliyyə siyasətini həyata keçirən və dövlət maliyyəsinin idarə olunmasını təşkil edən mərkəzi icra hakimiyyəti orqanıdır (6; 45). Azərbaycan Respublikası Konstitusiyasının 81-ci maddəsinə əsasən qanunvericilik hakimiyyətini həyata keçirən respublika parlamenti Milli Məclis maliyyə fəaliyyətinə nəzarət edən dövlət orqanıdır. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 5-ci bəndinə əsasən Milli Məclis Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən dövlət büdcəsini təsdiq edir və onun icrasına nəzarət edir. Maliyyə nəzarətinin bu növü parlament nəzarətidir. Bundan əlavə, dövlət büdcəsinin icrasına nəzarətin daha şəffaf aparılması məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini əsas tutaraq Milli Məclisin Hesablama Palatası yaradılmışdır. Hesablama Palatası dövlət büdcəsi, onun icrası barədə illik hesabata və müvafiq qanun layihəsinə rəy verir. Büdcədən maliyyələndirmələrin təsdiq olunmuş dövlət büdcəsində müəyyən edildiyi kimi aparılmasını təhlil edir və Milli Məclisə məlumat verir. Parlament dövlət büdcəsini təsdiq edərək xərclərin ümumi məbləği ilə gəlirin ümumi məbləğini müqayisə edir, xərcləri maddələr üzrə təsnif edir, iqtisadiyyat və ictimai həyatın digər sahələri üçün onların mühümlüyünü müəyyən edir və beləliklə, dövlətin maliyyə vəsaitlərinin xərclənməsi üzərində parlament nəzarətini kifayət qədər səmərəli edir (5; 22).

Dövlətin maliyyə sistemində şəffaflığın, hesabatlılığın, həmçinin büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsinin tam təmin olunması işində maliyyə nəzarətinin çox mühüm rolu olduğunu artıq qeyd etmişik. Maliyyə nəzarətinin vəzifələrinin reallaşması nəticəsində maliyyə intizamı möhkəmlənir. Maliyyə intizamı isə müəssisə, idarə, təşkilatlar və vətəndaşlar tərəfindən dövlətin pul vəsaitlərinin təşkili, bölgüsü və istifadə edilməsi qaydalarına dəqiqliklə və dönmədən əməl olunması deməkdir. Bu tələblər nəinki təkcə müəssisə, idarə və təşkilatlara yönəldilir, habelə dövlət orqanları və onların vəzifəli şəxslərinə də aiddir. Pul vəsaitlərinin yoxlanılması nəticə etibarı ilə ölkənin maddi, əmək, təbii və digər ehtiyatlarından səmərəli istifadə edilməsini təmin edir (5; 59). Amma qeyd etmək lazımdır ki, bütün dövlətlərdə maliyyə nəzarəti üzrə geniş hüquqlara Maliyyə Nazirliyi malikdir. Maliyyə nəzarəti ona görə vacibdir ki, dövlətin qarşısına qoyduğu vəzifələlərin vaxtında və dəqiq yerinə yetirilməsi, pul vəsaitlərinin tam olaraq toplanmasından, məqsədyönlü və qanunauyğun sürətdə bölüşdürülməsindən və səmərəli istifadə olunmasından asılıdır. Beləliklə, maliyyə nəzarəti dedikdə muxtar respublikanın sosial-iqtisadi inkişafı məqsədilə hazırlanmış dövlət büdcəsi vəsaitlərinin istifadə edilməsi prosesində yol verilmiş nöqsanların aşkara çıxarılması, maliyyə intizamının pozulması səbəbindən israf edilmiş vəsaitin bərpasının təmin edilməsi istiqamətində görülən iş başa düşülür. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 09 iyun 2018-ci il tarixli Sərəncamı ilə Maliyyə Nəzarəti İdarəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi dövlət büdcəsinin, o cümlədən məqsədli büdcə fondlarının və büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərinin məqsədli və səmərəli xərclənməsi üzərində maliyyə nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi muxtar respublikada Maliyyə Nazirliyinin əsas funksiyalarından birini icra etdiyinə görə onun fəaliyyəti üzərində detallara diqqət yetirmək xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi Əsasnaməsi ilə dövlət büdcəsindən maliyyələşən və dövlət büdcəsindən dotasiya alan təşkilatlarda dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə nəzarət tədbirlərini yerinə yetirir. Dövlət Maliyyə Nəzarəti İdarəsi tərəfindən nəzarət tədbirləri səlahiyyətlərinə uyğun olaraq təftiş, yoxlama, təhlil və monitorinq metodları ilə həyata keçirilə bilər. Dövlət Maliyyə Nəzarəti İdarəsi tərəfindən, əsasən, nəzarətin təftiş metodundan istifadə olunur. Təftiş, yəni kompleks yoxlama, nəzarət obyektinin fəaliyyətinin iqtisadi və hüquqi tərəflərinin birgə öyrənilməsi, maliyyə və təsərrüfat fəaliyyətinin vəziyyəti barədə tam və dürüst məlumatların əldə edilməsi, maliyyə və təsərrüfat əməliyyatlarının normativ hüquqi aktlara uyğunluğunun, tamlığının, səmərəliliyinin mühasibat uçotunda əks etdirilməsi vəziyyətinin yoxlanılmasıdır. Nəzarətin təftiş metodu eyni

zamanda vəsaitlərin istifadəsi zamanı dəymiş zərərin məbləğinin müəyyən edilməsi məqsədi ilə müəssisənin maliyyə və təsərrüfat fəaliyyətinin müəyyən dövrdə bütün sahələrini əhatə etməklə sənədli və faktiki olaraq maddi aktivlərin və material qiymətlilərinin kəmiyyət və keyfiyyət baxımından mövcud vəziyyətinin yoxlanılmasını özündə əks etdirir. Hər bir müəssisə və təşkilatda planlaşdırılmış nəzarət tədbiri müvafiq proqram əsasında yerinə yetirilir. Nəzarət tədbirlərinin təyin edilməsi Dövlət Maliyyə Nəzarəti İdarəsinin təsdiq etdiyi "Yoxlama İş Planı"na uyğun olaraq müvafiq əmrə əsasən, ciddi uçot blankları olan "Vəsiqə" vasitəsilə planlı aparılır. Nəzarət tədbirinin təyin edilməsi haqqında əmrdə nəzarət obyektinin adı, aparılmasına əsas verən hal, nəzarət tədbirinin metodu, mövzusu, əhatə etdiyi dövr, yoxlamanın başlanması tarixi, icrası müddəti göstərilməklə nəzarət tədbirini yerinə yetirəcək vəzifəli şəxs, yaxud qrupun tərkibi və rəhbəri müəyyən edilir. Qanunvericiliklə müəyyən olunmuş hallarda nəzarət tədbirlərini yerinə yetirəcək işçilərin ezam olunması təyin olunur (5). Nəzarət tədbirlərinin aparılması üçün müddət isə nəzarət tədbirinin metodu və mövzusu, nəzarət obyektində yoxlama ilə əhatə olunacaq dövr, nəzarət obyektinin xüsusiyyətləri, xərclənmiş vəsaitlərin ümumi məbləği nəzərə alınaraq müəyyənləşdirilir. Nəzarət tədbiri, əsasən, iki üsulla həyata keçirilir. Nəzarət tədbirlərinin aparılması zamanı qarşıya çıxan sualların araşdırılması başdan-başa və ya seçmə üsulu ilə həyata keçirilir. Başdan-başa yoxlama üsulu hər hansı sahə və sual üzrə maliyyə və təsərrüfat əməliyyatlarının, yəni fəaliyyət sahəsinin tam yoxlanılmasını nəzərdə tutur. Seçmə üsulu isə hər hansı sahə və ya sual üzrə maliyyə və təsərrüfat əməliyyatlarının, fəaliyyət sahəsinin seçmə qaydada müəyyən bir hissəsinin yoxlanılmasını nəzərdə tutur. Nəzarət tədbirinin həyata keçirildiyi müəssisə və təşkilatlarda kassa, bank və xəzinə əməliyyatları, qiymətli kağızlar üzrə əməliyyatlar, habelə maliyyə pozuntusuna yol verilməsi ən çox ehtimal olan digər sahə və sualların yoxlanılmasında əsasən başdan-başa yoxlama üsulu tətbiq edilir. Nəzarət tədbiri zamanı araşdırılan digər sahə və suallar isə seçmə üsulu ilə yoxlanılır. Seçmə üsulunun tətbiqi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş metodiki tövsiyələrə uyğun həyata keçirilir. Həmin metodikaya uyğun olaraq seçmə üsulu ilə yoxlanılacaq sualların həcmi, tərkibi və əhatə olunan dövr nəzarət tədbirini yerinə yetirən vəzifəli şəxslər tərəfindən elə seçilir ki, onların araşdırılması nəticəsində nəzarət tədbirinin proqramında qarşıya qoyulan müvafiq suallar üzrə yekun nəticəyə gəlmək mümkün olsun. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi Nəzarət obyektlərinin fəaliyyətində olan risk faktorlarının müəyyən edilməsinin, təhlilini və qiymətləndirilməsini təmin etmək məqsədilə, Maliyyə Nazirliyinin yerli qurumlarından sorğular vasitəsi ilə, habelə Xəzinədarlığın hesabat sistemindən əldə edilmiş məlumatlardan istifadə edir. Onu xüsusi olaraq qeyd etmək istəyirəm ki, məlumatların, əməliyyatların və hesabatların elektronlaşdırılması həm baş verə biləcək nöqsanların önünə keçir, həm də nəzarət tədbirinin aparılmasını asanlaşdırır. Nəzarət tədbirinin proqramında göstərilən sahə və suallar seçmə üsulu ilə yoxlanılarkən ciddi maliyyə pozuntuları və nöqsanlar aşkar edildikdə həmin sahə idarənin rəhbərliyinə məlumat verilməklə başdan-başa üsulu ilə yoxlanılır. Yoxlayıcılar nəzarət tədbirlərini yerinə yetirərəkən öz peşəkar mülahizələrinə əsaslanaraq müvafiq sahə və suallar üçün seçmə qaydada yoxlanılması müəyyən edilən həddən daha çox dövrü və ya iş həcmini əhatə edə bilərlər. Yoxlayıcılar göstərilən məsələlərin əhatə edilməsi ilə kifayətlənməməli, öz peşəkar mülahizələrinə əsaslanaraq nəzarət tədbirinin gedişində ortaya çıxan digər məsələləri də araşdırmalıdırlar. Nəzarət tədbirinin gedişində ciddi maliyyə pozuntuları, habelə sənədlərin saxtalaşdırılması, təhrif olunması, sui-istifadə halları aşkar edildikdə belə halların gizlədilməsinin və ya davam etməsinin qarşısının alınması məqsədi ilə nəzarət tədbirini yerinə yetirənlər tərəfindən nəzarət tədbiri başa çatdırılmadan müvafiq aralıq aktı tərtib edilə bilər. Təftişin nəticələri xüsusi maliyyə aktı olan təftiş aktında əks etdirilir. Nəzarət tədbirlərinin nəticələri üzrə tərtib olunan aktın səhifələri nömrələnir, aktda düzəlişlərin, qaralamaların aparılmasına yol verilmir. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi tərəfindən aparılan yoxlamalar nəticəsində, mal-material və pul vəsaitlərinin istifadəsində israfçılığa yol verilmiş bir neçə hal aşkar edilmişdir. Maliyyə intizamının ciddi şəkildə pozulması, büdcə vəsaitlərindən istifadədə israfçılığa, oğurluq hallarına yol verilməsi nəticəsində mənimsənilmiş vəsaitlərin bərpası istiqamətində müvafiq tədbirlər görülmüşdür. Həyata keçirilən nəzarət tədbirləri nəticəsində bəzi cinayət tərkibli əməlləri olan

maliyyə pozuntusu aşkar edilmişdir. Bu faktlarla əlaqədar hüquq mühafizə orqanlarının qanunauyğun tədbirlər görməsi məqsədilə müvafiq işlər görülmüşdür. Eyni zamanda nəzarət tədbirləri nəticəsində aşkar olunmuş nöqsanların aradan qaldırılması məqsədilə, habelə nöqsanlara yol verilməsində təqsiri olan vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi üçün yoxlanılan təşkilatların tabe olduqları yuxarı təşkilata təqdimatlar verilmişdir. Onu da qeyd etmək lazımdır ki, təftiş aparan şəxslər nəzarət zamanı qanun çərçivəsində çıxış edərək hərəkətlərini qanunla nizamlamalı, qanunun tələblərinə riayət etməlidirlər. Təftiş aparılan müəssisə və təşkilatların rəhbərləri təftiş və yoxlama üçün lazımi şərait yaratmalı və bütün xəbərdarlıqlardan nəticə çıxarmalıdırlar. Aşkar olunmuş nöqsanları dərhal aradan qaldırmalıdırlar. Təftişçinin qeyri-qanuni hərəkətlərindən inzibati və məhkəmə qaydasında şikayət etmək olar.

Maliyyə Nəzarəti sahəsində elmi araşdırmalar və praktikada qarşıya çıxan problemlər onu deməyə əsas verir ki, maliyyə nəzarəti dəyişməkdə olan prosesdir və nəticə etibarilə insan faktoru ilə birbaşa əlaqədardır. Bu sahədə ilkin və cari nəzarətə daha çox diqqət yetirilməsi gərəkliyi ortaya çıxmışdır. Maliyyə sistemində şəffaflığı artırmaq və büdcə vəsaitlərinin qanunvericiliyə uyğun xərclənməsinə dövlət nəzarətini daha operativ yerinə yetirmək üçün əsas şərtlərdən biri də sistemi elektronlaşdırmaqla insan faktorunu minimuma endirməkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi
3. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası
4. Naxçıvan MR Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsinin Əsasnaməsi
5. Mirzəyeva A. Azərbaycan Respublikası Maliyyə Hüququ. Dərslik. Bakı: Deqista, 2008
6. Novruzov N., Hüseynov X. Maliyyə. Bakı: 2017
7. Kozırın. Органы финансового надзора.

## SUMMARY

**Islam Huseynov**

## THE ROLE OF FINANCIAL CONTROL IN BUDGET EXECUTION

The scientific article defines the role of financial discipline in the development of Nakhchivan's economy, finance and its place in society, publicity, and considers the state budget from the economic and legal point of view. The article examines the history, purpose, form, types, methods, ways of implementation of financial control, explains the rules of registration of the results of financial control.

***Key words:*** *financial control, national income, budget, cash, accounting forms, risk factors*

## РЕЗЮМЕ

**Ислам Гусейнов**

## РОЛЬ ФИНАНСОВОГО КОНТРОЛЯ В ИСПОЛНЕНИИ БЮДЖЕТА

В научной статье определяется роль финансовой дисциплины в развитии економики Нахичевана, финансов, их место в обществе, а также рассматривается государственный бюджет с економической и правовой точки зрения. В статье исследуются история, цель, формы, методы финансового контроля, способы реализации, разъясняются правила оформления результатов финансового контроля.

***Ключевые слова:*** *финансовый контроль, национальный доход, бюджет, касса, формы бухгалтерского учета, факторы риска*

**ELVİN NAĞIYEV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*elvin.nagiyev.9292@gmail.com*

# GƏLİRLƏRİN PROQNOZLAŞDIRILMASI VƏ MODELLƏŞDİRİLMƏSİ METODOLOGİYASI

*Dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması büdcə prosesinin mühüm tərkib hissələrindən biri olmaqla büdcə-vergi siyasətinin formalaşdırılması və qiymətləndirilməsində mühüm rol oynayır. Maliyyə Nazirliyində gəlirlər hər bir vergi növü üzrə hesablanmış vergi bazalarına effektiv vergi dərəcələri tətbiq edilməklə proqnozlaşdırılır. Bu metodologiyada mərkəzi icra hakimiyyəti orqanlarının büdcə gəlirlərinin proqnozlaşdırılmasında istifadə etdiyi metodlar göstərilməklə yanaşı, Maliyyə Nazirliyinin dövlət büdcəsinin gəlirlərini təmin edən orqanlar ilə daxilolmaların təhlili, hesablanmış gəlirlərin yığımı və vergi siyasəti dəyişikliklərində səmərəliliyin qiymətləndirilməsi təsvir olunur.*

***Açar sözlər**: Gəlirlərin Proqnozlaşdırılması modelləri (Ekonometrik modellər, Vaxt silsiləli modellər, Struktur Reqressiya modelləri, Mikrosimulyasiya modellər, Səmərəli Vergi dərəcələri (ETR), Hesablanan Ümumi Balans Modelləri (CGE), 2019-cu il Naxçıvan Muxtar Respublikası Dövlət büdcəsi gəlirlərinin proqnozu*

Gəlirlərinin Proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması üzrə Maliyyə Nazirliyi tərəfindən istifadə olunan modelləri, eləcə də müxtəlif variantlarla tədiyə növləri üzrə proqnozlaşmanı müəyyən edir. Metodologiyada ilk öncə müxtəlif ölkələrdə sınaqdan keçmiş metodlar müzakirə edilir. Daha sonra Maliyyə Nazirliyində dövlət büdcəsi gəlirlərinin proqnozunun hesablanması üçün istifadə olunan metodologiya və modellər daha təfərrüatlı təsvir edilir. Bir çox ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyində də dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırmasında modellərdən istifadə olunmağa başlanılmışdır. Dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması büdcə prosesinin mühüm tərkib hissələrindən biri olmaqla büdcə-vergi siyasətinin formalaşdırılması və qiymətləndirilməsində mühüm rol oynayır. Dövlət büdcəsi gəlirlərinin proqnozları iqtisadi və sosial inkişafın makroiqtisadi proqnozları, iqtisadiyyatın ayrı-ayrı sahələrinin iqtisadi göstəricilərinin qiymətləndirilməsinə əsaslanmaqla, səmərəli orta müddətli proqnozlaşmanın əsasını təşkil edir. Rəsmi və şəffaf tərzdə proqnozlaşma proseslərinin olması gəlirlərin toplanması prosesi və inzibatçılıqda hesabatlılığın yaradılması baxımından əsasdır. Dövlət büdcəsi gəlirlərinin proqnozlarının arzuolunan xüsusiyyətlərinə şəffaflıq, rəsmilik və təşkilati baxımdan sadəlik aiddir. Çox az sayda ölkələr büdcə prosesinin tərkib hissəsi kimi proqnozlaşdırma prosesini təsvir edən rəsmi qaydada təlimatlara malikdirlər. Müxtəlif ölkələrdə gəlirlərin proqnozlaşdırılması və hesablama modellərinin bir çox növləri vardır. Gəlirlərin proqnozlaşdırılması maliyyə resurslarının gələcək axınının hesablamalarını yaratmaq üçün analitik üsulların istifadəsinə istinad edir. Gəlirlərin proqnozlaşdırılmasına müvafiq tarixi məlumatların toplanması, əsas gəlir mənbələri üzrə ehtimalların dəqiqləşdirilməsi və onların yığımlarının təhlil edilməsi daxildir. Bu modellərin əsasını sosial-iqtisadi dəyişənlərdən, vergi bazaları və yığımlar barədə məlumatlardan ibarət məlumat bazası təşkil edir. Vergi bazalarını hesablamaq və proqnozlaşdırmaq məqsədilə müxtəlif mənbələrdən sosial-iqtisadi məlumatların toplanması, emalı və təhlil edilməsi vacibdir. Vergi bazası kimi istifadə olunan məlumat mənbələrinə hesabat və statistik məlumatlar daxildir. Vergi bəyannamələri üzrə olan məlumatlar da vergi ödəyicilərinin vergi davranışı barədə məlumatlarını təmin edir. Lakin bu mənbədən əldə olunan məlumatlar vergilərin hesablanması məqsədləri üçün tam istifadə olunmur.

İlk növbədə gəlirlərin proqnozlaşdırılması prosesinə rəsmiləşdirilmiş və daima informasiya bazasının yeniləşdirilməsi mümkün olan model daxil olmalıdır. İkincisi, xüsusilə proqnozlaşdırma modeli sadə olmalıdır. Üçüncüsü, proqnozlaşdırma prosesi şəffaf olmalıdır.

Məlumatların mövcudluğu və onların təhlilinin təcrübəsindən asılı olaraq gəlirlərin

proqnozlaşdırılması üçün bir sıra modellər tətbiq edilə bilər. Gəlirlərin proqnozlaşdırılmasında ekonometrik proqnozlaşdırma, reqressiya təhlili, vaxt silsiləsi təhlili və təmayül təhlili kimi statistik üsullardan istifadə etməklə gələcək mədaxil yığımlarını qiymətləndirmək mümkündür. Vaxt silsiləli gəlirlərin proqnozlaşdırılması modeli sadəcə modelləşdirilən vergi daxilolmaları üçün tarixi məlumatların olmasını tələb edir. Digər tərəfdən mikrosimulyasiya modelində fiziki şəxslərin gəlir vergisi və ya hüquqi şəxslərin mənfəət vergisi müəyyən qrup mülkiyyət növlərinə dair məlumatların olmasını tələb edir. Bu modelin əsas məqsədi dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması üçün bütün mövcud modellərə geniş sürətdə baxmaqdır. Təcrübədə geniş istifadə olunan modellərdən qısaca aşağıdakıları qeyd etmək olar:

a) Ekonometrik modellər: vaxt silsiləsi və struktur modellərlə birlikdə gəlirlərin proqnozlaşdırılması;

b) Hesablama;

c) Mikrosimulyasiya modelləri: fiziki şəxslərin gəlir vergisi üzrə, hüquqi şəxslərin mənfəət vergisi üzrə, dolayı vergilər üzrə (ƏDV və aksizlər);

d) Hesablanan Ümumi balans modelləri (CGE).

Hazırda Maliyyə Nazirliyi dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması üçün ETR və ekonometrik modellərdən istifadə edir. ETR modelləri bəzi vergilər, həmçinin ekonometrik modellərin ardıcıllıq baxımından nəzarəti üçün istifadə olunur. Dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılması üzrə modelləri təsvir olunmamışdan əvvəl yuxarıdakı siyahıda qeyd olunan, daha geniş istifadə olunan modellər göstərilir.

1. Ekonometrik modelləşdirmə

Dövlət büdcəsi gəlirlərinin proqnozlaşdırılmasında ekonometrik modellər proqnozlaşdırma modelinin əmsallarının hesablanması üçün istifadə olunur. Vergi daxilolmalarının ekonometrik proqnozlaşdırma modelləri müəyyən gəlir mənbəyinə (məs., iqtisadi artım, mallar (iş və xidmətlər) üzrə tələb və təklif, torpaq sahəsi, əmlakın dəyəri, faizlər, vergi dərəcələri və sairə) təsir göstərən iqtisadi məlumatlara əsaslanır. Eyni zamanda bu ekonometrik proqnozlaşdırma modellərində müəyyən gəlir ehtiyatlarına təsir göstərən iqtisadi məlumatlardan istifadə olunur. Bu modellər hüquqi şəxslərin mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin əmlak vergisi, sadələşdirilmiş vergi, mənbədə tutulan vergi kimi gəlirlərin proqnozlaşdırılmasında istifadə olunur. Effektiv vergi dərəcələrindən istifadə etməklə proqnozlaşmaya əlavə olaraq hər bir tədiyə növü üzrə müvafiq ekonometrik modellərdən istifadə etməklə dövlət büdcəsinin gəlirlərinin proqnozu hesablanılır. Ekonometrik modellər iqtisadiyyatda baş verən dəyişikliklər nəticəsində vergi gəlirlərini dəqiq əmsallar vasitəsilə hesablamaqla yanaşı, vergi və iqtisadi dəyişənlər arasında münasibətlərin müəyyən edilməsi üstünlüyünə malikdir. Ekonometrik modellər iqtisadiyyat və dövlət büdcəsinin gəlirləri arasında təsirləri, habelə bu münasibətlərdəki dəyişiklikləri əks etdirmək baxımından çox təfərrüatlı nəticələri müəyyən edir. Modeldə mövcud məlumatlar üçün istifadə olunan ekonometrik modellər nisbətən sadə, lakin etibarlı hesab edilir.

2. Vaxt silsiləli modellər

Vaxt silsiləli proqnozlaşdırma vasitəsilə tarixi cəhətdən xronoloji olaraq sıralanan məlumatlar üzrə (məs., gün, həftə, ay, rüb, il) müəyyən gəlir mənbəyi üçün proqnozlar hesablanır. Vaxt silsiləli proqnozlaşdırma vaxtı və fəsli ehtimalları nəzərə alır. Bu faktorların səbəb olduğu amilləri azaltmaq üçün bir sıra mövcud metodlar vardır, lakin seçilən metod tarixi məlumatların məzmunundan asılıdır.

3. Struktur Reqressiya Modelləri

Ekonometrik modelin ən geniş yayılmış növü olaraq reqressiya təhlili növbəti il və sonrakı 3 il üçün daxilolmaların proqnozlaşdırılmasında müstəqil və asılı dəyişənlər arasında asılılıqlardan istifadə edir. Struktur modellər gəlirləri müəyyən edən iqtisadi faktorlar arasında sabit münasibətləri tənzimləyir. Vergilərin müəyyən edilməsi vergi bazasına vergi dərəcəsinin tətbiq edilməsi yolu ilə hesablandığından iqtisadi amillər və vergilər arasında struktur münasibətlərinin nəticəsində həyata keçirilir. Struktur modellərdə istifadə olunan iqtisadi dəyişənlər vergi bazası və ya vergi bazasını müəyyən edən iqtisadi göstəricilərdir. Model vergilər və əsas iqtisadi aqreqatlar arasında etibarlı

proqnozlaşdırılan münasibətləri fərz edir. Struktur ekonometrik modellərlə hesablamalar "durğun" və ya "dinamik" ola bilər. Dinamik hesablamalar vergi ödəyicisinin davranışı, məşğulluq, investisiya və s. təsirini nəzərə alır. Əsas iqtisadi dəyişənlərdə nəticələnən dəyişikliklər vergilərin dinamik təsirini proqnozlaşdırmaq üçün yenidən gəlir modelinə daxil edilir.

4. Təmayül təhlili

Təmayül təhlili müəyyən gəlir mənbəyinin artım dinamikasını müəyyən edir və onun nəticəsi tarixi meyl əsasında proqnozlaşdırılır. Artım dinamikasını hesablayarkən ilk növbədə müddətdən-müddətə dəyişiklik və ya bu dəyişikliyin orta dərəcəsi hesablanılır. Daha sonra dəyişiklik dərəcəsi növbəti illərin hesablanmış vergilərin daxilolmasının proqnozunu müəyyən etmək üçün sonuncu dövrün faktiki gəlirinə tətbiq olunur. Sonrakı illər üçün dəyişiklik dərəcəsi statistikası əvvəlki illərin gəlir proqnozuna tətbiq olunur.

5. Səmərəli Vergi Dərəcələri (ETR)

Səmərəli vergi dərəcələrinin proqnozlaşdırılmasında inflyasiya və vergi bazasının real artımı nəzərə alınmalıdır. Əvvəlki ilin vergi tutulan bazası inflyasiya və real artıma uyğun dəyişmələrlə proqnozlaşdırılan il üzrə artırılır. Daha sonra effektiv vergi dərəcəsi əvvəlki ilin vergi daxilolmaları əsasında artırılmış vergi bazasına tətbiq edilir.

6. Mikrosimulyasiya modelləri

Mikrosimulyasiya modelləri mülkiyyət növlərinə görə hüquqi və fiziki şəxslərin (mikrosəviyyə) məlumat müşahidələrinə əsaslanan analitik kompüter modelləridir. Bu modellər vergi qanunvericiliyindəki dəyişikliklərin hansı mülkiyyət qrupu üzrə ödəyicilər üçün faydalı olması, hansı ödəyicilərin daha çox və ya daha az vergi ödəmələri kimi mürəkkəb suallara cavab vermək üçün istifadə olunur. Bu modellər mikro vergi daxilolmaları və sorğu məlumatlarına əsaslanır. Əksər mikrosimulyasiya modellərində vergi daxilolmalarına dair göstəricilərdən istifadə olunmaqla yanaşı, əhalinin mikro səviyyəli (fərdi səviyyəli) sorğuları (siyahıya alma məlumatları və istehlakçıların xərcləri) daxil edilir.

Mikrosimulyasiya modellərinin faydaları aşağıdakılardır:

1. Modellər gəlirlərin qrupu, iri vergi ödəyiciləri qrupu, gəlir növü və şəhər (rayon) üzrə ətraflı hesablamaları təmin edir;

2. Modellər vergidən yayınma hallarını gəlir növü və gəlir qrupuna görə mümkün sahələri müəyyən etmək imkanı verir;

3. Modellər vergi bazaları üzrə ətraflı məlumat verir və nəticədə vergi qanunvericiliyindəki dəyişiklikləri modellərə daxil etmək nisbətən asan olur;

4. Modellər müxtəlif vergilər, xüsusilə əlavə dəyər vergisi, hüquqi şəxslərin mənfəət vergisi və fiziki şəxslərin gəlir vergisi arasında ardıcıl əlaqəni təmin edə bilir;

5. Maliyyə təhlilini aparmaq imkanı verir;

6. Mikroiqtisadi proqnozu hazırlamaq üçün birölçülü və yaxud çoxölçülü proqnozlaşdırma modellərindən proqnozları mikrosimulyasiya modelinə daxil edə bilir.

Digər modellər faydalı və ətraflı proqnozlaşdırmanı təmin etdikləri halda mikrosimulyasiya modelləri daimi məlumatlar, proqramlar və məlumatlardan geniş istifadə olunmasını tələb edir. Bundan başqa, onlar uzun inkişaf müddəti keçirlər və illik informasiya bazasının yeniləşdirilməsi və saxlanmanı tələb edirlər. Eyni zamanda onlar vergilər və əsasını təşkil edən iqtisadi amillər arasında struktur münasibətinin təhlilinə imkan vermirlər.

**7.** Hesablanan Ümumi Balans Modelləri (CGE)

Tətbiq olunan ümumi balans modelləri empirik iqtisadi təhlilin standart vasitəsi hesab olunmaqla çox zaman hesablanan ümumi müvazinət modelləri (CGE) adlandırılır. Texnologiyanın inkişafı və kompüterdən istifadə ilə ümumi balans modellərinin istifadəsi mümkün olmaqla yanaşı, dünyanın hər yerində daha geniş şəkildə istifadə olunur.

Hesablanan ümumi balans (CGE) yanaşmaları həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə dövlətin iqtisadi siyasətini təhlil etmək üçün 25 ildən artıqdır ki, geniş şəkildə istifadə olunmaqdadır. Sosial Mühasibatlıq Matriksi (SAM) məlumatları daxil olmaqla metodologiya hesablama üsulları və məlumatın əldə olunması analitiklərə vergi, ticarət, ekoloji məsələlər və s.

rayon (şəhər) səviyyələrində və həmçinin makro səviyyədə potensial iqtisadi siyasətin təsirini araşdırmaq üçün CGE modellərindən istifadə etmələrinə imkan verir. Bu model müxtəlif qurumlara (ev təsərrüfatlarına, müəssisələrə və digər regionlara) və iqtisadiyyatın sənaye sektorlarına struktur, qiymət dəyişiklikləri və daxilolmaların artımı daxil olmaqla uzunmüddətli təsirlərə səbəb olur. CGE modelləşdirməsi, xüsusilə vergilərin hesablanmasında faydalıdır.

Modellərin bu tipi vergi siyasəti təhlilində də geniş şəkildə istifadə olunur. Bu iqtisadiyyata qarşılıqlı asılı komponentlərin (sənaye, ev təsərrüfatı, investorlar, idxal və ixrac) tam bir sistemi kimi baxan analitik yanaşmadır. Ümumiyyətlə, bu modelə bir sıra iqtisadi sahələrin fəaliyyətinin aydın müəyyən olunması, sektorlar və iqtisadi vasitəçilər arasındakı qarşılıqlı əlaqələr daxildir. Balans iqtisadiyyatda son hesablaşma kursuna gətirib çıxaran tələb və təklif qərarları deməkdir.

CGE modellərinin faydaları aşağıdakılardır:

1. Sabit makroiqtisadi əsasa malik olmaqla balansda bütün iqtisadi vasitələrin optimallaşdırma davranışını təyin edir. Bu model iqtisadiyyat üzrə dəyişənlərin təhlilinə, habelə bölüşdürmə təsirlərinin müşahidə edilməsinə imkan verir;

2. Model daxili ardıcıllığı təmin edir, çoxsaylı nəticələrin və reaksiya təsirlərinin qiymətləndirilməsində faydalıdır;

3. CGE modeli digər metodlara nisbətən daha konkret qiymətləndirmə, yəni büdcə-vergi siyasətindəki dəyişikliklərə görə artımların və ya itkilərin hesablanmasına imkan verir.

CGE modellərinin faydası, bu modellərin iqtisadiyyatda tətbiqi hamı tərəfindən qəbul olunmuş optimallaşdırma və seçim prinsiplərindən istifadə etməklə bütün iqtisadi göstəricilərin dəyişmələrini nəzərə alır. Bu model bütün dəyişmələrin sistemli şəkildə inteqrasiyasına, habelə dəyişənlərin balansda necə fəaliyyət göstərəcəyini müəyyən etməyə imkan verir. Bunun bir nümunəsi kimi vergi hesabatlarını göstərmək olar. Belə ki, bu hesabatlarda xətalar müəyyən etmək mümkündür. Xətalar və təhriflər bir-biri ilə aydın olmayan yollarla əlaqəli olur ki, CGE modeli bu təsirləri aradan qaldırmağa köməklik edir.

Bununla belə CGE modelləri mürəkkəbdir və onu saxlamaq üçün texniki bacarıqlar tələb olunur. Bu model funksional formada müəyyən olunan parametrlərdən asılı olmaqla məlumatların ardıcıllığı ilə əlaqədar problemlər yarada bilər. CGE modelləri aşağıdakı məhdudiyyətlərə malikdir:

1. Modelin empirik dəqiqləşdirilməsinin olmaması o deməkdir ki, parametr dəyərlərinin əhəmiyyətini yoxlamaq üçün heç bir metod mövcud deyildir. Başqa sözlə, bu modelin münasibliyi digər ekonometrik modellərdə olduğu kimi, CGE modellərində yoxlanıla bilməz;

2. Nəticələrin hazırlanmasında bu modelin xüsusiyyəti iqtisadi balansa əsaslanır. O, müvazinətdə olmayan asılılıqlara imkan vermir.

CGE modellərində ümumi əmsal təkliflərinin sabit olduğu güman edilir. "Dinamik" CGE modellərində əmsallar artım modelinin hərəkəti çərçivəsində dəyişir. Məsələn, əksər vergi yükləri zamanla ödənilir və vergi öhdəliyi onun nə zaman və hansı mülkiyyət qrupu üzrə ödəyicilərinin üzərinə düşməsindən asılıdır. İkincisi, vergi yüklərinin nə dərəcədə bölüşdürülməsini müəyyən edən ödəyicilərin vergi ödənişləri zamanla inkişaf edir. Beləliklə, vergi öhdəliyinin yaranmasının proqnozlaşdırılması ortamüddətli dövrdə dəyişmələrin qiymətləndirilməsini tələb edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası"nın təsdiq edilməsi haqqında Qərarı. 10 may 2012-ci il
2. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi. Bakı: 2003
3. Ələkbərov Ə.Ə. Azərbaycan Dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu.
4. Ələkbərov Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə tənzimlənməsi problemləri. Bakı: 2007, 343 s.
5. Vəliyev Z. Büdcə sistemi. Bakı: 2012
6. Vəliyev Z. Büdcə: nəzəriyyə və praktika. Bakı: 2010, 527 s.

## SUMMARY

**Elvin Nagiyev**

## METHODOLOGY OF REVENUE FORECASTİNG AND MODELİNG

Forecasting of state budget revenues plays an important role in the formation and evaluation of fiscal policy being one of the important components of the budget process. Revenues in the Ministry of Finance are forecasted by applying effective tax rates to the tax bases calculated for each type of tax. Along with the demonstration of the methods used by the central executive authorities in forecasting budget revenues in this methodology, the analysis of revenues of the Ministry of Finance with the bodies providing state budget revenues, the collection of estimated revenues, and the assessment of effectiveness in tax policy changes are also described.


***Key Words:*** Revenue Prognosis Models (Econometric models, Time series models, Structural Regression models, Microsized models,) Effective Tax Rates (ETR), Calculated Total Balance Models (CGE), Forecast of State Budget Revenues of Nakhchivan Autonomous Republic in 2019


## РЕЗЮМЕ

**Нагиев Эльвин**

## МЕТОДОЛОГИЯ ПРОГНОЗИРОВАНИЯ И МОДЕЛИРОВАНИЯ ДОХОДОВ

Прогнозирование доходов государственного бюджета является одним из важных компонентов процесса бюджетного планирования и играет важную роль в формировании и оценке бюджетно-налоговой политики. В Министерстве финансов доходы прогнозируются путем применения эффективных налоговых ставок к налоговой базе, рассчитанной для каждого вида налогов. Эта методология описывает методы, используемые центральными органами исполнительной власти при прогнозировании доходов бюджета, а также анализ доходов проведенный Министерством финансов с органами обеспечивающих доходов государственного бюджета и сбор расчетных доходов и оценку эффективности изменений налоговой политики.


***Ключевые слова:*** модели прогнозирования доходов (эконометрические модели, модели временных рядов, модели структурной регрессии, микроразмерные модели), эффективные налоговые ставки (ETR), расчетные модели общего баланса (CGE), прогноз доходов государственного бюджета Нахчыванской Автономной Республики в 2019 году

**XƏLİL VƏLİZADƏ**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*iqtisadci@live.com*

# MALİYYƏLƏŞMƏDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ ROLU

*Məqalədə maliyyələşmə proseslərinin innovativləşməsində İKT-nin mövcud imkanları şərh edilmiş və gələcək dövr üçün proqnozlar verilmişdir. İKT-nin, həmçinin maliyyə şəffaflığının daha da təkmilləşməsi proseslərində rolundan geniş bəhs edilmişdir. İnformasiya texnologiyalarının effektivliyi nəticəsində kəndli müştərilərin tələblərinə uyğun olaraq uyğun kredit və depozit məhsulları təqdim edilməsi, həyat və sağlamlıq sığortası kimi sosial təminatın təmin edilməsi, Maliyyə İnklüziv Modelinin gələcəkdə davamlı və səmərəli olması barədə tədqiqat aparılmışdır.*

***Açar sözlər**: maliyyələşmə, İKT, maliyyə bazarları, maliyyə mexanizmi, mobil bankçılıq, kriptovalyuta, maliyyələşmə üzrə fəaliyyətlər*

İnformasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində inkişaf və tərəqqi demək olar ki, bütün sahələrə öz təsirini göstərməkdədir. Müasir dünyanın inkişaf prinsipləri də elektronlaşma və yüksək texnologiyalar üzərində qurulub. İnformasiya kommunikasiya texnologiyaları (İKT) modeli maliyyə inteqrasiyasının həyata keçirilməsində böyük rol oynayır. Müasir dövrdə informasiya texnologiyaları və maliyyə proseslərinin dayanıqlığı hər bir müəssisə və ya təşkilatın daha səmərəli fəaliyyətinə təkan verməklə məhsuldarlığı artırır və maksimum dərəcədə iş dünyasına fayda verir. İnformasiya texnologiyalarının tətbiqi ilə maliyyə əmsallarının hesablanması və müqayisəli qiymətləndirilməsi həyata keçirilir. İnformasiya texnologiyaları müəssisə növündən asılı olmayaraq maliyyələşmə mexanizmləri üçün idarəetmədə əsas tərəfdaşdır. İKT maliyyə hesabatlarının daxili nəzarətinin effektiv sistemi üçün güclü platforma təmin etməyə ən etibarlı vasitələrdən biri sayılır. Məlumatların operativ şəkildə əldə edilməsi, saxlanılması, köçürülməsi maliyyə idarəçiliyinin səmərəliliyini və effektivliyini artırır. Həmçinin informasiya və kommunikasiya texnologiyaları əmək bazarının tədqiqi, işçi qüvvələrin hərəkət həlli üzrə ekspertizanın mərkəzi rolunu oynayır. Müasir texnologiyaların tətbiqi xərcləri azaltmaq və vaxta qənaət etməklə sənaye sahələrində, qlobal maliyyə bazarlarında rəqabət qabiliyyətini inkişaf etdirmək və saxlamaq üçün geniş imkanlar yaradır.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı nəticəsində bu gün artıq maliyyə sektorunda yeni alətlər tətbiq olunur, ofissiz maliyyə xidmətləri göstərən yeni formalı mexanizmlər yaranır. Artıq modernləşmiş sosial şəbəkələr də maliyyə xidmətləri istifadəçilərinə banka müraciət etmədən, birbaşa maliyyələşmə imkanı yaradan platformalar təqdim edir.

Qloballaşan dünyada maliyyələşmə ilə informasiya texnologiyaları bəzi proseslərdə vəhdət təşkil edir. Hər hansı bir maliyyə vəsaitini (Məsələn: pul, istiqraz, səhm) xərcləməklə informasiya texnologiyaları avadanlıqları əldə edilir. İnformasiya və Kommunikasiya Texnologiyalarının imkanlarından istifadə etməklə maliyyə vəsaitlərinin təhlükəsizliyi təmin edilir, operativ şəkildə dövriyyəsi genişlənir.

Qlobal maliyyələşmə prosesləri informasiya texnologiyaları ilə maliyyə səviyyəsinin dünya səviyyəsində fəaliyyət göstərməsinə imkan yaradır. Bir sıra tədqiqatçılar hətta maliyyə bazarlarını şəbəkə kompüterləri vasitəsi ilə fəaliyyət göstərən ilk mütəşəkkil və qlobal informasiya bazarları kimi qəbul edir. İnformasiya texnologiyaları olmadan maliyyə bazarları qlobal inkişafa reaksiya göstərə bilməz və maliyyə şirkətləri rəqibləri ilə eyni zamanda informasiya əldə etmə imkanına malik ola bilməzlər. Məsələn, internet bütün kreditorlar, sığorta şirkətləri və maliyyə məsuliyyətli müştərilərə ehtiyacı olan müəssisələrə kredit bürolarına və kredit reytinqinə davamlı çıxışı təmin edir.

İKT həmçinin maliyyə şəffaflığının daha da təkmilləşməsində mühüm rol oynayır. Maliyyələşdirmədə İKT şəbəkələrindən istifadə etməklə maliyyə idarəçiliyi ilə bağlı aspektlər, əldə edilmiş vəsaitlərin mənfəətindən istifadə, gələcək fəaliyyət planlaşdırılması, mövcud tətbiqlərin idarə edilməsi və gələcək inkişafların maliyyə uçotu, xərclərin mühasibat uçotu, büdcə və statistika hesabına şəffaf şəkildə müəyyən edilə bilər. Kreditor və borcalanların maraq və hüquqlarının

qorunması, məzənnə risklərinin idarə edilməsində, habelə iqtisadi subyektlərin maliyyə intizamının gücləndirilməsi ilə bağlı yaranan problemlərin həllində də əsas tərəfdaş sayılır. [6]

İKT tərəfindən əldə edilən innovativ tendensiyalar və çoxsaylı imkanlar elektron ticarətin inkişafına gətirib çıxarmşdır. İnformasiya və kommunikasiya texnologiyası statistik veb-səhifələri, E-Ticarət, E-Bankçılıq və Korporativ İnternet Bankçılıq (CIB) kimi xidmətləri insanların istifadəsinə verməklə maliyyələşmə proselərini daha da sürətləndirdi [2].

Bankçılıq sənayesində texnologiyanın istifadəsinin artması sayəsində işçilərin işi gündəlik artmaqda davam edir. İKT müasir günün və bank xidmətinin əvəzsiz hissəsidir. Bankçılıq sənayesi, həmçinin müştərilərə daha yaxşı xidmətlər göstərməyə kömək edən texnologiyanı (Adesola) qəbul edən sənayelərdən biridir. Texnoloji inkişafın təklif etdiyi böyük imkanlar aşağıdakılardır [5]**:**

- Əməliyyatlara xərclərin azaldılması;
- Müştərilərə genişləndirilmiş və daha asan çıxış;
- Müştərilərə dair məlumatlarla məşğul olmaq üçün daha səmərəli sistem və üsullar (CRM);
- Yeni biznesin diversifikasiyası imkanı;
- Daxili proseslərin səmərəliliyinin idarə olunması üçün daha səmərəli vasitələr;

İnkişaf etməkdə olan ölkələrdə mobil telefonlar və satış nöqtələri (POS-terminallar) qurğuları kimi İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) yayılması tamamilə yeni müştəri bazasına geniş maliyyə xidmətlərinin gətirilməsi potensialına malikdir. Bir çox inkişaf etməkdə olan ölkədə, xüsusilə də kənd yerlərində maliyyə xidmətlərinə çıxış məhduddur. Əhalinin böyük bir hissəsi rəsmi bank sistemlərindən kənarda qalır və ödənişləri elektron ödəniş mexanizmlərinə nisbətən daha az təhlükəsiz və çevik olan nağd istifadə edir.

Maliyyə inklüzivi cəmiyyətin böyük seqmentini, xüsusilə də rəsmi və yarı-formal maliyyə xidmətlərinə, bank sisteminə daxil olmaq imkanı olmayan aşağı gəlirli insanları gətirir. Bank filiallarının təxminən 38%-i bu gün əhalinin 40%-ni əhatə edən kənd yerlərindədir. Daha çox və daha geniş maliyyə daxilolmalarına nail olmaq üçün maliyyə təcridolunmaları ilk növbədə təhlil edilməli və maneələrin aradan qaldırılması üçün addımlar atılmalıdır. Hərəkətin təbiəti, formaları və bunun üçün məsul olan amillər müxtəlifdir və beləliklə, heç bir faktor bu fenomeni izah edə bilməz. Faktorlardan bəziləri yaxın bank şöbələrinin mövcud olmaması, gender məsələləri, yaş faktorları, hüquqi şəxsiyyət, məhdud savadlılıq, ictimai və bankçılıq vərdişi, yaşayış yeri, psixoloji və mədəni maneələr, bank ödənişləri, şərtlər və şərtlər arasında məlumatlılığın olmamasıdır [4].

Maliyyə inklüzivliyinə xidmət edən mikromaliyyə xidmətləri banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən göstərilir. Maliyyə baxımından kənar qrupların əksəriyyəti yoxsul, sosial cəhətdən əlverişsiz, əlillər, yaşlılar, uşaqlar, qadınlar, təhsilsiz azlıq və məcburi köçkünlərdir. Bankın axını üçün əngəlləri aradan qaldırmağın yeganə yolu uyğun və yenilikçi maliyyə məhsulları ilə səmərəli texnologiyaya əsaslanan model vasitəsilə kapital bankçılıq təmin edərək və istənilən nəticəni əldə edə biləcək maliyyə savadlılığını təmin etməklə onlara yaşayış və ya iş yerlərində çatmaqdır. Maliyyə məhsulları və xidmətlərini rəqiblərindən daha sürətli birləşdirmək üçün banklar informasiya və kommunikasiya texnologiyaları (İKT) layihələrində milyonlarla dollar sərmayə qoyurlar.

Artıq innovativ mexanizm olan Mobil Bankçılıq vasitəsi ilə kəndlilər aşağıdakı xidmətləri asanlıqla həll edə bilər [5]:

- Pul vəsaitlərinin digər bank hesablarına köçürülməsi;
- Hesablaşmaların hesablanması;
- Mobil pul köçürmələri alındıqdan sonra satıcı tərəfindən kəndliyə lazımi məhsul və avadanlıqların çatdırılması;
- Bilet sifarişləri (hava, dəmir yolu, kino və s.);
- Hədiyyə, Bağlama sifarişi və s.

Maliyyələşmədə innovativ texnologiyaların tətbiqi nəticəsində yeni nəsil ödəniş sistemi olan kriptovalyutaların yaranması prosesi başlamışdır. Blokçeyn texnologiyası kriptovalyutanın əmələ gəlməsi və işləməsi üçün əsas şərt sayılır. Kriptovalyuta virtual (rəqəmsal) valyutanın bir növü olmaqla bərabər elektron ödəniş şəbəkəsidir. Kriptovalyuta maliyyə sistemində innovativ bir yenilik

olmaqla , ödəniş vasitəsi kimi yaxın gələcəkdə ən ideal valyuta olacağı danılmaz faktorlardandır. Bəzi tədqiqatçılar isə kriptovalyutanı modernləşmiş texnologiyanın qızılı da adlandırırlar. Demək olar ki, kriptovalyutalar İKT-nin Maliyyə sahəsində XXI əsrdə inqilabıdır.

Kriptovalyutanın real bazarda dəyərinin hər hansı bir dövlətin maliyyə-bank sistemindən asılı olmaması, bazarda tələb və təklif əsasında müəyyən olunması, saxta emissiyasının mümkünsüzlüyü, heç bir geocoğrafi sərhəd tanımaması, qloballaşan dünyanın monetar (pul-kredit) siyasətinin gələcəkdə vahid şəkildə formalaşmasına xidmət edir. Həmçinin növbəti 20 ildə kriptovalyutaların kağız pulun dövriyyəsini əhəmiyyətli şəkildə sıxışdırıcağı prosesi maliyyə elmində bir sıra tədqiqatçıların araşdırmalarında yer almaqdadır [3].

İlk rəqəmsal valyuta olan Bitkoinin (bitcoin) istifadəçiləri də məhz İT sahəsində fəaliyyət göstərən proqramçılar olmuşdur. Lakin bitkoin sahiblərinin anonim olması maliyyələşmədə cinayət-karlığa qarşı mübarizədə bu valyutanın effektivlik dərəcəsini aşağı salmışdır. Və daha sonra yaranan yeni rəqəmsal kriptovalyutalarda anonimlik məsələsi öz həllini tapmışdır. Hazırda dünyada 100-dən çox rəqəmsal valyuta növü mövcuddur və bu faktın olması artıq yaxın gələcəkdə bu vaylutalara olan tələbatın yüksək olacağının göstəricisidir.

Qloballaşan dünyada insanların həyata qarşı fikir və düşüncə tərzləri dəyişdikcə, elmi nailiyyətlər operativ sürətlə artdıqca, İKT-nin innovativ məhsulları və yeni inkişaf tendensiyaları ortaya çıxdıqca dünya iqtisadiyyatının tələb və təklifləri də dəyişikliyə məruz qalır.

Əgər keçmişdə dünya iqtisadiyyatı daha çox təbii sərvətlər (neft, qaz , kömür, qızıl və sair ) üzərində qurulurdusa, indi onun İKT üzərində formalaşdığı heç kimə sirr deyil. Qeyri-neft sektorunun aparıcı sahəsi olan informasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru neft və qazdan asılı ölkə iqtisadiyyatlarının modern inkişafına öz töhfəsini verməkdədir.

Cənubi Qafqazda iqtisadi inkişaf tempinə görə lider olan Azərbaycanda Respublikasında da maliyyələşmədə modern informasiya texnologiyaların tətbiqi ilə bağlı son illərdə müvafiq sərəncam və fərmanlar verilmişdir. Məhz “Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi” də maliyyə xidmətlərinin rəqəmsallaşması və informasiya tutumluluğunun artması məsələləri ön plana çəkilmişdir. Sənəd maliyyə xidmətləri sektorunun çevikliyi, rəqabət-qabiliyyətliliyi, innovativliyi və iqtisadi inkişafı dəstəkləməsi prinsipləri əsasında hazırlanmışdır [1].

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. 2016-cı il 6 dekabr tarixli Fərman
2. Xudiyev Q., Vəlizadə X., Məmmədova İ. Maliyyə-iqtisad terminlər lüğəti. 2018
3. “Elektron ticarət haqqında” Azərbaycan Respublikasının Qanunu.10 may 2005-ci il № 908-IIQ.
4. Eric Tyson. Personal Finance For Dummies. 2015
5. https://www.researchgate.net/publication/294873765 Impact of ICT on Effective Financial Management
6. https://www.maliyye.gov.az/ Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internet səhifəsi

## SUMMARY

**Khalil Velizade**

## THE ROLE OF INFORMATION TECHNOLOGY IN FINANCING

*The article outlines the current possibilities of ICT for the innovation of financing processes and predicts for the future period. The role of ICT in the process of further improvement of financial transparency has also been highlighted. As a result of the effectiveness of information technology, the research has been conducted to provide appropriate credit and deposit products in accordance with the needs of rural customers and ensure social security as life and health insurance, and continuously and efficiently use of the Financial Inclusion Model.*

***Key words:*** *financing, İCT, financial markets, financial mecjhanism, mobile*-banking, *cyrypto currency, financial activities*

## РЕЗЮМЕ

**Халил Велизаде**

## РОЛЬ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ФИНАНСИРОВАНИИ

В статье разъясняются существующие возможности ИКТ в инновационных процессах финансирования и даются прогнозы на будущее. Также широко обсуждается роль ИКТ в процессах дальнейшего улучшения финансовой прозрачности. Были проведены исследования по предоставлению соответствующих кредитных и депозитных продуктов соответствующих требованиям сельских клиентов в результате эффективности информационных технологий, обеспечению социального обеспечения, как страхование жизни и здоровья, устойчивости и эффективности финансовой инклюзивной модели в будущем.

***Ключевые слова:*** *финансирование, ИКТ, финансовые рынки, финансовый механизм, мобильный банкинг, криптовалюта, финансовая деятельность*

**PƏRVİN CÜMŞÜDOVA**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*parvindjumshudova518@gmail.com*

# MÜHASİBAT UÇOTUNUN YARANMA TARİXİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

*Məqalədə mühasibat uçotunun yaranma tarixi, ikili yazılışın önəmi, Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurasının yaradılması və ölkəmizdə mühasibatlığın inkişaf mərhələləri araşdırılmış, eyni zamanda maliyyə hesabatlarının beynəlxalq standartlarından istifadənin üstünlüyü və bu standartların muxtar respublikada tətbiq olunmasına dair görülən tədbirlərdən bəhs olunmuşdur. Qeyd olunmuşdur ki, tənzimləyici aktlar sisteminin işlənib hazırlanması uçot sisteminin formalaşması üçün əsas istiqamətlərdəndir və ölkəmizdə bu sahədə görülən tədbirlər mühasibat uçotunun formalaşmasına öz müsbət təsirini göstərir.*

***Açar sözlər:*** *mühasibat uçotu, maliyyə hesabatı, ikitərəfli qeydiyyat sistemi, maliyyə hesabatlarının beynəlxalq standartları, peşəkar mühasib sertifikatı*

Müasir dövrdə iş dünyası üçün önəmli olan mühasibat uçotunun dəqiq yaranma tarixi heç kəsə məlum deyil. Lakin Qədim Misirdə, Babildə tapılan qeydlərə əsasən alimlər onun təxminən 6000 il əvvəl yarandığını iddia edirlər. O dövrdə uçot ən sadə formada (saymaq üsulu ilə), yəni dəri üzərində xətlər çəkərək, çöplərdən istifadə edərək və s. formada aparılırdı. Lakin ticarət əlaqələrinin genişlənməsi mühasibatlığın da inkişafına təsir göstərdi. Belə ki, alqı-satqı əməliyyatları, işçilərə ödənilən əməkhaqqı, dövlətə ödənilən vergi, veriləcək və alınacaq vəsaitlərin qeydiyyatının aparılmasına başlanıldı. Bu qeydlərin birtərəfli və sadə formada aparılması qeydiyyat zamanı baş verə biləcək səhvlərin tapılma ehtimalının azalmasına səbəb olurdu.

Mühasibat uçotunda əsaslı dəyişiklik ikili yazılışın icadından sonra başladı. İkili qeydiyyat sisteminin üstünlüyü ondan ibarətdir ki, əməliyyatın qeydiyyatı iki tərəfdə aparılır və bununla da baş verə biləcək səhvlərin tapılma ehtimalı artır. Mühasibat uçotunun bir neçə əsrlik inkişaf tarixinə malik olmasına baxmayaraq ikili qeydiyyat sistemində köklü dəyişikliyin olmaması bu qeydiyyat formasının mükəmməlliyindən xəbər verir.

İkitərəfli qeydiyyatın ilk dəfə sistemə salınmasını 1494-cü ildə italyan riyaziyyatçısı və monarxı Luca Pacioli həyata keçirmişdir. O, “Summe de Arithmethika, Geometria, Proportioni et Proportionalita” (Hesab, həndəsə, nisbət və mütənasibliyə aid toplanmış biliklər) adlı kitabında ikitərəfli qeydiyyat sisteminə dair “Gündəlik dəftər” və “Böyük dəftər” anlayışlarını irəli sürmüş, əsərində onların hazırlanma qaydasını izah etmişdir. Əməliyyatlar gündəlik dəftərə qeyd olunduqdan sonra böyük dəftərə qeyd olunurdu. Biz bunu hazırda istifadə etdiyimiz əməliyyat jurnalı və baş kitabla müqayisə edə bilərik. Gəlir və xərc hesabları müəyyən vaxtın sonunda mənfəət və zərər hesabına köçürülmüş, mənfəət və zərərin bu hesabdan sərmayə hesabına dövr edilib bağlana biləcəyi göstərilmişdir (8, 23). Bu qeydlər müasir dövrümüzdə də aparılır.

XVI əsrdən başlayaraq müəssisələrin yaranması mühasibatlığın sürətlə inkişafına səbəb oldu. Bu dövrdə mühasibatlıqla bağlı bir sıra fikirlər irəli sürüldü, çoxlu sayda kitablar ərsəyə gəldi.

XX əsrdə dövlətlərarası əlaqələrin yaranması və inkişafı, elmi-texniki tərəqqi mühasibatlıq tarixində yeni dövrün başlanmasına səbəb oldu. Hər bir ölkədə maliyyə hesabatlarının dəqiq, müqayisəli, asan başa düşülən olması üçün bir sıra standart və nizamnamələr toplusu hazırlanırdı. Lakin standart və nizamnamələr ölkədən-ölkəyə dəyişirdi. Bu səbəbdən müxtəlif ölkələrdə fəaliyyət göstərən müəssisələrin maliyyə hesabatlarını müqayisə etmək çətinləşirdi (7, 41). Bu problemi həll etmək üçün ötən əsrin 70-ci illərinin əvvəllərində “Tənzimləyici mexanizm” adlı anlayış irəli sürüldü. Burada əsas məqsəd beynəlxalq səviyyədə qəbul edilən standart və nizamnamələri, yəni Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarını (MHBS) hazırlamaq idi. 1973-cü ilin iyun ayında Avstraliya, Kanada, Fransa, Almaniya, Yaponiya, Meksika, Hollandiya, ABŞ, İrlandiya və Böyük Britaniya kimi ölkələrin mühasibatlıq orqanları arasında bağlanmış müqaviləyə əsasən Mühasibat

Uçotunun Beynəlxalq Standartları Komitəsi (MUBSK) yaradıldı. Komitənin vəzifəsi beynəlxalq səviyyədə qəbul edilən standart və nizamnamələr toplusunun hazırlanması idi.

Lakin 2001-ci ildə Enron qalmaqalının baş verməsi ilə cəmiyyət bu sistemə olan inamını itirdi və yenidənqurma işləri aparılmağa başladı.

Enron qalmaqalı maliyyə hesabatlarının saxtalaşdırılması ilə bağlı idi. Belə ki, şirkət öz öhdəliklərini offşor zonada fəaliyyət göstərən bölmələrin üzərinə yazır, həmin bölmələrlə bağlanan müqavilələri isə öz aktivləri kimi göstərərək saxtakarlığa yol verirdi. Nəticədə şirkətin göstəriciləri artır, o, çoxmilyonluq mükafatlar qazanır, paket və səhmlərin dəyəri isə yüksəlirdi (10). Bu, Enron şirkətinin "Fortune" jurnalı tərəfindən 1996-2001-ci illər ərzində ardıcıl olaraq altı dəfə "Amerikanın ən yenilikçi şirkəti" adına layiq görülməsinə, 2000-ci ildə isə "Amerikada fəaliyyət göstərən 100 ən yaxşı şirkət" siyahısına daxil edilməsinə səbəb oldu. Lakin borclar getdikcə artdı və onları gizlətmək mümkün olmadı. Bu da Enronun səhmlərinin dəyərinin bir anda düşməsinə səbəb oldu və 2001-ci ildə şirkət müflis elan olundu.

Bütün saxtakarlıq ifşa olunduqdan sonra bu halın bir daha təkrarlanmaması üçün beynəlxalq səviyyəli müxtəlif qanun layihələri qəbul olundu. Yenidənqurma prosesinin bir hissəsi olaraq Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi Fondu (MUBSKF) yaradıldı. MUBSKF-un nəzdində Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) yaradılaraq standartların hazırlanma səlahiyyəti şuraya həvalə edildi (7, 44). 2010-cu ildə isə MUBSKF-nun adı dəyişdirilərək Maliyyə Hesabatlarının Beynəlxalq Standartları Fondu (MHBSF) adlandırıldı.

Azərbaycanda uçotun inkişafı XIX əsrin sonu XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Fridon Akimoviç Mərdanov, Əbdülqasım Nurməmməd oğlu Hüseynzadə, Mirhəbib Seyidəhməd oğlu Seyidməmmədov kimi bir sıra mütəxəssislər Azərbaycanda uçotun elmi əsaslarla qurulmasına dair müəyyən töhfələr vermişlər. Bu sahədə rus mütəxəssislərini Azərbaycana dəvət edərək onların təcrübəsindən istifadə edən Əliqulu Fərəcovun adı xüsusilə qeyd olunmalıdır. O, mühasibat uçotu ixtisası üzrə mütəxəssisləri daha təkmil formada hazırlamaq üçün kadr hazırlığının daha müasir, orta ixtisas və ali təhsil sistemini seçməyə üstünlük vermiş, kadrları hazırlayan "Statistika", "Kommersiya" texnikumlarının, Azərbaycan Dövlət Sənaye İnstitutunun nəzdində iqtisad fakültəsinin və sonradan 1930-cu ildə bu fakültənin bazasında Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun açılmasında və fəaliyyət göstərməsində iştirak etmiş, ixtisasına sadiq qalaraq Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun ilk rektorlarından biri olmuş və onun gələcək inkişafında öz əməyini əsirgəməmişdir (9, 11). Ə.Fərəcov və onun həmkarları tərəfindən mühasibat uçotuna dair bir sıra dərsliklər hazırlanmış və bu dərsliklər ölkəmizdə uçotun tədrisi ilə əlaqədar proqramların hazırlanmasına, həmçinin inkişafına müsbət təsir göstərmişdir.

90-cı illərin əvvəllərində yaranmış qarışıqlıq Azərbaycanda nəinki iqtisadiyyata eyni zamanda mühasibatlığın da inkişafına mənfi təsir göstərmişdir. Bu dövrdə yenicə müstəqillik əldə etmiş ölkəmizdə uçotun yenidən qurulması zəruri idi. Mühasibat uçotunun milli konsepsiyasının işlənib hazırlanması, uçot qaydalarının yeniləşdirilməsi və yerinə yetirilməsinə nəzarət sisteminin təşkil edilməsi qarşıda duran mühüm vəzifələr idi.

Mühasibat uçotu sisteminin formalaşmasının əsas istiqamətlərindən biri dəqiq və ziddiyyətsiz tənzimləyici aktlar sisteminin işlənib hazırlanması hesab edilirdi. Buna görə də "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununun və "Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanının qüvvəyə minməsi respublikada həyata keçirilən uçot siyasətinin əsas istiqamətlərinin müəyyən olunmasında xüsusi rol oynadı.

Həmin fərmanın 1.2-ci bəndinin icrası məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti bu meyar göstəricilərə və "Mühasibat uçotu haqqında" Qanunun 18.4-cü maddəsinə əsaslanaraq "2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqramın təsdiq edilməsi haqqında" Qərarı təsdiq etdi. Qeyd olunan qərara əsasən Azərbaycan Respublikası Maliyyə Nazirliyi "İctimai əhəmiyyətli qurumlar üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına keçməsi müddətləri üzrə Nümunəvi Proqram"ı təsdiq etdi. Proqramda kommersiya, büdcə və qeyri-hökümət təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının hazırlanması, bu standartlar əsasında

mühasibat uçotunun avtomatlaşdırılması üzrə proqram təminatının yaradılması, mühasibat uçotu sahəsində mütəxəssislərin hazırlanması məqsədilə tədris proqramlarının və tədris-metodiki vəsaitlərin hazırlanması nəzərdə tutulmuşdur. Bu standartların tətbiq olunması və qanunauyğun olaraq hazırlanmasına nəzarət Azərbaycan Respublikası Maliyyə Nazirliyinə tapşırıldı.

Nəticədə proqramda nəzərdə tutulan bütün müddəalar uğurla həyata keçirildi. Mühasibat uçotu qaydaları yeniləndi və uçot sisteminə nəzarət gücləndirildi, maliyyə hesabatlarının beynəlxalq standartları Azərbaycan dilinə tərcümə edildi, yeni hesablar planı hazırlandı və ölkəmizdə fəaliyyət göstərən təşkilatlar uçotu yeni hesablar planına əsasən hazırlamağa başladılar.

Maliyyə hesabatlarının beynəlxalq standartlarından istifadə olunmasının aşağıdakı üstünlükləri vardır:

1. Tənzimləyici sistemin mövcudluğu mühasiblərin hazırladığı maliyyə hesabatlarının dəqiq, ardıcıl, təhrifsiz hazırlanmasına gətirib çıxarır;

2. Maliyyə hesabatlarının istifadəçiləri müxtəlif müəssisələrin maliyyə vəziyyətini və fəaliyyətini qiymətləndirmək üçün müqayisəli məlumata ehtiyac duyur. Bu səbəbdən maliyyə hesabatlarını hazırlayan mühasiblər və digər əlaqəli şəxslər eyni qayda və standartlardan istifadə etməlidirlər (7, 42);

3. Standartın beynəlxalq səviyyədə qəbul olunması müxtəlif ölkələrdə fəaliyyət göstərən müəssisələrin də maliyyə hesabatlarının müqayisəsini asanlaşdırır.

Hal-hazırda Naxçıvan Muxtar Respublikasında da beynəlxalq standartların tətbiqi ilə bağlı bir sıra işlər görülməkdədir. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi muxtar respublikada maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun tərtib və təqdim edilməsi sahəsində dövlət siyasətinin işlənib hazırlanması, mühasibat uçotunun təşkili və bu sahədə dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı bir sıra tədbirlər görməkdədir. Belə ki mühasibat uçotu subyektlərində maliyyə hesabatlarının hazırlanması, ilkin uçot sənədlərinin qeydiyyatı və mühasibat uçotu registrlərinin tərtibi qaydaları diqqət mərkəzində saxlanılır.

Muxtar respublikada maliyyə və mühasibat işçilərinin peşə hazırlığının təkmilləşdirilməsi və yenidən hazırlanmasının həyata keçirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 10 fevral 2018-ci il tarixli 220-05/S nömrəli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi yaradıldı. Bu günə qədər Mərkəzdə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və sahibkarlıq subyektlərində işləyən maliyyə və mühasibat işçilərinə, sahibkarlara, həmçinin bu sahədə təhsil alan tələbələrə təlimlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 iyun tarixində "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası"nın təsdiq edilməsi haqqında 79 nömrəli və "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 80 nömrəli Qərarları qəbul edilmişdir. Bu Qaydalar muxtar respublikada peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması, habelə peşəkar mühasib sertifikatının formasını müəyyən edir (2).

Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi həmin qərarlardan irəli gələn vəzifələrin həyata keçirilməsi üzrə öz səlahiyyətləri daxilində müvafiq tədbirlər görməkdədir. Qərarların tətbiqi məqsədilə Tədris Mərkəzində Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və uçot qaydalarının tətbiqi ilə bağlı təlim kursları, seminarlar və konfransların keçirilməsi nəzərdə tutulub.

Göstərilən istiqamətlər üzrə aparılan işlər muxtar respublikamızda formalaşan mühasibat uçotunun beynəlxalq aləmdə qəbul edilmiş təcrübəyə yaxınlaşmasını təmin edir. Bu faktlara əsaslanaraq deyə bilərik ki, aparılan düzgün maliyyə siyasəti bu sahədə qazanılan uğurların davamlı olacağına təminat verir.

## ƏDƏBİYYAT


1. "2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqramın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 18 iyul 2005-ci il
2. "Naxçıvan Muxtar Respublikasında peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı, 20 iyun 2019-cu il
3. "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydalar"ı. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının Qərarı, 30 yanvar 2017-ci il
4. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi haqqında Əsasnamə
5. Azərbaycan Respublikası Maliyyə Nazirliyi - Maliyyə və Uçot (aylıq nəzəri və elmi-praktiki jurnal), Bakı: 1998, №7-8
6. Azərbaycan Respublikası Maliyyə Nazirliyi - Maliyyə və Uçot (aylıq nəzəri və elmi-praktiki jurnal), Bakı: 2012, №10
7. "Maliyyə uçotu" (Fundamental səviyyə - II fənn) - Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi, Bakı: 2013.
8. Fətullayev R. Beynəlxalq mühasibat uçotunun əsasları. Bakı: 2019
9. Abbasov Q.Ə. Mühasibat uçotu (dərslik), Bakı: 2015
10. https://banker.az/enron-isi-qalmaqali-v%C9%99-daxili-n%C9%99zar%C9%99tin-vacibliyi/


## SUMMARY

**Parvin Jumshudova**

## THE HISTORY AND DEVELOPMENT STAGES OF ACCOUNTING

In the article the history of accounting, its development stages in our country, the importance of double-entry bookkeeping, and the establishment of the International Accounting Standarts Board have been investigated. The reserch work also deals with the benefits of using the international financial reporting standarts and measures taken for to apply these standarts in the Autonomous Republic. It is noted that working out balancing act system is one of the main directions and the measures taken in our country in this field, influence the formation of accounting positively.

***Key words:*** *accounting, financial report, double-entry bookkeeping, international financial reporting standarts, professional accouting certificate*

## РЕЗЮМЕ

**Парвин Джумшудова**

## ИСТОРИЯ СОЗДАНИЯ И ЭТАПЫ РАЗВИТИЯ БУХГАЛТЕРСКОГО УЧЕТА

В статье рассматриваются история бухгалтерского учета, значение двойной записи, создание Совета по международным стандартам финансовой отчетности и этапы развития бухгалтерского учета в нашей стране, а также преимущества использования международных стандартов финансовой отчетности и меры, принятые для применения этих стандартов в автономной республике. Было отмечено, что разработка системы нормативных правовых актов является одним из основных направлений формирования системы бухгалтерского учета, и меры, принимаемые в этой сфере в нашей стране, положительно влияют на формирование бухгалтерского учета.

***Ключевые слова:*** *бухгалтерский учет, финансовый отчет, система двусторонней регистрации, международные стандарты финансовой отчетности, сертификат профессионального бухгалтера*

**RAMİL HÜSEYNOV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*ramilhuseynov85@bk.ru*

# DÖVLƏT BÜDCƏSİ VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF

*Məqalədə Dövlət büdcəsinin mahiyyəti və əsas sosial-iqtisadi istiqamətləri göstərilmişdir. Qeyd edilmişdir ki, büdcə dövlətin mərkəzləşdirilmiş, təsdiqlənən pul fondu, onun idarəetmə aləti və maliyyə planıdır. Bildirilmişdir ki, dövlət büdcə vəsaiti hesabına idarəetmə aparatını və ordunu saxlayır, sosial-mədəni tədbirləri həyata keçirir, iqtisadiyyatı tənzimləyir və inkişaf etdirir.*

***Açar sözlər:*** *Büdcə, dövlət büdcəsi, sosial-iqtisadi inkişaf*

Dövlət büdcəsi dövlət maliyyəsinin ən mühüm tərkib hissəsidir. Dövlət büdcəsi sözü bütün dillərə "Budget" sözündən keçmişdir. Bu ingilis sözünün mənası çanta, torba kimi açıqlanır. "Budget" sözü isə "Bouget" sözünün dəyişilmiş formasıdır. Büdcə sözü XVIII əsrdən maliyyə kateqoriyası kimi iqtisadi leksikona daxil olmuşdur. Bu söz məna etibarı ilə xəzinə sözünə yaxındır və XVIII əsrə qədər büdcə funksiyalarını bütövlükdə xəzinə yerinə yetirirdi. Məişətdə biz tez-tez ailə büdcəsi, vaxt büdcəsi, dövlət büdcəsi anlayışları ilə qarşılaşırıq. Əgər ailə büdcəsi ailənin gəlir və xərc balansını, vaxt büdcəsi potensial vaxtla onun istifadə balansını əks etdirirsə, dövlət büdcəsi dövlətin gəlirləri və xərcləri arasındakı balansı əks etdirir. Dövlət büdcəsi bütün milli iqtisadiyyatla bağlıdır və onun çoxanlamlı əlamətləri var. Büdcə ilk növbədə dövlətin mərkəzləşdirilmiş, təsdiqlənən pul fondu, onun idarəetmə aləti, maliyyə planıdır. Eyni zamanda dövlət büdcəsi maliyyə sisteminin tərkib hissəsidir (2,125).

Büdcə dövlət idarəetmə sisteminin tərkib hissəsi olmaqla ölkə əhalisinə xidmət edir. Dövlət işçilərinin, həkim və xəstələrin, valideyn, şagird və tələbələrin, təqaüdçülərin, aztəminatlı ailələrin və müavinət alanların, sahibkarların, uşaq bağçalarında və körpələr evlərində uşaqların və tərbiyəçilərin, işsiz insanların – bir sözlə, ölkə vətəndaşlarının demək olar ki, hamısının büdcə ilə əlaqəsi vardır. Büdcə, həmçinin ölkə iqtisadiyyatının tənzimlənməsində mühüm rol oynamaqla iqtisadiyyatda sabitliyin yaranmasına, əhalinin sosial rifah halının yaxşılaşmasına xidmət edir.

Dövlət büdcəsi - dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsini özündə əks etdirən əsas maliyyə planıdır. Dövlət büdcəsi dövlətin gəlirləri və xərcləri arasındakı balansı əks etdirməklə hər ilin axırında sona yetir. Dövlətin sosial-iqtisadi funksiyalarının həyata keçirilməsində dövlət büdcəsinin xüsusi rolu vardır. Dövlətin siyasi, iqtisadi, sosial və digər çoxsahəli vəzifələrinin yerinə yetirilməsi yalnız dövlət büdcəsi vasitəsilə maliyyələşir. Büdcənin öz həcmi, mənbələri, məqsədi və yerinə yetirdiyi funksiyaları vardır. Bunlar içərisində formalaşma mənbələrinə, həcminə və xərc istiqamətlərinin səviyyəsinə görə dövlət büdcəsi mühüm əhəmiyyət kəsb edir.

Aparılmış özəlləşdirmə və yaradılan investisiya mühiti özəl bölmənin inkişaf etməsinə və dövlət büdcəsinə daha çox verginin ödənilməsinə münbit şərait yaradır. Büdcənin gəlirlərinin strukturu dəyişkəndir və konkret iqtisadi şəraitlə əlaqədardır. İnkişaf etmiş ölkələrdə birbaşa vergilər daha çox xüsusi çəkiyə malik olduğu halda, inkişaf etməkdə olan ölkələrdə isə dolayı vergilər üstünlük təşkil edir. Bunun da əsas səbəbi ondan ibarətdir ki, dolayı vergilər idarəetmə aparatının inkişafını tələb etmir.

Büdcənin xərcləri isə büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikası büdcəsindən və yerli büdcələrdən tələbatları ödəmək üçün ayrılan vəsaitdir. Büdcədə əsas maddələri üzrə büdcə xərclərinin məbləği müəyyən edilir. Həmçinin büdcə xərcləri hesabına büdcə vəsaitlərinin dotasiya, subsidiya və subvensiya formasında büdcə sisteminin səviyyəsi üzrə yenidən bölgüsü baş verir.

Büdcə xərcləri bu halda qaytarılmamaq prinsipi üzrə maliyyələşdirilir. Büdcə xərcləri də əsasən ictimai-siyasi, iqtisadi və sosial vəziyyətdən asılı olur və bununla bağlı olaraq da dəyişir.

Dövlət büdcəsinin xərcləri hesabına dövlət əhaliyə müxtəlif formada ödənişlər və xidmətlər həyata keçirir. Bu ödəniş və xidmətlər əsasən bir neçə istiqamətdə əhaliyə çatdırılır və ölkə iqtisadiyyatına yönəldilir.

- Birbaşa formada, müxtəlif sosial ödənişlər, yəni pensiyalar, aztəminatlı ailələrə müavinətlər, məcburi köçkünlərin məskunlaşması və normal yaşamaları üçün yaşayış evlərinin tikintisinə ayrılan investisiya xərcləri və müavinətlər formasında;
- Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərə əməyin ödənişi üçün verilən ödənişlər formasında;
- İqtisadiyyatın müxtəlif sahələrinə dövlət büdcəsindən subsidiya və subvensiya (sadə dildə desək maliyyə yardımı) şəklində yönəldilən maliyyə vəsaitlərinin müxtəlif formada, o cümlədən ipotekanın tətbiqi, əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etmələri üçün sosial mənzillərin tikintisi formasında əhaliyə çatdırılması;
- Başqa büdcələrə (Naxçıvan Muxtar Respublikasının büdcəsinə və bələdiyyə büdcələrinə əvəzsiz verilən vəsait) verilən dotasiya formasında;
- Digər formada – ehtiyat fondları vasitəsi ilə əvvəlcədən büdcədə nəzərdə tutulmayan dövlət tədbirlərinin, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması ilə bağlı vəsaitin ayrılması formalarda.

Büdcə vasitəsilə dövlət və bələdiyyə orqanları öz üzərinə düşən vəzifə və funksiyaları yerinə yetirir. Belə ki, dövlət büdcə vəsaiti hesabına idarəetmə aparatını və ordunu saxlayır, sosial-mədəni tədbirləri həyata keçirir, iqtisadiyyatı tənzimləyir və inkişaf etdirir. Büdcə dövlətin maliyyə vəsaitini əks etdirir və buna əsasən ölkədə vergi siyasəti müəyyən edilir.

Büdcə - maliyyə münasibətlərini əks etdirən tarixi iqtisadi kateqoriyadır. Onun yaranması və inkişafı dövlətin yaranması və formalaşması ilə bilavasitə əlaqədardır. Dövlət büdcədən özünün əsas funksiyalarını həyata keçirmək üçün əsas iqtisadi alət kimi istifadə edərək eyni zamanda iqtisadi və sosial siyasəti də həyata keçirir.

Maddi mənada büdcə dövlət və yerli hakimiyyət orqanlarının müvafiq vəzifə və funksiyalarının həyata keçirilməsini təşkil etmək üçün bu və ya digər səviyyələrdə mərkəzləşdirilmiş pul vəsaiti fondudur. Deməli, büdcənin mahiyyəti ilk növbədə onun maddiliyində ifadə olunur (3, 54).

Dövlətlə müəssisələr, təşkilatlar və əhali arasında olan münasibətlər büdcə münasibətləri adlanır. İqtisadi mahiyyətinə görə dövlət büdcəsi milli gəlirin bölüşdürülməsi üçün dövlətlə hüquqi və fiziki şəxslər arasında yaranan münasibətlərdir. Bu münasibətlər isə öz növbəsində iqtisadi tədbirlərin həyata keçirilməsi, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, dövlətin idarəetmə orqanlarının maliyyələşdirilməsi üçün büdcə vəsaitləri fondunun yaradılması və istifadəsi ilə əlaqədardır.

Dövlət büdcəsi iş qüvvəsinin təkrar istehsalının elementidir. Ona görə ki, ondan səhiyyə və təhsil sferasının inkişafı və vəziyyəti xeyli dərəcədə asılıdır. Dövlət büdcəsi vəsaitinin yardımı ilə sosial siyasətin daha üstün istiqamətlərinin, o cümlədən əhalinin daha az müdafiə olunan təbəqəsinin, pensiyaçıların, əlillərin, tələblərin, az təminatlı və çox uşaqlı ailələrin müdafiəsi və habelə səhiyyə, təhsil və mədəniyyət idarələrinin fəaliyyətinin maliyyələşdirilməsi həyata keçirilir.

Dövlətin sosial-iqtisadi inkişaf proqramının yerinə yetirilməsində dövlət büdcəsinin rolu böyükdür. Büdcə inkişaf proqramının yerinə yetirilməsinin maliyyə bazası kimi çıxış edir. İqtisadi proseslərin tənzimlənməsində dövlətin rolunun artması təsərrüfatçılığın müasir mərhələsində büdcə vəsaitini iqtisadiyyatın inkişafının strateji istiqamətlərini, zəruri istehsal infrastrukturlarının müəyyən edən layihələrdə cəmlənməsi olduqca əhəmiyyətlidir. Vergi siyasəti və büdcə maliyyələşdirilməsi vasitəsilə təsərrüfatçılığın müxtəlif tərəflərinə təsir etmək mümkün olur ki, bu da istehsal fondlarının surətləndirilmiş bərpasına, elmi-texniki tərəqqinin istehsala daha tez tətbiq edilməsinə kömək etmiş olur.

Dövlət büdcəsi sosial sferanın-maarif, səhiyyə, sosial təminat maliyyələşdirilməsi mexanizmlərinin yaxşılaşdırılması əsasında sosial problemlərin həllində əhəmiyyətli rol oynayır. Dövlət büdcəsi iqtisadiyyatın və sosial sferanın inkişafına təsir edən ən mühüm iqtisadi kateqoriyadır. Dövlət büdcəsi sosial sahələrin – təhsil, səhiyyə, sosial təminatın maliyyələşdirilməsi mexanizminin

yaxşılaşdırılması əsasında sosial problemlərin həllində əhəmiyyətli rol oynayır. Ölkədə bazar münasibətləri inkişaf etdikcə sosial proseslərdə dövlət büdcəsinin rolu durmadan artır. Bu onunla şərtləşir ki, bütövlükdə büdcə vəsaiti büdcədənkənar fondlar ilə birlikdə sosial dəyişikliklərin həyata keçirilməsinin ölkə əhalisinin yeni, daha yüksək sosial xidmət səviyyəsinə keçilməsinin maliyyə bazasıdır. Bundan başqa dövlət büdcəsi əhalinin maddi vəziyyətinə görə təbəqələşməsinin sosial nəticələrinin tarazlaşdırılmasını da təmin edir (4, 48).

Büdcə müxtəlif vergilərin, rüsumların və digər ödənişlərin bir mənbədə toplanması və xərclənməsi barədə ölkənin bir il üçün əsas maliyyə sənədidir.

Büdcə dövlətin iqtisadi inkişaf siyasətinin maliyyə açıqlamasıdır. Qabaqcıl beynəlxalq təcrübədə büdcə tərtib olunarkən 3 əsas prinsip gözlənilməlidir:

1. Ümumi makroiqtisadi sabitliyin qorunması;
2. Xərclərin ayrı-ayrı sahələr, funksiyalar, təşkilatlar, proqramlar, fəaliyyətlər və layihələr üzrə bölgüsünün strateji inkişaf prioritetlərinə və məqsədlərinə uyğun şəkildə aparılması;
3. Ayrılmış xərclərin maksimum qənaətlə və yüksək səmərəliliklə həyata keçirilməsi.

Bu prinsiplərin hər biri ölkənin iqtisadi siyasətinin formalaşmasında mühüm rola malikdir.

Belə ki, xərc və gəlirlərin ümumi daxili məhsulda payının məqbul səviyyədə saxlanılması, qeyri-neft gəlirlərinin payının artırılması, kəsirsiz büdcənin formalaşması və ya kəsir olacaqsa, onun inflyasiya yaratmayan mənbələr hesabına örtülməsi makroiqtisadi sabitlik üçün vacibdir. Digər tərəfdən, xərclərin bölgüsünün inkişaf məqsədləri ilə uzlaşdırılması gələcək iqtisadi siyasətin istiqamətlərini müəyyənləşdirir. Nəhayət, xərclənən hər bir manatının müqabilində qarşıya qoyulan nəticənin əldə olunması, əlavə dəyərin yaradılması, itki və israfçılığın qarşısının alınması, xərclərin qənaət rejimində həyata keçirilməsi büdcənin iqtisadi səmərəliliyini artıran amillərdəndir.

Büdcə həm də dövlətin borclanması barədə məlumatdır. Gəlirlər xərcdən az olduqda kəsir (defisit) yaranır. Bu zaman büdcə xərclərinin sabit ödənilməsi üçün borclanmaya getmək, müvafiq qaydada borc almaq, dövlət əmlakını özəlləşdirməklə əlavə gəlir əldə etmək qaçılmaz olur.

Büdcə iqtisadiyyata təsir aləti olduğu üçün muxtar respublikada da iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilən xərclər və yeni məhsulların istehsalı hesabına əlavə gəlirlərin əldə edilməsinə nail olunmuşdur.

Dövlətin sosial və iqtisadi siyasətinin uğurla həyata keçirilməsi üçün vacib olan infrastrukturların, o cümlədən avtomobil yollarının, körpülərin, yeraltı və yerüstü keçidlərin, metro və dəmiyolu yollarının, tunellərin, su və istilik elektrik stansiyalarının, alternativ enerji qurğularının, sosial infrastrukturlardan olan məktəb, uçaq bağçası, xəstəxana, poliklinika, mədəniyyət müəssisələrinin tikintisi, sahibkarlara güzəştli kreditlərin verilməsi, ipotekaya, lizinqə dəstək verilməsi kimi işlər ərazilərdə yeni-yeni istehsal müəssisələrinin yaradılmasına, yeni iş yerlərinin açılmasına, məhsul istehsalının artımına şərait yaratmışdır ki, bu da iqtisadiyyatın inkişafına təsir etmişdir.

Bununla bərabər iqtisadiyyatda gedən dəyişikliklərdə büdcəyə təsirsiz ötüşməmişdir. Belə ki, iqtisadiyyatda müşahidə olunan artım, müəssisələrin, sahibkarların, son nəticədə əhalinin daha çox gəlir əldə etməsinə şərait yaratmış nəticədə büdcəyə ödənişlərin də həcmi artmışdır.

Büdcə vasitəsilə muxtar respublikada gəlirlərin yenidən bölgüsünün baş verməsi nəticəsində yüksək gəlirləri olan əhali, həmçinin sahibkarlar və kommersiya fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatlardan daxil olan vergilər, rüsumlar hesabına aztəminatlı əhaliyə, o cümlədən pensiyaçılara, müvəqqəti işsiz qalmış insanlara, tələbələrə, fiziki qüsuru və əlilliyi olan vətəndaşlara, məcburi köçkünlərə və gəlirləri aşağı olan digər əhali qruplarına müavinətlər, təqaüdlər və digər sosial yardımlar edilir və sosial ədalətin bərpa edilməsi təmin edilir.

## ƏDƏBİYYAT


1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 2 iyul 2002-ci il Qanunu
2. Azərbaycan Respublikasının Dövlət borcu haqqında Qanunu 2007
3. Bağırov D.A., Həsənli M.X. "Maliyyə" dərs vəsaiti (ikinci buraxılış). Bakı: 2011, 383 səh.

4. Həsənli M.X., Mehdiyeva L.T., Qurbanova T.T. “Maliyyə”. Bakı: 2006
5. Sadıqov M.M., Məmmədov S.M. Maliyyə sistemi. Gəncə: 2010
6. Məmmədov S.M. “Maliyyə”. Bakı: 1997
7. Bədəlov Ş.Ş., B.Məhərrəmov R., Qurbanov F.Ə. “Büdcə sistemi”. Bakı: 2003.
8. N.A.Novruzov, X. Ə.Hüseynov.Maliyyə. Bakı, 2007
9. Azərbaycan Respublikasının 2020-ci dövlət və icmal büdcələri üzrə “Vətəndaşın büdcə bələdçisi” kitabı
10. www.maliyye.gov.az Azərbaycan Respublikası Maliyyə Nazirliyi
11. maliyye.nakhchivan.az Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi

## SUMMARY

**Ramil Huseynov**

## STATE BUDGET AND SOCIO-ECONOMIC DEVELOPMENT

The article shows the essence and main socio-economic directions of the state budget. It was noted that the budget is a centralized, approved monetary fund of the state, its management tool and financial plan. It was noted that the state maintains the administration and the army at the expense of the state budget, implements socio-cultural measures, regulates and develops the economy.

**Key words:** *Budget, state budget, socio-economic development*

## РЕЗЮМЕ

**Рамил Гусейнов**

## ГОСУДАРСТВЕННЫЙ БЮДЖЕТ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

В статье раскрывается сущность государственного бюджета и основные направления его социально-экономического значения. Разъясняется, что бюджет - это централизованный утвержденный денежный фонд государства, его инструмент управления и финансовый план. Отмечено, что государство содержит управленческого аппарата и армию, реализует социально-культурные мероприятия, регулирует и развивает экономику за счет государственного бюджета.

***Ключевые слова:*** *Бюджет, госбюджет, социально-экономическое развитие*

**ZƏHRA İSMAYILOVA**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*ismayilovaz475@gmail.com*

# MALİYYƏ NƏZARƏTİ MALİYYƏ HÜQUQUNUN AYRILMAZ TƏRKİB HİSSƏSİDİR

*Maliyyə nəzarəti təsərrüfat subyektlərinin fəaliyyətində maliyyə və onunla əlaqədar olan məsələlərin işlənməsi, həmçinin onun təşkilinin özünəməxsus metodlarının və formalarının dəyişməsi üzrə əməliyyatların məcmusudur. Maliyyə nəzarəti iqtisadiyyatda milli məhsulun natural və dəyər göstəriciləri tarazlığındakı pozuntuları, makro və mikro iqtisadi tənzimləmə prosesində bu və ya digər uyğunsuzluqları aşkara çıxarmaq üçün alət kimi istifadə olunur. Maliyyə nəzarəti sferasına pulun istifadə olunması ilə həyata keçirilən bütün əməliyyatlar daxildir. Bu zaman ilk növbədə maliyyə ehtiyyatlarının formalaşdırılması, həmçinin fəaliyyətin bütün növləri üzrə pul vəsaitləri fondlarının qarşılıqlı əlaqələri qeyd edilməlidir.*

***Açar sözlər:*** *maliyyə nəzarəti, maliyyə hüququ, maliyyə sistemi, maliyyə münasibətləri, daxili nəzarət*

Maliyyə nəzarəti dedikdə ölkənin sosial-iqtisadi inkişafı məqsədilə istər müəssisələrin, istərsə də dövlətin və bələdiyyələrin pul fondlarının təşkili, bölüşdürülməsi və məqsədyönlü istifadə edilməsi üzərində nəzarət başa düşülür. Başqa sözlə ifadə etsək, maliyyə nəzarəti – bütün iqtisadi subyektlər: dövlət, müəssisə və təşkilatların maliyyə fəaliyyəti üzərində qanunverici və icraedici hakimiyyət orqanlarının nəzarətidir.

Maliyyə nəzarəti bir tərəfdən maliyyə idarə edilməsinin həlledici hissəsi, digər tərəfdən maliyyə sisteminin idarə olunmasının effektliliyinin vacib şərti kimi çıxış edir. Maliyyə nəzarətinə iki nöqteyi-nəzərdən yanaşmaq doğru olar:

1. Xüsusi nəzarət orqanlarının bütün iqtisadi subyektlərdə maliyyə qanunvericiliyi və maliyyə intizamına riayət olunması üzrə reqlamentləşdirilmiş fəaliyyəti kimi;
2. Maliyyə əməliyyatlarının effektivliyinin təmin edilməsi üçün maliyyə və pul axınlarının idarə edilməsinin vacib elementi kimi.

Qeyd etdiyim aspektlər bir-biri ilə sıx bağlıdır, ancaq nəzarətin məqsədləri, metodları və subyektlərinə görə fərqlənirlər. Maliyyə nəzarəti maliyyənin nəzarətedici funksiyasının təzahürü, yaxud gerçəkləşdirilməsi kimi çıxış edir və burada həmin nəzarətin məqsədləri, mahiyyəti müəyyənləşir. Onu da qeyd edək ki, cəmiyyətin məhsuldar qüvvələrinin və ictimai münasibətlərin inkişaf səviyyəsindən asılı olaraq maliyyə nəzarətinin məqsəd və istiqamətləri dəyişə bilər.

İ.A. Belobjetskinin fikrincə: "Maliyyə nəzarəti nəzarət funksiyaları verilmiş dövlət orqanlarının və ictimai orqanların müəssisə, birlik, idarə, təşkilat, maddi istehsal və qeyri-istehsal sahələri bölmələrinin maliyyə-təsərrüfat fəaliyyətinə, həmin fəaliyyətin iqtisadi səmərəliliyinin obyektiv qiymətləndirilməsi, təsərrüfat və maliyyə əməliyyatlarının qanuniliyinin, mötəbərliliyinin və məqsədəmüvafiqliyinin, mülkiyyətin qorunub saxlanılmasının təyin edilməsi, istehsalın səmərəliliyini yüksəltməyin və dövlət büdcəsi gəlirlərinin artırılmasının təsərrüfatdaxili ehtiyatlarını aşkara çıxarmaq məqsədilə həyata keçirilən nəzarət kimi başa düşülməlidir".

V.T. Batıçko "Maliyyə hüququ" kitabında maliyyə nəzarətini belə xarakterizə edir (7; 54):

"Maliyyə nəzarəti hüquqi normalarla tənzimlənən dövlət, bələdiyyə, ictimai və digər təsərrüfat subyektlərinin maliyyə planlaşdırılması fəaliyyətlərinin, gəlirlərin əsaslanmış və dolğun formada pul fondlarına daxil olması və onların istifadəsinin effektivliyinin yoxlanılması üzrə fəaliyyətlərin məcmusudur".

U.Y.Danilevski isə maliyyə nəzarətinin tərifini belə ifadə edir: "İqtisadiyyatın, istehsalın idarə olunmasının ümumi mexanizminin mühüm funksiyalarından biri və ayrılmaz tərkib hissəsi olmaq etibarilə maliyyə nəzarəti maliyyə, kredit və istehsal göstəricilərini əhatə edir. Nəzarət sferasına istehsal, bölgü, pul, mal-material dəyərlilərinin pul ifadəsində dövriyyəsi və istehlakı daxil edilir".

Rus alimi E.Y.Qraçeva isə maliyyə nəzarətini maliyyə sisteminin bütün həlqələrində maliyyə

resurslarının yaradılması, bölüşdürülməsi və istifadəsi üzərində dövlət nəzarətinin bir növü kimi ifadə edir (4; 85). Maliyyə nəzarətinin məzmununa eyni yanaşmanı digər bir iqtisadçı A.L.Apel "Maliyyə hüququnun əsasları" əsərində bölüşür (5; 75). Onun fikrincə maliyyə nəzarəti "Ölkənin effektiv sosial-iqtisadi inkişafı məqsədilə dövlətin pul fondlarının formalaşdırılması, bölüşdürülməsi və istifadəsinin qanuniliyi və məqsədəuyğunluğu üzərində nəzarətdir". Maliyyə nəzarəti sferasına pulun istifadə olunması ilə həyata keçirilən bütün əməliyyatlar daxildir. Bu zaman ilk növbədə maliyyə ehtiyatlarının formalaşdırılması və istifadəsi ilə bağlı olan birbaşa və bilavasitə qarşılıqlı əlaqələr və fəaliyyətin bütün sahələrində pul vəsaitləri fondları üzrə əlaqələr qeyd olunmalıdır. Konkret olaraq maliyyə nəzarəti sferasına aşağıdakı istiqamətlər daxil oluna bilər:

- Müxtəlif səviyyəli büdcələrin tərtibi və icra olunmasına nəzarət olunması;
- Büdcə və büdcədənkənar fondların vəsaitlərinin səmərəli və məqsədyönlü istifadəsi, banklarda və digər kredit təşkilatlarında büdcə vəsaitləri ilə əməliyyatların düzgünlüyünə nəzarət olunması;
- Mövcud büdcə və vergi qanunvericiliyinə riayət olunmasına nəzarət olunması;
- Məcmu ictimai məhsulun dəyərinin və Milli gəlirin bölgüsü və yenidən bölgüsünə nəzarət olunması və sair.

Maliyyə nəzarətinin məqsədi maliyyə resurslarının iqtisadiyyatın bütün sahələri və həlqələrində effektiv və məqsədyönlü istifadəsini təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün maliyyə nəzarətinin aşağıdakı vəzifələri müəyyən olunur:

- Maliyyə münasibətlərinin bütün subyektlərinin dövlət büdcəsi və büdcədənkənar fondlar qarşısında maliyyə öhdəliklərinin bütövlükdə və vaxtında təmin ediməsi;
- Mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul fondlarının vəsaitlərinin effektiv və məqsədyönlü istifadəsinə, eləcə də müəssisə, idarə və təşkilatlarda material dəyərlilərinin səmərəli istifadəsinə kömək etmək;
- Mühasibat uçotu və hesabatların düzgün aparılmasının təmin edilməsi;
- Müəssisələrdə istehsaldaxili maliyyə resurslarını üzə çıxarmaq, xərclərin azaldılması, mənfəət və rentabelliyin artırılması imkanlarını müəyyən etmək;
- Maliyyə intizamının pozulması hallarının aradan qaldırılması, maliyyə intizamının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi və s.

Qeyd olunan vəzifələrin həyata keçirilməsi maliyyə və təsərrüfat fəaliyyətində qanunçuluğun təmin olunmasının, büdcə, şəxsi və cəlb olunmuş vəsaitlərdən səmərəli və qənaətlə istifadə olunmasının əsas şərti olub maliyyə intizamının möhkəmləndirilməsinə də şərait yaradır.

Maliyyə intizamına əməl edilməsinə aid məsələlərdə maliyyə nəzarəti müəssisələrin, təşkilatların, dövlət, maliyyə və bank strukturlarının məsuliyyəti ilə sıx bağlıdır. Bu məsuliyyət maliyyə intizamını pozanlara qarşı inzibati və iqtisadi tədbirlərdə özünü göstərir. İqtisadi təsir tədbirləri maliyyə sanksiyaları və yasaqları yolu ilə reallaşdırılır. Bazar iqtisadiyyatı şəraitində maliyyə intizamı tez-tez pozulsa da, maliyyə yasaqlarına tez-tez ehtiyac duyulsa da, maliyyə nəzarəti belə halların tezliklə aradan qaldırılmasına, istehsalın səmərəsini azaldan yasaqların mümkün qədər az olmasına yönəldilməlidir.

Maliyyə nəzarətinin obyekti xalq təsərrüfatının bütün sahələri və həlqələrində maliyyə resurslarının formalaşdırılması və istifadəsində mübahisəli məsələlərdən yaranan pul-bölgü prosesidir. Maliyyə nəzarətinin obyektinin müəyyən edilməsi biridir. İstər hüquq, istərsə də iqtisadi-elmi ədəbiyyatlarda müxtəlif müəlliflər maliyyə nəzarətinin obyektini fərqli şəkildə müəyyən edirlər. Məsələn, S.P.Opyonişev və V.A.Jukov qeyd edirlər ki, maliyyə nəzarətinin mahiyəti və yeri haqqında danışarkən onun həyata keçirilməsində müəssisə, təşkilat, bank, səhmdar cəmiyyətləri və s., yəni sahibkarlıq edən subyektlərin rolunun araşdırılmasına ehtiyac duyulur və bu səviyyədə maliyyə nəzarəti maliyyə-təsərrüfat nəzarətini də həyata keçirir, yəni o, təkcə sırf maliyyə deyil, hətta bəzi hallarda vergi hesablanmasının düzgünlüyünü, istehsalatın səmərəliliyini və büdcə vəsaitlərinin istifadə səmərəliliyini müəyyən etmək üçün təsərrüfat fəaliyyətini də əhatə edir (2; 45). Bununla bağlı maliyyə nəzarətinin obyekti təsərrüfat prosesləri kompleksi, maddi istehsal və qeyri-istehsal sahələrinin pul münasibətləri olur.

Maliyyə nəzarətinin qeyd olunan anlamda həyata keçirilməsinin iki aspekti ön plana çəkilir: birincisi, pul vəsaitlərinin və maddi dəyərlilərin qorunmasının, qeydiyyat və hesabat məlumatlarının etibarlılığının təmin olunması, dövlət maliyyə qanunvericiliyinə riayət edilməsi, ikincisi, müəssisələrin fəaliyyətinin düzgün qiymətləndirilməsi, istehsalın fasiləsizliyinin və təsərrüfatçılığın səmərəliliyinin yüksəldilməsi imkanlarının aşkar edilməsi.

Başqa sözlə desək, maliyyə nəzarətinin obyekti büdcə vəsaitlərinin tam səfərbər edilməsi ilə əlaqədar ərazi, sosial və sahə baxımından, milli gəlirin bir hissəsinin yenidən bölüşdürülməsi və dövlətin öz funksiyasını yerinə yetirməsi məqsədi ilə onun səmərəli istifadə olunması üçün hüquqi və fiziki şəxslər arasında yaranan pul münasibətləridir. S.V.Stepaşin “Dövlət maliyyə nəzarəti” əsərində maliyyə nəzarətinin obyekti kimi milli gəlirin istehsalı, bölüşdürülməsi və onun səmərəli istifadəsinə dair bir tərəfdən dövlət, digər tərəfdən hüquqi və fiziki şəxslər arasında yaranan münasibətləri müəyyən edir (3; 76). Deməli, maliyyə nəzarətinin obyekti həyata keçirilməsi pulla qiymətləndirilən, nəzarət altında olan subyektiv fəaliyyətdir. Nəticə etibarilə pulla dəyərləndirilməsi mümkün olmayan fəaliyyət maliyyə nəzarəti obyekti ola bilməz.

Maliyyə nəzarətinin predmeti də həm hüquqşünaslar, həm də iqtisadçılar arasında müzakirə obyektidir. Belə ki, Y.A.Danilevski və T.M.Mezenseva maliyyə nəzarətinin predmetini nəzarət olunan obyektlərin iqtisadi münasibətləri kimi müəyyən edirlər. R.Q.Somoyev “Maliyyə, pul tədavülü və kredit” kitabında maliyyə nəzarətinin bilavasitə predmetinə büdcə prosesinin bütün mərhələlərindəki büdcə göstəricilərini, təsərrüfat subyektlərinin fəaliyyətlərinin maliyyə göstəricilərini (mənfəət, gəlirlər, maya dəyəri, rentabellik, əsas və dövriyyə fondları və s.), büdcə və büdcədənkənar fondlara vergi ödənişlərini, pul-kredit münasibətlərini xarakterizə edən göstəriciləri, eləcə də dəyər formasındakı bütün göstəriciləri aid edir.

Fikrimizcə, maliyyə nəzarətinin predmetinin müəyyən edilməsinə müxtəlif yanaşmalar içərisində V.M. Rodionovanın və V.İ.Şleynikovanın yanaşması daha doğrudur. Onlara görə maliyyə nəzarətinin predmetinə ayrı-ayrı təsərrüfat subyektləri, eləcə də sahələr, ərazi vahidləri, regionlar və bütövlükdə ölkə səviyyəsində maliyyə resurslarının formalaşdırılması və istifadəsindəki pul-bölgü prosesi aid edilə bilər.

Beləliklə, maliyyə nəzarətinin predmetinə maliyyə göstəriciləri, mənfəət, əlavə dəyər vergisi, bütün növ gəlirlər, maya dəyəri, rentabellik, fondlar və sairə aiddir. Bütün bu göstəricilər sintetik xarakterə malik olduğundan müəssisə və təşkilatların təsərrüfat fəaliyyətinin bütün istehsal sahələrinə hərtərəfli nəzarət etməyə və eyni zamanda maliyyə-kredit mexanizmi ilə qarşılıqlı əlaqəsinə nəzarətin həyata keçirilməsinə şərait yaradır.

Maliyyə nəzarətinin subyektləri isə maliyyə nəzarətini həyata keçirən hüquqi və fiziki şəxslərdir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə maliyyə nəzarəti sistemi eyni tipli olub, aşağıdakı elementləri özündə birləşdirir:

- ✓ İcra hakimiyyəti orqanlarından asılı olmayan, qanunverici orqana tabe olan Hesablama Palatası;
- ✓ Büdcəyə vergi daxilomalarına nəzarət edən vergi qurumları;
- ✓ Qeyri-dövlət nəzarət xidmətləri;
- ✓ Daxili nəzarət xidmətləri və sair.

Totalitar tipli dövlətlərdə maliyyə nəzarəti qlobal və müntəzəm xarakter daşımaqla fiskal məqsədlərə xidmət edir. Keçid iqtisadiyyatlı ölkələrdə (məsələn postsosialist, postsovet respublikalarında) isə maliyyə nəzarəti sistemi spesifik xüsusiyyətlərə malik olur və daim təkmilləşdirilir. Beynəlxalq səviyyədə çoxillik təcrübələr əsasında maliyyə nəzarətinin təşkilinin əsas prinsipləri müəyyən olunmuşdur ki, hər bir dövlət praktikada onların reallaşmasına çalışmalıdır. Bu prinsiplər İNTOSAİ-nin (Ali nəzarət orqanlarının beynəlxalq təşkilatı) Lima deklarasiyasında öz əksini tapmışdır. Göstərilən deklarasiyada maliyyə nəzarətinin aparılması zamanı aşağıdakı prinsiplərin nəzərə alınması vacib hesab olunur:

- Müstəqillik və obyektivlik;
- Səriştəlilik və aşkarlıq.

Qeyd etdiyimiz baza prinsiplərindən bir sıra törəmə prinsiplər də yaranır ki, bu prinsiplərə də aşağıdakılar aid edilə bilər:

- ✓ nəticəlilik;
- ✓ dəqiqlik;
- ✓ professional davranış;
- ✓ effektivlik;
- ✓ müxtəlif nəzarət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsi.

## ƏDƏBİYYAT

1. Openişev P. Maliyyə nəzarətinin anlayışı. Moskva: 1991, 110 s.
2. Jukov V.A. Maliyyə nəzarətinin mahiyyəti. Moskva: 1973, 200 s.
3. Stepaşin S.V. Dövlət maliyyə nəzarəti. Moskva, 2004, 150 s.
4. Qraçeva E.Y. Maliyyə nəzarətini maliyyə sisteminin bütün həlqələrində maliyyə resurslarının yaradılması, bölüşdürülməsi və istifadəsi üzərində dövlət nəzarətinin bir növü
5. Apel A.L. Maliyyə hüququnun əsaslar. Moskva: 2005, 155 s.
6. Belobjetski İ.A. Maliyyə nəzarəti. Moskva: 2016, 200 s.
7. Batıçko V.T. Maliyyə hüququ. Moskva: 2003, 280

## SUMMARY

**Z.İsmayılova**

## FİNANCİAL CONTROL İS AN İNTEQRAL PART OF FİNANCİAL LAW

Financial control is a set of operations for the development of financial and related issues in the activities of economic entities, as well as changes in specific methods and forms of its organization. Financial control is used in the economy as a tool to detect imbalances in the balance of natural and value indicators of the national product, one or another inconsistency in the process of macro and micro economic regulation. The scope of financial control includes all transactions involving the use of money. In this case, the formation of financial resources in the first place, as well. the interrelationships of cash funds for all types of activities should be noted.

***Key words***: *financial control, financial law, financial system, financial relations, internal control*

## РЕЗЮМЕ

**З. Исмайлова**

## ФИНАНСОВЫЙ КОНТРОЛЬ НЕОТЪЕМЛЕМАЯ ЧАСТЬ ФИНАНСОВОГО ПРАВА

Финансовый контроль - это совокупность операций по развитию финансовых и связанных с ними вопросов в деятельности хозяйствующих субъектов, а также изменения конкретных методов и форм ее организации. Финансовый контроль используется в экономике как инструмент выявления дисбалансов в соотношении натуральных и стоимостных показателей национального продукта, той или иной несоответствия в процессе макро- и микроэкономического регулирования. В сферу финансового контроля входят все операции с использованием денег. В этом случае формирование финансовых ресурсов, в первую очередь, тоже. Следует отметить взаимосвязь денежных средств по всем видам деятельности.

***Ключевые слова:*** *финансовый контроль, финансовое право, финансовая система, финансовые отношения, внутренний контроль*

**ANAR HƏSƏNOV**
*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi*
*anar_hesenov@maliyyenmr.az*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN SOSİAL-İQTİSADİ SİYASƏTİN MALİYYƏ TƏMİNATI

*Məqalədə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı istiqamətində əldə edilmiş nailiyyətlər araşdırılmış, dayanıqlı inkişafı təmin etmək üçün həyata keçirilən uğurlu dövlət siyasəti şərh edilmişdir. Eyni zamanda bu inkişafa təsir edən amillər müəyyən edilmiş, qəbul edilmiş dövlət proqramlarının həyata keçirilməsinin nəticələri araşdırılmış, sosial-iqtisadi inkşafın əldə olunmasının maliyyə təminatı təhlil edilmişdir.*

***Açar sözlər:*** *Sosial-iqtisadi inkişaf, sənayenin inkişafı, kredit qoyuluşu, nağdsız hesablaşmalar, elektron ödənişlər*

Dövlət müstəqilliyinin bərpa edildiyi vaxtdan keçən dövr ərzində Azərbaycan Respublikasının iqtisadi-siyasi və sosial həyatında mühüm dəyişikliklər baş vermişdir. Sovet İttifaqının iqtisadi-siyasi sisteminin tənəzzül etməsilə yaranmış xaotik vəziyyət artıq geridə qalmış, ölkədə sosial-siyasi sabitlik bərqərar olunmuş, iqtisadi inkişaf dövrü başlanmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının ölkə prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi nəticəsində qazanılmış uğurların miqyası və əhatə dairəsi xeyli genişlənmişdir. Ölkə prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixdə imzaladığı Fərmanla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər bu sahədə əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmişdir. Digər tərəfdən iqtisadiyyatın bütün sahələrində inkişafa istiqamətlənmiş tədbirlərin ayrı-ayrı dövlət proqramları çərçivəsində həyata keçirilməsi ümumi nəticədə səmərəliliyi xeyli artırmışdır. Belə proqramlardan 2004-2008-ci illəri əhatə edən 11 fevral 2004-cü il tarixli "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ümumiqtisadi inkişafın mərkəzlə yanaşı, regionlara doğru istiqamətlənməsində müstəsna əhəmiyyət kəsb etmişdir. Regionların investisiya potensialından tam və kompleks şəkildə istifadə olunması, yeni sənaye, kənd təsərrüfatı, xidmət müəssisələrinin yaradılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, əhalinin təhsil, səhiyyə və digər sosial təminatlarının daha da yaxşılaşdırılması tədbirləri ölkənin iqtisadi və ərzaq təhlükəsizliyinin təmin olunması, daxili bazarın qorunması, onun idxaldan asılılığının minimuma endirilməsi və bir sıra bu kimi strateji dövlət maraqlarına xidmət edir. Ötən dövr ərzində ölkə iqtisadiyyatının inkişafının müxtəlif istiqamətlərinin vahid dövlət proqramları çərçivəsində tənzimlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi, sosial-iqtisadi inkişafda regionların rolunun yüksəldilməsi, iqtisadiyyatın sahələrinin və regionların kompleks inkişafının təmin edilməsi nəticəsində əhalinin rifah halının və həyat standartlarının təkmilləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. Ölkənin əsas hissəsindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşamağa məhkum olunmuş muxtar respublika həmin çətinliklərə baxmayaraq Azərbaycanda həyata keçirilən genişmiqyaslı quruculuq prosesində fəal iştirak edir. Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasında Naxçıvan Muxtar Respublikasının ərazisi bütövlükdə ölkədaxili iqtisadi rayonlardan biri kimi qeyd olunmuşdur. Lakin o, özünün çoxsahəli strukturu ilə fərqlənir. Bu, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşməsi və bununla əlaqədar burada yerli tələbatı müvafiq istehsal sahələri yaratmaq hesabına təmin etmək zərurəti ilə izah olunur (3).

Naxçıvan Muxtar Respublikası inkişafda olan çoxsahəli sənaye və aqrar-sənaye respublikasıdır. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı xüsusi yer tutur.

Elektronika, metal emalı, tikinti materialları və yüngül sənayesi var. Kənd təsərrüfatı, əsasən, taxılçılıq, heyvandarlıq, tərəvəzçilik və bağçılıq sahəsində ixtisaslaşmışdır. Muxtar respublikada iqtisadi islahatlar ardıcıl həyata keçirilmiş, torpaq islahatı başa çatdırılmış, azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün geniş imkanlar yaradılmışdır. Eyni zamanda davamlı inkişafın təmin edilməsi, sahibkarlıq fəaliyyətinə meylin stimullaşdırılması və bu istiqamətdə bütün cəhdlərin hərtərəfli dəstəklənməsi sahəsində mühüm tədbirlər həyata keçirilmiş, bu sahədə məqsədli proqramlar hazırlanmışdır. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanının icrasını təmin etmək, Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən və yerli şəraitdən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq, emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədilə 09 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" təsdiq olunmuş və icrası uğurla reallaşdırılmışdır. Muxtar respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsalyönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın, əsasən, yerli istehsal məhsulları hesabına təmin edilməsinə, yerli xammal və materiallardan istifadə əsasında istehsal potansialının gücləndirilməsinə iqtisadi stimul yaradılmışdır. Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma, elmi nəzəriyyəyə və təcrübəyə söykənən konsepsiya əsasında həyata keçirilən köklü islahatlar və irimiqyaslı quruculuq proseslərinin nəticələri muxtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş yüksək inkişaf templərinin qorunub saxlanılmasına və daha da yüksəldilməsinə təminat verir (1).

Azərbaycan Respublikasının Prezidenti əldə olunmuş iqtisadi tərəqqinin davamlılığını təmin etmək, mövcud təbii ehtiyatlardan və əmək potensialından səmərəli istifadənin təşkilini həyata keçirmək məqsədilə 2014-cü il fevralın 27-də "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı təsdiq etmişdir. Üçüncü Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının da inkişafı ilə bağlı mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuş, görülən tədbirlər nəticəsində 2015-ci ildə sosial-iqtisadi inkişafı xarakterizə edən ümumi daxili məhsul istehsalının həcmi bir il öncəyə nisbətdə 1,7 faiz artaraq 2 milyard 467 milyon 422 min 400 manat təşkil etmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalının həcmi 2,1 faiz artaraq 5581,1 manat olmuşdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 28,7 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 61,8 faiz təşkil etmişdir. 2014-cü ilə nisbətən 2015-ci ildə sənaye məhsulunun həcmi 2 faiz, əsas kapitala yönəldilən investisiyalar 2,9 faiz, kənd təsərrüfatının ümumi məhsulu 12,2 faiz, nəqliyyat sektorunda yük daşınması 2,1 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 1,8 faiz, pərakəndə əmtəə dövriyyəsi 5,9 faiz, əhaliyə göstərilən pullu xidmətlər 3,4 faiz, ixracın həcmi 1,4 faiz, əhalinin gəlirləri 1,6 faiz artmışdır. Naxçıvan Muxtar Respublikasında abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 dekabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 7 milyon manat vəsait ayrılmışdır. İcrası uğurla başa çatdırılan dövlət proqramının və həyata keçirilən digər mühüm tədbirlərin nəticəsidir ki, muxtar respublikada bütün makroiqtisadi göstəricilərin artımı təmin edilmiş, dinamik inkişaf qorunub saxlanmışdır. Dövlət proqramına uyğun olaraq Naxçıvanda müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, 2014-2018-ci illərdə muxtar respublikada sahibkarlara 113 milyon 762 min 900 manat kredit verilmişdir. Bu kreditlərdən 40 milyon 164 min 600 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 73 milyon 598 min 300 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Bütün bunlar səmərəli məşğulluğun təmin edilməsinə öz töhfəsini vermiş, 15 minə yaxın yeni iş yeri açılmışdır. 2014-2018-ci illərdə özəl sektorun prioritet sahələrindən olan kənd təsərrüfatı

məhsullarının istehsalı və emalı sektorunun inkişafı istiqamətində məqsədyönlü tədbirlər davam etdirilmişdir. İstehsal olunan məhsulların satışı zamanı mövsümi problemlərin həlli və əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatı məqsədilə ümumi tutumu 2330 ton olan 9 müxtəlif tutumlu soyuducu anbar, 14 istixana, 43 heyvandarlıq təsərrüfatı yaradılmış, 10 heyvandarlıq təsərrüfatı isə genişləndirilmişdir. Bundan əlavə, əhalinin mövsümi tərəvəz məhsulları ilə təminatının yaxşılaşdırılması üçün istixana komplekslərinin yaradılması və genişləndirilməsi məqsədilə 1 milyon 110 min 800 manat, heyvandarlıq təsərrüfatlarının yaradılması üçün 45 milyon 104 min 200 manat həcmində kreditlər verilmişdir. 2019-cu ildə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 143 milyon 185 min 300 manat kredit verilmişdir ki, bu da 2010-cu ildəki göstəricidən 4 dəfə çoxdur.

**İqtisadiyyata kredit qoyuluşu, min manat**




***Mənbə:** Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi*

2019-cu ildə verilmiş kreditlərin 14 milyon 767 min 900 manatı və yaxud 10,3 faizi qısamüddətli, 128 milyon 417 min 400 manatı və yaxud 89,7 faizi uzunmüddətli kreditlər olmuşdur. 2019-cu ildə ümumi kreditlərin 29 milyon 16 min 300 manatı sahibkarlıq subyektlərinə verilmişdir ki, bunun da 12 milyon 131 min 600 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 16 milyon 884 min 700 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Naxçıvan Muxtar Respublikasında ölkənin digər iqtisadi rayonları ilə müqayisədə bank sektoru üzrə verilən kreditlərin ən aşağı orta faiz dərəcəsi tətbiq edilir ki, bu da özəl sektorun inkişafında ciddi amillərdən biridir. 1 yanvar 2020-ci il tarixdə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 84936-ya çatmışdır ki, bunun da 74781-i və ya 88 faizi aktiv hesablardır. 1 yanvar 2011-ci il tarixdə isə bu göstəricilər müvafiq olaraq 8087 və 6218 vahid olmuşdur. 2019-cu ilin sonuna muxtar respublikada quraşdırılmış POS-terminallarının sayı 1278-ə çatdırılmışdır ki, bu da 1 yanvar 2011-ci il tarixə olan göstəricidən 1231 vahid çoxdur (4).

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən təsdiq edilmiş 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması" üzrə Tədbirlər Planının, "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın uğurlu icrası, "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrası məqsədilə həyata keçirilən mühüm tədbirlər maliyyə sabitliyinin və ümumi inkişafın təminatında mühüm rol oynamışdır. Muxtar respublikada pozitiv meyillərlə səciyyələnən bu sosial-iqtisadi fəallığın təməlində iqtisadi inkişafın sosialyönümlü olması, hər bir vətəndaşın iqtisadi və sosial inkişafda iştirakından asılı olaraq maddi rifahının artırılması,

iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, əsassız məhdudiyyətlərin aradan götürülməsi, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır. Hal-hazırda da Naxçıvan Muxtar Respublikası rəhbərliyinin sərəncam və tapşırıqları əsasında muxtar respublikanın sosial-iqtisadi inkişafı sürətlə davam etdirilir. Şübhəsiz ki, qazanılan uğurların əsasında dayanan faktorlardan biri də qəbul olunan dövlət proqramlarının uğurla icra edilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2019-cu il tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da iqtisadiyyatın bir çox sahələrini əhatə etməklə muxtar respublikanın hərtərəfli inkişafına geniş zəmin yaratmışdır (2).

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"
2. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı, 29 mart 2019-cu il
3. Prezident kitabxanası, E-Layihələr. Naxçıvan Muxtar Respublikası
4. http://www.statistika.nmr.az Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi


## SUMMARY

**A.Hasanov**

### FINANCIAL SECURITY OF THE SOCIO-ECONOMIC POLICY IMPLEMENTED IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article examines the achievements in the field of socio-economic development of the Nakhchivan Autonomous Republic, sets out the successful state policy implemented to ensure sustainable development. At the same time, the factors influencing this development were identified, the results of the implementation of the adopted State Programs were investigated, and the financial security for achieving socio-economic development was analyzed.

***Key words**: Socio-economic development, industrial development, credit investment, cashless settlements, electronic payments*

## РЕЗЮМЕ

**А. Гасанов**

### ФИНАНСОВАЯ ПОДДЕРЖКА СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ, ПРОВОДИМОЙ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье рассматриваются достижения в области социально-экономического развития Нахчыванской Автономной Республики, комментируется успешная государственная политика, реализуемая для обеспечения устойчивого развития. При этом были выявлены факторы, влияющие на это развитие, изучены результаты реализации принятых Государственных программ, проанализировано финансовое обеспечение достижения социально-экономического развития.

***Ключевые слова**: социально-экономическое развитие, промышленное развитие, кредит, безналичные расчеты, электронные платежи*

**TƏHMİNƏ NAĞIYEVA**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*tehmine@maliyye. nmr*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA QİYMƏTLİ METALLARLA BAĞLI ƏMƏLİYYATLARIN APARILMASINA NƏZARƏT

*Məqalədə qiymətli metallar qrupuna aid edilən metallar siyahısı və Naxçıvan Muxtar Respublikasında həmin metallarla əməliyyatlar aparılmasına nəzarət tədbirlərinin hər biri haqqında ətraflı məlumat verilmiş, müasir dövrdə bu qrup metallar, xüsusilə qızıl hasilatı ilə bağlı görülən işlər və eyni zamanda tərkibində qiymətli metallar olan zərgərlik və digər məişət məmulatlarının respublika ərazisinə idxalı prosesi, bu zaman alınan dövlət vergiləri və rüsumları qeyd edilmiş və vurğulanmışdır ki, Naxçıvan Muxtar Respublikasında əyar nəzarəti Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi tərəfindən həyata keçirilir. İstehsalçılar və sahibkarlıq fəaliyyəti subyektləri tərəfindən təqdim olunmuş məmulatların əyarının müəyyən edilməsi və damğalanması prosesi və bu zaman tutulan dövlət rüsumu, qiymətli metallarla bağlı əməliyyatlar aparılması zamanı qanunvericiliyin tələblərinin pozulmasına görə müəyyən edilmiş inzibati tənbeh tədbirləri qeyd edilmişdir.*

***Açar sözlər:*** *qızıl, qiymətli metal, əyar, zərgərlik, damğa, rüsum*

İstənilən şəkildə, vəziyyətdə, o cümlədən külçə və affinaj olunmuş, habelə xammalda, digər məişət məmulatlarında, sikkələrdə, qırıntılarda, istehsal və məişət tullantılarında olan qızıl, gümüş, platin və platin qrupu (palladium, iridium, osmium, rutenium) metallardan ibarət qiymətli metallar qrupunun siyahısı 10 iyun 2005-ci il tarixli "Qiymətli Metallar və Qiymətli Daşlar" haqqında Arəbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir ki, bu metallardan zərgərlik və sənaye istehsalında istifadə edilir. Qiymətli metallarla əməliyyatlar aparılması hallarına dövriyyəsi, istənilən şəkildə hasilatı, istehsalı, sonrakı işlənməsi, yenidən işlənməsi və istifadəsi zamanı fiziki vəziyyətinin və tərkibinin dəyişdirilməsi, bir yerdən başqa yerə aparılması, saxlanc yerlərinə, fondlara və ehtiyatda saxlanma yerlərinə daşınması, sərgilərdə nümayiş etdirilməsi və qorunması, ekspertizası, kommersiya məqsədləri üçün respublika ərazisinə gətirilməsi və çıxarılması, məhsulların sertifikatlaşdırılması aid edilir (7).

Bildiyimiz kimi muxtar respublika ərazisində ilk geoloji tədqiqatlar və mineral sərvətlərin öyrənilməsi 18-ci əsrin ikinci yarısından başlamışdır. Ərazinin müntəzəm öyrənilməsi Naxçıvan Muxar Respublikası yarandıqdan sonrakı dövrə aiddir. Son illər muxtar respublika ərazisində dağ-mədən sənayesinin inkişaf etdirilməsi məqsədi ilə filiz yataqlarında tədqiqat işləri aparılır. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli Sərəncamına əsasən ölkədə qiymətli metal filizi yataqlarının istismarı məqsədi ilə yaradılmış dövlətə məxsus "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən 2017-ci ildən etibarən muxtar respublika ərazisində əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiq və kəşfiyyatı həyata keçirilməyə başlanılmışdır. Daha əvvəl qazıntı aparılmamış, istismar işləri görülməmiş Ordubad rayonunun Ortakənd, Başkənd ərazilərində, Culfa rayonunun Göydağ, Əlincə massivlərində yerli dövlət qurumları və özəl sektorlarla əməkdaşlıq edərək İtalyanın "Geostudi Astier srl" geofizika şirkətinin texniki dəstəyi ilə yerüstü elektrik və maqnit kəşfiyyat işləri aparılmasına başlanılmış və görülən işlər müsbət nəticə vermişdir. 2018-ci ildən başlayaraq istismar öncəsi 10 min metrədək buruq-qazma işlərinin aparılmasına start verilmişdir. 2018-2019-cu illərdə Ortakənd-Xanağa sahəsində ümumilikdə bir milyon kvadratmetr sahədə 6 min metrə yaxın geoloji-kəşfiyyat işləri həyata keçirmişdir.

2019-cu ildən etibarən Böyük Britaniyanın "Anglo Asian Mining" şirkəti muxtar respublikada Ordubadın mineral potensialını nəzərə alaraq geoloji-kəşfiyyat işlərinə başlamışdır ki, geoloji kəşfiyyat və texnoloji hesabatların əldə olunması, həmçinin gələcək istehsal potensiallarının qiymətləndirilməsi məqsədi ilə digər məşhur metalların axtarışına yönələn geoloji səhra işləri və digər tədqiqatlardan ibarət proqramın reallaşdırılması 1,84 milyon dollar dəyərində idi.

1952-ci ildə istismara verilmiş zəngin ehtiyatlara malik yataqladan biri olan Ağdərə yatağında

da qiymətli metallar sırasına daxil olan qızıl və gümüş tərkibli elementlər mövcuddur ki, hal-hazırda bu yatağın istismarı dayandırılmışdır.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən aksizli mallar sırasına daxil edilmiş, idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının idxalı zamanı tətbiq edilən bütün qaydalar Naxçıvan Muxtar Respublikası ərazisindədə eyni hüquqi qüvvəyə malikdir. İdxal olunan platinə görə vergi tutulan əməliyyat platinin hər qramı, qızıla, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə isə qızılın min çəki vahidindəki miqdarı, yəni əyarıdır (2). Qızıl və ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının satışını həyata keçirən şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur.

Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının valyuta sərvətlərinin, xaricdə istehsal edilmiş Azərbaycan Respublikası pul nişanlarının, yubiley sikkələrinin və digər bu qəbildən olan qiymətlilərin və eyni zamanda fiziki şəxsin fərdi istehlakı üçün 20 qram qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının idxalı vergi ödəməkdən azaddır. Azərbaycan Respublikasının Mərkəzi Bankına qızıl və digər qiymətlilərin göndərilməsindən vergi sıfır (0) dərəcə ilə tutulur. İdxal olunan platinin hər qramına görə 4,0 manat məbləğində aksiz vergisi tutulur.

***Cədvəl 1.*** *İdxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının əyarına görə aksiz vergisinin miqdarı:*

| İdxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının əyarı | Aksiz vergisinin məbləği (hər qramına görə) |
|---|---|
| 375 | 1,5 manat |
| 500 | 2,0 manat |
| 585 | 2,4 manat |
| 750 | 3,0 manat |
| 958 | 5,0 manat |

***Mənbə:*** *Cədvəl Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsaslanaraq müəllif tərəfindən hazırlanmışdır.*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarına əsasən qiymətli metallar, üzərinə qiymətli metallar çəkilmiş metallar, zərgərlik məmulatları, qızıl və gümüş ustalarının məmulatları və digər məmulatlar ("Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabineti Qərarının XIV bölməsində qeyd edilmiş istisnalara riayət edilmək şərti ilə) muxtar respublika ərazisinə idxal edilərkən gömrük dəyərinin 15%-i məbləğində idxal gömrük rüsumu tətbiq edilir (3).

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri muxtar respublika ərazisində əyar nəzarətini həyata keçirmək məqsədi ilə 2017-ci il 14 aprel tarixli 128-05/S nömrəli "Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsinin yaradılması barədə" Sərəncam imzalamışdır. İdarənin fəaliyyət istiqamətlərinə muxtar respublikada istehsal edilmiş və satış üçün gətirilmiş, qiymətli metallar və qiymətli daşlardan hazırlanmış bütün zərgərlik və digər məişət məmulatlarının, habelə qiymətli yarımfabrikatların, ərinti və külçələrin qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda əyarlanmasını, analizini və damğalanmasını, dövlət əyar damğalarının, ad damğalarının izlərinin, qiymətli metalların, qiymətli daşların, onlardan hazırlanan məhsulların, habelə metal qırıntılarının və tullantılarının qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada ekspertizası, qanunla müəyyən olunmuş hallarda və qaydada qiymətli metallarla və qiymətli daşlarla əməliyyatlar aparan hüquqi şəxslərdə, habelə fərdi sahibkarlarda qiymətli metalların və qiymətli daşların istifadəsi, saxlanılması və uçotu üzərində dövlət nəzarətini həyata keçirilməsi aid edilir (4). Qiymətli metallardan və onların əlvan metallarla ərintilərindən bədii təsvir üsullarını, qiymətli, yarımqiymətli bəzək daşlarını, təbii və süni mənşəli materialları tətbiq etməklə hazırlanmış zərgərlik,

məişət məmulatları, əşyaları dövlət əyar damğası ilə damğalanır. Muxtar respublikada qiymətli metallardan hazırlanmış məhsullar, o cümlədən zərgərlik və digər məişət məmulatları əyarlanmaq və damğalanmaq üçün onların istehsalçıları tərəfindən, xaricdən satış məqsədi ilə muxtar respublika ərazisinə gətirilən məmulatları isə sahibkarlıq fəaliyyəti subyektləri tərəfindən təqdim olunur. Bu məqsədlə həmin şəxslər ərizə ilə müraciət etməlidirlər. Bu müraciətə bir ay ərzində baxılır və məmulatların əyarlanma və damğalanmasına görə dövlət rüsumu tutulur. 4 dekabr 2001-ci il tarixli "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə əsasən qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması, ekspertizası və materialların tətbiqi üçün dövlət rüsumunun dərəcələri aşağıdakı kimidir:

- ✓ Məmulatlarının əyarlanması və damğalanması - 2 manat (1 məmulat üçün);
- ✓ Məmulatların materialların ekspertizası - 2 manat (1 ədəd üçün);
- ✓ Məmulatların və materialların analiz edilməsi - 6 manat (1 ədəd üçün);
- ✓ Məmulatları istehsalçılarının ad damğalarının qeydiyyatı:

- Ad damğasının ilk dəfə qeydiyyata alınması üçün - 4 manat;
- Hər il yenidən qeydiyyata alınması üçün - 2 manat (5).

Bildiyimiz kimi, qiymətli metallardan məmulatlar hazırlanarkən həmin məmulat qiymətli metalın başqa metallarla qarışığından hazırlanır. Qarışıqdakı qiymətli metalın xüsusi çəkisi onun əyarını müəyyən edən əsas amildir (cədvəl 2). Məsələn, 585 əyarlı qızıl məmulatı dedikdə 1 qramda 0,585 kq qızılın olduğu nəzərdə tutulur. Başqa sözlə desək, əyar-məmulatı hazırlanan ərintinin dəyərini müəyyən edən və min çəki vahidində qiymətli metalın miqdarını təsdiqləyən dövlət standartıdır (1).

Naxçıvan Muxtar Respublikasında istehsal edilən, eyni zamanda xarici ölkələrdən satış üçün respublika ərazisinə gətirilən qiymətli metallardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının əyarlanma və damğalanma qaydaları, damğaların növləri və quruluşu "Qiymətli metallardan hazırlanmış məhsulların, o cümlədən zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması Qaydaları"nın və "Əyar damğalarının növləri və quruluşu"nun təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı ilə müəyyən edilmişdir. Qiymətli metallardan və onların ərintilərindən hazırlanan bədii təsvir üsullarını, təbii və süni mənşəli materialları tətbiq etməklə hazırlanmış zərgərlik, məişət və ibadət məmulatları, əşyaları, eyni zamanda qiymətli metallardan hazırlanmış xatirə, yubiley və digər nişanlar, medallar əyar damğaları ilə damğalanmalıdır. Statusu Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş və tərkibində qiymətli metal olan dövlət mükafatları, emissiya olunmuş yubiley sikkələri, tarixi və arxeoloji əhəmiyyətə malik qiymətli metallardan olan məmulatlar, silahların, vazların, boşqabların, mücrülərin, dini ibadət və ona oxşar əşyaların üzərində işlənmiş qiymətli metallardan naxışlar, elm, istehsalat, təbabət və başqa xüsusi məqsədlər üçün qiymətli metallardan hazırlanmış cihazlar, laboratoriya qabları və digər məmulatlar, qiymətli metallardan hazırlanmış Azərbaycan Respublikasının və başqa dövlətlərin sikkələri və qiymətli metallardan olan külçələr dövlət əyar damğası ilə damğalanmadan azad edilirlər (6).

*Cədvəl 2. Azərbaycan Respublikasında qiymətli metallardan zərgərlik və digər məişət məmulatlarının hazırlanması üçün müəyyənləşdirilmiş əyarlar:*

| platin | qızıl | gümüş | palladium |
|---|---|---|---|
| 850 | 375 | 800 | 500 |
| 900 | 500 | 830 | 850 |
| 950 | 583 | 875 | |
| | 585 | 925 | |
| | 750 | 960 | |
| | 958 | 999 | |
| | 999 | | |

***Mənbə:*** *Cədvəl "Qiymətli metallardan hazırlanmış məhsulların, o cümlədən zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması Qaydaları"nın və "Əyar damğalarının növləri və quruluşu"nun təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarına əsaslanaraq müəllif tərəfindən hazırlanmışdır.*

Əyar damğalarının növləri:

***Şəkil 1.*** *Əsas əyar damğaları*




***Şəkil 2.*** *Əlavə əyar damğaları*




***Şəkil 3.*** *Diş protezləri üçün istifadə edilən qiymətli metallardan hazırlanmış lövhəciklərin, habelə qızıl, gümüş, platin və palladiumdan hazırlanmış məmulatların əyarını təsdiq etmək üçün istifadə edilən əyar damğası*




***Şəkil 4.*** *Qızıl üçün müəyyən edilmiş məmulatların əyarını təsdiq etmək üçün istifadə edilən əyar damğaları*




***Şəkil 5.*** *Gümüş üçün müəyyən edilmiş məmulatların əyarını təsdiq etmək üçün*

*istifadə edilən əyar damğaları*




***Şəkil 6.*** *Platin üçün müəyyən edilmiş məmulatların əyarını təsdiq etmək üçün istifadə edilən əyar damğaları*




***Şəkil 7.*** *Qızıl, gümüş, platin və palladiumdan hazırlanmış məmulatların əyarı istehsalçının müəyyən etdiyi əyara uyğun olmadıqda istifadə edilən əyar damğası*




Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinin ibarət olduğu Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 457-458-ci maddələrinə əsasən qiymətli metalların istehsalı, emalı, istifadəsi, dövriyyəsi və onlardan hazırlanmış məmulatların mühafizəsi, pərakəndə satışı, uçotu, saxlanılması, onların qırıntılarının və tullantılarının yığılması qaydalarının pozulmasına və üzərində dövlət əyar damğası olmayan və ya saxta əyar damğası həkk olunmuş qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatlarının satışına

görə nəzərdə tutulmuş inzibati xətanın törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur (8). Qiymətli metalların istehsalı, emalı, istifadəsi və dövriyyəsi qaydalarının pozulmasına görə fiziki şəxslər 150 manatdan 250 manatadək, vəzifəli şəxslər 550 manatdan 750 manatadək, hüquqi şəxslər 1500 manatdan 2500 manatadək məbləğdə, qiymətli metalların, onlardan hazırlanmış məmulatların mühafizəsi, pərakəndə satışı, uçotu, saxlanılması, onların qırıntılarının və tullantılarının yığılması qaydalarının pozulmasına görə fiziki şəxslər 150 manatdan 250 manatadək, vəzifəli şəxslər 550 manatdan 750 manatadək, hüquqi şəxslər 1500 manatdan 2500 manatadək məbləğdə, əlvan və qara metal tullantılarının qəbulu qaydalarının pozulmasına görə fiziki şəxslər 100 manatdan 200 manatadək, vəzifəli şəxslər 400 manatdan 650 manatadək, hüquqi şəxslər 1000 manatdan 2000 manatadək məbləğdə cərimə edilir.

Yuxarıda göstərilmiş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər yeddi yüz manatdan min manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla bir ayadək müddətə inzibati həbs tətbiq olunur, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

Statusu Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş və tərkibində qiymətli metal olan dövlət mükafatları, emissiya olunmuş yubiley sikkələri, tarixi və arxeoloji əhəmiyyətə malik qiymətli metallardan olan məmulatlar, silahların, vazların, boşqabların, mücrülərin, dini ibadət və ona oxşar əşyaların üzərində qiymətli metallardan işlənmiş naxışlar, elm, istehsalat, təbabət və başqa xüsusi məqsədlər üçün qiymətli metallardan hazırlanmış cihazlar, laboratoriya qabları və digər məmulatlar, qiymətli metallardan hazırlanmış Azərbaycan Respublikasının və başqa dövlətlərin sikkələri və qiymətli metallardan olan külçələr istisna olmaqla üzərində Azərbaycan Respublikasının dövlət əyar damğası olmayan və ya saxta əyar damğası həkk olunmuş qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatının satışına görə fiziki şəxslər 150 manatdan 250 manatadək məbləğdə, vəzifəli şəxslər 550 manatdan 750 manatadək məbləğdə, hüquqi şəxslər 1500 manatdan 2500 manatadək məbləğdə cərimə edilir.

## ƏDƏBİYYAT


1. “Qiymətli Metallar və Qiymətli Daşlar” haqqında Azərbaycan Respublikasının Qanunu. 10 iyun 2005, № 924 – IIQ
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. 11 iyul 2000-ci il
3. “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. 17 noyabr 2017, № 500
4. "Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət İdarəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı. 17 aprel 2017, № 25
5. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanunu, 4 dekabr 2001
6. “Qiymətli metallardan hazırlanmış məhsulların, o cümlədən zərgərlik və digər məişət məmulatlarının əyarlanması və damğalanması Qaydaları”nın və “Əyar damğalarının növləri və quruluşu”nun təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı. 2 aprel 2010, № 38
7. “Qiymətli metallar və qiymətli daşların, onlardan hazırlanan məhsulların uçotu, saxlanılması, daşınması, hesabatının aparılması qaydaları”nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı. 16 aprel 2018, №64
8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. 29 dekabr 2015, 96-VQ

## SUMMARY

**T. Nagiyeva**

## CONTROL OVER PROCESSES REGARDING PRECIOUS METALS IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The article provides detailed information on the list of metals belonging to the group of precious metals and each of the control measures for operations with these metals in the Nakhchivan Autonomous Republic. The process of import to the territory of the Republic, the state taxes and duties collected in this case were noted and it was emphasized that the hallmark control in the Nakhchivan Autonomous Republic is carried out by the Office of Control over Precious Metals and Precious Stones under the Ministry of Finance of the Nakhchivan Autonomous Republic. The process of determining and stamping the products submitted by manufacturers and business entities, as well as the state duty levied in this case, the administrative sanctions imposed for violation of the requirements of the legislation during operations with precious metals were noted.

***Key words:*** *gold, precious metal, setting, jewelry, stamp, duty*

## РЕЗЮМЕ

**Т.Нагиева**

## КОНТРОЛЬ ПО ОПЕРАЦИЯМ С ДРАГОЦЕННЫМИ МЕТАЛЛАМИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье отмечены список металлов входящие в группу дрогоценных металлов и подробные сведения о контрольных мер по операциям с этими металлами в Нахчыванской Автономной Республике, выполненные работы связанные с добычей металлов этой группы, особенно золота в современное время, а также процес ввода ювелирных изделий и других предметов домашнего обихода, содержащие драгоценные металлы на территорию республики. В то же время отмечены взимаемые в этом случае государственные налоги и сборы и подчёркнуто, что пробирный надзор в Нахчыванской Автономной Республике осуществляется Управлением по Контролю Драгоценных Металлов и Драгоценных Камней при Министерстве Финансов Нахчыванской Автономной Республики, процесс определения проб и клеймения продукции, представленной производителями и субъектами предпринимательской деятельности и взимаемые в этом случае госпошлины, административные санкции, наложенные за нарушение законодательства при операциях с драгоценными металлами.

***Ключевые слова***: *золото, драгоценный металл, оправа, украшение, марка, пошлина*

**QƏNBƏR XUDİYEV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*qenberxudiyev@gmail.com*

# VERGİTUTMA VƏ MALİYYƏ İDARƏÇİLİYİ ARASINDA OLAN ƏLAQƏ

*Dövlət gəlirləri və xərclərini tarazlaşdırmaq hökumətlər üçün çətin bir vəzifədir, onlar davamlı maliyyə intizamı və sağlam bir maliyyə idarəetməsini təmin etmək üçün müxtəlif üsullara müraciət edirlər. Fiskal idarəetmə hökumətlərin sağlam maliyyə idarəetməsini həyata keçirməyə kömək edən vasitələrdən biridir. Fiskal idarəetmə ölkələrin maliyyə göstəricilərini artırmağı nəzərdə tutan bir siyasət vasitəsidir. Digər tərəfdən vergitutma ölkələrin maliyyə idarəçiliyinə təsir göstərən əsas amillərdən biridir. Bu tədqiqatın əsas məqsədi vergitutma və maliyyə idarəetmə konsepsiyaları arasındakı əlaqəni, xüsusilə də vergitutmanın səmərəli maliyyə idarəçiliyinə təsirini öyrənməkdir.*

***Açar sözlər:*** *maliyyə idarəçiliyi, vergi, vergitutma*

Dövlət xərclərinin səmərəli idarə olunması bir ölkənin maliyyə fəaliyyətinin əsas açarıdır və ədəbiyyatlarda tədqiqatlar ümumiyyətlə maliyyə idarəçiliyinin xərc aspektinin vacibliyini vurğulayır. Lakin maliyyə idarəçiliyinin gəlir yönünə dair ədəbiyyat çox deyil. Bu məqalədə, əsasən, maliyyə idarəetmə konsepsiyasının bu aspektinə diqqət yetirilir.

Maliyyə idarəetmə konsepsiyası büdcə proseslərinin necə aparıldığına təsir göstərən qaydalar, prosedurlar və tənzimləmələrdən ibarətdir [4]. Maliyyə idarəetməsi dörd əsas komponentdən ibarətdir: rəqəmsal maliyyə qaydaları, ortamüddətli büdcə çərçivələri, büdcə prosedurları və müstəqil maliyyə institutları [5]. Bu konsepsiya borc səviyyəsini artıran və büdcə kəsirinin qeyri-sabit səviyyəyə çatdıran qeyri-sabit maliyyə siyasətinin qarşısını almaq, büdcə göstəricilərinə çıxış təmin etmək, maliyyə siyasətlərinin formalaşdırılmasının dövriyyə prosesini azaltmaq, dövlət xərclərinin səmərəliliyinin və maliyyə siyasətinin şəffaflığını artırmaq məqsədini daşıyır [4, 61-62; 7, 188]. İlk baxışdan dövlət xərcləri ilə bağlı olan məsələlərlə daha çox məşğul olan bir konsepsiya kimi səslənsə də, lakin dövlət gəliri və bununla da vergitutma yaxşı idarə olunan maliyyə idarəçiliyi üçün müəyyənedici bir faktordur.

Vergi bir çox ölkənin ən əhəmiyyətli dövlət gəliridir. Buna görə də bir çox ölkələrdə dövlət gəlirlərinin səviyyəsinin müəyyənedici faktorudur. Nəticə olaraq vergi siyasətinin effektiv idarə olunması bu ölkələrin fiskal göstəriciləri üçün zəruridir. Yetərli olmayan dövlət gəlirləri həddindən artıq dövlət büdcəsi kəsirləri və borc yükünə gətirərək ölkələrin maliyyə göstəricilərinin qarşısını alır. Beləliklə, gəlirlərin düzgün idarə edilməməsi dövlət xərclərinin səmərəli idarə olunmasını çətinləşdirir. Bu çərçivədə bu məqalənin əsas məqsədi bir-birinə nə dərəcədə təsir göstərə biləcəyi baxımından vergitutma və maliyyə idarəçiliyi arasındakı əlaqəni işıqlandırmaqdan ibarətdir.

Vergilər müasir dövlətlərin əksəriyyəti üçün ən vacib dövlət gəliridir. Buna görə də hökumətlərin sağlam bir dövlət maliyyə idarəetməsində səmərəli vergi sisteminə malik olması üçün bir açardır. Bir çox ölkələr üçün sadəcə zəruri dövlət gəlirləri olmayan vergilər həm də təsirli makroiqtisadi siyasət alətidir. Yaxşı idarə olunan vergitutma prosesi vasitəsilə hər bir ölkə arzuolunan şəkildə makroiqtisadi dinamikanı formalaşdıra bilər.

Sağlam bir maliyyə idarəçiliyi ölkənin inkişafı və artımı üçün əsas və müəyyənedici amildir. Bu cür siyasət ölkələrə büdcə kəsirlərinin qarşısının alınması, borcların effektiv şəkildə idarə olunması və ölkələrin maliyyə fəaliyyətinin monitorinqi yolu ilə böhranların aradan qaldırılmasına kömək edə bilər. Ölkələrin iqtisadi fəaliyyətini müəyyən edən digər bir amil onların vergi siyasətidir. Ölkələr düşünülmüş vergi siyasəti həyata keçirməklə öz iqtisadi inkişaf və ya artımını genişləndirə bilər. Bu baxımdan bu bölmədə vergitutma və yaxşı idarəetmə arasındakı əlaqə aşkar olunur.

Dövlət gəlirlərinin böyük bir hissəsi vergilər tərəfindən formalaşır. Maliyyə idarəetməsinin tərkib hissəsi olan fiskal qaydaların başlıca məqsədinin artıq dövlət borcundan və büdcə kəsirlərindən qaçınmaq üçün olduğunu nəzərə alarkən sağlam bir maliyyə idarəçiliyi üçün vergitutmanın

əhəmiyyəti reallaşdırıla bilər. Balanslaşdırılmış büdcə dövlət xərcləri və gəlirlərinin eynilik təşkil etməsidir və bu məqsədə nail olmaq üçün vergilər səmərəli şəkildə toplanmalı və vergilər ölkədə azad bazar iqtisadiyyatının fəaliyyətinə mane olmamalıdır. Əks halda hökumətin gəlirləri onun xərclərini ödəmək üçün yetərli olmaya bilər. Vergi gəlirləri kifayət deyilsə, hökumətlər dövlət borcu kimi digər gəlirlərə də müraciət edirlər və belə bir siyasət dövlət borclarının səviyyəsini artıraraq maliyyə idarəçiliyinin davamlılığına təhlükə yarada bilər.

Digər tərəfdən düşünülmüş vergi siyasəti sağlam bir maliyyə idarəçiliyi üçün əsasdır. Dövlət gəlirlərinin əsas komponenti olan vergilərin dövlət xidmətlərinin keyfiyyətini təmin etməsinə baxmayaraq əgər düzgün olaraq istifadə olunmazsa, ölkələrin iqtisadi fəaliyyətinə mane ola bilər. Çox yüksək vergi yükü sərmayəçilər üçün gəlir dərəcəsini və müvafiq olaraq onların sərmaye yatırma, işə başlama və inkişaf etməyə olan maraqlarını da azaldır. Üstəlik çox mürəkkəb bir vergi sisteminin iqtisadi məhsuldarlığa mane olma imkanı da vardır. Onu da qeyd etmək lazımdır ki, böyüdükcə sərhədsizləşən qlobal bazarda rəqabətqabiliyyətli vergi sisteminin olması ölkələrin iqtisadiyyatı üçün bir açardır. Bu kontekstdə hökumətlərin maliyyə dayanıqlılığı vergitutmanın iqtisadi fəaliyyətə nəzərəçarpacaq dərəcədə təsirinin monitorinqinə əsaslanır (6, 21).

Əgər gözlənilən vergi gəlirləri proqnozları realist deyilsə, büdcə gəlirləri qiymətləndirmələri yanıldıcı olur və hökumətlər maliyyə böhranları ilə üzləşə bilirlər. Belə siyasət təkrarən ümumi maliyyə siyasətinə təhlükə yarada bilər. Vergi siyasətində şəffaflıq qeyd olunmalı başqa bir vacib məsələdir. Bu, maliyyə idarəçiliyinin keyfiyyətini müəyyənləşdirir. Maliyyə idarəçiliyinin məqsədlərindən biri fiskal siyasətin şəffaflığını artırmaqdır və vergitutma da bir fiskal siyasət elementidir.

Azərbaycan Respublikasının vergi məcəlləsi və vergi qanunvericiliyinə uyğun olaraq vergi ödəyiciləri məlumatlandırılmaq hüququna malikdirlər. Başqa sözlə, vergi ödəyicisi vergi qanunvericiliyinə riayət etmək üçün nə etmək lazım olduğunu bilmək hüququna malikdir. Bundan əlavə, vergi ödəyiciləri obyektiv və ədalətli vergi sistemi hüququna da sahibdirlər. Digər tərəfdən vergi ödəyicilərinin verginin real məbləğindən artıq ödəməmək hüquqları da var və bunlar da məqalədə bəhs edilən maliyyə idarəçiliyinin əsas məqsədləri arasında olan şəffaflıq konsepsiyası ilə birbaşa əlaqəlidir.

Daha sağlam bir iqtisadiyyatın vergi ehtiyatlarını diversifikasiya etməklə daha çox vergi toplamaq imkanını daha da asanlaşdırması gözlənilir. Burada qeyd etmək lazımdır ki, əgər hökumət kifayət qədər gəlir əldə edə bilmirsə, maliyyə idarəetmə konsepsiyasının qurulduğu xərclərin effektiv idarə olunması artıq mənasız ola bilər.

Aparılan tədqiqatın nəticəsi olaraq qeyd etmək lazımdır ki, ölkələr maliyyə fəaliyyətləri üçün maliyyə idarəçiliyini getdikcə daha çox tətbiq edirlər və maliyyə idarəçiliyinin hökumətlərə maliyyə qaydaları, müstəqil maliyyə institutları, ortamüddətli büdcə çərçivəsi və büdcə prosedurları vasitəsilə sağlam maliyyə idarəetməsinə malik olmağa kömək etməsi gözlənilir. Bu araşdırmada vergitutma ictimai gəlir səviyyəsinin, ictimai gəlir səviyyəsinin müəyyənedici bir amil olduğu ictimai borcların və borc yükünün əsas meyarı olduğu yönündə maliyyə idarəçiliyinin başqa bir müəyyənedici faktoru olaraq təklif olunur.

Zəif idarə olunan vergi siyasəti dövlət gəlirlərini azaltma imkanına malikdir və həm də ölkələrin iqtisadi artımına mane olur. Yetərli olmayan dövlət gəlirləri həddən artıq borc yükünün və qeyri-sabit büdcə kəsirlərinin yaranmasına səbəb ola bilər. Maliyyə idarəçiliyinin əsas məqsədinin dövlət xərclərinin effektiv idarə olunması ilə bağlı olduğunu nəzərə alsaq, vergitutmanın sağlam bir maliyyə idarəetməsi üçün əhəmiyyəti ortaya çıxır. Buna görə də, hər şeydən əvvəl, ölkələr yaxşı idarə olunan maliyyə idarəçiliyinə nail olmaq üçün gəlirlərin effektiv idarə olunması və sağlam bir vergi siyasətinə malik olmalıdırlar. Bu baxımdan hökumətlər vergi gəlirlərini artırmaq üçün lazımi tədbirləri görməlidirlər. Onlar effektiv və rəqabətcil vergi sistemlərinə malik olmalı, vergitutma prosesini mümkün qədər iqtisadiyyata səmərəli vergi tətbiq edə biləcək şəkildə idarə etməli, vergiləri minimum xərc səviyyəsində toplayaraq şəffaf vergi idarəçiliyinə malik olmalıdırlar və digər tərəfdən onların vergi sistemləri iqtisadi inkişafa və artıma mane olmamalı və onlar iqtisadi fəallığı vergi xərcləri ilə artırmalıdırlar.

## ƏDƏBİYYAT

1. Günaydin, İhsan, Eser Levent Yahya. Maliye Politikasındaki Yeni Trend: Mali Kurallar. "Maliye" Dergisi, 2009, 156, 51-65
2. Debrun, Xavier, Hauner, David, and Kumar, Manmohan. Independent Fiscal Agencies. Journal of Economic Surveys, 2009, 23(1), 44-81
3. Giosi, Alessandro, Testarmata, Silvia, Brunelli, Sandro, Stagliano, Bianca. "The Dimensions Of Fiscal Governance As The Cornerstone Of Public Finance Sustainability: A General Framework" Journal of Budgeting, Accounting and Financial Management, 2014, 26(1), 94-139
4. Dzıemıanowızc, Ryta Independent Fiscal İnstitutions As A Tool Of Fiscal Governance. Quarterly Journal of Economics and Economic Policy, (2014), 9 (1), 59-70
5. Kaplanoglou, Georgia, Rapanos, Vassilis T. "Fiscal Governance and Budgetary Outcomes" Economic Discussion Reports, 2011, 3, 1-48
6. Kopits, George and Symansky, Steven. Fiscal Policy Rules, IMF Occasional Paper, 162, International Monetary Fund.1998
7. Şen, Hüseyin, Sağbaş, İsa. Vergi Teorisi ve Politikası (2. Baskı). Ankara: "Kalkan" matbaası, 2016
8. Pirdal B. The Link Between Taxation and Fiscal Governance. Research Journal of Public Finance. March 2018, Vol:4, Issue:2
9. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (01 yanvar 2019-cu il tarixədək olan dəyişiklərlər).

## SUMMARY

**Qanbar Khudiyev**

### THE LINK BETWEEN TAXATION AND FISCAL GOVERNANCE

Balancing public revenues and expenditures is a challenge for governments and governments apply to various methods to have a sustainable fiscal discipline and a sound fiscal management. One of the tools which help governments to implement sound fiscal managements is the concept of fiscal governance. Fiscal governance is a policy instrument that is expected to increase the fiscal performance of the countries. On the other hand, one of the fundamental factors which affect the fiscal management of the countries is taxation. Main objectives of this study are to reveal the interplay between the concepts of taxation and fiscal governance - particularly the impact of taxation on having a sound fiscal governance - and to propose policy implications on taxation and fiscal governance.

***Key words:*** *Fiscal Governance, tax, taxation*

## РЕЗЮМЕ

**Ганбар Худиев**

### ВЗАИМОСВЯЗЬ МЕЖДУ НАЛОГООБЛОЖЕНИЕМ И ФИНАНСОВЫМ УПРАВЛЕНИЕМ

Уравновешивание государственных доходов и расходов - непростая задача для правительств, которые применяют различные методы обеспечения устойчивой финансовой дисциплины и рационального финансового управления. Фискальное управление - один из инструментов, который помогает правительствам осуществлять рациональное финансовое управление. Фискальное управление - это инструмент политики, предназначенный для повышения финансовых показателей стран. С другой стороны, налогообложение один из основных факторов, влияющих на финансовое управление стран. Основная цель данного исследования изучить взаимосвязь между концепциями налогообложения и финансового управления, в частности влияние налогообложения на эффективное управление финансами.

***Ключевые слова:*** *финансовое управление, налоги, налогообложение*

**ÜLVİ CƏFƏROV**
*Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi*
*ulviceferli84@gmail.com*

# DÖVLƏT BÜDCƏSİNİN İCRASINDA XƏZİNƏDARLIĞIN ROLU

*Məqalədə müstəqillik illərinə qədər və sonrakı illərdə, xəzinədarlığın tətbiqindən sonrakı mərhələlərdə dövlət büdcəsinin icrası prosesi, büdcənin kassa icrası zamanı xərclərə və büdcə daxilolmalarına xəzinədarlıq tərəfindən edilən nəzarət təhlil edilmişdir. Xəzinədarlığın inkişaf mərhələləri, informasiya texnologiyalarının inkifaşı ilə xəzinədarlıq sahəsində aparılan yeniliklərdən bəhs edilmişdir.*

***Açar sözlər:*** *xəzinə, nəzarət, qənaət, büdcə, gəlirlər, xərclər, maliyyə sistemi*

Xəzinə iqtisadiyyatda yeni anlayış deyil. Xəzinədarlıq fəaliyyətinin tarixi lap qədimlərə, ilk dövlətlərin yaranma dövrünə gedib çıxır. Məsələn, qədim əyyamlarda dövləti yaşatmaq və qorumaq məqsədilə əhalidən toplanan vergilərin hamısı xəzinəyə daxil olurdu. O vaxtlar dövlət məhz xəzinədarlıq vasitəsilə idarə olunurdu. Dövlətin bütün xərcləri xəzinədən ödənir, dövlətin vəsaitinə nəzarət də ordan həyata keçirilirdi. İqtisadiyyat inkişaf etdikcə xəzinədarlıq da təkamülə uğradı. Bu mərhələdə xəzinədarlıq sistemi genişlənərək iqtisadiyyatın yeni-yeni sahələrini əhatə etməyə başladı. Xəzinədarlıq sənayecə inkişaf etmiş Qərb dövlətlərinin hamısında var, amma onun rolu və funksiyaları müxtəlif ölkələrdə müxtəlifdir. Bu, fərqli tarixi ənənələrdən və siyasi tarazlığın saxlanılmasına fərqli yanaşmalardan irəli gəlir. Keçid iqtisadiyyatı ölkələrində, xüsusən də postsovet respublikalarında xəzinədarlığın meydana gəlməsi onunla əsaslandırılır ki, islahatların keçirilməsi ilə əlaqədar bu ölkələrdə yaranmış durum nəticəsində iqtisadi vəziyyət tez-tez dəyişilir və bu səbəbdən də büdcə prosesinin idarə olunmasında makroiqtisadi situasiya mürəkkəbləşməsin deyə iqtisadiyyatda baş verən dəyişikliklərə daha operativ reaksiya vermək zərurəti meydana gəlir.

Qədim zamanlardan dövlət büdcəsinin icrası funksiyası ölkənin idarəedilməsinin ən vacib elementi, sosial-iqtisadi proseslərə təsir göstərilmənin ən vacib aləti hesab olunur. Bütün dövrlərdə dövlət maliyyəsinin səmərəli idarəedilməsi əsas problem və ölkənin inkişafına aktiv təsir göstərən başlıca amil kimi xüsusi əhəmiyyətə malik olmuşdur. Müxtəlif dövrlərdə büdcənin icra təsirini artırmaq və onun təşkili səmərəliliyini yüksəltmək üçün fərqli metodlardan istifadə olunsa da, beynəlxalq təcrübə dövlət maliyyəsi üzərində zəruri, ilkin nəzarətin və vəsaitlərdən effektiv istifadənin təmin edilməsi üçün bütün inkişaf etmiş ölkələrdə alternativ olmayan icra mexanizminin, yəni büdcənin kassa icrasının xəzinədarlıq vasitəsilə həyata keçirilməsinin zəruriliyini təsdiq etmişdir.

Çağdaş bazar iqtisadiyyatı şəraitində xəzinədarlığın mahiyyəti bir qədər dəyişmiş, daha geniş sistem olan bazar münasibətlərini əks etdirən elementləri özündə cəmləşdirmişdir, lakin tarixi mahiyyətdə dəyişikliklər baş versə də, xəzinədarlıq öz ilkin funksiyalarını yerinə yetirməkdə davam edir.

Xəzinədarlıq dövlət gəlirlərini və xərclərini nəzarətdə saxlayan və pul-valyuta vəsaitinin hərəkətini tənzimləyən ən önəmli dövlət orqanıdır. İqtisadi lüğətlərdə verildiyi kimi xəzinədarlıq xəzinənin saxlanması, gəliri və çıxarı ilə məşğul olan dövlət idarəsi, yaxud maliyyə orqanıdır. Xəzinədarlıq işinin müasir mexanizmi ayrı-ayrı ölkələrdə bir-birindən fərqlənən daha geniş funksiyalar və səlahiyyətlər yerinə yetirir. Bundan əlavə, bəzi ölkələrdə ümumiyyətlə xəzinədarlıq yoxdur, onun funksiyasını başqa dövlət orqanı, yaxud orqanları yerinə yetirir. Məsələn, ABŞ-da xəzinədarlıq sistemi bütün maliyyə məsələlərini, o cümlədən pul dövriyyəsini tənzimləyən ən mühüm maliyyə qurumudur.

Sovet və ilk postsovet illərində maliyyə ciddi mərkəziyyətçilik, planlılıq, partiya inzibatçılığı kimi arxaik prinsiplərlə idarə olunurdu. Yəni bütün əsas məsələlər mərkəzdən həll edilir, idarəçilik ab-havasını yeganə hegemon partiya müəyyənləşdirirdi. İqtisadi idarəetmə orqanlarının funksiyalarını kommunist oliqarxiyası praktik olaraq öz üzərinə götürmüşdü. Hətta ən xırda məsələlər

də mərkəzləşdirilmiş planlar vasitəsi ilə həll olunurdu. Bazar iqtisadiyyatı şəraitində bu prinsiplər tam dəyişdirilməli belə ki, partiyalar iqtisadi həyatın birbaşa inzibatçılığı və idarəçiliyi işindən uzaqlaşdırılmalı, yalnız bu istiqamətdə öz təkliflərini verməli idi. Hər bir maliyyə orqanı müvafiq qanunvericilik çərçivəsi daxilində müstəqil olmalıdır. Bununla bərabər, dövlətin funksiyalarına aid olan məsələlər və vəzifələr mərkəzləşdirilmiş qaydada nəzərdən keçirilməlidir.

Xəzinədarlıq iqtisadi sistemin tərkib hissəsi olmaqla maliyyə sisteminin əsas funksiyalarını yerinə yetirir. Qeyd etdiyimiz kimi, bazar iqtisadiyyatı şəraitində maliyyə sistemi və o cümlədən xəzinədarlıq çoxsaylı funksiyalara əməl edir. Bu funksiyaların lazımi səviyyədə həyata keçirilməsi üçün heç şübhəsiz ki, xəzinədarlığın mükəmməl strukturu yaradılmalıdır. Çünki, xəzinədarlığın fəaliyyətində əsas şərt onun çevik struktura malik olmasıdır. Xəzinədarlıq sistemi çox geniş struktura malikdir. Azərbaycan Respublikasında xəzinədarlığın Maliyyə Nazirliyinin tərkibində yaradılmasına baxmayaraq, onun strukturu heç də Maliyyə Nazirliyinin mövcud strukturunu təkrar etmir (6,87).

Ümumiyyətlə, Azərbaycan Respublikasında xəzinədarlıq strukturunun yaradılmasında beynəlxalq təşkilatların, ilk növbədə Beynəlxalq Valyuta Fondunun təklifləri və dünyanın inkişaf etmiş ölkələrinin zəngin təcrübəsi nəzərə alınmışdır. Xəzinədarlığın strukturunda bir çox şöbələr və hər şöbənin müvafiq olaraq bölmələri vardır. Hər şöbə və bölmələrin hər birinin özünəməxsus funksiyaları vardır. Bu funksiyaların hər biri müvafiq şöbə və bölmələr tərəfindən həyata keçirilir. Bu funksiyalar bütövlükdə xəzinədarlığın həyata keçirdiyi funksiyaları təmsil edir.

Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə ehtiyatlarının vahid mərkəzdən idarə edilməsini təmin etmək, bu vəsaitlərin daxil olması və xərclənməsi üçün daha çevik nəzaərət mexanizimini yaratmaq, dövlət borclarının, zəmanətlərin və alınmış kreditlərin uçotunu yaxşılaşdırmaq və respublikada qiymətli kağızlar bazarının formalaşmasını sürətləndirmək məqsədi ilə "Azərbaycan Respublikasında dövlət xəzinədarlığının yaradılması haqqında" Azərbaycan Respublikasının Prezindentinin 1995-ci il 4 oktyabr tarixli 398 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığı, Naxçıvan Muxtar Respublikasında, respublikanın şəhər və rayonlarında onun ərazi orqanları yaradılmışdır. Bununla da Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığının yaradılması ilə əlaqədar olaraq respublika büdcəsinin, büdcədənkənar dövlət fondlarının, büdcədən maliyyələşdirilən idarə və təşkilatların vəsaitləri Baş Dövlət Xəzinədarlığının hesablarında cəmləşdirilmişdir. Naxçıvan Muxtar Respublikasında isə həmin funksiyaları Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin strukturuna daxil olan xəzinə şöbəsi həyata keçirir. Dövlət Xəzinədarlıq Agentliyinin strukturundan fərqli olaraq xəzinə şöbəsində xəzinədarlıq funksiyaları sektorlar tərəfindən həyata keçirilir. Respublikamızda xəzinədarlıq sisteminin inkişafı 4 mərhələ şəkilində həyata keçirilmişdir:

• Birinci mərhələ (1995-1997-ci illər). Mövcud hüquqi bazaya əsaslanaraq dövlət büdcəsinin kassa icrası üzrə yeni sistemin respublikada tətbiq edilməsi üçün hazırlıq işləri;

Xəzinədarlıq sisteminin inkişafının I mərhələsi xəzinədarlıq sisteminin II mərhələsi üçün hazırlıq fazası olub, I mərhələdə büdcənin icrası üzrə əməliyyatların uçotu Xəzinə Hesab Kitablarında (XHK-da) mövcud uçot sistemi ilə paralel aparılmışdır. Nəzərə alınmışdır ki, I mərhələdə aparılan uçot II mərhələdə davam etdirilə bilməzdi, çünki I mərhələ sınaq dövrü idi, II mərhələdə isə I mərhələdən fərqli olaraq bank tərəfindən büdcənin icrası üzrə əməliyyatların uçotunun aparılması və hesabatın hazırlanmasına ehtiyac olmamışdır. Bu işlər xəzinədarlığın və Maliyyə Nazirliyinin birbaşa vəzifələrinə çevrilmişdir. Bütün əməliyyatlar yeni büdcə təsnifatı əsasında həyata keçirilməyə başladı. Hər bir ödəmə həm funksional, həm də iqtisadi təsnifatdan ibarət olmaqla, həmin təsnifat Sifarişdə və XHK-larda dəqiq göstərilmişdir.

• İkinci mərhələ (1997-1999-cu illər). Xəzinədarlığın respublika ərazisində mövcud texniki, maliyyə və kadr potensialı nəzərə alınmaqla mərhələlərlə tətbiqi;

Xəzinədarlıq sisteminin bütövlükdə formalaşdırılmasında II mərhələ yeni bank qaydaları və maliyyələşmə mexanizminin yaradılması ilə əlaqədar olaraq çox vacib və məsuliyyətli dövr hesab edilib.

• Üçüncü mərhələ (1999-2000-ci illər). Respublikada öhdəliklərin xəzinə uçotuna qəbul edilməsi və maliyyə planlaşdırılması mexanizmlərinin həyata keçirilməsi mərhələsidir;

• Dördüncü mərhələ isə 2000-ci ildən başlayaraq büdcədən maliyyələşən kredit sərəncamçıları tərəfindən alınan malların, qəbul olunan iş və xidmətlərin xəzinə uçotuna qəbul edilməsi mexanizminin tətbiqini əhatə edib (5,57).

Xəzinədarlıq sisteminin yaradılmasında əsas məqsəd dövlətin malik olduğu maliyyə resurslarının optimal idarə edilməsinə zəmin yaratmaq və onu təmin etməkdir. Xəzinədarlıq maliyyələşmə xərclərini minimuma endirməklə və dövlət büdcəsindən maliyyələşən təşkilatların fəaliyyətini tənzimləməklə həmin təşkilatlara vaxtında və zəruri resurslar əldə etməyə imkan verir. Bazar iqtisadi münasibətlərinin formalaşdığı ölkələrdə iqtisadi və maliyyə problemlərinin, həmçinin təşkilati-hüquqi dəyişmələrin səviyyəsindən asılı olaraq xəzinədarlıq sisteminin yerinə yetirdiyi funksiyalar bir-birindən kəskin surətdə fərqlənir.

Bir çox dövlətlərdə ölkənin iqtisadi vəziyyətindən, tarixi və mədəni amillərdən, iqtisadiyyatın idarəedilməsi məsələləri üçün məsuliyyət daşıyan qurumun imkan və qabiliyyətindən asılı olaraq xəzinədarlığa büdcə və maliyyənin idarə edilməsinin aşağıdakı əsas funksiyaları həvalə edilir:

- ✓ Ümumi makroiqtisadi siyasət həddində büdcə və vergi siyasətinin hazırlanması;
- ✓ Büdcənin tərtib edilməsi;
- ✓ Büdcənin icrası;
- ✓ Büdcənin icrası ilə əlaqədar olan maliyyə əməliyyatları;
- ✓ Büdcənin icrası üzrə əməliyyatların uçotu və maliyyə informasiya sistemi;
- ✓ Auditor xidməti.

Azərbaycanda Baş Dövlət Xəzinədarlığına əsasən sonuncu 4 funksiyanın icrası həvalə olunmuş və bu məqsədlə müvafiq icra strukturları yaradılmışdır.

Son illərdə xərclərin formalaşması və ona maliyyə nəzarətinin həyata keçirilməsində xəzinədarlıq sisteminin yaradılması mühüm əhəmiyyət kəsb edir. Xəzinədarlığın əsas funksiyalarından biri büdcənin icrası dairəsində ödəmələrin həyata keçirilməsidir. Xəzinədarlıq sisteminə keçilməsi büdcə haqqında qanunların və büdcə təsnifatının tələblərinin tam və dəqiq yerinə yetirilməsinə imkan vermişdir.

Büdcənin kassa icrası bank orqanlarında aparıldıqda hər bir büdcə təşkilatının bankda hesabı açılırdı. Büdcədə nəzərdə tutulan vəsaitlər hər rüb üzrə bankdakı hesaba keçirilir və təşkilat tərəfindən xərc smetasına uyğun istifadə edilirdi. Lakin bəzi hallarda büdcə idarələri ayrılmış vəsaitləri təyinatı üzrə istifadə etmirdilər. Ona görə də Maliyyə Nazirliyi büdcənin icrası haqqında təqdim olunan hesabatla təsdiq olunmuş qanunu müqayisə etdikdə fərq alınırdı. Lakin xəzinədarlıq sisteminin yaradılması ilə bu kimi hallar ortadan qaldırılmış, ilkin xəzinə sənədlərinə uyğun olaraq öhdəlik həddi səviyyəsində xərclərin aparılmasına, eləcə də xərc əməliyyatları aparılan zaman şübhə doğuran xərclər icra olunmadan yoxlanılmasına nail olunmuşdur.

Xəzinədarlıq Muxtar Respublikamızda da daima inkişaf etməkdədir. Belə ki, İKT-nin inkişafına uyğun olaraq yeni-yeni informasiya sistemlərinin ortaya çıxması, yeni nəzarət mexanizmlərinin qurulması ilə dövlət büdcəsinin icrası prosesində qənaət prinsipinə əsaslanan xərclərin düzgün, iqtisadi təsnifata uyğun təyinatı üzrə xərclənməsi, eləcə də lüzumsuz xərclərin qarşısının alınması istiqamətində xəzinədarlığın mühüm rolu olmuşdur.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında dövlət xəzinədarlığının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr 1995-ci il tarixli 398 nömrəli Fərmanı
2. Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin № 440-li Qərarı. Bakı: 11 oktyabr 2018-ci il
3. Azərbaycan Respublikası Maliyyə Nazirinin 17 mart 1997-ci il tarixli İ-19 saylı əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikasında Xəzinədarlıq sisteminin I mərhələsinin tətbiqi üçün metodik vəsait. Bakı: 1997
4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən 31 avqust 2000-ci il tarixli İ-136 saylı

əmrlə təsdiq edilmiş Azərbaycan Respublikasında Xəzinədarlıq sisteminin tətbiqi Qaydaları (II mərhələ). Bakı: 2000
5. Əsədov H.X., Talıbov S.T. Dövlət xərclərinin idarə edilməsi və xəzinədarlığın təşkili problemləri. Bakı: 2005
6. Ələkbərov Ə. Dövlət vəsaitlərinin idarə edilməsində xəzinədarlığın rolu Bakı: "Maliyyə və uçot" jurnalı, № 11, 2003
7. www.maliyye.gov.az Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin
Rəsmi internet səhifəsi

**SUMMARY**

**Ulvi Jafarov**

**THE ROLE OF THE TREASURY IN THE EXECUTION OF THE STATE BUDGET**

The article analyzes the process of state budget execution before the years of independence and in the following years after the introduction of the treasury, the control exercised by the treasury over expenditures and budget revenues during the cash execution of the budget. The stages of development of the treasury, innovations in the field of treasury caused by the development of information technologies were noted.

***Key words***: *treasury, control, savings, budget, revenues, expenditures, financial system*

**РЕЗЮМЕ**

**Ульви Джафаров**

**РОЛЬ КАЗНАЧЕЙСТВА В ИСПОЛНЕНИИ ГОСУДАРСТВЕННОГО БЮДЖЕТА**

В статье проанализированы процесс исполнения государственного бюджета, контроль за расходами и поступлениями в бюджет со стороны казначейства во время исполнения кассы бюджета, до независимости и в последующие годы после поэтапного внедрения казначейства. Также обсуждены этапы развития казначейства, проводимые новшества в области казначейства с развитием информационной технологии.

***Ключевые слова:*** *казначейство, контроль, сбережения, бюджет, доходы, расходы, финансовая система*

# II BÖLMƏ

# İNNOVASİYAYÖNÜMLÜ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ

**MÜBARİZ BAĞIROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*mubariz.bagirov61@gmail.com*

## İNNOVATİV İNKİŞAF İQTİSADİ SİYASƏTİN PRİORİTETİ KİMİ

*Məqalədə innovativ sahibkarlığın mahiyyəti açıqlanmışdır. Onun iqtisadi inkişafdakı rolu əsaslandırılmışdır. İnnovativ sahibkarlığın məqsədləri müəyyənləşdirilmiş, onun reallaşdırılmasının vasitə, üsul və formaları izah olunmuşdur. İnnovativ sahibkarlığın məqsədlərinə çatmaq üçün zəruri elementlər müəyyən edilmiş, onların hər birinin izahı verilmişdir. Tətbiq edilən innovasiyanın predmeti nəzərə alınmaqla növlərin təsnifatı verilmiş, onların hər birinin mənası açıqlanmışdır.*

***Açar sözlər:*** *innovativ sahibkarlıq, innovasiya, makroinnovasiyalar, baza informasiyaları, innovasiya-modifikasiyalar, innovasiya növləri*

İqtisadi inkişafın müasir mərhələsi yeni üsul və qaydaların tətbiqi ilə əlaqədar özünəməxsus cəhətləri əks etdirir. Bu yeniliklərdən biri də innovativ inkişaf üsullarına daha çox yer verilməsi və daha çox diqqət ayrılması ilə əlaqədardır. Hal-hazırda ölkəmizin iqtisadiyyatının sürətli inkişaf etdirilməsi və eyni zamanda iqtisadi diversifikasiyanın genişləndirilməsi məqsədilə bir sıra prioritetlər müəyyən edilmişdir. Onlardan biri də innovativ inkişafın geniş sürətdə tətbiq olunmasıdır. Bu istiqamətdə isə əsas diqqət innovativ sahibkarlığın inkişaf etdirilməsindən ibarətdir. Bunun üçün innovativ sahibkarlığın vəzifələrinin və həlli üsullarının müəyyən edilməsi həmişə diqqət mərkəzində olmalıdır.

İqtisadi subyektin hər birinin fəaliyyət istiqamətləri, onun forma məzmunu, mahiyyəti onun vəzifə və məqsədlərindən irəli gəlir. Sahibkarlıq müəssisələrində fəaliyyətin tətbiqi vasitəsilə reallaşdırılması həm müəssisənin məqsədlərinin, həm də innovativ üsulların birgə vəhdəti nəticəsində əldə olunur. İqtisadi subyektlərinin forma və təşkili xüsusiyyətlərindən, hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, onlar sahibkarlıq müəssisələri kimi fəaliyyət göstərərək ən əsas məqsədlərini əvvəlcədən müəyyən edirlər. Onların hər biri innovativ üsulların tətbiqi nəticəsində yeni və təkmilləşdirilmiş məhsul istehsal etməyi, xidmət göstərməyi, yeni texnoloji prosesi tətbiq etməyi, fəaliyyətlərində yeni təşkilati, texniki, maliyyə, iqtisadi üsulların həyata keçirilməsini vəzifə kimi qarşıya qoyurlar. Yeni ideyaların yaranması və tətbiqi vasitəsilə müəssisənin iqtisadi və sosial potensialında səmərəli nəticə əldə etmək istəyirlər (1, səh126).

Qeyd olunanlara əsaslanaraq demək olar ki, bütün sahibkarlıq müəssisələrində yeni ideyaları irəli sürmək, generasiya etmək, nəzarətdə saxlamaq, qiymətləndirmək və alınmış nəticələri bazara çıxarmaq innovasiya biznesinin əsas vəzifəsidir. İnnovasiyaların idarə olunmasının əsasında novatorların və təşkilatın fəaliyyətinin nəticələri üçün məsuliyyət daşıyanların innovativ sahibkarlıqda uğurlu nəticələrin əldə olunması üçün novatorların və menecerlərin birgə əməkdaşlığı vacibdir. Menecerlər və novatorlar yaradıcılıq proseslərinin səmərəli idarə olunması üçün innovasiyaların yolundakı maneələri tapmalı və aradan qaldırmalı, həmçinin motivasiyanı təmin etməli və təşkilatda şəxsi və qrup innovasiya təşəbbüskarlığını dəstəkləyəcək münasibətləri formalaşdırmalıdırlar.

İnnovativ sahibkarlığın vəzifələrinin icra olunmasının mühüm şərtlərdən biri də yaradıcılıqdır. Yaradıcılıq yeni ideyaların generasiyasıdır, innovasiya isə onların uğurlu təcəssümüdür, yaradıcılıq prinsiplərin kəşfi, innovasiya isə bu prinsiplərin faydalı mallara və xidmətlərə çevrilməsidir.

İnnovativ sahibkarlığın vəzifələrinin uğurla reallaşdırılması üçün əlverişli mühit olmalı, bəzi

zəruri xüsusiyyətlər əks etdirilməlidir. Bunlar aşağıdakılardır:

1) Fasiləsiz maliyyələşdirilən, yüksək səviyyəli təhsil və elm sisteminin olması;
2) Ayrı-ayrı şəxslərin, qrupun və təşkilatın yaradıcılıq potensialının olması;
3) Biliklərin, ideyaların yaradılmasının və yayılmasının inkişaf etmiş infrastrukturunun olması;
4) Mövcud ideya və biliklərdən səmərəli istifadə olunması.

İqtisadi ədəbiyyatlarda rast gəlindiyi kimi əsas xarakterik cəhətləri və parametrləri nəzərə alınmaqla innovasiyaları üç kateqoriyaya ayırırlar: makroinnovasiyalar, baza innovasiyaları və innovasiyalar. Onlar aşağıdakı kimi xarakterizə olunurlar. **Makroinnovasiyalar** – sahələrdə, iqtisadiyyatda və bütövlükdə cəmiyyətdə köklü dəyişikliklərə səbəb olan yeni məhsullar və texnologiyalardır. Məsələn, elektrik, mikroelektronika, rabitə. **Baza innovasiyaları** – birlikdə texnoloji inkişafa güclü təkan verən ayrı-ayrı innovasiyalardır. Məsələn, transformatorlar, qaz-turbin mühərrikləri, biotexnologiyalar. **İnnovasiya** – modifikasiyalar bütövlükdə texnoloji prosesə təsir göstərmək üçün yetərincə radikal deyildir. Bunlar daha çox biznesin ayrı-ayrı imkanların mühüm tərkib hissələridir. Məsələn, hava ilə doldurulan təkərlər, lak və boya örtükləri (4, səh114).

İdeyaların yaradıcı istehsalının ümumi prinsipləri təşkilatda yaradıcılığın stimullaşdırılması metodlarının əsasını təşkil edir. Çünki birincisi, qiymətləndirmə və tənqid yaradıcılığın qarşısını asanlıqla alır. İdeyaların generasiyası prosesi onların qiymətləndirilməsi və ən yaxşı ideyanın seçilməsi prosesində ayrılmalıdır. İkincisi, təcrübənin, informasiyanın və ya ekspert ixtisasının hədsiz çoxluğu yaradıcılığa mane olur. İdeyaların yaradıldığı qruplarda müxtəlif xarakterlərin və müxtəlif təlimlərin mövcudluğu təmin edilməlidir. Üçüncüsü, bu qruplarda aqressiv, üstünlüyə, öz fikrini yeritməyə meyilli adamlar iştirak etməməlidir. Dördüncüsü, kiçik qruplar rəhbərdən çox asılı olurlar, böyük qruplarda isə əlaqələndirmə problemləri yaranır. Beşincisi, qrupun fəaliyyətinin nəticələri iş şəraitindən asılıdır. Burada sakitlik və xeyirxahlıq, rahatlıq, kənar müşahidəçilərin olmaması tələb edilir.

İnnovativ sahibkarlığın vəzifələrini uğurla reallaşdırmaq və məqsədlərinə çatmaq üçün zəruri elementlərdən biri də innovasiya menecmentidir. Bu element kompaniyanı idarəetmənin rəhbərliyin ali səviyyəsində həyata keçirilən strateji istiqamətlərindən biridir. Onun vəzifəsi aşağıdakı sahələrdə firmaların elmi-texniki və istehsal fəaliyyətinin əsas istiqamətlərini müəyyən etməkdir: yeni məhsullar işlənib hazırlanması və tətbiq edilməsi (innovasiya fəaliyyəti); buraxılan məhsulun modernləşdirilməsi və təkmilləşdirilməsi; ənənəvi məhsul növləri istehsalının daha da inkişaf etdirilməsi; köhnəlmiş məhsulların istehsalatdan çıxarılması.

Menecmentin təşkilində əsas diqqət strategiyanın işlənib hazırlanmasına və onun reallaşdırılmasına istiqamətlənmiş tədbirlərə ayrılır. Yeni növ məhsullar işlənib hazırlanması və buraxılması firmanın strategiyasının daha üstün istiqamətinə aiddir. Firma üzrə innovasiya vəzifələrinin həyata keçirilməsi bütövlükdə aşağıdakıları nəzərdə tutur:

1) Firmanın strategiyasına uyğun olaraq innovasiya fəaliyyətinin plan və proqramının işlənib hazırlanması;
2) Yeni növ məhsullar yaradılmasının layihələrin işlənməsi, təsdiqi;
3) Yeni növ məhsulların işlənib hazırlanması prosesinə nəzarət və onun tətbiqinin reallaşdırılması;
4) Proqramının fasiləsiz olaraq maliyyə resursları ilə təmin edilməsi;
5) İnnovasiya fəaliyyəti proqramının texniki təhcizatının təmin edilməsi;
6) İnnovasiya fəaliyyətinin yüksək səviyyəli ixtisaslı heyyətlə təmin edilməsi;
7) İnnovasiya proqramını ideyadan seriyalı məhsul istehsalına qədər təşkil edən, onu kompleks şəkildə həll etmək üçün cavabdeh qruplar yaradılmasını (3, səh 319).

İnnovasiya fəaliyyətinin inkişafının müasir mərhələsinin əsas xüsusiyyətlərindən biri iri firmalarda tədqiqat işləri və istehsalı vahid prosesdə birləşdirən vahid elmi-texniki kompleksin yaradılmasıdır. Bu, "elm-istehsal" təşiklinin prosesin bütün mərhələlərində sıx əlaqə olmasını nəzərdə tutur. Bütöv (tam) elm-istehsalat-satış sisteminin yaradılması obyektiv olaraq qanunidir. Bu elmi-texniki tərəqqi və firmanın bazar münasibətlərinə istiqamət götürülməsi tələbi ilə şərtlənir.

Tədqiqatlar göstərir ki, sahibkarlıq müəssisələrində, onların fəaliyyətində daimi yenilənmə

gedir. Son 30-35 il sübut edir ki, ötən əsrin sonlarından başlayaraq müasir firmaların innovasiya siyasətində elmi-texniki və istehsal-satış fəaliyyəti istiqamətində yeni meyllər özünü açıq surətdə göstərməyə başladı. Bu hər şeydən əvvəl özünü buraxılan məhsulun çeşidində satışla bağlı olan texniki xidmətlərin (injinirinq, mühəndis-məsləhət xidməti, lizinq, məsləhət və digər) genişləndirilməsi ilə müşayət olunan yeni elmtutumlu xüsusi çəkisini yüksəltməyə cəhd etməkdə göstərdi. Digər tərəfdən isə ənənəvi məhsullar istehsalına çəkilən xərclərin aşağı salınmasına cəhd edilməsindən özünü göstərməkdədir.

Qeyd edilən meyl və parametrlər öz güclərini yüksək texniki mürəkkəbliyə malik olan məhsulların işlənib hazırlanmasına və istehsalına cəmləşdirən (radio elektron texnikası, xüsusi ilə EHM və mikroprosessorlar, rabitə vasitələri, aviakosmik texnika, enerji avadanlığı, avtomatlaşdırma vasitələri və s.), ABŞ-ın maşınqayırma sahəsində fəaliyyət göstərən transmilli korporasiyalarının texniki siyasətində özünü qabarıq şəkildə göstərir. Onlar belə məmulatlar buraxılmasının inhisara alınması hesabına kapitalın tez bir zamanda amortizasiyasını təmin etməyə, maşın və avadanlıqlar bazarının ayrı-ayrı bölmələrində liderliyi saxlamağa cəhd edirlər. Eyni zamanda onlar rəqabət qabiliyyətini yüksəltmək məqsədilə maşınqayırmanın ənənəvi sahələrində istehsal xərclərinin əhəmiyyətli şəkildə aşağı salınmasına cəhd edirlər (5, səh 224).

İnnovativ sahibkarlığın məqsədlərinə çatmaq üçün innovasiyaların növlərindən istifadə edilir. Tətbiq edilən innovasiyanın predmeti nəzərə alınmaqla onun aşağıdakı növləri istifadə edilə bilər:

1) İqtisadi innovasiyalar;
2) Hüquqi innovasiyalar;
3) Təşkilati yeniliklər;
4) İdarəçilik yenilikləri;
5) Texniki-texnoloji innovasiyalar;
6) Sosial yeniliklər;
7) Ekoloji yeniliklər.

İnnovativ sahibkarlığın vəzifələrini uğurla reallaşdırmaq və məqsədlərinə çatmaq üçün istifadə edilən innovasiya növlərinin hər birinin öz mahiyyəti, öz mənası, istiqaməti üzrə yerinə yetirdiyi kompleks tədbirlər toplusu və s. vardır. Onların hər biri həm ayrılıqda, həm də kompleks şəkildə icra olunmaq, reallaşdırmaq üçün zəruridir. Çünki onların hər biri həm ayrı-ayrı sahələr və iqtisadi strukturlar üçün, həm də kompleks şəkildə bütün iqtisadiyyat üçün çox vacibdir.

İnnovativ sahibkarlığın əmtəə istehsalı üzrə məqsədlərinin reallaşdırılması üçün nəzərdə tutulan innovasiyalar texniki, sosial-iqtisadi, xidmət və kompleks tərkib hissələrini birləşdirir.

Bazar mövqeyinə görə innovasiyalar müəssisələr, region, ölkə və dünya miqyasında əhəmiyyəti baxımından fərqləndirilir. Bu, eyni zamanda elmi-texniki məhsullar bazarı üçün xarakterikdir.

Maddi-texniki resurslar, iş və xidmətlər bazarında olduğu kimi elmi-texniki məhsullar bazarının fəaliyyəti də bütövlükdə istehsal prosesinə, o cümlədən kənd təsərrüfatı istehsalına xidmət etməklə də əlavə vəsait qoyuluşu tələb edir. Yəni kənd təsərrüfatı istehsalçısının bu bazar növlərinin xidmətindən istifadə etməsi istehsal xərclərinin artımı ilə nəticələnir. Lakin bir məsələni qeyd etmək lazımdır ki, tələb və təklifdən asılı olaraq qiymətlərin dəyişmə tempi hər bir bazar növündə fərqlidir. Eyni zamanda bu müxtəliflik onların tətbiq olunduğu kənd təsərrüfatına da şamil edilir. Belə ki, kənd təsərrüfatı məhsullarının satışı prosesində qiymətlərin elə səviyyəsi yarana bilir ki, bu sahə istehsalçısı mənfəət əldə etmədən, bəzən də zərərlə bazarı tərk etməli olur. Xüsusilə tez xarab olan məhsullar üçün bu daha xarakterik məsələdir. Qeyd olunan digər bazarlarda belə məhsullara demək olar ki, rast gəlinmir. Bundan başqa kənd təsərrüfatı məhsulları bazarında qiymət bilavasitə tələb və təklif əsasında formalaşır və dəyişir (müəyyən inhisarçılıq halları istisna olmaqla). Digər bazar növlərində bu proses nisbətən fərqlidir. Belə ki, maddi-texniki resurslar bazarında təklif olunan əsas və dövriyyə fondlarının, xüsusilə texniki vasitələrin qiyməti tələb o qədər də həssas deyil. İş və xidmətlərin təklif olunan qiymət həddi nisbətən tələbə həssasdır. Yəni tələb qiymətlərin səviyyəsinə müəyyən qədər təsir göstərir (2, səh 136).

Elmi-texniki məhsullar bazarı əmtəələrinin qiymətlərinə tələbin dəyişməsinə çox cüzi təsir edir.

Çünki bu və ya digər elmi-texniki yenilik külli miqdarda vəsait qoyuluşu tələb edir. Əslində elmi-texniki məhsullar bazarı məhsullarına tələbat daim mövcuddur və durmadan artır. Lakin istehsalçının həmin məhsulları istehsalata tətbiq etmək imkanı, maliyyə vəsaiti heç də həmişə tələb olunan səviyyədə olmur.

Göründüyü kimi elmi-texniki məhsullar bazarında təklif olunan məhsula görə sərf olunan vəsaitin ödənilməsi bəzən uzun dövr, zaman tələb edir, hətta daim tələbat olsa belə. Ona görə də bu bazar növünün fəaliyyətinə, beləliklə, elmi-texniki yeniliklərin stimullaşdırılmasını təmin edəcək tədbirlər dövlətin daim diqqət mərkəzində olmalıdır.

Bütün qeyd edilənlərin əsasında belə bir nəticəyə gəlmək olar ki, innovativ sahibkarlıq iqtisadi inkişafın müasir mərhələsində dinamikanı təmin edən mühüm, zəruri parametrlərdən biridir və onun məqsədlərinin reallaşdırılması çoxşaxəli və mühüm əhəmiyyəti olan elementlərdən ibarətdir.

## ƏDƏBİYYAT

1. Atakişiyev M., Süleymanov Q., İnnovasiya menecmenti. Bakı: 2004. 395 səh.
2. Dinçer Ö. Stratejik yönetim ve işletme politikası. İstanbul: 2004, 246s.
3. Евдокимова Т.Г., Махавикова Г.А., Ефимова Н.Ф. Инновационный менеджмент, Санк Петербург, 2005, 425 стр.
4. Мединский В.Г. Инновационный менеджмент. Москва: 2004, 365 стр.
5. Швандар В.А., Горфинкел Б.А. Основы инноваций. Москва: 2005. 525 с.

## SUMMARY

**Mubariz Baghirov**

## INNOVATIVE DEVELOPMENT AS A PRIORITY OF ECONOMIC POLICY

The article reveals the essence of innovative entrepreneurship. Its role in economic development has been substantiated. The goals of innovative entrepreneurship are determined, the means, methods and forms of its implementation are explained. The necessary elements for achieving the goals of innovative entrepreneurship are indicated. Taking into account the subject of the applied innovation, a classification of species is given, the meaning of each of them is explained.

***Key words:*** *innovative entrepreneurship, innovation, macro-innovation, basic information, innovations-modifications, types of innovations*

## РЕЗЮМЕ

**Мубариз Багиров**

## ИННОВАЦИОННОЕ РАЗВИТИЕ КАК ПРИОРИТЕТ ЭКОНОМИЧЕСКОЙ ПОЛИТИКИ

В статье раскрывается сущность инновационного предпринимательства. Обоснована его роль в экономическом развитии. Определены цели инновационного предпринимательства, разъяснены средства, методы и формы его реализации. Указаны необходимые элементы для достижения целей инновационного предпринимательства. С учетом тематики применяемой инновации дается классификация видов, поясняется значение каждого из них.

***Ключевые слова***: *инновационное предпринимательство, инновация, макроинновации, зовая информация, инновации-модификации, виды инноваций*

**İSA ALIYEV**
*AMEA İqtisadiyyat İnstitutu*

# AQRAR SAHƏDƏ DAYANIQLI İSTEHSALIN TƏMİN OLUNMASI PERSPEKTİVLƏRİ HAQQINDA

*Məqalədə milli aqrar strategiyasının hazırlanmasının konseptual əsaslandırılması prinsipləri irəli sürülmüşdür. Bu əsasda isə aqrar sahənin davamlı inkişafı üçün təklif və tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *ərzaq təhlükəsizliyi, aqrar sənaye, milli-aqrar strateji və s.*

Bazar iqtisadiyyatı şəraitində aqrar sahənin uğurlu fəaliyyəti əhəmiyyətli dərəcədə istehsal olunan məhsulların satılması ilə əlaqədardır. Başqa sözlə, satış probleminin bu sahədə böyük rolu vardır. Təbii iqlim şəraitindən ciddi asılı olan bütün ölkələri əhatə etməklə dağınıqdırlar, şəhərlərdə toplanmış bazarlar isə kompaktdırlar. Dağınıq yerli istehsalçılar istər-istəməz bazar inhisarçılığı ilə üzbəüz dayanırlar. Bu inhisarçılıq həm satışda, həm də kənd təsərrüfatı texnikası və gübrələrin alınmasında özünü göstərir. Belə bir şəraitdə kənd təsərrüfatı məhsulları qiymətlərinə dövlət müdaxiləsi, bu məhsulların qiymət mexanizmi vasitəsilə dəstəklənməsi bütün dünyada aqrar sektorun dayanıqlı inkişafının əsasını təşkil edir. Belə müdaxilənin həyata keçirilməsi üçün inkişaf etmiş ölkələrdə hökumət orqanları bir sıra iqtisadi göstəriciləri, ilk növbədə ixtisaslaşdırılmış təsərrüfatlarda istehsal xərclərinin səviyyəsi (Avropa Birliyi ölkələrində), istehsal növləri (ABŞ-da), sənaye və kənd təsərrüfatı məhsulları qiymətləri arasındakı nisbətin, ferma və istehsal sahələrində gəlir səviyyəsini diqqətlə izləyirlər. Bu göstəriciləri izləmək üçün dövri olaraq xüsusi hesabatlar tərtib edilir və dərc edilir. Onlar diqqətlə öyrənilir və cari dövrdə kənd təsərrüfatı məhsullarının qiyməti sahəsində yeridilən qiymət siyasətinin əsasını təşkil edir.

Aqrar sahədə dayanıqlı geniş təkrar istehsalın təmin olunması üçün kreditə böyük ehtiyac vardır. Müasir şəraitdə kənd istehsalçılarının yalnız qısamüddətli kreditə deyil, həm də daha çox uzunmüddətli kreditə ehtiyacı böyükdür. Çünki gənc fermer təsərrüfatlarının ilkin əsas kapitala və dövriyyə kapitalına tələbatı çoxdur. Ona görə də müasir dövrdə kredit mexanizmindən geniş istifadə edilir, onun təşkilati strukturu yaradılmış, bu məqsədlə müvafiq kredit resursları ayrılmışdır.

Lakin müasir mərhələdə kənd təsərrüfatı müəssisələrinin kreditə böyük ehtiyacı olduğu halda mövcud bank-kredit təşkilatları bu ehtiyacı kifayət qədər ödəyə bilmək imkanına malik deyildir. Fermer təsərrüfatlarına və emal müəssisələrinə kredit yalnız girov qoyulan əmlakın sığorta olunduğu halda verilir. Lakin mövcud yüksək sığorta tarifləri, riskin səviyyəsini əks etdirərək fermer təsərrüfatlarının kredit almaq imkanlarını məhdudlaşdırır. Ona görə də kənd təsərrüfatına verilən kreditlər iqtisadiyyat sahələrinə yönəldilən kreditlərin hələlik 4-5 %-i səviyyəsindədir. Ziyanla işləyən təsərrüfatların sayı çox olduğu halda kreditlər üzrə faizlər yüksəkdir. Hökumətin kredit siyasəti kənd təsərrüfatı və emal müəssisələrinin kredit almaq imkanlarının daha da genişləndirilməsinə yönəldilmişdir. Nəzərə almaq lazımdır ki, ölkəmiz Ümumdünya Ticarət Təşkilatına üzv olmağa hazırlaşır. Həmin təşkilat isə kənd təsərrüfatı istehsalına subsidiyaların artırılmasına imkan vermir. Ona görə də fermerlərə yaxın gələcəkdə kredit mexanizmi vasitəsilə yardımın artırılması daha da aktuallaşacaqdır.

Qlobal iqtisadiyyata aqrar bölmənin dayanıqlı inkişafının təmin edilməsi böyük investisiya qoyuluşları ilə də əlaqədardır. Kənd təsərrüfatına investisiya qoyuluşları mütləq rəqəmlərlə sürətlə artsa da onun cəmi investisiyalarda payı 1%- dən aşağıdır.

Belə bir şəraitdə kənd təsərrüfatına kapital qoyuluşlarının ciddi sürətdə artırılması və ölkənin zəmanətli ərzaq təhlükəsizliyinin yaradılması əhəmiyyətli dərəcədə aqrar bölmənin özünün daxili imkanlarından daha səmərəli istifadə edilməsindən, bu imkanların hərəkət mexanizminin təkmilləşdirilməsindən asılıdır.

Eləcə də aqrar biznesdə təsərrüfat fəaliyyətinin nəticələri böyük ölçüdə istehsalın ixtisaslaşması və təmərküzləşməsi ilə əlaqədardır. Kənd təsərrüfatı istehsalında ixtisaslaşma və təmərküzləşmə iki

təmayülünün qarşılıqlı vəhdətindən asılıdır: bir tərəfdən ictimai əmək bölgüsünün dərinləşməsi daha dar ixtisaslaşmaya yardım edir, digər tərəfdən kənd təsərrüfatı istehsalının xüsusiyyətləri (mövsümiliyi, torpağın müstəsna rolu ilə bitkiçiliklə heyvandarlığın sıx qarşılıqlı əlaqəsi və s.) çoxsahəli müəssisələrin inkişafını tələb edir.

Qloballaşma şəraitində istər ölkə daxilində, istərsə də beynəlxalq miqyasda ərzaq bazarı uğrunda rəqabət mübarizəsi olduqca kəskinləşmişdir. Bu mübarizədə o ölkələr qalib gəlirlər ki, orada təmərküzləşmə getmiş və iri kənd təsərrüfatı müəssisələri, fermerlər, birliklər yüksək məhsuldarlığa malik texnika və texnologiyadan geniş istifadə edir və məhsuldarlığı ciddi sürətdə artırırlar. Nəzərə almaq lazımdır ki, ABŞ-da 8%-dən ibarət təsərrüfat subyektləri kənd təsərrüfatı məhsullarının 73,5%-ni əlində cəmləşdirmişdir. Ona görə də müasir dövrdə ərzaq bazarında xırda təsərrüfatlar deyil, məhz iri birləşmələr uğurlu rəqabət mübarizəsi apara bilərlər. Onların investisiya cazibədarlığı da yüksəkdir. Ölkəmizdə də iri təsərrüfat subyektləri aqrar bölmənin daxili imkanlarının üzə çıxarılmasını, az məsrəflə keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılmasını, insanların məişəti və mədəniyyətinin yüksəldilməsini təmin edə bilər. Lakin müasir şəraitdə ölkəmizdə bir kəndli (fermer) təsərrüfatına düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi orta hesabla 10 hektardan aşağıdır. Ona görə də iri aqrar sahənin inkişafı üçün birliklərin yaradılması, özəl kapital ilə yanaşı, dövlət dəstəyinin həyata keçirilməsi aqrar siyasətin tərkib hissələrindən biri olmalıdır. Nəzərə almaq lazımdır ki, Avropa ölkələri və ABŞ-da belə birliklərin maliyyələşməsinə ayrılan vəsaitlər onların istehsal xərclərinin təxminən 40%-ni təşkil edir.

Aqrar sahədə istehsalının müasir tələblərə uyğunlaşdırılması və dayanıqlı inkişafının təmin olunması, onun xarici əlaqələrinin səmərəliliyinin artırılması beynəlxalq iqtisadi inteqrasiya qanunları və şərtlərinə daha çox uyğunlaşdırılmasından asılıdır.

Ölkəmizdə ardıcıl olaraq dünya birliyinə inteqrasiya prosesləri sürətləndiyi bir şəraitdə kənd təsərrüfatının və aqrar sahənin səmərəli fəaliyyət göstərməsi üçün həm daxili, həm də xarici əlverişli iqtisadi mühit daha da yaxşılaşdırılmalıdır.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da kənd təsərrüfatının xarici əlaqələri son illərdə ciddi müsbət dəyişikliklər baş verməsinə baxmayaraq hələlik indiki imkanlar baxımından zəifdir. Kənd təsərrüfatı məhsullarının ticarət dövriyyəsi xarici ticarətin cəmi 2%-ni təşkil edir. Təsadüfi deyildir ki, müqayisəli üstünlüklər prinsipi əsasında xarici ticarət siyasəti ilə bu sahənin himayə edilməsi demək olar ki, bütün dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edir. Hal-hazırda ən mükəmməl iqtisadi inteqrasiya birliyi olan Avropa Birliyində inteqrasiya prosesləri ilk növbədə aqrar siyasətin uzlaşdırılması ehtiyacından doğmuşdur. Mütəxəssislər hesab edirlər ki, bu birlikdə inteqrasiya proseslərinin müvəffəqiyyəti ilk növbədə bu uzlaşdırmanın uğurlu nəticələri ilə əlaqədardır.

Dünya miqyasında inteqrasiya prosesləri respublikamız yaxın gələcəkdə ÜTT-na qoşulduqdan sonra daha da sürətlənəcəkdir. Bütün bu inteqrasiya proseslərində aqrar bölmənin xüsusi rolu və ehtiyaclarının daim diqqət mərkəzində olması çox vacibdir.

Ölkənin ərzaq təminatının dəyərləndirilməsi və qlobal proseslərin reallığından çıxış edərək iqtisadiyyat ərzaq strategiyası kontekstində proqnozlaşdırılan inkişaf səviyyəsinin təminatı, ərzaq resurslarının mümkün artımına nail olmaq, onlardan istifadənin səmərəliliyini, eləcə də ərzaq təminatını yüksəltmək kimi mühüm məsələnin həlli vacib sayılmalıdır. Ərzaq təminatının artırılması üçün fikrimizcə, aşağıdakı prioritetləri də nəzərdə tutmalıdır:

- Ərzaq təminatının təşkilati, texnoloji tədbirlərinin və iqtisadiyyatın bütün sahələrində ərzaq təminatından rasional istifadənin reallaşdırılması;
- Etibarlı və perspektivli mineral-xammal bazasının və milli ərzaq ehtiyat təminatının yaradılması;
- Ölkədə digər fond resurslarının əhəmiyyətli hissəsini bərpaolunan istehsal sahələrinə yönəltməklə təbii ərzaq ehtiyatları varisliyinin təmin edilməsi;
- Ərzaq Təminatının funksionallığının artırılması istiqamətində aqrar sahədə struktur yenidənqurmasının aparılması;
- Aqrar sahədə sahibkarlığın inkişafı üçün innovasiya fəaliyyəti və elmi-texniki işlənmələrin

genişləndirilməsi;

- Ərzaq təminatı üçün infrastrukturun reabilitasiyasına və modifikasiyasına nail olunması;
- Ərzaq təminatının ətraf mühitə neqativ təsirinin məhdudlaşdırılması, alternativ ərzaq mənbələrindən istifadə payının artırılması;
- Ərzaq sektorunda bazar münasibətlərinin inkişafını və əlverişli bazar şəraitini təmin edən təkmil normativ-hüquqi bazanın formalaşdırılması və inkişafı;
- Ərzaq bankı, ərzaq birjası və ərzaq təminatının digər mühüm struktur seqmentlərinin təsisatı;
- Ərzaq sektorunda aparılan iqtisadi islahatların dərinləşməsi və təkmilləşməsi sahəsində elmi tədqiqatların genişləndirilməsi;
- Dünya ərzaq təminatının müasir qlobal problemlərinin öyrənilməsində monitorinq sisteminin və informasiya bankının yaradılması.

## ƏDƏBİYYAT


1. Azərbaycan kənd təsərrüfatı statistik məcmuə. Bakı: 2019, s. 55
2. Alıyev İ.H. Qloballaşma şəraitində aqrar sahənin dayanıqlı inkişafının təmin olunmasının sosial-iqtisadi problemləri. Bakı: 2008, s. 5-6
3. Nuriyev Ə.X., Abdalova M.Ə. İqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşməsi ətrafında düşüncələr, təklif və tövsiyələr. Bakı: 2009, s.19


## SUMMARY

**I.Aliyev**

### NATIONAL AGRARIAN STRATEGY: ON CCONCEPTUAL SUBSTANTIATION AND PROSPECTS

The article examines the principles of the conceptual substantiation of the development of the national agrarian strategy are also put forward, and on this basis, proposals and recommendations for the sustainable development of the agricultural sector are presented.

***Key words***: *food security, agricultural industry, national agricultural strategy*

## РЕЗЮМЕ

**И.Алыев**

### НАЦИОНАЛЬНАЯ АГРАРНАЯ СТРАТЕГИЯ: О КОНЦЕПТУАЛЬНЫХ ОБОСНОВАНИЯХ И ПЕРСПЕКТИВАХ

В статье выдвигаются принципы концептуального обоснования разработки национальной аграрной стратегии и на этой основе приводятся предложения и рекомендации по устойчивому развитию аграрного сектора.

***Ключевые слова:*** *продовольственная безопасность, аграрная промышленность, национальная аграрная стратегия*

**NAZİM ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ahmadov47@mail.ru*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA APARILAN AQRAR İSLAHATLAR VƏ ONUN NƏTİCƏLƏRİ

*Konfrans materiallarında qeyd edilir ki, kənd təsərrüfatı Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında mühüm yer tutur. Muxtar respublikada istehsal olunan Ümumi Daxili Məhsulun 30 faizə qədəri bu sahədə istehsal olunur və iqtisadi fəal əhalinin isə təxminən 70 faizə qədəri bu sahədə çalışır.*

*Konfrans materiallarında muxtar respublikada aparılan aqrar islahatlardan, burada istehsal olunan bitkiçilik və heyvandarlıq məhsullarından söhbət açılır, habelə son 25 ildə bu sahədə əldə olunan nəticələr tədqiqat obyektinə çevrilir.*

***Açar sözlər**: kənd təsərrüfatı, aqrar islahatlar, kartof, ət, süd, tərəvəz, üzüm, bitkiçilik*

Kənd təsərrüfatı Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında mühüm yer tutur. Bu sahənin məhsullarının becərilməsi, onların emalı, idxal-ixrac əməliyyatları ilə az əlaqəlidir. Burada ətraf ərazilərlə əlaqə qurmadan yalnız kənd təsərrüfatı inkişaf etdirilə bilər və onun məhsullarını emal edən obyektlər şəbəkəsini yaratmaq olar. Bu sahə muxtar respublikanın ümumi daxili məhsulunun (ÜDM) 1/3 hissəsini verir, iqtisadi fəal əhalinin 2/3 hissəsi burada çalışır. Kənd təsərrüfatı məhsullarının becərilməsi üçün Naxçıvan Muxtar Respublikasında əlverişli iqlim şəraiti, yüksək temperatur, günəş radiasiyasının yüksək göstəriciləri, məhsuldar torpaqlar vardır. Burada əkinçilik yalnız suvarma şəraitində mümkündür. Bunun üçün çoxlu sayda su ambarları, kanallar, dəryaçalar yaradılmışdır. İstiliksevən kənd təsərrüfatı bitkiləri olan taxıl, üzüm, tütün, meyvə, bostan və tərəvəz bitkiləri yüksək məhsuldarlığı ilə seçilir.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının iqtisadiyyatın mühüm sahəsi kimi formalaşmasına bir neçə amil də təsir göstərir. Muxtar respublikada əhalinin 70 faizindən çoxu kəndlərdə yaşayır. Ona görə də kənd əhalisinin maddi rifahı bu sahənin inkişafı ilə müəyyən olunur. Kənd təsərrüfatı emal müəssisələrini xammal ilə təmin edir. Bu sahə əhalinin məşğulluğunda əhəmiyyətli rol oynayır. Onların ərzaq məhsulları ilə təminatı bu sahənin inkişafından asılıdır. Ona görə də muxtar respublikada kənd təsərrüfatının inkişaf etdirilməsi əsas prioritetlərdən sayılır.

Bu baxımdan XX əsrin axırlarında Azərbaycan Respublikasının müstəqillik əldə etməsi, yeni bir iqtisadi sistemə transformasiya olunması və ölkənin siyasi və iqtisadi sferalarını yeni şəraitə uyğunlaşdırmaq, qlobal və radikal islahatlar həyata keçirmək zəruri idi.

Ölkə əhalisini kənd təsərrüfatı məhsulları ilə və bütövlükdə ərzaq təhlükəsizliyinin təmin olunması məsələləri mühüm vəzifə kimi qarşıda dururdu.

Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması, bir milyondan çox əhalinin qaçqın və köçkün vəziyyətə düşməsi, Naxçıvan MR-in blokada şəraitinə salınması, anklav vəziyyətdə yaşaması vəziyyəti daha da çətinləşdirirdi.

Ona görə də bütün bunları nəzərə alaraq ulu öndərimiz Heydər Əliyev məhz 1991-ci ilin sentyabr ayından 1993-cü ilin ortalarına qədərki dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən aqrar islahatlara başladı.

Beləliklə, Azərbaycanda aqrar islahatlara ilk dəfə Naxçıvan MR-da başlandığından təsadüfi deyil ki, Naxçıvanı aqrar islahatların beşiyi adlandırırlar.

Ümummilli liderimiz Heydər Əliyev Ali Məclisin 1992-ci il aprel sessiyasında "Naxçıvan MR-da zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləməyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qəbul edilmiş qərarlar burada islahatların aparılmasının təməlini qoymuşdur. O zaman bu qərarların misilsiz əhəmiyyəti olmuşdur. Qəbul edilmiş həmin qərarlardan sonra təsərrüfatlarda olan mal-qara bütünlükdə özəlləşdirilərək

əhaliyə verildi və bu, o zamankı ağır şəraitdə mal-qaranın tələf olmasının və kütləvi qırılmasının qarşısını aldı, mal-qara itirilmədi, salamat saxlanıldı. [1, s.123]

Bunu xüsusilə qeyd etməyi vacib bilirik ki, əsası 1992-ci ildə qoyulmuş bu ənənə sonralar da davam etdirilmiş, aqrar islahatların aparılmasına gündəlik qayğı göstərilmiş, ona bilavasitə rəhbərlik edilmişdir.

Respublikamızda bir sıra digər məsələlər kimi torpaq islahatlarının həyata keçirilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Hələ 1992-ci ilin əvvəllərində Naxçıvan MR-da Heydər Əliyevin rəhbərliyi altında Culfa rayonunun Şurut və Gal kəndlərində torpaq islahatları həyata keçirildi. Lakin təəsüf ki, ulu öndərimizin atdığı bu mütərəqqi addımlar Azərbaycanın o zamankı rəhbərliyi tərəfindən qısqanclıq hissi ilə qarşılanaraq qəbul edilmədi. Yalnız 1993-cü ildən sonra Azərbaycanda bu sahədə əməli iş görülməyə başladı. Yəni 1993-cü ilin ortalarında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanda hakimiyyətə gələn ulu öndər Heydər Əliyev köklü islahatlara başladı. Bu sırada aqrar islahatlara xüsusi əhəmiyyət verən ümummilli liderimizin şəxsi qayğısı sayəsində bu islahatlar uğurla həyata keçirilməyə başladı.

İslahatların iqtisadi səmərəsindən danışarkən qeyd edilməlidir ki, Naxçıvan parlametində o vaxt uzaqgörənliklə qəbul olunan qərarların əhəmiyyəti həm də ondan ibarət oldu ki, ölkə miqyasında aqrar dəyişikliklərə "yaşıl işıq" yandırılanda artıq islahatların Naxçıvan təcrübəsi var idi. Artıq dörd il sonra ölkədə aparılan torpaq islahatlarında Naxçıvan təcrübəsindən istifadə edilərək bu proseslərin daha sürətlə aparılmasına imkan vermişdir.

Respublikada 1996-cı ildən torpaq islahatı aparılır. Bu islahatı aparmaq üçün yenə də H.Əliyevin təşəbbüsü ilə torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında torpaq islahatını təmin edən onun hüquqi bazası yaradıldı. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin müzakirəsinə verilmiş "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununun 1996-cı ilin 16 iyulunda qəbul edilməsi və 13 avqust 1996-cı ildə həmin qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə respublikada torpaq islahatlarının həyata keçirilməsi prosesi başlanmış oldu. Bundan sonra "Torpaq vergisi haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq bazarı haqqında", "Torpaq kadastrı, monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikası Qanunları, Azərbaycan Respublikası "Torpaq Məcəlləsi", "Aqrar islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı və digər 40-dan artıq fərman və hüquqi normativ aktların qəbul olunması ilə torpaq islahatlarının möhkəm hüquqi bazası yarandı. Bu sahədə qanunvericilik və onun icrası prosesi indi də davam edir.

Qeyd edək ki, Heydər Əliyevin torpaq islahatları MDB məkanında analoqu olmayan bir prosesdir. Respublikanın kənd təsərrüfatının inkişafında mühüm nailiyyətlər əldə edilməsinə səbəb olan bu islahatların digər dövlətlərdə həyata keçirilən analoji islahatlardan 3 mühüm fərqini göstərmək olar:

1. Azərbaycanda torpaq ulu öndərin təşəbbüsü ilə vətəndaşlara pulsuz olaraq əvəzsiz verildi;

2. Torpaqların ən yararlısı və keyfiyyətlisi özəlləşdirilir. Başqa sözlə, MDB məkanının digər ölkələrindən fərqli olaraq vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verildi;

3.Respublikamızın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq, torpaqlardan istifadə və icarə hüquqi verilir, eyni zamanda Azərbaycanın hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilə və əqdlərin bağlanmasında iştirak edə bilər.

Xüsusilə qeyd etmək lazımdır ki, məhz ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda ölkə vətəndaşı olmayan fiziki və hüquqi şəxslərə torpağa mülkiyyətçilik hüququ verilməmişdir ki, bu da nəinki mühüm iqtisadi, həmçinin ciddi siyasi əhəmiyyət daşıyır.

Bir məsələni xüsusi xatırlamaq yerinə düşər ki, ümummilli liderimiz Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildiyi gündən iqtisadi islahatların işlənib hazırlanmasını və ardıcıllıqla

həyata keçirilməsini öz fəaliyyətinin əsas amalı hesab etmişdir. Ona görə də o bütün inkişaf etmiş dünya ölkələrinin keçdiyi yolu təhlil edərək belə bir nəticəyə gəlmişdir ki, nicat yolu yalnız ictimai təsərrüfatları ləğv etmək və onları xüsusi mülkiyyətə çevirməkdən ibarətdir. Ulu öndərimiz iqtisadiyyatın başqa sahələrində olduğu kimi, kənd təsərrüfatının da perspektiv inkişafını məhz islahatların aparılmasında görürdü. Tarix göstərdi ki, o öz seçimində yanılmamışdır.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan MR-nın 75 illiyi münasibətilə keçirilən yubiley təntənələrində çıxış edərək demişdir: "İndi deyəndə ki, ət, süd, yağ, pendir artıqlaması ilə istehsal olunur, başına qalıb, satmağa imkan yoxdur, çünki çıxarıb başqa yerdə satmaq mümkün deyildir, mən buna nə qədər sevinirəm. Nə qədər sevinirəm ki, o vaxt biz özəlləşdirməni Azərbaycanın hər yerindən tez başladıq və Naxçıvan bu işlərə hamıdan qabaq nail oldu. Muxtar Respublikanın o qara günləri qurtardı".

Beləliklə, XX əsrin axırlarında öz müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası regional problemlərin inkişafına xüsusi diqqət yetirməyə başladı. Çünki regionlar inkişaf etmədən bütövlükdə ölkə iqtisadiyyatının inkişafından söhbət gedə bilməz. Bu baxımdan əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş regional siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Xüsusilə 2003-cü ildə Azərbaycan Prezidenti seçilən və Ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə qəbul olunan dörd dövlət proqramlarının son dərəcə operativ, dəqiq və uğurla icra edilməsində isə muxtar respublikamız bir nümunə kimi göstərilə bilər. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" və "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla icra olunmuşdur.

2019-2023-cü illər üçün təsdiq olunmuş 4-cü Dövlət Proqramının 1-ci ilinin yekunları onu deməyə əsas verir ki, bu proqram da müvəffəqiyyətlə yerinə yetiriləcəkdir.

Qeyd etmək lazımdır ki, 30 ildir tam anklav şəraitində yaşayan Naxçıvan iqtisadi rayonu yaşayır və özünün sürətli inkişafını davam etdirir.

Keçmişə nəzər saldıqda məlum olur ki, Naxçıvan Muxtar Respublikası tarixən aqrar region kimi formalaşmışdır. Aparılan tədqiqatlar göstərir ki, 90-cı ilin ortalarında muxtar respublikanın 4-5 növ məhsula olan tələbatının çox az bir hissəsi yerli istehsal hesabına ödənilirdi. Sonrakı illərdə aparılan iqtisadi islahatların nəticəsidir ki, artıq 2019-cu ilin yekunlarına görə muxtar respublikada 383 növdə məhsul istehsal olunur. Bu məhsulların 126 növü ərzaq, 257 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikasında 1992-ci ildən başlayan aqrar islahatlar sonrakı dövrlərdə daha da sürətlənmişdir. Beləliklə, aqrar islahatlar kənd təsərrüfatının inkişafına təkan vermiş və nəticədə muxtar respublikamız aqrar regiondan aqrar-sənaye regionuna çevrilmişdir.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı iqtisadiyyatında bitkiçilik sahəsi əsas yer tutur. Ona görə də torpaqlar əkin dövriyyəsinə cəlb edilməklə bitkiçilik məhsullarının əkin sahəsi genişləndirilir. Misal üçün demək olar ki, son 25 ildə muxtar respublikada əsas növ bitkiçilik məhsullarından dənlilər və dənli paxlalılar üzrə əkin sahəsi 12593 hektar, kartof əkin sahəsi üzrə 3028 hektar, tərəvəz üzrə 6034 hektar, bostan bitkiləri üzrə 2650 hektar əkin sahələri genişləndirilmişdir.

Əhalinin ərzaqla təminatı əsasən kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq məhsulları hesabına ödənilməlidir. Bitkiçilik və heyvandarlıq məhsullarına olan tələbatın yerinə yetirilməsi üçün torpaqdan və əmək ehtiyatlarından səmərəli istifadə etmək tələb olunur.

Ərzaq məhsullarının artırılmasında bitkiçilik və heyvandarlıq sahələri yanaşı fəaliyyət göstərərək eyni dərəcədə əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında son 28 ildə aparılan aqrar islahatlar öz bəhrəsini vermiş və bitkiçilik məhsulları istehsalı xeyli artmışdır.

Bazar iqtisadiyyatı şəraitində respublikamızda qarşıda duran ən mühüm vəzifələrdən biri də əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsidir. Bu baxımdan muxtar respublikada

heyvandarlığın inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Muxtar respublikamızın hər bir bölgəsində təbii-iqtisadi şərait və onun zəngin otlaq sahələrinin olması heyvandarlığı daha da inkişaf etdirməyə imkan verir. Ona görə də bu sahədə qarşıda duran ən mühüm vəzifələrdən biri də müxtəlif növlü təsərrüfatçılıq formalarında heyvandarlığı inkişaf etdirmək, məhsul istehsalını artırmaq və bu sahənin iqtisadi səmərəliliyini yüksəltməkdən ibarətdir. Bununla yanaşı, respublikamızın hər bir bölgəsində yaradılan müxtəlif növlü təsərrüfatçılıq formalarında heyvandarlıqda baş sayının artırılması, onun cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi bütün dövrlərdə, o cümlədən yeni iqtisadi münasibətlər şəraitində günün ən vacib məsələlərindəndir.

Muxtar respublika ərazisinin əsas hissəsini dağlıq ərazi təşkil etdiyindən dağlıq regionların iqtisadiyyatında heyvandarlıq mühüm rol oynayır. İndi qarşıda duran ən mühüm vəzifə aqrar sahədə fəaliyyət göstərən müxtəlif təsərrüfatçılıq formalarında zərərlə işləyən və aşağı rentabelli müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyini yüksəltməkdən ibarətdir.

Muxtar respublikamızda bitkiçiliklə yanaşı, heyvandarlığın inkişafı sahəsində də bir sıra mühüm işlər görülmüşdür. Ümumiyyətlə, kənd təsərrüfatının ikinci bir əsas sahəsini təşkil edən heyvandarlıq sahəsi əhalini ət, süd, yumurta, yağ və s. həyati əhəmiyyət kəsb edən məhsullarla təmin etməkdən başqa yeyinti və yüngül sənayeni qiymətli xammalla təmin etmişdir.

Heyvandarlıq bitkiçilik sahəsini üzvü kübrə ilə təmin edir, bitkiçilik sahəsi isə heyvandarlığı yemlə təmin edir. Ona görə də bu iki sahə bir-biri ilə sıx əlaqəli qurulmaqla yüksək məhsuldarlığa nail olunur. Heyvandarlığın yemlə təminatından danışarkən qeyd etmək lazımdır ki, heyvandarlıq məhsullarının istehsalı və onun artırılması ancaq etibarlı yem bazasının yaradılmasından asılıdır.

Heyvandarlıqda qüvvəli yemə tələbat əsasən dənli və dənli paxlalı bitkilər hesabına ödənilir.

Yem ehtiyatı mənbələrindən biri də heyvandarlıq məhsullarının emalı tullantıları təşkil edir.

Bütövlükdə respublikamızda və konkret olaraq Naxçıvan MR-da heyvandarlığın yem bazasının möhkəmləndirilməsi və görülən digər tədbirlər nəticəsində mal-qaranın sayı ildən-ilə artmaqda davam edir.

Naxçıvan Muxtar Respublikasında son 25 ildə aparılan aqrar islahatlar öz bəhrəsini vermiş və aşağıdakı nəticələr əldə edilmişdir. Belə ki, Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin verdiyi məlumatların təhlili göstərir ki, 1995-ci ilə nisbətən 2019-cu ildə bitkiçilik sahəsində:

- Dənlilər və dənli paxlalıların istehsalı 86160 ton və ya 3,7 dəfə;
- Kartof istehsalı 49692 ton və ya 125 dəfə;
- Tərəvəz istehsalı 85445 ton və ya 66,7 dəfə;
- Bostan məhsulları istehsalı 38451 ton və ya 96,1 dəfə artmışdır.

Habelə muxtar respublikada üzümçülük və meyvəçilik sahəsində də dəfələrlə artım qeydə alınmışdır.

Qeyd etmək lazımdır ki, bitkiçilik sahəsində məhsulların artırılmasında məhsuldarlığın artırılması da mühüm rol oynamışdır. Aşağıda verilən cədvəl məlumatlarının təhlili də bunu deməyə əsas verir:

**Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı, sentner/ha**

| | 1995 | 2000 | 2010 | 2018 | 1995-ci ilə nisbətən 1918-ci ildə artım, sen/ha |
|---|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalılar | 11,4 | 35,6 | 28,6 | 32,1 | 20,7 |
| Kartof | 20,0 | 93 | 138 | 154,2 | 134,2 |
| Tərəvəz | 61,5 | 88 | 104 | 138,5 | 77 |
| Bostan məhsulları | 31,6 | 136 | 142 | 139,5 | 107,9 |
| Meyvə və giləmeyvə | 2,8 | 141,6 | 131,9 | 134,2 | 131,4 |
| Üzüm | 35,1 | 92,7 | 141,2 | 140,9 | 105,8 |

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumatlardan aydın olur

ki, muxtar respublikada kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı yüksələn xətlə inkişaf etmişdir. Belə ki, muxtar respublikada dənli və dənli paxlalı bitkilər üzrə məhsuldarlıq 1995-ci ildəki 11,4 sent/ha-dan 2018-ci ildə 32,1 sent/ha-ya qalxmış və ya 20,7 sent/ha artmışdır. Eynilə kartofun məhsuldarlığı son 24 ildə 134,2 sent/ha, tərəvəzin məhsuldarlığı 77 sent/ha, bostan bitkilərinin məhsuldarlığı 107,9 sent/ha, meyvə və giləmeyvələrin məhsuldarlığı 131,4 sent/ha, üzümün məhsuldarlığı isə 105,8 sent/ha artmışdır.

**Naxçıvan MR-də mal-qaranın sayı (2020-ci ilin yanvarın 1-nə, min baş)**

| Göstərici | 1995 | 2007 | 2014 | 2018 | 2019 | Artım sayı | Dəfə |
|---|---|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qara (min baş) | 55500 | 99,2 | 107632 | 113916 | 115620 | 60120 | 2,1 |
| Qoyun və keçilər (min baş) | 278700 | 599300 | 646344 | 692530 | 704057 | 425357 | 2,5 |

Beləliklə, son 25 ildə muxtar respublikada heyvandarlığın inkişafını təhlil edərək aşağıdakı nəticəyə gəlmək olar:

1. İribuynuzlu malqaranın sayı 1995-ci ildən 55500 başdan 1 yanvar 2020-ci il tarixə 115620 başa çatmış və ya son 25 il ərzində 60120 baş artmışdır.
2. Qoyun və keçilərin sayı 1995-ci ildəki 278700 başdan 1 yanvar 2020-ci il tarixə 704057 başa çatmış və ya son 25 il ərzində 425357 baş artmışdır.

**Naxçıvan Muxtar Respublikasında 1995-2019 illərdə heyvandarlıq məhsullarının istehsalı, ton**

| Göstəri | 1995 | 2007 | 2014 | 2018 | 2019 | Artım, ton | |
|---|---|---|---|---|---|---|---|
| Ət(diriçəkə), ton | 55890 | 16088,5 | 19882,3 | 27615,3 | 28420,6 | 22832 | 5,1 |
| Süd, ton | 34938,0 | 70254,2 | 78929,4 | 83967,1 | 85637,4 | 50699 | 2,4 |

Əlbəttə ki, Naxçıvan Muxtar Respublikasında heyvanların sayının sürətli artımı heyvandarlıq məhsullarının da artmasına gətirib çıxarmışdır. Belə ki:

1. Ət istehsalı (diri çəkidə) 1995-ci ildəki 5589 tondan 2019-cu ildə 28421 tona çatmış və ya son 25 il ərzində ət istehsalı 22832 ton artmışdır.
2. Süd istehsalı 1995-ci ildəki 34936 tondan 2019-cu ildə 85637 tona çatmış və ya son 25 ərzində süd istehsalı 50699 ton artmışdır.

Yekun olaraq belə qənaətə gəlmək olar ki, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin gündəlik qayğısı nəticəsində 1992-ci ildən başlayan aqrar islahatlar uğurla həyata keçirilmiş və ərzaq təhlükəsizliyi təmin edilmişdir.

**ƏDƏBİYYAT**

1. Əhmədov N.H. Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı. Naxçıvan: “Əcəmi”, 2019, s.123, s.162
2. Əhmədov N.H. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə. Naxçıvan: Əcəmi, 2015, 272 s.
3. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri. Bakı: Kooperasiya, 2017, 536 s.
4. “Şərq qapısı” qəzeti. 2007-2009-cu ilin nəşrləri
5. “Şərq qapısı” qəzeti, 30 yanvar 2020
6. Əliyev H. Azərbaycan iqtisadiyyatı. Bakı: 1997

## SUMMARY

**N. Ahmadov**

## AGRARIAN REFORMS IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC DURING INDEPENDENCE YEARS AND THEIR RESULTS

In the conference material it is mentioned that, agriculture takes an important place in the economy of the Nakhchivan Autonomous Republic. Up to 30% of the Gross Domestic Product in the autonomous republic is produced in this field, and up to 70% of economically active population work in this economic space.

In the conference material, agrarian reforms carried out in the autonomous republic, plant-growing and husbandry products produced here are mentioned; also, the results gained during the last 25 years in this field become the subject of the study.

***Key words:*** *agriculture, agrarian reforms, potato, meat, milk, vegetable, grape, plant-growing*

## РЕЗЮМЕ

**Н.Ахмедов**

## ПРОВОДИМЫЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ АГРАРНЫЕ РЕФОРМЫ И ИХ РЕЗУЛЬТАТЫ

В материалах конференции отмечается, что сельское хозяйство в Нахчыванской Автономной республике занимает важное место. До 30 процентов производимой в автономной республике Общей Валовой Продукции производится в этой отрасли, а также в этой отрасли трудится до 70 процентов экономически активного населения.

В материалах конференции говорится об аграрных реформах, проводимых в автономной республике, о производимых здесь продуктах растениеводства и животноводства.

***Ключевые слова:*** *сельское хозяйства, аграрные реформы, картофель, мясо, молоко, овощи, виноград, растениеводство*

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ashraf@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI HƏYATA KEÇİRİLƏN İSLAHATLARIN MƏNTİQİ NƏTİCƏSİDİR

*Qloballaşma şəraitində ölkəmizin beynəlxalq münasibətlər sisteminə uğurlu inteqrasiyasını təmin etmək, iqtisadiyyatın bütün sahələrində rəqabətə davamlı məhsulların istehsalını tələb edir. Bu gün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni bir mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında bölgələrdə sahibkarlığın inkişafı təmin edilmişdir. Azərbaycan Respublikasının bir bölgəsi kimi Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin milli və iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsas, şərtlərindən biridir.*

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, sosial-iqtisadi inkişaf, qloballaşma, iqtisadi islahatlar, yerli istehsal*

Qloballaşma şəraitində ölkəmizin beynəlxalq münasibətlər sisteminə uğurlu inteqrasiyasının təmin edilməsi iqtisadiyyatın bütün sahələrində rəqabətədavamlı məhsul istehsalının həyata keçirilməsini tələb edir. Rəqabətədavamlı məhsul istehsalının həyata keçirilməsi isə, əsas etibarilə daxili və xarici bazarda yerli istehsalın mövqelərinin möhkəmləndirilməsini nəzərdə tutur. Təbii ki, məhsulun keyfiyyətinin yüksəldilməsi, onun qiymətinin xarici bazarlarda əlyetərli olması beynəlxalq analoqlarla müqayisədə onun daha sürətlə reallaşdırılmasını özündə əks etdirir.

Bu gün özünün sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş Azərbaycan Respublikasında regionlarda sahibkarlığın inkişafı təmin edilmiş, oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olunmuşdur.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi inkişafın sürətləndirilməsi ölkənin milli-iqtisadi təhlükəsizliyinin təmin edilməsinin başlıca, ilkin şərtlərindən biri kimi çıxış edir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının ötən dövrdə muxtar respublika rəhbərliyi tərəfindən ardıcıl şəkildə həyata keçirilməsi, bütövlükdə sosial-iqtisadi inkişafın müvəffəqiyyətini təmin etmiş, eyni zamanda muxtar respublikada yeni iş yerlərinin açılması, əhalinin gəlirlərinin artırılması, sosial infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində bir sıra uğurlu və məqsədyönlü islahatlar aparılmışdır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri, ictimai həyatın bütün fəaliyyət istiqamətlərində əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir.

Ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı özünəməxsusluğu ilə fərqlənir. Bədnam Ermənistan Respublikasının Azərbaycan Respublikasının ərazi bütövlüyünə təhdid yaradan tutumu nəticəsində ölkənin əsas hissəsindən ayrı düşərək iqtisadi və nəqliyyat əlaqələri baxımından blokada şəraitində yaşamağa məhkum olunmuş muxtar respublika mövcud çətinliklərə baxmayaraq Azərbaycanda həyata keçirilən genişmiqyaslı quruculuq prosesində fəal iştirak edir. Sosial-iqtisadi inkişaf sahəsində Naxçıvan Muxtar Respublikasında iri miqyaslı müvəffəqiyyətlər əldə edilmişdir. Bütün bunlar iqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsulun artımında öz ifadəsini tapmışdır. Belə ki, 2020-ci ilin ilk yarımilində Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsulun istehsalı 1 milyard 310 milyon 168 min 700 manat olmuş, onun adam başına düşən həcmi isə 2847,6 manat təşkil etmişdir.

Muxtar respublika iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsalyönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın, əsasən, yerli istehsal məhsulları hesabına təmin edilməsinə, yerli xammal və materiallardan istifadə əsasında istehsal potensialının gücləndirilməsinə iqtisadi stimul yaradılmışdır. Nəticə etibarı ilə 2020-ci ilin ilk

yarımilində muxtar respublikada ötən ildəki dövrə nisbətən artım müşahidə edilmiş, 561 milyon 563 min 200 manat dəyərində sənaye məhsul istehsal olunmuş, 152 milyon 23 min ABŞ dollarından çox sənaye məhsulu ixrac olunmuşdur.

Muxtar respublikada sənaye sahəsində həyata keçirilən islahatların başlıca məqsədi əvvəllər tikilmiş olan sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, yeni müəssisələrin yaradılmasından, sənaye məhsullarının artan istehsalının təşkilindən, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi tədbirlərini həyata keçirməklə sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur.

Bu dövr ərzində kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılmasına və bu əsasda da ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilmişdir. Muxtar respublika rəhbərliyi tərəfindən qəbul olunan dövət proqramları, davam etdirilən iqtisadi islahatlar kənd təsərrüfatının bütün sahələrinin dinamik inkişafına təkan vermişdir. Dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına subsidiyaların, güzəştli kreditlərin verilməsi, damazlıq heyvanların gətirilməsi və fermerlərə 50 faiz güzəştli qiymətlə satılması, müxtəlif növ kənd təsərrüfatı texnikalarının, texnoloji avadanlıqların lizinq yolu ilə təklif olunması bu sahədə həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Bütün bunlar ərzaq məhsullarının istehsalında artıma və hər bir vətəndaşın keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarına tələbatının tam ödənilməsinə şərait yaradır. Qeyd olunanlar sosial-iqtisadi inkişafı xarakterizə edən rəqəmlərdə də öz əksini tapmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin ilk yarımilində öncəki ilə nisbətən yenə iqtisadi artım müşahidə edilmiş, nəticədə 139 milyon 886 min manatdan çox kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 40 milyon 629 min 800 ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulları isə ixrac olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında müvəfəqiyyətlə reallaşdırılan iqtisadi siyasət qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın artım dinamikasına təkan vermiş, əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Sənaye müəssisələrinin fəaliyyəti bərpa edilmiş, rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılması ciddi şəkildə təşviq olunmuş, sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması prosesi gücləndirilmiş, özəlləşdirmədən sonrakı mərhələdə müəssisələrin fəaliyyəti müntəzəm əsasda dəstəklənmiş, sənaye müəssisələrinin maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsi üçün səmərəli kredit mexanizmi qurulmuş, satış problemlərinin həlli üçün sistemli tədbirlər görülmüş, yerli və xarici bazarlara çıxış imkanları sadələşdirilmiş, dövlət strukturlarının sənaye, xüsusilə də yüngül və yeyinti sənayesi məhsullarına olan tələbatının ödənilməsi prosesi üzrə dövlət sifarişləri ilk növbədə yerli sənaye mallarına yönəldilmiş, elektroenergetika və təbii qaz infrastrukturu tamamilə yenilənmişdir.

Sosial-iqtisadi inkişafa bu cür kombinə edilmiş yanaşma və irimiqyaslı quruculuq proseslərinin nəticələri muxtar respublika iqtisadiyyatında və sosial sahədə əldə edilmiş uğurlara yenilərinin əlavə olunmasına təminat verir. Həyata keçirilən məqsədyönlü tədbirlər, elmi nəzəriyyəyə və təcrübəyə söykənən konsepsiya əsasında aparılan köklü iqtisadi islahatlar, qəbul olunmuş proqramların uğurlu icrası onu deməyə əsas verir ki, gələcəkdə də Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı artan templə öz dinamikasını qoruyub saxlayacaqdır.

## ƏDƏBİYYAT

1. Məmmədov Q.Ş. Azərbaycanda aqrar islahatlar. Tənəzzüldən ərzaq təhlükəsizliyinə doğru. Bakı: Azərnəşr, 2011, 352 s.
2. Əlirzayev Ə.Q. İslahatlar və sürətləndirmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər. Bakı: 2005, 538 s.
3. İbrahimov İ.H. Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri. Bakı: 2007, 296 s.
4. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: 2003, 520 s.
5. http://statistika.nmr.az

## SUMMARY

**A. Alakbarov**

**SOCIO-ECONOMIC DEVELOPMENT OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IS A LOGICAL CONSEQUENCE OF THE REFORMS IMPLEMENTED**

Ensuring the successful integration of our country into the system of international relations in the context of globalization requires the production of competitive products in all sectors of the economy. Today, the development of entrepreneurship in the regions has been ensured in the Republic of Azerbaijan, which has entered a qualitatively new stage in its socio-economic development. Acceleration of socio-economic development in the Nakhchivan Autonomous Republic, as a region of the Republic of Azerbaijan, is one of the main, prerequisites for ensuring the national and economic security of the country.


***Key words:*** *Nakhchivan Autonomous Republic, socio-economic development, globalization, economic reforms, local production*


## РЕЗЮМЕ

**А.Алекбаров**

**СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ ЛОГИЧНЫЙ РЕЗУЛЬТАТ ПРОВОДИМЫХ В ЖИЗНЬ РЕФОРМ**

Обеспечение успешной интеграции нашей страны в систему международных отношений в условиях глобализации требует осуществления производства конкурентоспособной продукции во всех отраслях экономики. Сегодня в регионах Азербайджанской Республики, вступившей в качественно новый этап своего социально-экономического развития, обеспечено развитие предпринимательства. В Нахчыванской Автономной Республике, как в одном из регионов Азербайджанской Республики, ускорение социально-экономического развития выступает как одно из важных условий в обеспечении национально-экономической безопасности страны.


***Ключевые слова:*** *Нахчыванская Автономная Республика, социально-экономическое развитие, глобализация, экономические реформы, местное производство*

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*dilsuzqasimli@gmail.com*

# AQRAR SAHƏNİN İNKİŞAFINDA İNNOVASİYA MEXANİZMİNİN ROLU

*Azərbaycan hökumətinin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri müasir dövrdə innovativ iqtisadiyyatı sürətləndirməkdən, modernləşdirmə xəttinə uyğun olaraq ölkəmizdə ən qabaqcıl texnologiyaların tətbiq olunmasından və nəticədə regional miqyaslı proqramların icrasına nail olmaqdan ibarətdir.*

*Məqalədə respublikamızda aqrar sahənin artım dinamikasının dəyişməsi prosesindən, müstəqillik dövründə qəbul edilən çevik qərarların müsbət nəticəsindən, dünya praktikasının ən son nümunələrin və sürətli inkişafın ahənginə uyğun qabaqcıl innovasiyaları aqrar sahənin inkişafının sürətlənməsinə yönəltməkdən bəhs olunur.*

***Açar sözlər:*** *İnnovativ iqtisadiyyat, qabaqcıl texnologiya, məhsuldarlıq, kənd təsərrüfatı təyinatlı ərazilərin strukturu, kənd təsərrüfatına yararlı torpaqlar*

Respublikada aparılan aqrar islahatlar nəticəsində hazırda kənd təsərrüfatı məhsullarının istehsalının daha da artırılmasının, məhsuldarlığının daha da yüksəldilməsinin geniş potensial imkanları əmələ gəlmişdir. Bu potensial imkanlardan istifadə etmək üçün aqrar sahədə yeni texnologiyaların tətbiqi, elmi-innovativ tədqiqatların aparılması bu gün aktual bir məsələ kimi qarşıya qoyulmuşdur. Tədqiqat çərçivəsində elmi-texniki ideya və tədqiqatların tətbiqinin aqrar sahədə məcmu gəlirin artırılmasına təsiri ən müasir, innovativ iqtisadi inkişafı xarakterizə edən müasir riyazi modellərin köməkliyi ilə kəmiyyət baxımından qiymətləndirilməsidir. Bu səbəbdən istənilən ölkənin iqtisadi təhlükəsizliyi birbaşa kənd təsərrüfatının dayanıqlı inkişafından asılıdır. Dünya əhalisinin sürətlə artdığı, qlobal iqlim dəyişikliyinin intensivləşdiyi hazırkı dönəmdə dövlətlərin effektiv fəaliyyət göstərən aqrar sektora ehtiyacı daha qabarıq hiss olunur. Effektiv aqrar sektor iqtisadiyyatın az resurslar sərf etməklə daha yüksək kənd təsərrüfatı məhsulları istehsalına nail olmağı nəzərdə tutur. Bu mənada beynəlxalq təcrübədə eyni təbii və iqtisadi şəraitə malik olan müxtəlif ölkələrin kənd təsərrüfatında istehsalın məhsuldarlığının aşağı, yaxud yüksək olması həmin ölkələrin aqrar siyasətinin nə dərəcədə effektiv olmasını göstərir (1).

Aqrar sektor Azərbaycan iqtisadiyyatının çox mühüm sferası kimi ÜDM-in təxminən 5-6%-ni, məşğulluğun isə təxminən 37-40%-ni formalaşdırır. Əhalinin istehlak fondunun ən azı üçdə ikisi bilavasitə bu sektor hesabına təmin olunur Aparılan davamlı tədqiqatlar nəticəsində aqrar sahədə innovativ xarakterli elmi-texniki yeniliklərin təsiri altında məsrəflərin minimallaşdırılması, əldə olunan gəlirlərin maksimallaşdırılması məsələsi öz həllini tapmaqdadır (2).

Aqrar sektorun inkişafı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi “Azərbaycan-2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasında da əsas istiqamətlərdən biri kimi qeyd olunur. Aqrar sektorun ölkə iqtisadiyyatındakı rolu baxımından qiymətləndirdikdə bu sektorda aparılan islahatların nə qədər zəruri olduğu açıq şəkildə ortaya çıxmış olur. Aqrar sektor ilk növbədə sənaye sektoru müəssisələrinin əsas xammal mənbəyidir, ölkə əhalisinin zəruri istehlak məhsullarının böyük bir qismini təmin edir, ölkəmizdə olduğu kimi istehsalın əməktutumlu olduğu ölkələrdə iş qüvvəsinin böyük bir hissəsinin məşğulluğunu təmin edir, bir sıra sənaye məhsullarına olan daxili tələbin həcmini artırır, böyük bir hissəsi ixrac olunduğundan ölkəyə xarici valyuta axınına səbəb olur, ən nəhayət, ölkənin ərzaq və iqtisadi təhlükəsizliyinin qarantı rolunu oynayır (5).

Azərbaycanın aqrar islahatlar dövrünün tam təsvirini belə müəyyənləşdirmək olar: iqtisadi yüksəliş (ÜDM timsalında), iqtisadi yüksəlişdə son on ilin dinamikası, bu dinamikada aqrar sahənin payı, son on ildə aqrar sahənin ayrılıqda dinamikası, innovasiya əsaslı iqtisadi yüksəlişin nəzəriyyə və metodologiyası və onların inkişaf etdirilməsi, innovasiya əsaslı iqtisadi yüksəlişdə aqrar sahənin payı (6).

Aqrar sektorun dinamik inkişafını təmin etmək üçün hüquqi, sosial-iqtisadi baza yaradılmışdır. Yerlərdə fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatları, kənd təsərrüfatı istehsal kooperativləri, ailə

təsərrüfatları mövcud təbii-iqtisadi potensialdan tam və səmərəli istifadə etmək üçün geniş imkanlar açmışdır. Müasir iqtisadi və sosial inkişafın əsasında innovasiya fəaliyyətinin aktivləşməsi və innovasiya texnologiyalarının, məhsul və xidmətlərin geniş yayılması durur. Hazırda dünya üzrə ümumi daxili məhsul artımının 70%i innovasiya texnologiyalarının yaranması və idarə olunmasına istiqmətlənən yeni biliklərin payına düşür (4). Bununla yanaşı, fikrimizcə, innovasiya fəaliyyətinin qanunauyğunluqlarının və xüsusiyyətlərinin təsviri üçün xüsusi metod və modellərdən istifadə edilməlidir.

Azərbaycanın kənd təsərrüfatı sözün əsl mənasında çox güclü potensiala malikdir. Müvəffəqiyyətlə həyata keçirilmiş torpaq islahatı və digər bu kimi faktorlar aqrar sahədə özəl bölmənin daha da inkişafı üçün geniş imkanlar açmışdır (3). Aparılan ilkin təhlillər onu göstərmişdir ki, aqrar sahədə innovasiya fəaliyyəti aşağıdakı səmərələri yaradır: iqtisadi, sosial, ekoloji, texniki, texnoloji, ticari, büdcə və s. Bu səmərələr isə öz növbəsində aqrar sahədə intensiv inkişaf artımını formalaşdırır.

Xüsusi ilə qeyd olunmalıdır ki, inkişafın iki növü vardır: ekstensiv və intensiv. Ekstensiv inkişafda istehsal vasitələri əmək resurslarının artımı ilə mütənasiblik təşkil edir, intensiv inkişafda isə əmək resurslarının artım tempi istehsal vasitələrinin artım sürətini üstələyir. Beləliklə, aqrar sahənin iqtisadi inkişaf tempi iki komponentdən ibarət olur. Yeni texnologiyaların, elmi-innovativ xarakterli tədqiqatların nəticələrinin tətbiqi aqrar sahədə intensiv inkişaf tempinə öz təsirini göstərir. İnnovasiyalar dedikdə yeni elmi texniki ideyalar, yeni məhsullar, yeni texnologiyalar, yeni istehsal prosesi, yeni bazarların açılışı başa düşülür. İnnovasiyalar yaranmış qiymət, xərclər, gəlirlər sisteminin dəyişilməsinə gətirib çıxaracaq tarazlığı pozmağa qadirdir. Nəticədə qeyri-rentabelli məhsul dövriyyəsi dayanır və demək olar ki, o tamamilə istisna edilir, fasiləsiz olaraq bazar prosesini dəstəkləyən innovasiya mexanizmi stimullaşdırılır. "İnnovasiya iqtisadiyyatı (biliklər iqtisadiyyatı, intellektual iqtisadiyyat) – iqtisadiyyatın innovasiya axınına, daimi texnoloji təkmilləşməyə, çox yüksək əlavə dəyərli yüksək texnologiyalı məhsulun və texnologiyaların özlərinin istehsalı və ixracına əsaslanan növüdür. Səmərəli məhsuldarlıq, bioloji məhsuldarlıq və hətta hər hektar üçün məhsuldarlıq bitkilərdə olan xəstəliklər və ya zərərvericilərə görə aşağı düşür. Hər hektardan əldə olunmuş səmərəli məhsuldarlığın əkin sahəsinə vurulmasından biz ümumi məhsuldarlığı müəyyən edirik. Ümumi məhsul əlavə məhsul dəyərinə vurulur əldə olunan gəlir kənd təsərrüfatında məhsul (qida emal) istehsalını və ya ümumi əlavə dəyəri verir (7).

Son zamanlar Avropa İttifaqının aqrar siyasətinin əsas istiqamətlərindən biri kənd təsərrüfatının ekologiyalaşdırılmasıdır. Bu mineral gübrələrin və pestisidlərin tətbiqi olmadan becərilən ekoloji təmiz qida məhsullarına tələbatın artımı ilə bağlıdır. Məsələn, Böyük Britaniyada bütün tələbatın 1/4-ni belə məhsullar təşkil edir. Azərbaycanda innovasiya əsaslı aqrar-iqtisadi yüksəlişi təmin edən elmi strategiyanın əsas komponentlərindən biri də bitkiçilikdə yeni səmərəli əkinçilik texnologiyalarının tətbiqi ilə məhsul həcmini və məhsuldarlığı artırmaqla yanaşı, məhsulun keyfiyyət göstəricilərini yaxşılaşdırmağa istiqamətlənən innovasiya xarakterli yeni elmi tədqiqatların aparılmasıdır. Bu tədqiqatlar içərisində keyfiyyətli məhsul istehsalına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə çox mühüm təsir göstərən genetik təmiz (və ya genetik təmizlənmiş) sortlardan daha geniş istifadə edərək ümumi istehsalda onların xüsusi çəkisinin artırılmasıdır.

Tədqiqat zamanı iqtisadi innovativ xarakterlə yanaşı, sosial xarakter də olması üçün bitkiçilik məhsulları içərisində minimal istehlak səbətinə daxil olan bitki komponentlərinə baxılması nəzərdə tutulur. Kənd təsərrüfatı bitkilərindən yüksəkkeyfiyyətli və davamlı, ekoloji təmiz məhsulun alınmasını təmin edən sistemin formalaşdırılması üçün tədqiqatların aparılması və bu tədqiqatlara informasiya texnologiyalarının, müasir innovativ seçmə üsullarının tətbiqi nəzərdə tutulmalıdır.

Nəzərə almaq lazımdır ki, bitki növləri ilkin araşdırmalar nəticəsində aşağıdakılara əsaslanır: dənli taxıl bitkiləri (buğda, arpa və s.), dənli paxlalılar (noxud, soya, mərcimək, lobya və s.), tərəvəz-bostan bitkiləri (pomidor, xiyar, yemiş, qarpız, kartof və s.). Müvafiq tədqiqatlar aparılmış, bölgələrin ilkin xarakteristikalarına uyğun, ölkə üçün prioritet sayılan bitki növlərinin Azərbaycanda yaradılmış və kolleksiyalarda olan bitki nümunələrindən istifadə edilməlidir. Bu məqsədlə toplanmış məlumatlar və yaradılmış innovasiya modelləri əsasında iqlim, torpaq, su və s. resurslardan səmərəli istifadə mexanizmləri təklif olunur.

Tədqiqatda onun xarakterinə və məqsədlərinə müvafiq olaraq seçilmiş bitki aqrobiomüxtəlifliyinin sort, hibrid və formalarının qiymətləndirilməsi və nəticələrin məlumat bazalarında cəmləşdirilərək təhlil edilməsi metodlarından istifadə edilir. Kənd təsərrüfatı bitkilərindən yüksək keyfiyyətli və davamlı, ekoloji təmiz məhsul alınmasını təmin edən sistemin formalaşdırılması üçün iri həcmli tədqiqatların aparılması və bu tədqiqatlara informasiya texnologiyalarının, müasir innovativ seçmə üsullarının tətbiqi vacibdir (8).

Kənd təsərrüfatında bitkilərin məhsuldarlığına təsir edən əsas amillər olaraq əkin sahəsinin düzgün seçilməsi, suvarma suyundan düzgün istifadənin, su stressinin təsiri, torpağa verilən üzvi və mineral gübrə normalarının standartlara uyğun nizamlanması, torpağın keyfiyyətinin müəyyənləşdirilməsi və s. qarşılıqlı əlaqənin düzgün tənzimlənməsi aqrar sahənin inkişaf etdirilməsində vacib rol oynayır. Əgər verilən tələblər pozularsa və ya bir-biri ilə əlaqələndirilməzsə, bu kənd təsərrüfatında məhsul istehsalının azalmasına səbəb olar.

Respublikada suvarılan sahələrin demək olar ki, 40%-i eroziyaya, 57.7%-i isə şoranlaşma, səhralaşma - bir sözlə, deqradasiya prosesinə məruz qalmışdır. 0.195 ha əkin yeri və 0.53 ha kənd təsərrüfatına yararlı torpaq sahəsini nəzərə alaraq, habelə ərzaq təhlükəsizliyi probleminin həll edilməsi məqsədi ilə əkin sahələrindən daha səmərəli istifadə olunması və onun digər məqsədlər üçün ayrılması qadağan olunmalıdır. Bundan ötrü mövcud torpaq sahələrinin səhralaşma, eroziya və şoranlaşmasının qarşısı alınmalıdır. Eyni zamanda yararsız torpaqlar bərpa olunmalıdır. Amma onu da nəzərə almaq lazımdır ki, bu sahələrin yenidən bərpa olunması üçün uzun müddət və böyük vəsait lazımdır. Torpaqların şoranlaşması müxtəlif amillərdən baş verir və ölkəmizdə bu problemin genişlənməsinin əsas səbəbi insanın düzgün olmayan fəaliyyətinin nəticəsidir: Kür-Araz ovalığında qrunt sularının səviyyəsi torpaq səthinə çox yaxındır. Suvarmanın düzgün aparılmaması nəticəsində suların səviyyəsi qalxır, bu zaman su özü ilə yuyulub dərin qatlara getmiş duzları üzə qaldırır. Havalar isinəndən və yaxud da yağışlar ara verəndən sonra suların səviyyəsi aşağı düşür, lakin duzlar torpağın səthində qalır (8).

Torpaqların düzgün istifadə olunmaması, torpaqda düzgün meliorativ tədbirlərin aparılmaması, suvarma sistemlərinin düzgün təşkil olunmaması - bir sözlə, torpağa qulluq qaydalarına düzgün riayət olunmaması şoranlığın artmasına səbəb olur. Buna görə suvarılan ərazilər üçün daha düzgün bitki nümunələrinin seçilməsi zəruridir. Seçilmiş bitki genotiplər üzərində sxemə uyğun olaraq, əkinə yararlı torpaq sahəsi düzgün müəyyənləşdirilməlidir. Bunun üçün əvvəlcədən torpağın tərkibinin keyfiyyət analizləri aparılmalı, sonra isə əkin işlərinə başlanılmalıdır. Əkin zamanı sort nümunələrinin düzgün seçilməli və yararlı toxum materialları əkilməlidir. Əkindən sonra vegetasiya ərzində bitki üçün tələb olunan gübrə və su norması nizamlanmalıdır.Qeyd olunan tələblərlə yanaşı, əsasən, becərmə texnologiyası və növbəli əkin sistemini formalaşdırmaq daha düzgün seçim olardı. Bunun üçün verilən təkliflərə xüsusi diqqət yetirilməlidir. Aqrar sahənin daha da zənginləşdirilməsi üçün əsas prioritet istiqamətlər seçilməli bununla yanaşı, prioritet bitkilərin əkilib becərilməsi və istehsal funksiyasının daha çox artırılması vacibdir (8).

Kənd təsərrüfatı bitkilərindən yüksəkkeyfiyyətli və davamlı, ekoloji təmiz məhsul alınmasını təmin edən sistemin formalaşdırılması üçün araşdırılan metod və modellər aqrar sahədə yüksək və ekoloji təmiz məhsulun istehsalında böyük rol oynayır və bu tədqiqatlarda informasiya texnologiyalarının, müasir innovativ seçmə statistika üsullarının tətbiqi böyük əhəmiyyət kəsb edir.Aparılan tədqiqatın yekununa əsasən aşağıdakıların həyata keçirilməsi məqsədə müvafiq hesab edilir:

- ✓ Zəruri istehlak səbətinə daxil olan əsas ərzaq bitkilərinin (buğda, arpa, kartof, soğan, pomidor, xiyar, badımcan, bibər) becərilməsində və bitkilərin keyfiyyət və məhsuldarlıq göstəricilərinin yüksəldilməsi üçün tətbiq edilən səmərəli, innovativ metodlara üstünlük verilməsi;
- ✓ Bitki məhsuldarlığının artırılmasında əsas rol oynayan torpaq münbitliyinin bərpa edilməsinin və bəzi hallarda münbitlik göstəricilərinin yaxşılaşdırılması istiqamətində torpaq münbitlik göstəricilərinin tam iqtisadi rentabellik əmsallarının hesablanması zamanı daha yüksək nəticələrin əldə olunması;
- ✓ Aqrar sahədə müşahidələrin təkmilləşdirilməsi zamanı metodoloji tələb, iqtisadi hesabların tərtibi, aqrar sahədə əmək məsrəflərinə dair məlumatlar, kənd əhalisinin strukturu, işçi qüvvəsi, kənd əhalisinin miqrasiyası, müxtəlif məlumat bazasından istifadə və s. tələblərin nəzərə alınması;

✓ Kənd təsərrüfatı statistikasının məlumatlarını formalaşdırmaq üçün kənd təsərrüfatının siyahıya alınması, kənd təsərrüfatında iqtisadi müşahidələr, əhalinin siyahıya alınması və demoqrafik müaşhidələr, işçi qüvvəsinin, ev təsərrüfatlarının müşahidələri və s. mənbələrdən istifadə olunması;

✓ Kəndin inkişaf statistikasında aparılan tədqiqatları qiymətləndirmək üçün lazımi statistik məlumatların (sosial, demoqrafik, iqtisadi, və s.) toplanması.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər). Bakı: Nurlan, 2004
2. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
3. Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı
4. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı
5. "Azərbaycan-2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası
6. "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 1995
7. Əhmədov G.Ə. Kənd təsərrüfatı innovasiyaların tətbiqi istiqamətləri. Bakı: 2010
8. Rüstəmov A.A., Qasimov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi, dərs vəsaiti. "Avropa" nəşriyyatı 2013

## SUMMARY

**Dilsuz Gasimov**

**THE ROLE OF THE INNOVATION MECHANISM IN THE DEVELOPMENT OF THE AGRICULTURAL SECTOR**

One of the main directions of the economic policy of the Azerbaijani government is to accelerate the innovative economy in modern times, to apply the most advanced technologies in our country in accordance with the line of modernization, and as a result to achieve the implementation of regional programs.The article discusses the process of changing the growth dynamics of the agricultural sector in our country, the positive results of agile decisions made during independence, the scientific and of the need to focus on the latest examples of world practice and advanced innovations to accelerate agricultural development.

***Key words:*** *innovative economy, advanced technology, productivity, structure of agricultural lands, agricultural lands*

## РЕЗЮМЕ

**Дилсуз Гасымов**

**РОЛЬ ИННОВАЦИОННОГО МЕХАНИЗМА В РАЗВИТИИ АГРАРНОЙ ОТРАСЛИ**

Одним из основных направлений экономической политики Азербайджанского правительства является ускорение на современном этапе инновационной экономики, внедрение в стране самой передовой технологии, согласно линии модернизации, и в результате достижение выполнения масштабных региональных программ.

В статье говорится о процессе изменения динамики роста аграрной отрасли, положительных результатах гибких решений, принимаемых в период независимости, необходимости направления самых последних образцов мировой практики и передовых инноваций на ускорение развития аграрной отрасли, в соответствии с гармонией стремительного развития.

***Ключевые слова:*** *инновационная экономика, передовая технология, производитель-ность, структура территорий сельскохозяйственного назначения, земля пригодная для сельского хозяйства*

**HƏSƏN MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*hasan_1961@mail.ru*

# AZƏRBAYCANDA İNNOVASİYA SİSTEMLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

*Məqalədə qloballaşma şəraitində ölkəmizdə innovasiya sistemlərinin inkişaf istiqamətləri araşdırılır. Göstərilir ki, müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafının təmin edilməsində bilik, texnologiya və məhsul növlərinin tətbiqinə əsaslanan innovasiyalı istehsal fəaliyyəti əsas yer tutur. Qeyd olunur ki, elmi-texniki və innovasiya fəaliyyəti sahəsində, informasiya təminatının həyata keçirilməsində qarşıya qoyulan hədəflərə çatmaq üçün dövlət siyasəti mühüm əhəmiyyətə malikdir. Burada dövlət siyasətinin istiqamətləri müəyyən edilir.*

*Azərbaycanda innovasiya texnologiyalarının tətbiqi sistemini yaxşılaşdırmaq istiqamətində tövsiyələr edilir,innovasiya sistemlərinin inkişaf perspektivləri göstərilir.*

***Açar sözlər:*** *innovasiya, inteqrasiya, elmi-texniki informasiya, strateji inkişaf, informasiya infrastrukturu*

Qloballaşma şəraitində ölkəmizdə innovasiya sistemlərinin inkişaf istiqamətləri Avropada gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşdirilir.

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişafının təmin edilməsində bilik, texnologiya və məhsul növlərinin tətbiqinə əsaslanan innovasiyalı istehsal fəaliyyəti əsas yer tutur.

İnnovasiya dedikdə dünyanın qabaqcıl ölkələrində elmi-texniki tərəqqinin nailiyyətləri əsasında yaradılan yeni, müasir tipli texnologiyaların mənimsənilməsi və istehsala tətbiqi başa düşülür. İnnovasiya fəaliyyətini mükəmməl həyata keçirmək üçün elmi-texniki informasiya resurslarını formalaşdırmaq və ondan səmərəli istifadə etmək mühüm əhəmiyyətə malikdir [4].

Elmi-texniki informasiya (ETİ) resurslarının formalaşması və səmərəli istifadəsinin əsas məqsədi onların dünya informasiyasına inteqrasiyası, informasiya məhsul və xidmətləri bazasının yaradılmasıdır, əsas funksiyalarından biri isə elmi, elmi-texniki və innovasiya fəaliyyəti sahəsində, informasiya təminatı sahəsində dövlət siyasətinin həyata keçirilməsidir [3].

Elmi-texniki və innovasiya fəaliyyəti sahəsində, informasiya təminatının həyata keçirilməsində qarşıya qoyulan hədəflərə çatmaq üçün dövlət siyasəti aşağıdakı bir sıra məsələlərin həllini zəruri edir:

- Ölkəmizdə innovasiya sistemləri fəaliyyətinin perspektivli inkişafını təmin etmək üçün ilk növbədə elm və texnika sahəsində informasiya resurslarının və informasiya infrastrukturlarının səmərəli fəaliyyətinin optimallaşdırılması;
- Elm və texnika sahəsində mövcud olan relevant informasiyaların toplanılması, emalı və ötürülməsi xidmətlərinin hazırlanması və həyata keçirilməsinin təkmilləşdirilməsi;
- Elm və texnika sahəsində yaranan yeni texniki informasiyalardan səmərəli istifadə məqsədi ilə asan idarə olunan, modernləşdirilmiş şəbəkə texnologiyalarının yaradılması və istehsala tətbiqi;
- ETİ-nin(Elmi-texniki informasiya) istifadəçilərinin və bu sahədə fəaliyyət göstərən mütəxəssislərin bilik və bacarıqlarının, intelektual səviyyələrinin, informasiya ilə işləmək mədəniyyət və qabiliyyətlərinin artırılması;
- İstehsala yeni texnologiyaların mükəmməl tətbiqi məqsədi ilə ayrılmış fondların həcminin artırılması üçün müvafiq tədbirlərin görülməsi.

Yuxarıda göstərilən məqsəd və vəzifələrin həyata keçirilməsi üçün Azərbaycanda dövlət səviyyəsində aşağıdakı bir sıra islahatlar həyata keçirilir:

Azərbaycan Respublikası Prezidentinin bu istiqamətdə qəbul etdiyi dövlət proqramları və sərəncamlar, xüsusi ilə əhəmiyyətlidir. "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010)"na əsasən ölkədə makroiqtisadi siyasətin və

sahibkarlığın inkişafı məqsədilə "...elmtutumlu sahələrin inkişafı ilə bağlı xarici ölkələrin qabaqcıl texnologiya və innovasiyalarının öyrənilməsi və bu sahədə məlumat bazasının yaradılması..." [1];

Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2008-ci il tarixli "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncamında isə mövcud vəziyyət ölkənin inkişafının üstün istiqamətlərindən olan elm sahəsində ən qısa zamanda islahatların aparılması və bununla əlaqədar bir çox vəzifələrin təxirə salınmadan sürətlə öz həllini tapması zərurəti olduğunu bir daha təsdiqləmişdir [2].

Bu sərəncamlar ölkəmizin son illər beynəlxalq aləmdə fəaliyyət sahəsini genişləndirmiş, dövlətlərarası elmi-texniki informasiya məkanına çıxışını təmin etmişdir.

Respublikanın elmi-texniki informasiyaya tələbatını təmin etmək üçün dövlət daxilində informasiya məhsul və xidmətləri bazarını təşkil etmək, xarici informasiya bazarına çıxmaq əsas şərt hesab edilir. Bunun üçün isə elmtutumlu məhsulların, xidmətlərin innovasiya texnologiyalarının kataloqlarını təşkil etmək, bülletenləri çap etmək lazımdır.

Ölkəmizdə bir çox sahələr üzrə informasiya sistemləri yaradılmış və yaradılmaqdadır. Respublikada innovasiya layihələri və sorğular üzrə məlumatlar müxtəlif vaxtlarda yığılmış və mütəmadi olaraq yığılmaqdadır. Toplanılmış informasiyalar aktuallaşdırılmalı və beynəlxalq tələblərə cavab verəcək səviyyədə kataloqlarda yığılmalıdır.

Azərbaycanda innovasiya texnologiyalarının tətbiqi sistemini yaxşılaşdırmaq, elm sahələrinin inkişafı ilə bağlı xarici ölkələrin qabaqcıl innovasiya texnologiyalarının öyrənilməsi və bu sahədə məlumat bazalarının yaradılması sahəsində görülən işlərin səmərəliliyini artırmaq məqsədi ilə əsas vəzifələr aşağıdakılardan ibarət olmalıdır:

- İnkişaf etmiş dünya ölkələrinin müasir texnoloji proseslərində baş verən mütərəqqi dəyişiklikləri araşdıran, yeni elm sahəsi kimi formalaşan innovasiya texnologiyaları bilgilərinin öyrənilməsi, ölkənin istehsal və digər elmi-texniki sahələrində faydalanması istiqamətlərinə yönəltmək;
- Strateji inkişaf məqsədi ilə qabaqcıl ölkələrin inkişaf istiqamətlərinin prioritetlərini öyrənmək, elmi əsaslar, qabaqcıl texnologiya və innovasiyalar prosesinin nəzəri problemlərini öyrənmək, respublikada innovasiyanın nəzəri təlimini hazırlamaq və bu sahədə məlumat bazası yaratmaq, ölkələrarası innovasiya şəbəkələrinin yaradılması və onların qabaqcıl texnologiyalarını mənimsəyib, ölkəmizdə istifadəyə yönəltmək;
- Ölkəmizdə geniş istifadə məqsədi ilə elmi-texniki informasiya üzrə müxtrəlif innovativ təsnifat cədvəlləri tərtib etmək;
- Ölkəmizdə elmi-texniki inkişaf şəbəkələrinin bazası əsasında innovasiya sistemi şəbəkəsinin yaradılması, respublikada innovasiya layihələri, elmi kadr potensialı, elmi-tədqiqat işlərinin təhlili və proqnozlaşdırılması, marketinqin aparılması, müxtəlif elmi sahələr üzrə ümumiləşdirilmiş fondlar yaratmaq və yaymaq;
- Elmi müəssisələrdə aparılan elmi-tədqiqat işlərinin bir qisminin innovativ texnologiyalar istiqamətinə yönəltmək, sifarişlər əsasında tədqiqatları aparıb, nəticələrini tətbiq etmək;
- Respublikada və xaricdə elm və innovasiya nailiyyətlərinə həsr edilmiş dövri elmi-praktiki jurnalın nəşrində elmi-innovasiyayönümlü tədqiqatlarla iştirak etmək;
- Respublikada informasiya və innovasiya sahəsində yüksək ixtisaslı kadr hazırlığını təmin etmək məqsədi ilə tədris-texniki kursları təşkil etmək;
- Xarici ölkələrin elm ocaqları ilə razılaşma əsasında elmi-texniki tərəqqinin nailiyyətləri ilə bağlı müxtəlif növ informasiya mübadiləsinin aparılmasını təmin etmək.

Azərbaycanda perspektivli innovasiya sisteminin inkişafı məqsədi ilə eyni zamanda dünya təcrübəsində mövcud olan normativ hüquqi və metodoloji baza öyrənilməli və təhlil edilməlidir. İnformasiya mübadiləsini aparmaq üçün ölkəmizdə elmi-texniki informasiya mənbələri üzrə tədqiqatlar aparılmalı, resurslar üzrə beynəlxalq standartlara uyğun informasiya xidmətləri bazası yaradılmalı və onun təhlükəsizliyi təmin edilməlidir.

Azərbaycanda innovasiya sisteminin perspektivli inkişafını təmin etmək üçün yuxarıdakılarla yanaşı, bu sistemin beynəlxalq elmi-texniki informasiya resurslarına çıxışı təmin edilməlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010)
2. Azərbaycan Respublikası Prezidentinin 10 aprel 2008-ci il tarixli "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncamı
3. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaradılması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416 s.
4. Məmmədov H.Ə. Sahibkar subyektlərdə infrastrukturların innovativ yolla modernləşdirilməsi. Naxçıvan: Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin xəbərləri. 2018, №1, s.277-290
5. İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Bakı: "Çap ART" Nəşriyyatı, 2017, 36 s
6. Əliyev B.N. Dünya təcrübəsi əsasında innovasiya fəaliyyətinin təşkili yolları. Azərbaycan Milli Elmlər Akademiyasının Elmi əsərlər toplusu, 2016. № 2, s.206-210
7. Əliyeva, G.O. İnnovasiya və investisiya siyasətinin prioritetlərinin birgəliyi və sənayenin davamlı inkişafı. Azərbaycan Milli Elmlər Akademiyasının "Elmi əsərlər toplusu", 2015, №2, s.124-130

## SUMMARY

**Hasan Mammadov**

## DEVELOPMENT PERSPECTIVES OF INNOVATION SYSTEMS IN AZERBAIJAN

The article examines the development trends of innovation systems in our country in the context of globalization. It is noted that innovative production activities based on the application of knowledge, technology and products play a key role in ensuring the development of the Azerbaijani economy in modern times.

It is noted that the state policy is important in achieving the goals set in the field of scientific, technical and innovation activities, the implementation of information provision. It defines the directions of state policy.

Recommendations are made to improve the system of application of innovative technologies in Azerbaijan, prospects for the development of innovation systems are indicated.

***Key words:*** *Innovation, Integration, Scientific and technical information, Strategic development, Information infrastructure*

## РЕЗЮМЕ

**Гасан Мамедов**

## РАЗВИТИЕ И ПЕРСПЕКТИВЫ ИННОВАЦИОННЫХ СИСТЕМ В АЗЕРБАЙДЖАНЕ

В статье рассматриваются тенденции развития инновационных систем в нашей стране в условиях глобализации, отмечается, что инновационная производственная деятельность, основанная на применении знаний, технологий и продуктов, играет ключевую роль в обеспечении развития экономики Азербайджана в современное время.

Отмечается, что государственная политика важна в достижении поставленных целей в области научно-технической и инновационной деятельности, реализации информационного обеспечения, определяет направления государственной политики.

Даны рекомендации по совершенствованию системы применения инновационных технологий в Азербайджане, обозначены перспективы развития инновационных систем.

***Ключевые слова:*** *инновации, интеграция, научно-техническая информация, стратегическое развитие, информационная инфраструктура*

**HƏVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dölət Universiteti*
*eva.alieva.2012@mail.ru*

# İNNOVASİYA FƏALİYYƏTİNİN FORMALAŞMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə innovasiya fəaliyyətinin mahiyyəti, onun formalaşması xüsusiyyətləri təhlil edilir. Respublikada innovasiya fəaliyyətinin mövcud vəziyyəti və onun inkişafına təsir edən amillər araşdırılaraq xarici təcrübələrdən istifadə olunması zəruriliyi qeyd edilir. Həmçinin məqalədə son illər ərzində respublikada yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi, eləcə də fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər cədvəllər şəklində verilmişdir və göstəricilər illər üzrə analiz edilmişdir.*
***Açar sözlər:*** *innovasiya fəaliyyəti, texnoloji ideya, elmi tədqiqat, təkmilləşdirilmiş məhsul*

Son dövrlərdə dünya iqtisadiyyatında böyük dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərin əksəriyyəti innovasiyalarla bağlıdır. İnnovasiya anlayışına alimlər tərəfindən müxtəlif təriflər verilmişdir. Və bütün bu təriflərə görə innovasiya – yeni texnoloji ideyaların, təkliflərin, elmi-texniki qərar və prinsiplərin praktiki tətbiqi və onun uğurla həyata keçirilməsidir. Demək ki, innovasiya bu sahədəki fəaliyyətinin nəticəsi olaraq yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər həllər hesab edilir.

İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. Başqa sözlə desək, innovasiya fəaliyyəti iqtisadi effekti təmin edən yeni, yaxud təkmilləşdirilmiş məhsul, texnologiya və xidmət növlərinin, yaxud inzibati, istehsal, kommersiya və digər xarakterli təşkilati qərarların qəbuluna və praktiki reallaşdırılmasına yönəldilən fəaliyyətdir.

İnnovasiya fəaliyyətinə aşağıdakılar daxildir:

- Uzunmüddətli elmi-texniki proqramların həyata keçirilməsi;
- İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədi ilə məhsuldar qüvvələrin vəziyyətində keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi;
- Texnika və texnologiyanın prinsipcə yeni, qənaətcil növlərinin işlənib hazırlanması, buraxılması, yayılması və tətbiqi.

İnnovasiya fəaliyyətinin subyektləri iki tip təşkilatlardan ibarətdir: bilavasitə innovasiya fəaliyyəti ilə məşğul olan təşkilatlar; innovasiya fəaliyyətində bilavasitə iştirak etməyən, ancaq onun normal həyata keçirilməsi üçün ümumi şərait yaradan təşkilatlar. Birinci tip təşkilatlara elmi, mühəndis, istehsal və kommersiya təşkilatları aiddir.

Tərkibi, əsasən, innovasiya infrastrukturundan ibarət olan ikinci tip təşkilatlara aiddir:

- ixtisaslaşmış kiçik innovasiya təşkilatları (elmi-texniki, məsləhət-ekspert və lizinq firmaları, texnologiyaların transferi mərkəzləri);
- ixtisaslaşmış innovasiya kompleksləri (innovasiyalı biznes-inkubatorlar, elmi və texnoloji parklar və texnopolislər).

Müəssisələr həyata keçirmək istədikləri innovasiya fəaliyyəti üçün müxtəlif mənbələrdən kapital əldə edirlər. Maliyyələşdirmə üsullarından asılı olmayaraq hər layihədə risk amili vardır. Bu mənada şirkətin öz kapitalının çox vaxt gələcəkdə yaranacaq bu risklər üçün yetərli olmaması, onların fərqli maliyyə mənbələrinə istiqamətlənməsinə zəmin yaradır. Bu səbəbdən son zamanlar vençur kapitalın istifadəsi geniş yayılmışdır.

Diqqətə çatdırmaq yerinə düşər ki, vençur kapitalı - elmi-texniki araşdırmaların, kəşflərin, ixtiraların, kiçik və yeni şirkətlər, startaplar tərəfindən aparılan hər hansı riskli, lakin perspektivli xarakter daşıyan yeniliklərin tətbiq edilməsinin kreditləşdirmə və maliyyələşdirmə forması və müvafiq mexanizmin elementidir. Sadə dildə desək Vençur kapitalı bazarda yeni yaranan və özünə müvafiq yer qazanmaq uğrunda mübarizə aparan firmaların maliyyələşdirilməsi üçün nəzərdə tutulan vəsaitin investorlar tərəfindən yatırılmasıdır.

Hal-hazırda Azərbaycanda da vençur fondları var: “Khazar Ventures” və “İnfipro” informasiya texnologiyası, internet və proqram təminatı üzrə ixtisaslaşan bizneslərin başlanğıc mərhələsinə

investisiya edən vençur kapitalı şirkətləridir Azərbaycanda kifayət qədər tanınmış ənənəvi biznes sahələrində çalışan investorlar var və bu investorlar ilkin növbədə bir Vençur Şirkəti yaradaraq birlik halında toplanmalıdırlar. Bu insanlar yerli startaplara yatırım edərək həm ölkənin inkişafına, həm də öz kapitallarının artırılmasına nail ola bilərlər.

İnnovasiya fəaliyyəti əsasında davamlı iqtisadi inkişafa nail olma istiqamətində elmi bazaya əsaslanan məhsulların təklifinin irəli sürülməsi, innovativ məhsul istehsal edənlərin birbaşa innovasiya bazarına sərbəst daxil olması mexanizmini daim təkmilləşdirməsi vacibdir. Bunun üçün də innovasiya bazarının təşkilati-hüquqi bazasının yaradılması vacibdir. Qeyd olunan müddəa öz növbəsində intellektual mülkiyyətçilərin müdafiə olunmasına səbəb ola bilər. Əlbəttə ki, innovasiya tipli inkişafa keçid və mütərəqqi struktur dəyişikliklərinin formalaşdırılması hazırda bir sıra tədbirlərin görülməsini tələb etsə də, qısa müddətdə onların həll olunması mümkünsüzdür. Bu məsələlərin həlli yalnız yaxın orta müddətli və ya uzun müddətli perspektivdə prioritet istiqamətlər kimi qoyula bilər.

Azərbaycanda innovasiyaya əsaslanan iqtisadi sistemin qurulması, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətinin artırılması istiqamətində müəyyən kompleks tədbirlər həyata keçirilmişdir. 2000-ci illərdən başlayaraq Azərbaycan Respublikasında kiçik və orta biznesin inkişafını dövlət proqramlarında əks etdirən və müxtəlif dövrləri əhatə edən ölkə iqtisadiyyatında özəl bölmənin inkişafını sürətləndirmək, bu sahəyə investisiyaların cəlb olunmasını həvəsləndirmək məqsədilə kiçik və orta biznes subyektlərinin innovasiya layihələrinin maliyyələşdirilməsinə kömək göstərilməsi, vençur fondundan istifadə mexanizminin yaradılması, ölkənin iri şəhərlərində texnoloji biznes inkubatorlarının yaradılması istiqamətində innovasiyayönümlü sahibkarlığın inkişafına əlverişli şərait yaradılması üzrə dövlət orqanları, nazirliklərə konkret tapşırıqlar verilmişdir.

İnnovasiya prosesi elmi biliyin və ya ideyanın hər hansı məhsula, texnologiyaya, xidmətə yönəldilməsini xarakterizə etməkdədir. Bu prosesin aktuallığı onların keyfiyyət-kəmiyyət ifadələri ilə təzahür edir. Deyilənlər sahəvi istiqamətlərlə və onlara xas investisiya məbləğləri ilə müqayisə olunmaqdadır. Buna misal olaraq aşağıdakı cədvəli nəzərdən keçirək.

**Yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi, min manat**

| | **Əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
| **Sənaye - cəmi** | **826.3** | **6842** | **730.9** | **4.384** | **13.163** | **23.052** | **11.634** | **12.319** | **929.7** | **35.747** |
| **Mədənçıxarma sənayesi** | **208.5** | **4 566** | **-** | **-** | **2.073** | **396.1** | **326** | **-** | **-** | **129.6** |
| **Emal sənayesi** | **617.8** | **2 276** | **730.9** | **4.384** | **11.090** | **22.656** | **11.308** | **12.319** | **929.7** | **35.617** |
| ondan: | | | | | | | | | | |
| qida məhsullarının istehsalı | | | | | | | | | | 402.5 |
| içki istehsalı | - | - | - | - | 3.500 | 18.200 | - | 3974 | 758 | 41.5 |
| toxuculuq sənayesi | - | - | - | - | - | - | 8933 | 3098 | … | 12844 |
| geyim istehsalı | | | | | | | | | | 5213 |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | | | | | | | | | | 48.0 |
| ağac emalı və ağacdan məmulatların istehsalı | - | - | - | - | 498.1 | - | - | … | … | |
| neft məhsullarının istehsalı | - | - | - | - | 103.3 | - | - | … | … | … |
| kimya sənayesi | - | - | - | - | - | 3049 | 465,5 | 0.3 | 13.4 | 522.4 |
| rezin və plastik | - | - | - | - | - | - | - | - | - | 171.3 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| kütlə məmulatlarının istehsalı | | | | | | | | | | |
| tikinti materiallarının istehsalı | - | - | - | - | - | - | 1159 | - | - | 6586 |
| metallurgiya sənayesi | - | - | - | - | - | - | | | | 500 |
| maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | - | - | - | 1 788 | - | - | | …. | …. | 9113 |
| kompüter və digər elektron avadanlıqların istehsalı | 262.5 | 738.5 | 211.1 | - | 5 681 | 20.4 | - | 5101 | …. | …. |
| elektrik avadanlıqlarının istehsalı | - | - | 177.9 | - | 13.5 | - | - | … | … | … |
| maşın və avadanlıqların istehsalı | 75.6 | 1 495 | 110.6 | 1.262 | - | 890.3 | 238,4 | 145.8 | 158.3 | 174.9 |
| mebellərin istehsalı | - | - | - | 22.7 | - | - | - | - | - | - |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 279.7 | 43.0 | 231.3 | 1.311 | 1.295 | 496.8 | 511,6 | … | … | … |

| | **Təkmilləşdirilmiş məhsul** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
| **Sənaye - cəmi** | **399.4** | **1 715** | **68.8** | **2.029** | **14.403** | **1.045** | **883,1** | **1.118,0** | **589.7** | **540.9** |
| **Mədənçıxarma sənayesi** | **-** | **-** | **-** | **-** | **10 430** | **235.8** | **-** | **-** | **-** | **-** |
| **Emal sənayesi** | **399.4** | **1 715** | **68.8** | **2.029** | **3.973** | **809.6** | **883** | **1.118** | **589.7** | **540.9** |
| ondan: | | | | | | | | | | - |
| qida məhsullarının istehsalı | | | | | | | | | | - |
| içki istehsalı | - | - | - | - | - | - | - | … | … | - |
| toxuculuq sənayesi | - | - | - | 1 717 | - | - | - | … | … | - |
| geyim istehsalı | | | | | | | | | | - |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | | | | | | | | | | - |
| ağac emalı və ağacdan məmulatların istehsalı | - | - | - | - | 850.5 | - | - | … | … | - |
| neft məhsullarının istehsalı | - | - | - | - | 3.2 | - | - | … | … | - |
| kimya sənayesi | - | - | - | 311.4 | 1 969 | 21.3 | 40,7 | … | … | - |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | | | | | | | | | | - |
| tikinti materiallarının istehsalı | | | | | | | | | | - |
| metallurgiya | | | | | | | | | | - |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| sənayesi | | | | | | | | | | |
| maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | - | - | - | - | - | - | - | … | … | - |
| kompüter və digər elektron avadanlıqların istehsalı | ... | 231.6 | 50.0 | - | 1.044 | - | - | … | … | - |
| elektrik avadanlıqlarının istehsalı | - | - | 18.8 | - | - | - | - | … | … | - |
| maşın və avadanlıqların istehsalı | 399.4 | 1 484 | - | - | 105.9 | 686,2 | 798,3 | 462.9 | 430.0 | 524.8 |
| mebellərin istehsalı | - | - | - | - | - | - | - | … | … | |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | - | - | - | - | - | 102.1 | 44,1 | 89.0 | 32.2 | 16.1 |

Cədvəl məlumatlarına əsasən:

1. "Əhəmiyyətli dəyişiklərə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsul" bölməsində 2007-ci illə müqayisədə 2016-cı ildəki həcm arasında fərq:

a) Sənaye üzrə cəmi ifadəsində 43,3 dəfəyə;

b) Emal sənayesi üzrə 57, 7 dəfəyə bərabər olmuşdur ki, buda sonrakı illər üçün ən azı müvafiq artım tempinin gözlənilməsini diktə edir.

2. Eyni göstəricilər ümumi sənaye və emal sənayesi istiqamətində "təkmilləşdirilmiş məhsul" kateqoriyasında müvafiq olaraq + 35,4 %-ə bərabər olmuşdur.

**Fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **31.589** | **9.326** | **13.877** | **21.534** | **35.179** | **27.929** |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 3.328 | 529.3 | 9.036 | 12.232 | 13.283 | 5.655 |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 25.178 | 5.451 | 2.328 | 3.366 | 12.765 | 1.963 |
| yeni texnologiyaların alınması | 585.0 | 557.7 | 770,1 | 38.5 | 3022 | 15919 |
| proqram vəsaitlərinin alınması | 40.0 | 166.1 | 504,8 | 287.2 | 859.5 | 1217 |
| yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi | 20.5 | 16.2 | 1011 | 5559 | 5202 | 2700 |
| innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | 99.3 | 2.5 | 46 | 40.0 | 37.2 | 43.2 |
| marketinq tədqiqatları | - | - | - | - | - | - |
| texnoloji innovasiyalar | - | - | - | - | - | - |
| elmi-tədqiqat və işləmələr | 2 162 | 2602 | 181,4 | 11.4 | 10.5 | 11.6 |
| kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər | 171.8 | - | - | - | - | 0.2 |
| texnoloji innovasiyalara çəkilən digər xərclər | 4.2 | 2.1 | - | - | - | 420.0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Mədənçıxarma sənayesi** | **692.9** | **778.4** | **8197** | **4133** | **2671** | **179.6** |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 8.0 | 2.3 | 8030 | 3843 | 2528 | 10.0 |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 57.4 | 49.9 | 22,2 | 138.6 | - | - |
| yeni texnologiyaların alınması | 585.0 | 557.6 | - | 0.5 | 3.5 | 29.6 |
| proqram vəsaitlərinin alınması | 40.0 | 166.1 | 140 | 147.0 | 140.0 | 140.0 |
| innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | 2.5 | 2.5 | 4,4 | 4.4 | - | - |
| **Emal sənayesi** | **29.319** | **8.083** | **4.066** | **17.384** | **32.493** | **27.744** |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 3.320 | 526.0 | 406,7 | 8.389, 0 | 10.755,0 | 5.645,0 |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 23.543 | 4.937 | 1.290 | 3.227 | 12.765 | 1.963 |
| yeni texnologiyaların alınması | - | - | 770,1 | 38.0 | 3019 | 15890 |
| proqram vəsaitlərinin alınması | - | - | 364,8 | 123.2 | 704.4 | 1072 |
| yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi | 20.5 | 16.21 | 1011 | 5559 | 5202 | 2700 |
| innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | 96.8 | - | 41,6 | 35.6 | 37.2 | 43.2 |
| elmi-tədqiqt və işləmələr | 2 162 | 2602 | 181,4 | 11.4 | 10.5 | 11.6 |
| kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər | 171.8 | - | - | - | - | 0.2 |
| texnoloji innovasiyalara çəkilən digər xərclər | 4.2 | 2,1 | - | - | - | 420.0 |
| qida məhsullarının istehsalı | 782.8 | 2706 | 997,4 | 1157 | - | - |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 782.8 | 2706 | - | - | - | - |
| içki istehsalı | 13 800 | 2070 | 136 | 2089 | 12792 | 1911 |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 13 800 | 2070 | 136 | 2016 | 12708 | 1911 |
| texnoloji innovasiyalar | - | - | 136 | 2016 | 12708 | 1911 |
| yeni texnologiyaların alınması | - | - | - | 38.0 | 16.0 | - |
| proqram vəsaitlərinin alınması | - | - | - | 35.0 | 68.0 | - |
| tütün məmulatlarının istehsalı | 157.8 | - | - | - | - | - |
| kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər | 157.8 | - | - | - | - | - |
| toxuculuq sənayesi | - | 119.6 | 600 | 1210 | - | 1808 |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | - | 119.6 | 600 | 1210 | - | - |
| neft məhsullarının istehsalı | 5.378 | 2.618 | 551,2 | - | - | - |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 3 259 | 193.6 | - | - | - | - |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 53.4 | - | 551,2 | - | - | - |
| innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | 94.8 | - | - | - | - | - |
| texnoloji innovasiyalar | - | - | - | - | - | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| elmi-tədqiqat və işləmələr | 1.964 | 2.424 | - | - | - | - |
| kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər | 2.5 | - | - | - | - | - |
| texnoloji innovasiyalara çəkilən digər xərclər | 4.2 | - | - | | - | - |
| kimya sənayesi | - | 439,4 | 532,8 | 178.8 | 199.5 | 180.7 |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | - | 300.0 | 368,6 | 178.8 | 144.6 | 136.3 |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | - | 5.2 | - | - | 54.9 | 44.2 |
| rezin və plastmas məmulatlarının istehsalı | - | - | 773,6 | - | - | - |
| yeni texnologiyaların alınması | - | - | 3,5 | - | - | - |
| tikinti materiallarının istehsalı | - | - | 9,0 | - | - | 11928 |
| kompüter və digər elektron avadanlıqların istehsalı | 8.910 | - | - | - | - | - |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 8 710 | - | - | - | - | - |
| informasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | 2.0 | - | - | - | - | - |
| elmi-tədqiqat və işləmələr | 198.0 | - | - | - | - | - |
| elektrik avadanlıqlarının istehsalı | 13.5 | - | - | - | - | - |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 13.5 | - | - | - | - | - |
| maşın və avadanlıqların istehsalı | 196.8 | 130.0 | 113,5 | 12667 | 15872 | 8228 |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | - | 32.3 | 35.1 | 8208 | 10609 | 5509 |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 196.8 | 35.8 | 3,2 | 1.4 | 1.6 | 7.4 |
| elmi-tədqiqatı və işləmələr | - | 45.7 | 17.2 | 10.4 | - | - |
| yeni texnologiyaların alınması | - | - | - | - | - | - |
| proqram vəsaitlərinin alınması | - | - | 13,2 | 14.2 | 14.2 | - |
| mebellərin istehsalı | - | - | 348,1 | - | 399.9 | 922.3 |
| yeni texnologiyaların alınması | - | - | - | - | 7.6 | - |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 79.2 | - | 5 | 82.1 | - | - |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 47.2 | - | 3 | 2.0 | - | - |
| yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi | 20.5 | 16.2 | 12.3 | 4400 | 5200 | 2700 |
| innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | - | - | 32.5 | 32.5 | 37.2 | - |
| proqram vəsaitlərinin alınması | - | - | 13.2 | 14.2 | 14.2 | - |
| kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər | 11.5 | - | - | - | - | - |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | - | **464.5** | **1614** | **17.0** | **15.1** | **5.0** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | - | | 599 | - | - | - |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | **1 577** | **-** | **-** | - | - | - |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 1 577 | - | - | - | - | - |

Digər tərəfdən fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər 2011-2016-cı illərdə məcmu halda 139434 manat təşkil etmişdir ki, onun 119089 manatı (və ya 85.4% ) emal sənayesinin payına düşmüşdür.

Emal sənayesinin tərkib elementlərindən isə içki istehsalında innovativ üsullardan və texnologiyadan istifadənin xüsusi böyük çəkiyə malik olması diqqəti cəlb edir. Belə ki innovativ texnologiyaların alınmasına 2011-ci ildə 13800 min manat (ümumi emal sənayesi üzrə 47 %), 2015-ci ildə isə 12708min manat ( ümumi emal sənayesi üzrə 39,1 %) vəsait sərf edilmişdir.

Fikrimizcə innovativ fəaliyyətə yönəldilən vəsaitlərin texnoloji istiqamətdə və təkmilləşdirilmiş məhsul yönündə istifadə edilməsi zamanın tələbi ilə uyğunlaşan məhsul istehsalına və bu proseslərin daim təkmilləşməsinə gətirib çıxaracaqdır.

## ƏDƏBİYYAT


1. Hüseynova İ. İnformasiya texnologiyalarının inkişafı dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir.//Azərbaycan, 2007, 26 oktyabr, N 240
2. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009. 416 s.
3. Гусейнова А.Д. Информационное обеспечение инновационной деятельности в Азербайджанской Республике. I BEPK-ın materialları. Bakı, Elm, 2007, s. 13-17
4. Управление инновационными процессами.Самара: СГТУ, 2009, 153с.


## SUMMARY

**Havva Adigozalova**

### FORMATION AND EVALUATION OF INNOVATION ACTIVITY

The article analyzes the essence of innovation activity, the features of its formation. It is noted that the current state of innovation activity in the country and the factors influencing its development should be studied and the use of foreign experience should be used. The article also presents the volume of innovation products in the country in recent years by level of innovation and types of economic activity, as well as expenditures on technological innovations by type of activity and application, and analyzes the indicators by year.

***Key words:*** *innovation activity, technological idea, scientific research, improved product.*

## РЕЗЮМЕ

**Ева Адыгезалова**

### ФОРМИРОВАНИЕ И ОЦЕНКА ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ

В статье анализируется сущность инновационной деятельности, особенности ее формирования. Отмечается, что необходимо изучить текущую ситуацию с инновационной деятельностью в стране и факторы, влияющие на ее развитие, и использовать зарубежный опыт. В статье также представлены показатели в виде таблиц об уровне инновационности и объеме инновационной продукции в стране за последние годы, а также о расходах на технологические инновации по видам деятельности и применению, и эти показатели проанализированы по годам.

***Ключевые слова:*** *инновационная деятельность, технологическая идея, научные исследования, улучшенный продукт.*

**RAUF RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*

# NANOTEXNOLOGİYALARIN KƏND TƏSƏRRÜFATINDA İSTİFADƏSİ PERSPEKTİVLƏRİ

*Məqalədə nanotexnologiyaların iqtisadiyyatda, o cümlədən aqrar sektorda tətbiqi məsələləri, kənd təsərrüfatında nanotexnologiyaların tətbiqinin üstünlükləri və bu istiqamətdə həyata keçirilən tədbirlər müxtəlif aspektlərdən araşdırılmışdır.*

***Açar sözlər:*** *nanotexnologiyalar, kənd təsərrüfatı, inkişaf etmiş ölkələr*

Nano çox kiçik deməkdir. Bir nanometr metrin milyardda bir, millimetrin isə milyonda bir hissəsinə bərabərdir. Nanotexnologiya termini “texnologiya” sözünə “nano” ölçü vahidinin artırılması ilə meydana gəlmişdir. Texnologiya 2 yunan sözünün “techne” bacarıq, “logos” elm sözlərinin birləşməsindən əmələ gəlmişdir və nanoölçülü materialların məharətlə emal edilməsi elmi deməkdir.

Nanotexnoloji məhsullardan istifadə əslində bilindiyindən daha dərin tarixi köklərə malikdir. Bu baxımdan tarixi inkişaf mərhələlərini araşdırdıqda qarşımıza Romalılar tərəfindən IV əsrdə istifadə edilən və qədim dövrün şüşə sənayesinin ən böyük müvəffəqiyyət nümunələrindən biri olan “Lycurgus Kuboku” çıxır. Kuboku fərqləndirən ən vacib xüsusiyyəti rəngini dəyişdirməsidir. Aparılan tədqiqatlar zamanı elm adamları elektron mikroskopdan istifadə etməklə kubokun qeyri-adi rəng dəyişməsinə səbəb kimi şüşənin tərkibində 50 ilə 100 nanometr arası ölçüdə qızıl və gümüş hissəciklərinin olmasını göstərmişlər. Qədim Romada şüşə ustaları tərəfindən nanohissəciklərdən istifadə edərək hazırlanan bu rəng dəyişdirən kupa, nanotexnologiyanın ilk nümunələrindən biridir.

Bilinən bir başqa nanotexnologiya nümunəsi VI-XV əsrlər arasında, xüsusilə Avropada istifadə olunan və günümüzə qədər gəlib çatan vitray pəncərələrdir. Göz qamaşdırıcı rənglərə malik bu pəncərələrdə qızıl xlorid və metal oksidlərinin nanohissəciklərindən istifadə olunduğu müəyyən edilmişdir.

Tarixdə Dəməşq poladnın möcüzəli xassəsi haqqında xeyli məlumatlar var. Bu poladdan XIII-XVIII əsrdə hazırlanmış xəncərlər kəskinliyi və elastikliyi ilə məşhur idi. Elektron mikroskopun köməyi ilə aparılan tədqiqatlar göstərmişdir ki, Dəməşq qılıncının tərkibində özündə yüksək möhkəmliyi təmin edən çoxtəbəqəli karbon nanoborucuqlar mövcuddur.

Müasir dövrdə isə 1931-ci ildə alman fizikləri Maks Knoll və Ernst Ruska elektron mikroskopu kəşf edəndən sonra ilk dəfə olaraq nanoobyektləri tədqiq etməyə başladılar. 1974-cü ildə yapon fiziki Norio Taniquçi elmə “nanotexnologiyalar” anlayışını gətirdi və bir mikrondan kiçik ölçülü mexanizmlərə bu adı verməyi təklif etdi. 1981-ci ildə alman fizikləri Herd Binniq və Henrix Rorer ayrı-ayrı atomları göstərə bilən mikroskop icad etdilər. 1985-ci ildə Amerika fizikləri Robert Kerl və Riçard Smeyli diametri bir nanometr olan əşyaları dəqiq ölçməyə imkan verən texnologiya yaratdılar və beləliklə 1986-cı ildə nanotexnologiya geniş kütləyə məlum olmağa başladı.

Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sıçrayışlarının əsasları araşdırılarkən məlum olur ki, bu inkişafın səbəbləri sırasında elmi innovasiyaların tətbiqi ön sırada dayanır. Yüksək texnologiyaların inkişafı, onların tətbiqinin gətirdiyi gəlirləri yeraltı və yerüstü sərvətlərdən alınan gəlirlərlə müqayisə etdikdə elmi innovasiyalardan götürülən qazancın qat-qat çox olduğu aşkar edilir.

XXI əsrdə elm və texnikanın sürətli inkişafı bəşəriyyət qarşısında həlli mümkün olmayan problemlərin aradan qaldırılması üçün çox böyük imkanlar açmaqdadır. Bu istiqamətdə son zamanlar dünya elminin prioritet istiqamətlərindən biri sayılan nanotexnologiya sahəsi çox böyük sürətlə inkişaf edir.

Hazırda dünyada nanotexnologiyalara münasibətdə “Yeni sənaye inqilabı” ifadəsi işlədilir. Müxtəlif sahələrdə, o cümlədən sənayedə, tibbdə, kənd təsərrüfatında tətbiqi mümkün olan nanotexnologiya bir çox çox üstünlüklər yaradır:

- Daha sürətli və daha az xərc tələb edən istehsalı təmin edir;

- İstehsal proseslərini qısaldaraq zaman, xərc itkisinin qarşısını alır;
- Rəqabət gücünü artırır;
- Milli gəlir səviyyəsinin yüksəlməsində mühüm rol oynayır;
- Həyat keyfiyyətini artırır.

Bu gün dünyanın nanotexnoloji mənzərəsinə nəzər salsaq görərik ki, bu elm sahəsi demək olar ki, bütün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri əhatə edir. Artıq dünyanın 60-dan artıq ölkəsində bu istiqamətdə dövlət proqramları qəbul edilmiş, "Nanotexnoloji Təhlükəsizliyi Konsepsiyası" ilə bağlı müəyyən hüquqi normativ sənədlər hazırlanmışdır.

İnkişaf etmiş ölkələrdə bu sahəyə böyük maliyyə vəsaiti ayrılır. Avropa Birliyi ölkələri nanotexnologiya sahəsində elmi-tədqiqat işləri aparmaq üçün təkcə 2004-2008-ci illərdə öz büdcələrindən 5 milyarda yaxın avro vəsait ayırmışdır. Bu, həmin ölkələrin elmə ayırdığı vəsaitin 9-10 faizini təşkil edir. Analoji rəqəmləri ABŞ, Rusiya və Yaponiya ölkələri üçün də qeyd etmək olar.

Hazırda dünyanın inkişaf etmiş ölkələrinin gəlirlərinin əsasını yüksək texnologiyaların, o cümlədən nanotexnologiyaların müxtəlif sahələrə və kənd təsərrüfatına sürətli tətbiqi təşkil edir.

İnkişaf səviyyəsindən asılı olmayaraq bütün dünya ölkələrinin iqtisadiyyatında kənd təsərrüfatı hər zaman böyük əhəmiyyətə malikdir. İqtisadiyyatın bir çox sahələrinin inkişafı aqrar sahənin səviyyəsindən müəyyən dərəcədə asılıdır. Bu sahə bir sıra sənaye sahələrinin xammala olan ehtiyaclarını və əhalinin ərzaq məhsullarına olan tələbatını ödəyir.

Aparılan hesablamalara görə hal-hazırda dünyada insanların sayı ildə təxminən 70-80 milyon artır. Əhali artımı ilə yanaşı, ərzaq məhsullarına artan tələbat fonunda kənd təsərrüfatı məhsullarının istehsalının həyata keçirilməsi üçün əkin üçün yararlı torpaq ehtiyyatlarının azlığı, əkilən kənd təsərrüfatı bitkilərinin ənənəvi sahələrində iqlim şəraitinin dəyişməsi, torpağın deqradasiyası, artan su çatışmazlığı dünyada çox böyük qlobal problemlər kimi ortaya çıxmışdır.

Buna görə də dünya ölkələri XXI əsrdə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi istiqamətində üç əsas problemlə üzləşir:

a) böyüməkdə olan və daha zəngin əhalinin qidaya artan tələbatını təmin etmək;
b) ekoloji baxımdan onu davamlı hala gətirmək;
c) aclıq probleminin öhdəsindən gəlmək.

Keçmişdə dünya ölkələrində qida çatışmazlığına qarşı mübarizənin əsas yolları kənd təsərrüfatı sahələrinin inkişafı və yeni balıq ehtiyatlarının istifadəsi idi. Lakin son onilliklərdə taxıl bitkilərinin istehsalı iki dəfədən çox artdığı halda, dünyada əkinçilik üçün ayrılan torpaqların miqdarı cəmi bir neçə faiz artmışdır. Əvvəllər məhsuldar olan bəzi kənd təsərrüfatı sahələri şəhərləşmə və digər insan fəaliyyətləri, eləcə də səhralaşma, şoranlaşma, torpaq eroziyası və qeyri-müntəzəm torpaq istifadəsinin digər nəticələrinə görə itirilmişdir. Əlavə itkilərin iqlim dəyişikliyi ilə daha da ağırlaşması ehtimalı vardır. Yüksək keyfiyyətli kənd təsərrüfatı torpaqlarının bioyanacaq istehsalı üçün ayrılması da qida istehsalına çox pis təsir göstərən amillərdən biridir.

Qeyd edilənləri ümimiləşdirsək, hazırda dünyada aqrar sahənin davamlı inkişafı istiqamətində həyata keçirilən siyasətdə diqqət mərkəzində saxlanılması vacib olan bir sıra məqamlar vardır:

- Tətbiq olunan vasitələr, istehsal üsulları ekoloji problemlərə səbəb olmamalıdır;
- Məhsuldarlıq və keyfiyyət göstəriciləri yüksəldilməlidir;
- İstehsalın maya dəyəri aşağı salınmalıdır;
- Vaxta, əməyə, enerjiyə, resursa qənaət edən texnologiyalardan istifadənin davamlılığı təmin olunmalıdır;
- Aqrar sahənin məhsullarına tələb və təklifin tarazlıq şərtləri davamlı olaraq gözlənilməlidir;

Kənd təsərrüfatında bütün bu problemlərin həll olunmasında alimlər tərəfindən müxtəlif təkliflər irəli sürülür. Təklif edilən ən prioritet istiqamətlərdən biri kimi yeni texnologiyaların, o cümlədən nanotexnologiyaların bu sahədə tətbiq olunmasıdır. Kənd təsərrüfatında nanotexnologiyalardan istifadə xərclərin azalmasına, məhsul istehsalında keyfiyyətin və məhsuldarlığın artmasına səbəb olur.

Nanotexnologiya kənd təsərrüfatının müxtəlif sahələrində, o cümlədən heyvandarlıq sahəsində geniş istifadə potensialına malikdir. Buna misal olaraq nanotexnoloji məhsullarla heyvanlarda xəstəliklərin yayılmasının qarşısının alınması, dərmanların heyvan bədəninin lazım olan hissələrinə

təsirli şəkildə çatdırması, heyvanların olduğu sahələri izləmək üçün nano sensorlarla istifadəni və s. göstərmək olar.

Heyvandarlıqda yüksək məhsuldarlığa nail olmaq üçün balanslaşdırılmış qida maddələri ilə təminat xüsusi əhəmiyyətə malikdir. Bu isə müasir texnoloji metodlardan istifadə nəticəsində mümkündür. Nanotexnologiyalar vasitəsilə hazırlanmış nanoəlavələrin yem istehsalında tətbiqi heyvandarlıqda məhsuldarlığı 1,5-3 dəfə artırır, həmçinin infeksiyalı xəstəliklərə və stresslərə qarşı müqavimət yaradır. Qida əlavələrinin nanoölçülü hissəcikləri qida məsrəfini xeyli azaltmağa imkan verməklə yanaşı, heyvanlar tərəfindən qidanın tam və səmərəli mənimsənilməsini də təmin edir. Heyvandarlıqda suyun təmizlənməsi və dezinfeksiyası üçün nanotexnologiyanın istifadəsi olduqca böyük əhəmiyyət kəsb edir. Membran təmizləmə sisteminin, həmçinin gümüş əsasında xüsusi biosid örtüklərin və materialların istifadəsi kənd təsərrüfatı heyvanlarının saxlanmasını sadələşdirməyə və keyfiyyətini yaxşılaşdırmağa imkan verir, onları keyfiyyətli içməli su ilə təmin etməyə şərait yaradır.

Arıçılıq ən qədim kənd təsərrüfatı sahələrindəndir. Nanotexnologiyanın arıçılıq sahəsində tətbiqi istiqamətində də uğurlar əldə edilmişdir. Qeyd etmək lazımdır ki, arıçılıq təsərrüfatlarında bal istehsalında məhsuldarlığın az olmasının ən böyük səbəbi arı xəstəlikləridir. Aparılan araşdırmalarda müəyyən edilmişdir ki, Türkiyədə bir arı yeşiyində ortalama 16 kiloqram bal olduğu halda, Çində bu rəqəm 30 kiloqram, Avropa ölkələrində isə 60 kiloqrama yaxındır. Ən güclü antibakterial materiallardan biri olan gümüşün bakteriyaları təsirsiz hala gətirdiyini, insan sağlamlığına zərər vermədiyini söyləyən, Türkiyədə nanotexnologiya sahəsində fəaliyyət göstərən “MEB METAL” firmasının rəhbərliyi bu istiqamətdə dünyada ilk nanotexnologiyalı gümüş örtüklü arı yeşiyi hazırlamışdır. Şirkət rəhbərliyi nanotexnologiya ilə istehsal olunan gümüş örtüklü arı yeşiklərinin, arıçılıqda bakteriya və virusların artmasının qarşısını aldığını, eyni zamanda balın daha keyfiyyətli olmasına və məhsuldarlığın artmasına şərait yaratdığını bildirilmişdir.

Hollandiyada isə “Delphy” Tədqiqat İnstutu çiyələk becərilməsində suvarma suyunun oksigen nanoköpükləri ilə zənginləşdirilməsinin təsirini öyrənmək üçün tədqiqat aparmışdır. Təcrübə zamanı tipik həll edilmiş oksigen göstəriciləri olan suvarma suyu və oksigen nanoküpləri olan sudan istifadə olunmuşdur. Nəticədə oksigen nanoköpükləri ilə suvarılan bitkilər digər bitkilərlə müqayisədə məhsuldarlıqda 14 % artım göstərmiş və daha sağlam bir kök kütləsi halı müşahidə olunmuşdur.

Burada nəzəriyyə ondan ibarətdir ki, oksigen həm qidaların köklər tərəfindən alınmasında, həm də kök mühitinin biologiyasında mühüm rol oynayır. Təcrübədə nanoköpüklərlə aparılan suvarma zamanı məhsuldarlıq və kök inkişafında aydın fərq və inkişaf müəyyən edilmiş və texnologiyanın faydaları təsdiqlənmişdir. Belə ki, bu metodla nanoköpüklər generator vasitəsilə oksigeni suya çox səmərəli şəkildə çatdıra bildiyi üçün bitkilər kök zonasında çoxlu miqdarda oksigen alırlar ki, bu da sağlam kök inkişafına kömək edir. Həmçinin oksigen nanoküpləri oksidləşdirici xüsusiyyətləri ilə patogenlərin inkişafına maneə törədir, suyun keyfiyyətini yaxşılaşdırır və suvarma sisteminin daha gigiyenik olmasını təmin edir.

Çox qiymətli olduğu üçün “Şərqin möcüzəsi” adlandırılan kənd təsərrüfatı bitkisi zəfərandan nanotexnolgiyalar vasitəsilə müxtəlif dərmanlar əldə edilir. Bu istiqamətdə nanotexnoloji üsullardan istifadə edilərək zəfəranın effektiv tərkib hissələrinin ekstraksiya və mikroenkapsulyasiyasının optimallaşdırılması və modelləşdirilməsi layihəsi çərçivəsində xərçəng və stress əleyhinə dərman hazırlanmışdır.

Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatında nanotexnologiya vasitəsilə aparılmış tədqiqatlara aşağıdakıları nümunə göstərmək olar:

- Nanohissəciklə örtülmüş toxumlarla aparılan tədqiqatda bitkinin quru çəkisində 73% artım və toxumda məhsuldarlığı üç qat daha artıran vitamin olduğu müəyyən edilmişdir. Bundan əlavə nanohissəciklərlə emal olunan toxumlarda quraqlığa qarşı müqavimətdə 90% və toxumun saxlanma müddətində 16,5% artım müəyyən edilmişdir.
- Laboratoriya tədqiqatı göstərmişdir ki, nano-gümüş materialı ilə örtülmüş toxumlardan yetişən məhsullar daha çox su toplayır. Nanotexnoloji üsullar tətbiq edilərək hazırlanmış toxumlar ətraf mühit şərtlərinə dayanıqlıdırlar və daha sürətli şəkildə böyüyürlər.

- Dünya əhalisinin təqribən 30%-i dəmir çatışmazlığından əziyyət çəkir. Aparılan bir araşdırmada nano dəmir hissəcikləri olan gübrələrlə əkini həyata keçirilən məhsulun dəmir səviyyəsinin artdığı müşahidə olunmuşdur.

- Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, nanotexnologiyaların kənd təsərrüfatı məhsullarının istehsalında tətbiqi gübrələrin və səbəb olduğu çirklənməni azaltma potensialına malikdir və ağır metallarla çirklənmiş torpağı təmizləyə bilir.

Kənd təsərrüfatında nanotexnoloji yeniliklərin tətbiqinin mümkün olduğu sahələrə həmçinin aşağıdakıları göstərmək olar:

- Yüksək dayanıqlı və yüngül nano materialların müxtəlif kənd təsərrüfatı texnikalarının istehsalında istifadəsi;
- Heyvandarlıq komplekslərində yaranan pis qoxuların nano filtirlər vasitəsilə təmizlənərək daha gigiyenik və qoxusuz mühitin yaradılması;
- Nanoionlardan istifadə edərək emal prosesində südün bakteriyalardan təmizlənməsi;
- İstixanalardakı havanı nano filtrlərdən keçirərək xəstəlik yaradan amillərin aradan qaldırılması;
- Balıqçılıq təsərrüfatlarında nanotexnologiya məhsulu olan su təmizləyici qurğular və nanokapsül peyvəndlərindən istifadə;
- Kənd təsərrüfatı məhsularının yığımında istifadə olunan robotların daha həssas nano sensorlarla təchiz edilməsi;
- İstilik izolyasiyasının vacib olduğu istixana və anbar kimi mühitlərdə nanotexnologiya məhsulu olan izolyasiya materiallarından istifadə və s.

Xüsusilə qeyd etmək lazımdır ki, nanotexnologiyalar sahəsində aparılan araşdırmalar bu texnologiyalar əsasında yaradılan robotların hazır atomlardan istənilən əşya hazırlayacağının nəzəri cəhətdən mümkünlüyünü təsdiq edir. Gələcəkdə nanotexnologiyalar əsasında kənd təsərrüfatı sahəsi üçün yaradılan robotlar çox böyük möcüzələr yaradacaqdır. Belə ki, molekulyar robotlar kənd təsərrüfatı bitkiləri və heyvanlarının əvəzinə qida məhsullarını özləri hazırlaya biləcəkdir.

Nanotexnologiyalar milli iqtisadiyyatların rəqabətqabiliyyətliliyinin artırılması və ölkədə bir çox problemlərin həlli istiqamətində yeni imkanlar açır. Bunun üçün isə ilk növbədə elmi potensialın zənginləşdirilməsi, təhsil sisteminin təkmilləşdirilməsi və insan kapitalının formalaşdırılması zəruriliyi ortaya çıxır. Azərbaycan Respublikası nanotexnologiyaların inkişaf etdirilməsi üçün zəruri olan bu üç təməl imkanlara malikdir. Ölkənin maliyyə gücü imkan verir ki, çox tezliklə ölkəmizdə nanotexnoloji industriya formalaşdırılsın.

İlk dəfə ölkəmizdə 2004-cü il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri zamanı Azərbaycan-Rumıniya universitetləri arasında nanotexnologiya istiqamətində müqavilə imzalandıqdan sonra BDU-da da dünya elminin bu prioritet istiqamətində tədqiqatlara start verildi. Qısa bir zamandan sonra BDU-da "Nano Araşdırmalar Mərkəzi"nin açılışı oldu.

Hal-hazırda burada bir sıra sahələr, o cümlədən kənd təsərrüfatı üzrə uğurlu araşdırmalar aparılır. Belə ki, mərkəzdə bu istiqamətdə şoran torpaqlarda bitkilərin inkişafına təsir edən nanohissəciklərin aşkar edilməsi, onların bioloji və fizioloji effektlərinin araşdırılması və bitkilərdə duzadavamlılığın artırılmasına imkan verən tədqiqatlar aparılmışdır. Tədqiqat zamanı müəyyən edilmişdir ki, bitkilərin toxumlarını metal əsaslı nanohissəciklər ilə işləndikdən sonra duzluluğu müxtəlif olan torpaqlarda onların cücərmə qabiliyyəti artır və cücərtilər normal inkişaf edir. Tədqiqatlar zamanı nanohissəciklərin şoran mühitdə toxumların inkişafına təsir edən amilləri öyrənilmişdir.

Nanotexnologiya istiqamətində innovativ tədqiqatların uğurlu inkişafına, onun elmi nəticələrinin kənd təsərrüfatının istehsal və emal sənayesinin ayrı-ayrı sahələrində tətbiqinə nail olmaq və ölkəmizə böyük gəlirlər gətirmək üçün bu istiqamətdə dövlət proqramının hazırlanmasının ölkəmiz üçün böyük əhəmiyyəti var.

Məlum olduğu kimi, ölkəmizdə AMEA-nın Rəyasət Heyətinin qərarına əsasən respublikada nanotexnologiya istiqamətindəki tədqiqat işlərinin inkişafı və əlaqələndirilməsini müəyyən etmək üçün Koordinasiya Şurası yaradılmışdır. 2018-ci ildə Koordinasiya Şurasının keçirilən iclasında bu

istiqamətdə dövlət proqramının hazırlanması təklifi irəli sürülmüşdür.

Bu sahədə dövlət proqramının hazırlanması zamanı beynəlxalq təcrübə, dünyada edilən yeniliklər və inkişaf meyilləri, vətəndaş, cəmiyyət, dövlət prioritetləri nəzərə alınmalı, elm və sənaye sahələrinin imkanlarından səmərəli istifadə əsas götürülməlidir. Nanotexnologiyanın inkişaf proqramının hazırlanması ölkəmizdə həm elmin, həm də elmtutumlu sənayenin inkişafına güclü təkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. Məhərrəmov A.M., Ramazanov M.Ə., Vəliyeva L.İ. Nanotexnologiya. Bakı: 2007
2. Naoya Kobayasi. Nanotexnologiyaya giriş. Bakı: 2013
3. Prof dr.Mustafa Ersöz, Dr.Arzum Işıtan Meltem, Nanoteknolojinin temelleri. Balaban: 2018
4. Şakir Erkoç. Nanobilim ve nanoteknoloji. 2011
5. www.science.gov.az
6. www.xalqqazeti.com


## SUMMARY

**Rauf Rahimov**

### PROSPECTS FOR THE USE OF NANOTECHNOLOGY IN AGRICULTURE

The article examines from various aspects the issues of introducing nanotechnology in the economy, including the agricultural sector, the advantages of introducing nanotechnology in agriculture and the measures taken in this direction.

***Key words:*** *nanotechnologies, agriculture, developed countries*

## РЕЗЮМЕ

**Рауф Рагимов**

### ПЕРСПЕКТИВЫ ИСПОЛЬЗОВАНИЯ НАНОТЕХНОЛОГИЙ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

В статье с различных аспектов исследованы вопросы внедрения нанотехнологий в экономике, в том числе в аграрном секторе, преимущества внедрения нанотехнологий в сельском хозяйстве и мероприятия, осуществляемые в этом направлении.

***Ключевые слова:*** *нанотехнологии, сельское хозяйство, развитые страны*

**MƏHSƏTİ ƏSGƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
*mehseti_74@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNNOVASİYA SİYASƏTİNİN MÜASİR VƏZİYYƏTİ

*Elmi məqalədə Naxçıvan Muxtar Respublikasında innovasiya siyasətinin müasir vəziyyəti araşdırılmışdır.*

*Dünya inkişafının müasir mərhələsinin səciyyəvi xüsusiyyəti insan sivilizasiyasının sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid sayılır. Bu isə hər şeydən əvvəl elm və texnikanın cəmiyyət həyatının bütün tərəflərinə daha da güclənməkdə olan təsirinin qlobal xarakteri ilə, irimiqyaslı sosial-iqtisadi və tarixi dəyişikliklərə aparan elmi texnoloji irəliləyişlərlə əlaqədardır. İqtisadi sistemin inkişafı səviyyəsinə təsir göstərmək qabiliyyətinə malik təbii resurslar və kapitalla yanaşı, inteqral resursa çevrilə bilən elmi biliklər daha mühüm əhəmiyyət kəsb edir. Təcrübə müstəvisində bu, yeni biliklərin məhsul və texnoloji yeniliklərə çevrilməsini təmin edən innovasiya prosesini ön plana keçirir.*

*Elmi məqalədə, həmçinin insan kapitalının formalaşdırılmasını prioritet məqsəd kimi önə çəkən, dövlətin innovasiyalı inkişafında müasir biliklərin, nanotexnologiyaların roluna mühüm yer ayıran bu effektiv iqtisadi strategiya elmi cəhətdən təhlil edilmiş və əsaslandırılmışdır.*

***Açar sözlər:*** *İnnovasiya, innovasiya siyasəti, insan kapitalı, bilik iqtisadiyyatı, elmi-texniki tərəqqi, texnoloji, təhsil-tədqiqat-innovasiya, innovasiyayönümlü iqtisadiyyat.*

Dünya inkişafının müasir mərhələsinin səciyyəvi xüsusiyyəti insan sivilizasiyasının sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid sayılır. Bu isə hər şeydən əvvəl elm və texnikanın cəmiyyət həyatının bütün tərəflərinə daha da güclənməkdə olan təsirinin qlobal xarakteri ilə, irimiqyaslı sosial-iqtisadi və tarixi dəyişikliklərə aparan elmi texnoloji irəliləyişlərlə əlaqədardır. Buna uyğun olaraq iqtisadi artımın əsas amillər və mənbələr dəsti də dəyişir. Bunlar içərisində iqtisadi sistemin inkişafı səviyyəsinə təsir göstərmək qabiliyyətinə malik təbii resurslar və kapitalla yanaşı, inteqral resursa çevrilə bilən elmi biliklər daha mühüm əhəmiyyət kəsb edir. Təcrübə müstəvisində bu, yeni biliklərin məhsul və texnoloji yeniliklərə çevrilməsini təmin edən innovasiya prosesini ön plana keçirir.

İnnovasiya prosesi, əslində, təkrar istehsal tipini, sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirmə meyarları kəsb edən yeni innovasiyayönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır. Bu zaman iqtisadi artım kimi istehsalın intelektləşdirilməsi çıxış edir, yəni ÜDM artımı, əsasən, elmtutumlu məhsul və xidmətlərin buraxılışı və reallaşdırılması hesabına əldə edilir.

Cəmiyyət inkişaf etdikcə elm özünün spesifik qanunauyğunluqları və artım meyilləri iş metodları texnologiya və texnikası əməyin təşkilinin prinsipləri və sistemləri, xüsusi hazırlanmış kadrları ilə insan fəaliyyətinin müstəqil sferalarına çevrilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya"sı, eləcə də "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritə"ləri insan kapitalinin inkişafı, bilik və innovasiyalara əsaslanan inkişaf prioritet istiqamət olaraq müəyyən edilmişdir. Ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislərin isə dövlətin və özəl şirkətlərin idarə olunmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak etməsi prioritet istiqamətlər olaraq müəyyənləşdirilmişdir.

Hər bir sənədin əsas qayəsi məhz belə bir fikirdə öz əksini tapmış olur ki, bu da innovasiya əsaslı modelin inkişaf etdirilməsi üçün fiziki, insan, institusional və sosial kapitalla təmin olunması fikridir.

Konsepsiyada mövcud ehtiyatlarlardan maksimum istifadə edərək onların qeyri-neft sənayesinin tələbatlarının ödənilməsinə yönəldilməsi və bu amilin reallaşdırılması üçün elmi-texniki tərəqqinin ən yeni nailiyyətləri əsasında istehsalın daha da inkişaf etdirilməsi və hərtərəfli formalaşdırılmış müasir sənaye sahələrinin təşəkkülü prosesinin həyata keçirilməsi, sürətli inkişaf templəri fonunda bilik iqtisadiyyatına keçidin təmin olunması üçün zəruri şərtlər hesab olunur. Başqa sözlə desək, innovasiya fəallığı artırılmalı, ölkənin uzunmüddətli davamlı iqtisadi inkişafının sürətləndirilməsi, yeni innovasiya və rəqabətyönümlü məhsul istehsalının təmin edilməsi zərurətə çevrilməlidir.

İnkişaf Konsepsiyasında "Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi" sahəsində əsas istiqamətlər: uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, bilik iqtisadiyyatını formalaşdırmaq, elmtutumlu texnologiya, məhsul (işlər, xidmətlər) yaradılmasını sürətləndirmək məqsədi ilə innovasiya fəaliyyətinin genişləndirilməsi zəruri hesab olunur.

İnnovasiya fəallığının yüksəldilməsi və genişləndirilməsini təmin etmək məqsədilə ölkə başçısının sərəncamı ilə qəbul olunan "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin İnkişafı üzrə Milli Strategiya" innovasiya fəaliyyətinin inkişaf etdirilməsi, biznes inkubatorlar şəbəkəsinin genişləndirilməsi, texnoloji mərkəzlər, texnoparklar və innovasiya fəaliyyətinə dövlət tərəfindən maliyyə dəstəyinin verilməsi, dövlətin elmi-texnoloji və innovasiya siyasətinin əsas istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Təhsil və səhiyyədə keyfiyyətin yüksəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişaf etdirilməsi bu prioritet çərçivəsində əsas istiqamətlərdəndir.

Ali təhsil müəssisələrində "Təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi: Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini stimullaşdırılması, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyinin yüksəldilməsini nəzərdə tutur .

Təsadüfi deyildir ki, Azərbaycanda, eləcə də onun tərkib hissəsi olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Universitetlərdə iqtisadiyyatın indiki inkişaf səviyyəsinə əsasən mövcud elmtutumlu sənaye müəssisələrində istehsal proseslərini təşkil etmək və innovativ texnologiyalarla işləmək bacarığına malik mütəxəssislərin hazırlığı həyata keçirilməkdədir.

Universitetlərin İT fakültələrində tədris keyfiyyətinin yaxşılaşdırılması, gənclərin xaricdə təhsilinin genişləndirilməsi və İT peşə məktəblərinin yaradılması prioritet bir sahə kimi inkişafı üçün vacib olan insan resurslarının yaradılmasına istiqamətlənmiş və bu sahədə olduqca vacib addımlar hesab oluna bilər.

İnsan kapitalının inkişafında iştirak edən fiziki və texnoloji infrastrukturun təkmilləşdirilməsi, Elm, təhsil və istehsal sahələrində maddi-texniki bazanın müasir tələblər səviyyəsinə çatdırılması, elmi tədqiqatların aparılması, sınaqdan keçirilməsi və tətbiqini, "Elm-istehsal-bazar" əlaqələrinin optimallaşmasını, köməkçi qurumların yaradılmasını təşviq edir. İqtisadiyyatın davamlı inkişafı, rəqabətqabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya, yüksək texnologiya sahələrinin genişləndirilməsi, elm, texnologiya və innovasiya vasitəsilə ilə milli iqtisadi inkişafa töhfə verməyi, milli innovasiya sistemini genişləndirmək və bu sahəyə investisiya axınını gücləndirməyi hədəf alaraq uğurlu layihələrin həyata keçirilməsini dəstəkləyir. Öz məqsədləri daxilində Respublikada elmin inkişafı, elmi-tədqiqat işləri, innovasiya layihələri istiqamətində müvafiq ictimai, özəl və ya beynəlxalq institutlarla əməkdaşlıq edir, texnologiyaların transferi, elmin biznesə çevrilməsi istiqamətində müvafiq işlər görür. Gələcəkdə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqinə dair layihələrin həyata keçirilməsi planlaşdırılır. Bu da biznes mühitinin yaxşılaşdırılması şirkətlər tərəfindən araşdırma və təkmilləşdirmələrə investisiyaları stimullaşdırmaqla elmin maliyyələşməsində özəl sektorun çəkisini artırır.

Göründüyü kimi, strateji əhəmiyyətli sənədlərdə vurğulanan məqsədlərə nail olmağın yeganə yolu cəmiyyətin innovasiya əsaslı inkişaf modelinə keçilməsilə bağlıdır.

Bu gün ölkəmizdə aparılan məqsədyönlü siyasətin nəticəsində ölkəmiz bir sıra nüfuzlu reytinq cədvəllərində özünəməxsus layiqli yerini tutmağa başlamışdır. Belə ki, Dünya İqtisadi Forumunun hazırladığı İnsan Kapitalı İndeksinə (2015-ci il) əsasən Azərbaycan 124 ölkədən 63-cü, yuxarı-orta gəlirli 30 ölkə üzrə isə Azərbaycan insan kapitalına görə 15-ci yerdə qərarlaşmışdır. 2016-2017-ci illər üçün açıqladığı Qlobal Rəqabətlilik Hesabatında isə Azərbaycan 138 ölkə arasında artıq 37-ci yerə yüksəlmişdir. Bu göstəricilərin belə dinamik yüksəlişi ondan xəbər verir ki, ölkəmizin artıq formalaşmış insan kapitalına, həm də rəqabətqabiliyyətini yüksəltmək imkanlarına malik olduğunu sübut edir. Qətiyyətlə söyləmək olar ki, gələcəkdə Azərbaycan bu imkanlardan səmərəli istifadə etməklə və insan kapitalını daha da inkişaf etdirməklə rəqabətqabiliyyətini artırmış olacaqdır.

Müasir cəmiyyətdə intelektual kapital ölkə sərvətinin əsası hesab olunur və iqtisadi sistemlərin rəqabətqabilliyyətini təyin edir, eləcə də iqtisadi artımın və ölkənin inkişafının əsas resursu kimi çıxış edir. İntelektual kapitalın köməyi ilə ölkə iqtisadiyyatı daha da informasiyatutumlu, texnoloji tərəqqiyə və informasiyalara istiqamətlənmiş olur. İntelektual kapitalın yaranması və səmərəli istifadə edilməsi milli iqtisadiyyatın inkişafını, əhalinin iqtisadi və sosial vəziyyətinin yaxşılaşdırılmasını təmin edir. Yeni ideyaların, təkliflərin, elmi-texniki inkişaf nəzəriyyələrinin praktik tətbiq edilməsinin kompleks həyata keçirilməsi prosesi olan innovasiya əsaslı iqtisadiyyat dövrünün ən dinamik və gəlirli istiqamətlərindən biridir. İnnovasiya termin olaraq yeni ideyalarla elm və texnikanı inkişaf etdirib istehsal sahələrinə tətbiq etmək, gəliri artırıb işsizliyi aradan qaldırmaq və iqtisadi vəziyyəti inkişaf etdirmək deməkdir. İnnovasiyanı fərqli edən xüsusiyyətlər isə onun elmi-texniki nailiyyətlərdən geniş istifadə etməsinə, yeni texnologiyanın tətbiqinə, istehsal edilən məhsulun keyfiyyət göstəricilərinin artırılmasına və beləliklə də iqtisadi artımın əldə edilməsinə yönəldilmiş olmasıdır.

Dövlətin innovasiya siyasəti innovasiya fəaliyyətinin inkişafına və stimullaşdırılmasına yönəldilmiş sosial-iqtisadi siyasətin tərkib hissəsi olub elmi tədqiqatlardan, işləmələrdən, təcrübi konstruktor işlərindən , və ya digər elmi-texniki nailiyyətlərdən istifadə etməklə iqtisadi dövriyyədə reallaşdırılan yeni və ya təkmilləşdirilmiş məhsulların, habelə texnoloji prosesin yaradılması deməkdir. Bu siyasət yerli məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsi, dayanıqlı iqtisadi artımın təmin olunması, əhalinin həyat səviyyəsi və keyfiyyətinin, ölkənin müdafiə, texnoloji və ekoloji təhlükəsizliyinin təmin edilməsi üçün innovasiya fəaliyyəti prioritetliyi razılaşdırılmaqla formalaşdırılır və həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının səmərəli strukturunun formalaşdırılması məqsədilə elmi əsaslara söykənən idxal-ixrac siyasətinin həyata keçirilməsi nəticəsində istehsalyönümlü sahibkarlığın inkişafına, son məhsul istehsalının artırılmasına, daxili bazarın, əsasən, yerli xammal və materiallardan istifadə əsasında istehsal potensialının gücləndirilməsinə iqtisadi stimul yaradılmışdır.

Muxtar Respublikada pozitiv meyillərlə səciyyələnən bu sosial-iqtisadi fəallığın təməlində onun innovasiya və sosialyönümlü olması, hər bir vətəndaşın iqtisadi və sosial inkişafda iştirakından asılı olaraq maddi rifahın artırılması, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təminatı üçün aparılmış kompleks işlər dayanır.

İqtisadiyyatın davamlı inkişafı və rəqabətqabiliyyətininin artırılması, müasir elm və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnolgiya sahələrinin genişləndirilməsi dövlət siyasətinin əsas prioritet istiqamətlərindəndir.

Müasir dövrdə elmtutumlu və rəqabətqabiliyyətli məhsul (xidmət) istehsalı davamlı iqtisadi inkişafın ən mühüm şərti hesab olunur. Belə ki, elmtutumlu məhsul istehsalına çəkilən xərclərin əhəmiyyətli artımı və səmərəliliyi iqtisadiyyatda davamlı artım tendensiyasının, intelektual potensialın formalaşması və inkişafının əsasını təşkil edir.

Elm və təhsil müəssisələrində yaradılan müasir informasiya-kommunikasiya infrastrukturunun interaktiv təhsil sisteminə qoşulması kadr hazırlığında yeni dövrün əsasını qoyub. Muxtar

respublikanın infornasiya-rabitə sistemi tamamilə yeni nəsil texnologiyalar əsasında qurulub. Burada istifadəyə verilmiş günəş elektrik stansiyaları dövrümüzün ən qabaqcıl innovasiya nümunəsidir.

Kənd yaşayış məntəqələrində yaradılan kənd və xidmət mərkəzləri, vətəndaşlara yaşadıqları ərazidə göstərilən səyyar xidmətlər, nümunəvi təsərrüfat və ailə təsərrüfatı layihələri, Ağbulaq turizm istirahət bölgəsi kimi muxtar respublikaya məxsus olan sosial və biznes yönümlü innovasiyalar yüksək səmərəliliyi ilə seçilir.

Sosial-iqtisadi, texniki və intelektual potensialın möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan rəqabətə davamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı kompleks və sistemli işlər innovasiyaların genişlənməsi üçün geniş baza yaradıb.

Müasir dinamik dünyada iqtisadiyyatın rəqabətqabiliyyəti və sosial-iqtisadi inkişaf tempi iqtisadi subyektlərin, qabaqcıl texnologiyaların, yeni bazarların öyrənilməsi və tətbiqindən, biliyin generasiyası və onun əqli kapitala çevrilməsindən asılıdır.

Əmək bazarının tələblərinə uyğun kadr hazırlığının aparılması kimi ənənəvi istiqamətlərlə yanaşı, ali məktəblər innovativ ideyaların generasiyasın da yerinə yetirməlidirlər. İnnovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, elmi nailiyyətlərin və yeni texnologiyaların sahibkarlıq strukturuna ötürülməsi, investorlar üçün cəlbedici ola biləcək layihələrin hazırlanması innovasiya fəaliyyətinin kadr təminatı qarşıda duran başlıca vəzifələrdəndir.

Bilik iqtisadiyyatının formalaşması və inkişafın əsas amili insan kapitalıdır. İnsan kapitalının formalaşdırılmasının prioritet məqsəd kimi önə çəkən, dövlətin innovasiya inkişafında müasir biliklərin, nanotexnologiyaların roluna mühüm yer ayıran bu effektiv iqtisadi strategiyanın elmi cəhətdən təhlili və əsaslandırılması mövcud uğurların davamlılığının təmini baxımından son dərəcə vacibdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkə başçısı İlham Əliyev tərəfindən davam etdirilən iqtisadi müstəqillik strategiyasına uyğun aparılan struktur islahatları, iqtisadiyyatın beynəlxalq iqtisadi münasibətlərə və təsərrüfat əlaqələrinə uğurla inteqrasiyası Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın dinamik artımına səbəb olmuş, bütün iqtisadi fəaliyət sahələrin inkişafına etibarlı zəmin yaratmışdır. Bazar münasibətlərinin inkişaf etdiyi , bazar iqtisadiyyatının formalaşdığı bir cəmiyyətdə sahibkarlıq fəaliyyəti bu prosesin əsas hərəkətverici qüvvəsidir.

Sahibkarlığın inkişafı iqtisadi tərəqqinin əsas meyarlarındandır. Çünki istənilən bölgənin tərəqqisi sahibkarlığın inkişafı ilə birbaşa bağlıdır. İllərdir dünya təcrübəsi də göstərir ki, bazar iqtisadiyyatı şəraitində bu sahəni inkişaf etdirmədən heç bir tərəqqidən, yeniliklərin tətbiqindən, ümumilikdə isə hərtərəfli inkişafdan danışmaq mümkün deyil. Belə ki, insanların artan tələbatlarını ödəyə bilmək üçün, mövcud resurslardan səmərəli istifadə etməklə əhalinin yaşayış səviyyəsini yüksəltmək müasir dövr iqtisadiyyatının əsas prioritetlərindəndir. Bu mənada Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın əsas amillərindən olan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində həyata keçirilən bütün tədbirlər regionun investisiya cazibədarlığının artırılmasında mühüm əhəmiyyətə malikdir. Artıq muxtar respublikada iqtisadiyyatın formalaşmasında özəl sektor, xüsusilə də kiçik və orta sahibkarlıq mühüm rol oynayır. Yeni sahibkarlıq sahələrinin yaradılması və həyata keçirilməsi sənayenin inkişafı deməkdir.

Bu gün ixrac potensialının artırılmasında , investisiya imkanlarının genişləndirilməsində, sahib potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara böyük dəstək verilir.

Həyata keçirilən stimullaşdırıcı tədbirlər nəticəsində artıq ən ucqar dağ kəndlərində belə təsərrüfatçılığın yaradılması və nəticələrinin səmərəliliyi təmin olunmuşdur. Bu isə təbii ki, iqtisadiyyatın əsas və aparıcı hissələrinə çevrilən sənaye və kənd təsərrüfatı sahələrində ixrac yönümlü məhsul istehsalının davamlılığında perspektivliyi artmışdır. Elə bunun nəticəsi olaraq ötən 2019-cu il muxtar respublikada “Ailə təsərrüfatları” ili kimi elan olunmuşdur. Bu isə kənd təsərrüfatı sahəsində inkişafı daha da davamlı etməklə yanaşı, həm də aqrar sənaye inteqrasiyasının sürətlənməsinə öz töhfələrini vermiş, tələbatların ödənilməsi mümkün olmuşdur. Təkcə 2014-2019-

cu illər üzrə olmaqla sənaye və kənd təsərrüfatı sahələri üzrə ixrac məhsullarının həcmi də bunu göstərir. Qeyd edək ki, 2014-cü ildə 313 milyon 481 min ABŞ dolları həcmində sənaye məhsulu (tələbatdan çox olmuş), 95 milyon ABŞ dolları həcmində isə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur. Bu göstərici müvafiq olaraq 2019-cu ildə sənaye sahəsi üzrə 323 milyon 309 min ABŞ dolları həcmində, kənd təsərrüfatı üzrə isə 102 milyon 230 min 400 ABŞ dolları həcmində qərarlaşmışdır. İstehsala uzunmüddətli innovativ yanaşmanın nəticəsidir ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula tələbat tamamilə yerli məhsul hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin "İxrac ili" kimi elan olunması bir daha qarşıdakı illər üzrə inkişaf dinamikasına təminat verməkdədir. Burada həm sosiallaşma, həm iqtisadiyyatın diversfikasiyası, həm də uzunmüddətli prioritetlərin reallaşması yer almaqdadır. Təbii ki, mövcud potensial da elə bu istiqamətdə güclü baza təşkil etməkdədir.

Bu gün muxtar respublikada istehsal olunan kənd təsərrüfatı məhsullarının keyfiyyətinə görə istənilən ölkə ilə rəqabət apara bilər. Bütün bunlar göstərir ki, muxtar respublikamız davamlı inkişaf tempini qoruyub saxlamaq üçün bütün potensial imkanlarından istifadə edərək uğurlu nəticələr və yeni-yeni nailiyyətlərə doğru inamla irəliləyir.

## ƏDƏBİYYAT


1. Alıyev İ.H., Məmmədov Y.Ə. "Azərbaycan-2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının nəzəri metodoloji əsasları
2. Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər). Bakı: 2003, 17 fevral
3. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: Reallıqlar və perspektivlər (monoqrafiya). Bakı: İqtisad Universiteti, 2009
4. Аниконов Н.Б., Бобков А.Г. Инновации в системе экономического развития. Инновации: 2004, №4
5. Гамидов Г.С., Колосов В.Ф. Основы инноватики и инновационной деятелности. Спб Политехника: 2000
6. Гончаренко Л.П. Инновационная политика: Учебник . М.: КНОРУС, 2009, 352с
7. Иванова Н.И. Национальные инновационные системы. М.: Наука 2002
8. Индикаторы инновационной деятельности. Статический сборник М.: ГУ-В



## SUMMARY

**Mehseti Asgerova**

**THE CURRENT STATE OF INNOVATION POLICY IN THE NAKHCIVAN AUTONOMOUS REPUBLIC**

The scientific article examines the current state of innovation policy in the Nakhcivan Autonomous Republic.

A characteristic feature of the modern stage of world development iz the transition of human civilization from an industrial society to a post-industrial society.

This is primarily due to the global nature of the growing influence of science and technology on all aspects of public life,scientific leading to large-scale socio-economic and historical changes.

In addition to natural resources and capital, which have the ability to influence the level of development of the economic system, scientific knowledge that can be turned into an integrated resource is even more important.

At the level of practice, it brings to the fore the innovation process that ensures the transformation of new knowledge into product and technological innovations.

The scientific article also scientifically analyzes and substantiates this effective economic

strategy, which emphasizes the role of modern knowledce and nanotechnologies in the innovative development of the state, which is a priority gool of the formation of human capital.

***Key words:*** *innovation, innovation policy, human capital, knowledce economy, scientific and technological progress, technologial, education-research-innovation, innovation-oriented economy*

## РЕЗЮМЕ

**Мехсети Аскерова**

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ ИННОВАЦИОННОЙ ПОЛИТИКИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В научной статье исследуется современное состояние инновационной политики в Нахчыванской Автономной Республике.

Характерной чертой современного этапа мировного развития является переход человеческой цивилизации от индустриального общества к постиндустриальному обществу. Это связано, прежде всего, с глобальным характером растущего влияния науки и технологий на все аспекты общественной жизни, а также с научно-техническими достижениями, которые привели к крупномасштабным социально-экономическим и историческим изменениям.

Помимо природных ресурсов и капитала, которые могут влиять на уровень развития экономической системы, еще более важны научные знания, которые можно превратить в интегрированный ресурс.

На уровне практики он выдвигает на первый план инновационный процесс, который обеспечивает преобразование новых знанийв продуктовые и технололгические инновации.

***Ключевые слова:*** *инновации, инновационная политика,человеческий капитал, экономика знаний, научно-технический прогресс, технологим,образование-иследования- инновации, инновационно- ориентирования экономика*

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*Naxçıvan Dövlət Universiteti*
*"tehmezbeyova@mail.ru*

# AZƏRBAYCANDA VENÇUR SAHİBKARLIĞININ TƏTBİQİ İSTİQAMƏTLƏRİ

*Azərbaycanın sürətli iqtisadi inkişafı nəzərə alınaraq, ölkəmizdə vençur sahibkarlığının yaradılması məsələsi qoyulmuşdur.*

*Vençur sahibkarlığı sifarişlər əsasında kiçik və orta müəssisələrin yaradılması və gələcək inkişafının proqnazlar əsasında layihələndirilməsi, istehsalın yeni innovasiyalara uyğunluq dərəcəsinin təyin edilməsi, hazırlanması müəssisələrdə yeni elmi ideyaların tətbiqinə yardım göstərilmiş və sərbəst satışla məşğul olan fəaliyyət növüdür.*

***Açar sözlər:*** *vençur, investisiya, gəlir, sahibkar, innovasiya*

Hazırda qloballaşma şəraitində iqtisadiyyatın müasir tələblər səviyyəsində qurulması dövlətin əsas məqsədidir. Hər bir dövlət müasir dövrün tələbləri ilə ayaqlaşmağa can atır. Müasir dövrün tələblərini qarşılamaq üçün müəyyən şərtlərə əməl olunması vacib məsələlərdəndir ki, bunlara aşağıdakıları aid edə bilərik:

1. Ölkə iqtisadiyyatının innovasiyalar əsasında qurulmasına yardım;
2. Elektronlaşmış vergi sisteminin genişləndirilməsi;
3. Müasir tələblərə cavab verən insan kapitalının yetişdirilməsi;
4. Vençur sahibkarlığının təşkili;
5. İnnovasiya kommunikasiya sisteminin daha da təkmilləşdirilməsi.

Möhtərəm Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri vəzifəsində çalışdığı illərdən başlayaraq ölkənin bazar iqtisadiyyatı istiqamətində inkişaf etdirməyə və onun əsaslarını yaratmağa başladı. Qeyd edək ki, Azərbaycan iqtisadi sistemə keçidə və iqtisadi inkişafa Naxçıvan Muxtar Respublikasından başladı.

Belə ki, cənab Heydər Əliyevin rəhbərliyi ilə Ali Məclisdə 1992-ci ildə qəbul olunan "Rentabelsiz işləyən kolxoz və sovxoz haqqında" Qərar və "Rentabelsiz işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər" nöbəti illərdən etibarən iqtisadi artıma səbəb oldu.

Belə ki, möhtərəm Heydər Əliyev öz çıxışlarının birində qeyd etdi ki, "Mənə deyəndə ki: yumurta, süd, tökülür qalır sata bilmirik, mən sevinirəm".

1993-cü ildə Azərbaycan Prezidenti seçilən Heydər Əliyev ölkə iqtisadiyyatının tənzimlənməsinə, tənəzzülün qarşısının alınmasına 1994-cü ildə atəşkəsə nail olmaqla başladı. Elə həmin ildə "Əsrin müqaviləsi" imzalandı. Ölkəyə investisiya axını təmin edildi. Xarici şirkətlərin neft sənayesinə sərmayə yatırması innovasiyalı neft sənayesinin yaranmasına və inkişafına səbəb oldu.

Möhtərəm Heydər Əliyev iqtisadiyyatın inkişaf istiqamətlərini, yəni onun əsaslarını yaratdı. Torpaq islahatları, xüsusi mülkiyyətə keçid, kiçik və orta sahibkarlığın inkişafı əhalinin vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə 1992-1993-cü il və 1993-1995-ci illərin proqramlarının icrası ölkədə iqtisadi sabitliyi təmin etmiş oldu. 1995-ci ildə BVF yoxlamaları nəticəsində iqtisadi sabitlik təsdiq olundu.

Hazırda ölkə iqtisadiyyatının uzunmüddətli prioritetlərinə sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya və infrastruktur aid olmaqdadır.

Ölkə iqtisadiyyatının innovasiyalar əsasında qurulması üçün aşağıdakı zəruri şərtləri həyata keçirmək vacibdir:

1. İnnovasiya biznesinin yaradılması (istehsal və alqı-satqı);
2. İnnovasiyalardan istifadə üsullarını öyrədən mərkəzlərin yaradılması;
3. İnnovasiyalarla təmin olunmuş lizinq, texnoparkların yaradılması;
4. İnnovativ infrastrukturun keyfiyyətinin yaxşılaşdırılması və genişləndirilməsi;
5. Hüquqi və fiziki şəxslərin maliyyə təminatının təşkili;

6. Kadrların düzgün yerləşdirilməsi;
7. Kadr siyasəti.

Dünyada innovasiyalaşma prosesinin getməsi Azərbaycanda da təsirsiz ötüşməmişdir. Belə ki, Azərbaycan qlobal aləmdə innovasiyalaşma siyasətinin iştirakçısıdır. Ölkə iqtisadiyyatında aparılan islahatların həcminə görə ölkəmiz dünyada önəmli yerlərdən birini tutur.

Qeyd edək ki, 1999-2003 və 2004-2008-ci illər proqramının icrası xüsusi ilə ölkə üçün önəmli illər olmuşdur. Belə ki, həmin dövrdə büdcə kəsiri aradan qaldırılmış, tədiyə balansında müsbət saldo yaranmışdır.

Ölkə regionlar üzrə innovasiyalı iqtisadi sistemə nail olmuşdur. Belə ki, 2003-cü ildə Cenevrədə keçirilən konfransda cənab İlham Əliyev innovasiya kommunikasiya təminatı haqqında öhdəlik götürmüş və onu müvəffəqiyyətlə yerinə yetirmişdir. Elə həmin illərdə Avropa qonşuluq siyasəti çərçivəsində 2004-cü ildə audit sistemi üzrə innovasiyalı proqram olan “Tivining” layihəsinə qoşulmuş, 2012-ci ildə Avropa İttifaqının Vergi Assambleyasının keçirdiyi iclasda iştirak etmiş, ölkədə vergi sisteminin elektronlaşmasına və əhalinin informasiya kommunikasiya sistemi ilə təminatı dərəcəsinə görə önəmli yerlərdən birini tutmuşdur. Bunun nəticəsində vergi sistemində onlayn kargüzarlıq, vergi bəyannamələrinin elektron qəbulu, ƏDV depozit hesablarının tətbiqi həyata keçirilməyə başlanmışdır.

Məsələn, sənaye sahələrinə innovasiya texnologiyaların tətbiqi bu sahədə məhsuldarlığın artımına əsaslı təsir göstərmişdir. Belə ki, 2011-2018-ci illər ərzində Azərbaycan sənaye məhsulu istehsalı sürətlə artmışdır. Sənayenin qeyri-dövlət bölməsi ümumi sənaye istehsalının 5,4% vermişdir. Sənaye sahələrində innovasiyalara çəkilən xərclərin artım sürətinə cədvəl vasitəsilə nəzər salaq:

| **Göstəricilər** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|---|---|---|
| Sənaye | 31589 | 9326 | 13,877 | 21,534 | 35,179 | 27929 | 19135 | 34353,6 |
| O cümlədən müəssisələrin öz vəsaitləri | 22996 | 9174 | 12377 | 21,133 | 34,779 | 14287 | 16076 | 34278 |
| Dövlət büdcəsi | 8483 | - | 551,2 | - | - | - | - | 3,6 |
| Sair | - | 151,8 | 949,1 | 400,6 | 399,9 | 1834 | 23,7 | - |

O cümlədən Naxçıvan Muxtar Respublikasında innovasiyalaşma işinə xüsusi önəm verilir və dövlət bu məqsədlə 2019-cu ildə sahibkarlara 29 milyon 16 min manatdan çox kredit vermişdir. Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahələrin inkişafını sürətləndirmək üçün “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 364 müxtəlif adda yeni kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq və 7 min 174 ton mineral kübrə, 6 min ton karbomit kübrəsi verilmişdir.

2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ailə Təsərrüfatları İctimai Birliyi yaradılmış, 87 ailə təsərrüfatına 820 min manat yaxın güzəştli kredit verilmişdir. Görülən tədbirlər nəticəsində muxtar respublikada 507 milyon 641 min manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur.

Prezident cənab İlham Əliyevin 2 aprel 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş innovasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün “Milli Strategiya”sında innovativ sahibkarlığın inkişaf etdirilməsi, yeni innovasiya şirkətlərinin yaradılması və innovasiya strukturunun inkişaf etdirilməsi məqsədləri qarşıya qoyulmuşdur.

Bununlada ölkəmiz innovasiyalaşma dərəcəsinə görə MDB məkanında 1-ci, Avropa məkanında isə önəmli yerlərdən birini tutmuşdur.

Bunu Avropa vergi Assambleyasının Prezidenti Do Silva belə qeyd etmişdir: “Bu gün Azərbaycan innovasiyalı vergi sistemi üzrə Avropanın inkişaf etmiş ölkələri ilə bir səviyyədə dayanır”.

Hazırda Azərbaycanda 99% innovasiyalı və o cümlədən Naxçıvan Muxtar Respublikasında vergi sistemi və elektron hökumət sistemi fəaliyyət göstərir, bu sistemin təkmilləşdirilməsi istiqamətləri genişləndirilir.

Bu gün Azərbaycanda innovasiyalaşmaya olan tələbatın böyüklüyünü nəzərə alaraq ölkəmizdə vençur sahibkarlığının yaradılmasının effektivliyini nəzərə almaq lazımdır.

Dünya təcrübəsində vençur biznesi vençur sahibkarlığından geniş istifadə olunur.

Vençur biznesi innovasiya sahibkarlığını xarakterizə edir. Vençur biznesi ən çox risk yaradan biznes fəaliyyəti növüdür. Vençur biznesinin əsas məqsədi mütərəqqi texnologiyaların yaradılması və onun tətbiqi istiqamətlərinin müəyyənləşdirilməsidir. Qeyd etdiyimiz kimi bu sahədə əhəmiyyətli risklərin artması ehtimalı var ki, bunun da səbəbi səmərəliliyin xeyli dərəcə artmasıdır. Belə ki, səmərəlilik artdıqca risklər də həcmini artırır. Lakin vençur sahibkarlığın əsas müsbət xüsusiyyəti riskin bölüşdürülmə prinsipidir. Yəni burada risk innovasiyaları maliyyələşdirənlər arasında paylanır. Buna görə risklərin vurduğu ziyan minimuma enir.

Vençur sahibkarlığı Azərbaycan iqtisadiyyatı üçün yeni sahədir. Bu sahənin ölkəmizdə geniş tətbiqi üçün ABŞ, Kanada, İngiltərə, Fransa və digər ölkələrin təcrübəsinə əsaslanmalı və bu sahənin həmin ölkələrin iqtisadiyyatına təsir mexanizmi öyrənilməlidir. ABŞ vençur biznesinin tətbiqi XX əsrdə qalibiyyətə, XXI əsrdə isə ön sıralarda yer almağa imkan verən əsas istiqamət olmuşdur.

Beləliklə demək olar ki, vençur sahibkarlığı cəmiyyətin tərəqqisi üçün əsas amillərdəndir. Zənnimizcə, vençurun fəaliyyəti sifarişlər əsasında yeni layihələr yaradan, yeni elmi ideyaları olan, patent tətbiq edən və onların tətbiqini təcrübələr əsasında reallaşdıran, gəlir götürən ixtisaslaşmış fəaliyyət növüdür. Burada yeni innovasiyaların istehsalı və bazara çıxarılacaq məhsulların layihəsi hazırlanır. Layihənin əsas elementlərini, onun məqsəd və vəzifələrini səmərəlilik göstəricisi təşkil edir. Bu da müəyyən mənada qeyri-müəyyənlik daşıyır. Belə ki, bu innovasiyalar layihəsi cəmiyyətdə müvəffəqiyyət qazanmaya bilər. O zaman inkişaf etmiş ölkələrdə (ABŞ, Kanada) sifarişçi ödədiyi maliyyətin 100%-i keçir, bizdə isə 50% vençura keçməlidir.

Vençur sahibkarlığının əhəmiyyəti 70-ci illərdə inkişaf etmiş ölkələrdə kiçik sahibkarlığa həvəsləndirmək məqsədi ilə inhisar əleyhinə fəal siyasət yeridilən zaman özünü göstərmişdir. Buna ölkədə vergi güzəştlərinin həyata keçirilməsi və vençur işgüzarlığının tətbiqinin maliyyələşdirilməsi, inkişafı və genişləndirilməsi ilə nail olmuşdur. Bundan sonra vençur işgüzarlığı ABŞ-da geniş vüsət almışdır. Beləliklə, cəmiyyətdə sual yaranmışdır ki, vençur işgüzarlığı nədir? Vençurlara maliyyə və qanunvericiliklə kömək edən, onları inkişafa həvəsləndirən, onları sifarişlə təmin edən, təşkilatçılıq və idarəetmə sahəsində məsləhətçiköməyi göstərən xüsusi dövlət institutlarıdır.

Vençur kapitalı isə yeni texnologiyaların və yeni layihələrin işlənib hazırlanmasına və həyata keçirilməsinə sərf olunan kapitaldır. Bu kapital sifarişçilər və dövlət yardımı əsasında əldə olunur.

Zənnimizcə, vençur sahibkarlığı zamanı baş verəcək riskin aradan qaldırılması üçün müəyyən tədbirlər görmək olar. Bu məqsədlə aşağıdakıları həyata keçirmək vacibdir:

1. Qənaət (yeni modelin bəzi hissələrini daha ucuz və əlverişli materiallarla əvəz etmək);
2. İtkilərin qarşısını almaq;
3. İnnovasiyalı avadanlıqların istehsalı zamanı məhsulun növünə, ölçü formasına, standartına uyğunluq dərəcəsinə nəzarət;
4. Yerli bazarda layihə və məhsulların əhalinin istehsal vərdişlərinə, adət və ənənələrə uyğun gəlmədikdə bazar dəyişimi etmək (region və xaric);
5. Riskli məhsullara zərərsizlik nöqtəsinə qədər və bəzi hallarda daha çox güzəşt getmək;
6.Vençur sahibkarlığına verilən sifarişlərin dəqiqliyinin yerindəcə yoxlanılıb aydınlaşdırılması.

Hazırda vençur sahibkarlığını inkişaf etdirmək üçün insan kapitalına böyük ehtiyac yaranır. Belə ki, "Azərbaycan Dünya İqtisadi Formunun" 2015-ci il üçün açıqladığı "İnsan kapitalı indeksi" hesabatında 124 ölkə arasında orta sıralarda 63-cü yerdə qərarlaşmış, 2016-2017-ci illər üçün açıqladığı "Qlobal Rəqabətsizlik Hesabatında" isə ölkəmiz 138 ölkə arasında 37-ci olmuşdur.

Prezident cənab İlham Əliyevin yeritdiyi sosial siyasətin nəticəsidir ki, ölkədə fəaliyyət göstərən 52 ali təhsil müəssisəsindən 37-si dövlət hesabına maliyyələşir, 15-i isə özəl sektorun (pullu təhsil) payına düşür. Dövlət ali təhsil müəssisələrində 125,7 min tələbə, 19,9 min tələbə isə özəl sektorda təhsil alır.

Müasir dövrdə iqtisadiyyatın innovasiyalı inkişafı və onun genişləndirilməsi bir mənalı xarakter daşımır. Belə ki, yeni texnalogiyalara əsaslanan və bazara çıxan məhsullar beynəlxalq standartlara cavab verməlidir. Bunun əsil səbəbi dünya ticarətinin bir şəbəkə xarakteri alması və turizm

münasibətlərinin genişləndirilməsidir.

Zənnimizcə, turizm ticarəti və yeni məhsullara turist tanışlığı, əcnəbilərə tanıtım ideyasının turizm təşkilatlarında, sanatoriyalarda, müalicə-kurort zonalarında yarmarkalar şəklində təşkili daha effektli daha səmərəli nəticələr verər. Bu, eyni zamanda ayrı-ayrı şəxslərin, kiçik biznesçilərin ticarət şəbəkəsinə qoşulmasını genişləndirər və onların sosial təminatlarında böyük rol oynayar.

Bu gün Azərbaycanda xarici ticarət dövriyyəsi sürətlə artmadadır. Belə ki, ölkəmizdə xarici ticarət dövriyyəsi 30924 milyon ABŞ dolları olmuş, onun 19459 milyonu ixracın payına düşmüşdür.

2019-cu ildə Naxçıvan Muxtar Respubliksında xarici ticarət dövriyyəsi 497 milyon 68 min 600 ABŞ dolları təşkil etmişdir. Bu ticarət əməliyyatlarının 85,6%-i ixracın payına düşmüşdür ki, bu da ölkədə innovasiyalı müəssisələrin üstünlük təşkil etməsi ilə əlaqədar olmuşdur.

Azərbaycanda vençur sahibkarlığının tətbiqi səmərəliliyini ekspert yanaşmasından istifadə etməklə qiymətləndirmək və ona rəy vermək günün tələbidir. İri şirkət və müəssisələrdə vençur sahibkarlığını ixtisaslı kadrlar əsasında müəssisə daxilində yerləşdirmək və ya təşkil etmək mümkünlüyünü də nəzərə almaq olar.

İnnovasiyalı texnologiyaların və məhsulların şirkətlərin özündə tətbiq edilməsi, şirkətlərin məhsullarının daxili və xarici bazarlarda unikal xarakter almasına və rəqabətdə üstünlüyünün təşkil olunmasına şərait yaradar.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan: Aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı: 2018. 584 səh.
2. Bayramov E.M., Rəhimova S.Ə. Azərbaycanda sahibkarlığın formalaşmasının sahə xüsusiyyət-ləri. Bakı: “İqtisadiyyat və audit” jurnalı, No115, 2003, 65 səh.
3. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı: 2000, 114 səh.
4. Musayev V.R., Seyfullayev İ.İ. Sahibkarlığın əsasları. Bakı: 2000, 155 səh.
5. Bağırov M.M. Banklar və bank əməliyyatları. Bakı: 2003, 512 səh.


## SUMMARY

**Kamala Tahmazbayova**

### DIRECTIONS OF APPLICATION OF VENTURE ENTERPRENEURSHIP IN AZERBAIJAN

The article raises the issue of establishing venture entrepreneurship in our country, taking into account the raid economic development of Azerbaijan. Venture capital is the creation of small and medium-sized enterprises on the basic of orders and their basis of orders and their identification on the basis of forecasts. It is also a specialized type of activity that helps to determine the degree conformity of production to new innovations, preparation, and the application of scientific ideas in enterprises.

***Key words:*** *vencur, investment, profit, entrepreneur, innovation.*

## РЕЗЮМЕ

**Кемале Техмезбейова**

### НАПРАВЛЕНИЯ ПРИМЕНЕНИЯ ВЕНЧУРНОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ

В статье поднимается вопрос о создании предпринимательство в нашей стране с учетом быстрого экономического развития Азербайджана. Венчурный капитал представляет собой создание малых и средних предприятий на основе прогнозов.

Это также специализированный вид деятельности, который поможет определить степень соответствия производства новым инновациям, подготовке и применению научных идей на предпртятиях.

***Ключевые слова:*** *венчур, инвестиция, доход, предприниматель, инновация*

**ELŞƏN PƏNAHOV**
*Azərbaycan Universiteti*

# AZƏRBAYCANIN REGİONLARININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ NEFT SEKTORUNUN ROLU

*Məqalədə əvvəlcə müstəqillik illərində aparılan iqtisadi siyasətin qısa xarakteristikası verilmiş və burada neft sektoru dinamik inkişafın əsas maliyyə bazası kimi qiymətləndirilmişdir. "Əsrin müqaviləsi" əsasında sürətlə inkişaf etdirilən və modernləşdirilən neft kompleksinin fəaliyyəti nəticəsində əldə edilən gəlirlər hesabına ölkədə dayanıqlı və davamlı inkişaf təmin edilmişdir. İqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilən "Azərbaycanda regionların inkişaf etdirilməsi" siyasəti də neft gəlirləri hesabına maliyyələşdirilir ki, bu məsələ də məqalədə öz əksini geniş şəkildə tapmışdır. Bunu diqqətə çatdırmaq üçün məqalədə "Regionların İnkişafı Dövlət Proqramları"nın yerinə yetirilməsi vəziyyəti təhlil olunmuşdur. Hər bir regionun investisiya tələbatını və investisiya potensialını xarakterizə edən göstəricilər nəzərdən keçirilmişdir. 2009-2019-cu illər ərzində iqtisadi rayonlar üzrə əsas kapitala investisiyaların dinamikası öyrənilmiş, həmçinin həmin dövr ərzində iqtisadi rayonlar üzrə istifadəyə verilmiş əsas fondların dinamikası təhlil obyektinə çevrilmişdir. Bu təhlillər əsasında regionların inkişafının təmin edilməsində neft sektorunun rolu əsaslandırılmışdır.*

***Açar sözlər**: regional inkişaf, dövlət proqramları, əsas kapitala investisiyalar, əsas fondlar, tarazlı inkişaf*

## GİRİŞ

Müstəqilliyin ilk illərində Azərbaycanda, Bakı şəhərində 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin imzalanması əsasında dünyanın 10-dan artıq inkişaf etmiş ölkəsinin 300-dən artıq transmilli şirkətinin təmsilçiləri ölkəmizdə iqtisadi fəaliyyətə başladı. Onlar iqtisadiyyata, xüsusən də neft-qaz sektoruna külli miqdarda investisiyalar yatıraraq, ölkəni düşmüş olduğu böhran vəziyyətindən çıxararaq onu dinamik, sabit, dayanıqlı inkişaf yoluna gətirdilər. Neft və qaz sektoru qısa müddət ərzində yeniləndi, texniki və texnoloji cəhətdən müasir standartlara uyğun qurularaq ölkənin əsl gəlir mənbəyinə çevrildi. Ölkəyə cəlb edilən birbaşa və portfel investisiyaların, dövlət təminatı olan və olmayan kreditlərin, neft bonuslarının, xarici ölkələrin və birgə investisiya şirkətlərinin vəsaitləri ölkə iqtisadiyyatında sürətli inkişafın əldə edilməsinə, iqtisadiyyatın bütün sektor və sahələrinin dinamik, davamlı inkişaf yoluna qoyulmasına sərfəli şərait yaratdı.

Neft və qaz sektorunun sürətli inkişaf etdirilməsi nəticəsində əldə edilən gəlirlərin düzgün, şəffaf və daha səmərəli istifadə edilməsi, eyni zamanda həmin vəsaitlərin gələcək nəsillərə ötürülməsi üçün 1999-cu ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradıldı.

**Regional inkişafın zəruri parametrləri**

"Əsrin müqaviləsi"nin bağlanması ilə ölkədə yeni "Neft strategiyası" reallaşdırılmağa başladı. Bu strategiya öz məzmun və mahiyyətinə görə əslində ölkə iqtisadiyyatında mövcud olan böhranlı vəziyyətdə fəaliyyət üçün seçilmiş olan ən düzgün fəaliyyət proqramı idi. Həmin dövrdə ölkə Prezidenti Heydər Əliyev bu strategiyanın mahiyyətini açıqlamış, ölkənin əvəzsiz təbii sərvəti olan neftin ölkə iqtisaidyyatındakı rolunu belə müəyyən etmişdi: "Azərbaycan dövləti 1994-cü ildən özünün yeni neft strategiyasını həyata keçirməyə başlayır. Bu strategiyanın əsas mənası, mahiyyəti və prinsipləri ölkənin təbii sərvətlərindən, o cümlədən neft və qaz yataqlarından Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir" (1, səh. 24).

Yeni neft strategiyası əsasında əldə olunmuş vəsaitlər hesabına birinci növbədə ölkə iqtisadiyyatının ən zəruri, prioritet sahələri inkişaf etdirildi. Belə sahələrdən biri də ölkənin regionlarının inkişafı məsələsi idi. Çünki regionları inkişaf etdirmədən dayanıqlı iqtisadiyyat yaratmaq və onun davamlı inkişafını təmin etmək mümkün olmazdı.

Regionların inkişaf etdirilməsi üçün ayrı-ayrı region və layihələrdə dövlət büdcəsinin, Dövlət Neft Fondunun və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vəsaitlərindən istifadə olunmağa

başlandı. Regionların inkişaf etdirilməsində əsas məqsəd mərkəzin və regionların tarazlı inkişafının təmin edilməsi idi. Bunun üçün regionlarda sahibkarlığın sürətli inkişaf etdirilməsi vasitəsi ilə oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə məşğulluq səviyyəsinin artırılması, yoxsulluğun azaldılması, ölkənin makroiqtisadi göstəricilərində regionların xüsusi çəkisinin yüksəldilməsi əsas istiqamət kimi seçilmişdir (2, səh. 204).

Regionların inkişafına dair ilk sənəd olan 2004-2008-ci illərdə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" 11 fevral 2004-cü ildə ölkə Prezidentinin Fərmanı ilə təsdiq edilmişdir. Bu proqram vasitəsilə regionların iqtisadi inkişafında tamamilə yeni səhifə açılmış, insanların kənddən şəhərə axınının qarşısı alınmış, qeyri-neft sektorunun inkişafı vüsət almışdır. Qeyd edilən dövlət proqramının icra olunması regionların sərvətlərindən və təbii şəraitindən səmərli istifadə edilməsi yolu ilə kənd təsərrüfatı məhsulları istehsalının artırılması, qeyri-neft sektorunun, qeyri-neft sənaye sahələrinin, xüsusən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişaf etdirilməsi, məşğulluq səviyyəsinin qısa müddətdə yüksəldilməsi və s. məsələlərdə müstəsna rol oynamışdır (3, səh. 106).

Bu günə kimi ölkəmizdə daha üç dövrü 2009-2013, 2014-2018 və 2019-2023-cü illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları" qəbul olunmuşdur. Bütün bu proqramların icrası üçün ən zəruri meyarlar nəzərə alınmış, əsaslandırılmış, regional inkişaf prioritetləri müəyyən edilmiş, regionlara yönəldiləcək investisiyaların və digər maliyyələşmə üsullarının mənbələri təyin edilmişdir. Hər bir regionun investisiya tələbatını və investisiya potensialını xarakterizə etmək üçün aşağıdakı göstəriciərdən istifadə edilmişdir:

- konkret regionda adambaşına məcmu (regional) məhsul və fondlar;
- regionun ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi;
- ölkənin ümumi daxili məhsulu;
- əsas kapital vahidinə, 1 manata düşən əsas fondlar;
- məcmu regional məhsulun bir manatına düşən əsas kapitala investisiyalar;
- konkret ölkədaxili regionda və ölkə üzrə ümumilikdə əsas kapitala investisiyaların miqdarı və s. (6, səh. 34).

Qeyd edilən istiqamətdə investisiyalar ya dövlət büdcəsindən, ya da "Dövlət Neft Fondu"ndan, ya da ki, "Dövlət Neft Şirkəti"ndən ayrılmış və bu qayda ilə də hal-hazırda davam etməkdədir. Regionların inkişaf etdirilməsi üçün neft sektoru gəlirlərindən istifadə olunması bütün neft ölkələri üçün xarakterik bir haldır və bu bizim ölkəmizdə də geniş tətbiq olunmaqdadır. Regionların inkişafı istiqamətində vəziyyəti təhlil etmək üçün nəzərdən keçirilməli ən əsas göstəricilərdən biri iqtisadi rayonlar üzrə əsas kapitala investisiyaların dinamikasıdır (Cədvəl 1).

***Cədvəl 1.*** *2005-2019-cu illərdə Azərbaycanın iqtisadi rayonları üzrə əsas kapitala investisiyaların dinamikası (mln manat)*

| **İqtisadi rayonlar** | **2005** | | **2012** | **2013** | **2016** | **2019** | **2019-cu ildə 2005-ci ilə nəzərən** |
|---|---|---|---|---|---|---|---|
| Naxçıvan MR | 126.1 | 501.1 | 982.3 | 1037.7 | 997.6 | 1046.7 | 8.3 dəfə |
| Abşeron | 135.5 | 119.0 | 365.8 | 581.5 | 314.1 | 604.3 | 4.4 dəfə |
| Gəncə-Qazax | 69.5 | 420.5 | 771.9 | 946.6 | 565.4 | 874.9 | 12.6 dəfə |
| Şəki-Zaqatala | 160.4 | 183.5 | 733.7 | 653.8 | 177.1 | 207.9 | 1.3 dəfə |
| Lənkəran | 92.7 | 133.8 | 224.0 | 286.4 | 440.1 | 490.7 | 5.3 dəfə |
| Quba-Xaçmaz | 34.2 | 556.1 | 622.2 | 487.7 | 353.8 | 396.5 | 11.6 dəfə |
| Aran | 118.2 | 577.4 | 1219.6 | 1498.2 | 808.5 | 847.4 | 7.2 dəfə |
| Yuxarı Qarabağ | 42.6 | 85.0 | 71.4 | 57.1 | 133.5 | 147.7 | 3.5 dəfə |
| Kəlbəcər-Laçın | 0.7 | 0.4 | 0.6 | 0.2 | - | - | - |
| Dağlıq Şirvan | 26.5 | 183.2 | 165.1 | 152.5 | 192.6 | 206.5 | 7.8 dəfə |

***Mənbə:*** *(6, səh 127,7). Cədvəl mənbə məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 1-in göstəricilərindən aydın olur ki, ölkəmizdə neft sektorunun inkişafı nəticəsində

valyuta ehtiyatlarının toplanması, artması vasitəsilə 2005-ci ildən başlayaraq regionların sürətli inkişafı üçün onlara, əsas kapitala qoyulan investisiyaların həcmi getdikcə artmışdır. Göründüyü kimi iqtisadi rayonlar üzrə 2005-ci ilə nəzərən 2019-cu ildə artım Naxçıvan Muxtar Respublikası üzrə 8,3 dəfə, Abşeron üzrə 4,4 dəfə, Gəncə-Qazax üzrə 12,6 dəfə, Şəki-Zaqatala üzrə 1,3 dəfə, Lənkəran üzrə 5,3 dəfə, Quba-Xaçmaz üzrə 11,6 dəfə, Aran regionu iqtisadi rayonu üzrə 7,2 dəfə, Yuxarı-Qarabağ üzrə 3,5 dəfə, Dağlıq Şirvan üzrə isə 7,8 dəfə olmuşdur. Bu onu göstərir ki, təhlil edilən müddət ərzində ölkənin bütün iqtisadi rayonları kifayət dərəcədə əsas kapitalla təmin olunmuşlar ki, bu da rayonların dinamik inkişafının əsas səbəblərindən biridir (5).

Neft sektorunun vəsaitləri hesabına inkişaf etdirilən rayonların vəziyyətini araşdırmaq üçün nəzərdən keçirilməli çoxsaylı mühüm göstəricilərdən biri də iqtisadi rayonlar üzrə istifadəyə verilmiş əsas fondların dinamikasıdır. Bu göstərici öz mahiyyətinə görə hər bir iqtisadi rayonun əsas fondlara olan tələbatını və onunla təchiz olunma səviyyəsini əks etdirir. Bu göstərici də digər əsas göstəricilər kimi rayonların sürətli inkişafını şərtləndirən amillərdəndir (Cədvəl 2).

***Cədvəl 2.*** *2005-2019-cu illərdə Azərbaycanın iqtisadi rayonları üzrə istifadəyə verilmiş əsas fondların dinamikası (mln manat)*

| **İqtisadi rayonlar** | **2005** | **2010** | **2012** | **2013** | **2016** | **2019** | **2019-cu ildə 2005-ci illə müqayisədə** |
|---|---|---|---|---|---|---|---|
| Naxçıvan MR | 128.4 | 521.8 | 802.2 | 1007.7 | 967.1 | 1014.2 | 7.9 dəfə |
| Abşeron | 39.9 | 46.4 | 112.7 | 357.6 | 187.2 | 360.2 | 9.1 dəfə |
| Gəncə-Qazax | 41.1 | 166.7 | 459.4 | 447.8 | 338.6 | 202.3 | 4.9 dəfə |
| Şəki-Zaqatala | 12.0 | 138.6 | 589.5 | 465.1 | 976.9 | 196.4 | 16.4 dəfə |
| Lənkəran | 30.9 | 83.1 | 121.0 | 185.4 | 128.2 | 392.5 | 12.7 dəfə |
| Quba-Xaçmaz | 16.7 | 90.8 | 99.4 | 77.2 | 102.7 | 337.3 | 20.2 dəfə |
| Aran | 73.5 | 294.2 | 490.5 | 767.1 | 684.0 | 779.6 | 10.6 dəfə |
| Yuxarı Qarabağ | 22.9 | 78.4 | 72.4 | 54.5 | 79.9 | 125.5 | 5.5 dəfə |
| Kəlbəcər-Laçın | 0.04 | 1.0 | 0.6 | 0.2 | - | - | - |
| Dağlıq Şirvan | 6.5 | 92.0 | 74.0 | 64.9 | 52.5 | 192.1 | 29.5 dəfə |

***Mənbə: (7).*** *Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

İstənilən iqtisadi subyektin, regionun normal inkişafını şərtləndirən ən mühüm amillərdən biri onun əsas fondlarla təmin olunma səviyyəsidir. Cədvəl 2-nin göstəricilərindən aydın olur ki, ölkəmizin iqtisadi rayonlarında təhlil edilən 2005-2019-cu illər ərzində əsas fondlara yüksək səviyyədə tələbat olmuşdur. Məhz bu baxımdan da ölkədə həyata keçirilən "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində regionlara külli miqdarda vəsaitlər ayrılmış və hər bir iqtisadi rayon üzrə əsas fondlarla təmin olunma səviyyəsi bir neçə dəfə artmışdır. Həmin illər ərzində təhlil edilən göstərici Naxçıvan Muxtar Respublikası üzrə 7,9 dəfə, Abşeron üzrə 9,1 dəfə, Gəncə-Qazax üzrə 4,9 dəfə, Şəki-Zaqatala üzrə 16,4 dəfə, Lənkəran üzrə 12,7 dəfə, Quba-Xaçmaz üzrə 20,2 dəfə, Aran regionu iqtisadi rayonu üzrə 10,6 dəfə, Yuxarı-Qarabağ üzrə 5,5 dəfə, Dağlıq Şirvan üzrə isə 29,5 dəfə artmışdır.

Araşdırmalar göstərir ki, regionların investisiya potensialını səciyyələndirmək üçün dünya təcrübəsindən məlum olduğu kimi aşağıdakı ən mühüm göstəriciləri təhlil etmək lazımdır: ölkənin ümumi daxili məhsulunda regionun payı; regionun hər birinin investisiyalara və əsas kapitala olan ehtiyacının səviyyəsi; ölkənin əsas fondlarında regionun xüsusi çəkisi; əldə olunmuş gəlirlərdə regionun xüsusi çəkisi; regionda adambaşına əsas fondlar, regionda adambaşına əsas kapitala investisiyaların səviyyəsi; əmək ehtiyatlarında regionun xüsusi çəkisi; bir manat əsas kapitala düşən əsas fondlar və bir sıra digər göstəricilər (6, səh 129).

Bütün bu göstəricilərin 2005-2019-cu illərdə dəfələrlə artması ölkədə iqtisadiyyatın dinamizminin yüksəlməsində neft sektorunun rolunun yüksək olduğunu sübut edir. Neft gəlirlərindən daha səmərəli istifadə etməklə iqtisadiyyatda regional inkişaf bu gün də prioritet olaraq qalır.

Tədqiqatlar göstərir ki, 2005-2019-cu illər ərzində adambaşına sənaye-istehsal əsas fondlarının dinamikasında ən yüksək artım tempi Naxçıvan Muxtar Respublikasında, Yuxarı Qarabağ və Şəki-Zaqatala iqtisadi rayonunda olmuşdur. Paralel olaraq qeyd olunmalıdır ki, bir sıra iqtisadi rayonlarda sənaye-istehsal əsas fondlarının həcmi hələ də azdır. Belə rayonlara Dağlıq Şirvan iqtisadi rayonu, Yuxarı Qarabağ iqtisadi rayonunu, Lənkəran iqtisadi rayonunu və Şəki-Zaqatala iqtisadi rayonunu göstərmək olar. Perspektivdə bu göstəricinin yaxşılaşdırılması zərurəti vardır və bunu neft gəlirləri hesabına tez bir zamanda həll etmək mümkündür (6, səh 129).

Neft gəlirləri hesabına ölkədə həyata keçirilən daxili investisiya siyasətinin ən mühüm elementi olmaqla regional inkişaf proqramları uğurla reallaşdırılır. Belə ki, regionların inkişafını xarakterizə edən ən mühüm göstəricilərin hamısında 2005-2019-cu illər ərzində artımla müşahidə edilən dinamika mövcud olmuşdur. Bu sahədə dövlət tənzimlənməsinin və tarazlı inkişaf kursunun çox ciddi şəkildə tətbiq olunması nəticəsində regionların hamısında adambaşına əsas kapitala investisiyaların miqdarı, 1 manat əsas kapitala düşən sənaye-istehsal əsas fondları, əsas kapitala investisiyalar və s. səviyyəsi dəfələrlə artmışdır (4, səh 69).

### III. Nəticə

Təhlillər göstərir ki, bundan sonra da regionların tarazlı və dinamik inkişfının təmin edilməsi üçün ən mühüm meyarlar olan makroiqtisadi göstəricilərin regiondaxili prosesslərlə əlaqəsinin əyaniliyi, sosial-iqtisadi inkişafın daha geniş rakursda səciyyələndirilməsi, regional xüsusiyyətlərin universal yanaşma tələbləri müstəvisində nəzərə alınması, hər bir regionun ənənəvi fəaliyyət istiqamətləri və s. nəzərə alınmalıdır. Ən mühüm məsələlərdən biri də qeyd edilən meyarlara əsaslanan metodiki təminat özündə məcmu regional məhsulun yaradılmasının ərazi xüsusiyyətlərini aşkar etməyə uyğun şərait yaradılması məsələsini, resurslardan istifadənin regional mühitinin qiymətləndirilməsini, regionun innovativ, intensiv inkişaf imkanlarını müəyyən etmək qaydalarını əks etdirməlidir.

Qeyd edilən şərtlər yerinə yetirilməklə bundan sonra da neft gəlirlərindən səmərəli istifadə edilərək regionların davamlı inkişafını təmin etmək olar. Bu isə öz növbəsində bütövlükdə ölkədə aparılan həm mikro, həm də makro səviyyəli problemlərin vaxtında və keyfiyyətlə həll edilməsinə imkan yarada bilər.

## ƏDƏBİYYAT

1. İnkişafın Azərbaycan modeli. Bakı: Akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə "OSKAR" NPM nəşriyyatı, 2009, 204 səh.
2. Əlirzayev Ə.Q. Sosial iqtisadi siyasətin prioritet istiqamətləri (Monoqrafiya). Bakı: Nurlan, 2017, 317 səh.
3. İlham Əliyev. "İnkişaf məqsədimizdir" çoxcildliyinin 94-cü cildi. Bakı: 2020, səh 360
4. Hacızadə E. Struktur islahatların tənzimlənməsinin nəzəri-metodoloji mexanizmləri. //Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda// III (12) buraxılış "Elm", Bakı: 2003, səh 160
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramları (2004-2008), (2009-2013), (2014-2018), (2019-2023)
6. Quliyeva Aygün Eldar qızı. Azərbaycan Respublikasının regional inkişaf proqramlarının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsi problemləri 5312.01 - "Sahə iqtisadiyyatı" ixtisasında iqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Gəncə: 2018, 243 səh.
7. Azərbaycan Dövlət Statistika Komitəsinin illik məcmuələri. Bakı: 2020

## SUMMARY

**Elshan Panahov**

## ROLE OF THE OIL SECTOR IN THE DEVELOPMENT OF REGIONS OF AZERBAIJAN

The article first of all provides a brief description of the economic policy pursued in the years of independence, where the oil sector is assessed as the main financial base for dynamic development. Sustainable and stable development in the country is ensured by income from the activities of the rapidly developing and modernized oil complex on the basis of the "Contract of the Century". The policy "Development of regions in Azerbaijan", which has become one of the priorities of the economic policy, is also financed from oil revenues, which is also reflected in the article. To draw attention to this, the article analyzes the implementation of the "State programs for regional development". Indicators characterizing investment needs and investment potential of each region are considered. The dynamics of investments in fixed assets by economic regions for 2009-2019 is studied. The dynamics of the use of fixed assets by economic regions during this period is also analyzed. Based on the analysis, the role of the oil sector in ensuring the development of regions is substantiated.


***Key words:*** *regional development, "State programs", investments in fixed assets, fixed assets, equilibrium development*


## РЕЗЮМЕ

**Эльшан Панахов**

## РОЛЬ НЕФТЯНОГО СЕКТОРА В РАЗВИТИИ РЕГИОНОВ АЗЕРБАЙДЖАНА

В статье прежде всего дается краткое описание экономической политики, проводимой в годы независимости, где нефтяной сектор оценивается как основная финансовая база для динамичного развития. Устойчивое и стабильное развитие в стране обеспечено за счет доходов от деятельности стремительно развивающегося и модернизируемого нефтяного комплекса на основе «Контракта века». Политика «Развитие регионов в Азербайджане», ставшая одним из приоритетов экономической политики, также финансируется за счет доходов от нефти, что также отражено в статье. Чтобы обратить на это внимание, в статье анализируется реализация «Государственных программ регионального развития». Рассматриваются показатели, характеризующие инвестиционные потребности и инвестиционный потенциал каждого региона. Изучается динамика инвестиций в основной капитал по экономическим регионам за 2009-2019 гг., Также анализируется динамика использования основных фондов экономическими регионами в этот период. На основе проведенного анализа обосновывается роль нефтяного сектора в обеспечении развития регионов.


***Ключевые слова:*** *региональное развитие, "Государственные программы", инвестиции в основной капитал, основные фонды, равновесное развитие*

**İSMAYIL BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*baqirovismayil@mail.ru*

# VERGİ TƏNZİMLƏNMƏSİNİN İQTİSADİ İNKİŞAFA VƏ İNNOVASİYA SİYASƏTİNƏ TƏSİRİ

*İqtisadiyyatın rəqabətə davamlılığının artırılması məqsədi ilə ölkəmizin istehsal və innovasiya texnologiyalarının tətbiqi sahəsində başqa aparıcı ölkələrdən geriliyini minimuma endirmək üçün vergi sisteminin təkmilləşdirilməsi əsas hədəflərdən biridir. Bununla əlaqədar olaraq innovasiya fəaliyyətinin inkişafının stimullaşdırılmasına yönəldilmiş vergi sistemi tətbiq edilməlidir. Bunun üçün də innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi sistemində vergi tənzimlənməsinin müstəsna əhəmiyyəti qeyd olunmalıdır. Bu baxımdan innovasiya fəaliyyətinin tənzimlənməsinin vergi mexanizminin xüsusiyyətlərinin öyrənilməsi və prioritet istiqamətlərinin təhlili bu gün olduqca aktual bir məsələdir. Mövzunun aktuallığı iqtisadi inkişafda innovasiya fəaliyyətinin və vergi tənzimlənməsinin rolu mövzusunun kompleks tədqiq edilməsi zəruriliyini ortaya çıxarır.*

*İqtisadiyyatın inkişaf etdirilməsində innovasiyaların, yeni texnologiyaların tətbiqi ilə yanaşı, iqtisadi münasibətlərin etibarlılığı və sabitliyini təmin edən, cəmiyyətin praktik olaraq əhəmiyyətli məsələlərinin ən effektiv həllinə imkan yaradan hüquqi vasitələr də xüsusi əhəmiyyət daşıyır. Həmin vasitələrdən biri olan vergi güzəştləri mühüm elmi və praktiki mənaya malikdir.*

*Vergi güzəştləri ictimai-iqtisadi proseslərə dolayısı ilə təsir edə bilər, innovasiya fəaliyyətin müəyyən növlərinə, məsələn, ixraca dəstək, gəlirin daxili bölgüsünün nizama salınması, bölgünün səmərəliliyinin qiymətləndirilməsi, məhsuldar istifadəsinin stimullaşdırılması, müəyyən sosial qruplara dəstək və s. Buna görə də güzəştlərdən iqtisadi kateqoriya kimi vergi öhdəliklərinin yaranması və icrasını müəyyən edən vergi rejiminin elementlərindən biri kimi bəhs etmək olar.*

*İnnovasiya potensialından məqsədyönlü istifadə edilməsi, eləcə də ictimai-iqtisadi proseslərin vergi güzəştləri vasitəsilə stimullaşdırılması Azərbaycanda iqtisadi inkişafın müasir mərhələsində kiçik və orta sahibkarlığın hərtərəfli inkişafının təmin edilməsinə də ciddi təsir göstərir. Kiçik və orta biznesin inkişafı bir tərəfdən dövlətin fiskal siyasətinin təmin edilməsində, əhalinin gəlirlərinin artırılmasında, digər tərəfdən isə dövlətin sosial yükünün azaldılmasında əhəmiyyətli rol oynayır.*

***Açar sözlər**: innovasiya fəaliyyəti, innovasiya sahibkarlığı, innovasiya siyasəti, innovasiya fəaliyyətində vergitutma*

İqtisadiyyatın rəqabətə davamlılığının artırılması məqsədi ilə ölkəmizin istehsal və innovasiya texnologiyalarının tətbiqi sahəsində başqa aparıcı ölkələrdən geriliyini minimuma endirmək üçün vergi sisteminin təkmilləşdirilməsi əsas hədəflərdən biridir. Bununla əlaqədar olaraq innovasiya fəaliyyətinin inkişafının stimullaşdırılmasına yönəldilmiş vergi sistemi tətbiq edilməlidir. Bunun üçün də innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi sistemində vergi tənzimlənməsinin müstəsna əhəmiyyəti qeyd olunmalıdır. Bu baxımdan innovasiya fəaliyyətinin tənzimlənməsinin vergi mexanizminin xüsusiyyətlərinin öyrənilməsi və prioritet istiqamətlərinin təhlili bu gün olduqca aktual bir məsələdir. Mövzunun aktuallığı iqtisadi inkişafda innovasiya fəaliyyətinin və vergi tənzimlənməsinin rolu mövzusunun kompleks tədqiq edilməsi zəruriliyini ortaya çıxarır.

İqtisadiyyatın inkişaf etdirilməsində innovasiyaların, yeni texnologiyaların tətbiqi ilə yanaşı, iqtisadi münasibətlərin etibarlılığı və sabitliyini təmin edən, cəmiyyətin praktik olaraq əhəmiyyətli məsələlərinin ən effektiv həllinə imkan yaradan hüquqi vasitələr də xüsusi əhəmiyyət daşıyır. Həmin vasitələrdən biri olan vergi güzəştləri mühüm elmi və praktiki mənaya malikdir.

Vergi güzəştləri ictimai-iqtisadi proseslərə dolayısı ilə təsir edə bilər, innovasiya fəaliyyətin müəyyən növlərinə məsələn, ixraca dəstək, gəlirin daxili bölgüsünün nizama salınması, bölgünün səmərəliliyinin qiymətləndirilməsi, məhsuldar istifadəsinin stimullaşdırılması, müəyyən sosial qruplara dəstək və s. Buna görə də güzəştlərdən iqtisadi kateqoriya kimi vergi öhdəliklərinin yaranması və icrasını müəyyən edən vergi rejiminin elementlərindən biri kimi bəhs etmək olar.

İnnovasiya potensialından məqsədyönlü istifadə edilməsi, eləcə də ictimai-iqtisadi proseslərin vergi güzəştləri vasitəsilə stimullaşdırılması Azərbaycanda iqtisadi inkişafın müasir mərhələsində kiçik və orta sahibkarlığın hərtərəfli inkişafının təmin edilməsinə də ciddi təsir göstərir. Kiçik və orta biznesin inkişafı bir tərəfdən dövlətin fiskal siyasətinin təmin edilməsində, əhalinin gəlirlərinin artırılmasında, digər tərəfdən isə dövlətin sosial yükünün azaldılmasında əhəmiyyətli rol oynayır.

Ölkəmizdə aparılmaqda olan sosial-iqtisadi və hüquqi islahatlar, sosial iqtisadi inkişafın resurs bazasından istehsal və innovasiya əsasına keçməsinə şərait yaratmışdır. Sürətlə dəyişən və qloballaşan iqtisadi mühitdə ölkəmizin sosial iqtisadi inkişafının dayanıqlılığının təmin edilməsi və vergi tənzimlənməsinin genişlənməsi innovasiyalı iqtisadi sistemin yaradılması ilə bilavasitə bağlıdır. Milli iqtisadiyyatın innovativ əsaslara keçidi vergi tənzimlənməsində innovasiyalardan istifadə edilməsi ilə bilavasitə bağlıdır. Buna görə də, iqtisadiyyatın inkişafında innovasiya siyasətinin rolu mövzusu mühüm aktuallığı ilə seçilir. İnnovasiya fəaliyyətinin nəzəri əsaslarının ümumiləşdirilməsi, innovativ investisiyaların səviyyəsinin təhlili, bu istiqamətdə məhdudiyyətlərin müəyyən edilməsi və vergi tənzimlənməsi üzrə təkliflərin verilməsi tədqiqatın vəzifələri kimi qəbul edilmişdir [2].

Dövlət innovasiya fəaliyyətinin tənzimlənməsində müxtəlif iqtisadi mexanizmlərdən istifadə edir. Belə bir tənzimləmə sistemi olmadan bazar münasibətlərinin formalaşmasına yönəlmiş fəaliyyət istiqamətlərini səmərəli şəkildə əlaqələndirmək mümkün deyil. Bu tənzimləmədə səmərəli vergi mexanizmlərinin tətbiqi mühüm rol oynayır. Tənzimləmədə vergi dərəcələrinin aşağı salınması, vergi növlərinin sayının azaldılması və vergi güzəştlərinin tətbiqi məsələləri nəzərdə tutulur. Deməli, innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi sistemində vergi tənzimlənməsinin müstəsna əhəmiyyəti qeyd olunmalıdır. Bu baxımdan innovasiya fəaliyyətinin tənzimlənməsinin vergi mexanizminin xüsusiyyətlərinin öyrənilməsi və prioritet istiqamətlərinin təhlili bu gün olduqca aktual bir məsələdir. Mövzunun aktuallığı iqtisadiyyatın inkişafında innovasiya fəaliyyətinin və vergi tənzimlənməsinin rolu mövzusunun kompleks tədqiq edilməsi zəruriliyini ortaya çıxarır [4].

Hazırda ölkədə informasiya texnologiyaları inkişaf edir və həmçinin Azərbaycanda texnoparklar yaradılır. Ölkədə azad iqtisadi zonalar yaradılması planlaşdırılır. Bu sahələrin ölkədə inkişafı, iqtisadi dirçəlişi daha da sürətləndirəcək. Bu proseslərin həyata keçirilməsi üçün güzəştli vergi sisteminin həyata keçirilməsinə ehtiyac var. Yəni yaradılan texnoparklarda torpaq, əmlak, fiziki şəxslərdən gəlir, mənfəət vergisi aradan qaldırılmalıdır. Digər məsələlərdən biri də vergi ödəyicilərinin hüquqlarının qorunması ilə bağlı məsələlərdir. Bu məsələlər Azərbaycanın vergi sisteminin daha çevik olmasına, vergi ödəyicilərinin hüquqlarının qorunmasına, vergi inzibatçılığının təkmilləşməsinə gətirib çıxarmalıdır.

Güzəştli sahibkarlığın bütün formaları və dövlət dəstəyi bazar şəraitində biznesin peşəkarcasına aparılması səviyyəsinin inkişafına və yüksəldilməsinin sürətlənməsinə yönəldilmişdir. Beləliklə, texnopark strukturlarının yaranması və formalaşması Azərbaycanda elmi-texniki infrastrukturun modernləşməsinə, elmin, təhsilin və istehsalın inteqrasiyasının təmin edilməsinə, innovasiya siyasətinin səmərəliliyinin artırılması və iqtisadiyyatın yüksəldilməsinə və bütövlükdə ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasına müsbət təsir göstərəcəkdir. Azərbaycan innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalına hazırlaşır. Bu məqsədlə artıq ölkədə yeni sənaye parklarının salınması ilə bağlı işlər aparılmaqdadır [9].

İxracyönümlü müəssisələrə dövlət dəstəyinin genişləndirilməsi və ixrac imkanlarının daha da artırılması istiqamətində aparılan işlərin bir istiqaməti kimi, sənaye parklarının fəaliyyəti də ölkə iqtisadiyyatı üçün geniş imkanlar yaradacaq. Bir sözlə, bu gün Sumqayıtda və Balaxanıda sənaye parklarının yaradılması ilə bağlı verilən müvafiq fərman və sərəncamlarla innovativ və yüksək texnologiyalara əsaslanan müəssisələrin təşkil edilməsi və sənayeləşmə sahəsində yeni dövr başlayır.

Deməli, kiçik innovasiya sahibkarlığına münasibətdə dövlət siyasəti innovasiya tsiklinin bütün mərhələlərində innovasiyaların uğurla irəliləməsini təmin etməyə qadir olan infrastrukturun yaradılması əsasında qurulmalıdır. Kiçik sahibkarlıq müəssisələrinin idarə edilməsində və onlara dövlət dəstəyində struktur dəyişikliklər etmək vacibdir.

Təcrübə göstərir ki, hər hansı bir sahədə dövlət siyasətini reallaşdırmaq üçün dəqiq mexanizm və hər şeydən əvvəl təşkilati təminat lazımdır. Daxili və xarici mənbələrdən vəsait axını üçün

güzəştlərin yaradılması şəraitində dövlət öz büdcəsindən vəsait ayırmadan arzu olunan səmərəni əldə edə bilər. Belə dövlət tədbiri müəssisələrdən və fiziki şəxslərdən vergi şəkilində vəsait axının artması hesabına büdcənin məxaric hissəsinin vəsaitlərinin qənaətinə şərait yaradır.

Bunun üçün də beynəlxalq təcrübə nəzərə alınmaqla innovasiya fəaliyyətinin vergitutma xüsusiyyətləri diqqətlə araşdırılmalıdır. İnnovasiya fəaliyyətinin vergi mexanizmləri vasitəsilə tənzimlənməsi innovasiya sisteminin formalaşmasına xidmət edir. Bu sahədə vergi tənzimlənməsi dedikdə iqtisadiyyata, iqtisadi və sosial proseslərə dolayı tədbirlərin təsiri ilə vergi növlərinin, vergi dərəcələrinin dəyişməsi, vergi güzəştlərinin tətbiqi məsələləri nəzərdə tutulur.

Ölkə iqtisadiyyatının diversifikasiyası, regionların və sahibkarlığın daha da inkişaf etdirilməsi, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir. Bu baxımdan yaxın 10 il ərzində inkişaf istiqamətləri nəzərə alınmaqla, vergi potensialının qiymətləndirilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, vergi daxilolmaları üzrə proqnozların gözlənilən iqtisadi artıma, formalaşan innovativ iqtisadiyyata uyğunlaşdırılması qarşıda duran əsas vəzifələrdəndir. Qeyri-neft sektorunda yüksək inkişaf meyilləri vergi bazasının və elektron ödənişlərin tətbiqinin daha da genişləndirilməsini zəruri edir. Kiçik sahibkarlığa maliyyə dəstəyinin əsas istiqamətlərindən biri güzəştli vergiqoyma sisteminin olmasıdır. Vergi sisteminin liberallaşdırılmasının vacib tədbirlərindən biri vergiyə cəlb etmə sisteminin sadələşdirildməsidir. [9]

Dövlət dəstəyi tədbirləri özündə güzəştli vergi qoymanı, təşkilati və hüquqi mexanizmin təkmilləşdirilməsini, maliyyələşdirmə sahəsindəki kredit və digər təşkilatların hüquqlarınının genişləndirilməsini, informasiya-məsləhət xidmətlərinin göstərilməsini və müvafiq infrastrukturun yaradılmasını birləşdirir. Aydındır ki, kiçik və eləcə də innovasiya biznesinin ən çox narahatlıq doğuran problemi onu maliyyələşdirmədir. Kiçik biznesin inkişafına dövlət təsirinin ən vacib alətlərindən biri birbaşa maliyyə köməyidir ki, bu da firmalara subsidiyalaşdırma vasitəsilə həyata keçirilir [2].

Vergi siyasətinin əsas məqsədi, məlum olduğu kimi, son nəticədə iqtisadi artıma yardım etməkdən ibarətdir. Vergi daxilolmalarının vergi yükünə elastikliyinin qiymətləndirilməsi əsasında müəyyən edilmişdir ki, ölkəmizdə büdcə daxilolmaları ilə vergi yükü arasında müsbət asılılıq mövcuddur.

Müasir dövrdə Azərbaycan iqtisadiyyatı qarşısında duran ən mühüm məsələlərdən biri iqtisadiyyatın bölmələrinin innovasiyayönümlü inkişafını stimullaşdırmaqdır. Bu siyasətin həyata keçirilməsində dövlətin rolu biznesin maraqları ilə cəmiyyətin ictimai maraqlarının balanslaşdırılmasından ibarətdir. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsində ənənəvi qeyri-neft sektorunun inkişafı ilə yanaşı, innovasiya xarakterli, elmtutumlu sahələrin inkişafı xüsusi əhəmiyyət kəsb edir.

Bir çox ölkələrdə vergi güzəştləri ilə yanaşı, vergi tətillərinin elan edilməsi də tətbiq edilir. İxtiyari, o cümlədən innovasiya xarakterli sahələrin inkişafında vergi güzəştlərinin tətbiqinin stimullaşdırıcı funksiyaları ilə yanaşı, vergi inzibatçılığı baxımından çatışmayan cəhətləri də mövcuddur. İqtisadiyyatın qloballaşması, beynəlxalq şirkətlərin müxtəlif vergi dərəcələrinə malik ölkələrdə fəaliyyət göstərməsi vergi güzəştlərindən istifadə etməklə manipulyasiya imkanları yaradır və vergidən yayınma halları baş verir. Digər tərəfdən texnologiyaların sürətli inkişafı hansı xərclərin innovasiya, hansının qeyri-innovasiyayönümlü olmasının müəyyən edilməsində çətinliklər yaradır. Bu isə vergi orqanları üçün əlavə inzibati xərclər əmələ gətirir [6].

Bir çox ölkələrdə innovasiya məhsullarının maya dəyərinin aşağı salınması üçün bu məhsulları istehsal edən şirkətlərin əmlak vergisindən azad edilməsi də tətbiq edilir. İnnovasiya və elmyönümlü sahələrdə xüsusi vergi rejiminin tətbiqi, bu sahələrin problemləri nəzərə alınmaqla inkişafa stimullaşdırıcı təsir göstərə bilər. Bu tədbirlər innovasiyayönümlü sahələrin vergiyə cəlb edilməsi məsələlərinə kompleks şəkildə yanaşmaqla vergi inzibatçılığı problemlərinin aradan götürülməsinə şərait yaratmış olar. Lakin onu da qeyd etmək lazımdır ki, innovasiya sahələrinin inkişafının təmin edilməsində vergi, gömrük siyasəti sahəsində aparılan stimullaşdırıcı tədbirlərlə yanaşı, rəqabətqabiliyyətli mühitin qorunması ilə də bağlı tədbirlər həyata keçirilməlidir.

Aparılmaqda olan vergi islahatları ölkəmizin vergi sisteminə milli iqtisadiyyatın innovativ inkişafının təmin edilməsi istiqamətində daha mürəkkəb vəzifələri yüksək keyfiyyətlə icra etmək üçün geniş imkanlar yaratmaqdadır. Yüksək texnologiyalar parklarında fəaliyyətə tətbiq olunan çox ciddi vergi güzəştlərinin və digər tənzimlənmə tədbirlərinin yaxın gələcəkdə sosial-iqtisadi inkişafın yüksəlməsinə gətirib çıxaracaqdir ki, bu da dövlətin bu istiqamətdə apardığı tənzimləmə tədbirlərinin nə dərəcədə səmərəli olduğunu göstərəcəkdir.

Burada əsas məqsəd Azərbaycanda Milli İnnovasiya Sisteminin formalaşmasının tərkib elementi kimi çıxış edən innovasiya infrastrukturunun formalaşması istiqamətlərini müəyyən etmək, vergi tənzimlənməsinin səmərəliliyini qiymətləndirmək, inovasiya xarakterli sahələr üzrə sadələşdirilmiş vergi sistemini tətbiqi etməkdən ibarətdir. Bu da öz növbəsində ölkəmizin sosial-iqtisadi inkişafına təsir edəcəkdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı: 2020
2. Musayev A. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması Bakı: 2014, 184 s.
3. Yahudov X.M., Seyfullayev İ.Z. Müəssisələrin innovasiya fəaliyyətinin stimullaşdırılmasının vergitutma aspektləri. "Vergi" jurnalı, 2013, №3, s.115-128
4. Rzayev PQ., Rzayev Z.H. İnnovasiya fəaliyyətinin vergi tənzimlənməsi. Azərbaycanın Vergi jurnalı, 2013, №2, s.109-128
5. Zahid R.H., Şayiq X.İ. İqtisadi tərəqqi və vergi siyasəti. Bakı: 2008, 271 s.
6. Musayev A.F. İnnovasiya fəaliyyətinin stimullaşdırılmasında vergi siyasətinin xüsusiyyətləri. Azərbaycanın vergi jurnalı. 2012, №1, s.61-70
7. Səmədzadə Z.A. Azərbaycan iqtisadiyyatı, onun gerçəklikləri. Bakı: NURLAR, 2004
8. Azərbaycan Respublikasının vergilər nazirliyi-10 il (2000-2010). Bakı: 2010, 189 s.
9. www.taxes.gov.az - Azərbaycan Respublikasının Vergilər Nazirliyin rəsmi internet səhifəsi

## SUMMARY

**İsmayil Bagirov**

## IMPACT OF TAX REGULATION ON ECONOMIC DEVELOPMENT AND INNOVATION POLICY

In order to increase the competitiveness of the economy and the country's other leading countries in the field of innovative technologies to minimize the backlog improvement of the tax system in one of the main targets. In this regard, the tax system should be introduced aimed at stimulating the development of innovative activity. For this reason, the system of state regulation of the activity of innovation should be noted the exceptional importance of tax regulation. In this regard, the study of the characteristics and priorities of innovation activity in the analysis of the mechanism of regulation of the tax is very topical issue today. The relevance of the topic of innovation in economic development and the role of tax regulation reveals the necessity to explore the complex.

The development of innovation in the economy, along with the introduction of new technologies, the reliability and stability of economic relations, which provides the most effective solution to the issues important to the community, allowing the practical and legal tools is of particular importance. One of these tools is an important scientific and practical meaning tax breaks.

Tax incentives can influence the socio-economic processes of innovation, by virtue of certain types of activity, such as export support, the income distribution of the settlement, distribution efficiency, promote the efficient use of certain social groups and support from others. Therefore, the establishment and enforcement of tax obligations, such as certain economic benefits that can be described as one of the elements of the tax regime.

Purposeful use of the potential of innovation, as well as through tax incentives to stimulate the

socio-economic processes in the present phase of economic development in Azerbaijan to ensure the comprehensive development of small and medium-sized businesses a significant impact. Small and medium-sized businesses in ensuring the development of the fiscal policy of the state on the one hand, increasing the income of the population, on the other hand plays an important role in reducing the social burden.

***Key words***: *innovation activity, innovation entrepreneurship, innovation policy, taxation*

## РЕЗЮМЕ

**Исмаил Багиров**

## ВЛИЯНИЕ НАЛОГОВОГО РЕГУЛИРОВАНИЯ НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ И ИННОВАЦИОННУЮ ПОЛИТИКУ

В целях повышения конкурентоспособности экономики и других ведущих стран страны в области инновационных технологий, чтобы минимизировать отставание улучшение налоговой системы в одном из главных целей. В связи с этим, налоговая система должна быть введена направлена на стимулирование развития инновационной деятельности. По этой причине, система государственного регулирования деятельности инноваций следует отметить исключительную важность налогового регулирования. В связи с этим, изучение особенностей и приоритетов инновационной деятельности в анализе механизма регулирования налога является очень актуальной проблемой сегодня. Актуальность темы инноваций в экономическом развитии и роли налогового регулирования показывает необходимость изучения комплекса.

Развитие инноваций в экономике, наряду с внедрением новых технологий, надежность и стабильность экономических отношений, которая обеспечивает наиболее эффективное решение вопросов, важных для сообщества, позволяя практические и правовые инструменты имеет особое значение. Одним из таких инструментов является важным научно-практические смысл налоговые льготы.

Налоговые стимулы могут влиять на социально-экономические процессы инноваций, в силу определенных видов деятельности, таких, как поддержка экспорта, распределения доходов урегулирования, эффективности распределения, способствовать эффективному использованию определенных социальных групп и поддержки со стороны других. Таким образом, создание и обеспечение налоговых обязательств, таких, как некоторые экономические выгоды, которые могут быть описаны как один из элементов налогового режима.

Целенаправленное использование потенциала инноваций, а также с помощью налоговых стимулов, чтобы стимулировать социально-экономических процессов в современном этапе экономического развития в Азербайджане, чтобы обеспечить всестороннее развитие малого и среднего бизнеса значительное влияние. Малые и средние предприятия в обеспечение развития фискальной политики государства, с одной стороны, увеличение доходов населения, с другой стороны, играет важную роль в снижении социальной нагрузки.

***Ключевые слова***: *инновационная деятельность, инновации, предпринимательство, инновационная политика, налогообложение инновационной деятельности.*

**ELŞƏN NƏSİROV**
*Naxçıvan Dövlət Universiteti*
*enasirov@inbox.ru*

# NAXÇIVANDA İDXAL-İXRAC PROSESLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ YENİ İNFORMASİYA TEXNOLOGİYALARI

*Elmi məqalədə Naxçıvan Muxtar Respublikasında idxal-ixrac proseslərinin tənzimlənməsində yeni informasiya texnologiyaların tətbiqi məsələləri araşdırılmışdır.*

*Respublikamızın beynəlxalq iqtisadi əlaqələri, dünya iqtisadiyyatına inteqrasiya məsəlləri, xarici-iqtisadi əlaqələr strategiyası, milli iqtisadiyyatın müxtəlif sahələrinin idxal-ixrac potensiallarının artırılması və digər bu kimi məsəllər müxtəlif dövrlərdə Azərbaycan alimləri Z.Ə.Səmədzadə, Ə.C.Muradov, A.Ş.Şəkərəliyev, Ə.İ.Bayramov, Ə.P.Babayev, M.X.Həsənli, R.T.Həsənov və digərlərinin elmi işlərində tədqiqat obyekti olmuşdur.*

*Lakin bu sahədəki proseslərin dinamik xüsusiyyətli olduğunu, ölkənin xarici ticarətinin ilbəil yeni xarakter aldığını nəzərə alsaq, deyə bilərik ki, problemin öyrənilməsinin mütəmadiliyi zəruridir.*

*Elmi məqalədə, həmçinin idxal-ixrac proseslərinin metodoloji əsasları elmi cəhətdən təhlil edilmiş və əsaslandırılmışdır.*

***Açar sözlər:*** *idxal, ixrac, iqtisadiyyat, gömrük, elmi-texniki tərəqqi, texnologiya, tədqiqat, kommunikasiya, informasiya, sərhəd-keçid məntəqələri, yoxlama-baxış qurğuları, ekspertiza, ticarət, yerli istehsal məhsulları*

Müasir dövrdə gömrük sistemində informasiya texnologiyalarından istifadəyə geniş yer verilir. İnformasiya və kommunikasiya texnologiyalarının, eləcə də bu sahədə ən son yeniliklərin tətbiqi Naxçıvan gömrük orqanlarının fəaliyyətində də strateji istiqamətlərdən biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu il fevralın 6-da Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin "İxrac ili" elan edilməsi haqqında Sərəncam imzalamışdır.

Sərəncamda deyilir: "Muxtar respublikada qəbul edilmiş Dövlət Proqramlarının uğurla icrası sosial-iqtisadi inkişafı təmin etmiş, makroiqtisadi göstəricilər bütün parametrlər üzrə artmış, yeni sənaye müəssisələri yaradılmış və yerli istehsalın həcmi çoxalmışdır.

Naxçıvan Muxtar Respublikasında 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi istehsalçıların xarici bazarlara çıxışlarını və bu istiqamətdə təşviq tədbirlərinin artırılmasını zəruri etmişdir.

Həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, rəqabətə davamlı və ixrac yönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılmış, yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

Ümumiyyətlə, idxal-ixrac proseslərinin yüksək rentabelliyini təmin etmək məqsədilə informasiya sistemlərinə və texnologiyalarına aşağıda göstərilən tələblər qoyulur:

1. Gömrük informasiya ehtiyatlarında axtarış, yığım, emal və saxlama imkanlarını genişləndirmək;
2. Gömrük orqanlarının vəzifəli şəxslərinə, onlara verilmiş səlahiyyətlər çərçivəsində gömrük orqanlarında istifadə üçün nəzərdə tutulan informasiya ehtiyatlarına giriş imkanları verilmək;
3. İstifadəçi hüquqlarına görə gömrük orqanlarında istifadə üçün nəzərdə tutulan informasiya ehtiyatlarına giriş dərəcəsini müəyyən etmək;
4. Sistem vasitəsilə alınan informasiyanın doğruluğunu, tamlığını vaxtında təqdim etmək;
5. Texniki və proqram vasitələrinin yeniləşdirilməsi və sistemə yeni elementlərin daxil edilməsi yolu ilə onun genişləndirilməsi və yeniləşdirilməsinə nail olmaq;
6. İnformasiya sisteminə daxil olan informasiya ehtiyatlarının mühafizəsini təmin etmək;

Olduqca əlamətdar haldır ki, bu gün Naxçıvan Muxtar Respublikası dünyanın 60-dan çox ölkəsi

ilə ticarət əməliyyatları aparır.

Ulu öndər Heydər Əliyev Naxçıvanda Ali Məclisin Sədri işlədiyi dövrdə muxtar respublikanın iqtisadi maraqlarının və mənafelərinin qorunması, gömrük xidmətinin formalaşdırılması məqsədilə kompleks tədbirlər həyata keçirmişdir. Həmin illərdə İran ərazisindən keçməklə Azərbaycanın digər bölgələri ilə nəqliyyat əlaqəsinin qurulması, Sədərək-Dilucu və Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqələrinin yaradılması blokadada olan Naxçıvanın böhranlı vəziyyətdən çıxarılmasında, gömrük və ticarət əlaqələrinin inkişafında mühüm rol oynamışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidmətin məlumatına görə əlverişli coğrafi mövqedə yerləşən Naxçıvanda səmərəli xarici iqtisadi fəaliyyətin təşkili, idxal-ixrac əməliyyatlarına dövlət nəzarət sisteminin təmin edilməsi məqsədilə atılmış ən mühüm addımlardan biri də gömrük orqanlarının vahid mərkəzdən idarə edilməsinin təşkili olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun gömrük xidmətinin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirdiyi ardıcıl tədbirlər öz bəhrəsini vermişdir. Ötən dövrdə muxtar respublika gömrük sistemi böyük inkişaf yolu keçmişdir, qonşu Türkiyə Respublikası və İran İslam Respublikası ilə imzalanmış sazişlər, həyata keçirilən rəsmi səfərlər sayəsində xarici əlaqələrin əhatə dairəsi xeyli genişlənmişdir.

Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinə beynəlxalq status verilmişdir, Sədərək və Culfa gömrük sərhəd-buraxılış məntəqələrinin iş rejimi 24 saata çatdırılmışdır. Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin fasiləsiz olaraq fəaliyyət göstərməsi Naxçıvan Muxtar Respublikasından Azərbaycan Respublikasının digər bölgələrinə və əks-istiqamətdə yük və minik maşınlarının, o cümlədən avtobus reyslərinin müntəzəm hərəkətinə şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin strukturu inkişaf etmiş dünya ölkələrinin praktikasına uyğun yenidən formalaşmışdır.

Son illər muxtar respublikada gömrük işinin daha səmərəli və müasir standartlara uyğun şəkildə təşkili istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun inkişaf etmiş dünya ölkələrinin praktikasına uyğun yenidən formalaşdırılması gömrük xidmətinin keyfiyyətinin artmasına, əməkdaşlardan daha səmərəli istifadəyə imkan yaradır.

Culfa, Şahtaxtı və Sədərək gömrük sərhəd-buraxılış məntəqələrində quraşdırılan rentgen-nəzarət qurğuları muxtar respublikaya bütün istiqamətlərdən gələn yüklərə və yük nəqliyyat vasitələrinə gömrük nəzarətini daha dolğun və sürətli şəkildə həyata keçirməyə imkan verir.

Qeyd edək ki, Almaniya istehsalı olan həmin yoxlama-baxış qurğuları dünyanın inkişaf etmiş ölkələrinin gömrük sistemində tətbiq olunan ən müasir müayinə sistemidir.

Komitənin “Hədəf mərkəzi”ndə muxtar respublika ərazisində malların və nəqliyyat vasitələrinin hərəkətinin izlənilməsi, gömrük orqanlarında quraşdırılmış müasirtipli müşahidə kameralarının imkanlarından istifadə olunmaqla iş prosesinə 24 saat nəzarət edilməsi, gömrük əməliyyatlarının monitorinqinin aparılması və riskin idarə olunması sistemi əsasında effektiv gömrük nəzarəti həyata keçirilir.

Gömrük sərhəd-buraxılış məntəqələrindən muxtar respublika ərazisinə idxal və ya tranzit rejimində daxil olan yüklü nəqliyyat vasitələri xüsusi mexaniki kilidlə – GPS sistemi ilə təmin olunur, müəyyən edilmiş marşrut üzrə təyinat gömrük orqanına vaxtlı-vaxtında çatdırılma nəzarətdə saxlanılır.

Hal-hazırda muxtar respublikada sərhədi keçən mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti vahid elektron sistem vasitəsilə reallaşdırılır. Belə ki, gömrük bəyannamələri və digər mal-müşayiət sənədləri gömrük orqanlarına elektron imza ilə təsdiq olunmaqla elektron formada təqdim edilir.

Gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması, şəffaflığın təmin edilməsi, əməkdaşlığın artırılması məqsədilə informasiya texnologiyalarının tətbiqi və elektron xidmətlərin coğrafiyası ilbəil genişləndirilir.

Gömrük sərhəd-buraxılış məntəqələrində tətbiq edilən “Sərhəd keçmə vaxtının ölçülməsi”

sistemi sərhəd keçmədən buraxılışa qədər olan müddəti müəyyən etməyə, gömrük prosedurlarının yerinə yetirilməsini, mal və nəqliyyat vasitələrinin hərəkətini ləngidən səbəbləri aşkarlayıb aradan qaldırmağa imkan verir.

Muxtar respublikaya gətirilən malların rəsmiləşdirilməsi beynəlxalq standartlar tətbiq edilməklə "bir pəncərə" prinsipinə uyğun şəkildə həyata keçirilir. Gömrük işi sahəsində risklərin avtomatlaşdırılmış idarəetmə sisteminin təkmilləşdirilməsi, gömrük nəzarətinin səmərəliliyinin artırılması məqsədilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsində "Yaşıl dəhliz" və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemləri tətbiq edilir.

Xarici iqtisadi fəaliyyət iştirakçısı sənədlərini gömrük qanunvericiliyinin tələblərinə uyğun olaraq tərtib və təqdim etdikdə rəsmiləşdirmə bir neçə dəqiqə ərzində başa çatdırılır.

Gömrük orqanlarının fəaliyyətində prioritet istiqamətlərdən biri də daxili bazarın qorunmasıdır. Bu sahədə görülən işlər xaricə valyuta axınının qarşısını alır, məşğulluğu təmin edir, iqtisadiyyatın davamlı inkişafına münbit şərait yaradır. Gömrük orqanları tərəfindən yerli istehsalçıların mənafeyinin qorunması, daxili bazarda yerli istehsal məhsullarının satışının stimullaşdırılması istiqamətində görülən işlər nəinki muxtar respublikanın ərzaq təhlükəsizliyinin həllinə, o cümlədən ixrac potensialının artmasına da əlavə stimul verir. Gömrük orqanları tərəfindən xaricdən idxal istiqamətində gətirilən malların, o cümlədən qida məhsullarının keyfiyyətinə ciddi nəzarət olunur. Keyfiyyət göstəricilərinin təyini ilə bağlı məhsullardan alınan prob və nümunələrin ekspertizası həyata keçirilir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafının məntiqi nəticəsi olaraq hər il ixracın həcmi idxalı üstələyir, xarici ticarət əlaqələri genişlənir. Artıq Naxçıvan Muxtar Respublikası dünyanın 60-dan çox ölkəsi ilə ticarət əməliyyatları aparır. Qonşu İran və Türkiyənin gömrük xidmətləri ilə mövcud olan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri ticarət və gömrük münasibətlərinin inkişafına öz müsbət təsirini göstərir.

Gömrük orqanları iqtisadi təhlükəsizliyi təmin etməklə yanaşı, sahibkarlığın stimullaşdırılmasına, biznes mühitinin daha da yaxşılaşmasına, muxtar respublikanın tranzit potensialının güclənməsinə və turizmin inkişafına da öz töhfəsini verir. Bu məqsədlə biznes subyektləri ilə vaxtaşırı görüşlər keçirilir, sahibkarların rəy və təklifləri öyrənilir. Gömrük sərhəd-buraxılış məntəqələrində quraşdırılmış köşklər vasitəsilə fiziki şəxslər, o cümlədən turistlər sadələşdirilmiş elektron bəyannaməni doldurur, həmçinin gömrük qanunvericilik bazası və səyahətçilər üçün gömrük nəzarəti ilə bağlı qaydalarla tanış olurlar. Gömrük sərhəd-buraxılış məntəqələrində quraşdırılan monitorlarda Naxçıvan Muxtar Respublikasının zəngin turizm potensialı ilə bağlı videoçarxlar nümayiş etdirilir.

Bu gün əminliklə deyə bilərik ki, gömrük işi sahəsində muxtar respublikada yaradılan hərtərəfli şərait qarşıya qoyulmuş vəzifələrin bundan sonra da uğurla icra olunmasına imkan verəcək.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər). Bakı: 2003, 17 fevral
2. Şəkərəliyev A.Ş., Əliyev A. Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti. Bakı: "İqtisad niversiteti" nəşriyyatı, 2002
3. Şəkərəliyev A.Ş. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. 2016
4. Əliyev A. Azərbaycanın iqtisadi siyasəti, Azərbaycanın xarici ticarət iqtisadi əlaqələri. Bakı: Qanun, 2003
5. Vəliyev T.C., Babayev Ə.P., Meybullayev M.X. İqtisadi nəzəriyyə. Bakı: 2001
6. Əlirzayev Ə.H. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: 2002
7. "Azərbaycan xarici ticarət əlaqələri" 2004-2008-ci illərdə tərtib olunmuş məcmular. 2010 ДСК.
8. Филлипов В.И. Внешний рынок и экспортное производство в системе месдународных экономических отношений. Киев, Украина: 2000
9. Абалкин Л.И. Экономическая энциклопедия. Москва, Экономика: 1999

10. Смеляков Н. Развития отечественных экспортных возможностей. М.:1984
11. Супрун В.А. Экспортное производство СССР в системе социалистической экономической интеграции. Киев: 1990
12. Кириеев А. Международные отношения. Москва: 1999

## SUMMARY

**Elshan Nasirov**

## NEW INFORMATION TECHNOLOGIES IN REGULATION OF IMPORT-EXPORT PROCESSES IN NAKHCHIVAN

The scientific article examines the application of new information technologies in the regulation of import-export processes in the Nakhchivan Autonomous Republic.

International economic relations of our republic, issues of integration into the world economy, strategy of foreign economic relations, increase of import-export potential of various sectors of the national economy and other such issues were discussed by Azerbaijani scientists Z.A. Samadzade, A. Muradov, A. Sh. Shakaraliyev, A. Bayramov, A.P. Babayev, M.X. Hasanli, R.T. Hasanov and others.

However, given the dynamic nature of the processes in this area and the fact that the country's foreign trade takes on a new character every year, we can say that it is necessary to study the problem regularly.

The scientific article also scientifically analyzes and substantiates the methodological basis of import-export processes.

***Key words:*** *import, export, economy, customs, scientific and technical progress, technology, research, communication, information, border checkpoints, inspection facilities, expertise, trade, local products*

## РЕЗЮМЕ

**Эльшан Насиров**

## НОВЫЕ ИНФОРМАЦИОННЫЕ ТЕХНОЛОГИИ В РЕГУЛИРОВАНИИ ИМПОРТНО-ЭКСПОРТНЫХ ПРОЦЕССОВ В НАХЧЫВАНЕ

В научной статье исследуется применение новых информационных технологий в регулировании импортно-экспортных процессов в Нахчыванской Автономной Республике.

Международные экономические связи нашей республики, вопросы интеграции в мировую экономику, стратегия внешнеэкономических связей, повышение импортно-экспортного потенциала различных секторов национальной экономики и другие подобные вопросы обсуждались азербайджанскими учеными З.А.Самедзаде, А.Мурадовым, А.Ш. Шакаралиевым, А.Байрамовым, А.П.Бабаевым, М.Гасанлы, Р. Гасановым и другими.

Однако, учитывая динамичный характер процессов в этой сфере и тот факт, что внешняя торговля страны с каждым годом приобретает новый характер, можно сказать, что необходимо регулярно изучать проблему.

В научной статье также проводится научный анализ и обоснование методологической основы импортно-экспортных процессов.

***Ключевые слова:*** *импорт, экспорт, экономика, таможня, научно-технический прогресс, технологии, исследования, связь, информация, пограничные пункты пропуска, средства досмотра, экспертиза, торговля, местные продукты*

**RƏSUL ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*resulalakberov@hotmail.com*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BİZNESİNDƏ İNNOVASİYA FƏALİYYƏTİNİN TƏŞKİLİ

*Biznes proses kimi müəyyən funksiyaları: maliyyə və uçot, kadr və maddi-texniki təminat, istehsal, marketinq, elmi-tədqiqat və layihə işlərini nəzərdə tutur. Digər iqtisadçılar biznesə müəyyən struktur çərçivəsində təşkil edilən, məqsədi və nəticəsi gəlir götürmək olan konkret iqtisadi fəaliyyət növü kimi baxırlar.*

*İnnovasiya prosesi, əslində, təkrar istehsal tipini, sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirmə meyarları kəsb edən yeni innovasiyayönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır.*

*Tətbiq edilən vergi güzəşt və azadolmaları, eləcə də muxtar respublikada sahibkarlıq subyektlərinə göstərilən diqqət və qayğı biznesin inkişafına təkan verib.*

***Açar sözlər**: innovasiya, biznes, yenilənmə, istehsal, sənaye məhəlləsi, kommersiya, sahibkarlıq, ixrac*

Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən müasir qlobal çağırışlar əsasında zəngiləşdirilərək uğurla davam etdirilən milli inkişaf strategiyası ölkəmizin və xalqımızın gələcəyinə böyük nikbinliklə baxmağa imkan verir.

“Biznes” sözü dünyanın bütün ölkələrində istifadə olunur. Gəlir gətirən fəaliyyət və bu fəaliyyətlə məşğul olan insanlar müxtəlif ölkələrdə müxtəlif cür adlandırılır. Əsasən ingilis dilli ölkələrdə sözügedən fəaliyyət növü “Biznes”, bu fəaliyyətlə məşğul olan insanlar isə “Biznesmen” adlandırıldığı halda, digər ölkələrdə, o cümlədən MDB məkanında müvafiq olaraq “sahibkarlıq” və “sahibkar” adlandırılır. İqtisadi ədəbiyyatda “biznes” termininin müxtəlif anlayışlarına rast gəlinir. Məsələn, Alan Xoskinq biznesə belə tərif vermişdir: “Biznes təbii nemətlərin hasilatı, əmtəənin istehsalı, yaxud əldə edilməsi və satışı, digər əmtəələrin dəyişdirilməsində xidmətlərin göstərilməsi, maraqlı şəxslərin, yaxud təşkilatların qarşılıqlı gəlirinə xidmət, pul üzrə fiziki şəxslərin, müəssisələrin və təşkilatların həyata keçirdikləri fəaliyyətdir”. Biznes proses kimi müəyyən funksiyaları: maliyyə və uçot, kadr və maddi-texniki təminat, istehsal, marketinq, elmi-tədqiqat və layihə işlərini nəzərdə tutur. Digər iqtisadçılar biznesə müəyyən struktur çərçivəsində təşkil edilən, məqsədi və nəticəsi gəlir götürmək olan konkret iqtisadi fəaliyyət növü kimi baxırlar. Beləliklə, istənilən biznesin müəssisə şəklində öz iqtisadi-təşkilati forması olur. Müəssisə oxşar mühitdən bazarda ayrılmağa cəhd edərək firma adı və atributları şəklində öz fərqli cəhətlərini yaradır. Burada biznes anlayışı genişdir: biznesə təkcə fəaliyyət prosesi kimi deyil, həm də mülkiyyət obyekti kimi baxılır, hansı ki, satmaq, girov qoymaq, sığortalamaq, vəsiyyət etmək olar. Bu halda biznes saziş, əmtəə obyektinə çevrilir.

Biznesin məqsədi dedikdə müəssisənin kifayət qədər uzun müddət ərzində nail olmağa cəhd etdiyi son nəticə başa düşülür. Biznesin xarakterindən, inkişaf səviyyəsindən və s. amillərdən asılı olaraq məqsədi müxtəlif ola bilər. Buna misal olaraq aşağıdakıları göstərmək olar:

- mənfəətin əldə edilməsi;
- biznes fəaliyyətini inkişaf etdirmək üçün zəruri vəsaitlərin toplanması;
- cəmiyyətə zəruri əmtəə və xidmətlərin təqdim edilməsi;
- bazarda, sahədə qabaqcıl mövqeyə nail olunması;
- istehlakçıların tələbatının optimal ödənilməsi;
- öz əməkdaşlarına səmərəli fəaliyyət göstərmələri üçün əlverişli şəraitin yaradılması.

Kommersiya biznesi əmtəə və xidmətlərin alqı-satqısı üzrə əməliyyatların həyata keçirilməsi ilə məşğul olur. Biznesin bu növü böyük həcmdə maliyyə vəsaiti tələb etmir və qoyulan vəsait daha

tez gəlir gətirir. Məhz ona görə də kommersiya biznesi geniş yayılmışdır. Kommersiya biznesinin rentabellik səviyyəsi 20 faizdən yüksəkdir. Kommersiya biznesinin ümumi sxemi istehsal sahibkarlığının fəaliyyət sxeminə müəyyən dərəcədə oxşardır. Lakin fərq ondan ibarətdir ki, kommersiya biznesində material resurslarının əvəzinə hazır məhsul alınır və sonradan müəyyən qiymət fərqi qoyaraq istehlakçılara çatdırılır. Kommersiya biznesinin fəaliyyət sahəsi əmtəə birjası və ticarət təşkilatlarıdır. Əmtəə birjası satıcıları və alıcıları bir yerə toplamağa imkan verən, təşkilati cəhətdən qanunlaşdırılmış, daim fəaliyyətdə olan bazardır. Əmtəə birjasında birgə istənilən qaydalara uyğun olaraq ticarət əməliyyatları aparmaq üçün kommersiya vasitəçiləri könüllü surətdə birləşirlər. Əmtəə birjasının məqsədi azad rəqabətin idarə olunması mexanizmini yaratmaq və onun köməyi ilə tələb və təklifin dəyişdirilməsini nəzərə almaqla real bazar qiymətlərini aşkara çıxarmaqdır

“İnnovasiya” termini latın dilində “innovato” sözündən olub, yenilənmə və yaxşılaşma deməkdir. Dünya inkişafının müasir mərhələsinin səciyyəvi xüsusiyyəti insan sivilizasiyasının sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid sayılır. Bu isə hər şeydən əvvəl elm və texnikanın cəmiyyət həyatının bütün tərəflərinə daha da güclənməkdə olan təsirinin qlobal xarakteri ilə, irimiqyaslı sosial-iqtisadi və tarixi dəyişikliklərə aparan elmi texnoloji irəliləyişlərlə əlaqədardır. Buna uyğun olaraq iqtisadi artımın əsas amillər və mənbələr dəsti də dəyişir. Bunlar içərisində iqtisadi sistemin inkişafı səviyyəsinə təsir göstərmək qabiliyyətinə malik təbii resurslar və kapitalla yanaşı, inteqral resursa çevrilə bilən elmi biliklər daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. Təcrübə müstəvisində bu, yeni biliklərin məhsul və ya texnoloji yeniliklərə çevrilməsini təmin edən innovasiya prosesini ön plana keçirir. İnnovasiya prosesi əslində təkrar istehsal tipini, sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirmə meyarları kəsb edən yeni innovasiyayönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır.

Əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı çox sürətlə inkişaf edir. Aparılan iqtisadi islahatlar və iqtisadiyyatın diversifikasiyası qeyri-neft sektorunun inkişafını təmin etməklə bu sahədə əhəmiyyətli irəliləyişlərə imkan yaradır. Bu baxımdan qeyri-neft sektorunun inkişaf etdirilməsində sənaye və kənd təsərrüfatı sahələri xüsusi əhəmiyyət kəsb edir.

Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə etməklə yaxın perspektivdə respublikamızda istehsal olunan elektrik enerjisinin 5-7 faizini, istilik enerjisinin isə 10 faizə qədərini bu mənbələr hesabına ödəmək mümkündür. Ölkəmizin ərazisində günəş enerjisi ehtiyatlan müasir dövrdə enerjinin bu növündən istifadənin həcmindən bir neçə min dəfə artıqdır. ABŞ, Fransa, Kanada və digər dövlətlərdə günəşin illik enerjisi 2500-3000 saat təşkil edirsə, Azərbaycanda, xüsusilə Abşeron yarımadasında Xəzər dənizinin sahilboyu ərazisində və Naxçıvan MR-da bu göstərici daha yüksəkdir. Muxtar respublikanın enerji ehtiyatlarının təxminən yarısını alternativ enerji mənbələri hesabına ödəmək mümkündür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2019-cu il tarixli Fərmanı ilə təsdiq edlmiş “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” iqtisadiyyatın innovasiyalı inkişafını nəzərdə tutan növbəti mühüm dövlət sənədidir. Proqramda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması prioritet vəzifələr kimi qarşıya qoyulub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun fevralın 6-da Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin “İxrac ili” elan edilməsi haqqında Sərəncamı biznesə və sahibkarlığa göstərilmiş qayğının nəticəsidir.

Hazırda ölkəmizdə 6 sənaye parkı və 5 sənaye məhəlləsi fəaliyyət göstərir. Bu ərazilər yerləşdikləri regionun xammal bazası, işçi qüvvəsi, daxili potensialı, sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə uyğun olaraq fərqli istiqamətlər üzrə ixtisaslaşmışlar. Yerinə yetirilən layihələr həm də maraqlı və müştərək qrupların davamlı olaraq sənaye bölgələrinə səfər etmələrinə və yeni ideyaların həyata keçirilməsinə şərait yaratmaqdadır.

Prezident İlham Əliyev 2019-cu il sentyabrın 13-də Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 8 oktyabr tarixli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb. Fərmana əsasən Naxçıvan Muxtar Respublikasında sənaye sahəsində fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədi ilə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Şərur Sənaye Məhəlləsində layihə-planlama işlərinə başlanılıb. Vergi Məcəlləsinə əsasən sahibkarlı fəaliyyəti ilə məşğul olmaq istəyən sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 7 il müddətinə: əmlak, torpaq, mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunacaqlar.

Tətbiq edilən vergi güzəşt və azadolmaları, eləcə də muxtar respublikada sahibkarlıq subyektlərinə göstərilən diqqət və qayğı biznesin inkişafına təkan verib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "bir pəncərə" dövlət qeydiyyat sistemi vasitəsi ilə 1 noyabr 2014-cü il tarixə sahibkarlıq uçotuna alınan hüquqi və fiziki şəxslərin sayı 18940 idisə, artıq bu rəqəm 1 noyabr 2019-cu il tarixə 33256 olub ki, bunların 2219-u hüquqi şəxslər, 31037-si isə fərdi sahibkarlardır. 1 noyabr 2014-cü illə müqayisədə 1 noyabr 2019-cu il tarixə qeydiyyata alınan fiziki şəxslərin sayında 82,8 faiz artım olub və sahibkarlıq uçotuna alınan fiziki şəxslərin 75,5 faizi muxtar respublikanın rayonlarının payına düşüb.

Azad sahibkarlıq fəaliyyətinin geniş vüsət aldığı muxtar respublikada yerli ehtiyatlar hesabına müxtəlif növdə sənaye məhsulları istehsalının təşkili, aqrar sektorda emal sənayesinin genişləndirilməsi, sosial xidmət sahələrində kiçik və orta sahibkarlığın daha da gücləndirilməsi öz bəhrəsini verməkdədir. İqtisadi inkişafın mühüm göstəricisi olan ÜDM-un tərkibində sənayenin ilk yeri tutması da bunu bir daha sübut edir. Belə ki, muxtar respublikada 2020-ci ilin yanvar-aprel aylarında 743 milyon 26 min 800 manatlıq ÜDM istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,7% çoxdur. Hər bir nəfərə düşən ÜDM həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,3% artaraq 1615,3 manat olmuşdur. Muxtar respublikada yaranan ÜDM-un tərkibində əsas yeri sənaye sahəsi tutur. Sənaye üzrə 337 milyon 363 min manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,9% çoxdur. Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin yanvar-aprel aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 290 milyon 340 min 100 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,8% çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 274 milyon 817 min 700 manat və ya 94,7% tikinti-quraşdırma işlərinin payına düşür.

Muxtar respublikada sənaye sahəsi ilə yanaşı, kənd təsərrüfatı sahəsi də yüksək səviyyədə inkişaf etməkdədir. Kənd təsərrüfatının inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurlu icrası, bu sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması təsərrüfatçılara yeni stimul verib, muxtar respublikada əkinçiliyə, həmçinin kənd təsərrüfatının digər sahələrinə marağın artmasına səbəb olub. Bu isə təşəbbüskarlığın artması, fərdi təsərrüfatçılığın inkişafı deməkdir.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində Naxçıvan Muxtar Respublikasında 384 növdə məhsul istehsal olunub bunun 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidenti Şərur Sənaye Məhəlləsinin yaradılması və "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" Fərmanı, 2019
2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "İxrac ili" Sərəncam, 2020
3. "Biznesin Təşkili və İdarə Edilməsi" Azərbaycan Dövlət İqtisad Universiteti, dərslik. Bakı: 2011, 464 s.
4. Azərbaycan Respublikası "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Qanunu

**SUMMARY**

**Rasul Alakbarov**

**ORGANIZATION OF INNOVATION ACTIVITY IN THE BUSINESS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

The business process includes certain functions: finance and accounting, personnel and logistics, production, marketing, research and design. Other economists see business as a specific type of economic activity organized within a certain structure, the purpose and outcome of which is to make a profit.

In fact, the innovation process begins to play a dominant role in the functioning of the entire economic system by changing the type of reproduction, the quality of socio-economic relations and creating a new innovation-oriented economy with its own form of savings, special wealth structure and special evaluation criteria.

The applied tax benefits and exemptions, as well as the attention and care given to businesses in the autonomous republic, have given impetus to the development of business.

***Key words:*** *Innovation, Business, Renewal, Manufacturing, Industrial Quarter, Commercial, Entrepreneurship, Export*

**РЕЗЮМЕ**

**Расул Алекбаров**

**ОРГАНИЗАЦИЯ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В БИЗНЕСЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

Бизнес-процесс включает в себя определенные функции: финансы и бухгалтерский учет, персонал и логистика, производство, маркетинг, исследования и дизайн. Другие экономисты рассматривают бизнес как особый вид экономической деятельности, организованной в рамках определенной структуры, цель и результат которой - получение прибыли.

Фактически, инновационный процесс начинает играть доминирующую роль в функционировании всей экономической системы, изменяя тип воспроизводства, качество социально-экономических отношений и создавая новую инновационно-ориентированную экономику с собственной формой сбережений, особой структурой богатства и особыми критериями оценки.

Применяемые налоговые льготы и льготы, а также внимание и забота, уделяемые бизнесу в автономной республике, дали импульс развитию бизнеса. Хотя налоговые льготы не направлены непосредственно на поощрение инноваций, это оказывает положительное влияние на развитие этих видов деятельности.

***Ключевые слова:*** *Инновации, Бизнес, Обновление, Производство, Промышленный квартал, Торговля, Предпринимательство, Экспорт*

**MAYİSƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*
*abbasovaruziya@gmail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNNOVASİYALI İQTİSADİYYATIN PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Məqalədə muxtar respublikada innovasiyanın tətbiq edilməsi iqtisadi və ictimai fayda təmin edəcək yeni fikirlər, üsullar, məhsullar inkişaf etdirilməsi məsələləri tədqiq edilmişdir. Qeyd edilmişdir ki, eyni zamanda innovasiya texnoloji prosesləri, idarə və təşkil etmə proseslərində tətbiq oluna bilər və innovasiya fəaliyyəti cəmiyyətin intellektual fəaliyyətinin təkmilləşdirilməsinə yönələn nəticədir.*

*Məqalədə dövlət orqanlarının innovasiya sferasında əsas funksiyaları, innovasiya siyasətinin formalaşdırılması, innovasiya proseslərinin hüquqi bazasının yaradılması, xüsusilə innovatorların müəlliflik hüquqlarının qorunması və intellektual mülkiyyətin mühafizəsi məsələləri də geniş yer almışdır.*

***Açar sözlər:*** *innovasiya, innovasiyalı iqtisadiyyat, innovasiya siyasəti, rəqabətqabiliyyətli sahələr, informasiya təhlükəsizliyi, innovativ inkişaf, innovasiyalı model, innovasiya normativ bazası*

Bir ölkənin iqtisadi inkişafı, istehsalda istifadə faktorların qədərliyi və xarakterindən asılıdır. Bu səbəblə əmək, sərmayə və təbii qaynaq miqdarı ilə bərabər texnoloji inkişaf, təşkilati faktorlar və bəşəri sərmayə təcrübəsi kimi məhsuldarlığı artıran amillərində nəzərə alınması lazımdır.

Dövlətin investisiya-innovasiya siyasəti - investisiya mənbələrini tapıb onların səmərəli, elmtutumlu, innovasiyalara bağlı sahələrə yönəldilməsidir. Bu siyasət isə bütövlükdə ölkənin iqtisadi siyasətinin tərkib hissəsidir və struktur, vergi, maliyyə-kredit, amortizasiya, qiymət, gəlir və digər siyasətlərlə əlaqəlidir.

Dövlətin investisiya-innovasiya siyasətini reallaşdırmaq üçün öz qarşısında bir sıra həlli vacib sayılan vəzifələr qoyulur. Bu vəzifələr aşağıdakı kimi müəyyənləşdirmək olar:

- iqtisadiyyatın innovasiya əsasında inkişafı üçün ETT nailiyyətlərinin tətbiqinin stimullaşdırmaq;
- rəqabətqabiliyyətli sahələrin inkişafını təmin etmək;
- ölkəni beynəlxalq əmək bölgüsündə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaq;
- modern iqtisadi sistemin qurulmasını stimullaşdırmaq;
- ölkə üzrə yüksək məşğulluq səviyyəsinə nail olmaq;
- xarici ixrac və daxili təminat potensialını artırmaq və s.

Dövlətin innovasiya siyasəti aşağıdakı kimi müəyyənləşdirilir:

1. İnkişaf və innovasiya normativ bazasının təkmilləşdirilməsi, innovasiya institusional islahatlar, intellektual mülkiyyətin qorunması onun təşviq sisteminin mexanizmi və iqtisadi dövriyyəyə onun tətbiqi;
2. Hərtərəfli dəstəklə yenilik sisteminin yaradılması, istehsalın inkişafı, rəqabət və yüksək texnologiya məhsulları ixracatını artırmaq. İnnovasiya fəaliyyətinin prosesində, həm də regional səviyyədə hökumət, biznes, maliyyə institutları və qeyri-hökumət təşkilatlarının iştirakının tələbi;
3. İnformasiya təhlükəsizliyi, sistem təcrübəsi, maliyyə və iqtisadi sistemi, istehsal və texnoloji dəstək, sertifikatlaşdırma sistemi və təşviq inkişafı, sistem təlim və yenidən sisteminin, o cümlədən innovasiya prosesinin infrastrukturun inkişafı;
4. Formalaşması və kiçik yüksək texnologiyalı şirkətlərin uğurlu fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və ilkin mərhələsində dövlət dəstəyi ilə təmin etməklə kiçik innovasiya sahibkarlığın inkişafı;
5. İnnovativ layihə və proqramların rəqabət seçiminin təkmilləşdirilməsi. Dövlətin dəstəyi ilə özəl investorların iştirakı ilə innovativ layihələrin sektorları nisbətən kiçik və sürətli geri payment həyata keçirilməsi onların özəl investisiya axınını artırmaq üçün ən perspektivli sənaye və təşkilatları

dəstəkləyəcək;

6. Kritik texnologiyaların həyata keçirilməsi, ölkə və onun regionlarının iqtisadiyyatının inkişafında müvafiq sektorları prioritet kimi seçilməsi. İnnovasiya siyasətinin həyata keçirilməsi məqsədi ən əsas texnologiyaları nisbətən kiçik sayda seçki iqtisadiyyatında istehsal və rəqabət qabiliyyətinin artırılması və yeni texnoloji üçün keçid təmin həlledici təsir edir;

7. İkili təyinatlı texnologiyalardan istifadə. Belə texnika silah və hərbi avadanlıqların istehsalı, habelə mülki məhsullar üçün də istifadə edilə bilər.

Dövlətin investisiya siyasəti 2 hissədən ibarətdir: tənzimləmə və stimullaşdırma. Tənzimlənmə sistemi hər qoyulan kapitalın pul vahidinə (manata) görə maksimim gəlirin əldə edilməsini nəzərdə tutur. Stimullaşdırıcı element isə maksimum investisiya cəlb olunmasını tələb edir.

İqtisadiyyatın səmərəli inkişafı üçün ənənəvi inkişaf modelindən innovasiyalı modelə keçidi təmin etmək vacibdir. Yalnız innovasiyalı inkişaf modeli xammalın ixracında ixtisaslaşdırılmış iqtisadiyyatdan postindustrial iqtisadiyyata, elmtutumlu sahələrin inkişafına keçidi təmin edə bilər və ölkə qloballaşan dünyada özünə daha layiqli yer tuta bilər. Müasir dövrdə yalnız innovasiya tipli inkişafa nail olan ölkələr iqtisadi və hərbi-siyasi təhlükəsizliyini təmin edə bilər, əhalisinin həyat səviyyəsinin müasir sivilizasiyaya uyğun olmasına şərait yaradar. Xarici bazarda sərt rəqabətə davam gətirmək üçün innovasiyalı inkişaf ölkənin beynəlxalq münasibətlər subyekti kimi fəaliyyətinin əsas şərtlərindən biridir.

Son illərdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının elmi əsaslarla innovativ inkişafı yeni texnologiyalar, yeni xidmət növləri və idarəetmənin təşkili sahəsindəki yeniliklərdən daha çox və səmərəli istifadə edilməsinə əsaslanır. İstənilən ölkənin iqtisadiyyatı elmin və texnologiyanın inkişafı, eləcə də onların tətbiqi ilə birbaşa qarşılıqlı surətdə əlaqəlidir. Qabaqcıl ölkələrdə iqtisadiyyatın inkişafında innovasiya siyasətinin formalaşması əsas məsələlərdən biri hesab olunur. İqtisadiyyat və innovasiya proseslərinin dövlət tənzimlənməsi və dəstək bazar münasibətlərinə iqtisadiyyatının transferi əsas şərtlərdən biridir. Dövlət böhranı aradan qaldırmaq üçün bir proqram yaratmaq üçün ölkənin elmi, texnoloji və innovasiya potensialının inkişafına dövlət dəstəyi lazımdır.

İqtisadi inkişafı və rəqabətliliyi təmin etmək məqsədi ilə yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə geniş tətbiq edilməsi ilə xarakterizə olunan və dinamik inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, iqtisadi tərəqqi səmərəli milli innovasiya sisteminin elmi əsaslar üzərində yaradılmasını tələb edir. Hal-hazırda iqtisadi inkişaf səmərəli milli innovasiya sisteminin elmi əsaslar üzərində qurulmasını tələb edir. Bu prosesin formalaşmasına müxtəlif yanaşmalar mövcuddur və onların reallaşdırılmasını çətinləşdirən bir sıra amillər mövcuddur. Bu işdə qabaqcıl ölkələrin təcrübəsindən yararlanmaq məqsədəuyğundur. Aşkara çıxarılmış problemlərin həll instrumentarilərindən istifadə etməklə həmin sahədə səmərəliliyin yüksəldilməsinə nail olmaq olar. Ona görə də hesab edirik ki, innovasiya işləmələrinin müvafiq mərhələ və proseslərində qeyd olunan amillərin, təklif və tövsiyələrin nəzərə alınması həmin proseslərin səmərəliliyinə müsbət təsir göstərəcəkdir. Dövlətin apardığı innovasiya siyasəti innovasiya fəaliyyətinin inkişafına və stimullaşdırılmasına yönəldilmiş sosial-iqtisadi siyasətin tərkib hissəsi olub, elmi tədqiqatlardan, işləmələrdən, təcrübi konstruktor işlərindən, və ya digər elmi-texniki nailiyyətlərdən istifadə etməklə iqtisadi dövriyyədə reallaşdırılan yeni və ya təkmilləşdirilmiş məhsulların, habelə texnoloji prosesin yaradılması deməkdir. Bu siyasət Naxçıvan Muxtar Respublikasının yerli məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi, dayanıqlı iqtisadi artımın təmin olunması, əhalinin həyat səviyyəsi və keyfiyyətinin, ölkənin müdafiə texnoloji və ekoloji təhlükəsizliyinin təmin edilməsi üçün innovasiya fəaliyyəti prioritetliyi razılaşdırılmaqla formalaşdırılır və həyata keçirilir.

Dövlətin innovasiya siyasətinin əsas məqsədləri yerli məhsulların rəqabətqabiliyyətliliyinin artımını təmin edən innovasiya fəaliyyəti üçün iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması, elmi-texniki nəticələrin effektiv ifadəsi, sosial-iqtisadi məsələlərinin həlli, elmi-texniki potensialın inkişafı səmərəli yerləşdirilməsi və effektiv istifadəsi onun strukturunun formalaşdırılması, ölkənin müdafiə qabiliyyətinin və şəxsiyyət, cəmiyyət və dövlət təhlükəsizliyinin möhkəmləndirilməsi və elm və

texnikanın ölkə iqtisadiyyatının inkişafına, ən mühüm sosial vəzifələrin reallaşdırılmasına, maddi istehsal sferasında mütərəqqi struktur dəyişikliklərinin təmin olunmasına təsirinin artırılması, onun effektivliyinin və rəqabətqabiliyyətinin yüksəldilməsidir. Məqsədə nail olmaq üçün Naxçıvan Muxtar Respublikasında innovasiya siyasəti prioritetlərinin müəyyən edilməsi və reallaşdırılması, iqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinin təmin edilməsi, innovasiya fəaliyyəti infrastrukturunun yaradılması və inkişafı, beynəlxalq bazarda yerli innovasiya məhsullarının qorunması və xarici iqtisadi innovasiya fəaliyyətinin inkişafı üzrə tədbirlərin həyata keçirilməsi, innovasiya fəaliyyətinin inkişafında elm, təhsil, istehsal və maliyyə-kredit sferalarının qarşılıqlı təsirinin təmin edilməsi və xalq təsərrüfatının inkişafı strategiyasını, temp və proporsiyalarını müəyyən edən başlıca istiqamətlərdə iqtisadiyyatın inkişafının stabilləşdirilməsi üçün elmi-texniki potensialın effektiv istifadəsinin və onun strukur tarazlığının təmin olunmasıdır. Dövlətin innovasiya siyasətinin əsas prinsiplərini ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilən innovasiya proqramlarının və layihələrinin maliyyələşdirilməsi, innovasiya infrastrukturunun formalaşması və innovasiya sahəsi üçün kadr hazırlığı təşkil edir. İnnovasiya fəaliyyətinin inkişafını təmin etmək məqsədi ilə münbit şərait yaradan hüquqi bazanı formalaşdırmadan ölkə iqtisadiyyatını innovasiyalı inkişaf yoluna çıxarmaq mümkün deyildir. Bunun əsasını isə "İnnovasiya Fəaliyyəti haqqında" qanun təşkil edə bilər. Dövlət orqanlarının innovasiya sferasında əsas funksiyaları innovasiya siyasətinin formalaşdırılması, innovasiya proseslərinin hüquqi bazasının yaradılması, xüsusilə innovatorların müəlliflik hüquqlarının qorunması və intellektual mülkiyyətin mühafizəsi, bu sferada innovasiyanın, rəqabətin stimullaşdırılması, innovasiya risklərinin sığortası, köhnəlmiş məhsulların buraxılışına görə dövlət sanksiyasının tətbiqi, innovasiyanın sosial və ekoloji yönümlüyü təmin olunmaqla elm, texnika və texnologiyanın prioritet istiqamətlərinin müəyyən edilməsi, innovasiya sferası infrastrukturunun formalaşdırılmasında iştirak, innovasiya və elmi-texniki fəaliyyət ilə məşğul olan şəxslərin ictimai statusunun yüksəldilməsi və innovasiya proseslərinin beynəlxalq aspektlərinin tənzimlənməsidir.

## ƏDƏBİYYAT


1. Axundov M.Ə. Strateji idarəetmə. Bakı: Ağrıdağ, 2001
2. "Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri" mövzusunda elmi-praktiki konfransın materialları. Bakı: 2003
3. Atakişiyev M.C., Süleymanov Q.S. İnnovasiya menecmenti. Bakı: 2004
4. Biznesin əsasları (Prof. Abbasovun A.B. ümumi redaktəsi ilə), dərslik. Bakı: Nurlan, 2005, 656 s.
5. Cəbiyev R.M. Azərbaycan bazar infrastrukturunun formalaşması və inkişafı (Monoqrafiya). Bakı: 2000, 236 s.
6. Əlirzayev Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri
7. Əliyev İ.İ. Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində. Bakı: 2007, s.862
8. Əliyev M. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı: 2002


## SUMMARY

**M. Abbasova**

**PERSPECTIVE ASPECTS OF INNOVATIVE ECONOMY IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

The article examines the development of new ideas, methods and products that will bring economic and social benefits to the implementation of innovation in the autonomous republic.It was observed that innovation can also be applied in technological processes, management and organizational processes, and innovation is a result of the improvement of the intellectual activity of the society.

The article comprises the essential functions of state institutions in the field of innovation, the establishment of innovation policy, the establishment of a legal framework for innovation processes,

in particular, the protection of copyright of innovators and the protection of intellectual property.

***Key words:*** *innovation, innovative economy, the policy of innovation, competition area, information assurance, innovative development, innovative model, innovation regulation framework.*

## РЕЗЮМЕ

**М. Аббасова**

## ПЕРСПЕКТИВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье исследованы внедрение инноваций в автономной республике, вопросы развития новых размышлений, методов, продукции. Отмечено, что инновация может быть также внедрена в технологические процессы, в процессы управления и организации, а инновационная деятельность является результатом, направленным на совершенствование интеллектуальной деятельности общества.

В статье большое место заняли такие вопросы как основные функции государства в инновационной сфере, формирование инновационной политики, создание правовой базы инновационных процессов, в особенности защита авторских прав авторов инноваций и охрана интеллектуальной собственности.

***Ключевые слова:*** *инновация, инновационная экономика, инновационная политика, конкурентоспособные отрасли, информационная безопасность, инновационное развитие, инновационная модель, нормативная база инновации.*

# III BÖLMƏ
# QLOBALLAŞAN İQTİSADİYYATDA MALİYYƏ VƏ TURİZM

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

## COVİD-19 PANDEMİYASI DÖVRÜNDƏ HƏYATA KEÇİRİLƏN MALİYYƏ SİYASƏTİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ƏSAS ÜNSÜRÜ KİMİ

*Məqalədə Çinin Wuhan bölgəsində meydana gələn və sürətlə yayılmağa başlayan Covid-19 pandemiyasının qeyri-iqtisadi bir hadisə kimi dünya iqtisadiyyatına, xüsusən Azərbaycan iqtisadiyyatına təsirindən bəhs olunmuş, Azərbaycan hökuməti tərəfindən Covid-19 pandemiyasına qarşı aparılan mübarizə çərçivəsində həyata keçirilən kompleks tədbirlər sistemi tədqiq edilmiş, evdə qalınması, sosial məsafənin saxlanılması, işgüzar fəaliyyətlərin məhdudlaşdırılması və s. kimi tədbirlərin səbəb olduğu birbaşa istehsal itkisi, iqtisadi fəaliyyətlərdə və ümumi istehsal həcmində azalma şəklindəki problemlər araşdırılmışdır.*

*Elmi məqalədə, həmçinin milli-iqtisadi təhlükəsizliyin təmini baxımından koronavirus pandemiyasının ölkə iqtisadiyyatına təsirlərinin aradan qaldırılması məqsədilə həyata keçirilən maliyyə siyasəti nəzərdən keçirilmiş və mövcud vəziyyət təhlil edilmişdir.*

***Açar sözlər:*** *Covid-19 pandemiyası, Azərbaycan iqtisadiyyatı, maliyyə siyasəti, maliyyə dəstəyi, iqtisadi təhlükəsizlik*

Bu gün cəmiyyətimizin hər bir üzvü tərəfindən koronavirus pandemiyasının aradan qaldırılması üçün dünya ölkələrinin səylərini birləşdirməsi zəruriliyindən danışılır. Bunun da başlıca səbəbi koronavirus pandemiyasının dünya ölkələrinin iqtisadiyyatına vurduğu ciddi zərbədir ki, bu da planetimizin hər bir sakininin həyatına və yaşam tərzinə öz təsirini göstərməkdə, ölkələrin iqtisadi təhlükəsizliyi üçün təhdidlər törətməkdədir. Belə ki, Beynəlxalq Maliyyə İnstitutlarının məlumatına əsasən dünya əhalisinin, şirkətlərinin, maliyyə təşkilatlarının və bütün ölkə hökumətlərinin ümumi borcları mütləq rekordu təzələyərək 255 trilyon ABŞ dollarına çatmışdır. Burada söhbət qlobal ÜDM-nin 322 faizindən gedir və ekspertlər bu kritik göstəricinin 2008-ci il maliyyə böhranından 40% daha çox olduğunu bildirirlər [3, səh.16].

Bütün dünyaya yayılan Covid-19 pandemiyası insan sağlamlığına təhdidlər törətməklə yanaşı, qeyri-iqtisadi bir hadisə kimi dünya iqtisadiyyatında dərin iqtisadi böhran yaratmış, dünya əhalisinin maddi rifah səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdur. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən ciddi bir təhlükə olaraq xarakterizə edilən Covid-19-un yayılmasının qarşısını almaq üçün dünyanın bir çox ölkəsində iş yerləri, məktəblər, ictimai nəqliyyat vasitələri və s. bağlanmış, beynəlxalq konfranslar, idman yarışları kimi kütləvi tədbirlər ləğv edilmiş, beynəlxalq uçuş və səfərlər dayandırılmış, ölkə sərhədləri bağlanaraq özünü təcrid tədbirləri həyata keçirilmiş, pandemiyanın qarşısının alınması üçün dünya dövlətlərinin böyük əksəriyyətində karantin rejimi tətbiq olunmuşdur.

Qeyd edək ki, koronavirus pandemiyasının nə vaxta qədər davam edəcəyi ilə bağlı fikirlər söyləmək, proqnozlar vermək olduqca çətindir. Ancaq onu söyləmək olar ki, Covid-19 pandemiyası Çin iqtisadiyyatı başda olmaqla dünya ölkələrinin bir çoxunun iqtisadiyyatına böyük zərbə vurmuşdur. Belə ki, dünyanın 500 ən böyük şirkətindən 300-nün investisiya bölgəsi hesab edilən, dünya aparıcı şirkətlərinin mühüm istehsal mərkəzi olan Wuhan bölgəsində koronavirus pandemiyasının görülməsi 900 qlobal şirkətin Çindən çıxmasına səbəb olmuşdur. [4, səh.92] İstehsalını dayandıran və ya azaldan şirkətləri də nəzərə alsaq çox ciddi mənfi iqtisadi vəziyyətin yarandığı görülməkdədir. Başqa sözlə desək, çox təhlükəli olmayan bir xəstəliyin "Dünya fabriki" rolunu oynayan Çinin real sektorunda ciddi iqtisadi sarsıntıya səbəb olması qlobal iqtisadiyyatın hər tərəfinə yayılmışdır. Dünyanın ən çox enerji istehlak edən ölkəsi olan Çində istehsalın dayandırılması

neft və qaz alışı həcminin minimum həddə qədər azalmasına son nəticədə dünya birjalarında xam neftin və təbii qazın qiymətlərinin aşağı düşməsinə, neft satan ölkələrin iqtisadiyyatına, o cümlədən Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərmişdir. Xüsusən dünya birjalarında xam neftin qiymətinin aşağı düşməsi Azərbaycan Respublikası dövlət büdcəsi gəlirlərinin formalaşmasına mənfi yöndə təsir etmişdir ki, məhz bu baxımdan 2020-ci il dövlət büdcəsində müvafiq dəyişikliyin aparılması zərurətə çevrilmişdir [1].

***Cədvəl 1.*** *Covid-19 pandemiyası səbəbi ilə meydana gələn qlobal böhranın Azərbaycan iqtisadiyyatına təsirləri*

| **Göstərici** | **İqtisadiyyat necə təsirlənəcək** | **Təsirin şərhi və ya izahı** |
|---|---|---|
| İxrac | azalar | Azərbaycanın məhsullarını ixrac etdiyi ölkələrdə pandemiya səbəbi ilə baş verən iqtisadi geriləmə və ya yaşanan iqtisadi tənəzzül bu ölkələrin idxal səviyyəsinin azalmasına, respublikamızın ixracatına mənfi təsir etmişdir. |
| İdxal | qarışıq | Covid-19 virusunun təsiri nəticəsində idxal azalmışdır. Respublikamızda idxal həcminin aşağı düşməsi bir tərəfdən büdcə kəsirinə nəzarət edilməsinə, ehtiyaclarımızın xarici mənbələrdən maliyyələşdirilməsinin azalmasına, digər tərəfdən istehsal həcminin azalmasına bununla yanaşı, artım imkanlarının zəifləməsinə səbəb olmuşdur. |
| Turizm | mənfi təsir | Koronavirus pandemiyası səbəbi ilə beynəlxalq uçuş və səfərlərin dayandırılması, ölkə sərhədlərinin bağlanaraq özünütəcrid tədbirlərinin həyata keçirilməsi Azərbaycanın turizm sektorunun inkişafına iki aspektdən mənfi təsir göstərmişdir:<br>1. Azərbaycanlıların xarici ölkələrə səfər etməməsi yerli turizm şirkətlərinin iflasına və bu faktor dövlət büdcəsi gəlirlərinin azalmasına səbəb olmuşdur.<br>2. Xarici turistlərin Azərbaycana virus səbəbi ilə gələ bilməmələri turizm obyektlərinin gəlirlərinin əhəmiyyətli dərəcədə azalmasına nəticə etibarilə, bu sektorda işsizlik səviyyəsinin yüksəlməsinə, büdcə daxilolmalarında bu sektorun payının azalmasına səbəb olmuşdur. |
| İstehsal | azalar | Müəssisələrimizin istehsalında xammal kimi idxal malları üstünlük təşkil edir. İdxal prosesində baş verən problemlər ölkə istehsalına mənfi təsir etmişdir. |
| Risk dərəcəsi | artar | İqtisadiyyatı həssas olan və neft qiymətlərindən asılı olan Azərbaycanın koronovirus pandemiyası dövründə riskləri artacaqdır. |
| Azərbaycan manatının dəyəri | düşər | Covid-19 pandemiyası ilə əlaqədar böhranın davam etməsi və resursların tükənməsi situasiyasında Azərbaycan manatının dəyərinin düşməsi gözlənilir. |
| İnflyasiya | artar | Azərbaycan manatının xarici bazarlardakı dəyərinin düşməsi inflyasiyanı artırar. |
| Büdcə kəsiri | artar | Covid-19 pandemiyasının davam etdiyi, iqtisadi artımda azalmanın müşahidə edildiyi bir şəraitdə Azərbaycan hökuməti iqtisadiyyatı və iqtisadi fəaliyyəti canlandırmaq üçün vergiləri aşağı salacaq, xərcləri artıracaqdır ki, bu da büdcə kəsirinin yaranmasına səbəb olacaqdır. |

***Qeyd:*** *Cədvəl müəllif tərəfindən tərtib edilmişdir*

Dünya iqtisadiyyatının subyektlərindən biri olan Azərbaycan dövləti digər dünya dövlətləri kimi ölkə vətəndaşlarının sağlamlığı və təhlükəsizliyinin təmini naminə Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə Covid-19 pandemiyasına qarşı mübarizə aparmağa başladı. Burada digər bir məqsəd koronavirus pandemiyası səbəbi ilə meydana gələn qlobal böhranın aşağıdakı cədvəldə göstərilən, Azərbaycan iqtisadiyyatına ehtimal olunan təsirlərini mümkün qədər azaltmaqdır.

Respublikamızda Covid-19 pandemiyasına qarşı aparılan mübarizənin başlıca çətinliyi bir-biri ilə ziddiyyət təşkil edən, iqtisadi qanunauyğunluğa tabe olmayan aşağıda qeyd etdiyimiz üç mühüm tədbirin paralel şəkildə həyata keçirilməsi zəruriliyidir:

1. Virusun yayılmasının qarşısını almaq üçün karantin rejiminin tətbiq edilməsi;
2. İnsanların hərəkətinin və sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması;
3. Tətbiq edilən karantin rejimi səbəbindən işini itirən insanların sosial müdafiəsinin təmin edilməsi.

Qeyd edək ki, koronavirus pandemiyasının aradan qaldırılması istiqamətində həlli nəzərdə tutulan 2-ci və 3-cü tədbirlər ölkənin maliyyə təhlükəsizliyinin təmini baxımından mühüm əhəmiyyət kəsb edir və maliyyə sisteminin tərkib hissəsi olan dövlət büdcəsinin xərclər strukturuna birbaşa təsir göstərir.

Virusun insan sağlamlığına yaratdığı təhlükənin önünə keçilməsi məqsədinə əsaslanaraq ölkə rəhbərliyinin göstərişi ilə 2020-ci il mart ayının 24-dən etibarən karantin rejimi tətbiq edildi. Sərt karantin rejiminin tətbiqi ilə istehsal və xidmət sektorunda şirkətlərin fəaliyyəti məhdudlaşdırıldı, insanların sərbəst hərəkəti, kütləvi tədbirlərin keçirilməsi qadağan edildi, sərnişin daşınmasında daxili və beynəlxalq nəqliyyat əlaqələri dayandırıldı. Bütün bu tədbirlər virusun qarşısının alınması və ölkə vətəndaşlarının sağlamlığının qorunması məqsədi daşıyırdı. Təbii ki, məhdudiyyətlərin iqtisadi fəallığın zəifləməsinə və iqtisadi geriləməyə səbəb olması qanunauyğundur. Çünki insanların hərəkətinin məhdudlaşdırılması ilə yanaşı, iqtisadi fəallığın davam etdirilməsi qeyri-mümkündür. İnsanların çalışması və hərəkəti isə əlavə dəyərin yaranması eyni zamanda iqtisadi artım deməkdir [6].

Azərbaycanda Covid-19 pandemiyasına qarşı həyata keçirilən “Sərt karantin rejimi” tədbiri nəticəsində iqtisadi fəallığın zəifləməsinin, tədarük zəncirlərinin qırılmasının meydana gətirdiyi böhrandan yaxa qurtarmaq üçün reallaşdırılan iqtisadi siyasət sürətlə dəyişdirilməyə başlandı. Belə ki, 2020-ci il mart ayının 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluğa, sahibkarlıq subyektlərinə təsirinin azaldılmasını nəzərdə tutan sərəncam imzaladı. Çox geniş spektrli sərəncama əsasən yuxarıda qeyd olunan tədbirlərin maliyyələşdirilməsi üçün Nazirlər Kabinetinə bir milyard manat vəsait ayrıldı. Həmçinin pandemiyanın ölkə həyatının ayrı-ayrı sahələrinə təsirini qiymətləndirmək və təkliflər hazırlamaq üçün İqtisadiyyat, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlərinin və Mərkəzi Bankın sədrinin rəhbərliyi ilə dörd işçi qrup yaradıldı. Pandemiyanın yaxın və orta müddətdə biznes mühitinə təsirini azaltmaq, iqtisadi artımın davam etməsini dəstəkləmək, hüquqi və fiziki şəxslərin ehtimal olunan zərərinin məbləğini müəyyənləşdirmək, sahibkarlıq subyektlərinə dövlət dəstəyi göstərmək, makroiqtisadi sabitliyi qoruyub saxlamaq istiqamətində təkliflər hazırlanıb Nazirlər Kabinetinə təqdim olundu. Qeyd edək ki, bu tədbirlərin 2,5 milyon insanı əhatə etməsi sosial dəstəyin indiyədək görünməmiş miqyasından xəbər verir.

Covid-19 tədbirləri çərçivəsində fəaliyyətləri məhdudlaşdırılan və ya böyük ölçüdə azalan hava nəqliyyatı, mehmanxana, restoran, turizm, pərakəndə ticarət və s. kimi sahələr fəaliyyətsizlik və ya məhdud fəaliyyət nəticəsində gəlirlərinin böyük bir qismini itirmiş, bu sektorlarda çalışan işçilərin iş yerlərini itirmək təhlükəsi meydana gəlmişdir. Meydana gələcək işsizlik probleminin qarşısının alınması, əsassız ixtisarlara yol verilməməsi üçün dövlət qurumlarına müvafiq tapşırıqlar verilmiş, sahibkarlara işçilərini karantin rejimi dövründə işdən azad etməmələri ilə bağlı müraciət olunmuşdur. Atılan bu addımlar nəticəsində dövlət sektoru üzrə 900 mindən çox işçinin, özəl sektor üzrə isə 690 min işçinin əmək haqqı saxlanılmaqla məşğulluğu təmin edilmişdir. Covid-19 pandemiyasından zərər çəkmiş 44000 sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının müəyyən bir hissəsi dövlət tərəfindən ödənilmiş və əməkhaqqının subsidiyalaşdırılması tədbirinin həyata keçirilməsinə 2020-ci il 26

oktyabr tarixinə olan məlumata əsasən 204,6 milyon manat vəsait xərclənmişdir. Həmçinin əhalinin məşğulluq imkanlarının artırılması məqsədlə DOST İş Mərkəzi tərəfindən 50 min ödənişli ictimai iş yeri yaradılmış və bunun üçün 30 milyon manat vəsait ayrılmışdır.

Virus səbəbindən qonşu dövlətlərlə sərhədlərin bağlanılması, beynəlxalq yük daşınmalarında müşahidə edilən azalma tempi istehsalı idxal edilən xammala əsaslanan şirkətlərin fəaliyyətində təchizat baxımından ciddi problemlərin yaranmasına son nəticədə istehsal həcminin aşağı düşməsinə səbəb olmuşdur. Digər bir tərəfdən fəaliyyəti məhdudlaşdırılan sektorlardakı şirkətlərin istehsal həcminin azalması yerli təchizatçı rolunda çıxış edən şirkətlərin istehsal və satış həcminin aşağı düşməsinə yol açmışdır. Fəaliyyəti məhdudlaşdırılan sahələrdəki işçilərin gəlirlərindəki azalmalar digər fəaliyyət sahələrinin məhsullarına olan tələb səviyyəsinin azalması ilə nəticələnmişdir. Bu isə öz növbəsində hər iki qrup şirkətlərin gəlirlərinin, o cümlədən dövlət büdcəsi daxilolmalarının azalmasına, şirkətlərin maliyyə dayanıqlılığının zəifləməsinə səbəb olmuşdur [2].

Yuxarıda qeyd etdiyimiz situasiyaların nəticəsidir ki, 2020-ci ilin yanvar ayı ilə müqayisədə aprel ayında vergi daxilolmalarının azalması hesabına büdcə gəlirləri 3,1% azalmışdır. Dövlət büdcəsi gəlirlərinin azalmasına baxmayaraq Azərbaycan hökuməti yaranmış vəziyyətdə sahibkarlıq subyektlərinin zərərlərinin azaldılması, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması, sahibkarlıq subyektləri üzrə iş yerlərinin qorunub saxlanılması məqsədilə sahibkarlıq subyektlərinə 2 mərhələdən ibarət maliyyə dəstəyi göstərmişdir. Birinci mərhələdə fərdi sahibkarlara maliyyə dəstəyi proqramının icrasına 60,8 milyon manat, ikinci mərhələdə isə 77 milyon manat vəsait ayrılmışdır. İki mərhələdə həyata keçirilmiş maliyyə dəstəyi proqramlarından 130 mindən çox vergi ödəyicisi yararlanmışdır. Pandemiya dövründə sahibkarlıq subyektlərinə göstərilən maliyyə dəstəyinin başlıca səbəbi bir tərəfdən onların mövcud itkilərini qarşılamaqdırsa, digər tərəfdən ölkənin maliyyə təhlükəsizliyinin təmin edilməsidir. Belə ki, ölkənin maliyyə təhlükəsizliyinin təmin olunmasında istehsal müəssisələrinin maliyyə dayanıqlılığı və mənfəətlə işləməsi mühüm rol oynayır və ən mühüm amildir [5, səh.125].

Qeyd edək ki, ümumilikdə koronavirus pandemiyası dövründə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi baxımından Azərbaycanda sosial dəstək paketlərinin həyata keçirilməsi üçün vergi güzəştləri də daxil olmaqla 3,5 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Atılan addımların nəticəsidir ki, 2020-ci ilin yanvar ayı ilə müqayisədə aprel ayında dövlət büdcəsinin xərcləri 43,4% artmışdır. Məhz bu baxımdan onu da qeyd etmək yerinə düşərdi ki, dövlət bu xərcləri ciddi iqtisadi risk fonunda həyata keçirir.

Covid-19 pandemiyası dövründə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün görülən tədbirlərin nəticəsidir ki, Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə virusun yayılması hesabına qlobal iqtisadiyyat 2020-ci ildə 3%, Orta Şərq və Mərkəzi Asiyanın neft ixrac edən ölkələrinin iqtisadiyyatı 3,9% azalacağı halda, Azərbaycan iqtisadiyyatı cəmi 2,2% kiçiləcəkdir. Beynəlxalq Valyuta Fondunun məlumatlarına əsaslanaraq qeyd edə bilərik ki, Orta Şərq və Mərkəzi Asiyanın neft ixrac edən 11 ölkəsinin içərisində Azərbaycan iqtisadiyyatı pandemiyadan ən az zərər çəkən ölkələrin ilk üçlüyündədir.

Respublikamızda həyata keçirilən maliyyə siyasəti və tədbirlərinin nəticələrinə əsaslanan Dünya Bankı Azərbaycanla bağlı açıqlamasında bildirir ki, ölkənin valyuta ehtiyatlarının yetərli həddə olması və xarici borcunun az olması iqtisadi fəallığı bərpa etmək üçün geniş imkanlar yaradır. Lakin məzənnəyə təzyiqlər artarsa və ya makroiqtisadi siyasət dəyişərsə, iqtisadi böhran daha da dərinləşə bilər. Böhranın dərinləşdiyi bir vaxtda gəlirlərin qorunmasının təsirli vasitələrindən biri hesab olunan əməkhaqqının subsidiyalaşdırılması qısamüddətli yumşalma tədbirindən istifadə resursların tükənməsi səbəbindən qeyri-effektiv həll yolu ola bilər.

Fikrimizcə, Covid-19 pandemiyasının ölkə iqtisadiyyatımızın hal-hazırki və perspektiv inkişafına törətdiyi təhlükələri aradan qaldırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı:

1. Ölkənin iqtisadi təhlükəsizliyinin təmini baxımından maliyyə sektorundakı mövcud risklərin aradan qaldırılması üçün elmi əsaslandırılmış tədbirlər həyata keçirilməli və bu tədbirlər ölkənin mövcud imkanları, habelə fiskal məkanı nəzərə alınmaqla vaxtında reallaşdırılmalı və koronavirusun təsirlərinə zamanında cavab verə bilmə qabiliyyətinə malik olmalıdır;

2. Covid-19 pandemiyasının iqtisadi təsirlərinin azaldılması baxımından son dərəcə əhəmiyyətli olan iş və gəlirlərini itirənlərə maliyyə dəstəyinin göstərilməsi proqramının davam etdirilməsi, aparılan hesablamalara əsasən bu siyasət gəlir və məşğulluq itkilərinin təxminən yarısını kompensasiya edə bilər;

3. Xaricdən asılı və aşağı əlavə dəyərli istehsal sahələrinin struktur dəyişiklikləri yolu ilə sağlam bir vəziyyətə gətirilməsi.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, 7 avqust 2020-ci il
2. Balayeva E.Ə. İqtisadi təhlükəsizlik və inkişafın maliyyə problemləri. Bakı: Elm, 2011, 396 s.
3. "Business times" qəzeti, №19 (678), 2020
4. Arabacı H., Yücel D. Pandeminin Türkiye ekonomisine etkileri ve Türkiye Merkez Bankası tarafından finansal istikrarı sağlamak amacıyla alınan önlemler. "Social Sciences Research" Journal, № 9 (2), 2020, səh. 91-98
5. Məmmədov N.M., Bərxudarov M.İ. İqtisadi təhlükəsizlik. Bakı: 2006, 452 səh.
6. Тодаро М.П. Экономическое развитие. Учебник: Пер.с англ., М., ЮНИТИ, 1997, 667 с.


## SUMMARY

**Jeyhun Mahmudov**

### IMPLEMENTED FINANCIAL POLICY DURING THE COVID-19 PANDEMY AS A MAIN ELEMENT OF ECONOMIC SECURITY

The article discusses the impact of the rapidly spreading Covid-19 pandemic in the Wuhan region of China on the world economy as a non-economic event especially on the Azerbaijan economy. The system of complex measures implemented by the Government of Azerbaijan in the tussle against the Covid-19 pandemic has been studied, The problems in the form of direct production losses, economic activities and declines in total production caused by precoutions such as staying at home, maintaining social distance, restricting business activities have been investigated.

The financial policy implemented to eliminate the effects of the coronavirus pandemic on the state economy in terms of ensuring national and economic security has been analyzed in the scientific article.

***Key words:*** *Covid-19 pandemic, economy of Azerbaijan, financial policy, financial support, economic security.*

## РЕЗЮМЕ

**Джейхун Махмудов**

### ПРОВОДИМАЯ В ЖИЗНЬ В ПЕРИОД ПАНДЕМИИ COVİD-19 ФИНАНСОВАЯ ПОЛИТИКА КАК ВАЖНЫЙ ЭЛЕМЕНТ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

В статье рассматривается влияние пандемии Covid-19, происшедшей в провинции Ухань Китая и быстро распространяющейся как неэкономичное явление, на мировую экономику, в частности на Азербайджанскую экономику, исследуются осуществление правительством Азербайджана, в рамках борьбы с пандемией Covid-19, система комплекса мер, а также причины проблем, связанных с непосредственными производственными потерями, снижением экономической активности и общего производства из-за таких мероприятий, как оставаться дома, держать социальную дистанцию, ограничить деловую активность.

В научной статье также рассматривается финансовая политика, проводимая с целью устранения последствий пандемии коронавируса для экономики страны, с точки зрения обеспечения национальной и экономической безопасности, и анализируется текущая ситуация.

***Ключевые слова:*** *пандемия Covid-19, экономика Азербайджана, финансовая политика, финансовая поддержка, экономическая безопасность.*

**ŞAHİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

# BAKI-TBİLİSİ-QARS VƏ NAXÇIVAN DƏMİR YOLU XƏTTİNİN MÖVCUDLUĞUNUN NAXÇIVANA SİYASİ VƏ İQTİSADİ TƏSİRİ

*Məqalədə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması xüsusi strateji əhəmiyyət daşdığı vurğulanmışdır. Eyni zamnda Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin gerçəkləşməsi Naxçıvana həm iqtisadi həm də siyasi güc qatacağı ifadə edilmişdir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu lahiyyənin həyata keçməsi halında Naxçıvanın dünyaya açılması mümkün olacaqdı. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi, hər iki istiqamətdə daşımaların həcmini artıracaqdır.*

***Açar sözlər:*** *Naxçıvan, Qars, dəmir yolu, iqtisadiyyat, ixrac, layihə*

Bakı-Tbilisi-Qars (BTQ) dəmiryolu layihəsi 3 ölkənin - Türkiyə, Azərbaycan və Gürcüstanın birgə layihəsidir. Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı layihəsi barədə danışıqlara hələ 1993-cü il iyulun 26-29- da Türkiyənin paytaxtı Ankara şəhərində keçirilmiş Türkiyə-Gürcüstan Qarışıq Nəqliyyat Komissiyasının iclasında başlanılıb. 2002-ci il iyulun 20-21-də Türkiyənin İstanbul şəhərində Türkiyə-Gürcüstan nəqliyyat nazirlərinin iclasında bu layihənin həyata keçirilməsi barədə imzalanmış protokolda layihə üzrə hazırlıq işlərinin görülməsi planlaşdırıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il iyunun 14-də Gürcüstana rəsmi səfəri zamanı Gürcüstandan Türkiyəyə dəmir yolu tikintisinin layihəsini dəstəklədiyini bəyan etmiş və ölkəmizin də bu layihədə iştiraka hazır olduğunu bildirmişdir. Həmin vaxtdan etibarən layihənin reallaşması istiqamətində danışıqlar daha da intensivləşmiş, bu istiqamətdə bir sıra görüşlər keçirilmişdir. 2004-cü il 28 dekabr tarixində layihə ilə bağlı Birgə İşçi Qrupu yaradılmışdır. Dəmir yolu xəttinin təməli 2007-ci il noyabrın 21-də Gürcüstanın Marabda kəndində qoyuldu. Nəhayət, 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılış mərasimi reallaşdı [3].

Xatırladaq ki, Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə salınması xüsusi strateji əhəmiyyət daşıyırdı. Çünki Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amil idi. Ötən ilin oktyabrında dövlət başçılarının iştirakı ilə gerçəkləşən açılış mərasimində də qeyd olunduğu kimi, gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur. Bu da muxtar respublikanın nəqliyyat müstəqilliyinin təmin edilməsinə və Naxçıvanda istehsal olunan məhsulların xarici ölkələrə rahat daşınmasına əlverişli şərait yaradacaq. 2005-ci ilin ortalarında BTC əsas ixrac neft kəmərinin və 2007-ci ilin əvvəllərində isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismara başlaması ilə iki ölkə arasındakı iqtisadi əlaqələr daha da gücləndi. İqtisadi əlaqələrin güclənməsi isə nəticə etibarı ilə bu ölkələrin hərtərəfli tərəfdaşlığının daha da möhkəmlənməsi deməkdir. Azərbaycanın müstəqilliyinin və iqtisadi inkişafının ilk illərində və sonrakı inkişafı ölkəmizə yatırılan investisiyalar və alınan xarici kreditlər hesabına gercəkləşdi desək, heç də yanılmarıq. Qərb kapitalı, xüsusilə də türk kapitalının ölkəmizə vaxtında yeridilməsi, Azərbaycanın bugünkü nailiyyətinin özəyi olmuşdur desək yerinə düşər. Lakin Türkiyə və Qərbin böyük dövlətlərinin Azərbaycan iqtisadiyyatına investisiya qoyması isə heç də asan başa gəlməmişdir. Təbii ki, bunun üçün ölkədə ilk öncə investisiya iqlimi formalaşmalı və ölkə götürəcəyi öhdəlikləri üçün xüsusi etibar qazanmalı idi. Azərbaycan qısa müddət ərzində bu vəzifənin öhdəsindən gələ bilmişdi. Hadisələrin sonrakı inkişafı bunu deməyə əsas verir. Ən birinci investisiya iqliminin formalaşması üçün əsas şərt sayılan siyasi sabitliyə nail olunmuşdu. Daha sonra isə bu yatırımları həyata keçirmək üçün huquqi baza yaradılmışdı [2, s. 311].

Bakı-Tbilisi-Qars dəmir yolu Bosfor boğazında dəmir yolu tunelinin inşasını, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa Azərbaycan,

Gürcüstan və Türkiyə ərazilərindən keçməklə, Avropa və Asiyaya çıxarılmasının təmin etməsini nəzərdə tutan layihədir. Yəni dəmiryolu xətti vasitəsilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş əldə edəcək. Dəmiryolu ilə bir günə Qarsa getmək mümkün olacaq. Rəsmilərə görə, Bakı-Tbilisi-Qars dəmiryolu oradan da Naxçıvana çəkiləcək xətt, Bakı-Tbilisi-Ceyhan boru xəttindən sonra Azərbaycan iqtisadiyyatını daha inkişaf etdirəcək ikinci layihədir. Bir sözlə Bakı-Tbilisi-Qars dəmir yol xətti Azərbaycanın iqtisadi inkişafına dinamik təsir göstərəcəkdir.

Bu arada həm Azərbaycan həm də Türkiyə yetkililəri rəsmi dövlət səviyyəsində bəyan etdilər ki, Qarsdan Naxçıvana da (Qars-İğdır-Naxçıvan) dəmiryol xətti çəkilməlidir. Biz bir araşdırmacı kimi bu layihənin ölkəmizə, xüsusən də Naxçıvan Muxtar Respublikasına hansı siyasi və iqdisadi güc gətirəcəyinə nəzər salaq.

İlk öncə haqqında söz gedən dəmir yolu layihəsi (Qars-İğdır-Naxçıvan) hansı siyasi anlam daşıdığına baxaq. Çünki Naxçıvan blokada vəziyyətindədir. Ən əsası, ermənilər Naxçıvana da göz dikib və bunu heç gizlətmirlər [1, s. 23]. Belə bir dəmir yolunun açılması isə hərbi təcavüz halında Naxçıvana Türkiyədən hərbi xarakterli yüklərin daşınmasını daha da asanlaşdıra bilər. Nəzərə alsaq ki, artıq Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu da fəaliyyətdədir və o zaman yeni inşa olunacaq Qars-İğdır-Naxçıvan dəmir yolu vasitəsilə Bakı özü də Naxçıvanın müdafiəsi üçün hərbi yüklər göndərə bilər. Bu xüsusda layihəni Türkiyənin Naxçıvanla bağlı yeni planının tərkib hissəsi də saymaq olar. Göründüyü kimi, Ermənistan özünün işğalçı siyasətinin girovu olaraq qalmaqda və buna görə ağır bədəl ödəməkdə davam edir. Halbuki Yerevan təkcə Naxçıvan marşrutu, Türkiyə hesabına xeyli dərəcədə ucuz tranzit problemini həll edə, əhalisi aclıq təhdidi altında yaşamazdı. Ancaq bu, bizim problem deyil, Ermənilərindir və ondan çıxış yolu bəlli [6]. Deməli bu layihə Naxçıvan Muxtar Respublikasını blokadadan çıxararaq, onun nəqliyyat müstəqilliyinin təmin edilməsində də mühüm rol oynayacaq. Belə ki, Ermənistanın Azərbaycana məlum təcavüzü nəticəsində paytaxt Bakını Naxçıvanla birləşdirən quru nəqliyyat kommunikasiyaları bağlanmışdır. Sərnişin daşımaları əsasən hava nəqliyyatının, yük daşımaları isə İran və Türkiyədən keçməklə avtomobil nəqliyyatının üzərinə düşmüş, tarixi dəmir yolu xətti isə regional və tranzit daşımalardan kənarda qalmışdır. Bu isə Naxçıvana ayrıca bir dəmir yolu qolunun çəkilməsini aktual bir məsələyə çevirir. Bununla da, Naxçıvan Muxtar Respublikasının nəqliyyat müstəqilliyi problemi tam təmin ediləcək və oradan da İrana keçid olan dəmir yolu xətti ilə bütün Yaxın Şərq regionuna çıxışı əldə olunacaqdır.

İqtisadi vəziyyətə nəzər salasaq görərik ki, bu layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət, vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından böyük əhəmiyyət kəsb edir. Bundan əlavə dəmir yolu xətti turizmin inkişafına da imkan yaradacaq, turistlərin Naxçıvana rahat gəliş-gedişinə şərait yaradılacaq. Eyni zamanda bu yolun Naxçıvana qədər uzadılması həmin əraziyə turların təşkil edilməsinə imkan yaradacaq. Təbii ki, Naxçıvan Azərbaycanın dilbər guşələrindən biridir. Bu da turistlərin sayında artım ilə müşahidə olunacaqdır. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi, hər iki istiqamətdə daşımaların həcmini artıracaqdır. Eyni zamanda, dəmir yolu xətti ilə yalnız yük qatarlarının deyil, sərnişin qatarlarının da hərəkəti təmin olunacaqdır [3]. Naxçıvanın Türkiyə ilə doğrudan dəmir yol bağlantısı olacaqdır [4, s. 95]. Bu dəmir yolu xəttii eyni zamanda Naxçıvanın dünyaya açılması deməkdir. Qeyd etmək lazımdır ki, Bakı-Tbilisi- Qars dəmir yol xətti vasitəsi ilə sərnişin və yük daşınmalarının təşkili, Naxçıvanın daha bir nəqliyyat dəhlisinə çıxışı deməkdir. Bu da Naxçıvan Muxtar Respublikası üçün mühüm strateji əhəmiyyəti olan hadisədir.

Bunlarla yanaşı, yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçdikdən sonra, nəticəsində yeni "Dəmir İpək yolu"nun bərpası mümkün olacaqdır. Bu layihə həyata keçdikdən sonra İran-İslam Respublikası ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına gətirilən və aparılan yüklərin daha ucuz qiymətə daşınması və səmərəli nəqliyyat marşrutları təmin ediləcəkdir. Bu yol nəinki Azərbaycanı Türkiyə ilə birləşdirəcək, eyni zamanda, Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu layihə Naxçıvanı Çin, Avropa ölkələri, eyni zamanda, Fars körfəzi ölkələri ilə birləşdirəcək. Layihənin həyata keçirilməsi ilə Naxçıvanın ixrac potensialı xeyli artacaq. Naxçıvan məhsullarının post-sovet ölkələrinə, eləcə də Avropa və Asiya ölkələrinə rahat və birbaşa çıxışı təmin

ediləcək. Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsinin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının ixrac imkanlarını artıracaq və Naxçıvanı bölgənin mühüm tranzit mərkəzinə çevirəcək. Beləliklə, iqtisadi səmərə baxımından bu yolun çox böyük önəmi olacaqdır. Eyni zamnda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr də bu imkanlardan əlbəttə ki, istifadə edəcəklər.

Naxçıvan iqtisadi əlaqələrinin intensivləşməsi üçün ilk növbədə istehsal sahələri məqsədyönlü şəkildə inkişaf etdirilir. Ulu Öndər Heydər Əliyevi həmişə ən çox düşündürən fikir Naxçıvan MR-ı blokada şəraitindən çıxartmaq olub və Bakı-Tiblis-Qars yolunun gələcəkdə Qars-İqdır-Naxçıvan dəmir yol şəbəkəsinə qoşulması və Naxçıvan MuxtarRespublikasının gələcəkdə Türkiyə ərazisindən keçməklə sərnişin və yüklərin Avropaya çıxarılmasını təmin etməklə yanaşı Avropaya inteqrasiya olunması və Naxçıvanda Azad İqtisadi zona yaradılması olub [5, s. 19]. Bir məsələni vurğulamaq istərdik ki, Sovetlər Birliyi dönəmində Naxçıvanın daş duzu, mineral suları, konserv və kənd təsərrüfatı, yüngül sənaye və digər ixracyönümlü məhsulları dəmir yolu vasitəsilə daşınıb. Hazırda isə muxtar respublikada minə yaxın çeşiddə məhsul istehsal olunsa da, onların bazara çıxış problemi var. Hazırda da bu məhsullara, eləcə də Naxçıvanın daş və travertin, həmçinin sement, mineral sularına və digər məhsullarına tələbat böyükdür. Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin icrası bu mənada muxtar respublika büdcəsinə böyük həcmdə vəsaitin daxil olmasına səbəb olacaq. Layihə, həmçinin mədənçilik, metallurgiya, maşınqayırma kimi vacib sahələrin də inkişafına təkan verəcək. Deməli, dəmir yolunun Naxçıvandan keçməsi BTQ-nin əhəmiyyətini daha da artıracaq. Çünki Naxçıvanın da bəlli bir iqtisadi potensialı var.

Son olaraq qeyd edə bilərik ki, bütün bunlar isə öz növbəsində Bakı-Tbilisi-Qars və Naxçıvana çəkiləcək dəmir yolu xətinin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləyir. Naxçıvanın iqtisadiyyatına xeyli miqdarda yaxşı mənada təsir edəcəkdir.

## ƏDƏBİYYAT


1. Aras O. Azerbaycan ekonomisi makro ekonomik ve sektörel analiz. Bakı: Kafqaz araşdırmaları yayını, 2003, 294 s. pdf
2. Cabbarova S. Naxçıvan Muxtar Respublika və Türkiyə arasında ticarət-iqtisadi əlaqələrinin inkişafi // Azərbaycan Milli elmlər Akademiyasi Naxçıvan Bölməsinin Xəbərləri, *İctimai və humanitar elmlər seriyası, 2017, № 1, s310-315*
3. Məmmədova N. Bakı Tbilisi Qars Şərqlə Qərb arasında “Dəmir ipək yolu”. “Xalq” qəzeti, 2017-ci il, 3 noyabr.
4. Oğan S. Bağımsızlığın onuncu yılında Azerbaycan ekonomisi ve Türkiye ile ekonomik ilişkileri. İstanbul: 2005, 241 s
5. Yadigarov T. Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. Bakı: “Avropa” nəşriyyatı, 2018, 350 s.
6. https://kafkassam.com/turkiyənin-yeni-naxcivan-plani-irəvan-təlasda.html.

**FLORA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*flora.kerimova.80.@mail.ru*

# TURİZMİN İDARƏ OLUNMASINDA ETİK DAVRANIŞ QAYDALARI

*Məqalədə turizmin idarə olunmasında etik davranış qaydalarının əhəmiyyətindən, milli və beynəlxalq səviyyədə xalqlar arasında qarşılıqlı anlaşma dostluq münasibətlərinin yaranmasından bəhs olunur. Ümumdünya Turizm Təşkilatının nizamnaməsində nəzərdə tutulan etik davranış kodeksləri, turistlərin öz davranışları ilə həm beynəlxalq, həm də milli səviyyədə xalqlar arasında qarşılıqlı anlaşmanın yaranması, dünya türizminin inkişafına töhfə verən əsas amillərdən biri kimi tədqiq edilir.*

***Açar sözlər:*** *idarəetmə, etika, davranış, Ümumdünya Turizm Təşkilatı, turizm, turist*

İdarəetmənin ən vacib elementlərindən sayılan “etika” yunanca “etos” sözündən olub adət, ənənə, xarakter, əxlaq, insan səxsiyyətinə və ətraf aləmə hörməti ifadə edir. İnsan davranışında etik qaydaların əsası olan etika əxlaq prinsiplərinin məcmusu kimi başa düşülür.

Çağdaş dünyamızda idarəetmənin əsas elementlərindən biri sayılan etika turizmin idarə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Etik turizm və məsuliyyətli turizm, bir turist kimi hərəkətlərinizin ətraf mühitə, yerli insanlara və yerli iqtisadiyyata təsirləri barədə düşünmək deməkdir. Dünyadakı bəzi yerlər həqiqətən turizmdən faydalanır və bəzi icmalar üçün turizm ticarəti əsas gəlir və iş mənbəyidir. Etik turizm, məsul tətilin və ziyarət ərazinizə hörmətlə yanaşmanın faydaları barədə məlumatlılığı artırmaq üçün kampaniyalarla turizm sənayesində daha da əhəmiyyətli hala gəlir.

Etik kodekslər son illərdə turizmin həm iş fəaliyyəti, həm də praktiki olaraq etik aspektini artırmaq üçün turizm sənayesinin, səfər edilən ölkələrdə turistlərin etik pozuntuların qarşını almaq məqsədilə hazırlanmışdır. Bir neçə beynəlxalq turizm təşkilatları etik kodekslər hazırlamışdır. Onların irəli sürdükləri təkliflər spesifik standartlarla əhatələnmişdir.

Beynəlxalq təşkilatlar turizm sənayesinin müxtəlifliyini və ölçülərini əks etdirir ki, bu da turizm fəaliyyətinin bütün aspektləri üçün ümumi olan bir etik kodeksi yaratmağı mümkünsüz edir. Bununla yanaşı, hər bir etik kodeks də ümumi cəhətləri özündə ehtiva edir:

- Birincisi, turizm sənayesi daha çox məhdud bir qaynağa, təbii mühitə əsaslanır. Bu səbəbdən davamlı inkişaf böyüməyə məhdudiyyətlər qoymağı tələb edir;
- İkincisi, turizm sənayesi icma əsaslıdır və turizmin inkişafının sosial-mədəni xərclərinə daha çox diqqət yetirilməlidir;
- Üçüncüsü, turizm **s**ənayesi xidmət yönümlüdür və həm işçilərə həm də müştərilərə etik davranış göstərilməlidir.

1999-cu ildə Santyaqoda konfrans zamanı Dünya Turizm Təşkilatı tərəfindən qəbul edilmiş Qlobal Turizm Etik Qaydaları bu prinsiplərə uyğundur. Məcəllə dünya turizminin məsuliyyətli və davamlı inkişafı üçün istinad çərçivəsini müəyyənləşdirir.

Turist səyahətləri zamanı ölkələrin təbiətinin, mədəni irsinin qorunması Dünya Turizm Təşkilatının bütün bəşəriyyət üçün təsdiq etdiyi Turizmin Qlobal Etik Kodeksi adlı sənədlə tənzimlənir. Bu sənəddə turizm səfərlərini təşkil edən qurumlara da, istirahətə gedən şəxslərə də ilk öncə torpağa, təbiətə və mədəni irsə xələl gətirməmək tövsiyə olunur.

Qeyd etmək yerinə düşər ki, bu məsələdə bütün turizm şirkətləri Turizmin Qlobal Etik Kodeksinə riayət etməlidirlər. Turistlər öz istirahətlərini daha rəngarəng keçirmək üçün mənzərəli yerlərdə istirahət etməyə üstünlük verirlər. Hər bir turist getidiyi ölkədə bu gözəl mənzərəyə, gözəl təbiətə xələl gətirməməlidir.

Turizmin idarəolunmasında etik qaydalarına əsasən, qadınlar və kişilər arasında bərabərliyə hörmət göstərilməli eyni zamanda insan haqlarına, xüsusilə uşaqlar, qocalar, əlillər və etnik azlıqlar kimi həssas qrupların fərdi hüquqlarına hörmət edilməlidir.

Qeyd etmək yerinə düşər ki, turizm inkişaf, qarşılıqlı dözümlülük, mədəniyyətlər və cəmiyyətlər arasında müxtəliflik baxımından əvəzolunmaz bir vasitədir.

Mədəni davranış və turizm arasında bağlılıq “mədəni turizm” anlayışının meydana çıxmasına səbəb oldu. BMT-nin Ümumdünya Turizm Təşkilatının “Turizmdə anlayışlar” sənədinə əsasən “Dünyanın dəyərlərinə birbaşa və fərdi giriş, kəşf və gözəllikdən zövq almaq bütün insanlar üçün bərabərdir. Milli və beynəlxalq turizm fəaliyyətlərində artan iştirak, asudə vaxtın ən yaxşı ifadələrindən biri kimi görülməli və qarşısında duran əngəllər aradan qaldırılmalıdır.”

Dövlətlər turistlərə inzibati və hüquqi xidmətlərə, habelə konsulluqların nümayəndələrinə sürətli çıxış imkanı yaradır, daxili və xarici ictimai rabitə ilə təmin edir. Eyni zamanda isə öz ölkələrinin vətəndaşlarına və xarici turistlərə ərazinin müəyyən ərazilərinə münasibətdə milli maraqlarda qəbul edilən istənilən məhdudlaşdırıcı tədbirlərə xələl gətirmədən ölkə daxilində sərbəst hərəkət etməyə icazə verməlidirlər və turistlərə qarşı ayrı-seçkilik tədbirlərinə yol verməməlidirlər.

Ümumiyyətlə tranzit və müvəqqəti yaşayış yerlərində yerli əhalinin adətlərini öyrənmək üçün turistlərə şərait yaratmaq və məlumat vermək vacib şərtlərdən biridir.

Yerli əhalinin adət-ənənələri, ənənəvi və dini fəaliyyətləri, yerli qadağalar, hörmət edilməli olan müqəddəs yerlər və ziyarətgahlar haqqında, qorunub saxlanılmalı olan bədii, arxeoloji və mədəni dəyərlər haqqında, qorunmalı olan fauna, flora və digər təbii sərvətlər haqqında turistlər məlumatlandırılmalıdır. Çünki turistlərin əksəriyyəti səfər zamanı öz mənəvi ehtiyaclarını ödəməyə can atırlar.

Ümumdünya Turizm Təşkilatının nizamnaməsinin V maddəsində də bildirilir ki, turizm qonaq qəbul edən ölkələr və icmalar üçün faydalı fəaliyyət növü kimi yerli əhali turizm fəaliyyətlərinə cəlb edilməli və onların yaratdığı iqtisadi, sosial və mədəni faydalardan, bərabərlik şəraitində, xüsusən birbaşa və ya dolayı yolla turist fəaliyyətləri ilə əlaqədar yaranan iş yerlərindən yararlanmalıdır.

Turizm siyasəti elə tətbiq edilməlidir ki, qonaq qəbul edən regionların əhalisinin yaşayış standartlarının yüksəlməsinə və onların ehtiyaclarının ödənməsinə yardım edə bilsin. Turizm və istirahət obyektlərinin planlaşdırılması, istismarı, memarlıq yanaşması onların sosial-iqtisadi mühitə maksimum dərəcədə inteqrasiyasına yönəlməlidir; bacarıqlar eyni olduğu təqdirdə yerli işçi qüvvəsinə üstünlük verilməlidir (1).

Turizmin idarəolunmasında əsas işlərdən biri də turist menecerlərinin üzərinə düşür. Turizm menecerləri vəzifələri çərçivəsində, onlardan xidmət alan insanların təhlükəsizliyini, qorunmasını, qəzaların qarşısının alınmasını, sağlamlığının qorunmasını təmin etmək üçün dövlət orqanları ilə əməkdaşlıq edirlər. Ümumdünya Turizm Təşkilatının nizamnaməsinin 6-cı maddəsində də qeyd olunur ki, “Turizm menecerləri, getdikləri yer, səyahət şərtləri və yerləşmə imkanları haqqında turistlərə obyektiv və etibarlı məlumat vermək məcburiyyətindədirlər. Müqavilədə söz verilmiş xidmətin qiyməti və keyfiyyəti ilə bağlı müqavilə müddəaları birtərəfli qaydada yerinə yetirilmədiyi təqdirdə ödəniləcək təzminatla bağlı aydın və asan başa düşülən müddəalar olmalıdır”. Nizamnamənin 10-cu maddəsində isə bildirilir ki, “Turizmin inkişafı ilə məşğul olan dövlət və özəl sektor nümayəndələri qlobal etika kodekslərinin həyata keçirilməsində əməkdaşlıq etməlidirlər” (1).

Turizmin inkişafında iştirak edən bütün tərəflər beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatlarının, xüsusilə Dünya Turizm Təşkilatının turizm, insan hüquqları, ətraf mühit və sağlamlığın inkişafında beynəlxalq qanunlarla əlaqədar rolunu tanımalıdırlar (1).

Ölkəmizdə turizm sektoru Ümumdünya Turizm Təşkilatının 1999-cu ildə qəbul etdiyi ümumdünya turizm etikası kodeksinə əsaslanır. Bu turizm fəaliyyəti ilə məşğul olanlar üçün, turizmin inkişafında maraqlı dövlətlər və eyni zamanda da turistlər üçün təməl bir sənəddir. Bu sənəddə maddələrin hər biri özündə turizmin inkişafı üçün nələri etmək lazım olduğunu ehtiva edir. Kodeksdə turizmin xalqlar və cəmiyyətlər arasında qarşılıqlı anlaşma və hörmətə töhfəsi, turizm fərdi və kollektiv təkmilləşmə amilidir, turizm davamlı inkişaf amili, turizm bəşəriyyətin mədəni irsindən istifadə edən və onun zənginləşməsinə töhfəsini verən sahədir, turizm yerli əhali üçün faydalı fəaliyyətdir. Burada turizm prosesi iştirakçılarının vəzifələri, turizm hüququ, turizm səyahətlərinin azadlığı, turizm sənayesi işçiləri və sahibkarlarının hüquqları, turizmin etik kodeksinin prinsiplərinin

gerçəkləşdirilməsi ilə bağlı maddələr yer alıb. Bunlar, ümumilikdə turizm prosesi iştirakçılarının vəzifələrini, turistlərin və turizm subyektlərinin hüquqları, yerli əhalinin turizm fəaliyyətinə cəlb edilməsi, turizm növlərinin təşviqi və s. məsələləri özündə ehtiva edir (2).

Məqalədən belə bir nəticəyə gəlmək olar ki, turizmin idarə olunmasında idarəçilik mədəniyyətinin formalaşdırılmasını şərtləndirən cəhətlərdən, ən başlıcası hər bir turist öz davranışı ilə etik davranış qaydalarına əməl olunması nümunəsi göstərməsidir.

Ölkəmizdə turizmin idarə olunmasında qeyd olunan Ümumdünya Turizm Təşkilatının tövsiyələrinə uyğun olan, dünya təcrübəsinə cavab verən etik davranış kodeksləri tətbiq olunmaqdadır.

## ƏDƏBİYYAT

1.UNWTO/World Tourism Organisation (2007b). Global Code of Ethics. Available at http://www.unwto.org/code_ethics/eng/global.htm (accessed on 16/07/2007)

2. http://kaspi.az/az/turizm-sektorunun-etik-kodeksi-yaradildi

## SUMMARY

**Flora Karimova**

## RULES OF ETHICAL CONDUCT IN TOURISM MANAGEMENT

The article discusses the importance of the rules of ethical conduct in the management of tourism,the establishment of friendly relations of mutual understanding between peoples at the national and international levels. The codes of ethical conduct provided for in the charter of the World Tourism Organization are studied as one of the main factors contributing to the development of world tourism, the emergence of mutual understanding between tourists and their behavior, both internationally and nationally.

***Key words:*** *management, ethics, behavior World Tourism Organization, tourism, tourist*

## РЕЗЮМЕ

**Флора Каримова**

## ПРАВИЛА ЭТИЧЕСКОГО ПОВЕДЕНИЯ В ТУРИСТИЧЕСКОМ МЕНЕДЖМЕНТЕ

В статье обсуждается важность этичного поведения в менеджменте туризма, установлении дружеских отношений взаимопонимания между народами на национальном и международном уровнях. Кодексы этики, предусмотренные в уставе Всемирной туристской организации, изучаются как один из основных факторов, способствующих развитию мирового туризма, возникновению взаимопонимания между туристами и их поведением как на международном, так и на национальном уровне.

***Ключевые слова:*** *управление, этика, поведение, Всемирная туристическая организация, туризм, турист*

**BULQEYİS NOVRUZOVA**
*Naxçıvan MR Maliyyə Nazirliyinin şöbə müdiri*
*bulqeyis@yahoo.com*

# DÖVLƏTİN MALİYYƏ SİYASƏTİ İQTİSADİ İNKİŞAFIN MÜHÜM AMİLİ KİMİ

*Azərbaycanın maliyyə siyasəti dövlətin maliyyə resurslarının toplanması, bölüşdürülməsi və istifadəsi ilə əlaqədar həyata keçirdiyi tədbirlərin məcmusundan ibarət olub ictimai həyatın bütün tərəflərini, yəni həm iqtisadi, həm sosial və həm də beynəlxalq münasibətləri əhatə edir. Maliyyə siyasətinin başlıca subyekti kimi Azərbaycan dövləti perspektiv üçün maliyyə inkişafının əsas istiqamətlərinin strategiyasını, qarşıdakı dövrə fəaliyyət taktikasını, iqtisadi məsələlərə nail olmağın vasitə və yollarını müəyyən edir.*

*Maliyyə resurslarının istifadə edilməsinin əsas istiqamətlərinin hazırlanmasının məqsədi onlardan daha səmərəli istifadə edilməsindən ibarətdir. Buna isə hər şeydən əvvəl resursların üstün sahələrə və sosial sferaya bölüşdürmək yolu ilə nail olunur. Az maliyyə məsrəfi ilə daha yüksək nəticələrə nail olmaq həm bütövlükdə dövlət və həm də hər bir təsərrüfat subyekti üçün birinci dərəcəli vəzifə hesab edilir.*

*Məqalədə respublikamızda mövcud maliyyə münasibətlərinin elmi cəhətdən əsaslandırılmış tənzimlənməsi və qarşıya qoyulan məqsədlərə nail olunması üçün praktiki fəaliyyətin həyata keçirilməsi yolları, iqtisadiyyatın inkişafına maliyyənin təsirinin müəyyən edilməsi üçün maliyyə münasibətlərinin təşkili üsullarının məcmusu kimi müəyyən edilən səmərəli maliyyə mexanizminin zəruri fəaliyyət istiqamətləri, maliyyə tənzimlənməsinin üsulu kimi fiskal siyasətin vergiyə cəlbetmə və dövlət xərcləri kimi qüdrətli alətlərin yardımı ilə həyata keçirilməsi qaydaları nəzərdən keçirilmişdir. Məqalədə son illərdə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən maliyyə-büdcə siyasətinin nəticələri təhlil olunmuş və mövcud məhdud maliyyə resurslarından daha səmərəli və qənaətlə istifadə edilməsinin maliyyə sabitliyinin qorunmasında dövlətin hazırki maliyyə siyasətinin əsas tələblərindən biri olduğu qeyd edilmişdir.*

***Açar sözlər****: dövlət maliyyə siyasəti, maliyyə siyasətinin əsas istiqamətləri, maliyyə resurslarından istifadə, maliyyə mənbələri, maliyyə sabitliyi, maliyyə münasibətlərinin tənzimlənməsi, maliyyə mexanizmi, iqtisadi inkişaf istiqamətləri, vergi siyasəti, investisiya siyasəti, bank-kredit siyasəti, büdcə siyasəti, büdcə planlaşdırması, büdcə xərclərinin səmərəliliyi, büdcə gəlirlərinin bölgüsü*

Maliyyə siyasəti dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla cəmiyyətin iqtisadi və sosial inkişafına maliyyənin təsirini həyata keçirir. İctimai həyatın bütün tərəflərini, yəni həm iqtisadi, həm sosial, həm də beynəlxalq münasibətləri əhatə edən maliyyə siyasəti dövlətin öz funksiyalarını həyata keçirməsi üçün zəruri olan maliyyə resurslarının səfərbər edilməsinin, onların məqsədəuyğun bölüşdürülməsinin və səmərəli istifadə edilməsinin təmin edilməsinə yönəldilən tədbirlərin məcmusudur. Maliyyə siyasətinin subyekti olan dövlət, perspektiv üçün maliyyənin inkişaf strategiyasını, fəaliyyət taktikasını, iqtisadi inkişafa nail olmağın vasitə və yollarını müəyyən edir.

Maliyyə siyasətinin strategiya və taktikası qarşılıqlı surətdə əlaqədardır. Maliyyə strategiyası nisbi sabit olduğu halda maliyyə taktikası çevik olmalıdır. Maliyyə strategiyası – gələcək dövrlərdə irimiqyaslı məsələlərin həllini nəzərdə tutan maliyyə siyasətinin uzunmüddətli xəttidir. Maliyyə taktikası isə maliyyə strategiyasının ən mühüm sahələrində qarşıya çıxan maliyyə məsələlərinin həlli metodlarıdır.

Maliyyə məsələlərinin həllinə nail olmağa yönəldilən praktiki fəaliyyətin həyata keçirilməsi, iqtisadiyyatın inkişafına maliyyənin təsirinin müəyyən edilməsi üçün maliyyə münasibətlərinin təşkili üsullarının məcmusu olan səmərəli maliyyə mexanizminin fəaliyyəti zəruridir. Bu mexanizm özündə milli gəlirin bölgüsü metodlarını, dövlət büdcə fondlarının yaradılması üsullarını, məqsədli dövlət fondlarının yaradılması metodlarını, büdcəyə və məqsədli fondlara tədiyə ödənişlərinin

növlərini, maliyyə planlaşdırılmasını və proqnozlaşdırılmasını, maliyyə nəzarətini ehtiva edir.

XX əsrin ikinci yarısından başlayaraq maliyyə siyasətinin bir hissəsi olan, vergiqoymada və dövlət xərcləri sahəsində həyata keçirilən, dövlət xəzinəsinin doldurulmasına yönəldilən fiskal siyasət dövlət maliyyəsinin stabil iqtisadi inkişafının təmin edilməsində mühüm rol oynayaraq maliyyə tənzimlənməsinin üsulu kimi vergiyə cəlbetmə və büdcə xərcləri kimi alətlər vasitəsilə həyata keçirilir. Ümumiyyətlə, dövlət maliyə tənzimlənməsi alətləri içərisində vergilər, gömrük rüsumları və tariflər əsas rol oynayır. Onların köməyi ilə müəssisələrin rentabellik səviyyəsi və pul yığımlarının həcmi tənzimlənir, vergi güzəştləri sisteminin tətbiqi prioritet sahələrin inkişafına səbəb olur.

Müstəqil Azərbaycan dövlətinin maliyyə siyasətində perspektiv istiqamətlər 1995-ci ildən başlayaraq müəyyən edildi. Məhz bu dövrdən ölkədə maliyyə siyasəti müəssisələrin və vətəndaşların vergiyə cəlb edilməsinə, gömrük tariflərinin tənzimlənməsi və idarəetmə aparatının saxlanmasına dövlət xərclərinin ixtisar edilməsi yolu ilə büdcə kəsirinin azaldılmasına nail olmağa yönləndirildi. Həmçinin ölkədə vergiqoyma sisteminin təkmilləşdirilməsi və sadələşdirilməsi, vergilərin sayının azaldılması, inflyasiya səviyəsinin azaldılması, müəssisələrə sahibkarlıq fəaliyyətində sərbəstlik verilməsi, sənaye və kənd təsərrüfatının canlandırılması, istehsal və maliyyə münasibətlərinin sağlamlaşdırılması qabiliyyətində olan mütəxəssislərin hazırlanmasının genişəndirilməsi, iqtisadiyyatın sabitləşdirilməsi üzrə tədbirlərdə bankların və digər kredit idarələrinin rolunun artırılması, kredit münasibətləri sisteminin təkmilləşdirilməsi, istehsal və qeyri-istehsal sferalarında dövlət tədbirlərini maliyyələşdirmək üçün ölkənin maliyyə resurslarının xeyli hissəsinin dövlətin əlində (dövlət büdcəsində) təmərküzləşdirilməsi, dövlət büdcəsinin sosial yönümlülüyünün, sosial tələbatlara maliyyə resurslarının ayrılmasının təmin edilməsi kimi vəzifələr qarşıya qoyuldu.

Dövlət maliyyə siyasəti ilə qırılmaz surətdə əlaqədar olan investisiya siyasətinin həyata keçirilməsi prosesində investisiya fəaliyyətinin maliyyələşdirilməsində priorotet sahələrin müəyyən edilməsi, fəaliyyətdə olan müəssisələrin genişlənməsi və taktika ilə yenidən silahlanmasına, yəni ağırlıq mərkəzi yeni tikintidən müəssisələrin texnika ilə yenidən silahlanmasına və yenidən qurulmasına üstünlük verilməsi, iqtisadiyyatın həyati əhəmiyyətli sahələrində investisiya fəaliyyətinin həyata keçirilməsinə büdcədən subsidiya verilməsi, müəssisələrin mənfəətindən və amortizasiya ayırlmalarından yönəldilən vəsaitlərin investisiyalaşdırılması sahəsində onların hüquqlarının genişləndirilməsi, investisiyanın dövlət büdcəsi hesabına maliyyələşdirilməsinin getdikcə ixtisar edilməsi və müvafiq olaraq qeyri-dövlət investisiyalaşma sferasının artırılması kimi əsas istiqamətləri müəyyənləşdirildi. Ümumiyyətlə, investisiyanın maliyyələşdirilməsinə vəsaitin əsas hissəsinin qeyri-büdcə mənbələrindən, ilk növbədə isə müəssisə və əhalinin xüsusi vəsaitlərindən yönəldilməsi əsas götürüldü. Bu gün dövlətin investisiya siyasətinin əsas məqsədi investisiya fəaliyyəti üçün zəruri olan maliyyə resurslarının səfərbər edilməsindən, investisiya fəallığının aşağı düşməsinin qarşısının alınmasından və əsaslı vəsait qoyuluşunun səmərəliliyinin yüksəldilməsindən ibarətdir.

Məhz bu tədbirlərin həyata keçirilməsi ilə aparılan maliyyə siyasətinin uğurlu nəticədir ki, son illərdə ölkədə ilk növbədə maliyyə sabitliyinin yaranmasına, bir çox sahələrdə yüksək nailiyyətlər əldə edilməsinə nail olunmuşdur. Belə ki, maliyyə resurslarının bir hissəsinin dövlətin mərkəzləşdirilmiş fondlarında təmərküzləşməsi yolu ilə dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının formalaşması ordunun, məhkəmə, icra hakimiyyəti orqanlarının, təhsilin, səhiyyənin, mədəniyyət müəssisələrinin maliyyələşdirilməsinin təmin edilməsi və habelə dövlət və müdafiə təyinatlı obyektlərin tikintisi və məqsədyönlü fəaliyyəti üçün geniş imkanlar açır.

Maliyyə resurslarından daha səmərəli və qənaətlə istifadə edilməsi dövlətin hazırkı maliyyə siyasətinin əsas tələblərindən biridir. Ona görə də həm bütövlükdə dövlət və həm də hər bir təsərrüfat subyekti üçün az maliyyə məsrəfi ilə daha yüksək nəticələrə nail olunması mühüm vəzifə hesab olunur. Mövcud maliyyə resurslarının, hər şeydən əvvəl, daha prioritet sahələrə, xüsusilə sosial sferaya bölüşdürülməsi də bu tələbdən irəli gələn şərtdir. Bu gün Azərbaycanın maliyyə siyasəti dövlətin maliyyə resurslarının toplanması, bölüşdürülməsi və istifadəsi ilə əlaqədar həyata keçirdiyi tədbirlərin məcmusundan ibarət olmaqla ictimai həyatın bütün tərəflərini, yəni həm iqtisadi, həm sosial və həm də beynəlxalq münasibətləri əhatə edir.

Ölkə iqtisadiyyatının sabitləşdirilməsi üzrə tədbirlərdə bankların və bank olmayan kredit

təşkilatların rolu danılmazdır. Hazırda ölkənin bank sistemində həyata keçirilən islahatlar kredit münasibətləri sisteminin təkmilləşdirilməsinə və bu münasibətlərin inkişafına, həmçinin minimum haqla müəssisə və əhaliyə xidmət edilməsinə yönləndilmişdir ki, bu da istehsalın və xidmət sahəsinin inkişafını stimullaşdırır.

Qeyd edək ki, yalnız maliyyə münasibətlərinin təşkili üsullarının məcmusundan ibarət olan səmərəli maliyyə mexanizminin fəaliyyəti nəticəsində maliyyənin iqtisadiyyatın inkişafına arzuolunan təsirinə nail olmaq mümkündür. Ölkənin maliyyə siyasətinin həyata keçirilməsində mühüm rol oynayan maliyyə mexanizmi maliyyə resurslarının formalaşdırılması, onların bölüşdürülməsi və istifadəsi ilə bağlı olan qanunvericilik və normativ aktlar sistemini əhatə edir, dövlət gəlirlərinin və xərclərinin müəyyənləşdirilməsi, büdcənin təşkili, qiymətli kağızlar bazarının idarə olunması, maliyyənin planlaşdırılması və idarə olunması kimi məsələlərin həyata keçirilməsini özündə əks etdirir. Bazar münasibətləri şəraitində iqtisadi inkişafın mühüm amili olan rəqabət mühitinin formalaşmasında, sahələrarası və sahədaxili iqtisadi münasibətlərin dayanıqlığının təmin edilməsində iqtisadi-maliyyə mexanizminin əhəmiyyəti böyükdür.

Ölkə iqtisadiyyatında maliyyə tənzimlənməsinin həyata keçirilməsində maliyyə mexanizmi onun ən mühüm və səmərəli aləti olan vergilərin tətbiqi formasında təzahür etmiş olur. Hazırda ölkə daxilində mövcud müəssisə və fiziki şəxslərə qarşı vergiqoyma sisteminin daha da təkmilləşdirilməsi, tətbiq olunan vergilərin sayının azaldılması və sadələşdirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Məlumdur ki, istənilən dövlətin iqtisadi inkişafında dayanıqlı artım templərinə və həyata keçirilən islahatların yüksək səmərəliliyinə nail olunmasının əsas şərti iqtisadi siyasətin əsas faktorlardan biri olan büdcə siyasətinin düzgün yönləndirilməsidir. Hər bir konkret tarixi dövrdə cəmiyyətin idarə edilməsi, dövlətin iqtisadi-sosial və siyasi vəzifələrinin həyata keçirilməsi məqsədilə onun mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaradılması və məqsədəuyğun istifadəsi ilə əlaqədar olaraq həyata keçirdiyi tədbirlər sistemi maliyyə-büdcə siyasətini formalaşdırır. Maliyyə vəsaitinin toplanması və istifadəsi zamanı dövlətlə hüquqi və fiziki şəxslər arasında müəyyən yaranan maliyyə münasibətləri də maliyyə-büdcə siyasəti vasitəsilə tənzimlənir.

Bu gün ölkədə həyata keçirilən büdcə siyasəti Azərbaycanda maliyyə sabitliyinin saxlanılmasını, inflyasiyanın səviyyəsinin tənzimlənməsini, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin təmin olunmasını əsas məqsəd kimi qarşıya qoyur. Məhz bu məqsədlə iqtisadi cəhətdən tam şəkildə əsaslandırılmış büdcə proqnozları tərtib olunur və vergilərin real yığılma imkanları düzgün qiymətləndirilir, büdcənin gəlir və xərcləri tarazlaşdırılır, dinamik iqtisadi inkişafı təmin etməklə büdcə gəlirlərinin artırılması imkanları müəyyən edilir. Bununla yanaşı, vergi borclarının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergidən yayınma hallarının qarşısının alınması və vergi nəzarətinin gücləndirilməsi məqsədilə vergi qanunvericiliyi təkmilləşdirilir, büdcə xərclərində əhalinin sosial müdafiəsi və sosial təminata, səhiyyəyə, təhsilə, elmə, tikintiyə və s. Sosialyönümlü məqsədlərə ayrılan vəsaitlərın payı mütəmadi olaraq artırılır. Həmçinin dövlət, dəqiq və düşünülmüş büdcə siyasəti nəticəsində nəzərdə tutulan iqtisadi və sosial layihələri reallaşdırmaq məqsədilə lazımi miqdarda maliyyə vəsaitini səfərbərliyə alır və həmin vəsaitlərdən olduqca səmərəli bir şəkildə istifadə edir (4).

Son illər ölkədə həyata keçirilən maliyyə siyasətinin uğurlu nəticələri Naxçıvan Muxtar Respublikasından da yan keçməmişdir. Belə ki, muxtar respublikanın yerli dövlət və hökumət orqanlarının birgə məqsədyönlü fəaliyyəti bu ərazidə həyata keçirilən səmərəli maliyyə-büdcə siyasətinin reallaşdırılmasına və məhdud maliyyə imkanları ilə muxtar respublika iqtisadiyyatının inkişafına, sosial infrastruktur sahələrinin genişləndirilməsinə, şəhər və kəndlərinin abadlaşdırılmasına, əhalisinin maddi rifahının yaxşılaşdırılmasına imkan yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsində bir çox sahələr, xüsusilə sosial sahələr prioritet istiqamət kimi götürülmüş və onun sosial yönümlülüyü saxlanılmışdır. Belə ki, büdcədə sosial yönlü xərclərin xüsusi çəkisi 70,2 faiz səviyyəsində və ya 338 milyon 223 min manat məbləğində nəzərdə tutulur ki, bu da 2019-cu illə müqayisədə 35,1 faiz və ya 87 milyon 899 min manat çoxdur. Bu isə o deməkdir ki, əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının

yaxşılaşdırılması dövlətin əsas maliyyə bazası olan yerli büdcədən formalaşacaq (7).

2020-ci il dövlət büdcəsinin gəlirləri daxilolmalar hesabına 113,2 milyon manat müəyyənləşdirilmişdir ki, bunun da 75,6 faizi Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin, 21,8 faizi Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin, 2,6 faizi isə büdcə təşkilatlarının ödənişli xidmətlərinin payına düşür. Büdcə gəlirlərinin ötən illərə nisbətən əsaslı şəkildə artırılması muxtar respublikada münbit iqtisadi şəraitin mövcudluğu ilə əlaqəlidir. Əgər 2020-ci il dövlət büdcəsini 2019-cu il büdcəsi ilə müqayisə etsək növbəti ilin dövlət büdcəsinin gəlirlərinin ötən illə müqayisədə 35,8 faiz və ya 29 milyon 860 min manat artıq nəzərdə tutulduğunu görərik. Qeyd etmək lazımdır ki, muxtar respublikada ümumi daxili məhsulun həcminin artması, real sektorun inkişafı, kiçik və orta sahibkarlığa göstərilən dövlət dəstəyi dövlət büdcəsi gəlirlərinin artımının əsasını təşkil edir (7).

Cari ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri isə 482 milyon 90 min manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da 2019-cu ilin büdcə xərcləri ilə müqayisədə 98 milyon 390 min manat və ya 25,6 faiz çoxdur və bu artımın 30,3 faizi muxtar respublikanın yerli yığımları hesabına mümkün olacaqdır. Muxtar respublikanın yalnız iki rayonu: Şahbuz və Sədərək rayonları büdcələrinin yerli gəlir və xərclərini tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən dotasiya alacaqdır. Onu da qeyd edək ki, muxtar respublikanın rayonlarının yerli xərcləri ölkə üzrə göstəricilərdən kifayət qədər aşağıdır. Belə ki, ölkənin 73 rayonu üzrə yerli xərcləri ən aşağı olan 10 rayon büdcəsindən 6-sı muxtar respublikanın yerli büdcələridir. Ölkə üzrə adambaşına düşən büdcə xərclərinin ən aşağı olduğu 15 rayondan 3-ü muxtar respublikanın rayonlarıdır (Şərur, Babək, Culfa).

Muxtar respublikanın şəhər və rayonlarının yerli gəlirləri də ölkənin digər regionları ilə müqayisədə yüksək göstəricilərə malikdir. Belə ki, Naxçıvan şəhəri ölkə üzrə 64 şəhər və rayondan əvvəldə olaraq 9-cu sıradadır. Bir digər əhəmiyyətli göstərici olan adambaşına düşən büdcə gəlirləri üzrə də Naxçıvan şəhəri 244 manatla ölkənin şəhər və rayonları arasında ilk 5-ci sıradadır.

Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq muxtar respublikada dövlət tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən tədbirlər, xüsusilə iqtisadiyyata yeni investisiya qoyuluşlarının həcminin artması, kənd təsərrüfatının, sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması və digər layihələrin icrası büdcənin bu istiqamətlər üzrə maliyyə yükünün artırılmasını tələb edir. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi üçün büdcədə 18 milyon 800 min manat məbləğində vəsait nəzərdə tutulmuşdur ki, bu da 2019-cu ilə nisbətən 56,7 faiz və ya 6 milyon 800 min manat çoxdur.

Bundan fərqli olaraq səhiyyə bölməsinə ümumi xərclərin 2,7 faizi həcmində, yəni 13 milyon 70 min 880 manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, bu da 2019-cu ildəki analoji rəqəmdən 25 milyon 193 min 762 manat azdır. Bu azalma 2020-ci ildən başlayaraq muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədardır.

Qeyd olunan göstəricilər bir daha göstərir ki, muxtar respublikanın 2020-ci il üçün dövlət büdcəsi hazırlanarkən çox ciddi araşdırmalar aparılmış, Azərbaycan Respublikasının dövlət büdcəsindən alınan dotasiyanın həcminin çox da artırılmaması şərtilə əsassız xərclərin qarşısının alınması hesabına, qənaətcillik və ünvanlılıq prinsipləri rəhbər tutularaq maliyyələşdirilmə istiqamətləri və məbləğləri müəyyənləşdirilmişdir.

Məhz muxtar respublikada aparılan uğurlu maliyyə-büdcə siyasətinin nəticəsidir ki, cari ilin yanvar-iyul aylarında 1 milyard 574 milyon 282 min 900 manatlıq, keçən ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çox ümumi daxili məhsul istehsalına nail olunmuş, hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 3421 manat olmuşdur. ÜDM-nin tərkibində sənaye məhsulunun həcmi 648 milyon 741 min 200 manat, kənd təsərrüfatı məhsullarının həcmi isə 256 milyon 287 min 600 manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 0,9 faiz və 3,5 faiz çoxdur.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi və yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 127-si ərzaq və 257-si isə qeyri-ərzaq məhsulları olmaqla cəmi 384 növdə məhsul istehsal olunmaqdadır. Hazırda əhalinin 350 növdə məhsula (108 adda ərzaq və 242 adda qeyri-ərzaq) olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir. İqtisadiyyatda bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 2019-cu ilin müvafiq dövrü ilə

müqayisədə 16,8 faiz artaraq 525 manata çatmışdır.

Muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 594 milyon 960 min 600 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Bu vəsaitin 568 milyon 785 min 800 manatı və ya 95,6 faizi tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə yönəldilmişdir. Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə bir il öncəki göstəricidən 1,6 dəfə çox 100 milyon 40 min 100 manat məbləğində, yəni bir il öncəki göstəricidən 1,6 dəfə çox kreditlər verilmişdir.

Muxtar respublika iqtisadiyyatının dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, hesabat dövründə xarici ticarət dövriyyəsinin həcmi 256 milyon 878 min 100 ABŞ dolları təşkil etmişdir. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 223 milyon 138 min 900 ABŞ dolları həcmində olmuş, 189 milyon 399 min 700 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır (9).

İqtisadiyyatımızın bu dinamik və davamlı inkişafı yalnız muxtar respublikaya dövlət büdcəsindən ayrılan məhdud həcmdə maliyyə subsidiyalarından və əldə olunmuş yerli gəlirlərdən maksimum qənaətlə və israfçılığa yol verilmədən həyata keçirilməsini əldə rəhbər tutan düzgün və dəqiq maliyyə siyasətinin reallaşdırılması ilə mümkündür. Büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə nəzarətin təşkili və büdcənin icrası istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi gələcəkdə də muxtar respublikada bütün sahələr üzrə uğurlu inkişafa nail olunmasına imkan yaradacaqdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə "Strateji Yol Xəritəsi", Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı
2. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli 500 nömrəli Fərmanı
3. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı
4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu, 2002-ci il, № 358-IIQ
5. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" icrası uğurla davam etdirilir, Şərq qapısı qəzeti, 21.08.2020, *http://www.serqqapisi.az /index.php/iqtisadiyyat/25758*
6. Rauf Kəngərli. Naxçıvan - dayanıqlı sosial-iqtisadi inkişaf, keçmişə hörmət, gələcəyə inam. 09.06.2020, Naxçıvan, AZƏRTAC
7. Ramal Məmişov. Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsi muxtar respublikanın uğurlu inkişafına hesablanıb. 27.12.2019, *https://nuhcixan.az/ news/ iqtisadiyyat/24012*
8. Emin Qasımov "Büdcə siyasəti iqtisadi inkişafın mühüm amilidir", Respublika qəzeti, 11 Yanvar 2014, *http://respublica-news.az/index.php/iqtisadiyyat/item/1719*
9. 2020-ci ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti, *https://naxcivanxeberleri.com/manset/40196*


## SUMMARY

**Bulqeyis Novruzova**

## PUBLIC FINANCIAL POLICY AS AN IMPORTANT FACTOR IN ECONOMIC DEVELOPMENT

Azerbaijan's financial policy consists of a set of measures taken by the state to collect, distribute and use financial resources, covering all aspects of public life, i.e. economic, social and international relations. As the main subject of financial policy, the Azerbaijani state determines the strategy of the main directions of financial development for the future, the tactics of the forthcoming period, the means and ways to achieve economic issues.

The purpose of main directions developing of the use of financial resources is to use them more efficiently. This is achieved, first of all, by allocating resources to the priority areas and the social sphere. Achieving higher results at lower financial cost is a priority for both the state as a whole and each business entity.

The article describes the ways of scientifically substantiated regulation of financial relations in the country and ways to implement practical activities to achieve the set goals, the necessary activities of the effective financial mechanism as a set of methods of organizing financial relations to determine the impact of finance on economic development, the rules for implementing fiscal policy with the help of powerful tools such as taxation and public spending as a method of financial regulation were considered.

The article analyzes the results of fiscal policy implemented in the Nakhchivan Autonomous Republic in recent years and notes that more efficient and economical use of available limited financial resources is one of the main requirements of the current financial policy of the state in maintaining financial stability.

***Key words:*** *financial policy of state, main directions of financial policy, use of financial resources, financial sources, financial stability, regulation of financial relations, financial mechanism, directions of economic development, tax policy, investment policy, bank-credit policy, budget policy, budget planning, budget expenditure efficiency, distribution of budget revenues*

## РЕЗЮМЕ

**Булгейис Новрузова**

## ГОСУДАРСТВЕННАЯ ФИНАНСОВАЯ ПОЛИТИКА КАК ВАЖНЫЙ ФАКТОР ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ

Финансовая политика Азербайджана состоит из комплекса мер, принимаемых государством для сбора, распределения и использования финансовых ресурсов, охватывающих все аспекты общественной жизни, то есть экономические, социальные и международные отношения. зербайджанское государство как главный субъект финансовой политики определяет стратегию основных направлений финансового развития на будущее, тактику предстоящего периода, средства и пути достижения экономических задач.

Целью разработки основных направлений использования финансовых ресурсов является их более эффективное использование. Это достигается, прежде всего, за счет выделения ресурсов на приоритетные направления и социальную сферу. Достижение более высоких результатов при меньших финансовых затратах является приоритетом как для государства в целом, так и для каждого субъекта хозяйствования.

В статье описаны способы проведения практических мероприятий по научному обоснованию существующих финансовых отношений в стране и достижения поставленных целей, рассмотрены необходимые действия эффективного финансового механизма как совокупности методов организации финансовых отношений для определения влияния финансов на экономическое развитие и правила реализации фискальной политики с помощью таких мощных инструментов, как налогообложение и государственные расходы как метод финансового регулирования. В статье анализированы результаты налогово-бюджетной политики, проводимой в Нахичеванской Автономной Республике за последние годы, и отмечен, что более эффективное и экономное использование имеющихся ограниченных финансовых ресурсов является одним из основных требований текущей финансовой политики государства в поддержании финансовой стабильности.

***Ключевые слова:*** *государственная финансовая политика, основные направления финансовой политики, использование финансовых ресурсов, финансовые источники, финансовая стабильность, регулирование финансовых отношений, финансовый механизм, направления экономического развития, налоговая политика, инвестиционная политика, банковско-кредитная политика, бюджетная политика, бюджетное планирование, эффективность бюджетных расходов , распределение доходов бюджета.*

**ƏLİ CABBAROV**
*Naxçıvan Dövlət Universiteti*
*ali.j@ndu.edu.az*
*alijabbarov@yahoo.com*

# QLOBAL PANDEMİYA ŞƏRAİTİNDƏ DAXİLİ TURİZMİN İNKİŞAF MƏSƏLƏLƏRİ

*Daxili turizm turizmin tiplərindən biri kimi həmişə diqqət mərkəzində olub. Bu turizm tipi üzrə müxtəlif növ turizm səyahətləri hazırlanarkən təşkilati və təhlükəsizlik məsələlərinin sadəliyi turizm sahibkarları üçün əlavə imkanlar açır. 2020-ci ildə dünyada pandemiyaya səbəb olmuş COVID-19 virusu nəticəsində ölkələrarası beynəlxalq turizm səyahətlərinin zəifləməsi ilə daxili turizmə kəskin marağın artması buradakı problemlərin həlli məsələlərini də aktual edir.*

***Açar sözlər:*** *daxili turizm; koronovirus pandemiyası; təhlükəsizlik; sosial məsafəli turizm*

Turizm qlobal təhükələrə həssas sahədir. 2020-ci ilin martında bütün dünya ölkələrinə yayılmış və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də qlobal pendemiya elan olunmuş koronovirus infeksiyası şəraitində turizmin inkişafı da maraq doğuran məsələlərdəndir. Bu istiqamətdə bir çox dövlətlərdə olduğu kimi ölkəmizdə, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da daxili turizmin inkişafı perspektiv məqsədlər arasında yer almaqdadır. Xüsusən Azərbaycan Respublikası hökumətinin qərarı ilə sosial məsafə şərtləri daxilində turların təşkilinə başlanılması daxili turizm üzrə mövcud resurslarımızdan maksimum istifadə məsələlərini gündəmə gətirir. Çünki, turizm və rekreasiya istənilən şərtlər daxilində hər bir insanın əsas tələbatlarından biridir.

Beynəlxalq turizmdən fərqli olaraq daxili turizm sırf ölkə daxilndə həyata keçirilən səyahətlər hesabına formalaşır. Valyuta gəlirləri gətirməsə də daxili turizm getmə turizmdən ölkənin itirdiyi vayluta vəsaitlərinin qarşısını aldığı üçün idxal əvəzləyən turizm tipi də hesab olunur. Bundan əlavə daxili turizmdən qazanılan təcrübə daha sonra gəlmə turizmin də inkişafı üçün baza rolunu oynayır. Daxili turizmin beynəlxalq turizmlə müqayisədə üstün cəhətlərindən biri də burada mövsümilik amilinin çox da kəskin səviyyədə olmamasıdır. [2]

Bundan başqa, əcnəbi turistlərin səfərləri zamanı zəruri olan bir sıra ciddi rəsmiyyətçilik və tənzimləmə tədbirlərinə ehtiyac duyulmayan daxili turizmdə başqa ölkələrdən gələ biləcək hər hansı təhlükənin, o cümlədən turistlərin daşıyıcısı ola biləcəyi kəskin yoluxucu xəstəliklərin yayılması riski olduqca aşağıdır. Ona görə də "Koronovirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamında daxili turizmin də bundan sonrakı dövrdə prioritet olacağı göstərilib, digər sahələrlə yanaşı, bu sahənin inkişafının dövlət tərəfindən dəstəklənməsi və özəl investisiyaların cəlb olunmasının təşviq edilməsi məqsədəuyğun hesab edilib [1].

Daxili turizm ölkə daxilində baş verir. Daxili turizmin inkişafı ölkə iqtisadıyyatının inkişafında mühüm rol oynayır. Beynəlxalq turizmin ölkədə inkişafı, başqa sahələrin də inkişafına təkan verir. Bu həm də beynəlxalq turizmə aiddir. Daxili turizmin inkişafı, xüsusən gəlmə turizmin inkişafına zəmin yaradır. Belə ki, daxili turizm ölkədə zəruri infrastrukturun yaradılmasını şərtləndirir həmin infrastrukturdan ölkəyə gələn əcnəbi turistlər də istifadə edirlər

Daxili turizm dünyanın ən çox 10 turist qəbul edən ölkələrində də mühüm yer tutur. Həm də bunların tərkibinə yeni ölkələr əlavə olunur. Məsələn, Çin, ABŞ kimi ölkələrdə də daxili turizmə ciddi fikir verilir. hərəkatının aktivliyi maliyyə cəhətdən çox vacibdir. Pandemiya öncəsi proqnozlara görə 25 ildən sonra inkişaf etmiş ölkələr daxili turizm inkişafında zirvəyə çatacaqlar. Daxili turizmin inkişafı əsas Asiyanın, Latın Amerikasının, Yaxın Şərqin və Afrikanın hesabına baş verəcəkdir, bu

ölkələrdə daxili turizmlə məşğul olan əhalinin payı çoxalacaqdır. [7]

Qeyd olunduğu kimi, daxili turizmə olan yüksək tələb beynəlxalq turizmin inkişafı üçün əlverişli şərait yaradır və bu səbəbdən daxili turizmi effektiv şəkildə inkişaf etdirən regionlar, bir qayda olaraq xarici turistlərin ehtiyaclarını keyfiyyətli formada ödəyir və öz resurs-ərazi potensialını effektiv şəkildə istifadə edirlər [4]. Turizm sənayesi əməktutumlu olduğu üçün onun məhsullarının çeşid və keyfiyyətinin yaxşılaşdırılmasında yeni mütəxəssislərin cəlb olunması sosial sahədə prioritet ola bilər. Belə ki, daxili turizm bazarının inkişafı tikinti, nəqliyyat, kənd təsərrüfatı, ənənəvi kustar istehsal, infrastruktur sahələrə birbaşa təsir etməklə yeni iş yerlərinin yaradılmasına təkan verir

Beynəlxalq təcrübə göstərir ki, xarici turizmdən gələn gəlirlər daha çox olsa da, orta səviyyəli inkişafda olan ölkələrdə əhalinin daxili turizm və istirahətə daha çox meyl etmələri iqtisadiyyatın əksər sahələrinin inkişafına müsbət təsir edir. Belə ki, buna Avropanın orta səviyyəli turizm ölkəsi olan Bolqarıstan timsalında baxsaq, burada daxili turizm hərəkatında ölkə əhalisinin 58 faizi iştirak edir. Ümumiyyətlə, turizm mövsümü dövründə Bolqarıstanda turizmdə xidmətlərə görə gəlirlər 2,5 dəfə, kənd təsərrüfatı məhsullarının satışı isə 1,5 dəfə artır [7].

Azərbaycanda daxili turizm bazarının inkişafı iqtisadiyyatın əksər sahələrinə təsir edir. Xüsusilə mövsüm dövründə bölgələrə turist axınının çoxalması kənd təsərrüfatı, yerli və kustar məhsulların istehsalının artmasına səbəb olur. İstirahət mövsümündə yerli meyvə, giləmeyvə və tərəvəzin müəyyən hissəsi turizm mərkəzlərində rekreant və turistlərin ehtiyaclarının ödənilməsinə yönəldilməklə yanaşı, yerli əhali üçün məşğulluq probleminin qismən həll olunmasına səbəb olur

Turizm məhsulunun seqmentində turist zövqünə uyğun xidmət və əmtəə növü, milli xüsusiyyətləri nəzərə almaqla və turistlər üçün daha çox alıcılıq qabiliyyəti kəsb edən mallar üzrə aparılır. Azərbaycan Respublikasında daxili turizm bazarındakı mövcud rəqabət turizm məhsulu və xidmətlərinin qiymətinə az təsir edir. Daxili turizm bazarında istehlakçların tələbatını ödəyən əmtəə və xidmətlərin proqnozlaşdırılması gələcəkdə kapital qoyuluşu və ehtiyatlardan səmərəli istifadəni də müəyyənləşdirən amil ola bilər.

Turizm xidmətlərinin keyfiyyətinin beynəlxalq standartlara uyğun olması, rekreasiya ehtiyatlarından səmərəli istifadə olunması daxili turizmin inkişafına müsbət təsir edə bilər. [2] Ölkəmizdə son illər həyata keçirilən iqtisadi islahatlar, yeni iş yerlərinin açılması, əhalinin gəlir səviyyəsinin artması onların istirahət və turizmə olan maraqlarını artırmışdır. Əhalinin əksər hissəsinin daxili turizmə meyl etməsi bölgələrdə turizm infrastrukturunun təkmilləşdirilməsini tələb edir. Bu baxımdan ölkəmizdə daxili turizmin inkişafı üçün bölgələrdə sosial infrastrukturun təkmilləşdirilməsi ilə yanaşı, yerli bələdiyyələrlə birlikdə fəaliyyət göstərilməsi, kiçik sahibkarlığın inkişafı diqqətdə saxlanılmalıdır. Bu məqsədlə bələdiyyələr istirahət mərkəzlərində, onun ətrafında, turist marşrutlarının keçdiyi ərazilərdə məişət xidmətini təşkil etməlidirlər. Turizm mövsümü dövründə əhalinin daha çox istirahət etdiyi bölgələrdə ticarət yarmarkalarının təşkil edilməsi, müxtəlif folklor tədbirlərinin keçirilməsi məqsədəuyğundur. Bölgələrdə turizm sahəsində sahibkarlığının inkişaf etdirilməsi üçün əlverişli iqtisadi mühitin yaradılması, sağlam rəqabətin təmin olunması hesabına qiymətlərin respublika əhalisinin müxtəlif sosial təbəqələri üçün sərfəli, xidmətin keyfiyyətinin yüksəldilməsi mümkündür. Xüsusilə kütləvi turistlərin istifadə edə biləcəyi sosial turizmin inkişafı vacibdir.

Qeyd olunanlar əsasında belə bir nəticəyə gəlmək olar ki, turizm sektorunun inkişafı üçün rəqabət gücləri strategiyalarının tətbiqi ölkədə rəqabət mühitinin formalaşdırılmasına, daxili turizm bazarının inkişaf etdirilməsinə və dayanıqlı xarici bazarlara çıxılmasına zəmin yaradır.

Zəngin turizm ehtiyatlarına malik olan Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişafını qısa olaraq mövcud insan resursları, şəhər mədəniyyəti, müasir kənd infrastrukturu, sosial həyatdakı yüksək tələbatlar və xidmət sektorundakı peşəkarlıqla xarakterizə etmək mümkündür. Bu mənada Naxçıvanın turizm cazibəsi kimi ölkəmizin vətəndaşlarının nəzərində ilk olaraq müqəddəs Əshabi-Kəhf ziyarətgahı, əzəmətli Haçadağ, Əlincəqala əfsanəsi, Duzdağın şəfalı möcüzəsi, Şahbuz və Ordubadın gözəl təbiət guşələri, nadir memarlıq inciləri, bənzərsiz dadı, tamı olan Naxçıvan meyvələri və milli mətbəx nümunələrimiz canlanır. Bu ehtiyatlar eləcə də Naxçıvanda son illərdə yaradılmış yüksək səviyyəli yol, rabitə, enerji infrastrukturu və sosial-mədəni şərait turizmin bir çox

növləri üzrə geniş imkanlar yaradır. Ötən dövrdə bu şəraitdən istifadə olunması ilə il ərzində Naxçıvana səyahət edən turistlərin sayı 400 mindən artıq olub. Bu mənada əldə olunmuş təcrübənin, qazanılmış turizm imicinin bundan sonrakı dövrdə daxili turizm hesabına da davam etdirilməsi məqsədilə qarşıya qoyulmuş vəzifələrin icrası Naxçıvan Muxtar Respublikası ölkəmizin turizm bazarı üçün geniş potensial vəd edir.

Turizm insanların asudə vaxtının səmərəli təşkilinə və çox sayda yeni iş yerlərinin yaradılmasına səbəb olur. Bu mənada Naxçıvanda daxili turizmin inkişafı zamanı həm yerli sakinlərin, həm də ölkəmizin digər yerlərindən muxtar respublikaya gələn insanların sayı və onların səyahət motivlərinin yerli resurslar hesabına əvəz olunması imkanlarına baxmaq lazımdır. Getmə turizm istiqamətində naxçıvanıların indiyə qədər ölkəmizin digər regionlarına, eləcə də Türkiyə və Gürcüstana etdikləri səyahətlərin daha sərfəli qiymətlər və daha təhlükəsiz şərtlər daxilində muxtar respublikamızın turizm-rekreasya məkanlarında təşkili ilə əvəz olunması bu baxımdan gələcəkdə qarşıya qoyulan vəzifələrdəndir. Eləcə də ölkəmizin digər yerlərindən də Naxçıvana gələcək turistlərin sayının da yaxın perspektivdə artacağı gözlənilir. Rəqabət baxımından daxili turizm bazarımızın dünya turizm bazarının bir ünsürü olduğunu nəzərə alsaq, buradakı servis qiymətlərinin və keyfiyyətinin yaxın gələcəkdə aparıcı faktor olacağını düşünmək olar. Digər bir tərəfdən bu dövrün həm də daxili turizm bazarının rəqabətqabiliyyətinin artırlması fürsəti kimi də dəyərləndirilməsi mümkündür. Bu mənada Naxçıvanda dövlət dəstəkli sosial tur layihələr üzrə keçmişdə əldə olunmuş müsbət təcrübənin və sosial paket turların da burada çox effektli təşviqedici gücə malik olacağını da qeyd edə bilərik. Qarşıdakı dövrdə qış xizək turizminin də təşkil olunduğu Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinə, eləcə də Şahbuz və Ordubadadkı kəndlərdə mövcud olan villatipli kənd evlərinə daha çox yerli sakinin mənalı istirahət üçün üz tutacağı şəksizdir. Bundan əlavə, bu gün Naxçıvan Muxtar Respublikasında mərkəz nöqtəsi Naxçıvan şəhəri olmaqla, Naxçıvan-Batabat, Naxçıvan-Ağbulaq, Naxçıvan-Ordubad-Gəmiqaya, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala və Naxçıvan-Qarabağlar istiqamətlərində turizm marşrutları da fəaliyyət göstərir [3]. Bu turizm marşrutları üzrə tur proqramlara qatılan hər yaş kateqoriyasından olan turistlərə birgünlük, maraqlı tanışlıq-dərketmə ekskursiyaları da böyük tələbat görən səyahətlərdəndir.

Turizm sosial həyatın mühüm tələbatlarından biridir. Bu mənada turizmin də hazırkı pandemiyadan daha az zərər görməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında daxili turizmin inkişafı üçün görüləcək hər bir iş ümumən turizmin inkişafında və məşğulluq məsələlərində çox effektiv olacaq.

## ƏDƏBİYYAT


1. "Koronovirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/articles/36228
2. Cabbarov Ə.X. Turizmin iqtisadi əsasları, Dərs vəsaiti. ADPU nəşriyyatı. 267 səh. Bakı: 2015
3. Cabbarov Ə.X. Turizm marşrutlarında ekskursiyaların hazırlanma və aparılmasına müasir yanaşmalar. Naxçıvan Universiteti "Elmi əsərlər". 2017, №1 (4), s.4854
4. Биржаков М.Б. Введение в туризм. СПб.: «Издательский дом Герда», 2003. 448 с.
5. Кабушкин Н.И. Менеджмент туризма. Минск: Новое Знание, 2002, 409 с.
6. Дурович А.П., Кабушкин Н.И., Сергеева Т.М. и др. Организация туризма. Минск: Новое Знание, 2003. 632 с.
7. http://www.world-tourism.org/ Цmumdünya Turizm Təşkilatının рясми сайты

## SUMMARY

**Ali Jabbarov**

**ISSUES OF DEVELOPMENT OF DOMESTIC TOURISM IN THE CONTEXT OF THE GLOBAL PANDEMIC**

Domestic tourism as one of the types of tourism has always been in the spotlight. The simplicity of organizational and security issues opens up additional opportunities for tourism entrepreneurs when preparing different types of tourism trips for this type of tourism. With the weakening of international tourism as a result of the COVID-19 virus, which caused a pandemic in the world in 2020, the sharp increase in interest in domestic tourism also raises the issue of solving the problems here.



*Ключевые слова: внутренний туризм; коронавирус пандемия; безопасность; социальный дистанционный туризм*



## РЕЗЮМЕ

**Али Джаббаров**

**ПРОБЛЕМЫ РАЗВИТИЯ ВНУТРЕННЕГО ТУРИЗМА В УСЛОВИЯХ ГЛОБАЛЬНОЙ ПАНДЕМИИ**

Внутренний туризм как один из видов туризма всегда был в центре внимания. Простота организационных вопросов и вопросов безопасности открывает перед туристическими предпринимателями дополнительные возможности при подготовке различных видов туристических поездок для данного вида туризма. В связи с ослаблением международного туризма в мире в результате вируса COVID-19, вызвавшего пандемию в мире в 2020 году, резкий рост интереса к внутреннему туризму также ставит вопрос о решении проблем.



***Ключевые слова:*** *внутренний туризм; коронавирус пандемия; безопасность; социальный дистанционный туризм*

**CAVADXAN QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*Cavadxan.yusifoglu@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA DAYANIQLI MALİYYƏ SİYASƏTİNİN TƏŞKİLİ İSTEHSAL-İQTİSADİ MÜNASİBƏTLƏRİN ƏSASIDIR

*Məqalədə Naxçıvan Muxtar Respublikasında bazar münasibətləri şəraitində həyata keçirilən makroiqtisadi siyasət və onun səmərəliliyindən söz açılmışdır. Elmi və nəzəri baxımdan maliyyə anlayışının izahı, onun iqtisad elmində yeri, müasir dövrdə aktuallığı eyni zamanda milli iqtisadi quruculuq proseslərində onun rolundan bəhs olunmuşdur. Xüsusilə müasir müstəqillik şəraitində ölkənin səmərəli regional iqtisadi siyasətinin hərəkətverici qüvvəsi olan Naxçıvan Muxtar Respublikasının güclü təsisatlarını və sarsılmaz dayaqlarını yaratdığı maliyyə siyasətinin mövcudluğuna ətraflı şəkildə olmaqla yer verilmişdir. Statistik rəqəmlərin təhlili əsasında diaqramlar tərtib olunmuş və muxtar respublikanın makroiqtisadi potensialında maliyyə siyasətinin rolu və yerindən əsaslandırmalar gətirilmişdir.*

**Açar sözlər:** *dayanıqlı maliyyə siyasəti, iqtisadi inkişaf, sosial ədalət, istehsal münasibətləri, milli iqtisadiyyat və s.*

İqtisadi – istehsal münasibətlərinin çox mühüm tərkib hissəsi olan maliyyə bütün dövrlərdə aktuallığını qoruyan və artıran iqtisadi alətdir. İnsanların iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərməsində, maraq və mənafeyinin qorunmasında, bununla da artan tələbatlar qarşısında dayanıqlı müqavimətin ifadəsi olan maliyyə ümumilikdə cəmiyyətin formalaşmasında və etibarlı fəaliyyətinin təşkilində strateji mahiyyəti ilə seçilməkdədir. Bu mənada maliyyə anlayışı, iqtisad elmi və digər sosial mahiyyətli araşdırma sahələri tərəfindən öyrənilməkdədir.

Mənbələrə istinad olunmaqla qeyd edə bilərik ki, maliyyə dövlətin gəlir və xərclərini ifadə edən iqtisadi münasibətdir və davamlı sosial-iqtisadi inkişafın həm hərəkətverici qüvvəsi, həm də zəruri tərkib hissəsidir. İqtisad elmləri doktoru, professor Asif Şirəliyevin araşdırmalarında göstərilir ki, maliyyə anlayışı latın dilində "finans" sözündən yaranıb və dilimizdə "bir dövlətin illik gəliri", gəlir və nağd pul mənasını verir. Göstərilir ki, maliyyə müəssisələrin və dövlətin sərəncamında olan pul vəsaitlərinin məcmusunu təşkil edir (5, s. 332).

İqtisad elmləri doktoru, professor Sabir İbadov maliyyə sahəsində əsaslandırılmış araşdırmaları ilə seçilməkdədir. Onun əsərlərində maliyyənin bir anlayış olaraq XIII-XV əsrlərdə İtaliyada, XVI əsrdə isə Fransada işlədilməsi göstərilir. Qeyd olunur ki, getdikcə əmtəə-pul münasibətlərinin inkişafı nəticəsində "maliyyə" termini dünyanın bir sıra ölkələrində daha geniş status almaqdadır (2, s. 223).

Bakı Dövlət Universitetinin professoru, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru Teymur Vəliyevin və iqtisad elmləri doktoru Şamil Qafarovun tədqiqatları da bu sahədə olduqca əhəmiyyətlidir. Maliyyənin iqtisadi kateqoriya olaraq iqtisadiyyatın bütün sahələrində pul fondlarının yaranması, bölgüsü, yenidən bölgüsü və istifadəsi prosesində yaranan iqtisadi münasibətlər sisteminə daxil olduğu hər iki alimin araşdırmalarında göstərilmşdir (4, s. 258).

İqtisad elmlər doktoru, professorlar İsa Alıyevin və Sabir İbadovun həmmüəllifliklləri ilə 1999-cu ildə "Ağrıdağ" nəşriyyatında işıq üzü görən Azərbaycan iqtisadiyyatı kitabında göstərilir ki, "maliyyə" termini "pul ödəməsi" deməkdir və XIV-XV əsrlərdə Azərbaycanda feodal dövlətləri tərəfindən geniş istifadə olunmuşdur. Maliyyə siyasətinin mahiyyətini və bu sahədəki münasibətlərin inkişafında uzunəsrlik dövlətçilik ənənələrində onun keçdiyi inkişaf yolunu geniş araşdırma obyektinə çevirmişlər. Göstərilir ki, bəhs olunan dövrdə Şirvanşah, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri öz funksiyalarını yerinə yetirməkdən ötrü səfərbərliyə alınan pul resurslarının səmərəli istifadə olunmasına yönəldilmiş maliyyə siyasəti yeridirdilər (1, s. 153).

İqtisadçı alimlər Oqtay Məmmədlinin və Fazil İsmayılovun araşdırmalarında da bütün iqtisadi

hadisə və proseslər kimi maliyyə anlayışı və bu sahədəki münasibətlər geniş araşdırma obyektinə çevrilmişdir. Orada qeyd olunur ki, maliyyə pul vəsaiti fondunun formalaşması, bölgüsü və istifadə olunması ilə əlaqədar olaraq dövlətlə hüquqi və fiziki şəxslər, habelə ayrı-ayrı dövlətlər arasında meydana çıxan iqtisadi münasibətlər sistemidir. Eyni zamanda göstərilir ki, maliyyə münasibətləri demək olar ki, iqtisadiyyatın idarə olunmasının bütün sahələrini əhatə edib və müxtəlif formalarda meydana çıxır (3, s. 610).

İstinad etdiyimiz araşdırma nəticələrinə uyğun olaraq qeyd oluna bilər ki, maliyyə dövlətin sosial-iqtisadi inkişaf sahəsindəki cari və perspektiv prioritetlərinin əlçatanlığında, onların reallaşmasında zəruri iqtisadi alətdir və bu, milli iqtisadiyyatın tənzimlənməsində, onun səmərəli idarə olunmasında məhsuldar göstəriciləri hədəfləyir. Eyni zamanda maliyyə siyasətinin səmərəli təşkili cəmiyyət üzvlərinin artan tələbatlarının etibarlı qarşılanması və sosial-iqtisadi inkişaf üzrə formalaşan münasibətlərin əsası olaraq çıxış etməkdədir.

Hazırda ölkəmizdə milli iqtisadi quruculuq prosesləri və bu əsada da başladılan islahatlar qətiyyətlə davam etməkdədir. Həmin məqsədyönlü proseslərin gedişində iqtisadiyyatın milli və regional mahiyyətinin nəzərə alınmasına, onun istehsal və sosial infrastruktur təminatı ilə sintez təşkil etməsinə, beləliklə də, iqtisadi müqavimətliliyin etibarlılığına təminat verilmişdir. Məhz bu mənada yeni iqtisadi şəraitdə milli iqtisadiyyat məqsədli davamlı sosial-iqtisadi inkişafda strateji rolu ilə seçilən Naxçıvan Muxtar Respublikasının maliyyə siyasətinin təşkili və idarə olunması sahəsindəki üstünlüklərini qeyd edə bilərik. Fikrimizcə, muxtar respublikada maliyyə siyasətinin təşkili həm də makroiqtisadi zəmində bazar münasibətlərinin inkişafı və perspektivlərinin artmasına xidmət edir. Bununla da:

- təsərrüfat fəaliyyətinin səmərəliliyinə, mülkiyyət münasibətlərinin inkişafına və məhsuldarlığına;
- iqtisadiyyatın sahə strukturunun təşkilatlanmasına, onun milli iqtisadi proseslərdəki sürətləndirici təsirlərinə;
- kəndlərin iqtisadi inkişafına, zəruri infrastrukturun yaradılmasına və bununla da həm yerli məhsul istehsalının stimullaşmasına, həm də aqrar sektor da daxil olmaqla ümumi məşğulluq və özünüməşğulluq imkanlarının artırılmasına;
- nağdsız hesablaşmaların təkmilləşməsinə və bu sahədəki proseslərin sürətlənməsinə;
- innovativ inkişafın nəticələrindən istifadənin çoxşaxəliliyinə nəticədə maliyyə resurslarına çıxış imkanlarının əlçatanlığına və s. tədbirlərin reallaşmasına təminat yaranmışdır.

Davam etdirilən iqtisadi islahatlar sosial sahələrin dayanıqlılığını artırmaqla yanaşı, eyni zamanda maliyyə sektorunda etibarlı fəaliyyət mühitinin yaradılmasına zəmanət vermiş, bu isə ümumilikdə milli iqtisadiyyat üçün sarsılmaz dayaqlar yaratmışdır. Fikrimizi, muxtar respublikada təkcə son on ildə açılmış bank hesabları sahəsindəki göstəricilərin davamlılığı da ifadə etməkdədir.

***Şəkil 1.*** *Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında açılmış bank hesabları haqqında məlumat (say)*




*Şəkil statistik rəqəmlər əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

Apardığımız təhlillər göstərir ki, istinad olunan illərdə muxtar respublikada bank əməliyyatları üzrə aktiv hesabların sayı ümumi bank hesabları üzrə göstəricilərin 94-99 faizi arasında dəyişmişdir. Bu, müvafiq olaraq aşağıdakı kimi olmuşdur:

- 2010-cu il ərzində 94,8 faiz;
- 2012-ci il ərzində 99,3 faiz;
- 2014-cü il ərzində 99,5 faiz;
- 2017-ci il ərzində 99,5 faiz;
- 2019-cu il ərzində isə 99,5 faiz.

Şəklin məlumatlarından da aydın olur ki, 2010-2019-cu illərdə muxtar respublikada açılan bank hesablarının sayı 9,2 dəfə, aktiv hesabların sayı isə 9,6 dəfədən çox artmışdır. Digər tərəfdən göründüyü kimi, 2014-cü ildə bank hesablarının və o cümlədən aktiv hesabların sayında sıçrayış olmuşdur. Bu, hər şeydən əvvəl maliyyə resurslarına çıxış imkanlarının artırılmasının gerçək ifadəsi olaraq özünü göstərməkdədir. Bu mənada müqayisəmizi davam etdirərək qeyd edə bilərik ki, əgər 2012-ci ildə bank hesablarının, o cümlədən aktiv hesabların sayı 2010-cu ildə müvafiq göstəricilərin sayı 1,6 dəfə artmışdırsa, 2014-cü ildə hər iki göstəricilər üzrə artım 2012-ci illə müayisədə müvafiq olaraq 3,7 dəfə təşkil etmişdir.

Qeyd etdiyimiz kimi, nağdsız hesablaşmaların da həyata keçirilməsində mühüm vasitə olan maliyyə siyasətinin səmərəli təşkili məsələləri çoxsahəliliyi və perspektivliliyi ilə seçilməkdədir. Artıq muxtar respublikada bank sektorunun inkişafı sahəsində ardıcıl, davamlı və məhsuldar tədbirlər reallaşmaqdadır. Müvafiq istiqamətdə məqsədyönlü tənzimləmə mexanizmlərindən düzgün istifadə olunması dayanıqlı maliyyə siyasətinin güclü əsaslarını daha da gücləndirməkdədir. Xüsusilə 2 mart 2016-cı il tarixli Sərəncamla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq olunmuş “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram” bu sahədəki dayanıqlılığı daha da artırmaqdadır. Qeyd edək ki, 12 bənddən ibarət olan Tədbirlər Planını da nəzərdə tutan Proqram üzrə qarşıya qoyulmuş məqsəd və vəzifələrin yerinə yetirilməsi aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsini hədəfləyir:

- elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsi;
- yeni xidmətlərin tətbiqi və əhatə dairəsinin genişləndirilməsi;
- əhalinin və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə təşviq olunması kimi tədbirləri əhatə etməkdədir (6).

Həmin amillər içərisində nəzərdə tutulan mühüm tədbirlərdən birini də məhz mövcud ödəniş infrastrukturunun, o cümlədən POS-terminalların, bankomat və digər ödəniş terminallarının təkmilləşdirilməsi təşkil etməkdədir. Burada diqqət çəkən digər mühüm innovativ mahiyyətli tədbirlərdən və hazırkı milli iqtisadi inkişafın davamlı perspektivlərinə istiqamətlənən tədbirlərdən biri də özəl sektorda işçilərin əmək haqqlarının nağdsız formada, yəni ödəniş kartları ilə ödənilməsinin təşviq olunmasından ibarətdir.

***Şəkil 2.*** *Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasında quraşdırılmış POS-terminalların sayı haqqında məlumat (illər üzrə 1 yanvar tarixinə / say)*




*Şəkil statistik rəqəmlər əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

Qeyd edək ki, təkcə 2013-cü ildə pul əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılması üçün 152 POS-terminal quraşdırılmışdır (7). Göründüyü kimi, 2014-2017-ci illər üzrə POS-terminalların sayında 5 dəfəyə yaxın sıçrayışlı artım olmuşdur. Artıq bu artım göstəricisi 1 yanvar 2020-ci il tarixə 5,2 dəfə təşkil etməkdədir. Təbii ki, burada da istinad etdiyimiz 2016-2018-ci illər üçün təsdiq olunan müvafiq Proqramın səmərəli icrasının təsiri böyük rola malik olmuşdur.

Naxçıvan Muxtar Respublikasında iqtisadi-istehsal münasibətlərinin inkişafına, perspektivliliyinə və milli iqtisadi quruculuq proseslərindəki rolun daha da möhkəmləndirilməsinə stimul verən amil olaraq dayanıqlı maliyyə siyasətinin əhəmiyyətini qeyd etmək zəruridir. Bu, eyni zamanda, iqtisadiyyatın sahə strukturunun dolğun və təminatqabiliyyətli mexanizm olaraq formalaşmasını təmin etməkdədir. Ölkəmizdə uğurla davam etdirilən regional inkişaf üzrə Dövlət proqramlarının əsas hədəflərindən olan iqtisadiyyatın aparıcı sahələrinin uzunmüddətli inkişaf proseslərində maliyyə resurslarına çıxış imkanlarının daha da asanlaşdırılması məhz dayanıqlı maliyyə siyasətinin hesabına mümkün olmuşdur.

***Cədvəl 1**. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın aparıcı sahələrində dayanıqlı maliyyə siyasətinin təşəkkülü haqqında məlumat*

| S/s | İllər | Tədbirin adı |
|---|---|---|
| 1 | 2014 | Sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 5 milyon 674 min 300 manat həcmində kredit verilmişdir. “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən kənd təsərrüfatı sahəsi və biznes üzrə verilən kreditlərin faiz dərəcələri 15 faizədək endirilmiş, kiçikhəcmli kreditlərin verilməsi qaydaları sadələşdirilmiş, bankın Naxçıvan şəhər, Şərur və Culfa rayon filialları yaradılmışdır. |
| 2 | 2015 | Sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 14 milyon 318 min 400 manat həcmində kreditin verilməsi təmin olunmuşdur. |
| 3 | 2017 | Kənd təsərrüfatının aparıcı sahələrindən biri olan heyvandarlığın inkişafı da diqqətdə saxlanılmışdır. 11 heyvandarlıq təsərrüfatı yaradılmış ümumilikdə bank və kredit təşkilatları tərəfindən bu sahəyə 1 milyon 750 min 300 manat məbləğində kredit verilmişdir. |
| 4 | 2018 | Sənayenin inkişafı üçün bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 5 milyon 172 min manat kredit verilmişdir. |
| 5 | 2019 | Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 10 milyon 944 min 900 manat kredit verilmişdir.<br>Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı da diqqətdə saxlanılmış, 24 heyvandarlıq təsərrüfatının yaradılması, 7 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 19 heyvandarlıq təsərrüfatının yaradılması, 9 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Ümumilikdə bank və kredit təşkilatları tərəfindən bu sahəyə 9 milyon 982 min 700 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2 dəfə çoxdur. |

*Cədvəl statistik məlumatlar əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

Qeyd olunan tədbirlər öz məqsədyönlülüyü, strateji əhəmiyyətliliyi və xüsusilə də, milli iqtisadi quruculuq proseslərindəki təsiri imkanları ilə davamlıdır, məhsudardır və uzunmüddətli perspektivlikləri hədəfləyir.

Beləliklə, apardığımız tədqiqatlar bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikasında dayanıqlı maliyyə siyasətinin təşkili istehsal-iqtisadi münasibətlərin əsasıdır. Bu isə özündə:

- islahatların qətiyyətli şəkildə davamlılığının;
- məşğulluq səviyyəsinin yüksəldilməsinin;
- sosillaşma proseslərinin geniş əhatədə təşəkkülünün;
- cəmiyyət üzvlərinin sosial rifahının;
- makroiqtisadi inkişafın etibarlılığının ən dolğun ifadəsini əks etdirir.

## ƏDƏBİYYAT


1. Alıyev İ.H., İbadov S.A. Azərbaycan iqtisadiyyatı. Bakı: Ağrıdağ, 1999, 400 s.
2. İbadov S.A. İqtisadi nəzəriyyə, dərslik. Bakı: Şərq-Qərb, 2009, 414 s.
3. Məmmədli O.Q., İsmayılov F.İ. İqtisadi nəzəriyyə. Bakı: MBM, 2007, 800 s.
4. Vəliyev T.S., Qafarov Ş.S. ümumi redaktəsi ilə. İqtisadi nəzəriyyə. Bakı: Azpoliqraf LTD MMC, 2004, 504 s.
5. Şirəliyev A.İ. İqtisadi nəzəriyyə, dərsə vəsaiti. Bakı: Elm, 2004, 420 s.
6. “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”. 2 mart 2016-cı il tarixli Sərəncamla Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri tərəfindən təsdiq olunub
7. http://statistika.nmr.az/index.php


## SUMMARY

**Javadkhan Gasimov**

### THE ORGANIZATION OF SUSTAINABLE FINANCIAL POLICY IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IS THE BASIS OF PRODUCTION AND ECONOMIC RELATIONS

The article discusses the macroeconomic policy implemented in the Nakhchivan Autonomous Republic in the conditions of market relations and its effectiveness. The explanation of the concept of finance from the scientific and theoretical point of view, its place in economics, its relevance in modern times, as well as its role in the processes of national economic construction were discussed. In particular, the existence of a financial policy created by the Nakhchivan Autonomous Republic, which is the driving force of the effective regional economic policy of the country in the conditions of modern independence, has been described in detail. Based on the analysis of statistical figures, diagrams were compiled and substantiated from the role and place of financial policy in the macroeconomic potential of the autonomous republic.

***Key words:*** *sustainable financial policy, economic development, social justice, production relations, national economy, etc.*

## РЕЗЮМЕ

**Джавадхан Гасымов**

### ОРГАНИЗАЦИЯ УСТОЙЧИВОЙ ФИНАНСОВОЙ ПОЛИТИКИ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ ЯВЛЯЕТСЯ ОСНОВОЙ ПРОИЗВОДСТВЕННЫХ И ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ

В статье рассматривается макроэкономическая политика, реализуемая в Нахчыванской Автономной Республике в условиях рыночных отношений, и ее эффективность. Обсуждались объяснение концепции финансов с научно-теоретической точки зрения, их место в экономике, актуальность в наше время, а также их роль в процессах строительства национальной экономики. В частности, подробно описано существование финансовой политики, созданной Нахчыванской Автономной Республикой, которая является движущей силой эффективной региональной экономической политики в условиях современной независимости. На основе анализа статистических данных составлены и обоснованы диаграммы роли и места финансовой политики в макроэкономическом потенциале автономной республики.

***Ключевые слова:*** *устойчивая финансовая политика, экономическое развитие, социальная справедливость, производственные отношения, национальная экономика и др.*

**İRADƏ BAĞIROVA**
*Naxçıvan Dövlət Universiteti*
*iradebagirova@yahoo.com.*
**CAVİD HÜSEYNOV**
*huseynov cavid1997@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA İNNOVASİYALARIN MALİYYƏLƏŞDİRİLMƏSİ MEXANİZMİ

*Məqalədə araşdırmalar, əsasən, bu suallar ətrafında aparılır: innovasiya siyasəti necə aparılmalıdır? İnnovativ fəaliyyət necə təşviq edilməlidir? İnnovasiyaların maliyyələşdirilməsi mexanizmi necə hazırlanır? Güclü innovasiya siyasəti modelinin elm-təhsil və maliyyələşmə mexanizmi kimi komponentləri üzrə hansı işlər görülməkdədir?*

*Burada, həmçinin Naxçıvan Muxtar Respublikasının dayanıqlı sosial-iqtisadi inkişafının təmin olunması üçün dövlət dəstəyinin zəruriliyi tədqiqata cəlb edilmişdir. Muxtar respublikada həm sənaye, həm kənd təsərrüfatı, həm də xidmət sahələrinin inkişafı araşdırılmışdır.*

***Açar sözlər:*** *innovasiya siyasəti, maliyyə menecmenti, kreativ əmək, maliyyələşdirilmə mexanizmləri*

Naxçıvan Muxtar Respublikasında inkişaf strategiyasının uğurla davam etdirilməsi müasir və güclü infrastrukturun qurulmasına, özəl sektorun inkişafına, bu istiqamətdə bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsinə, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasına, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına zəmin yaradıb.

Müasir dövrdə muxtar respublikamızda sosial-iqtisadi inkişaf səviyyəsinin davamlı olaraq yüksəlməsi yeni imkanlar yaratmaqdadır. Kreativ əmək və innovasiyalardan səmərəli istifadə etməklə cəmiyyət həyatının bütün sahələri sürətlə yenilənir.

İqtisadi və sosial inkişafda innovasiya amilinin nəzərə alınması son illərdə qəbul edilən mühüm dövlət proqramlarında aydın şəkildə ifadə olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" iqtisadiyyatın innovasiyalı inkişafını nəzərdə tutan növbəti mühüm dövlət sənədidir və bu proqram çərçivəsində işlər görülməkdədir. Proqramda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında milli iqtisadi potensialın gücləndirilməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması prioritet vəzifələr kimi qarşıya qoyulub. Muxtar respublikamızda iqtisadi və sosial sahələrdə innovasiyaların tətbiqinə hələ XXI əsrin əvvəllərindən başlanıb. İnnovasiyalar daha təkmil texnoloji proses yaradılması, bazara yeni məhsul çıxarılması, həmçinin sosial xidmətlərə yeni tərzdə yanaşma ilə ifadə olunur. Zaman keçdikcə bütün sahələrdə innovasiyaların artan sürətlə tətbiq olunması muxtar respublikanın sosial-iqtisadi inkişafının müasir mənzərəsini yaradıb. İqtisadiyyatımızın sahə strukturunda mütərəqqi dəyişikliklər, ənənəvi sahələrlə yanaşı, texnoloji və elmtutumlu yeni sahələrin meydana gəlməsi, yeni məhsulların istehsalı, mövcud məhsulların yeni növ və modifikasiyalarda bazara çıxarılması ilbəil daha geniş miqyas alıb. İstehsala uzunmüddətli innovativ yanaşmanın nəticəsidir ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sənayedə və kənd təsərrüfatında müasir texnologiyaların, yeni xammal növlərinin istehsala cəlb olunması texnolojiyönümlü innovasiyaların yayılmasını sürətləndirir.

Muxtar respublikanın bank və maliyyə sektorunda innovasiyaların tətbiqi geniş vüsət alıb. Ən müasir texnologiyaların istifadəsi diqqətdə saxlanılıb, nağdsız ödəniş sistemləri, elektron bankçılıq təşəkkül tapıb və inkişaf etdirilib. Maliyyə xidmətlərinə sürətli, asan və səmərəli çıxışı təmin edən yeni ödəmə texnologiyaları, bankomatlar, ödəniş terminalları istifadəyə verilib, sürətli pul köçürmələri imkanı yaradılıb. Ticarətin daha müasir, yüksək rahatlığı və funksionallığı ilə seçilən supermarketlər, alış-veriş mərkəzləri, ixtisaslaşdırılmış satış şəbəkələri vasitəsilə həyata keçirilməsi

təmin edilib. Muxtar respublikada müxtəlif yarmarkalarının və festivalların təşkili yerli məhsulların tanıdılmasına, ailə təsərrüfatlarında əmtəəlik istehsal və bazar təcrübəsinin inkişafına xidmət edən təşkilati innovasiyalardır. Ailə təsərrüfatları üçün müvafiq sahələr üzrə məsləhət və maarifləndimə xidmətlərinin təşkili, qablaşdırma, etiketlənmə, markalanma dəstəyinin göstərilməsi də bu qəbildən olan yeniliklər kimi diqqətəlayiqdir. Elm və təhsil müəssisələrində yaradılan müasir informasiya-kommunikasiya infrastrukturunun interaktiv təhsil sisteminə qoşulması kadr hazırlığında yeni dövrün əsasını qoyub. Muxtar respublikanın informasiya-rabitə sistemi tamamilə yeni nəsil texnologiyalar əsasında qurulub, “Elektron hökumət” portalı vasitəsilə əhaliyə 300-ə yaxın elektron xidmətin göstərilməsi təmin edilib. Enerji təsərrüfatı smart texnologiyaların tətbiqi mərhələsinə yüksəlib. Muxtar respublikada istifadəyə verilmiş günəş elektrik stansiyaları dövrümüzün ən qabaqcıl innovasiya nümunəsidir. Kənd yaşayış məntəqələrində əhalinin bütün zəruri xidmətləri eyni məkanda əldə etməyə imkan yaradan kənd və xidmət mərkəzləri, vətəndaşlara yaşadıqları ərazidə göstərilən səyyar xidmətlər, nümunəvi təsərrüfat və ailə təsərrüfatı layihələri, Ağbulaq turizm istirahət bölgəsi kimi muxtar respublikaya məxsus olan sosial və biznesyönümlü innovasiyalar orijinal ideyası və yüksək səmərəliliyi ilə seçilir (10).

Yeni layihələrin maliyyələşdirilməsi mexanizmlərinin inkişafı da diqqətdə saxlanılmaqdadır. Biznesə yeni başlayanlar (STARTAP) və icra edilmiş layihələrin genişləndirilməsi üçün maliyyə resurslarına ehtiyacı olan sahibkarlara dövlət tərəfindən verilən güzəştli kreditlərin həcmi ilbəil artır. Eyni zamanda investisiya tələbatını ödəmək üçün sahibkarlara banklar tərəfindən əlverişli şərtlərlə, aşağı faiz dərəcələri ilə təklif olunan kreditlər münbit investisiya mühiti yaradıb. Nüfuzlu “Caspian European Club”ın dəstəyi ilə hazırlanmış ölkəmizin iqtisadi regionlarının investisiya reytinqində 2017-2018-ci illərdə ardıcıl olaraq lider mövqeyə sahib olması Naxçıvan Muxtar Respublikasının investisiya və innovasiya cəlbediciliyinin daha bir ifadəsidir.

Sosial-iqtisadi, texniki və intellektual potensialın möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan rəqabətə davamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı, kompleks və sistemli işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı görülmüş işlərin davamı olaraq yüksək ixtisaslı kadr hazırlığı və innovasiyaların yaradılması istiqamətində yeni vəzifələr müəyyənləşdirir. Təhsildə və texnologiyalarda olan ən son nailiyyətlər auditoriyalarda tətbiq olunur. Bu potensialdan səmərəli istifadə etməklə ali məktəblərdə innovasiya mühitinin inkişafı kreativ düşüncəli yeni nəslin formalaşmasına ciddi təsir göstərəcəkdir. “Fikir fabriki” rolunu oynayan gənc nəslin yaradıcı potensialının STARTAP layihələrinin hazırlanmasına səfərbər edilməsi gələcək mühəndislər, menecerlər, sahibkarlar ordusunun formalaşmasına aparan ən optimal vasitədir. İnnovasiya fəallığının yüksəldilməsində, uğurlu startapların yaradılmasında muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələri ilə yanaşı, hami təşkilatların da öhdəsinə mühüm vəzifələr düşür. İnnovasiyaların idarə olunmasında təhsil müəssisələrinin və hami təşkilatların balanslaşdırılmış əməkdaşlığının yaradılması tələbə-novatorların “STARTAP NAXÇIVAN” hərəkatının aktiv iştirakçısına çevrilməsinə xidmət edəcəkdir. Eyni zamanda innovasiya sferasında öz şəxsi biznesini yaratmaq üçün məsləhət və dəstək almaq, ideyalarını səmərəli biznes layihələrə yönəltmək kimi üstünlüklərdən yararlana biləcəklər (9).

Muxtar respublikada innovasiyaların stimullaşdırılması istiqamətində xeyli əvvəl başlayan və hazırda yeni müstəvidə davam etdirilən məqsədyönlü tədbirlər innovativ inkişafın yeni mərhələyə yüksəlməsinə təkan verəcəkdir. Özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafı biznes mühitinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılmasının göstəricisi olmaqla bu sahədə həyata keçirilən uzunmüddətli işlərin nəticəsidir. Sahibkarlara maliyyə dəstəyi göstərmək məqsədilə muxtar respublikanın İqtisadiyyat Nazirliyinin nəzdində Sahibkarlığın İnkişafı Fondu yaradılıb. Fond tərəfindən bu günə qədər 1271 layihənin maliyyələşdirilməsinə güzəştli şərtlərlə 142 milyon 313 min manatdan çox kreditlər ayrılıb, həmin vəsait sənaye, xidmət və kənd təsərrüfatı təyinatlı müəssisələrin yaradılmasında istifadə olunub. Bildiyimiz kimi muxtar respublikada məşğul əhalinin 83%-ə yaxını özəl

sektorda çalışır. Naxçıvanda sahibkarlığın fəaliyyət istiqamətləri kifayət qədər çoxşaxəlidir. Sənaye sahəsində məhsul istehsalının 94%-i, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78%-i, rabitə xidmətinin 82 %-i, kənd təsərrüfatı, ticarət və ictimai iaşə xidmətlərinin isə 100%-i özəl bölmənin payına düşür ki, bu da əlbəttə çox yüksək göstəricilərdir. Təkcə son beş ildə muxtar respublikada yeyinti, yüngül, mebel, metallurgiya, kimya, tikinti olmaqla 84 sənaye təyinatlı müəssisənin istifadəyə verilməsi, 270 heyvandarlıq, 84 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 111 arıçılıq, 74 bağçılıq və 14 balıqçılıq təsərrüfatının yaradılması nəticəsində məşğulluq səviyyəsi yüksəlib, ixracın həcmi artıb. Son illərdə rayon və kəndlərdə 750 kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələrinin yaradılması yerli resurslardan səmərəli istifadəni və məşğulluq səviyyəsinin yüksəldilməsini təmin edib. Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin xarici əlaqələrinin genişlənməsi istehsal olunan məhsulların ixrac imkanlarının artırılmasını təmin edir. Son illərdə 50-dən çox ölkədə keçirilən 321 müxtəlif tədbirdə dövlət dəstəyi ilə 1722 sahibkarın iştirakının təmin edilməsi, 8 ixrac missiyasında, 7 beynəlxalq sərgidə vahid ölkə stendi ilə muxtar respublika sahibkarlarının təmsil olunması yerli şirkətlərin biznes əlaqələrinin inkişafına, beynəlxalq təcrübənin öyrənilməsinə və ixracın artmasına əlverişli şərait yaradıb. Bütün bu tədbirlər son nəticədə məhsul istehsalının və ixracın həcminin artmasına səbəb olub. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın 60-a yaxın ölkəsi ilə ticarət əlaqələri var (8). Muxtar respublikada sahibkarlara yaradılan şəraitdən istifadə edərək öz biznesini genişləndirən, yeni istehsal müəssisələri, iş yerləri yaradan, istehsal etdiyi məhsullarla ölkəmizi xaricdə layiqincə tanıdan, ümumilikdə, iqtisadi inkişafımıza, xüsusən də özəl sektorun inkişafına töhfə verən belə sahibkarlıq subyektlərinin sayı ilbəil artmaqdadır.

## ƏDƏBİYYAT


1. Atakişiyev M.C., Süleymanov Q. İnnovasiya menecmenti, Bakı: 2004
2. Vəliyev D.Ə. Karyera: şəxsi müvəffəqiyyətin strategiyası. Bakı: Azərbaycan Universiteti, 2005, 176 s
3. Архипова Н.И., Кульба В.В., Косяченко С.А. и др. Организационное управление. Москва: Наука, 2007, 736 стр
4. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı
5. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 26 dekabr 2014 http://www.president.az
6. Sənaye məhəllələri haqqında. Azərbaycanın sənaye portalı. 2014, http://senaye.gov.az İnternet resursları
7. http://www.iet.ru/usaid/innovations/.htm.
8. http://www.iqtisad.net. – İqtisadiyyatla bağlı web ünvanı
9. www.economy.gov.az - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi
10. http://senaye.gov.az


## SUMMARY

**Irada Bagirova, Cavid Huseynov**

## MECHANISMS OF INNOVATION FINANCING IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC


The research in this article focuses on the following questions: how to conduct innovation policy? How should innovative activity be encouraged ?, How is the innovation financing mechanism developed ?, What is being done on the components of a strong innovation policy model, such as a science-education and funding mechanism?

It also examines the need for state support to ensure the sustainable socio-economic development of the Nakhchivan Autonomous Republic. The development of industry, agriculture and services in the Autonomous Republic has been studied.


***Key words:*** *innovation policy, financial management, creative labor, financing mechanisms.*

**РЕЗЮМЕ**

**Ирада Багирова, Джавид Гусейнов**

## МЕХАНИЗМЫ ИННОВАЦИОННОГО ФИНАНСИРОВАНИЯ В НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ

В статье рассматриваются следующие вопросы: как проводить инновационную политику?, Как следует поощрять инновации? Как развивается механизм финансирования инноваций?, Что делается в отношении компонентов сильной модели инновационной политики, таких как механизм научного образования и финансирования?

Также исследуется необходимость государственной поддержки для обеспечения устойчивого социально-экономического развития Нахчыванской Автономной Республики. Изучено развитие промышленности, сельского хозяйства и сферы услуг в автономной республике.

***Ключевые слова:*** *инновационная политика, финансовый менеджмент, творческий труд, механизмы финансирования.*

**HƏBİB ZEYNALOV**
*Naxçıvan Dövlət Unversiteti*
*Habib.zeynalov085@gmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KƏND TURİZMİN İNKİŞAFINDA NƏQLİYYAT İNFRASTRUKTURU AMİLİ

*Məqalədə turizmin növlərindən biri olan kənd turizmdən, kənd turizmin inkişaf xüsusiyyətlərindən, daşıma və nəqliyyat xidmətindən bəhs edilir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında turizm inkişafı, sərnişin və nəqliyyat xidməti, kənd turizminin inkişafında nəqliyyat infrastrukturunun əhəmiyyəti haqqında geniş məlumat verilir.*

***Açar sözlər:*** *turizmin növləri, turizmin xüsusiyyətləri, kənd turizmi, nəqliyyat xidməti, turizmdə nəqliyyat növləri*

Kənd turizminin xüsusiyyətləri əsasən kənd mühitində yerləşdirmə obyekt ilə təmin etməyə yönləndirilmiş kompleks turist xidmətini nəzərdə tutur. Həmin kəndlərdə yaşayan yerli əhalinin kompleks turist xidmətindən və əlavə olaraq kənd təsərrüfatından qazanılan gəlir əlavə gəlir mənbəyi kimi təqdim olunur . Lakin kənd turizmi kənd təsərrüatı sahəsinə və onun fəaliyyətinə maneə olmadan yeni iqtisadi sahə kimi öz fəaliyyətini göstərir və inkişaf edir. Kənd turizminin inkişafı nəticəsində bir sıra imkanlar yaranır. Kənd təsərrüfatı məhsullarının dəyərinin digər məhsullarla bərabərləşdirilməsi və məhsulun müxtəlifliyi kənd təsərrüfatından gələn gəlirin azalması ilə nəticələnmişdir. Buna misal olaraq kənd təsərrüfatı sahəsində əkinçilik və heyvandarlığı göstərmək olar. Əlavə olaraq kənd turizmi torpaqdan və mövcud şəraitdən istifadə etməklə başqa müxtəlifliklər də yaratmışdır. Kənd təsərrüfatından fərqli olaraq turizm xidməti və ya ərzaq məhsullarına tələbat ölkədəki xidmət şəraitinin yüksəlişinə, əməyə olan tələbatın inkişafı, münasibətin istiləşməsinə və kənd turizmin inkişafına səbəb olmuşdur. Kənd turizmində həmin bölgənin tarixi-mədəni ehtiyyatlarının, adət-ənənəsinin, mətbəx və digər mədəni-məişət sahələrinin rolu böyükdur. Kənd turizmində bölgəyə səyahət edən turistlərin bölgənin mədəniyyəti, adət və ənənələri ilə əlaqədar informasiya toplaması həmin bölgələrdə yaşayan yerli adamlar üçün bu sahəyə maraq artırır. Qısa zaman daxilində yerli sakinlərin bu barədə informasiya toplaması və həmin yerin digər üzvləri arasında yayılması münasibətin istiləşməsinə səbəb olur. Bununla belə, yerli sakinlər turistin tələbinə uyğun olaraq bilikləri öyrənməyə səy göstərir . Kənd turizmində təbiət mənzərələri turistləri cəlb etdiyi üçün turistlər xüsusi yer və dəyərli vaxt ayıraraq ətraf mühitin qayğısına qalırlar.

Həmin bölgədə yaşayan yerli əhali turistlərin təbiət mənzərələrinə daha çox maraq göstərməsinə diqqət yetirərək əlverişli ərazilər və mənzərəli yerlər tapmağı ön plana çəkir. Bölgədə yaşayan yerli əhalini kənd təsərrəfatı məhsulları və mal-qara saxlamaqdan əlavə yeni çeşidli turlar hazırlamağa sövq edir. Kənd turizmində bu baxımdan turistləri cəlb edən turlar “ekoturizmin” inkişafına mühüm təsir göstərir.

Kənd turizmində sərnişin və nəqliyyat xidmətinin rolu olduqca böyükdür. İnsanların daimi yaşadıqları yerdən başqa bir yerə getmələri tarixin ilk dövrlərindən bəri görülən ən böyük ehtiyaclarından biri olmuşdur. Xidmət növlərindən olan nəqliyyat vasitələri insanları bir yerdən başqa bir yerə daşımaqla yanaşı, eyni zamanda getdikləri ölkənin, regionun, subregionun, kəndin iqtisadi və turizm baxımından inkişafına, həmçinin o zonanın sosial həyatının hərəkətlilik əldə etməsinə də yol açmışdır. Sözü gedən kənd turizmdə turistlərin nəqliyyat xidmətlərindən düzgün seçim etməsi səyahətin effektivliyini müəyyən edir. Tur paketlərin hazırlanması, təqdim edilməsi, gələn turistlərə tur praqramın təşkili, müşaiəti, turoperatorların və nəqliyyat müəssisələrinin ümumi fəaliyyətinin mahiyyətini ifadə edir.

Səyahət edən turistlər kəndin reylefi, iqlimi şəraiti, sürət və daşıma vasitələrinin sərnişin tutumu, həmçinin turistin öz ölkəsi ilə getmək istədiyi ölkə arasındakı məsafə, dolayısı ilə gedəcəyi yerə çatmaq üçün lazım olan pul və vaxt onun seçiminə təsir edir. İstirahət qiyməti ilə nəqliyyat xərcləri arasındakı əlaqə turizmin xərclərinə, kənd turizmin və başqa növlərin inkişafına təsir edir.

Nəqliyyat xidmətləri özünəməxsus tarixə, formalaşma mərhələlərinə, inkişaf üsullarına, metodlarına əsasən xüsusi əhəmiyyətə malikdir.

Kənd turizmində səyahət edən turistlər nəqliyyat xidmətlərindən seçim edərkən bu amillər əsas götürülür:

· Səyahət edən turistlərin məqsədi ;

· Səyahətin istiqaməti, destinasiyalarin yerləşməsi, mümkun olan yerlərə nəqliyyat vasitələrinin hərəkət etməsi;

· İqlim şəraitində uyğun olaraq - mövsümlük;

· Səyahət yerinə çatdırılma sürətləri və vaxtı;

· Nəqliyyat vasitələrində rahatlıq, məlumatlılıq

· Səyahət dövründə təhlükəsizlik;

· Nəqliyyat vasitələrində yükün mövcudluğu;

· Təklif olunan xidmətin dəyəri və istehlakçının ödəmə qabiliyyətləri (alıcılıq qabiliyyətləri).

Bu turizm növündə kəndlərə səyahət edən turistlər nəqliyyat xidmətlərindən istifadə edərkən iki amil nəzərə alınır .

• Aktiv nəqliyyat xidməti: turistlərin əzələ gücünün köməyi ilə: piyada yürüş, velosiped yürüşü, dağa dırmanma, üzgüçülük və başqaları;

Piyada yürüş: kənd turizmində turistlərin nəqliyyatdan istifadə etmədiyi səyahətlərdir, hərəkətin ən primitiv üsuludur. Turistlər tur rəhbəri və yaxud bələdçi ilə birlikdə kiçik və böyük qruplarla piyada yürüş edirlər.

Dağa dırmanma: kənd turizmində bələdçilərin köməyilə dağlıq ərazilərə təşkil olunmuş və əvvəlcədən yoxlanılmış piyada turist marşrutudur. Təbiətdə gecələmə, gözəl mənzərələr, unikal təbiətlə və heyvanat aləmi ilə tanışlığı nəzərdə tutur.

• Passiv nəqliyyat xidməti: müxtəlif nəqliyyat vasitəsi ilə bir yerdən başqa yerə hərəkətin təşkilini nəzərdə tutur.

1. Avtomobil nəqliyyatı: kənd turizmdə səyahət edən turistlərin əsas nəqliyyat növüdur. Bu növdə səyahət edənlər istəklərinə uyğun olaraq avtomobillərin markalarına görə seçim edirlər .

2. Heyvanların köməyi ilə (qoşqular, miniklər-yəhərin altında): kənd turizmdə turistlərin istəklərinə uyğun olaraq avtomobil nəqliyyatı üçün tələb olunmayan yolların və başqa vasitələrin yoxluğundan heyvanlar ( atlar , qatırlar, öküzlər və dəvələr və s. ) vasitəsilə səyahətçilərin və yüklərin daşınması üçün qədim vaxtlardan müxtəlif arabaların qoşqu gücü kimi insan tərəfindən daşımasının əsas vasitələri hesab olunur. Attraksiyalar və mənzərəli tədbirlər sistemində daşımalar heyvanların köməyi ilə həyata keçir.

Kənd turizminin inkişafi nəticəsində kənd ərazilərində yaşayan əhalinin statusu gücləndirilir. Deməк olar ki, kənd mühitində turizm aspektinin ən vacib tərəfi mədəni əlaqələrin perspektivliyindən, yerli əhalinin maliyyə və iqtisadi səviyyəsindən asılıdır bu baxımdan yerli əhalinin tarixi, həyat tərzi illər boyu yaratdıqları ailə ənənələri turistlərdə büyuk maraq doğurur. Kənd turizminin inkişafı yerli inkişafın dəstəklənməsi deməkdir. Kənd mühitində kənd turizminin kompleks inkişafı milli, tarixi dəyərlərin qorunması və onların bərpası, nəqliyyat, səhiyyə xidməti, kommunikasiya, habelə yolların bərpası işlərinə dəstəyin verilməsi tələbini qoyub.

Hazırda muxtar respublikada nəqliyyat kompleksinin inkişafı üçün nəqliyyat sisteminin təhlükəsizliyinin təmin edilməsi, avtomobil yollarının və yol infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən mövcud yolların bazasında beynəlxalq əhəmiyyətli tranzit yolların salınması, nəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkəti tədbirlərinin həyata keçirilməsi, dəmir yolu infrastrukturunun müasir tələblər səviyyəsində istifadə olunması, şəhər nəqliyyatı işinin ekoloji təmizlik və sərnişin daşınmasında daha səmərəli nəqliyyat növlərinin istifadə prinsiplərini əsas götürərək müasir standartlar səviyyəsində çatdırılması istiqamətində işlər aparılmaqdadır. Muxtar respublikada əsasən hava nəqliyyatı, avtomobil nəqliyyatı, dəmiryolu nəqliyyatı, turistik avtobus idarələri və Rent A Car nəqliyyatının xidmətlərindən istifadə olunur.

Naxçıvan Beynəlxalq Hava Limanı 2004-cü ildə istifadəyə verilən ən müasir standartlara uyğun

tikilmişdir. Hazırda bu hava limanından Bakı-Naxçıvan eyni zamanda Naxçıvan-Moskva, Bakı-Naxçıvan-İstambul və əks istiqamətlərdə uçan təyyarələr vasitəsilə beynəlxalq sərnişin daşıma xidmətləri göstərilir.

Dəmir yolu infrastrukturunun müasir tələblər səviyyəsinə daxili daşımalar hal-hazırda Naxçıvan-Ordubad , Naxçıvan-Culfa və Naxçıvan-Şərur istiqamətində daxili sərnişin daşıma xidməti göstərilir.

Avtomobil nəqliyyatı sərnişin və yük daşınmalarında istifadə olunan əsas nəqliyyat növüdür. İctimai nəqliyyat çoxsaylı marşrut avtobusları və fərdi taksilər, online fəaliyyat göstərən taksi xidməti ilə təmin olunur. Muxtar respublikada xidmət göstərən taksilərə şəhərin hər yerində rast gəlmək mümkündür. Günün istənilən vaxtı, məsafədən asılı olaraq bu nəqliyyat növlərindən istifadə etmək olar. Muxtar respublikada şəhərdaxili nəqliyyat vasitələri kimi avtobuslar xidmət göstərir. Marşrut xətləri şəhərin demək olar ki, bütün hissələrinə əhalinin rahat hərəkətini təmin edir . Bunu qeyd etmək olar ki, muxtar respublikada Sədərək, Culfa və Şahtaxtı sərhəd-keçid komplekslərinin istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutlarının açılması nəqliyyat əlaqələrinin genişlənməsində mühüm mərhələ olmuşdur. Qonşu ölkələrlə əlaqələrin möhkəmləndirilməsi, sərnişin və yük daşınmasında da avtomobil nəqliyyatının rolu böyükdür. Belə ki, Türkiyə Respublikasının "Iğdırlı Turizm" və "Can Iğdır" firmaları ilə bağlanmış müqavilələrə əsasən Türkiyənin İstanbul, Ankara, İzmir, Antalya və digər böyük şəhərlərinə sərnişin daşıma xidməti göstərilməkdədir. İran İslam Respublikasının "Didari Seyri Giti" və "Nil Çeşmi Qostar" nəqliyyat şirkətləri ilə Naxçıvan-Təbriz-Tehran, Naxçıvan-Urmiya və əks istiqamətlərdə marşrutlar üzrə sərnişin daşıma üçün müqavilələr bağlanmışdır.

Muxtar respublikada fəaliyyət göstərən turfirmalar hazırladığı tur proqramlar üzrə səyahət edənləri və hərəkət edilməsi zamanı seçilən yerli nəqliyyatda avtobuslar icarəyə götürür. Gəliş köçürmələri (hava limanı, liman, vağzal kimi çatma nöqtələrindən gecələmə müəssisələrinə) ilə başlayan turlar, dönüş köçürmələri (gecələmə müəssisələrindən gəldikləri mərkəzlərə) ilə sona çatır.

Muxtar respublikada avtomobil icarə müəssisəsində maşın icarəyə götürən şəxs sürücü vəsiqəsinə sahib və yaşı 18-dən böyük olan şəxslərə verilir. Eyni vaxtda sığorta müqaviləsi, icarədə olan zaman maşında hər hansı problemlərin qarşılanması həmin şəxs tərəfindən ödənilir . Müştərilərin ehtiyaclarına uyğun olaraq 1 günlük , 3 günlük, 7 günlük, 25 günlük icarəyə verilir.

Kənd turizmdə nəqliyyat xidmətinin mühüm əhəmiyyəti vardır. Muxtar respublikanın ucqar dağ kəndlərinə, təbiətin əlçatmaz guşələrinə rahat yollar çəkilib müntəzəm avtobus və nəqliyyat əlaqələrinin genişlənməsində mühüm mərhələ olmuşdur. Muxtar respublikada Naxçıvan-Qarabağlar, Naxçıvan-Əlincəqala, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat, Naxçıvan-Gəmiqaya turizm maşrutları fəaliyyət göstərir. Muxtar Respublikanın rayon və kəndlərinə marşrut avtobusları ilə təmin edilmişdir.

## ƏDƏBİYYAT

1. Cabbarov Ə.X. Turizm marşrutları və ekskursiya işinin təşkili. Bakı: 2017
2. Heydərov Ş.Ə. Turizmdə nəqliyyat xidmətlərinin təşkili. Mingəçevir: 2011
3. Bilalov B.Ə., Gülalıyev Ç.G. Turizmin əsasları. Bakı: 2015
4. https://az.wikipedia.org/wiki/K%C9%99nd_turizmi
5. http://www.nakhchivan.az/portal-1/neqliyyat.htm
6. http://www.statistika.nmr.az/x_news/news/2017.neqliyyat.pdf

**SUMMARY**

**Habib Zeynalov**

**FACTOR OF TRANSPORT INFRASTRUCTURE IN THE DEVELOPMENT OF RURAL TOURISM IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**

The article discusses rural tourism, which is one of the types of tourism, the development features of rural tourism, transportation services. In addition, extensive information is provided on the development of tourism in the Nakhchivan Autonomous Republic, passenger and transport services, the importance of transport infrastructure in the development of rural tourism.

***Key words:*** *types of tourism, features of tourism, rural tourism, transport service, types of transport in tourism*

**РЕЗЮМЕ**

**Хабиб Зейналов**

**ФАКТОР ТРАНСПОРТНОЙ ИНФРАСТРУКТУРЫ В РАЗВИТИИ СЕЛЬСКОГО ТУРИЗМА НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ**

В статье рассматривается сельский туризм, который является одним из видов туризма, особенности развития сельского туризма, транспортные услуги. Кроме того, дается обширная информация о развитии туризма в Нахчыванской Автономной Республике, пассажирских и транспортных услугах, важности транспортной инфраструктуры в развитии сельского туризма.

***Ключевые слова***: *виды туризма, особенности туризма, сельский туризм, транспортные услуги, виды транспорта в туризме*

**ASİF ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*asif.abdullayev@hotmail.com*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MÖVCUD TURİZM POTENSİALI VƏ ONDAN İSTİFADƏNİN BƏZİ MƏSƏLƏLƏRİ

*Turizmin mahiyyəti onun iqtisadi mənasını açır. İqtisadi mənası sahə olaraq gəlir gətirmək qabiliyyətidir. Turizm özünün maddi ehtiyatlarını formalaşdırır, uyğun fondları təşkil edir, fəaliyyəti nəticəsində gəlir-mənfəət əldə edir. Azərbaycanda turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər sırasında turizm ehtiyatlarının öyrənilməsi və onların genişləndirilməsi əsas məsələlərdir. O cümlədən Naxçıvan Muxtar Respublikasında da turistlərin istirahəti, onların tələbatının ödənilməsi üçün zəruri olan xidmətlərin, ekskursiya və digər mədəni tədbirlərin çeşidinin genişləndirilməsi və müasir standartlara uyğunlaşdırılması, mehmanxanaların və digər turizm obyektlərinin tikintisinin genişləndirilməsi, turizm marşrutlarının artırılması, turizm növlərinin inkişaf etdirilməsi istiqamətində sistemli tədbirlər görülməkdədir. Muxtar respublikada prioritet turizm növü kimi dini ziyarətgah, müalicə turizmi və kənd yaşıl turizmi növlərini göstərmək olar. Rekreasiya turizmi sahəsində dövlət tənzimlənməsinin gücləndirilməsi, milli adət-ənənələrimizi, Azərbaycan xalqının tarixi-mədəni irsini, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, milli sənətkarlıq və suvenir məhsullarının istehsalının və satışının genişləndirilməsi də turizm cazibəsi yaradan əsas istiqamətlər kimi xarakterizə olunur.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, xidmət, turizm, kənd turizmi, turizm potensialı, turizm iqtisadiyyatı, kadr siyasəti*

Turizm xidmətlərinə motivlənmiş turistlər əraziyə səyahət edərək xarici valyutanın ölkəyə daxil olmasına şərait yaradırlar. Buna görə də turizm fəaliyyətinin mühüm iqtisadi funksiya yerinə yetirməsini vurğulamaq lazımdır. Turizm fəaliyyətinin digər mühüm funksiyaları kimi isə yeni ideya, siyasi, maarifləndirici, informasiya, tərbiyəedici, dünyagörüşünün genişləndirilməsi, insanlarda yeni maraqların formalaşdırılması, kadrların hazırlığı və təkmilləşdirilməsini göstərmək olar. Turizmin inkişaf etdirilməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsində və xarici iqdisadi əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır.

Turizmin iqtisadi mənası yeni iş yerlərinin təmin edilməsi, maddi ehtiyatın formalaşması, sahibkarlığın inkişafı və uyğun turizm bölgələrində ev təsərrüfatının inkişafı və nəticə etibarilə gəlir gətirmə qabiliyyətidir [3. s. 31]. Dövlət büdcəsini turizm iqtisadiyyatı üzərinə qurmuş və həyat səviyyəsi kifayət qədər yüksək ölkələr sadalamaq mümkündür. Bu, turizm iqtisadiyyatının ölkənin iqtisadi və sosial həyatında necə mühüm yer tutduğunu aydın şəkildə izah edir. Turizmin iqtisadi mahiyyəti onunla da izah olunur ki, o, müştərilərə məhsulunu və xidmətlərini təklif etməklə yerli sənayenin, kənd təsərrüfatının və digər sahələrin tələbini canlandırır, onların inkişafına, istehlak mallarının istehsalını artırmağa, məşğulluğun yüksəldilməsinə təsir göstərir. Bununla həm də turist axını mədəniyyət, əyləncə, istirahət müəssisələrinin (muzeylər, incəsənət, idman, sərgilər, xalq sənətkarlığı, abidələr və s.), mehmanxanaların, nəqliyyat müəssisələrinin gəlirlərini artırır. Bu isə vergi ödəmələri hesabına fayda verir və ölkəyə xarici valyuta axınına səbəb olur.

Qeyri neft sənayesinin inkişafı istiqamətində əsas hədəflərdən biri turizm iqtisadiyyatını yüksək gəlirli sahəyə çevirmək, müasir standartlara cavab verən, rəqabətqabiliyyətli turizm obyektlərinin yaranması və ixtisaslı kadrların bu yerlərdə işlə təminidir [1. s 10]. Turizmin iqtisadi potensialını büdcəsinin əsas hissəsini neft sənayesi təşkil edən ölkələrin qeyri neft sənayesinin inkişafı üçün əsas prioritet sahə hesab etmək olar. Əgər bir neçə il əvvəl turizm fəal istirahətin geniş yayılmış və ən kütləvi növlərindən biri hesab edilirdisə, artıq indi bu sahə daha qlobal məna kəsb etməyə başlayıb. Belə ki, hazırda turizm əsasən iqtisadi inkişaf, zəngin büdcə mənbəyi hesab olunur. İspaniya, Fransa kimi inkişaf etmiş Avropa ölkələrində turizmdən gələn gəlir ölkə büdcəsinin təqribən 8-10 faizini formalaşdırır. Hətta inkişafdan geridə qalan Afrika ölkələrində də turizmin inkişafı prioritet sayılır.

Xüsusən savannalara, milli qoruqlara təşkil edilən turizm adrenalin həvəsli və cibizəngin turistlər üçün cəlbedici bir məkana çevrilib. Təbii ki, təbiəti və iqlimi zəngin Azərbaycanın da milli turizmdən qazanacağı xeyli sahələr mövcuddur. Məhz bu sahələrin prioritet təşkil etməsi üçün Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı özünü imzalanan Dövlət proqramlarında göstərir. Belə ki, son 10 ildə turizmin inkişafına dair imzalanan bir neçə dövlət proqramı mövcuddur. Xüsusən, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, həmçinin turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlanmışdır.

Ölkəmizdə mineral suların, müalicə nefti və palçığın olması kurort yerlərinin əhəmiyyətini artırmaqla buraya turist axınını gücləndirir. Bu sahədə aparılan işlərin nəticəsi olaraq, demək olar ki, son illər dövlətimizin qayğısı sayəsində turizm inkişafımızın prioritet istiqamətlərindən birinə çevrilmişdir. Turizmin ölkə iqtisadiyyatının mühüm hissəsinə çevrilməsi regionların infrastruktur cəhətdən inkişafını da təmin edir. Turizmin dəniz, ekoloji, müalicə, dağ, kənd yaşıl, dini ziyarət və s. kimi növləri hal hazırda mövcuddur və onların inkişafı üçün müvafiq dövlət tədbirləri həyata keçirilir.

2008-ci ilin may ayında İslam Konfransı Təşkilatına üzv ölkələrin nümayəndələrinin iştirakı ilə Naxçıvanda keçirilən "Dini və sağlamlıq turizmi: mənəvi və fiziki istirahətin təşkili" mövzusunda beynəlxalq konfrans muxtar respublikanın turizm imkanlarının təbliğində mühüm əhəmiyyətə malik olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" Dövlət Miqrasiya Xidmətinin də üzərinə bir sıra öhdəliklər qoyub, vəzifələrini artırıb. Belə ki, Xidmət tərəfindən qarşıya qoyulmuş vəzifələr uğurla icra edilərək nəzərdə tutulmuş turizm sektorunun inkişafı üçün Naxçıvan Muxtar Respublikasında əlverişli mühitin formalaşması məqsədi ilə sərhəd-keçid prosedurlarının sadələşdirilməsi və sürətləndirilməsi, sərhəd-buraxılış məntəqələrində sürətli keçidin təmin edilməsi üçün zəruri tədbirlərin görülməsi istiqamətində mühüm addımlar atılıb.

Naxçıvan MR-da 1 Milli Park, 3 Yasaqlıq və 1 Qoruq fəaliyyət göstərir, dünyaca məşhur onlarla tarixi-mədəni abidə və tikililər restovrasiya və bərpa işləri görülərək qorunmağa davam etdirilir. 2006-cı ilin noyabrında Naxçıvan şəhərində keçirilmiş "Turizm, İnkişaf və Perspektivlər" mövzulu beynəlxalq konfrans muxtar respublikada turizm sektorunun inkişaf etdirilməsi istiqamətində uğurlu addım olmuş və yeni layihələrin hazırlanmasına rəvac vermişdir.

Burada qədim dövrlərin yadigarı olan tarixi-memarlıq abidələri: Möminə Xatun, Yusif Küseyir oğlu, Gülüstan türbələri, Qarabağlar Memarlıq Kompleksi, həmçinin təbiət abidələri, əsrlərdən bəri qorunub saxlanılan, yaşı 800 ildən artıq olan Şərq çinarı, narbənd və tarixi yaddaşı özündə əks etdirən, qədim insanların ilk məskunlaşdığı Gəmiqaya abidəsi, Kilit mağarası, Qazma mağarası tarixi-irsi və tarixi-mədəni turizm komponentləri kimi xarakterizə edilə bilər. Bu yerlərin əzəmətinin, məğlubedilməzliyinin simvolu olan Əlincə qalası, möhtəşəmliyi ilə seçilən Haçadağ, Naxçıvanqala, Göy-göl, Əshabi-Kəhf və yüzlərlə qədim sənət əsərləri, ərazidə 250-dən çox mineral və müalicəvi əhəmiyyətli suyun mövcudluğu və 2008-ci ildə Duzdağ Fizioterapiya Mərkəzi, həmçinin Darıdağ Arsenli Su müalicəxanası müasir tələblər səviyyəsində yenidən qurulması, müayinə, müalicə və istirahət üçün hər cür şərait yaradılması Naxçıvan diyarının analoqu olmayan turizm potensialıdır. Regionlarda turizmin inkişafı istiqamətində görülən işlərə misal olaraq yeni turizm obyektləri inşa edilməsi, turizm potensiallı yerlərin müəyyən edilərək gələcək inkişaf proqramına daxil edilməsi göstərilə bilər [4. s 30]. Bu məqsədə xidmət göstərən tədbirlər tərkibində muxtar respublika daxilində müasir nəqliyyat infrastrukturunun təmin edilməsi, təbiətin gözəl guşələrinə və ucqar kəndlərə rahat yolların çəkilişi və bütün muxtar respublika ərazisində yüksək sürətli LTE şəbəkəsinin təmin edilməsi özünəməxsus yer tutur.

Muxtar respublikada turizmin inkişafına əks təsirini göstərən bəzi amillər vardır: blokada vəziyyətində olması, beynəlxalq aləmə birbaşa çıxışının olmaması, ixtisaslı və peşəkar kadr ehtiyatlarının azlığı və turistik destinasiyaların nöqtələrinin kifayət qədər formalaşmaması. Fikrimizcə, muxtar respublikada bu problemlərin aradan qaldırılması üçün ilk növbədə müəyyən

sahələrdə ixtisaslı kadrların hazırlanması və yerləşdirilməsi, turizm obyektlərində çalışan işçilərin peşə-ixtisas təlimlərinin təşkilinin intensiv hal alması zəruri addım kimi qiymətləndirilməlidir. Çünki turizm ehtiyyatlarının mövcudluğu və müasir turizm şəraitin yaradılması tədbirləri qədər bu sahənin hər istiqamətində peşəkar kadr siyasətinin tədbiqi də kifayət qədər əhəmiyyətli fəaliyyətdir. Bu tədbirlərə dəstək xarakterli fəaliyyət kimi kənd turizminin inkişafı yönündə yerlərdə əhaliyə və yerli idarəetmə orqanlarına treninqlərin təşkili, yerlərdə tədbirlərin təşkili, yerli və xarici sərgi və kütləvi informasiya vasitələrində tanıtımı və nümayişinin həyata keçirilməsi məqsədəuyğundur. Bu məqamda yerli turistlərin də əvəzedilməz missiyası vardır. Belə ki, vaxtaşırı muxtar respublikada daxili səyahətlərin, ekskursiyaların təşkil edilməsi və həmin yerlərin fotoşəkillərinin, kiçik həcmli video roliklərinin sosial şəbəkələrdə nümayişi də bu məqsədə xidmətdir.

Qlobal dünyanın bügünkü vəziyyətini nəzərə alsaq pandemiya sonrası turizm fəaliyyəti əvvəlki kimi olmaya bilər və bu, yeniliklər axtarılması, fərqli yolların tədbiqi üçün bir fürsətdir. Məsələn, gələcək turizm adətləri kimi düşünürəm ki, artıq 5 ulduzlu, çox insandan ibarət tədbirlərin yer aldığı turizm obyektləri, otellərlə yanaşı, kiçik, qədim adət-ənənəyə malik, mənzərəli regionlara və kəndlərə ailə turizmi formasında səyahətlər ediləcəkdir. Bu isə indidən tədbir görmək, yeniliklərə başlamaq üçün əsasdır. Müasir dövrdə get-gedə vüsət alan turizm biznesi sahəsində kənd turizmi də özünə kifayət qədər yer tutmaqdadır. Əlbəttə, bir sıra turizm növləri-kruizlər, çimərlik, işgüzar, dini, mədəni turizm növləri ilə müqayisədə kənd turizminin həcminin geniş olmadığını göstərmək lazımdır. Lakin bununla yanaşı, yerinə yetirdiyi mühüm sosial-iqtisadi funksiyalarına görə o bütün dünyada, o cümlədən bizim ölkəmizdə də əhəmiyyət qazanmaqdadır. Buna görə də kənd turizmini həm bir tədqiqat obyekti, həm də turizmin təbliğində geniş kütlə üçün asan mənimsənilən bir turizm növü kimi hesab etmək olar. Belə ki, bu göstəricilərə malik regionlarımızda self-care deyilən özünə qulluq imkanları tam şəkildə təmin edilmiş turizm obyektlərinin inşa edilməsi, həmin yaşayış məntəqələrində təmir işləri və ənənəvi irslə müasirliyi vəhdət şəklində təqdim edəbiləcək görünüş və şəraitin təmin edilməsi ön plana çəkilməlidir [5]. Çünki, kənd turizmi yalnız biznes növü deyil, eyni zamanda ictimai diplomatiya vasitəsidir. İnsanlar otellərdə qapalı şəkildə qalmaq istəmirlər, onlar yerli sakinlərlə münasibət qurmaq, yerli məişət və adət-ənənələrlə tanış olmaq istəyirlər. Bu səbəbdən ev sahibləri xarici turistlər üçün ölkənin xoş simasını təbliğ etməli, digər regionlardan gələnlərlə isə sıx daxili əlaqələr yaratmalıdırlar.

## ƏDƏBİYYAT

1. Əli Əlirzayev, Saidə Aslanova. Turizmin inkişafının sosial-iqtisadi problemləri. 2006
2. Горбылева З.М. Экономика предприятий туризма. 2011
3. Əlirzayev Ə.Q. Turizm İqtisadiyyatı və İdarəedilməsi. Bakı: 2011
4. Əli Cabbarov. Turizmin İqtisadi Əsasları. Bakı: 2015
5. https://www.tourismtiger.com/blog/self-service-main-tourism-trend-2019

## SUMMARY

**Asif Abdullayev**

## EXISTING TOURISM POTENTIAL IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC AND PROBLEMS OF ITS USE

The essence of tourism reveals its economic meaning. The economic meaning is the ability to generate income as an area. Tourism forms its own material resources and organizes appropriate funds. Gains income as a result of its activities. Among the main goals set for the development of tourism in Azerbaijan are the study and expansion of tourism resources. In the Nakhchivan Autonomous Republic, the expansion of the range of services, excursions and other cultural events necessary to meet the needs of tourists, hotels and other Systematic measures are being taken to expand the construction of tourism facilities, increase tourism routes and develop tourism. Religious

shrines, medical tourism and rural green tourism can be mentioned as priority types of tourism in the Autonomous Republic. It is also important to strengthen state regulation in the field of recreational tourism, to publish and disseminate materials reflecting our national traditions, historical and cultural heritage of the Azerbaijani people, the history of different regions and cities, to expand the production and sale of national crafts and souvenirs.

***Key words**: agriculture, services, tourism, rural tourism, tourism potential, tourism economy, personnel policy*

**РЕЗЮМЕ**

**Асиф Абдуллаев**

**СУЩЕСТВУЮЩИЙ ТУРИСТИЧЕСКИЙ ПОТЕНЦИАЛ В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ И ПРОБЛЕМЫ ЕГО ИСПОЛЬЗОВАНИЯ**

Суть туризма раскрывает его экономический смысл. Экономический смысл - это способность приносить доход как область. Туризм формирует собственные материальные ресурсы и организует соответствующие фонды. Получает доход в результате своей деятельности. Среди основных целей, поставленных перед развитием туризма в Азербайджане, - изучение и расширение туристических ресурсов. В Нахчыванской Автономной Республике осуществляется расширение спектра услуг, экскурсий и других культурных мероприятий, необходимых для удовлетворения потребностей туристов, гостиниц и других. Систематические меры принимаются для расширения строительства туристических объектов, увеличения туристических маршрутов и развития туризма. Религиозные святыни, медицинский туризм и сельский зеленый туризм можно назвать приоритетными видами туризма в Автономной Республике. Также важно усилить государственное регулирование в сфере рекреационного туризма, публиковать и распространять материалы, отражающие наши национальные традиции, историческое и культурное наследие азербайджанского народа, историю разных регионов и городов, расширять производство и продажу национальной поделки и сувениры.

***Ключевые слова:** сельское хозяйство, услуги, туризм, сельский туризм, туристический потенциал, экономика туризма, кадровая политика*

**MƏDİNƏ ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*mdinallahverdiyeva46@gmail.com*

# MÜASİR ŞƏRAİTDƏ MALİYYƏ VASİTƏÇİLİYİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

*Maliyyə vasitəçiləri müvəqqəti olaraq sərbəst pul vəsaitlərinə malik olan şəxslərin pul vəsaitlərinə ehtiyacı olan şəxslərlə qarşılıqlı əlaqələrinin təşkili sahəsində ixtisaslaşır. Dünyanın inkişaf etmiş ölkələrində maliyyə sisteminin bu sahəsində böyük maliyyə resursları cəmləşmişdir və bunlar da hər şeydən əvvəl investisiya məqsədləri üçün istifadə edilir. Maliyyə vasitəçilərinin növlərinin çoxluğuna baxmayaraq onlar ümumi funksiyanı yerinə yetirirlər: öz son istehlakçılarına maliyyə resurslarının səmərəli şəkildə ötürülməsini təmin etməklə "müxtəlif maliyyə məhsullarını" əldə edir və satırlar.*

*Maliyyə puldan istər məzmununa, istərsə də yerinə yetirdiyi funkasiyalara görə əhəmiyyətli dərəcədə fərqlənir. Maliyyə pul vəsaiti fondlarının yaradılması, bölüşdürülməsi və istifadəsinə dair insanlar arasındakı münasibətlərdir. Maliyyə mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yenidən bölgüsü və istifadəsi prosesində ictimai-iqtisadi münasibətlərin fəaliyyəti ilə bilavasitə əlaqədardır. Maliyyə münasibətləri inkişaf etdikcə maliyyə qarşısındakı problemlərin də əhatəsi və təsir dairəsi genişlənir.*

***Açar sözlər:** maliyyə vasitəçiləri, bazar iqtisadiyyatı, pul vəsaitləri, investisiya, qiymətli kağızlar, maliyyə ehtiyatları*

Bu gün maliyyə sisteminin və bütün bazar infrastrukturunun formalaşması sahələr və regionlar arasında kapitalın axınını təmin edən kommersiya banklarının, sığorta kompaniyalarının və digər maliyyə institutlarının fəaliyyətlərindən asılıdır. Maliyyə vəsaitlərinin hərəkəti əmanət sahiblərindən pula ehtiyacı olanlara keçməsi ilə müşaiyət olunur. Pula ehtiyacı olanlar firmalar, hökümət, əhali və xarici vətandaşlardır. Eyni zamanda həmin subyektlərdə maliyə vəsaitlərinin artıqlığı da yarana bilər. Yəni bir səhədə maliyyə vəsaitlərinin artıqlığı, digər sahədə çatışmamazlıq varsa, vəsaitin bir sahədən başqa sahəyə axını baş verir. Bu axın maliyyə vasitəçiliyi və maliyyə bazarı vasitəsilə həyata keçirilir. Maliyyə vasitəçiləri kapitalın cəlb edilməsi və bölüşdürülməsi zamanı xərclərin artmasına səbəb olurlar. Odur ki, kapitalın birbaşa hərəkətini nəzərdə tutan maliyyə bazarı daha səmərəli hesab edilir. Müasir şəraitdə maliyyə vasitəçiliyi iqtisadiyyatın "Sinir mərkəzi" hesab edilir. Bu iqtisadi proseslərin idarə edilməsi, onlara xidmət göstərilməsi və çox saylı iştirakçıların fəaliyyətini təmzimləyən mürəkkəb bir strukdurdur.

Müasir bazar iqtisadiyyatı mürəkkəb sistem olub, özündə bir çox elementləri birləşdirir. Ev təsərrüfatları, firmalar, bu subyektlər arasında əlaqə yaradan resurs və məhsul bazarları, hökumət qurumları özünəməxsus funksiyalar yerinə yetirərək vahid iqtisadi sistemi əmələ gətirirlər. Bu iqtisadi sistemdə bəzi iqtisadi subyektlər sərbəst pul vəsaitlərinə malik olurlar, bəzilərinin isə əlavə pul vəsaitlərinə ehtiyacları yaranır. Belə ki, cəmiyyətin illik gəlirlərinin bir hissəsi (böyük hissəsi) istehlak xərclərinə, qalan hissəsi isə yığıma yönəldilir.

Maliyyə vasitəçilərinin funksiyaları aşağıdakılardır:

1. Maliyyə vasitəçisi əmanətlərin müxtəlif növ maliyyə alətləri üzrə bölüşdürülməsi yolu ilə diversifikasiyasını həyata keçirir;
2. Maliyyə vasitəçisi kredit riskini azaltmaq məqsədilə borcalanın ödəmə qabiliyyətliliyini yoxlayır;
3. Maliyyə vasitəçiləri münasib şərtlərlə borc vermək imkanı olan kreditorların axtarışı prosesini asanlaşdırır;
4. Maliyyə vasitəçiləri normal iqtisadi şərait daxilində kreditə görə faiz dərəcələrini aşağı salır;
5. Maliyyə vasitəçiləri pul vəsaitlərini akkumlyasiya edir və bunun hesabına borcalanlarını böyük pul vəsaitlərinə olan tələbini təmin edir.

Adətən sərbəst pul vəsaitlərinə malik olanlarla bu vəsaitlərə ehtiyacı olanlar bir-birlərindən fərqlənirlər. Bu baxımdan iqtisadiyyatda maliyyə aktivlərinin yaranması vətəndaşların, firmaların və

hökumətin yığımının onların real akivlərə investisiya qoyuluşlarının həcmindən fərqlənməsi ilə əlaqədar olur. Belə şəraitdə iqtisadiyyatın normal inkişafı üçün fiziki və hüquqi şəxslərin müvəqəti sərbəst pul vəsaitlərinin kommersiya əsasında səfərbər edilməsi və onların iqtisadiyyatın müxtəlif sektorları arasında bölüşdürülməsi və yenidən bölüşdürülməsi tələb olunur. Bu baxımdan iqtisadi sistemin səmərəli inkişfının təmin edilməsində sərbəst pul vəsaitlərinə malik olanlarla belə vəsaitlərə ehtiyacı olanlar arasında əlaqə yaradan təkmil maliyyə bazarının mövcud olmasının mühüm əhəmiyyəti vardır.

İnvestisiya — gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir. Bunlara pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar və s. aiddir.

İnvestisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusudur. Maliyyə aktivlərinə investisiya qoyuluşu qiymətli kağızlara və digər maliyyə aktivlərinə (ssudalara, digər müəssisələrin nizamnamə fondlarına və s.) qoyuluşları əks etdirir. Onlar ölkə və xarici maliyyə aktivlərinə investisiyaları birləşdirir. İnvestorlar ilə biznes arasında münasibət birbaşa və dolayı formada müəyyən oluna bilər. İnvestisiyaların digər üsulu sizin əvəzinizə qərarın başqasına verilməsindən ibarətdir. İnvestisiya etməyin belə üsulu da kifayət qədər geniş yayılıb. Onları maliyyə vasitəçiləri ilə həyata keçirilən investisiyalar adlandırmaq olar. Belə olan halda investorun özü deyil, maliyyə vasitəçisi pul vəsaitlərinin hara investisiya olunacağına qərar verir.

Digər maliyyə vasitəçilərinə investisiya fondlarını misal göstərmək olar.

Maliyyə vasitəçiləri ilə investisiyanın üstünlükləri:

- Vaxta qənaət;
- Peşəkar idarəetmə;
- Dövlət tərəfindən əlavə nəzarət (bəzən);
- Diversifikasiya hesabına riskin azaldılması

Maliyyə vasitəçiləri ilə investisiyanın çatışmazlıqları:

- Biznes üzərində nəzarət mümkün deyil (əksər hallarda);
- Mənfəətin bir hissəsi vasitəçidə qalır;
- Yüksək gəlirlilik ehtimalı azdır.

Maliyyə vasitəçilərindən biri kimi bankların fəaliyyəti müasir dövrümüzdə kifayət qədər genişlənib.

Beləliklə, deyə bilərik ki, maliyyə vasitəçiləri maliyyə bazarının əhəmiyyətli subyektlərindən biridir, onlar bu bazarın müxtəlif seqmentlərinin fəaliyyətinin effektivliyinin artırılmasını təmin edir. Eyni zamanda maliyyə vasitəçilərinin professional fəaliyyəti, adətən, yüksək gəlirli biznes hesab olunur ki, bu da yüksək maliyyə ixtisası tələb edir.

Müasir şəraitdə ölkə iqtisadiyyatının daha geniş miqyasda təşəkkül tapması üçün ölkə güclü maliyyə ehtiyatlarına malik olmalıdır. Xalq təsərrüfatı sahələrinin proporsional inkişafı isə məhz maliyyə mənbələrinin çox olması ilə tamalanır ki, bu da öznü ölkənin maliyyə imkanlarında reallaşdıra bilir. Başqa sözlə respublika iqtisadiyyatınının hərtərəfli inkişafı üçün güclü maliyyə mənbələrinin olması vacib olduğu qədər, həmin çatışmamazlığı həll edən digər maliyyə mexanizmində olması olduqca iqtisadi cəhətdən faydalıdır. Bazar iqtisadiyyatın sistemində maliyyə münasibətlərinin hədləri ictimai istehsalın çərçivəsindən kənara çıxır və ictimai həyatın digər sahələrini də əhatə edir. İctimai həyatın müəyyən tərəfinə müdaxilə edən və o dairədə özünəməxsus xüsusiyyətləri əks etdirən maliyyə münasibətləri əksər hallarda özünü pul formasında təzahür etdirir. Maliyyə münasibətlərinin mühüm əlamətlərindən biri kimi onu xatırlatmaq yerinə düşər ki, maliyyə münasibətləri əksər hallarda maliyyə resursları adlanan bir formanı qəbul edən pul gəlirləri və yığımlarının formalaşması, yaranması ilə əlaqədardır. Onu da etiraf etməliyik ki, əməli həyatımızda maliyyə sisteminin maliyyə resursları formasını qəbul edən pul vəsaitlərinin mütləq hərəkəti ilə müşayiət olunur və yerinə yetirilir. Deməli, maliyyə resursları maliyyə münasibətlərinin maddi daşıyıcısı rolunu oynayır.

Müasir şəraitdə aparılan iqtisadi islahatların əsasın əlbəttə ki, iqtisadi stimullaşdırma sistemi təşkil edir. Bu islahatlar müəssisələrə iqtisadi azadlıq və maliyyə müstəqilliyi verməlidir və eyni zamanda onların məsuliyyəti də artmalıdır. Bazar mexanizminin real olaraq işə düşməsinin əsas vasitələrdən biri də ayrı-ayrı təsərrüfatların subyektlərin həqiqi bazara xas olan əmtəə-pul münasibətlərinə uyğunlaşdırılmasıdır.

## ƏDƏBİYYAT

1. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Y. Maliyyə nəəzəriyyəsi, dərslik. Bakı: 2014
2. Həsənli M.X. Maliyyə. Bakı: 2006
3. Zeynalov V.Z. Maliyyənin əsasları. Bakı: 2008
4. Azərbaycanda maliyyə bazarının formalaşması və bazar iqtisadiyyatında maliyyə-kredit sisteminin problemləri. Bakı: Poliqraf, LTD, 2003
5. http://www.kitab.az.
6. http://www.kitabxana.org.
7. https://banker.az/maliyy%C9%99-vasit%C9%99ciliyinin-mahiyy%C9%99ti/

## SUMMARY

**Madina Allakhverdieva**

### IMPROVING THE FINANCIAL MEDIATION SYSTEM IN MODERN CONDITIONS

Financial intermediaries specialize in the organization of the interaction of persons with temporary free cash with persons in need of cash. In the developed countries of the world, large financial resources are concentrated in this area of the financial system, and they are, above all, used for investment purposes. Although there are many types of financial intermediaries, they perform a common function; they acquire and sell "various financial products" by ensuring the efficient transfer of financial resources to their final consumers.

Finance differs significantly from money both in its content and in the functions it performs. Finance is the relationship between people regarding the creation, distribution and use of cash funds. Finance is directly related to the activities of socio-economic relations in the process of redistribution and use of centralized and decentralized monetary funds. As financial relations develop, so does the scope and impact of financial challenges.

***Key words:*** *Financial intermediaries, market economy, cash, investment, securities, financial resources*

## РЕЗЮМЕ

**Мадина Аллахвердиева**

### СОВЕРШЕНСТВОВАНИЕ СИСТЕМЫ ФИНАНСОВОГО ПОСРЕДНИЧЕСТВА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

Финансовые посредники специализируются на организации взаимодействия лиц, имеющих временно свободные денежные средства, с лицами, нуждающимися в денежных средствах. В развитых странах мира в этой области финансовой системы сосредоточены большие финансовые ресурсы, и они используются, прежде всего, в инвестиционных целях. Хотя существует много типов финансовых посредников, они выполняют общую функцию; они приобретают и продают «различные финансовые продукты», обеспечивая эффективную передачу финансовых ресурсов своим конечным потребителям.

Финансы существенно отличаются от денег как по своему содержанию, так и по выполняемым функциям. Финансы - это отношения между людьми относительно создания, распределения и использования денежных средств. Финансы напрямую связаны с деятельностью социально-экономических отношений в процессе перераспределения и использования централизованных и децентрализованных денежных средств. По мере развития финансовых отношений увеличиваются масштабы и масштабы финансовых проблем.

***Ключевые слова:*** *финансовые посредники, рыночная экономика, денежные средства, инвестиции, ценные бумаги, финансовые ресурсы*

**ÜLKƏR HƏSƏNZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*ulker.hasanzade89@gmail.com*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏBİİ TURİZM EHTİYATLARI

*Təbii turizm ehtiyatları turizmdə baza rolunu oynayır. Naxçıvan Muxtar Respublikasının təbii turizm ehtiyatlarını təbiət abidələri, mineral sular və duz mağaraları, qorunan ərazilər, yəni milli park, qoruq və yasaqlıqlar, mikroiqlim ehtiyatları, meşə resursları, nadir landşaft nümunələri olaraq sadalamaq olar. Bu turizm ehtiyatlarının bolluğu Naxçıvanda müalicə, kənd yaşıl, ekoloji turizm kimi bir çox turizm növünün inkişafına təkan verir.*
***Açar sözlər:*** *Təbiət abidələri, Batabat, Duzdağ, mineral sular, milli park, qoruq*

Müasir dövrdə sosial-iqtisadi inkişafa təsir edən sahələr arasında turizm xüsusi yer tutur. Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, əhalinin rifahının yüksəldilməsinə yönəlmiş təbii ehtiyatlardan istifadə prioritetləri turizm sahəsində də dayanıqlı inkişafa nail olmaq üçün əlverişli şərait yaratmışdır. Əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, zəngin mədəni irsi, təbii müalicə mərkəzləri, mineral suları, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir inkişafı muxtar respublikada turizmin inkişafına zəmin yaradan əsas ünsürlərdir. Təbii turizm ehtiyatları Naxçıvanda turizmin inkişafında böyük paya malikdir.

Naxçıvanın təbii turizm ehtiyatlarına təbiət abidələri, mineral sular və duz mağaraları, qorunan ərazilər yəni milli park, qoruq və yasaqlıqlar, mikroiqlim ehtiyatları, meşə resursları, nadir landşaft nümunələri kimi ehtiyatlar aid edilir.

Qədim Naxçıvan torpağı öz təbiət abidələri ilə çox məşhurdur. Naxçıvanda son illərdə ən çox üz tutulan təbii turizm obyektlərindən biri də Pəzməri şəlaləsidir. Su sərfi, axının sürəti, kinetik enerjisi və gücünə görə Azərbaycanın böyük şəlalələri sırasına daxil edilir. Yuxarı axarlarda kanyonvarı dar, kaskadlı dərələrdən keçən, əsasən, bulaq və qar suları ilə qidalanan Ayıçınqılı çayı Vənəndçaya töküldüyü yerin yaxınlığında, dəniz səviyyəsindən 2161 metr hündürlükdə gur şəlalə yaradır. Karbonatlı süxurlar üzərində nisbi hündürlüyü 16 metrə çatan şəlalənin orta illik su sərfi 1,34 m3/san-dir. Yayın əvvəllərində su sərfi 25 m3/san-ni ötə bilir. Suyun tərkibi hidrokarbonatlı, kalsiumlu, minerallaşma dərəcəsi 90 mq/l-dir. Zəngin su enerji ehtiyatına malikdir. Qaplan şəlaləsi adı ilə də tanınır. Bu isə onunla bağlıdır ki, Pəzməri çayının bir neçə qolu var və bu qollar birləşərək şəlalənin özünün töküldüyü çayı əmələ gətirir. Həmin qollardan ən bolsulu olanı isə Qaplan çayı adı ilə tanınır. Bu da həmin ərazidə qaplanın çox olması ilə əlaqələndirilir. Çünki bu dağlar heyvanat aləmi ilə məşhurdur. Zəngin təbiət burda ən müxtəlif heyvan növlərinin yaşamasına imkan verir. Burada dağ keçisi, ayı, canavar, porsuq və sair heyvanlara, o cümlədən müxtəlif meşə quşlarına rast gəlmək olar [ 1. Səh. 18].

Daha bir göz oxşayan təbiət abidəsi “Göy göl” Naxçıvan MR-nın Ordubad rayonunda yerləşir. Göygöl Naxçıvan – Ordubad yolunun Bist-Nurgüt istiqamətində yerləşir. Göllə bu istiqamətdəki ən sonuncu Nurgüt kəndi arasındakı məsafə təqribən 2 saata yaxındır. Göygöl dəniz səviyyəsindən təqribən 3000-3500 metr yüksəklikdə, dağların zirvəsində yerləşir. Gölün suyu bura ilin bütün fəsillərində yağan qar və yağışdan qidalanır. Hər tərəfdə bulaqlara rast gəlmək olur. Bu göl yerli əhali arasında “Dörd fəsil” gölü də adlanır. Çünki gölün ətrafına nəzər saldıqda bir tərəfində qar, bir tərəfində saralmış otlar, digər tərəfində isə yaz çiçəklərini müşahidə etmək olur.

Batabatı Naxçıvanın ən maraqlı təbiət abidəsi adlandırmaq olar. Batabat qalın meşələri, zəngin fauna və flora aləmi, gözəl landşaft mənzərələri, Zorbulağı, üzən adası qədim karvan yolu üzərində yerləşən Fərhad evi ilə tanınır. Burada dərman bitkilərinin bolluğu turistlərin bölgəyə diqqətini daha da artırır. Bu ərazinin təbii quruluşu və müasir yol infrastrukturunun olması Batabatda elmi araşdırmalar üçün zəmin yaradır. Batabat Astrofizika Rəsədxanasının burada yerləşməsinin səbəbi buranın coğrafi mövqeyi, havanın son dərəcə təmizliyi və günün istənilən saatında araşdırmaların aparılmasının mümkün olmasıdır. Bura Zorbulaq, Südlübulaq kimi şirin suları və “Narzan” tipli

Batabat mineral suları ilə məşhurdur. Üzən ada, Batabat yaylağı ərazisində əvəzedilməz təbiət abidəsidir. Biçənək aşırımından cənub-qərbə Batabat gölü ətrafında sürüşmələrin geniş yayıldığı ərazilərdir. 2100-2200 m mütləq yüksəkliyə malik bu sahələrdə torf və torflu torpaqlar yayılmışdır. İkinci Batabat gölü üzərində əmələ gəlmiş torf qatı geniş sahəni əhatə etməklə qalınlığı 2 m-ə çatır. "Üzən ada" adlandırılan bu kütlə küləyin təsiri ilə gölün üzərində hərəkət edir. Batabat qış turizmi üçün də əlverişlidir. Gələcəkdə bu sahənin inkişafı ilə Naxçıvana çoxlu turist cəlb edə bilərik.

Muxtar Respublikamız əsrlər boyu insanlar tərəfindən sağlamlıq məqsədləri üçün istifadə olunan təbii sərvətləri ilə də məşhurdur. Naxçıvanda mövcud olan quru iqlim, təmiz hava, mineral sular, dərman bitkilərinin bolluğu və duz mağaralarının müalicəvi əhəmiyyəti isə muxtar respublikaya müalicə turizmi məkanı kimi şöhrət gətirmişdir.

“Duzdağ” mərkəzi təkcə Azərbaycanda yox, onun hüdudlarından kənarda da çox məşhurdur. Bu təbii müalicə ocağı yerüstü və yeraltı hissələrdən ibarətdir. Yerüstü hissə “Duzdağ” otelinin ərasizisində, yeraltı hissə isə dağda 300 metrədən artıq dərinlikdə yerləşir. 2008-ci ildə yenidən qurulan Duzdağ Fizioterapiya Mərkəzində müayinə, müalicə üçün hər cür şərait yaradılmışdır. Unikallığı ilə dünyada yeganə olan bu müalicə mərkəzi tənəffüs yollarının qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanların ən çox üz tutduğu məkandır. Duzdağ mağaraları “Duzdağ” otelindən cəmi iki kilometr məsafədə yerləşir.

Kompleksin oteldə yerləşən yerüstü hissəsi kitabxana, kafe və rahat otaqlar ilə təchiz olunub. “Duzdağ” otelinin nəzdində fəaliyyət göstərən sanatoriya qonaqlara tam tibbi müşaiyət təklif edir. Burada müxtəlif tibbi istiqamətlər üzrə yalnız diplomlu mütəxəssislər çalışır [3].

Naxçıvan Muxtar Respublikası təbii və mineral suyu olan bulaqlarına görə dünyada diqqəti cəlb edən bölgələrdəndir. Bu səbəbdən də Naxçıvanı çox vaxt mineral suların təbii muzeyi adlandırırlar.

Muxtar respublikada 250-dən artıq mineral su mənbəyi var ki, bu bulaqların da əksəriyyəti Şahbuzda, Ordubadda, Şərurda və Naxçıvan çayının vadilərindədir. Şahbuz rayonunda 50-yə qədər mineral su mənbəyi, Babək rayonunda 50 mineral su mənbəyi, Culfa rayonunda 85 mineral su mənbəyi, Şərur rayonunda 7 mineral su mənbəyi, Ordubad rayonunda isə 29 mineral su mənbəyi müəyyən edilmişdir.

Blokada şəraitində olmasına baxmayaraq Naxçıvanda mineral su zavodları fəaliyyət göstərir. Respublikamızın bütün bölgələrinə, o cümlədən Bakı şəhərinə bu mineral sulardan çoxlu sayda göndərilir [1. Səh. 26].

Sirab mineral su yatağı Babək rayonu ərazisində, Sirab kəndindən 3 km şimalda, dəniz səviyyəsindən 1100 m hündürlükdə yerləşir. Sirab suyu qədim zamanlardan məşhur olmaqla mühüm müalicə vasitəsi kimi tanınıb. Sudan mədə-bağırsaq öd yolları və qaraciyər xəstəliklərinin müalicəsində istifadə olunur.

Badamlı mineral su yatağı Şahbuz şəhəri ərazisində Badamlı kəndindən 3 km şimal qərbdə, dəniz səviyyəsindən 127 m hündürlükdə yerləşir. Bu yataq bir neçə bulaqdan ibarət qrup şəklindədir. Badamlı suyunu mədə-bağırsaq və qaraciyərin bəzi xəstəlikləri zamanı içmək faydalıdır. Darıdağ mineral su yatağı Culfa şəhərindən 8 km şimal-şərqdə, Darıdağın ətəyində yerləşir. Dəniz səviyyəsindən 800-900 m hündürlükdədir. Darıdağ suyundan bir çox xəstəliklərin müalicəsi zamanı istifadə olunur [2. Səh. 151-152].

Turizmin inkişafında təbii turizm ehtiyatlarından olan milli park və qoruqların da rolu danılmazdır. Ərazidə qorunan təbii ərazilərin olması ekoloji turizmin inkişafı üçün zəmin yaradır.

Akademik Həsən Əliyev adına Zəngəzur Milli parkının yaradılmasında məqsəd ərazidə ayrı-ayrı komponentlərin mühafizəsi, ərazinin özünəməxsus iqlimə, relyefə və digər fiziki-coğrafi xüsusiyyətlərə malik olması, burada müxtəlif növ heyvanların, o cümlədən, endemik növlərin qorunub saxlanmasıdır. Bütün bunlarla yanaşı, eyni zamanda ekoloji monitorinqin həyata keçirilməsi, əhalinin ekoloji cəhətdən maarifləndirilməsi, turizm üçün əlverişli şəraitin yaradılmasından ibarətdir. Ərazisinin çox hissəsi dağlıqdır. Milli Park zəngin bioloji müxtəlifliyə malikdir. Burada Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmiş 58 (35 onurğalı və 23 həşərat) heyvan və 39 bitki növü vardır. Milli Parkın ərazisində nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan fauna növlərindən Asiya bəbirini, dağ qoyunu-muflonu, bezoar keçisini, ağ quyruq dəniz qartalını, berkutu, bəzgəyi müşahidə etmək olar [4].

Şahbuz dövlət təbiət qoruğu 16 iyun 2003-cü ildə yaradılmışdır. Qoruğun əsas torpaq sahələri dəniz səviyyəsindən 2200-2400 m hündürlükdəki dağlıq sahələri, Batabat gölü və Biçənək aşırımı ərazilərini əhatə edir. Ərazidə 2899 bitki növü yayılmışdır. Geniş müxtəlifliyə malik bitki örtüyü 285 növ faunanın bu ərazilərdə məskunlaşmasına imkan yaratmışdır. Şahbuz dövlət təbiət qoruğunun su

ehtiyatları əsasən atmosfer çöküntüləri hesabına formalaşan Batabat mineral bulaqlarından ibarətdir:

Bu mineral bulaqlar Naxçıvan şəhərindən 65 km məsafədə, dəniz səviyyəsindən 2445 m yüksəklikdə yerləşirlər.

Naxçıvan MR-də əlverişli iqlim şəraitinin, saf suların, yaşıl mənzərələrin və başqa təbii turizm ehtiyatlarının bolluğu burada kənd turizminin, ekoloji turizmin də inkişafına müsbət təsir göstərir. Muxtar Respublikanın Şahbuz və Ordubad rayonlarında kənd turizmi üçün əhəmiyyətli kəndlər var. Həyata keçirilən tədbirlər çərçivəsində kənd turizminin yaradılması da diqqət mərkəzində saxlanılır. Artıq insanlar şəhərin sıxlığından, abı-havasından əziyyət çəkib ucqar yaşayış yerlərinə üz tuturlar. Muxtar respublikanın ərazisi bu baxımdan böyük potensiala malikdir.

Hal-hazırda fəaliyyət göstərən Ağbulaq İstirahət Mərkəzi eyniadlı kəndin kənarında, gözəl təbiət mənzərəsinə sahib geniş bir ərazidə yerləşir. Dəniz səviyyəsindən iki min metrə qədər hündürlüyə malikdir. Ağbulaq İstirahət Mərkəzi xidmət səviyyəsi, yaradılmış hərtərəfli şəraitə görə nümunəvi turizm obyekti sayılır. Ərazinin relyefi və iqlim xüsusiyyətləri dağ xizəkçiliyinin inkişafı üçün də geniş imkanlar açır. Burada Ağbulaq Xizək Mərkəzi üçün inzibati bina inşa olunub. Beləliklə, buraya turistlər həm yay, həm də qış fəslində üz tuta bilərlər [5].

Qeyd etdiyimiz zəngin təbii turizm ehtiyatları muxtar respublikamızda turizmin bir çox sahəsinin inkişafına imkan yaradır. Bu obyektlərdə infrastrukturu yaxşılaşdırmaq, marşrutlar təyin etməklə bu turizm ehtiyatlarından daha səmərəli şəkildə istifadə edə bilərik. Bununla da muxtar respublikamızın daha güclü turizm məkanına çevrilməsinə və daha çox turist cəlbinə nail ola bilərik.

## ƏDƏBİYYAT

1. Bağırov F. Naxçıvanın təbii sərvətləri. Naxçıvan: 2008
2. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Elm, 1999
3. azerbaijan-booking.com
4. files.preslib.az. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin prezident kitabxanası. Milli parklar
5. turizm.nakhchivan.az

## SUMMARY

**Ulker Hasanzade**

## NATURAL TOURISM RESERVES OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

Natural tourism resources play a basic role in tourism. Natural tourism resources of the Nakhchivan Autonomous Republic can be listed as natural monuments, mineral waters and salt caves, protected areas, ie national parks, reserves and sanctuaries, microclimate resources, forest resources, rare landscape samples. The abundance of these tourism resources stimulates the development of many types of tourism in Nakhchivan, such as medical, rural green, eco-tourism.

***Key words:*** *monuments of nature, Batabat, Duzdag, mineral waters, national park, nature reserves.*

## РЕЗЮМЕ

**Улькер Гасанзаде**

## ПРИРОДНЫЙ ТУРИЗМ ЗАПОВЕДНИКОВ НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Природные туристические ресурсы играют основную роль в туризме. Природные туристические ресурсы Нахчыванской Автономной Республики могут быть перечислены как памятники природы, минеральные воды и соляные пещеры, охраняемые территории, то есть национальные парки, заповедники и заказники, ресурсы микроклимата, лесные ресурсы, редкие образцы ландшафта. Обилие этих туристических ресурсов стимулирует развитие многих видов туризма в Нахчыване, таких как медицинский, сельский зеленый, экологический туризм.

***Ключевые слова:*** *памятники природы, Батабат, Дуздаг, минеральные воды, национальный парк, заповедни*

# MÜNDƏRİCAT
# PLENAR İCLAS

1. **Elbrus İsayev.** Müasir dövürdə elmi innovasiya fəaliyyətinin təşkili............................................3
2. **Rafael Əliyev.** Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin keçdiyi inkişaf yolu......5
3. **Teymur Abbasov.** Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadi inkişafın təmin olunması və mühasibat uçotunun beynəlxalq standartlara keçməsinin əsas şərtləri........................7
4. **Mehriban İmanova.** Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən etibarlı maliyyə mühitinin yaradılması və mühasiblərin peşəkar sertifikasiyasının əhəmiyyəti..............................12

# I BÖLMƏ
# MÜHASİBAT UÇOTU VƏ MÜASİR MALİYYƏ MEXANİZMLƏRİ

5. **Zəhmət Şahverdiyev.** Ölkənin daxili inkişafı naminə Heydər Əliyev tərəfindən hazırlanan sənədlər Azərbaycan iqtisadiyyatının təməlidir..........................................................................18
6. **Nuriyyə İbrahimova.** Müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin iqtisadi təhlilində mənfəət bir iqtisadi koteqoriya kimi..........................................................................................25
7. **Samir Həziyev.** İnnovasiyalı iqtisadiyyatda müəssisələrin maliyyə planlaşdırılması və idarə edilməsinin əsas prinsipləri.........................................................................................30
8. **Əbdülhüseyn Zamanov.** Müstəqilik dövründə Naxçıvan Muxtar Respublikasının maliyyə sisteminin inkişaf xüsusiyyətləri..........................................................................................36
9. **Elvin Nəcəfov.** Firmanın investisiya fəaliyyəti və maliyyə mexanizmi.......................................42
10. **Mehparə Məmmədova.** Regional hesablar sistemi, Naxçıvan Muxtar Respublikasının xərc-buraxılış modelinin formalaşdırılması problemləri və imkanları................................................47
11. **Anar Allahverdiyev.** İqtisadiyyatın inkişafıda bank-kredit amillərinin qabaqcıl təcrübəsi...........................................................................................................................52
12. **Xaqani Vəliyev.** Maliyyə nəzarəti tədbirlərinin planlaşdırılması və təşkili zamanı risk faktorlarının qiymətləndirilməsi........................................................................................57
13. **Ramil Kərimov**. Dövlət büdcəsinin gəlirlərinin formalaşması prinsipləri................................61
14. **İslam Hüseynov.** Büdcənin icra olunmasında maliyyə nəzarətinin rolu...................................66
15. **Elvin Nağıyev.** Gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası............71
16. **Xəlil Vəlizadə.** Maliyyələşmədə informasiya texnologiyalarının rolu......................................76
17. **Pərvin Cümşüdova.** Mühasibat uçotunun yaranma tarixi və inkişaf mərhələləri.....................80
18. **Ramil Hüseynov.** Dövlət büdcəsi və sosial-iqtisadi inkişaf..................................................... 84
19. **Zəhra İsmayılova.** Maliyyə nəzarəti maliyyə hüququnun ayrılmaz tərkib hissəsidir................88
20. **Anar Həsənov.** Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi siyasətin maliyyə təminatı.........................................................................................................92
21. **Təhminə Nağıyeva.** Naxçıvan Muxtar Respublikasında qiymətli metallarla bağlı əməliyyatların aparılmasına nəzarət..................................................................................................96
22. **Qənbər Xudiyev.** Vergitutma və maliyyə idarəçiliyi arasında olan əlaqə...............................103
23. **Ülvi Cəfərov.** Dövlət büdcəsinin icrasında xəzinədarlığın rolu..............................................106

## II BÖLMƏ
## İNNOVASİYAYÖNÜMLÜ İQTİSADİYYATIN TƏNZİMLƏNMƏSİ

**24. Mübariz Bağırov.** İnnovativ inkişaf iqtisadi siyasətin prioriteti kimi......................................110
**25. İsa Alıyev.** Aqrar sahədə dayanıqlı istehsalın təmin olunması perspektivləri haqqında.......................................................................................................................114
**26. Nazim Əhmədov.** Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında aparılan aqrar islahatlar və onun nəticələri.........................................................................................117
**27. Əşrəf Ələkbərov.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı həyata keçirilən islahatların məntiqi nəticəsidir.......................................................................................123
**28. Dilsuz Qasımov.** Aqrar sahənin inkişafında innovasiya mexanizminin rolu............................126
**29. Həsən Məmmədov**. Azərbaycanda innovasiya sistemlərinin inkişaf perspektivləri................130
**30. Həvva Adıgözəlova.** İnnovasiya fəaliyyətinin formalaşması və qiymətləndirilməsi...............133
**31. Rauf Rəhimov.** Nanotexnologiyaların kənd təsərrüfatında istifadəsi perspektivləri................140
**32. Məhsəti Əsgərova.** Naxçıvan Muxtar Respublikasında innovasiya siyasətinin müasir vəziyyəti.................................................................................................................145
**33. Kəmalə Təhməzbəyova.** Azərbaycanda vençur sahibkarlığının tətbiqi istiqamətləri...............151
**34. Elşən Pənahov.** Azərbaycanın regionlarının inkişaf etdirilməsində neft sektorunun rolu..............................................................................................................155
**35. İsmayıl Bağırov.** Vergi tənzimlənməsinin iqtisadi inkişafa və innovasiya siyasətinə təsiri.............................................................................................................160
**36. Elşən Nəsirov.** Naxçıvanda idxal-ixrac proseslərinin tənzimlənməsində yeni informasiya texnologiyaları.........................................................................................................165
**37. Rəsul Ələkbərov.** Naxçıvan Muxtar Respublikasının biznesində innovasiya fəaliyyətinin təşkili....................................................................................................169
**38. Mayisə Abbasova.** Naxçıvan Muxtar Respublikasında innovasiyalı iqtisadiyyatın perspektiv inkişaf istiqamətləri.................................................................................................173

## III B Ö L M Ə
## QLOBALLAŞAN İQTİSADİYYATDA MALİYYƏ VƏ TURİZM

**39. Ceyhun Mahmudov.** Covid-19 pandemiyası dövründə həyata keçirilən maliyyə siyasəti iqtisadi təhlükəsizliyin əsas ünsürü kimi.........................................................................................177
**40. Şahin Əliyev.** Bakı-Tbilisi-Qars və Naxçıvan dəmir yolu xəttinin mövcudluğunun siyasi və iqtisadi təsiri...........................................................................................................182
**41. Flora Kərimova.** Turizmin idarə olunmasında etik davranış qaydaları....................................185
**42. Bulqeyis Novruzova.** Dövlətin maliyyə siyasəti iqtisadi inkişafın mühüm amili kimi.............188
**43. Əli Cabbarov.** Qlobal pandemiya şəraitində daxili turizmin inkişaf məsələləri........................194
**44. Cavadxan Qasımov.** Naxçıvan Muxtar Respublikasında dayanıqlı maliyyə siyasətinin təşkili istehsal-iqtisadi münasibətlərin əsasıdır......................................................................198
**45. İradə Bağırova, Cavid Hüseynov.** Naxçıvan Muxtar Respublikasında innovasiyaların maliyyələşdirilməsi mexanizmi........................................................................................203
**46. Həbib Zeynalov.** Naxçıvan Muxtar Respublikasında kənd turizmin inkişafında nəqliyyat infrastrukturu amili..................................................................................................207
**47. Asif Abdullayev.** Naxçıvan Muxtar Respublikasındada mövcud turizm potensialı və ondan istifadənin bəzi məsələləri.......................................................................................211
**48. Mədinə Allahverdiyeva.** Müasir şəraitdə maliyyə vasitəçiliyi sisteminin təkmilləşdirilməsi....................................................................................................215
**49. Ülkər Həsənzadə.** Naxçıvan Muxtar Respublikasının təbii turizm ehtiyatları.........................218

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Samir Tarverdiyev |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Baş mühəndis-proqramçı: | Sahilə Abbasova |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı redaktor: | Sitarə Əlizadə |

Yığılmağa verilib: 12.II . 2021
Çapa imzalanıb: 19. II. 2021
Formatı: 60/90, 32/1, həcmi 14 ç/v
Sifariş № 148, sayı 100 nüsxə



**REDAKSİYANIN ÜNVANI:** *7000. Naxçıvan şəhəri,*
*Universitet şəhərciyi,*
*Naxçıvan Dövlət Universiteti,*
*Əsas bina, I mərtəbə,*
*“Qeyrət” nəşriyyatı*

**TELEFON**: (00994 036) 545-45-59
(00994 036) 544-08-61

**E-mail:** *elmi.hisse@mail.ru*